

Azərbaycan SSR Füzuli rayonu Horadiz kəndi "Rusya" kolxozuna əbədi istifadə üçün verilmiş torpağın planı.
Musabəyli kənd torpağı
Dəli çay
Təsrtək dəmyə əkin sahəsi
Dördçinar kəndi
Qozlu çay
Hüngütlü kəndi
Orta məktəb
Horadiz kəndi
Şorca dəmyəkin sahəsi
Quycaq kəndi Cəbrayıl rayonu
Burğa dəmyə əkin sahəsi
Füzuli Horadiz yolu
Qozlu çay
Nüzgar kəndi Cəbrayıl rayonu
Şərti suvarılan əkin sahəsi otlaqlar
Əhmədallar kənd torpağı
Zəngilan-Bakı yolu
Horadizin 650 hektar üzüm sahələri
Qaraxlar kəndi
Naxçıvan-Bakı dəmiryolu
Horadiz şəhəri
Əhmədallar kəndi

Ərşad Namazalı

H O R A D İ Z

SƏNİ

UNUTMADIM...

(K NC NƏ R)

”Müəllim” nəşriyyatı
Bakı – 2013

Redaktor: *Məhəmməd Məhərrəmov*

Ərşad Namazalı. HORADİZ, SƏNİ UNUTMADIM...
"Müəllim" nəşriyyatı, Bakı: 2012, 410 s.

Kitabda Füzuli rayonun Horadiz kəndinin toponomiyası haqqında bəhs edərək, onun yerləşdiyi relyefi, şəraiti, yeri-yurdu, dağı, dərələri, dəmyə torpaq sahələri, pambıq və üzüm sahələri haqda, sahəsi, abidələri, yaşayış məhəlləri, çayları, sərin kəhrizləri və bulaqları, məscidləri, məktəbləri, İmam Piri və ocaqları haqda, tanınmış və görkəmli elm xadimləri, seçilmiş deputatları, Sosialist Əməyi Qəhrəmanları və Qəhrəman Analar haqda, müstəqillik dövründə "Həccə", "Kərbala"-ya və "Məhşət"-ə ziyarətə gedənlər haqda məlumat vermişdir.

Müəllif Qarabağımızın və ətraf rayonların nankor erməni qoşunları tərəfindən işğalı, başımıza gətirilən ağrı-acılı müsibətlərdən xəbər verməklə bərabər, Horadiz kəndimizdən olan Qarabağ şəhidləri, girov düşənlər və əlillər haqda məlumatları toplayıb, geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab, həm də gələcək nəsillərə yer-yurd adlarının yaddaşdan silinməməsi, unudulmaması haqda bir töhvədir. Bu kitab müəllifin üçüncü kitabıdır.

N $\frac{2411144 - 2013}{9952 - 413}$

© Ə.Namazalı, 2012



ƏRŞAD NAMAZALI

Müəllif haqqında

Ərşad Namazalı (Ərsad Mösü oğlu Məhərrəmov) – 1940-cı il aprelin 21-də Horadiz kəndində mexanizator ailəsində anadan olmuşdur.

1960-66-cı illər Kür-Araz Su Tukuntisinin 9 saylı Tikinti Quraşdırma İdarəsində sürücü işləmişdir.

1966-2002-ci illər Bakı şəhər Nəqliyyat Departamentində sürücü, briqadir, Həmkarlar təşkilatı sədrinin müavini və Əmək Şurasının sədri vəzifələrində çalışmışdır.

Əmək fəaliyyati zamanı yüksək nəticələr əldə etdiyinə görə, 1978-ci ildə "Əmək Şöhrəti" ordeni təltif edilmiş, 1985-ci ildə SSRİ Dövlət Mükafatı laureatı adına layiq görülmüş, 1985-ci ildə "Əmək Veteranı" medalı ilə təltif edilib. X və XI – beşilliklərin "Əmək Zərbəçisi" döş nişanlarına və 1975-85-ci illər "Sosializm yarışının qalibi" döş nişanlarına layiq görülmüşdür.

Ərşad Mösü oğlu Məhərrəmovun briqadir kimi iş təcrübəsini işıqlandıran plakatlar, 1984-85-86-cı illərdə çap edilərək bütün nəqliyyat müəssisələrinə yayılmışdır.

Müxtəlif illərdə qabaqcıl əmək fəaliyyəti zamanı Azərbaycan Nəqliyyat Nazirliyi, Həmkarlar İttifaqı, Bakı şəhərı Nəqliyyat Departamentinin və eləcə də 2 saylı Avtobus parkının rəhbərliyi tərəfindən 20 dəfə fəxri fərmanlarla, 4 dəfə diplomlarla və pul mükafatlarına layiq görülmüşdür.

Azərbaycanda çıxan "Kommunist"," Vışka", "Bakinskiy raboçiy","Bakı", "Baku", "Xalq qəzeti", və "Magistral" qəzetlərində onun haqqında oçerklər, məqalələr yazılmışdır.

Bütün bunlardan əlavə Ərşad Namazalı ədəbi yaradıcıllıqla da məşğul olaraq "Namazalılar" (2005-ci il) və "Torpaq həsrəti" (2007-ci il) kitablarının müəllifidir.

2002-ci ildən əmək təqaüdçüsüdür.

Redaktor

Kitab haqqında rəy

Kiçik Qafqazın cənub-şərqində, dağlar ətəyində yerləşən, füsünkar təbiətli və soyuq bulaqları, kəhrizləri ilə məhşur olan Füzuli rayonunun Horadiz kəndi haqqında Ərşad Namazalının (Ərşad Mösü oğlu Məhərrəmov) yazdığı üçüncü kitabı "Horadiz, səni unutmadım"-ı oxuyarkən çox kövrəldim, eyni zamanda məmnun oldum. Kövrəlməyimin əsas səbəbi məlumdur, çünki uşaqlıq illərimdə boya-başa çatdığım, heç vaxt yaddaşımdan silinməyən, lakin əsirlikdə inildəyən Horadiz kəndimizin məhəllələri, əzizlərimin dəfn olduğu qəbirstanı, Qarabağ müharibəsində şəhid olanları və girov düşənləri yad etmək mənim üçün həddindən artıq ağırdır.

Ərşad Namazalı Horadiz kəndinin ərazisində olan ata-babalarımızın bizlərə gətirib çıxardığı yer adlarının, çayların, bulaqların, kəhrizlərin, dağ və təpələrin, dərə və düzlərin, tarla və bağların, çəmən və çöllərin, məscidlərin və İmam Pirinin, Ocaq və ziyarətgahların adlarını toplayaraq bizlərə çatdırmağı özünə vacib hesab etmişdir.

Müəllif ata-babalarımızın dilindən eşitdiyi Horadiz kəndinin tarixini, onun gözəlliklərini, yerləşdiyi ərazini və şəraitini, torpaqlarımızın məkanı və mövqeyini, bağlarını, sularını və dərələrini, tayfa və məhəllələrini, yer adlarını yerli-yerində yazması, onun müşahidə qabiliyyətinin, məntiqi təfəkkürünün inkişafında, özünü dərk etməsində, hadisə və proseslərdən düzgün əqli nəticə çıxarmasında mühüm rol oynayır.

O, oxuculara və həmkəndlilərinə kənd haqqında məlumatları bütün təfərrüatı ilə, sadə və aydın dildə çatdırılmasını təmin etmişdir.

Yüz illər bundan əvvəl deyilmiş yer adları bizim ağsaqqalların dilində müxtəlif dövrlərdə yaşamış, onların dilində işlənə-işlənə, qoruna-qoruna parlaq bir inciyə dönmüş, əsrlərin sərt sınaqlarından çıxmış, söz-söhbətlərində, şifahi bir şəkildə nəsildən-nəsilə keçərək, öz adını saxlayaraq bizlərə gəlib çıxmışdır.

Ərşad Namazalı, mən deyərdim ki, belə bir məsuliyyətli işin öhdəsindən çox məharət və bacarıqla gəlib. Bu kitabda o, Horadiz

kəndi haqqında məlumat xarakterli bilgilərlə bərabər, kəndimizin tanınmış akademikləri, professorları, alimləri, dəyərli ziyalıları, görkəmli şəxsiyyətləri ilə bərabər, Qarabağ müharibəsində şəhid olmuş və girov düşmüş, həm də əlil olan övladları haqqında oxucuara bir daha məlumatlar vermişdir.

Kəndin tarixi ilə bağlı olan bu kitabda ermənilərin işğalına qədər (3 sentyabr 1993-cü il) vaxtı ilə bu kənddə yaşamış tayfaların, nəsillərin, eləcə də kənd ilə bağlı dağ, dərə, düz, təpə, çay, qobu, bulaq, kəhriz və sairə adların mənsubiyyəti barədə izahlı şərhlər verməsi çox məqsədə uyğundur.

Müəllif Horadiz kəndinin toponimini toplayarkən, onun xüsusiyyətini, düzgün və dolğun məlumatlarını öyrənmək üçün müxtəlif insanlarla, ziyalılarla, ağsaqqallarla görüşüb və məsləhətləşmişdir. Çünki bu cür böyük, dəyərli və ulu insanların dilində, söhbətlərində, fikirlərində, bəzən tarixi təcrübənin sınağından çıxmış, ölçülü-biçili həqiqətlər də faydalı olur. Bir mənada onların gözünü keçmişimizə körpü olmaqla, tarixin bəzi dərin və qaranlıq səhifələrinə işıq saçmadadır.

Hər hansı bir coğrafi obyektə müxtəlif səbəblərdən müəyyən ad verilir; iqliminə, rənginə, relyefinə, xarici görünüşünə, bitki və heyvanat aləminə və sairəyə görə müəllif məhz bu adların düzgün izahını verməyə çalışmışdır.

Horadiz kəndinın toponimi və görkəmli şəxsləri haqqında yazmaq, seçmək və toplu halda oxucuya çatdırmaq xeyirxah iş olduğu kimi, həm də çətindir.

Bu iş müəllifdən dərin mənalı fikri tutmağı, ona lazımınca qiymət verməyi, elmin müxtəlif sahələrində görkəmli şəxsiyyətlərini tanış etməyi, səbr və təmkinlə axtarışlar aparmağı tələb edir.

Ərşad Namazalının yazdığı bu kitabı "Horadiz kəndinin ensiklopediyası" adlandırsaq heç də səhv etmərik. Mənim fikrimcə, kitabda daha böyük diqqəti cəlb edən ən mühüm cəhətlərdən biri kəndimizdə tarix boyu adlandırılan məhəllələr və orada yurd-yuva salıb yaşayan tayfalar barədə dolğun və düzgün məlumatların verilməsidir.

Mən tam əminəm ki, həmyerlimiz Ərşad Namazalının gərgin əməyi nəticəsində ərsəyə gətirilmiş bu kitab hər bir vətən həsrətində olan horadizlilərin "Stolüstü kitab"-ı olmaqla yanaşı, gələcək nəsillərə - bədnam qonşularımızın öz xarici havadarlarının birbaşa köməyilə xalqımızın başına gətirilən müsibətlər, əzəli Azərbaycan torpağı olan İrəvan, Zəngəzur, Göyçə, Basarkeçər, Dərbənd mahalını itirə-itirə, indidə Qarabağımızın ağır və çətin halına gəldiyimiz bu dövrdə toponimik araşdırma və tədqiqatların toplanıb öyrənil-məsi, çapı, toponimik lüğəti, eləcədə coğrafi terminlərin, lüğətinin tərtib edilməsi müəllifin qarşısında duran əsəs vacib məsələlərdəndir. Kitabın gələcək nəsillərimiz üçün əvəzedilməz vəsait kimi dəyərli mənbədir və torpaqlarımızın, həm də insanlarımızın başına gətirilən bu müsibətləri çatdırmaqda müstəsna əməyi vardır.

Ə.Namazalının yazdığı "Horadiz, səni unutmadım" kitabı əsasən dörd hissədən ibarətdir:

I – hissədə Horadiz kəndimizin tarixi, adının yaranması, iqtisadiyyatı və torpaqlarımızın itirilməsi haqda bəzi qaranlıq olan vacib hadisələri araşdırır və məlumat verilir.

II – hissədə Horadiz kəndimizin yer adları, çaylar, bulaqlar və kəhrizləri, dərələri, bağları, üzüm və taxıl əkin sahələri, tayfa və məhəllələri, İmam piri, ocaqlar və məscidlər, məktəblər, mədəniyyət və məişət binaları, kənd icra nümayəndəliyi və kənd idarə binaları, kənd xəstəxanası və ambulatoriya haqda məlumatlar yazılmaqla bərabər, onların harda yerləşdiyi haqda dəqiq xəbər verilir.

III – hissədə isə Horadiz kəndimizdən Qarabağ müharibəsi şəhidləri, girov düşənlər və əlillər, kəndimizin Sosialist Əməyi Qəhrəmanları, Azərbaycan SSR-in Ali Sovetinə müxtəlif illərdə seçilmiş deputatlar, kəndimizin Respublika, Füzuli rayonu və xarici dövlətlər səviyyəsində tanınmış şəxsləri, eyni zamanda

"Qəhrəman analar", həmçinin kəndimizdən " Həcc", "Kərbala" və "Məşhəti" ziyarətində olanlar haqda məlumatlar verilmişdir.

IV – hissədə isə Horadiz kəndimizin erməni işğalı zamanı 3 sentyabr 1993-cü ildə girovluqda qalmış evlər və onların sahibləri, hansı məhəllədə yerləşdiyi dəqiq verilmişdir.

Bütün bunları oxuduqca ümid edirəm ki, Ərşad Namazalının yazdığı bu kitab geniş oxucuların marağına səbəb olacaq və əminəm ki, həmyerliləri onu sevə-sevə oxuduqca hərə öz elini, yurdunu, evlərini və əsirlikdə qalan doğma Horadiz kəndimizdə keçirdiyi o əziz günlərini xatırlayacaq.

Bu kitab həm indiki nəsilə, həm də gələcək nəsillərə lazımınca bilgilər verəcək və dəyərli məlumatlar öyrədəcəkdir.

Belə hesab edirəm ki, həmyerlilərimiz bu kitabı böyük ruh yüksəkliyi ilə qəbul edəcək və ona sərf etdiyi vaxta heç vaxt təəssüflənməyəcəklər.

Əziz həmyerlilərim, inanıram ki, Sizi düşündürən müxtəlif suallara bu kitabda cavab tapacaqsınız.

İNŞALLAH!

Bəhlul Surxay oğlu Cəfərov
Azərbaycan Dövlət Pedoğoji Universitetinin
dosenti, coğrafiya elmiləri namizədi

Əziz oxucum

Ululardan bizə nə qalıbsa, onlar bizlərə əzizdir, toxunulmazdır. Bu yadigarlar qanı-qanımızdan, canı-canımızdan olanlara böyük sayğıdır, eyni zamanda tarixdən gələn səslər sevgi dolu bağlılıqdır.

Yer adları tariximizin yaddaş kitabıdır. Bu kitabın yarpaqlarında bir elin, bir oymağın keçmişi, kökü, sevinc dolu yaşantısı, günü-güzaranı yaşayır. Yer adlarını öyrəndikcə elimizin yüzilliklər arxasında qalmış keçmişi sanki göz önündə canlanır.

İnsanın tapdığı adlar, gördüyü, duyduğu aləmin hər məqamı onun üçün əziz və unudulmazdır.

Kəndimizdə yer adları ulularımızdan bizə qalan bir əmanətdir, onu qoruyub saxlamaq və onu yaşatmaq bizim hamımızın ən ümdə borcumuzdur.

Horadiz kəndini keçmişlə bağlayan və keçmişdən gələn yollarını işıqlandırmaqda yer-yurd adlarının əvəzi varmı? Ulu babalarımızın keçmişi, təkcə qədim yazarlarda, kitabələrdə, uca tikintilərdə qalmaqla bərabər, yaşayış məskənlərinin, çayların, bulaqların, kəhrizlərin, bağların, çəmənlərin, örüşlərin, dərələrin, yamacların, cığırların adında babalarımızın nəfəsi qalıb, nəsillərin təpəri qalıb, qanlı-qadalı illərin izi qalıb, ala gözlü, qara gözlü gözəllərin gözü qalıb, nağıllar qalıb, söz –söhbətləri qalıb yer adları ilə bağlı.

Ulularımızın, oğula, qıza ad verdiyi kimi, yaşadığımız yerə, çaylağına, bulağına, bağ-bağatına, bərlı-bərəkətli torpağına ad verərək yaşatmışlar.

İndi Horadiz kəndimizi mən ancaq yuxularımda görürəm:- ***...Göz işlədikcə yol uzanır. Ağappaq yol. Bu yola elə bil heç insan ayağı dəyməyib. Bu yol Horadizdən qopub harasa uzanır, uzaq bir məmləkətə gedir. Bu yolu indi görürəm ki, göylə yerin birləşdiyi, həmdəm olduğu bir məchulluğa uzanır. Bu yolla hey Horadizə gedirəm.***

Horadiz məni bağrına çəkdikcə özü uzaqda qalır, özü məndən uzaqlaşır. Ağlayıram, gözlərimdən yaş gəlmir, gülürəm, gülə bilmirəm. Heç yeriyə də bilmirəm. Gücüm də yoxdur...

Bir də görürəm ki, Horadizdə bir otağın içindəyəm. Bu ev elə bil məsciddir, ancaq yorğan-döşək də var. Taxçada qab-qacaq var. Bir tərəfdən samavarın səsi gəlir. Nənəqız nənəm də buradadır.

Döşəkçədə oturub təsbeh çevirir və məni görcək içini çəkib deyir:- Ay insafsızlar!.. Neçə illərdir ki, yolunuzu gözləyirik, heç bizim qəbrimizi ziyarətə gəlmirsiniz, ancaq siz hamınız qaçıb yurdumuzu boş qoymusunuz! Sonra bikef halda oğlu Fərzalı dayımı soruşur. Dalınca kiçik dayım Həsəni soruşur. Arxasınca ah çəkib qızları Səkinə və Şöhlət xalalarımı xəbər alır və axırda da nəvəsi kiçik qardaşım Əhədi soruşur. Ardınca heç kimi soruşmur. Deyir ay bala, sən hara, bura hara, necə gəlib bura çıxmısan? Əllərin niyə soyuqdur, ver əlini salım qoynuma qızdırım. Sən birinci sinifə gedəndə yolda donduğun vaxt olduğu kimi yadındamı? Lap donub barmaqların.

Üzümə baxıb deyir:-Sizlərdən olduqca çox narazıyıq, çünki bir quruca da olsa bizləri yad etmirsiniz. Ata-babalarınız, qohum-əqrabalarınız hamısı yanımdadır – nə vaxt qayıdacaqsınız yurdunuza, axı yolunuzu gözləyirik!..

Gözü yollarda qalan babalarımızın, nənələrimizin, atalarımızın, analarımızın, bacılarımızın və qardaşlarımızın ruhu – gözləyirsiniz, tezliklə gələrik gözləyin!.. Oğul, döyüşkən oğul gözləyirsiniz? Gözləyin! Toy gözləyirsiniz? Nəvə gözləyirsiniz? Gözləyin!

Gözləyin, görək bu dünyanın başımıza ələdiyi kül nə vaxt tükənəcək. Gözləyək görək ürəklər nə vaxt yumşalıb hərəkətə gələcək. Bu axıdılan qanlar nə vaxt kəsiləcək.

Torpaqlarimız üğrunda şəhid olan balalar, ruhunuz şad olsun!

Ruhunuz neyləsin? Torpaqlarımız neçə illərdir ki, düşmən əsirliyindədir, ancaq baxıb-baxıb, için-için təəssüf keçiririk, gözləyirik və səbr edirik.

Göyərçin uçmayan göylərindən, bül-bül ötməyən bağlarından, tüstü çıxmayan bacalarından, insan yaşamayan evlərindən, göz yaşı axıdan bulaq və kəhrizlərindən, azan səsi gəlməyən məscidlərindən, it hənirtisi gəlməyən, qoyun-quzu və inək mələşməsi gəlməyən – Horadizdən indi barıt iyi gəlir!..

Horadiz bağlarında həmişəlik payızdır. Ağaclar qış gəlməmiş saralıb-solub, yarpaqlar xəzəl olub yerə döşənib. Bir belə sükuta, bir belə ağrıya yarpaqmı dözər? Bir belə göz yaşına, bir belə adamların ah-naləsinə ağacmı dözər?

Dünyanın sirli-sehrli möcüzəsi çoxdur. Onlardan birincisi Allahın yaratdığı insandır. Dünyanın içində dünyadır insan. Hələ neçə-neçə yüzilliklər keçəcək, insan övladı neçə-neçə müəmmanın sirrini açacaq, ancaq öz sirrindən, sehrindən xəbərsiz qalacaq. Bunun özü də təbiidir.

Müəmmalar fövqündə durur bəşər övladı öz insanlığı ilə. İnsan dünyada yaşadıqca özünü kəşf edir. Çünki, ətrafdakı bütün hadisələr, başımıza gətirilən ağrı-acılar, doğma torpağımızdan köçürmələr, çoxlu itgilər və şəhidlər, bəzi müəmmalar ancaq öz təsdiqini insanda tapır.

Beləcə, insan daxili dünyası ilə ətrafda, ətraf aləm isə öz sirli göstərmələri ilə insanda yaşayır. Biz bu aləmə nə qədər yaxınıqsa, bir o qədər də uzağıq ondan. Bu görünməz, dilsiz "ünsiyyəti" bərpa etmək üçün bizdə möcüzəli dünyayla əlaqə var və həmişə də olub. Sadəcə özümüzü o yerə qoymamışıq, yaxına buraxmaq istəməmişik bu inamı. Amma qəlbimizdə bu inamı yaşatmışıq.

Deyilənlərin təsdiqini görəndə inanmışıq, söylənilənlər qarşımıza çıxanda inanmışıq. Lakin təsdiqində ehtiyatlanmışıq. Ehtiyatlanmışıq ki, millətpərəst deyərlər, fanatik damğası vurarlar.

Yadımdadır, rəhmətlik molla Oruc deyərdi ki, vaxt gələcək bizim bu etdiklərimiz, tikdiyimiz evlər, bəslədiyimiz bu bağlar, məscidlər, məktəblər, idarələr hamısı tar-mar olacaq!

Sən demə, deyilənlərin hamısı olacaq imiş. Ataların dediyi kimi "olacağa çarə yoxdur". Nədir bu olacaq? Bu kitabı oxusanız dəqiq məlumat alarsınız.

Müəllif

HORADİZİM

Mən yazdim ki, qoy itməsin,
Adı qalsın, hər bir kəsin.
İstər yerin, istər səsin,
Sorağıydı Horadizim!
Dayağıydı Horadizim!

***

Xatirəmdə qalan da var,
Silinən də, yanan da var.
Ayrılıqda qalan da var,
Hamısını Horadizim!
Deyəmmədim Horadizim!

***


Rəhmət deyib ölüsünə,
Baş əyirəm dirisinə.
Kövrəldikcə yanır sinə,
Qaldı darda Horadizim!
Yandı bağrım, Horadizim!

***

Sənə göy üzü qurbandır,
Göyün ulduzu qurbandır.
Ərşad de, quzu qurbandır,
İmam Pirə, Horadizim!
Kəndimizə Horadizim!

***

HORADİZ KƏNDİ HAQQINDA



Horadiz Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-sərq ətəklərində, Füzuli rayonu ərazisində Qozlu çayın sağ-sol sahillərində yerləşən tarixi bir kənddir.

Doğru deyirlər ki, ömür beşikdən başlayır. Geniş yolların kökü, xırda cığırlardan başlayır, deyənlər yanılmırlar. Hər birimiz kiçik evlərin astanasından Böyük Vətən dünyasına düşürük. Yollar bizi Böyük Dünyaya apardıqca, balaca "Vətən" dünyası unudulmur və heç bir vaxt yaddan çıxmır.

Bəli, doğulduğumuz ocağı duymadan, sevmədən, öyrənmədən Böyük Vətənimizi, yurdumuzu duya, sevə, öyrənə bilmərik.

Haralardasa Vətəndən, yaxşı yer olub-olmamasının Vətən sevgisinə qətiyyən dəxli yoxdur. Vətənin, xalqının, doğulduğu yurdun tarixini, keçmişini bilmək, öyrənmək hər bir Vətən övladı üçün həm borc, həm də şərəfdir.

Vətən də, millət də, dövlət də torpaqdan başlanır. Ağacın gücünü haradan aldığı məlumdur. İnsan və tarix araşdırılmalıdır, ən azı ona görə ki, onun kökü müxtəlif istiqamətlərə gedib çıxır. Hər şeyin aydınlaşması üçün "köklər"-ə baxmaq lazımdır.

Biz bir millət olaraq əgər yurdumuzun, torpaqlarımızın, vətənimizin tarixini yaxşı öyrənməsək, bilməsək onda gələcəkdə də başımıza çox faciələr, bəlalar gələ bilər. Bilməyəndə isə susuruq. Susanda da düşmənlərimiz üstümüzə ayaq açırlar, torpaqlarımıza sahib olurlar, vətəndaşlarımızı öldürürlər və əsir götürürlər, öz doğma evindən, obasından didərgin salırlar.

Bax elə bu səbəbdən hər birimiz tariximizi, yurdumuzun hər daşını, torpağını, yerini, məkanını mükəmməl öyrənməliyik və gələcək nəsilə çatdırmalıyıq!

Horadiz kəndimizin adının yaranması haqqında elmi əsaslarla müxtəlif rəvayətlər və yozmalar irəli sürürlər.

Mən qeyd etməliyəm ki, Araz çayının hər iki sahilində qonşu yaşayış məskənləri *"Aslandüz"* və *"Horadüz"*kəndləri var. Belə hesab edirəm ki, bunların daha yaxın oxşarlıqları var. Bunlar təqribən eyni vaxtda yarandıqları üçün ulularımız Araz çayının sağ dağ ətəyində yerləşdiyinə görə Aslandüz və nisbətən sol tərəf düzənlikdə yerləşdiyinə görə bizim kəndə Qaradüz adı vermişlər. *"qara"* sözünün (türk toponimində) *"böyük"* və *"düz"* sözü ilə birləşməsi *"Qaradüz"* adlanır, bu da tədricən asimlasiyaya uğrayaraq indiki *"Horadiz"* adının alındığı bildirilir.

Digər variantı aşağıdakı kimidir: - Horadiz kəndi faktiki olaraq Qozlu çayın güney və quzey təpəlikləri arasında yerləşdiyindən (təpəliklər arasında düz) yəni, *"Aradüz"* ilə tanınmış və sonradan Horadiz kimi adlandırılmışdır.

Ərəb tarixçilərin verdiyi məlumata görə XVI əsrin əvvəllərində Qarabağ ərazisində 3 yaşayış yerinin adı qeyd edilmişdir. Bunlardan Qozlu çay və Qozlu çay üstündə 2 yer Dizak və Həzzə yaşayış

məskəni qeyd edilmişdir. Sonralar Dizak – Hadrut kimi, Həzzə isə Horadiz kimi adlandırılmışdır. Bu fikirlərə əsasən Horadiz kəndinin qədimiliyinə şübhə yoxdur.

1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Dizaq(Hadrut) əyalətində olan kəndlər sırasında Horadis (Horadiz) kəndimizin adı qeyd edilmlşdir.

Qeyd:- *Dizaq qəsəbəsi 1939-cu ildən dəyişdirilərək Hadrut rayonu adlandırılmışdır. Oykonim İran dillərindəki ha(ara), du (iki) və rud(çay) komponetlərindən düzəlib, "iki çayın arası" mənasındadır.*

Məlumdur ki, xalqın, elin-obanın, kəndin tarixi kimi, sözün də tarixi var. Bu mənada düşünürəm ki, tarixi-toponimik araşdırmalar keçmiş və ötənlər haqqında olsada, keçmiş üçün yox, bu gün üçündür. Bu günü dərk etmək və sabahlara yol açmaq üçündür. Onu da unutmamalıyıq ki, həqiqətlər bütün kitablardan böyük və ucadır.

Bəzən elə olur ki, kiçik bir sübut, balaca bir dəlil, adi bir fakt xalqın tarixinin bütöv bir qaranlıq dövrünü işıqlandırır.

Aydındır ki, yazıya düşməyən adlar yavaş-yavaş tarix səhnəsindən silinir, itib-batır. Lakin yazıya düşən coğrafi adlar isə çox yaşayır və tarixdən silinmir.

Əvvəllər Horadiz kəndi haqqında bir neçə kitablarda XIX-əsrdə Qarabağın böyük kəndlərindən Horadiz olduğunu və bu ərazidə ən böyük bazar haqda yazmışlar.

XVI əsrə aid olan arxiv materiallarına görə indiki Horadiz kəndi ərazisində yaşayış məntəqəsi mövcud olmuşdur. Bunu arxeloji və etnoqrafik tədqiqatlar sübut edir. Son orta əsrlərə aid olan türk tarixi mənbələrində kəndin adı Horadis kimi göstərilmişdir.

Tədqiqatlar bunu da deməyə əsas verir ki, həmişə bu ərazilər oturaq əkinçi-maldar tayfalarına məxsus olmuşdur.

Bunlardan başqa 1919-cu ildə 139 yaşında vəfat etmiş Kərbəlayi Pirəli kişinin dediyinə görə 1739-40 cı illər İran hökmdarı Nadir Şah Qarabağa qoşun yeridərkən, kəndin əksər adamları Ərgü-nəş dağına qaçıb gizlənərək qurtulmuşlar.

Hər iki məlumatdan görünür ki, Horadiz kəndi XVI əsrdə böyük yaşayış məskəni kimi formalaşmışdır.

Yadigarlılar tayfasından olan ağsaqqal kişi Fərman Yadigarov deyirdi ki, "Mən və Həsən Molla Möhsün oğlu Məmmədov 1980-cı ildə Horadiz kəndinin indiki qəbirstanlığındakı baş daşı yazılarını öyrənərkən məlum oldu ki, həmin qəbirlərin 350-500 il tarixi var.

Ərəbistan Xilafəti tərəfindən İslam dininin qəbul edilməsi üçün 10-cu İmamımız Əli Riza Əbülhəsən ibn Musa Kazımı(826-881) yaxın sərqə 878-ci ildə göndərilmişdir. İmam Rza İranda 3 il ərzində bütün şəhərlərində olmuş, islam dininin yayılmasında və qəbul edilməsində onun böyük əməyi olmuşdur. Lakin onun əleyhdarları düşmənçiliklə onu 55 yaşında ikən zəhərləmişlər. Onun qəbri İranın Məşhədi şəhərindədir və ziyarətə çevrilmişdir. Ölümündən sonra İmam Rzanın ailəsini təqib edildiyinə görə bir neçə üzvü şimali Azərbaycanda sığınacaq tapmışlar. Onun ailə üzvülərinin qəbri Bakının Nardaran və Bilgəh kəndlərində ziyarətgaha çevrilmişdir. O cümlədən onun qız nəvəsi bizim Horadiz kəndimizdə rəhmətə gedib və indiki İmam Pirində dəfn edilib. Allah hamısına rəhmət eləsin! Bu fakt sübut edir ki, IX əsrdə Imam Piri yanında yaşayış var imiş.

Tarixi məlumatları əldə əsas tutaraq və Horadiz qəbirlərindəki daş kitabələri nəzərə alaraq, (*bax;* Horadiz kənd qəbirstanlığı) belə fikir yürütmək olar ki, Horadiz kəndinin yaranmasının 1100 illik yaşı var. Onu dəqiq arxeoloji qazıntıların cavabı verə bilər.

Bizim kənd əvvəllər "İmam Piri"- nin yanındakı yaşayış məskənində neçə yüz illər yaşadıqları məlum deyil. Ata-babalarımızın dediyinə görə təbii fəlakətdən sonra ulularımız "İmam Piri"- nin yanındakı öz yurdlarını tərk edərək, indiki Qarağan təpəyə gələrək özləri üçün yaşayış yeri seçmişlər. "İmam Piri"-nin yanından Qarağan təpəyə gələnlər: Yadigarlılar, Namazalılar, Toppuzlular və Təhmirazlılar olmuşlar.

Qalan tayfalar isə Beyləqana və Dəvəçi rayonlarına köçmüşlər.

1. Qeyd: - *1960-cı ildə bizim pambıq əkilən sahədə, Orucov Aslan kişinin briqadasında, Horadiz stansiyasından 2 km. məsafədə yerləşən böyük Kurqan (hündür tökmə torpaq) var idi. Kolxoz idarə heyyətinin qərarı ilə pambıq sahəsini genişləndirmək məqsədilə o kurqanı buldozer və traktorlarla dağıtdılar. Deyilənə görə orada*

qədimi kişi və qadın məzarları, qiymətli əşyalar, iri saxsı qablar, küplər, döyüş alətləri tapılsada onları araşdırmaq üçün Elmlər Akademiyasına verməyiblər, əksinə sındırıb dağıdıblar. O vaxt həmən kurqandan qədimi silah aləti olan 80 sm. qılıncı və 30 sm. uzunluğu olan xəncəri qəlibə (keçəyə) bükülmüş halda atam bizim evə gətirmişdi. silahlar salamat olsa da dəstəkləri çürümüşdü.

2. Həmyerlimiz Vəli Mehdiyev yazdığı *"Yaddaş"* kitabında qeyd edir ki, - *"Mənim yadımdadır 1960-ci ildə Horadiz kəndimizdə yeni orta məktəb tikintisində bünövrə qazıntısı zamanı, xeyli tarixdən xəbər verən əşyalar tapılmışdı. Bir neçə xırdalı-böyüklü küplər, qab-qacaq əşyaları aşkarlanmışdı. Məndə o qazıntıdan tapılmış 8-10 sm ölçüdə metaldan hazırlanmış maral barelyefi var. Horadiz kənd ərazisində tapılan küp qəbirlər və dulusçuluq sənət əsərlərin bir neçə minilliyə getdiyi sübutu deyilmi?"*.

Bütün bu tapılmış əşyaları mütəxəssislər araşdırsaydılar kəndimizin tarixini daha qədimə aparıb çıxarardılar.

Bax belə olub həmişə, biz öz tariximizə laqeydik, ancaq bizim düşmənlərimiz gətirilib bizim torpaqlara köçürülərək yaşayıblar, qapılarımızda muzdlu işləyərək çörək haqqı qazanırdılar, bəziləri isə bənna kimi çalışırdılar. Sonra da istədiyi yerdə bir daş və ya qeyri əşyalar basdırırdılar. Bir neçə ildən sonra çıxarıb deyirlər ki, bu torpaqlarda ermənilər yaşayıbdır.

1978-ci ildə Dağlıq Qarabağda "ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi"(1828) şərəfinə abidə kompleksi ucaltdılar, eləcə də bizim halal torpaqlarımıza sahib oldular, bizlər isə qonaqpərvərliyimizi yüksək tutub onları qəbul etdik. Özlərini bu yerlərin qədim əhalisi kimi təqdim edən ermənilər , 1989-cu ildə bu abidəni sübut olmasın deyə özləridə dağıtdılar.

Başımıza gətirilən müsibətlər bizləri ayıltmır ki, ayıltmır! Yaxşı yadımdadır 1950-54–cü illər bizim kənddə mənfur erməni millətindən olan Rizbar adlı (yeganə nümunə) dəmirçi işləyirdi. Kənddə onlarla ali təhsilli, bacarıqlı, işgüzar, qabaqcıl kolxozçular ola-ola, Rizbara Horadiz kəndində ilk partiya təşkilatının katibi vəzifəsini həvalə etmişdilər. Bəli, bizlərə - dostluq, qardaşlıq, yoldaşlıq, mehri-

bançılıq, sülhsevərlik, həmrəylik idealogiyası siyasətini yeridirdilər və biz məktəblilərə təkrar-təkrar oxutdurardılar. Ancaq erməni nankorları, "daşnakçılar"-ı bizim torpaqların hesabına, öz torpaqlarını genişləndirib "Böyük Ermənistan" yaratmaq xülyasında idilər.

Qeyd: - "Mən 1960-63-cü illər əsgəri borcumu vermək üçün hərbi xidmətimin bir hissəsini Yerəvanda xidmət etmişəm. Orda biz dükana girib lazımi ərzaq almaq istədikdə, erməni qızları ermənicə danışmasaq heç bir əşya verməzdilər. Halbuki, o dövrlərdə Bakı şəhərində rusca danışmayana savadsız və ya təhqiramiz söz deyərək bizi alçaldırdılar. 1961-ci ildə Yerevanda hərbi əsgəri sürücüləri avtomobillə məhsul yığımına kəndlərə köməyə göndərirdilər. Mən isə Oktamberyan rayonu Verin-Talin kəndinə təhkim olunmuşdum. Kolxoz sahələrindən günəbaxan, kələm, kartof, və ərik daşımaqda onlara kömək edirdim. Bir axşam kolxoz sədri məni də kənd klubuna dəvət etdi. O vaxt həmkəndliləri Moskvanin Lomonosov adına Universitetin professoru Q. Dallakyan qonaq gəlib ki, öz kəndliləri ilə görüş keçirsin. O görüşdə Dallakyan deyirdi: "Ey mənim millətim, xalqım, biz ulularımızın tutduğu yolla getməliyik ki, torpaqlarımızı genişləndirməkdə davam edək. Mən doğma kəndimə gəlmişəm ki, xalqımın qarşısında öz borcumu verim. Belə ki, mən bu il onillik məktəbi qurtaranlardan 5 oğlan və 5 qızları seçib aparacağam. Moskvada onları öz hesabıma oxutduracağam. Ali təhsili başa vurandan sonra işlə təmin etdirəcəyəm. Qoy onlar böyük vəzifə sahiblərinin qeyri millətdən olan oğlanları və qızları ilə evlənsinlər, çoxalsınlar, artsınlar, vəzifə sahibi olsunlar, özlərinə dost-tanış, tərəfdar yığsınlar ki, hər yerdə sözümüz keçsin. Əzizlərim onu da sizə xatırladıram ki, biz türk düşmənlərimizə qarşı çox amansız və barışmaz olmalıyıq. Bizlər həmişə öz uşaqlarımıza dönə-dönə türklərin bizə qatı düşmən olduqlarını xatırlatmalıyıq".

Doğrusu, mən çox məyus oldum və iclası tərk etdim. Hamı mənə baxırdı, demə onlar mənim türk olduğumu bilirmiş və qapı ağzında bir qoca erməni qadını məni saxlayaraq soruşdu: – turkes?" Mən cavab vermədikdə, o iki barmağını gözümə soxmaq istədi, mən geri çəkildim. Qadın isə dedi: "Sənin qanını içsəm, gözüm doymaz və

ürəyim soyumaz". Kənara çəkilib ordan birbaş hərbi hissəyə gəlib öz etirazımı bildirdim və bir daha belə millətpərəst kəndə getməyəcəyimi qəti bildirdim".

Əziz oxucu! Siz indi deyin bizim kəndimizdən olan hansı professorlar və ya hansı imkanlı şəxslər nə vaxt bizim doğma kəndimizə gəlib kənd camaatı ilə belə görüş keçirib? Yaxud da hansı imkansıza kömək edib, onu aparıb oxutdurub və himayədarlıq edib?

Mən Horadizliyəm deməklə hər kəs bu adı qazana bilməz. Horadizli adını o adam qazana bilər ki, kəndi üçün, kənd sakinləri üçün məscid, məktəb, yol, körpü tikdirsin, birinə yardım edib oxutdursun, birinin əlini çörəyə çatdırsın, birinin həyat tərzini yaxşılaşdırsın, bax onda savab qazanmış olar və Horadizliyəm adını daşımağa əsl layiqli bir insan olar.

Horadiz kəndinaə neçə-neçə əsrlər bundan qabaq insanlar buranı özlərinə yurd yeri seçərək yaşamış və çoxalmışlar. Bu yerlərdə münbit torpaq və bol sular olduğuna görə ulu babalarımız burada məskən salaraq əkib becərib təsərrüfatla və heyvandarlıqla məşğul olmuşlar. İşğala qədər kəndimizdə 10 bulaq, 9 kəhriz və 4 su artezian quyuları kənd camaatını su ilə təmin edirdi.

Ağsaqqallarımızın dediklərinə görə İmam Pirindəki təbii fəlakətdən sonra, ordakı tayfaların bəziləri başqa yerə köç etsə də, ancaq Horadiz kəndinin indiki ərazisində ilk məskən salanlar Yadigarlılar, Namazalılar, Toppuzlular və Təhmirazlılar tayfaları olmuşlar.

Araz çayının sol sahilində, Qozlu çayı boyunca düzənlikdə əkin torpaqlarımız olsada, Horadiz kəndinin nisbətən ondan hündürlükdə təpəliklər arasında yerləşir. Ərgünəş dağından mənbəyini götürən Qozlu çay kəndimizi iki hissəyə bölərək axıb Araz çayına tökülür.

Hər dəfə yaz və payız aylarında leysan yağışlar yağanda sel gələrək, çay qırağı evlərə və həyətyanı bağlara ziyanlıqlar vururdu. Qozlu çay ona görə deyirlər ki, çayın ətrafında çoxlu qoz ağacları var idi. Ona görə sel gələndə özü ilə qoz da gətirərdi.

İkinci çay kəndimizdə nisbətən kiçik olan Dəli çaydır. Bu çay adından da bəllidir və çox şıltaqlıqlar edərək oktyabrın 27-i 1957-ci ildə 11 sakinin faciəli ölümünə səbəb olub və kənd camaatına böyük

ziyanlıqlar vurub. (Bu haqda geniş məlumat "Dəli çay" toponimində veriləcək).

Hər kəs üçün doğulub boya-başa çatdığı doğma kəndinin gözəllikləri əvəzolunmaz bir məkandır ki, heç vaxt yaddan çıxmır və unudulmur. Ələlxüsus indiki dövrdə, məcburi köçkünlük həyatı sürdüyümüz bir zamanda, onun gözəlliyi və onda keçirdiyimiz əziz, xoş, ən şirin xatirəli günlərimiz bizlər üçün nə qədər xoşdursa da, indi ondan uzaqlarda olduğumuza görə, qəribçilik çəkə-çəkə nə qədər acı, çətin, ağır və dözülməzdir..

Horadiz kəndi şimaldan Füzuli şəhərindən 18 km, şimali-qərbdən Musabəyli kəndindən 3 km, qərbdən Cəbrayıl rayonun Nüzgar kəndindən 3 km, cənub qərbdən həmin rayonun Cocuq Mərcanlı kəndindən 10 km, cənub-şərqdən Horadiz şəhərindən 12 km və şimalı-şərqdən Əbdürrəhmanlı kəndindən 5 km məsafədə yerləşir.

Kəndimiz Qozlu çay ətrafında Kiçik Qafqaz dağlarının ətəklərindəki sıra təpələrin arasında yerləşir. Dəniz səviyyəsindən 250-300 metr yüksəklikdədir. Horadiz qəsəbəsindən – Füzuli şəhərinə gedən şosse yol kəndimizi tən ikiyə bölür.

Horadiz kəndi əhalisinə və torpaq sahəsinə görə Füzuli rayonunda ən iri kəndlərdən biridir. Horadiz kəndində 1000-ə qədər evləri və 4000 - dən çox əhalisi var. Kəndin ümumi sahəsi 5641 hektardır, O cümlədən: 1000 hektarı suvarılan, 300 hektarı şərti suvarılan, 1500 hektarı dəmyə taxıl və qlanları otlaq sahələridir.

Horadiz kəndimizdə 1000-dən çox şagirdi və 82-ə qədər müəllim kollektivi olan 1 orta və 1 natamam məktəb binası, 2 kitabxana, 25 çarpayılıq xəstəxanası və ambulatoriya binaları, doğum evi, 100 nəfərə xidmət edən uşaq bağçası, 2 apteki, 400 nəfərlik mədəniyyət sarayı, 200 nəfərlik yeri olan klubu, kino qurğusu olan binaları, XIX əsrdə şərq memarlıq üslubunda tikilmiş 2 məscid, 2 məişət evi, 2 dəyirmanı, hamamı, 1000 baş qaramal saxlamaq üçün mədəni tövlə, avtomaşınlar və traktorlar üçün qaraj, qoyunları saxlamaq üçün 2-ədəd güney və quzey yataqları, 2-ədəd toyuq ferması – Gölbağda və Burğada, 10-dan çox taxıl və qeyri ərzaqlar üçün, həm də maşın-traktor ehtiyyat hissələri üçün anbarları vardı.

Kəndimizdən 2 km aşağıda Qozlu çayın sağ sahilində olan hündür təpənin üstündə kəndimizin və ətraf rayonların əhalisinin ziyarətgahı sayılan "İMAM PİRİ"-nin binası yerləşir.

Böyük Vətən Müharibəsində 1941-45-ci illər həlak olanların şərəfinə Horadiz kənd Mədəniyyət sarayının qarşısında ucaldılmış abidə kompleksi 1975-ci ildə Böyük Qələbənin 30 illiyi münasibətilə açılmışdır.

Qarabağ Müharibəsi dövründə 1991-ci ildə Dövlət nümayəndələrindən ibarət olan Mİ-8 vertolyotu erməni qəsbkarları tərəfindən xaincəsinə vurulmuş və 32 nəfər şəhid olanların arasında bizim həmyerlimiz – Meliorasiya və Su Təsərrüfatı Nazirinin birinci müavini Qurban Hüseyn oğlu Namazalıyevin xatirəsini əbədiləşdirmək üçün onun şərəfinə 1992-ci ildə Mədəniyyət sarayının və 1993- cü ildə Horadiz kənd orta məktəbin qarşısında ucaldılmış büstü qoyulmuşdur. Bundan əlavə Horadiz kolxozuna və Horadiz orta məktəbinə Qurban Namazalıyevin adı verilmişdir.

Horadiz kəndində park, stadion meydançası, 6 mağaza, 4 çayxana-bufetlərdə 2 restoran, 2 kababxanası kənd adamlarının xidmətində olmuşdur.

Yaşayış məntəqəsinin ərazisinində aşağıdakı bulaq və kəhrizlər kənd əhalisinin həyətyanı bağlarını və kolxoz bağını su ilə təmin edirdi: - Gölbağ bulağı, Burğa bulağı, İmam bulağı, Qurdlu bulağı, Teşnək bulağı, Babınovu bulağı, Sızqa bulağı, Mərcan bulağı, İbə bulağı, Kazımlılar bulağı və Namazalı kəhrizi, Xan kəhrizi, Güney kəhrizi, Təpə kəhrizi, Dördçinar kəhrizi, Muxtar kəhrizi, Yenicə (Yııca) kəhrizi, Qozdibi kəhrizi və Rzalılar kəhrizlərinin sularından istifadə olunurdu.

Horadiz kəndi ərazisində: - Abdulkərim dərəsi, "Ağıl" dərəsi, Alı öküz dərəsi, Aslan dərəsi, Bəyalı dərəsi, Burğa dərəsi, Calal dərəsi, Çinar dərəsi, Fərəcanlı dərəsi, Gölbağ dərəsi, Hacı Novruz dərəsi, Hacı Rüstəm dərəsi, Hüngütlü dərəsi, Xırman dərəsi, İlxı dərəsi, İmam dərəsi, Kardaş, Kərbala Babaş dərəsi, Qarağan təpə, Qaratikanlı dərə, Qonaqgörməz, Dərə ağzı, Qönçə dərəsi, Quşoturan, Quşgirməz, Laləli dərə, Lələ düzü, Ocaq tirəsi, Orta körpü, Rus qəbri, Savzatı (Şiş) dağı, Seyrək dərə, Süleyman calaxlığı, Şahverən-

lər dərəsi, Şorca dərəsi, Taxta körpü, Teşnək dərəsi, Tutu kələyi yeri, Yel ocağı, Yelli gədik, Yovsunlu dərə, Zaqun dərəsi, Tək ağac, Əsəd ocağı, Uzun dərə, Mədinə yalı, Tək gər, Araz arxı, Dik arx, Hasan gölü, Hasanlı arxı, Güney yataq yeri, Quzey yataq yeri, Gərvişli bağ, Çəltik təhnəsi, Dəyirman boynu, Dördçinar bağı, Dördçinar güneyi, Əcəb nənə bağ yeri, Ərikli bağ, Əziz kişinin bərəsi, İmam bağı, İmam yalı, Kolxoz bağı, Molla yeri, Bazar yeri, Kənd üzüm sahələri və sairə kimi yer adları qeydə alınmışdır.

Horadiz kəndində aşağıdakı tayfalar yaşayırdılar: Yadigarlılar, Hacı Rüstəmlilər, Hacı Novruzlular, Namazalalılar, Toppuzlular, Ağalılar, Abışdılar, İbişlilər, Fərzalı uşağı, Dəlləklilər, Şahverənlilər, Əmirqulular, İmanlılar, Rzalılar, Kazımlılar, Nəcəflilər, Mehdi uşağı, Kərbəlayilər, Kərbəla İsmayıllılar, Allaclılar, Mirzə Muradlılar, Məşədi Hümbətlilər, Hacı Ağa uşağı, Təhmirazlılar, Məşədi Hüseynlilər, Qurbanlılar və sairələr.

Kəndimizdə olan məhəlləri – Rzalılar, Namazalılar, Abbasbəylilər, Ağalılar, Kərbəla İsmayıllılar, Fərzalı uşağı, Zaqun dərə, Şahverənlilər, Hacı Novruzlular, Necəflilər, Hacı Rüstəmlilər, Saqqızlı, Güney kəhriz, Aralıq yol, Əmirqulular, Qarağan təpə, Təpə kəhriz, Kazımlılar, Orta kənd, Güney, kənd Dullar məhəlləsi, Qurdlu bulaq, Molla yeri, Məktəb ətrafı, Təzə məhəllə, Orta kənd, Orta Güney məhəlləri, Dördçinar kəndi və Hüngütlü kəndi vardır.

Horadiz kəndindən müxtəlif vaxtlarda xalqımızın ictimai və siyasi fəaliyyətlərində çalışan görkəmli şəxslər olmuşdur.

Ümumiyyətlə Azərbaycan Ensiklopediyasında tariximizə, mədəniyyətimizə, elmimizə, kənd təsərrüfatımıza həsr olunmuş fundamental monoqrafiyalarda, ayrı-ayrı tədqiqatçıların araşdırmalarında Horadizdən dönə-dönə bəhs olunmuşdur, onun və onun yetişdirdiyi dəyərli insanlar haqqında müəyyən yadda qalan xoş və ləyaqətli fikirlər söyləmişlər.

Kəndimizin yetişdirdiyi Sosialist Əməyi Qəhrəmanları:- Hamayıl Əhmədova, Mösü Məhərrəmov olmuşdur. Azərbaycan SSR Ali Sovetinin deputatları: Cəlil Fərəcov, Suruş Fərhadova, Məhəmməd Xələfov, Zeynəb Əliyeva və Qurban Namazalıyev bu kəndin seçilmiş qabaqcıl və tanınmış nümayəndələridir.

Tarixən Horadiz kəndi mühitində böyümüş və tərbiyə almış, təhsil alaraq tanınmış ziyalılar, ictimai-siyasi və hərbi xidmətlərdə, müxtəlif ölkələrdə təhsilə, elmə yiyələnmiş və Azərbaycanın ictimai-siyasi, mədəni həyatında, dövlətçiliyimizin inkişafında mühüm rol oynamışlar.

Bizim fəxrimiz olan: Hüseyn Namazalıyev –Avroasiya Beynəlxalq Akademiyanın Fəxri üzvü və Əli Nuruyev – Azərbaycan Milli Akademiyasının müxbir üzvü; professorlardan:- Zakir Bağirov, Abbas Abbasov, Allahverən Cəbrayılov, Əli Cəfərov, Arif Cəfərov, Mahmud Eyvazov, Cəbrayıl Xələfov; alimlərimiz – Tariyel Ağayev, Bəhlul Cəfərov, Azər Cəfərov, Elman Cəfərov, Haqverdi Cəfərov, Füruzə Cəfərova, Sədaqət Cəfərova, Mürşüd Əmirov, Sabir Əmirov, Hüseyn Hüseynov, Əşrəf Xələfov, Fehruz Xələfov, Kərim Xələfov, Vahid Xələfov, Qadir Quluyev, Gültəkin Quluyeva, İsmayıl Mehdiyev, Nəbi Mehdiyev, Gülsurə Mehdiyeva, Əkbər Namazalıyev, Teyyub Şükürov, Əsəd Yadigarov və Novruz Novruzov tanınmış ziyalılarımızdır.

Azərbaycan Xalq artisti, görkəmli muğam ustası və əvəzedilməz xanəndə - Seyid Şuşinski, Əməkdar İncəsənət xadimi, bəstəkar – Əfsər Cavanşirov, Mədəniyyət Naziri – Zakir Bağırov, keçmiş Müdafiə Naziri – Tacəddin Mehdiyev, keçmiş Meliorasiya və Su Təsərrüfatı Nazirinin birinci müavini – Qurban Namazalıyev, Keçmiş Dövlət Təhlükəsizliyi Nazirliyin məsul əməkdaşı – Mayor Fərzalı Namazalıyev, tanınmış Müdafiə Nazirinin hərbi həkimi – polkovnik Calal Əmirov və İsmayıl Əmirov qardaşları, hərbi həkim – podpolkovnik Həsən Namazalıyev, hərbi həkim – polkovnik leytenant Məhəmməd Məhərrəmov, tanınmış rəssam – Kərim Quluyev, Azərbaycan Əməkdar müəllimləri – Əliş Quluyev və Xanlar Hüseynov eləcə də neçə-neçə görkəmli şəxslərimizdir.

Hal-hazırda Horadizin işğalından(1993-cü il 3 sentyar) neçə illlər keçir, kim bilir bu faciədən hələ neçə illər keçəcək, biz dəqiq bilə bilmərik, onu Tanrı göstərər. Deməli, biz yaşlı sakinlər özümüzdən sonra bir iz qoymalıyıq ki, gələcək nəsillər kəndə qayıdanda, öz doğma torpaqlarımızın yer adlarını, onun harada yerləşdiyini bilsinlər. Əks təqdirdə obalarımız yaddan çıxıb unudulacaq.

Toponimlər xalqın keçmişini, dilini və təfəkkürünü özündə əks etdirdiyi üçün o, xalqın dilinin, tarixinin, coğrafiyasının öyrənilməsində bir əsas mənbə rolunu oynayır. Mənə belə gəlir ki, hər bir toponim dünən ilə bu günümüzü, keçmişimizlə gələcəyimizi birləşdirən bir körpüdür. Bu körpünü qorumaq isə hər birimizin müqəddəs və ən ümdə borcudur.

Bu yerdə cavan şair həmyerlimiz Nazim Abbas oğlu Abbasovun "Hey baxıram yollara" kitabından bir şeri yada salmaq yerinə düşərdi:

BİZ NECƏ DÖZÜRÜK BU ACI DƏRDƏ

Bir milyon qaçqınımız var, ey Vətən,
Bunu bizə irad tutur hər yetən.
Minlərlə əsir, şikəst, ölən, itən,
Qız-gəlini yağı saxlayır əldə,
Biz necə dözürük, bu acı dərdə?

***

Bu dərdi kimsəylə biz bölüşmürük,
Öləndə də o torpaqda ölmürük.
İl olur ki, dost- tanış görmürük,
Görəndə də, ya xeyirdə, ya şərdə,
Biz necə dözürük, bu acı dərdə?

***

Bir-birinə sillə dünən vuranlar,
Bu milləti acı dillə vuranlar.
Şuşa getsə, başa güllə vuranlar,
Çəkdilər bu işin üstündən pərdə,
Biz necə dözürük, bu acı dərdə?

***

Anlaya bilməsək bir-birimizi,
Kim başa düşəcək bu dərdimizi?
İtirdik ən əziz yurd yerimizi.
Bəs nə qazandıq, nə qaldı əldə?
Biz necə dözürük, bu acı dərdə?

***

Xocalı bir gündə boyandı qana,
Qəsd oldu yüzlərlə günahsız cana.
Sağalmaz yaradır Azərbaycana,
Zülm edilərmi xalqa bu qədər də?
Biz necə dözürük bu acı dərdə?

***

Bir qarış torpağı belə satmayaq,
Daha yas saxlayıb qəmə batmayaq.
Ayılaq hamımız, gəlin yatmayaq,
Atılaq döüüşə, ağa, nökər də,
Biz necə dözürük, bu acı dərdə?

***

KƏNDİMİZİN İQTİSADİYYATI

Çox qabaqlardan yazarların qeyd etdiyinə görə Horadiz kəndi varlı-dövlətli, torpaqlarımız isə, olduqca bərəkətli və məhsuldar olub. XIX əsrdə Horadiz kəndi Qarabağ xanlığının ən böyük kəndlərindən biri olmuşdur. Bu haqda Azərbaycanın Xalq yazıçısı Əli Vəliyev özünün "Budağın xatirələri" kitabında geniş yazmışdır. Kəndimiz Araz çayının yaxınlığında yerləşdiyindən Qarabağdan-İrana və İrandan-Qarabağa gedən tacirlər öz mallarını bizim kəndin bazarında satarmışlar. Burada hətta, qaçaqmalçılıqla gətirilən malları da müştərilərə verərdilər. Ətraf kəndlərin də adamları bura bazara gələr, öz məhsullarını sataraq əvəzində özləri üçün də alver edərdilər. Bu böyük bazar İran və Qarabağ sərhədində olduğundan burada ən rəvac mallar satılardı. Bazara gələn müştərilər Qarabağ xanlıq cinsindən olan atları, dəvə, öküz, inək, keçi, qoyun, ev quşları, Naxçıvan duzu, Qarabağ xalçaları, ərzaq malları, meyvə və meyvə quruları, kişmiş, iran xurması, darçın, zəfəran, zəncəfil, sarı kök, mixək, hil, parçalar, ayaqqabılar, çarıqlar, başmaqlar, çit, arşin malları, habelə digər mallar da satardılar.

Bizim kəndin adamları həmişə oturaq həyat sürərək maldarlıqla və qoyunçuluqla, həmçinin də taxılçılıq və tərəvəzçiliklə məşğul olmuşlar. XVIII-əsrdə isə pambıq əkib becərməyə başlamışlar. Bütün işləri əl ilə köhnə kustar üsulu ilə görərdilər. Bu isə olduqca çətin və ağır zəhmət tələb edirdi. Hər il aprel ayının ortalarında əkinçilər öküzlərlə xoruzun birinci banı sahələrə gələrək xışla (kotanla) yeri şumlayardılar, sonra əl ilə hər 30 sm-dən iki-iki, üç-üç pambıq çiyidi düz bir cərgə ilə basdırardılar torpağa və işi qurtaran kimi su verərdilər. Pambıq sahəsini vaxtlı-vaxtında alaqdan təmizlər, kərki ilə pambıq bitgisinin dibini boşaldardılar. Pambıq qozaları açıldıqdan dərhal məhsulu toplayardılar. Yığımı isə çox ağır zəhmət tələb edirdi, çünki qızmar günəş altında əyilərək bütün gün ərzində əl ilə pambıq yığmaq nə qədər çətindir, bunu yalnız orda işləyənlər düzgün qiymətləndirərdi.

XIX əsrin ortalarında baramaçılıqla məşğul olmağa başlamışlar.

Bu məqsədlə də kəndimizdən aşağı su tutan yerlərdə calaq tut

ağacları əkmişlər. Baramaçılıq da kənd zəhmətkeşlərin arasında mühüm yer tuturdu. Baramaçıların əməyi çox əziyyətli, çətin, ən məsuliyyətli bir peşə olurdu. Təqribən hər il may ayının əvvəlləri barama qurdu əhaliyə paylanardı və 45 gün ərzəndə tut yarpağı ilə bəslənilərdi, barama qurdları yetişdirdikdən sonra tənəkələrin (qarğudan toxunma ilə əldə olunurdu) üstünə çox budaqlı xırda şaxlar və türpəng bitgisi düzərdilər ki, barama qurdları o şaxların və budaqların üzərinə çıxaraq barama sarıyardılar.

Tənəkəçilər baramaları üç növə seçərək onları səbətlərə yığar, dövlətə təhvil verib xeyli miqdarda mənfəət qazanırdılar.

Bundan əlavə kənd əhalisi qoyunçuluqla da yaxından məşğul olmuşlar. Qoyunçuluq olduqca sərfəlidir, belə ki, ərzaq kimi insanların tələbatını ödəyir, həm də, yunu qırxılaraq ondan geyim paltarları hazırlamaqla bərabər, iplik əyirərək xalça, palaz, çuval, kilim, xurcun və heybə toxuyaraq istifadə edirdilər.

Mənim yaxşı yadımdadır 1940-50-ci illər demək olar ki, əksər evlərdə xalça toxumaq üçün hana qurulardı. Əvvəlcə iplik yun sapları cürbə-cür ağac qabığı, otlardan xüsusi qazanlarda qaynadıb rəng alıb boyayardılar. Hazır olandan sonra hana qurğusunu quraşdırıb başlayardılar xalça toxumağa. Hana dəzğahının arxasında 4 qadın əllərində xalça toxumaq üçün xüsusı daraq, kırki, həvə dəstə, qayçı və lazımi rəngdə yun ipləri alıb işə başlardılar. O, qadınlar xalça toxunan zamanı özləri əzbərdən və yaxud da başqa toxunmuş xalçalara baxa-baxa öz lazımi ilmələri düyərək qayçı ilə kəsərdilər. Hana arxasında qadınların oxumasını da görmüşəm.

Xalçaçılıq sənəti bizim kənddə lap qədimdən inkişaf etdirilmişdir. Buna sübut üçün XVIII əsrdə Horadiz kəndində toxunmuş "Buynuz" adı altinda olan iki xalça hazırda Gəncə şəhərinin, Şah Abbas məscidində saxlanılır. (Bu haqda "Buynuz" xalçası haqda ətraflı məlumala tanış ola biləcəksiniz).

1892-ci ildə Qafqaz canişinliyi əhalinin dəqiq siyahısini aparmış, Horadiz kənd dairəsində 100% azərbaycanlılar yaşayırdılar.

Horadiz kəndi: – 464 kişi + 384 qadın = 848 nəfər,

Böyük Bəhmənli kəndi – 728 nəfər, Zərgər kəndi – 608 nəfər, Kərimbəyli kəndi – 666 nəfər, Əbdürrəhmanlı kəndi – 578 nəfər,

Qarakollu kəndi – 529 nəfər, Qaraxanbəyli kəndi – 476 nəfər, Qacar kəndi – 407 nəfər, Qarğabazar kəndi – 361 nəfər və sairə. Buda onu göstərir ki, o dövrdə Horadiz kəndi əhalisinə görə ən böyük yaşayış məskəni olmuşdur.

KƏNDİMİZİN ƏSAS GÖSTƏRİCİLƏRİ:

- Bakı şəhərindən – Horadiz kəndinə qədər- - - - 320 km-dir;
-Füzuli şəhərindən –Horadiz kəndinə qədər- - - - 18 km-dir;
-Horadiz qəsəbəsindən - Horadiz kəndinə qədər - 12 km-dir;
- milliyəti -99,9%:- - - - - - - - - - - - - - - - azərbaycanlılar;
- əhalisinin sayı:- - - - - - - - - - - - - - - - - - - 4000 nəfərdir;
- əhalisi:- hər kv.km-ə:- - - - - - - - - - - - - - -7,9 nəfər düşür;
- əhalinin məşğuliyyət:- -- üzümçülük, taxılçılıq, baramaçılıq, tərəvəzçilik, bostançılıq,qoyunçuluq, heyvandarlıq, quşçuluq;
- axar çayları: - - - - - - - - - - - - - - - - Qozlu çay və Dəli çay;
- hava iqlimi: - mülayim – isti;
- orta temperatur:- - - qışda -5 dərəcə, yayda +30 dərəcədir;
- illik yağıntı:- 300 – 500 mm;
- torpağın tərkibi - - - - - - - - - - - - - - dağ şabalıdı və qəhvəyi;
- dəniz səviyyəsindən hündürlüyü:- - - - - - - 250 – 300 metr;
- ümumi torpaq sahəsi:- - - - - - - - - - - - - - - - - - 5641 hektar;
- kənd təsərrüfatına yararlı sahələr:- - - - - - - - 4300 hektar;
- suvarılan torpaqlar:- - - - - - - - - - - - - - - - - - 1300 hektar;
- dəmyə torpaq sahələri:- - - - - - - - - - - - - - - - - 1500 hektar;
- Horadiz kənd üzüm sahələri:- - - - - - - - - - - - - - 650 hektar;
- Dördçinar kənd üzüm sahələri: - - - - - - - - - - - - 65 hektar;
- şərti suvarılan sahələr:- - - - - - - - - - - - - - - - -300 hektar;
- Horadiz kəndində ümumi bağlar: - - - - - -- - - 200 hektar;
- Dördçinar kəndində ümumi bağlar: - - -- - - - - 100 hektar;

- meyvə növləri: *- alma, armud, xirnik, xurma, karalyok sortu, qara və ağ tut, xar tut, əncir, əriklər, ağ və qara gavalı, yapon gavalısı, albuxarı, gilas, alça, gilənar, nar, qaragilə, zoğal, iydə, qoz, badam, fındıq, əzgil, şaftalı, yemşan, dağdağan;*

-üzüm növləri: *- ağ ət və qara ət üzümü, kavra, ağ saçalax, qara saçalax, kalbalı, keçi məməsi, qızıl baldır, xort-xortu, bozax, qara*

şirə, sahabı, cücə gözü, çilə üzümü, alagöz, qənd mərəndi, qodux boğan, ağa dayı, ırşı baba, kişmiş, əmiri, qırmızı səhabı, qaragöz, quşürəyi, gəlinbarmağı, ağ üzümü, qızıl üzüm və sairə;

***- ev heyvanları:** - inək, qoyun, keçi, at, eşşək, it, pişik;*

***- ev quşlar:** - hinduşka, hind toyuğu, qaz, ördək, toyuq;*

***- vəhşi heyvanlar:** - canavar, çaqqal, tülkü, dovşan, goreşən, oxlu kirpi, kirpi, tısbağa, qurbağa, sıçovul, siçan, çölsişanı, sünbül-qıran;*

***-vəhşi quşlar:** - toğlugötürən, quzğun, çalağan, turac, qırqovul, kəklik, leylək, bayquş, şanapippik, ağacdələn, ala qarğa, qara qarğa, dıradra, göyərçin, məkik, sərçə, qara toyuq, sığırçın, torağay, qaranquş, bildirçin, su cüllütü, yarasa, saxsağan, və sairə;*

***-sürünənlər:** - ilanlar, koramal, kərtənkələ.*

DƏMYƏ TORPAQ ƏKİN SAHƏLƏRİ:

1. Teşnək: - Alı öküz dərəsi - - - - - - - - - - - - - 80 hektar;
2. Teşnək: - Tutu kələyi yeri - - - - - - - - - - - -40 hektar;
3. Teşnək: - Bəyalı dərəsi - - - - - - - - - - - - - 170 hektar;
4. İlxı dərəsi -45 hektar;
5. Gölbağ dərəsi - - - - - - - - - - - - - - - - - - - 120 hektar;
6. Ağıl dərəsi - 90 hektar;
7. İmam dərəsi - 80 hektar;
8. Hüngütlü dərəsi - - - - - - - - - - - - - - - - - -150 hektar;
9. Şorca dərəsi - 300 hektar;
10. Burğa dərəsi - 150 hektar.
Cəmi: - - - - - - 1225 hektar.
Qalan torpaqlar isə otlaqlardır.

Bəli, hər vaxt və hər zaman bizim kənd torpaqları barlı-bərəkətli olub, olur və olacaqdır. Kəndimizin adamları həmişə əməksevər və zəhmətkeş olmuşlar. Ona görə də ətraf kəndlərə nisbətən adamlarımızın dolanışığı yaxşı olmuşdur.

Arxiv materiallarından məlum olur ki, 1946-50-ci illərdə Karyagin rayonu (1959-cu ildən Füzuli rayonu) taxıl istehsalına görə respublikada ən qabaqcıl rayonlarından biri olub. Burada istehsal olunan taxıl respublikada istehsal olunan ümumi taxıl məhsulunun

yarısını təşkil edirdi. Bundan əlavə Füzuli rayonu nəinki qonşu rayonları, hətta Naxçıvan Muxtar Vilayəti və Lənkəran əhalisini də taxılla təmin edirdi. O vaxtı Ordubadlılar ən çox ərik və meyvə qurusu gətirib bizim camaatla taxıla dəyişdirirdilər. Naxçıvan şəhərindən də qızıl-gümüş, qadın kəmərləri, qızıl qadın papağını gətirib taxılla dəyişirdilər.

Füzuli rayonunda 1947-50-ci illərdə bütün əmək sahələrində çalışan zəhmətkeşlər kənd təsərrüfatının müxtəlif sahələrində rekord nailiyyətlər qazandıqlarına görə rayonun 26 nəfər qabaqcıllarına SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Sosialist Əməyi Qəhrəmanı" kimi yüksək fəxri ada layiq görülmüşlər (o cümlədən kəndimizdən 2 nəfər).

Azərbaycanda bu qədər yüksək ada layiq görülmüş ən çox əmək qəhrəmanı olan rayonlardan biridir.

Bu illərdə həmçinin 461 nəfər Füzuli rayon zəhmətkeşinə "Lenin ordeni", 607 nəfərə isə "Qırmızı Əmək Bayrağı" ordeni verilmişdir.

Bütün bu nailiyyətlərin qazanılmasında Horadiz kəndimizin zəhmətkeşlərinin də böyük əməyi olmuşdur. O cümlədən:

1.Hamayıl Əhmədova Behbud qızı: - manqa başçısı işləmiş, kolxozda yüksək nəticələr əldə etmişdir. O, 1949-cu ildə öhdəsində olan 8 hektar sahəsinin hər hektarından 84,4 sentner pambıq məhsulu əldə etdiyinə görə "Sosialist Əməyi Qəhrəmanı" adı verilmiş və "Lenin ordeni"nə layiq görülmüşdür.

2. Mösü Məhərrəmov Rüstəm oğlu: - 1949-cu ildə "28 Aprel" kolxozunda işlərkən, traktor briqadasının başçısı kimi bütün işlərini mütəşəkkil təşkil edib, aqrotexniki qaydalara əməl edərək, öhdəsində olan 335 hektar sahənin hər hektarında 43,5 sentner pambıq götürdüyünə görə ona "Sosialist Əməyi Qəhrəmanı" yüksək adı verməklə, "Lenin ordeni" Ilə təltif edilmişdir.

3. Zemfira Məmmədova Hüsü qızı: - 1950-ci ildə kolxozda manqa başçısı işlədiyi zaman 8 hektar pambıq əkin sahəsinin hər hektarından 68 sentner məhsul əldə etdiyinə görə "Lenin ordeni"nə layiq görülmüşdür.

4. Şəmil Mehdiyev Salman oğlu: - 1950-ci ildə 8 hektar pambıq sahəsindən 66 sentner pambıq əldə edərək, yüksək nəticələr əldə

etdiyinə görə SSRİ Ali Sovetinin fərmanı ilə "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif edilmiş və "K-55" markalı mototskl mükafat verilmişdir.

Bundan başqa kolxozun bir neçə qabaqcıl üzvünə "Qırmızı Bayraq" ordeni və "Əməkdə fərqlənməyə görə" medallarına layiq görülmüşlər.

5. Orucov Aslan Ağalar oğlu: - 1964-65-ci illərdə pambık planını artıq-laması ilə yerinə yetirdiyinə görə ona "Volqa" QAZ-21 markali minik avtomobili ilə mükafatlandırılmışdır və dəfələrlə orden və medallarla təltif olunmuşdur.

6. Hacıyev Hüseyn Alı oğlu:- 1970-cu ildə kolxozda taxıl biçimində yüksək nailiyyətlər göstərdiyinə görə ona Jiquli-2001 markalı mınık avtomobili mükafat verilmişdir.

7. Əliyev Əfət Həsən oğlu: - 1971-ci ildəkolxozda pambıq becərilməsində fəal iştirak etdiyinə görə ona Jiquli-2001 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

8. Məmmədov Abbas Alı oğlu: - 1972-ci ildə kolxozda İnşaat işlərini mükəmməl və yazşı yerinə yetirdiyinə görə ona Jiquli-2001 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

9. Ağayev Cümşüd Misir oğlu: - 1973-cü ildə kolxozda maşın ilə pambıq yığımında yüksək nəticilər göstərdiyinə görə ona Jiquli-2011 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

10. Məmmədo Sərdər Ağalar oğlu: - 1974-cü ildə kolxozda taxıl səpinində qabaqcıl yer tutduğuna görə ona Jiquli-2001 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

11. Abbasov Əli Hüseyn oğlu: - 1975-ci ildə kolxozda briqadir işlədiyi 3 saylı briqadada hər hektardan 35 sentner pambıq dövlətə təhvil verdiyinə görə ona Jiquli-2001 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

12. Qurbanov Əsgər Qurban oğlu: - 1976-cı ildə kolxozda sürücü işlədiyi dövrlərdə qəzasız və nümunəvi fəaliyyətinə görə ona Jiquli-2001 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

13. Məhərrəmov Firəddin Nüsrəddin oğlu: - 1977-ci ildə kolxozda işlədiyi müddətdə özünü nümunəvi işçi kimi göstərərək, verilən tapşırıqları vaxtında yerinə yetirərək, həm də ot yığımı

zamanı yüksək nəticə göstərdiyinə görə ona Jiquli-2011 markalı minik avtomobili mükafat olaraq verilmişdir.

Horadiz kəndinin əməkçiləri ta qədimdən qoyunçuluqla və maldarçılıqla məşğul olmuşlar. Bu sahədə də çobanlar yaxşı nəticələr əldə edərək yüksək nailiyyətlər qazanaraq həmişə qarşıya qoyulan dövlət tapşırıqlarını vaxtında ödəmişlər.

Bizim kənddə pambıqçılıq uzun illər gəlirli sahə kimi çoxlu əmək, əziyyətli zəhmət tələb edirdi. Pambığı əkmək, onun dibini boşaldaraq becərmək, alağın artlamaq, sonra zərərverici (sofqa) qurdunu təmizləmək üçün xeyli kənd camaatını, hətta 5-ci sinifdən yuxarı şagirdləri bu işə cəlb edilirdi. Eyni zamanda zərərvericiləri məhv etmək üçün təyyarə ilə xüsusi dərmalar da səpilərdi, bu isə bəzən əməkçiləri və məktəbliləri zəhərləyirdi.

Pambıq yetişdikdən sonra onu ağır zəhmətlə əl ilə yığmaq, ətəyinə fartuq bağlayaraq bütün günü qızmar günəş altında başı aşağı, qozadan ayırıb yığmaq böyük bir müsibət idi. Pambıq yığımının qızmar yerində 3 ay məktəbləri bağlayaraq şagirdləri də yığıma cəlb edilirdi. Pambıq yığımı mövsümündə ortalıqda boş-bekar gəzən tapmazdın. Hələ bu az imiş kimi öz doğma kəndinə ezamiyyətə gələnləri də yığıma məcbur edərdilər. Kənddə bütün idarə, iaşə xidməti, xəstəxana işçilərini də bu işə cəlb edirdilər.

Təyyarə ilə müxtəlif kimyəvi maddələr səpərdilər ki, pambığın yarpaqları tökülsün və pambıq yığan maşınlarla işləmək asan olsun. Təyyarə dərmanı səpən günün sabahısı bütün yarpaqlar tökülürdü və pambıq sahələri ağ-appaq görünürdü. O günü bütün pambıq yığan maşınlar sahələrə çıxıb pambığı yığıb pambıq zavoduna təhvil verərdilər, əks təqdirdə quruyardı və yüngülləşərdi. Bəli "ağ qızılımızı" yığıb tez bir zamanda dövlətə təhvil verib, planımızı yerinə yetirməyə hamılıqla çalışardılar.

1979-80-ci illərdən sonra pambıqçılığı tam surətdə dayandıraraq, onun əvəzinə 650 hektar suvarılan pambıq sahələrinə üzüm tingləri basdıraraq tamamilə üzümçülüyə keçirildi. Üzümçülük kənd zəhmətkeşləri üçün hərtərəfli sərfəli oldu.

Üzüm plantsiyaları çox gözəl, hər tərəf yamyaşıl görünürdü, adamda isə xoş əhval-ruhiyyə yaradırdı. Pambığa nisbətən xeyli

yüngül əmək sərf edilirdi. Üzüm yığımı ağır və əziyyətli olsa da, müvəqqəti idi. Üzümü ayaq üstə və bağ qayçısı ilə kəsib, xüsusi düzəldilmiş maşın banlarına açıq yığaraq Füzuli şərab zavoduna aparıb təhvil verərdilər. Süfrə üzümlərini isə xüsusi düzəldilmiş taxta yeşiklərə əl ilə yığaraq təyin edilmiş yerlərə göndərərdilər.

Bizim torpaqlarda üzümlərin şəkərlilik dərəcəsi 22-23 olurdu. Üzümdən gələn gəlir pambıqdan qat-qat çox olurdu. Əgər bir hektardan 20-30 sentner pambıq verirdiksə, üzümün hər hektarından 100-150 sentner üzüm yığılırdı. Bu isə əlbəttə kolxoz zəhmətkeşlərinin maliyə gəlirlərini artırırdı, onların maddi və mənəvi rifahını yüksəldirdi. Üzümçülüyə keçəndən sonra adamlar varlanaraq, özlərinin maddi marağı yüksələrək, təzə evlər tikənlər, minik maşını alanlar günü-gündən çoxalmaqla, onların yaşayış tərzi və rifahı yaxşılaşırdı.

Horadiz kəndində ilk kolxozlaşma dövründə 1930-32-ci illər ilk kolxoz sədri Abdullayev Əsəd Ələkbər oğlu olmuşdur. Sonralar Quluyev Calal, Allacov Hüseynqulu və başqaları sədrlik etmişlər. Horadiz kəndində yalnız 1953-60-cı illər Rzayev Vəlinin sədrliyi dövründə iqtisadiyyatda və mədəni həyatda əsl dirçəliş baş vermişdir.

Qeyd: 1943-46-cı illər II-Dünya Müharibəsinin qızğın vaxtında kənd təsərrüfatını daha da idarə edilməsini asanlaşdırmaq məqsədilə Horadiz kolxozunu 3 hissəyə bölünür. Horadiz güneyə sədr - Fərhad İsmayılov, Horadiz quzeyə sədr - Bayramalı Namaza-lıyev və Dördçinar-Hüngütlüyə sədr - Hüseyn Bəylərov olmuşlar. 1967-ci ilin yanvarında isə Horadiz kolxozu iki hissəyə yenidən bölündü. Gyney hissəyə - Məhərrəmov Mösü və Quzey hissəyə - Suruş Fərhadova sədri seçildilər. Lakin 1967-ci ilin noyabrında Mösü Məhərrəmov istefa verdikdən sonra, kolxoz birləşib Suruş Fərhadovanın rəhbərliyində qaldı.

Horadiz kolxozuna 1939-cu ildən sədr kimi rəhbərlik edən şəxslərdən:

1. Namazalıyev Bayramalı Fərzalı oğlu - - -1939-46-cü illər;
2. İsmayılov Fərhad Şükür oğlu - - -- - - - - -1943-52-cü illər;
3. Cəfərov Məhəmməd Xanlar oğlu - - - -- - 1952-53-cü illər;
4. Rzayev Vəli Əli oğlu - - - - - - - - - - - - - - 1953-61-cı illər;
5. Fərhadova Suruş Cabbar qızı - - - - - - - -1961-69-cu illər;
6. Məhərrəmov Mösü Rüstəm oğlu - - - - - -1967-il səkkiz ay;
7. Talıbov Hüseyn Salman oğlu - - - - - - - - -1969-78-cı illər;
8. Cəfərov Akif Cəlil oğlu - - - - - - - - - - - - - 1978-80-cı illər;
9. Fərhadova Suruş Cabbar qızı - - - - - - - - 1980-88-ci illər;
10. Mehdiyev Əkrəm Cəlil oğlu - - - - - - - - - - 1988-92-ci illər;
11 .Cəfərov Akif Cəlil oğlu - - - - - - - - - - - - - 1992-93-cü il
3 sentyabr 1993-cü kəndimiz işğal olana kimi.

Baş mühasib işləyənlər;

1 Ağayev Allahverdi Muxtar oğlu - - - - - - - 1950-57-cı illər;
2. Abışov Xasay Məhərrəm oğlu - - - - - - - - 1957-65-ci illər;
3. İmanov Fərhad Eyvaz oğlu - - - - - - - - - 1965-78-ci illər;
4. Qurbanov Yusif Hüseyn oğlu - - - - - - - - 1978-93-cü illər.

Horadiz kənd sovetinin sədri olanlar:

1. *Namazalıyev Bayramalı Fərzalı oğlu - - - 1935-39-cu illər;*
2. *Fərəcov Cəlil Allahverdi oğlu - - - - - - - - 1939-49-ci illər;*
3. *Bəylərov Hüseyn Nəcəfqulu oğlu - - - - - 1949-52-ci illər;*
4. *Rzayev Vəli Əli oğlu - - - - - - - - - - - - - - 1952-53-cü illər;*
5. *Cəfərov Məhəmməd Xanlar oğlu - - - - - - 1953-66-cı illər;*
6. *Sultanov Ədil Muxtar oğlu - - - - - - - - - - 1966-75-ci illər;*
7. *İsmayılov Vəli Məhər oğlu - - - - - - - - - - 1975-79-cu illər;*
8. *Kazımov Həbib Əyyub oğlu - - - - - - -- - -1979-92-cü illər;*

Füzuli rayon İcra hakimiyyətinin,
Horadiz kəndi üzrə nümayəndəliyii:

9. Cəfərov Qulu Məhəmməd oğlu - - - - - - - 1992-93-cü illər.
10. İbrahimov Vəli Cabbar oğlu - - - - - - 1993-2010-cü illər;
11. Ağayev Rasim Muradxan oğlu - - - 2010-cü il avqustdan.

Kənd Soveti katibləri:

1. Namazalıyev Heydar Muxtar oğlu - - - - - 1939-42-ci illər;
2. Həsənov Əyyub İmran oğlu - - - - - - - - -- 1942-47-ci illər;
3. Məmmədov Həsən Möhsün oğlu - - - - - - 1947-74-ci illər;
4. Mehdiyev Vəli Əliş oğlu - - - - - - - - - - - - 1974-75-cu illər;
5. Mehdiyeva Qənirə Hətəm qızı - - - - - - - - 1975-94-ci illər;
6. Cəfərov Əliş Tehran oğlu - - - - - - - - - - -- 1994-cı ildən hal-hazıra kimi Füzuli rayon İcra hakimiyyətinin, Horadiz kənd nümayəndəliyində mühasibdir.

HORADİZ ÜZÜM SAHƏLƏRİ

Horadiz kəndinin üzüm becərilən sahələri – cəmi 650 hektar idi.

Bu sahələr: - Bakı Naxçıvan dəmir yolu ilə Bakı Zəngilan şosse magistral yolu arasında və Horadiz stansiyası ilə Cocuq Mərcanlı kəndinin sahələri arasında olan ərazidə yerləşirdi. Bu sahə 21 icarəçi arasında bölünmüşdü;

1 Mehdiyev Vəli Əliş oğlu - - - - - - - 30 hektar;
2 Abışov Tofiq Məhəmməd oğlu - - - 36 ------;*
3 Sultanov Müzəffər Temir oğlu - - - 46 ------;*
4 İsmayılov Əyyub Şükür oğlu - - - - 50 ------;*
5 Orucov Eldar Əmir oğlu - - - - - - - 30 ------;*
6 Abbacov Əli Hüseyn oğlu - - - - - - 40 ------;*
7 Mehdiyev Ənvər Yaqub oğlu - - - - 22 ------;*
8 Məhərrəmov Rüstəm Mösü oğlu - - 40 ------;*
9 Orucova Mədinə Vəli qızı - - - - - - 26 ------;*
10 İsmayılov Vəli Məhər oğlu - - - - - - 35 ------;*
11 Namazov Namaz Əyyub oğlu - - -- - 26 ------;*
12 Mehdiyev Həmid Cəlil oğlu - - - - - - 35 ------;*
13 Əliyeva Zeynəb Aqil qızı - - - - - - - - 30 ------;*
14 Quluyev Hilal Əbülfət oğlu - - - - - - 30 ------;*
15 Novruzov Fərzalı Əsəd oğlu - - - - - 24 ------;*
16 Məmmədova Təranə Təbriz qızı - -- - 36 ------;*
17 Şükürov Abbasqulu Xudu oğlu - - - -- 27 ------;*
18 Soltanov Ramiz Məhəmməd oğlu - - - 30 ------;*
19 Məmmədov Şakir Cahangir oğlu - - - 28 ------,*
20 Ağayev Əhəd Muxtar oğlu - - - - - - - - 29 ------,*
21 İmanov Bahadur Hümbət oğlu - - - - - 46 ------.*

Dördçinar kəndin üzüm becərilən cahələri – cəmi 65 hektar idı.

Bu sahələr – Dördçinar və Hüngütlü kəndlərinin sıra təpəlikləri arasında və Dördçinar kəhrizi ilə Musabəyli kənd bağları arasında olan sahədə yerləşir.

1. *Rüstəmov Musa Aslan oğlu - - - - - - - 35 hektar;*
2. *Mahmudova Püstə Şirxan qızı - - - - - 30 hektar.*

Horadiz "Qurban Namazalıyev" adına kolxozun iqtisadiyyatında digər təsərrüfatların da böyük rolu vardır. O cümlədən: taxılçılıq, üzümçülük, baramaçılıq, maldarlıq, süd, ət və yun istehsalları əsas yer tuturdu.

Təkcə 1992-ci ilin göstəricilərinə müraciət etsək görərik ki, Horadiz "Qurban Namazalıyev" adına kolxoz (1991-ci ilə qədər "Rusiya" kolxozu) Füzuli rayonunda ən yüksək nəticələrə nail olmuşdur.

S.s	məhsulun adı	dövlət planı	faktiki	faizlə verilib	plandan əlavə
1.	**Üzüm**	**8000t**	**12000t**	**150%**	**4000t**
2.	**Taxıl**	**2500t**	**2620t**	**104%**	**120t**
3.	**Barama**	**22t**	**22,5t**	**102,5%**	**500kq**
4.	**ət**	**80t**	**83t**	**103,7%**	**3t**
5.	**Süd**	**450t**	**463t**	**02,8%**	**13t**
6.	**Yun**	**8t**	**8,5t**	**106,2%**	**500kq**

1992-ci ildə Horadiz "Qurban Namazalıyev" adına *kolxozunun təsərrüfatında aşağıdakı heyvanların, avtomobillər, traktorlar və aqreqatların sayı göstərilir:*

1. *Qaramal - - - - - - - - - - - 1000 baş,*
2. *Qoyun - - - - - - - - - - - - -4500 baş,*
3. *Avtomobil - - - - - - - - - - - -35 ədəd,*
4. *Traktor –(tırtıllı) - - - - - - - 12 ədəd,*
5. *Kombayn - - - - - - - - - - - - - 8 ədəd,*
6. *"Belorus" traktoru - - - - - - 3 ədəd,*
7. *"T-28" traktoru - - - - - - - -28 ədəd,*
8. *Otbiçən - - - - - - - - - - - - - 4 ədəd,*
9. *"KUS-4" kip vuran - - - - - - 1 ədəd,*
10. *Müxtəlif aqreqatlar - - - - -10 ədəd,*

1992-ci ilə qədər kolxoz sədri işləmiş Əkrəm Mehdiyevin dediklətinə ğörə 1992-ci ilin noyabrın 1-nə kolxozun 12 milyon rubl gəliri olmuşdur.

1992-ci ildə Füzuli rayonunda ilin yekununa görə Horadiz "Qurban Namazalıyev" adına kolxozu rayonun qabaqcıllar sırasında olmuşdur.

1989-cu ildə SSRİ Nazirlər Sovetinin Zaqafqaziya üzrə kuratoru (təhkimçisi) Y.Tişşenko Horadiz kolxozunun üzüm plantasiyalarına baxış keçirərkən, üzüm sahələrimiz onu valeh etmişdir. O, üzüm sahələrini gəzərkən belə bir fikir söyləmişdi: -

"Mən dünyanın əksər ölkələrində, hətta Amerika Birləşmiş Ştatlarında da olmuşam və belə barlı-bərəkətli üzüm plantasiyası heç bir yerdə görməmişəm.".

Kolxoz idarə heyəti başda sədr Əkrəm Mehdiyev olmaqla, öz təşəbbüsləri ilə qərar qəbul edib Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi qarşısında 1992-ci il üzüm məhsulunu saxlamaq üçün, soyuducu anbarını tikilməsini xahiş edilmişdi.

Lakin mənfur ermənilərin Qarabağ hadisələri və 3 sentyabr 1993-cü il Horadiz kəndimizin işğalı, bütün plan və arzularımızı həyata keçirməyə imkan vermədi. Təəssüflər!


Ağrı-acılı kədərlərimizi artıran bu hadisələr çox təəssüf ki, hələ də davam edir. Xalqımızın başına açılmış Qarabağ müsibəti indi də bir çox məsələlərin həll olunmamasının əsas səbəbidir.

Bunlardan əlavə kənd zəhmətkeşlərinə, camaatımıza, ziyalılarımıza, sadə həyat tərzi yaşayan insanlarımıza heç bir ölçüyə sığmayan itkilər oldu. Belə ki, öz doğma torpaqlarını, ağır zəhmətlə tikdirdikləri evlərini, ev əşyalarını, həyətyanı bağlarını, doğmaların qəbirlərini, qohum-qonşularını, dost tanışlarını, bulaq və kəhrizlərini itirdilər. Hələ bu az imiş kimi, anbarlarda qalan 1200 ton taxıllarını, kolxoz əmlakı olan 1000 baş qaramalını, 4500 baş qoyun-quzularını, traktor və kombaynlarını, avtomobillərini, mədəniyyət sarayını, xəstəxana və ambulatoriyasını, 2 məscidini, 1000-dən çox şagirdi və 82-ə qədər müəllimi olan 2 orta məktəb binasını, 2 kitabxanasını, 2 aptekini, 6 maqazalarını, 2 dəyirmanını, 650 hektar üzüm plantasiyalarını, 200 hektar Horadiz, 100 hektar Dördçinar

üzüm və tut bağlarını, 2 məişət evini, poçtunu, Qozlu çay və Dəli çayını, ümumiyyətlə 5641 hektar barlı-bərəkətli torpaqlarımızı, "İmamzadə" ziyarətgahımızı, ürək ağrısı ilə yad etdiyimiz anamız Horadizi, eləcədə Füzuli bankında olan halalca zəhmətlə qazandığımız 12 milyon rubl pullarımızı itirdik!



Əli Abbasovun briqadasında üzüm yığımı zamanı.



Yenə də bütün bu ağır günümüzə baxmayaraq, göydə Allahımıza ümidlə bağlanırıq, yerdə isə ulu öndərimiz Heydər Əliyevin tutduğu yolla gedən və bu yoldan dönməyən müdrik Prezidentimiz İlham Əliyev sülh siyasətini yeridərək Qarabağ düyününü bütün dünya ictimaiyyəti qarşısında açıb-araşdıracaq və işğal altında olan torpaqlarımızı qaytaracaq, qaçqın və köçgünlər öz doğma torpaqlarına qayıdacaqdır.

Əgər sülh yolu ilə alınmasa, bütün Azərbaycan xalqını yağı düşmənə qarşı, səfərbərlik elan edib "cihad" müharibəsinə qalxıb hamılıqla, öz doğma torpaqlarımızı yağı düşməndən, əsirlikdən, əsarətdən azad edib düşmən tapdağından qurtaracağıq!

İnşallah! Mübarək o günü görərik! Amin!!!.

Öz həmyerlimiz doğma yurdunu sevən Vüqar Zakir oğlu yazdığı şerində Horadiz kəndimizi belə təsəvvür edir:



Vüqar Zakir oğlu

YER ÜZÜNDƏ HORADİZ

Yovşan ətri vururmu?
Quşlar yuva qururmu?
Kəndin kənarındakı,
O "Tək ağac" durur mu?

***

Hər obanın var daşı,
Elçi daşı, yar daşı.
Elimi xəbər alıb,
Dindirəydim "Kar daş"ı.

***

Salam, salam "Göl bağı"m,
Çiçək bağım, gül bağım.
Qürbətdə dən gəzirəm,
Ətrafı sünbül bağım.

***

Sinəsi dərd, çinarım,
Mərd elim, mərd çinarım.
Kölgəndə kimlər yatır,
Ay mənim "Dörd Çinar"ım?

***

Dumanım var, çənim var,
Taleyinə qənim var.
Kimlərə sübut edim –
Mənim də vətənim var?

***

Seyidin eli yandı,
Bağların gülü yandı.
"Xan kəhriz" deyə-deyə,
Neçə sevgili yandı.

***

Mindiyim at yorğadı,
Ciblərim qoğurğadır
Sür gedək kəndə sarı,
Qarşımızda "Burğa"dir...

***

Gün əyildi, gün axdı,
Gün nalədi, gün ahdı.
Onu danmaq günahdı,
Bura çovğun, bura buz.

***

Ora çəmən, ora düz,
Göy üzündə Allahdır,
Yer üzündə Horadiz!
Yer üzündə Horadiz!...

***




Zahid Quluyev və Əvdil Ələkbərov
650 hektar keçmiş pambıq və sonralar üzüm sahələrimizdən olan bir parça çılpaq torpağımızın - Əhmədalılar kəndindən görünüşü-2008 il.

HORADİZİN MƏHƏLLƏLƏRİ


RZALILAR MƏHƏLLƏSİ

Rzalılar məhəlləsi – Horadiz kəndinin şimal-şərq qurtaracağında, Horadiz – Füzuli şosse yolunun sağ və sol ətrfında, Qozlu çay, Calal dərəsilə, Aslan dərərəsi arasında yerləşir. Bu məhəllədə yaşamış kənd ağsaqqalı Rza kişinin böyük hörmət və ehtirama görə və Rza kişinin rəhbərliyi və kankan kimi iştirakı ilə Rzalılar kəhrizi inşa edildiyinə görə bu məhəlləyə ***"Rzalılar"*** adı verilmişdir. Onun oğlu kənd ağsaqqalı Qəmbər İsmayıov da atası Rza kişinin yolu ilə gedərək, kəndimizdə ən xeyirxah bir işlə - kankanlıqla məşğul olub kəhrizlərimizi abadlaşdırırdı.



Bəhram İsmayılov

Burada yaşamış Musa Oruc oğlu İsmayılovun 100-dən çox nəvə-nəticəsi və kötücəsi vardır. Onun oğlu İsa və həyat yoldaşı Dılşad Ədil qızı ilə birgə 13 övlad həyata gətirmişlər.



Əsgər İsmayılov

Hacı Abbas oğlu Abı kişi kənd ağsaqqalı 112 ildən çox yaşamış və 1986-cı ildə vəfat etmişdir.

Abı kişinin oğlu Abbas Rzayev uzun illər kənd orta məktəbində kimya müəllimi işləmiş, həm də gecə fəhlə-kəndli məktəbin direktoru vəzifəsində işləmiş bacarıqlı və işgüzar insan kimi özünü göstərmişdir.



Həşim İsmayılov

Bu məhəllədən olan Bəhram Qulu oğli İsmayılov uzun müddət kənd orta məktəbində də çalışqan, bacarıqlı və savadlı müəllimlərdən biridir. Onun kənd adamları arasında hörməti danılmazdır. Onun kiçik qardaşı İsmayılov El-

dar burada qarışıqmallar dükanı açmış və öz həmyerlilərinə nümunəvi xidmət köstərmişdi.

Məhəllənin ağsaqqallarından Muxtar Həsənov, Musa İsmayılov, Qəmbər İsmayılov, Ağamalı İsmayılov, Rəşid İsmayılov, Əvəz İsmayılov, İsmayıl İsmayılov, Hümbət Rzayev, Surxay və Kalbalı Əliyevlər kimi kişilərin hər biri haqda geniş xoş xatirələr, mərdlik və igidliklər, söz-söhbətlər, onları tanıyanların qəlbində yaşayır.

Bu məhəllənin rəşadətli oğlu – Qarabağ müharibəsinin hava döyüşlərin şəhidi – Adil Əsgər oğlu İsmayılov igid, mətin, döyüşkən və ölməz təyyarəçi kimi ürəklərdə yaşayacaqdır!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!..

CALAL DƏRƏSİ VƏ MƏHƏLLƏSİ

Calal dərəsi – Horadiz qəsəbəsindən Füzuliyə gedən şosse yolunun 13 km-də, yolun sağında, Namazalılar və Rzalılar məhəlləsinin arasında yerləşən dərədir.

Calal dərəsi – Horadizdə tanınmış kənd ağsaqqalı və 100 il ömür sürmüş Calal kişinin evinin yanında yerləşdiyi üçün onun adı verilmişdir. Calal kişi Məşədi Xanların oğludur. O, çox qoçaq və mərd adam olmuş, həm də Qaçaq Süleymanın dəstəsində vuruşmuşdur.

Qeyd: ***Nənəqız nənəm deyərdi ki, 1924-ci ildə Horadiz kəndinə Qaçaq Süleyman öz dəstəsilə növbəti dəfə basqın edərkən Namaz babamın firqə (partiya) adamı kimi cəza vermək istədikdə, onun anası Səkinə nənə oğlunu müdafiə məqsədilə özünü qabağa verib oğlunu ölümdən xilas etmişdi. Həmin vaxtı mən cavan gəlin olduğumdan və mənə qaçaqlar tərəfindən xətər gəlməsin deyə bir "qaçaq" üzü bağlı qolumdan tutub məni gətirib qaynım Bayramalının evinə təhvil verdi. Sonralar bildim ki, o qaçaq Calal Xanlar oğlu imiş.***

Camaat arasında çox qoçaq, deyib gülən, zarafatcıl adam kimi tanınırdı.

Calal dərəsində 1970-ci illərdən sonralar yaşayış yeri seçənlər burada özlərinə ev tikərək həyətyanı bağlar da salmışdılar.

Bu dərədə yaşayanlar: - Namazalıyev Əsgər, Namazalıyev Qafqaz, Həsənov Şamxal, Həsənov Yusan, İbrahimov Hilal, İsmayılov Heydar, Namazov Əyyub, Namazov Namaz, Namazov Qəmbər, Behbudova Sərvinaz, Behbudov Cahangir, Quluyev Telman, Soltanov Abış, Bayramov İskəndər Xudaverdi oğlu və Yadigarov İskəndər Qurban oğlu müəllimin ailələri yaşayırdılar.

Yolun alt hissəsində isə Namazalıyeva Afərim Muxtar qızı və Əhmədov Calal Xanlar oğlunun evləri vardı.

NAMAZALILAR MƏHƏLLƏSİ

Namazalılar məhəlləsi – Namazalılar tirəsindən, Kərbala İsmayıllılar məhəlləsinin üst tərəfindən başlayaraq, Horadiz –Füzuli şosse yolu boyunca, Qönçə dərəsi yolun üstü və altı, Calal dərəsinə qədər, bu istiqamətdə Qozlu çaya kimi olan ərazidə yerləşir.

Namazalılar tayfası Horadiz kəndinin indiki ərazisində Yadigarlılardan sonra məskunlaşan ilk sakinlərdəndir.

Kəndimizdə ən böyük tayfalardan biri olan Namazalılar, çox-çox illər bundan qabaq bu yerlərdə məskən salmışlar. Namazalı babamız bizim kənddə kəndxuda olmuşdur. Bu da onu göstərir ki, Namazalı babamızdan qabaq yaşayanlarımız kənddə camaat arasında böyük nüfuza sahib imişlər ki, Namazalı ulu babamız kənddə kəndxuda olmuş və öz şəxsi hesabına kəhriz vurdurmuş, bax elə bu kəhriz və məhəllə hal-hazıra kimi onun adını daşıyır.

Namazalılar tirəsi, Qönçə dərəsi, Əcəb nənə bağ yeri, Namaz baba və Muxtar tirəsi hamısı birlikdə - Namazalılar məhəlləsinə daxildir.

Namazalılar tirəsi – Zaqun dərəsi ilə Qönçə dərəsi arasında, Şosse yolun üst tərəfində olan ərazi adlanır. Bu tirənin ən hündür ətəyində Namaz babanın böyük damı vardı. Damın içərisi dairəvi olub, başdan-başa 10 metr diametrində idi. Dairəvi dam yuxarıya qalxdıqca dairəsi kiçilirdi, ən yuxarı hissə künbəzə bənzəyirdi. Künbəzin başı 50 sm ölçüdə çevrə formasında baca açıq idi. Damın ortasında açıq ocaq qalayardılar və bu ocağın tüstüsü həmin o bacadan çıxardı. Damın içərisində ağacdan düzəldilmiş taxtlar vardı, həmin bu taxtın üstündə döşək, yorğan və yasdıq qoyub gecə

yatardılar. Damın girəcəyində sol tərəfdə kiçik çubuqlardan düzəldilmiş balaca ağıl da var idi ki, bu ağılda təzə doğulmuş quzu və çəpiş saxlayırdılar. Xörəkləri də damın ortasındakı ocağa sacayaq üstündə iri mis qazanlarda xörək bişirərdilər. Həyətdə heyvanlar üçün mal tövləsi (pəyəsi) və həyətin ortasında isə civirdən toxunmuş böyük ağıl vardı ki, burda da qoyunları saxlayırdılar. Ümumiyyətlə Namaz babamın 200 qoyunu, 10 qaramalı və 2 atı vardı. Qoyunlarını Həsənov Şamxal, Namazalıyev Şəmil və Novruzov Alı otarırdılar. Həyətin qabaq yuxarı hissəsində 10 metr dərinlikdə quyu qazılmışdı. Quyunun dibində geniş dairəvi bir metr hündürlüyündə taxça vardı. Mal və qoyun kəsdikdən sonra onun ətini öz yağında qovurardılar, yığardılar iri küplərə və məni o quyuya sallayardılar, mən də həmin dolu küpləri düzərdim yandakı taxçalara. Qışda babam bizə o quyunun içinə qar tökdürərdi, həmin qar yaya qədər orda qalardı. Bu da olardı onların təbii soyuducusu.

Yayın o isti vaxtlarında məni sallayardılar quyunun içinə, çox soyuq olduğundan üşüyürdüm və orda olan qovurma ətdən müəyyən qədər çıxarıb xörək bişirərdilər.

Namaz baba qorxmaz və şücaətli olaraq heç bir kəsdən çəkinməzdi, sözünü dik üzə deyən idi. Günlərin birində əsəbi vaxtı ağına-bozuna baxmadan Rus çarı Nikolayı möhkəm söyüb və bunu tutub Şuşa qazamatına salırlar. Az sonra Sovet hakimiyyəti qurulan kimi dustaqların şəxsi işini araşdıranda deyiblər ki, Rus çarını söyübsə bu bizim adamdır və açıb buraxıblar. Sovetlər dövründə varlı adamlara "qolçomaq" damğası vurub güllələyirdilər, amma Namaz babamı buna görə toxunmurdular.

Namaz babam kənd aqsaqqalı kimi, kəndimizin xeyir-şərində yaxından iştirak edərdi. O, xasiyyətcə söyüşkən olub, kənd camaati onu yaxşı tanıdıqları üçün onun söyüşündən heç kəs inciməzdi. Ona görə ki, kimi tənbeh etsəydi səbəbsiz olmazdı. Məsələn: - birinin evi köhnə, uçuq, çəpəri sökük isə və ya kimsə ağır həyat tərzi keçirirdisə, təkcə ev yiyəsini yox, elə qonşuları da çağırıb söyərdi; - "Görmürsünüz qonşunuzun evi bərbaddır, imkanı yoxdur, gəlin yığışaq kömək edək, yardım edək abadlaşdıraq".

Bununla da o, özünə təsəlli tapardı.

Ona görə də mən üzərimə böyük məsuliyyət götürərək Babalardan və babaların adından danışmaq istəyirəm. O, babalardan danışmaq istəyirəm ki, onlar xalqımızın müdrikliyidir, qədim torpağımızın qiymətli zərrəsidir, tariximizin solmaz səhifəsidir. O babalardan ki, yalnız bizim keçmişimiz deyil, eyni zamanda indimiz, həm də gələcəyimizdir. O babalar ki, ömür yolları həyatdan uzaqlaşdıqca, özləri həyata yaxınlaşır, fikircə, əqidəcə bu günə daha möhkəm tellərlə bağlanırlar. Çünki, baba olmaq yalnız övlad, nəvə sahibi olmaq deyil. Baba olmaq uzun, çətin, mürəkkəb həyat yolu keçmək deməkdir. Baba olmaq xoşbəxtlikdir, ona görə ki, sən ömrünün, gününün barını dərirsən, oğul-qız toyuna sevinirsən, nəvə şirinliyini dadırsan. Ancaq babanın sevinci də böyükdür, qayğıları da. Çünki baba bir ömür yox, sanki üç ömür yaşayır.

Özünün, övladlarının, nəvələrinin. Hər ömür parçasının da öz rahatlığı, öz narahatlığı, öz razılığı, öz narazılığı var.

Mən nə qədər ki, cavan idim, baba deyildim, babaların məclisinə düşəndə, onların nəvələr haqqında söhbətlərinə qulaq asırdım və təəccüblənirdim ki, görəsən bu ağsaqqal kişilər əl boyda nəvələrini niyə belə tərifləyir, onlardan niyə belə ağız dolusu danışırlar.


Doğrusu, bu məhəbbətin səbəbini aydın dərk edə bilmirdim. . Görürsən bir baba deyir: - Nəvə şirin olur, lap bal kimi!

O birisi razılaşmır: - Canım, bal nədir, bal adamın ürəyini vurur, bu ayrı cür şirinlikdir, doymaq olmur ki, olmur.

Bir məclisdə ağsaqqal kişinin nəvə şirinliyi haqqındakı sözləri indi də yadımdadır: - Hesab eləyin ki, adamın bankda pulu var, bu pul da hər ay faiz gətirir. Bax, bu faiz pulun özündən şirin olur. Nəvə də bizim övladlarımızdan gələn faizdir.

Bəli, nahaq yerə deməyiblər ki, dövlətdə dəvə, övladda nəvə.

Qardaş mən deyərdim ki, indi zaman dəyişib, nə dövlət var, nədə dəvə. Mənə qalsa, nəvələr haqqında türklər yaxşı deyiblər: "Balamın balası, ürəyimin parası".


NAMAZALI
ALİ
İBAD
CAVAD
Muxtar
PƏRZAD
ZEYNƏB
Məşədi Hamid
Məhərrəm
Bayramalı
Fərzəli
Abdüləli
Süleyman
Nəzəman
Göyçək
Qəhrəman
Hüseyn
Nəsir
Hüsnü
Zəhra
Mürəli
Nəmaz
Bayram
Ağamalı
Yusif
İskəndər
Ali
Qəzənfər
Mehrali
Sevil
Arif
Fəmil
Nizami
Xəlil
Mösü
Talıb
Fəzli
Həsən
Həvva
Rasim
Zəfər
Azad
Aydın
Kərəm
Bağman
Rəhim
Hüseyin
Qızlar
Oğlan
Qonaq
Sadıq
Almaz
Ratib
Tofiq
Qənbər
Xanbəri
Xanlar
Hüseyn
Nəsir
Hamid
Məlik
Qönçə
Qumru
Əli
Əli
Zülfü
Qubad
Hüsnü
Güllü
Telli
Vəli
Zülfü
Dəstə
Sitarə
Kamran
İslam
Gülşən
Əfzəl
Tavad
Sona
Heydər
Nəbat
Nuxtar
Yusif
Nəbat
Hamid
Rəşad
Rəhim
Rəsul
Rəşid
Rəsim
Rəna
Rəşad
Rəsul
Rəşid
Rəsim
Rəna
Rəşad
Rəsul
Rəşid
Rəsim
Rəna
Rəşad

İndi özüm baba olandan sonra babaların nəvələr haqqında şirin söhbətlərinə təəccüb etmirəm, əksinə, bir də görürəm ki, mən də onlara qoşulub, öz nəvəmi tərifləyirəm, onlardan heyranlıqla danışıram, buna səbəb nədir?

Niyə biz nəvələrimizi, bəzən övladlarımızdan çox istəyirik?

Burada qeyri-təbii heç nə yoxdur, onun öz təbii inkişaf qanunları var.

Yəqin ki, bu qanunauyğunluğu psixoloqlar, alimlər daha əsaslı və daha elmi şəkildə izah edə bilərlər. Mən isə bir baba kimi, baba-nəvə münasibətlərinin bəzi həyati xüsusiyyətlərindən danışmaq istəyirəm. Məlumdur ki, həyatda hər şey, hamı qocalır, cavanlaşmır.

Ən zəif babaların belə ürəyindəki yaşamaq hissi zəifləmir, bəlkə də ildən-ilə güclənir. Onlar nəinki özləri yaşamaq istəyir, həyatı sevməkdə davam edir, eyni zamanda bu sevgini, bu həyat eşqini əziz adamları ilə - nəvələri ilə səxavətlə bölüşdürməyə çalışırlar. Niyə nəvələri ilə? Qəribədir, vaxtı ilə övladını başa düşməkdə çətinlik çəkən atalar, baba olduqdan sonra aralarındakı böyük yaş fərqinə baxmayaraq, nəvələrini asanlıqla başa düşür, onları daha yaxşı dərk edə bilirlər. Nəvələr də valideyinlərinə deməyə cəsarət etmədikləri ürək sözünü, sirrini babalarına etibar etməkdən çəkinmirlər. Bu qarşılıqlı etibar, etimad babanı nəvəyə, nəvəni babaya bağlayan səbəblərdən biridir, lakin hamısı deyildir.



Namaz Fərzalı oğlu

Azərbaycan xalqı xoşbəxtdir ki, o hələ də çoxuşaqlı, nənəli, babalı, atalı, analı, oğullu, qızlı ailə olaraq qalır. Bu böyük ailə bir nəsil, bir soy ad təşkil edir, əksər halda da bir yuvada ömür sürürlər. Demək, ailə münasibətləri, sülalə əlaqələri bizdə hələ də möhkəmdir. Baba özünü bu ailənin başçısı, ağsaqqalı, qayğıkeşi hesab edir, onun ənənəsini qorumağa çalışır, öz soy adının mənəvi saflığına çalışır.

Çox ailələr tanıyıram ki, burada babanın bir sözünü iki

eləmirlər, onun məsləhətlərinə diqqətlə qulaq asırlar, onun hörmət-izzətini yüksək tuturlar, baba içəri girəndə ehtiram əlaməti olaraq övladlar, nəvələr ayağa dururlar.


Əgər, nənələr ailənin, ocağın hərarətini, mehribançılığını qoruyub, nəsildən-nəsilə yadigar verməyə çalışırsa, babalar isə ailənin, nəslin kişilik, zəhmətsevərlik, mərdlik ənənələrini qoruyub nəsildən-nəsilə yadigar verməyə çalışırlar.

Əslinə baxsan, ailədə nənə də, baba da eyni məqsədə xidmət edir və bütün səylərini ailənin möhkəmlənməsinə, baş verən narazılıqların dinc yolla həll olunmasına, nəvələrin, nəticələrin işgüzar, ləyaqətli böyüməsinə sərf edirlər.

Namaz babam da biz nəvələrinə həmişə nümunə olaraq qalacaqdır. Şübhəsiz hamıya öz babası əzizdir. Ancaq mən istərdim ki, hər kəs öz babasına oxşasın, əslini və nəslini, kökünü yaddan çıxarıb unutmasınlar.

Namaz babamın evindən yuxarıda kiçik qardaşı Ağamalı əmi ailəsi Münəvvər xala ilə 10 uşaqla birlikdə yaşayırdılar. Onların evləri daşdan hörülmüş bina olsada üstü torpaqdan idi, arxası dağın bərabərində idi. Evin üstündəki torpağın hündürlüyü bir metr olardı və 1950-ci il yadımdadır torpağın üstündə qalın otlar bitmişdi, belə torpaqdan heç vaxtı evə su dammazdı.

Bu evlərdən sağda üzü qərbə, daşdan hörülmüş kürsülü 2 otaqlı, böyük artırması və dam örtüyü saxsıdan olan evdə Bayramalı əmi öz ailəsi ilə yaşayırdı.



Əmir Ağamalı oğlu

Bu həyətdə üç qardaş yaşayırdılar, Namaz, Bayramalı və Ağamalı. Namaz babam böyük qardaş olduğundan, hörmət əlaməti olaraq, bütün qardaş uşaqları ona – dədə, Bayramalıya və Ağamalıya - əmi deyə müraciət edərdilər.

1946-cı ildə Bayramalı əmi Qazaxlar kəndinə kolxoz sədri seçiləndən sonra ailəlikcə köçdülər Horadiz stansiyasına və biz də ailəlikcə köçdük onun evinə. 1949-cu ildə biz Aralıq yolda Ceyran arvaddan aldığımız evə köçdük. Sonralar

Namazalıyev Əmir Ağamalı oğlu evləndikdən sonra ata yurdunda ev tikib orada yaşayırdı.

Ondan cənuba tərəf Soltanov Bəşir (Abışlı) kişinin evi yerləşirdi. Onun oğlanları – 1-ci arvadı Göyçək Məhərrəm qızından: - Salman, Fərman, Zaman, Savalan, bacıları Saray, 2-ci arvadı Abıhəyatdan (Toppuzlu nəslindən) isə qızları: - Gülüstan, Kubra və oğlu Əşrəf(Əhliman) doğulub. Salman, Fərman və Zaman 1941-45-ci il Müharibəsində həlak oldular.

Bizdən aşağıda Həsənova Çiçək xala (əri Yaqub müharibədən qayıtmadı) onun oğlanları – Şamxal, Şahmar, Yelmar və qızları Güllü, Səmayə ilə yaşayırdı. Onlarla qonşu Həsnova Zibeyda Fərzalı qızı (əri İmran müharibədən geri dönmədi) oğulları: - Əyyub, Talıb, Fətalı qızları Zinyət, Əntiqə və Sovetdir öz ailəsilə yaşayırdı.

Namaz babam tərəfdə aşağıda Nərgiz yaşayırdı (əri Misir müharibədə həlak olub) və övladları Məleykə və Zakir idi. Məleykə - Rzalılar İsmayıla ərə getdi, qardaşı Zakir isə yetginlik yaşına çatmadı. Onlardan sağ tərəfdə Mənzər yaşayırdı (əri Hüseyn müharibədə həlak olub) və övladları: Sabir, Səxavət və Sevindik idi. Onlarda həyatdan tez köçdülər.

Sonralar, 1960-cı ildə onların həyətində İsmayilov Əli və İsmayılov Yusan özləri üçün şəxsi ev tikib ora köçdülər.

Mənim uşaqlıq illərim bu məhəllədə keçib. Novruz bayramı qabağı Namazalılar, Fərzalı uşağı və Kərbala İsmayıllılar məhəllələrin cavanları həmişə bir yerdə ***"dülə-vermə", "aşıq-aşıq", "beş daş", "fil-fil", "qoz-qoz", "kəndir çəkmə", "atlanmaq", "südlü sümük", "güləşmək"*** və sairə oyunları oynayardıq. Bayram vaxtı isə yumurta döyüşü böyük kütləvi hal alırdı.

Qışın qar yağan vaxtları isə, Namazalı tirəsinin başından sürüşərdik Zaqun dərəsinə aşağı Abışlı Fərhad kişinin evinə tərəf. sürüşənlər kimi uzunboğaz çəkmə ilə, kimi sini qab, vanna, mejmaha, teşt və sairə ilə üzü enişə sürüşərək şənlənərdik.

1950-ci illərdən sonra Ağamalı əmi Qönçə dərəsindən asfalt yoldan aşağıda həyətyanı bağda ev tikib ora köçdülər. Namaz babam isə ondan aşağı Namazalı kəhrizin quyuları olan dədə-baba həyətində kürsülü, böyük eyvanlı üç otaqlı, üstü saxsılı ev tikərək ora köçdü.

Həyətində geniş və gözəl bağı vardı ki, hər cürə meyvələrlə bərabər, hündür gərviş ağaclarına qaldırılmış üzüm tənəklərindən sallanan barlı üzüm saıxımları göz oxşayırdı. Üzüm yetişən vaxtı həyətdə 1 metr hündürlüyündə çardaq qurulardı və onun üzərinə şirəli xüsusi otlar yığardıq, onun alt hissəsinə çadırdan örtük çəkilərdi. Dərilən üzümləri çardağın üstünə tökərdilər. Bizləri də ayaqlarımızı təmiz yudurtdurub, üzümləri ayaqla tapdalayıb əzərdik və ordan tökülən şirələri tiyənlərə yığıb, içərisinə bir az xüsusi sarı torpaq töküb odla bişirərdilər. Nəticədə ondan çox dadlı doşab və meyvəli, yemişli irçal alınardı. Doşab bişdikdən sonra onu saxsı küplərə yığardılar. Tiyəndə qalan şirələri barmaqlarımızla sıyırıb yedikdə ləzzətindən doymaq olmazdı.

Bundan başqa Namazalılar məhəlləsində (Qönçə dərəsi) asfaltdan aşağı Vəli Kərbala İbad oğlu yaşayırdı. O, çox xeyirxah işlə kankanlıq edərdi. Ondan aşağı İskəndər oğlu Şəmil, Əli və Dilquşa, Gülsüm yaşayırdılar. Arxa tərəfdə Həcər Nəriman qızı – oğlanları: Fərzalı, Zərbalı və qızı Məhliqa ilə yaşayirdılar. Onlardan aşağı Züleyxa Qəhrəman qızı – yeganə övladı Nobatla yaşayırdı. Yandakı həyətdə Şirin Cavad oğlu – yoldaşı Məhliqa Səfəralı qızı ilə yaşayırdı.



Şəkildə soldan: ***Cəmil Nəcəfov, Fərzalı Namazalıyev və Mösü Məhərrəmov Namazalılar nəslinin fəxridirlər***

Namaz babamın bacısı uşaqları qonşuluqda Əyyub İmran oğlu Həsənov ailəsilə birlikdə yaşayırdı. O, kənd Sovetində katib, sonralar


isə kolxozda bağ briqadiri işləyirdi və çox güclü hafizəyə malik bir adamdı, məhz onun sayəsində II Dünya Müharibəsində həlak olanların siyahısı tam tutulmuşdu. Əyyubun qardaşı Talıb həyat yoldaşı Roza və övladları ilə qonşuluqda və bacısı Sovet ailəsi ilə birlikdə ev tikib bu Qozlu çayın sol tərəfində yaşayırdılar.

Onlardan şərqə tərəf Soltanov Əlinin və Soltanov Bəhlil Aslan oğlunun evləri Qozlu çayın sol sahilində yerləşirdi.



Mirzalı Namazalıyev

Onlarla yanaşı, Qozlu çay boyunca şimala tərəf Hüseün Hüseynov, Əliş və Əyyub Əzizov qardaşları, Bayramalı və Mirzalı Namazalıyevlərin evləri vardı. Şimal tərəfə Kərimov Fazil Kərim oğlunun, Soltanov Savalan, Namazalıyev Hüseyn, Namazalıyev Əvəz və Qasımov Cəfərin evləri yerləşirdi. Cəlil Rza oğlu Mehdiyev əsl kənd ağsaqqalı burda oğlu Həmidlə yaşayırdı. O,eyni zamanda dini mərasimlərdə mollalıq edirdi. Həmin həyətdə Bəhlul Cəlil oğlunun öz şəxsi evində ailəsi ilə birlikdə yaşayırdı.



Rüstəm Məhərrəmov

Rüstəm Mösü oğlu Məhərrəmovun evi bu məhəllədə Horadiz-Füzuli şosse yolun 13 km-də yolun alt hissəsində yerləşirdi.

Onun qonşusu Namazalıyev Mehralı Əbdüləli oğlu və Sona Abış qızı Sultanova birgə ailəlikcə 10 uşaq böyüdüb başa çatdıraraq burada yaşayırdılar. Onların bağlarının aşağısında Məmməd Abış oğlu Sultanov və Raya Behbudova öz övladları ilə yaşayırdılar.

Namazalılar məhəlləsində böyümüş, təhsil almış, tanınmış şəxsiyyətlər çoxdur bu haqda sonrakı səhifədə biləcəksiniz.

Bu məhəllədə: Namazalıyevlər, Əliyevlər, Həsənovlar, Mehdiyevlər, Qasımovlar, Cəfərovlar, Məhərrəmovlar, Sultanovlar, İsmayılovlar, İmanovlar, Kərimovlar, Hüseynovlar, Əzizovlar, Abışovlar nəsillərin nümayəndələri yaşayırdılar.

Namazalılar məhəlləsindən Qarabağ şəhidləri:

1. Namazalıyev Qurban Hüseyn oğlu;
2. Namazalıyev Ceyhun Ənvər oğlu;
3. Namazalıyev Səttar Yavər oğlu;
4. Namazalıyev Bəxtiyar Əvəz oğlu;
5. Mehdizadə Zaur Həmid oğlu.
Allah bütün Qarabağ şəhidlərimizə rəhmət eləsin!..

QÖNÇƏ DƏRƏSİ VƏ MƏHƏLLƏSİ

Qönçə dərəsi – Namazalılar məhəlləsinə aid olub, Horadiz – Füzuli şosse yolunun şərqində, Namazalılar tirəsi ilə Namazalılar yalı arasında yerləşən geniş dərədir. Bu dərəyə ona görə "Qönçə dərəsi" adı veriblər ki, bu dərədə ulu Namazalı babamızın nəvəsi Qönçə Məşədi Həsən qızı, kəndimizdə sayılıb- seçilən, kənd ağbirçəyi yaşamışdır.

1950-ci illərdə Qönçə dərəsinin sol və sağ yamaclarında köhnə evlər var idi. Dərənin cənub yamac tərəfində, şosse yolunun lap yaxınlığında Əbdüləli Bayramalı oğlu – yoldaşı Qönçə nənə və övladları: Eyvaz, İskəndər, Mehralı və qızları Nöyrüş, Nobat və Sara yaşamışlar.

Həmin dərənin cənub tərəfində yamacda isə Kərbalayi Mirzalı Niftalı oğlu – yoldaşı Çiçək Kərbalayi Həşim qızının övladları: Səfəralı, Kalbalı, Surxay, Hüsnü, Pəri və Minarə Əliyevlər yaşamışlar.

Qönçə dərəsinin şimal yamacında: Fatma nənənin (Həcərin anası) evi, ondan qərbə tərəf Səfəralı Mirzalı oğlunun evi - yoldaşı Həcər Nəriman qızı və övladları: Məhliqa, Fərzalı, Zərbalıdır.

Ondan şimala tərəf evdə Mösü Rüstəm oğlu – yoldaşı Sürəyya Namaz qızı, övladları: Ərşad, Zərif, Məhərrəm, Rüstəm orda doğulmuş və qalan uşaqları Aralıq yol məhəlləsində Əhəd, Nərgiz, Nuridə və Səadət doğulmuşlar. Yandakı evdə isə Həzi Behbud oğlu – yoldaşı Züleyxa Qəhrəman qızı, övladı Nobatla yaşamışdır. Sonralar hamısı aşağı bağa köçdülər.

Qönçə dərəsində böyük xırman var idi. Əl ilə biçilən taxılı bu xırmanda öküz və ya ata qoşulmuş vəllə döyüb sünbüldən çıxarardılar. Yadımdadır, biz məktəblilər dərsdən sonra bura gələrdik

və həmin vəlin üstünə çıxaraq, öküzləri dairəvi sürərdik, yerə tökülmüş sünbüllərin üstü ilə fırladardıq. Vəl tut ağacından idi, uzunluğu 2 metr, eni isə 60 sm-dir. Vəlin qalınlığı 10 sm və altında papaqlı qalın mıxlar vurulmuş bir alət idi. Taxılları döyəndən sonra, kişilər və qadınlar şana ilə taxılı küləyə tərəf sovurardılar ki, sünbüldən küləşləri aypılsın. Sovrulandan sonra yerdə qalmış təmiz taxılı kisələrə yığıb kolxoz ambarına təhvil verərdilər.

Burada Namazalılar, Rzalılar, Kərbala İsmayıllılar və Fərzalı uşağı məhəllələrindən gələn cavanlar, gün batandan sonra "Südlü-sümük" oyunu oynayardıq. Oyun qaydası belə idi: İki dəstədə, hər dəstədə 20 nəfər olmalıydı. Püşk atılırdı birinci kim başlayacaq. İri bir sümüyü hamıya göstərirdilər ki, hamı görsün və tanısın. Sümüyü bu qaranlıqda mərkəzdən uzağa atardılar və hamı qaçardı sümük atılan səmtə. Hansı dəstə tapsaydı, digər dəstənin kürəyində sümük tapılan yerdən, atılan yerə qədər gətirməliydi. Bu oyun çox səs-küylü keçərdi, hamı şənlənərdi.

1965-ci ildən sonralar Qönçə dərəsinə köçərək Möhsün, Mənsim, Aydın və Şəmil Namazalıyevlər, Şahmar və Mürsəl Həsənovlar, Əli, Hümbət, Zakir və Anar İsmayılovlar, Mürsəl Şirinov, Fazil Fərzəliyev, Hüseyn Mahmudov və Fətalı İmanov ev tikib burada yaşayış məskəni salmışlar

ƏCƏB NƏNƏNİN BAĞ YERI

Əcəb nənənin bağ yeri - Kəndin şimalında, Horadiz – Füzuli şosse yolunun qərb hissəsində, Namazalılar məhəlləsinin bağ hissəsinə aid torpaqlardır. Bu yer Qönçə dərəsinin şimalından Calal dərəsinin başlanğıcına qədər, yolun alt hissəsindən Qozlu çaya qədər olan ərazidə yerləşir.

Bu torpaq sahəsinə Əcəb nənənin adı verilməsi XVIII əsrin axırlarına təsadüf edir, Namazalı babanın oğlu Bayramalının Əcəb nənə ilə evləndikdən sonra, atası cehiz payı olaraq bu torpaq sahəsini Əcəb nənəyə bağışlamışdır. Sonralar burada 10-dan çox ailə köçüb həyətyanı evlər tikərək yaşamışlar. Çox münbit torpağı olduğundan burda hər cür meyvələr, bostan və tərəvəz yetişir.

Bu yerdə Hüseyn, Mirzalı, Rafiq, Əvəz və Mehralı Namazalıyevlər, Kərim Kərimov, Cəfər Qasımov, Həmid və Bəhlul Mehdiyevlər, Rüstəm Məhərrəmov, və Məmməd Sultanovun evləri, həm də həyətyanı bağları yerləşirdi.

Əcəb nənə bağ yeri Rzalılar kəhrizin suyu ilə suvarılırdı.

KƏRBƏLA İSMAYILLILAR MƏHƏLLƏSİ

Kərbəla Ismayıllılar məhəlləsi – Horadiz Füzuli şosse yolun alt və üst hissəsində, Fərzalı uşağı məhəlləsi ilə Namazalılar məhəlləsi arasında olan ərazidə yerləşir. Bu məhəllədə yaşayan adamlar çox mülayim, xoşxasiyyətli, zəhmətkeş, gülərüz, zarafatcıl insanlardır.

Bu məhəllə haqda ilk düşünəndə Hacı Qasım yada düşür. Belə ki, Hacı Qasım "Həccə" ziyarətdən qayıdandan sonra xeyriyətçilik edərək öz hesabına "İmam Piri"-ni daşla hördürür və İmam Rzanın qız nəvəsinin qəbrini ağ mərməri döşəyib abadlaşdırır. Allah ona rəhmət eləsin! Hacı Qasım kişi - Fərhad Şükür oğlunun əmisidir.

Bu tayfadan Fərhad Şükür oğlu İsmayılov 1943-52-cü illər Horadiz kəndinin kolxoz sədri vəzifəsində 9 il idarə heyətinə rəhbərlik etmişdir. Fərhad kişi çox təmkinli, gözəl insan, səbirli və insanlara qarşı münasibəti yaxşı olub. O, hər bir kolxozçunu diqqətlə dinləyərmiş, sonra münasib tədbir görərmiş. Hələ indilərdə də belə misal çəkirlər;-"Fərhad kişinin atı kimi adamı görəndə dayanırsan?"

Fərhad kişi kənd adamlarının taxıl üyütməyə uzaq kəndlərə getdiyini, əzab əziyyət çəkdiklərini görəndə and içir ki, mən Şükür oğlu Fərhad olmaram, əgər Horadizdə dəyirman tikdirməsəm. Vədinə əməl edən Fərhad kişi kəndin pambıq sahəsində, Qozlu çayın sağ kənarında, Araz arxının suyu ilə işləyən su dəyirmanı tikdirir.

Bu məhəllədə yaşlı ağsaqqalların hamısı sadə, baməzə, zarafatlarından qalmayan kişilərdən:- Surxay kişi, Oruc kişi, Əsəd kişi, Həsən kişi kimi adamlardan çox duzlu, gülməli əhvalatlar var.

Mosan İsmayılov uzun müddət ferma müdiri, pambıq briqadiri işləmişdir.

Vəli İsmayılov – kənd Sovet sədri, kolxozda sədr müavini və üzüm briqadiri vəzifələrində işləmişdir.

Yusan İsmayılov – müəllim olub alman dili dərsi öyrədərdi,

Məmməd İsmayılov - zootexnik və mal ferma müdiri işləmişdir. Bu məhəllədə ancaq İsmayılovlar yaşayırdılar.

Bu məhəllənin Qarabağ şəhidi:
İsmayılov Tofiq Vəli oğlu.
Allah Qarabağ şəhidlərinə rəhmət eləsin!...

FƏRZALI UŞAĞI MƏHƏLLƏSİ

Fərzalı uşağı məhəlləsi – Əziz kişinin bərəsindən 200 metr yuxarı sol tərəfdə, yoxuşun başlanğıcında, Horadiz – Füzuli şosse yolun üst və alt tərəfində Kərbala İsmayılılar məhəlləsinə qədər, asfalt yoldan Qozlu çaya qədər olan ərazidə yerləşir.

Bu məhəllədə yaşamış Şirinovların ulu babaları Şirin kişi bizim kənddə "Kətta" olub. Şirin kəttanın Nəcəf adlı qardaşı və onun oğlu – Ağa doğulub.


Şirin kəttanın iki oğlu Bayramalı və Fərzalı olub.

Bayramalının uşaqları – Şirin və Mənsim olmuşdur.

Şirin Bayramalı oğlunun uşaqları – Bayramalı, Fətalı, Maya və Suruşdur.

Mənsim Bayramalı oğlunun uşaqları – Səfər, Xəlil, Nərgiz və Firəngizdir.

Fərzalının uşaqları – Həsən, Alı, Ağalar və Fərzalı doğulub. Fərzalı kişinin uşaqlarının əksəriyyət çoxluğunun burada yaşadığı üçün, kənd adamları bu məhəlıəyə belə ad vermişlər.



Ağalar Şirinov

Bu məhəlləni xatırlayarkən, birinci növbədə Həsən kişi yada düşür, çünki Fərzalı uşağının ən yaşlı nümayəndəsidır. Həsən kişi çox qüvvətli, cəsarətli, işgüzar və əməksevər adam idi. O, 1941-45-ci illər Müharibə iştirakçışı olub və alman dilini mükəmməl bilirdi, həm də uzun müddət kəndimizdə xeyirxah bir işlə - kankan kimi işləyirdi. Onun kiçik qardaşı Ağalar da kankan işində çalışıb. Kəhrizlərimiz-in onunla yanaşı Şirin kişi, Vəli kişi, Qəmbər kişi və



Alı Şirinov

Kərim kişi də bu xeyirxah işdə, kənd kəhrizlərinin abadlaşdırılmasında çalışırdılar.

Alı kişi onların ortancıl qardaşı isə kəndimizdə ilk sürücü olub, kolxoz təsərrüfatında çalışardı. Bundan başqa Alı kişinin gözəl səsi var idi. Onun sürdüyü Zis - 150 yük avtomobili ilə gedəndə oxuduğu mahnıları iki kilometrlikdən eşidilirdi, həmçinin "Aşura" mərasimində dini ayinləri çox məharətlə oxuyardı.

Onların kiçik qardaşı Fərzalı kənddə sürücü işləyib və o, Kazımlılar məhəlləsində yaşamış, belə ki, onun atası Fərzalı kişi həyat yoldaşı Sayad xanım vəfat etdikdən sonra Kazımlıdan Bəyim xanımla evlənir. Fərzalı kişi vəfat edəndən sonra onun oğlu dünyaya gəlir və onun şərəfinə oğlunu Fərzalı adlandırılır.

Fərzalı uşağı çox uşaqlı olmuşlar: Alı kişi -10, Həsən kişi -8, Ağalar kişi -7 və Səfər kişinin isə - 8 övladı böyüdüb tərbiyə etmişlər. Onların barlı-bərəkətli həyətyanı bağları vardı. Ağalar kişinin həyətyanı bağında elə bir armud var idi ki, onun kimi sulu və şirin armudu mən hələ heç yerdə görməmişəm.



İsmayıl Şirinov

Şirin kişi çox güclü, pəhlivan cüssəli olub. O, kəndimizdə kəhrizləri abadlaşdıran – kankan idi. Onun oğlu Fətalının iki oğlu:- Yolçu və Fazil doğulub.

Burada Mirzalı Şirinov haqda çox cəsarətlə deyək ki, kəndimizdə dərin hafizəli, geniş qabiliyyətli, riyaziyyat elmini əla bilən müəllimlərdən biri olmuşdur.

Bu məhəllədə böyüyüb başa çatmış, Azərbaycan göylərinin şahini, Qarabağ döyüşlərində düşmənə qarşı mərdliklə vuruşan Rəfael Gəncalı oğlu Şirinov kəndimizin fəxridir.

Fərzalı uşağının əksəriyyəti sürücülük peşəsinə yiyələnmişdir. Onlardan: Alı kişi, Fərzalı, Səfər, İsmayıl, Mikayıl, Ağamalı, Gəncalı, Pənah, Eynullah, Bəhlul, Bəhram, Qəhrəman, və Vüqar hamı tərəfindən əsl sürücü kimi tanınardılar.

Ağalar kişinin ailəsi bir ildə 40 ton pambığı əl ilə yığdıqlarına görə 1956-cı ildə "Volqa" Qaz-21 minik avtomobili ilə mükafatlandırılıb.

Bəhram Ağalar oğlu Bakı şəhərində Nəqliyyat Departa-mentində sürücü işlərkən nəcib və sadə peşəsi ilə Dövlət tərəfindən "Əmək Şöhrəti" və "Qırmızı Əmək Bayrağı" ordeni almışdır.

Fərzalı uşaqları mərddilər və hörmət sahibidirlər.

ORTA GÜNEY MƏHƏLLƏSİ

Orta güney məhəlləsi – Əziz kişinin bərəsindən orta kəndə gedən yolun solu və sağı körpüyə qədər, Qozlu çay boyunca Behbudalı uşağın evləri sağa, Fərzalı uşağı məhəlləsi sağa, Füzuli – Horadiz şosse yolu Əziz kişinin bərəsinə qədər olan ərazidə yerləşir.

Bu məhəllənin ortasında kolxoz birriyi, avtomobillər üçün qaraj, taxıl və ehtiyyat hissələri anbarları, dəmirçi sexi fəaliyyət göstərirdi.

Bu məhəllədə yaşamış Vəli Əli oğlu Rzayevin Horadiz kəndinin iqtisadiyyatının yüksəlməsində və kənd camaatının güzəranının yaxşılaşmasında böyük rolu olmuşdur. Kolxoz sədri və Füzuli rayonunda XDS-nin sədri, Yağ Pendir zavodunun direktoru və başqa mühüm vəzifələrdə çalışmışdır.

Hüseyn Nəcəfqulu oğlu Bəylərov Sovet sədri və kolxozda mühüm işlərdə çalışaraq özünü əsl ağsaqqal kimi aparmışdır.

Onun qardaşı Abbasqulu Bəylərov uzun müddət kənddə "Qarışıq mallar" mağazasında işləmişdir.

Orta güney məhəllədə Muxtar Məmməd oğlu Sultanov uzun illər kənddə çox xeyirxah bir sənətlə - dəmirçiliklə məşğul olmuşdur. Muxtar kişinin oğulları: Ədil Sultanov – Horadiz kənd Sovet sədri, Nobil Sultanov – Horadiz kənd orta məktəbin direktoru, Əvdil Sultanov – Füzuli rayon XDS-nin İcrayyə Komitəsinin sədri vəzifələrində işləmişlər.

Şahbaz uşaqları – Elyas, Eyvaz, Nəriman və Fərman Eyvazov qardaşları kənddə hörmət sahibi olaraq öz zəhmətlərilə ailələrini dolandırmışlar..

Oruc Məmmədqulu oğlu Abdinov – kənddə baş molla kimi dini mərasimlərdə "Qurani-Kərim"dən ayələr oxuyardı. Ərəb-fars dillərini bildiyindən bütün ayələri azəricə başa salardı.

Burada Sultanov Həmid Ağalar oğlu kolxozda kassir yşləyib.

Bu məhəllədə – Rzayevlər, Bəylərovlar, Əliyevlər, İbişovlar, Eyvazovlar, Səfiyevlər, Sultanovlar, Abdinovlar, Şükürovlar, Əhmədovlar, Hacıyevlər, Vəliyevlər, Cəfərovlar və Həsənovlar

Bu məhəllənin tanınmış şəxsiyyətləri haqda sonrakı səhifələrdə məlumat alacaqsınız.

ZAQUN DƏRƏ MƏHƏLLƏSİ

Zaqun dərəsi məhəlləsi – Horadiz kəndində ən çox məhşur olan coğrafi obyektlərdən biridir. Bu məhəllə Əziz kişinin bərəsindəki yol ayrıcından şimal-şərqə tərəf uzanan dərədir. Dərənin düz ortasından gedən torpaq yolun ətrafında, dərənin sağ və sol maili hissəsində evlər üz-üzə tikilmişdir.



Zaqun dərə məhəlləsi
(bu şəki video-lentdən götürülmüşdür)

Zaqun dərəsi oroniminin tərkibindəki *"zaqun"* sözünün elmi əsaslarla tərkib hissəsini araşdıranda məlum olur ki, bu məhəllədə qədim türk tayfalarından olan *"sak"*-lar və *"hun"*-lar yaşamışlar, bax elə ona görə bu məhəlləyə "sakhun" ilk ad verilsədə kənd adamların dilində asımlasiyaya uğrayaraq *zaqun* kimi işlənib.

Bəzi mülahizələrdə belə söyləyirlər ki, bu dərənin adamları həddən artıq qanunpərəst və düzgünlüyü sevən olduqlarına görə ona *"zakon"* adı vermişlər. Zakon rus sözü olub *"qanun"* deməkdir. Sonralar bu məhəllənin adı kənd adamlarının dilində çevrilərək "zaqun" kimi deyənlər də vardır.

Bütün evlərin çıxışı bir orta yola idi. Zaqun dərəsiində yaşayanlar əvvəllər içməli suyu Namazalı kəhrizinin suyundan, səhənglə və ya çəlləklə, 30 litirlik bidondan istifadə edərək evlərinə daşıyırdılar. Həyətyanı bağları suvarmaq üçün isə Rzalılar kəhrizin suyundan istifadə edirdilər. Sonralar, yəni 1970-ci illərdən sonra sakinlər öz həyətlərində 10-15 metr dərinlikdə quyu qazdırıb, elektrik su nasosu ilə suyu çəkərək istifadə edirdilər. Məhz ondan sonra Zaqun dərəsi yaşıllığa bürünmüşdü.

Burada yaşamış Allacov Hüseynqulu əsl kənd ağsaqqalı olub, kolxozda yüksək vəzifələrdə çalışıb və ömrünün ahıl vaxtlarında dini ayinlərin təbliğilə məşğul olan mömin bəndələrdən biri olub. Onun oğlu Səməd Allacov kolxozda uzun illər anbardar işləyərək kənddə böyük nüfuzlu şəxslərdən olub.

Eləcə də Mehdiyev Şəmil – manqa başçısı, xəzinədar kimi kolxozçuların əmək haqlarını vaxtlı-vaxtında sahiblərinə çatdırırdı.

Səfiyev Səməd kolxozda yanacaq doldurma işində işlərkən hörmətə layiq şəxs kimi tanınıb.

Bu məhəllədə 140 il ömür sürmüş kənd ağsaqqalı Əziz kişi tanınmış şəxsdir. Bu haqda "Əziz kişinin bərəsi" geniş yazılmışdır.

Mehdiyev Vəli Əliş oğlu – öz üzərinə götürdüyü böyük bir məsuliyyəti – yəni, kəndimiz haqda "Yaddaş" və "Gün gələcək" kitablarını çapdan buraxdırmışdır.

Mehdiyev Nuruş İmanqulu oğlu isə bizim fəxrimizdir. Belə ki, O, II Dünya Müharibəsi dövründə igidliklə vuruşaraq Fransa

qəhrəmanı kimi yüksək ad qazanıb. Xanış və Kamal Rəhimovlar Zaqun dərənin sağ ucqarında yaşayırdılar.

Xanalı və Yağnalı İsmayılovlar sadə, işgüzar adamlar idilər.

Sultanov Ağalar Həmid oğlunun Zaqun dərənin ən ucqarında, babası Fərhad kişinin evinin yerində evi var idi. Ondan aşağı İsmayılov İbiş Abdulrəhim oğlunun evi yerləşirdi.

Sonra Rəşid və Arif İsmayılov qardaşların, Məhərrəm və Baratın evləri vardı. Zaqun dərəsinin adamları baməzə və zarafatcıldılar, həm də əksər şəxslərin ləqəbi vardı.

Bu məhəllədə: İbişovlar, Mehdiyevlər, Allacovlar, Cəfərovlar, Səfiyevlər, Rəhimovlar, Əliyevlər, Mikayılovlar, İsmayılovlar, Həsənovlar, Zeynalovlar və Sultanovlar nəslinin nümayəndələri yaşayırdılar.

Bu məhəllənin tanınmış adamları haqda sonrakı səhifələrdə məlumat ala biləcəksiniz.

Zaqun dərəsinin Qarabağ şəhidləri:

1. ***Allacov Hüseyn Səməd oğlu,***
2. ***Həsənov Əlövsət Əfsər oğlu,***
3. ***Zeynalov Güloğlan Abdulhüseyn oğlu,***

Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin!

ABBASBƏYLİLƏR MƏHƏLLƏSİ

Əziz kişinin bərəsindən 50 metr, Namazalı kəhrizə gedən yolun sol tərəfində yerləşir. Bu məhəllə Abbas bəy Yüzbaşının adı ilə bağlıdır.

Abbas bəy Yüzbaşı çox hörmətə layiq və tanınmış hərbiçilərdən biri, öz dövrünün dəyərli ağsaqqallarından olmuşdur.

Abbas bəy Muradxan oğlunun üç oğlu və bir qızı olmuşdur.

1.Əsəd Abbas bəy oğlu – Gülxanım arvadından: Cəmil, Famil və Kamal doğulub;

2. Şəmil Abbas bəy oğlu – Mələk Həsən-qulu qızından: Cəmil oğlu doğulub;



Cəmil Nəcəfov

3. Muradxan Abbas bəy oğlu – Zümrüd Şahverən qızından: Rüxsarə, Şükufə qızları və Abbas oğludoğulub;

4. Nənəqız Abbas bəy qızı – Namaz Fər-zalı oğlundan: Fərzalı, Həsən oğlu və Sürəyya, Səkinə, Şöhlət qızları doğulub.

Abbas bəy nəslindən ilk növbədə Muradxan həkim yada düşür.



Abbas Abbasov

Düzdür o, həkimlik məktəbi qurtarmasa da, 1930-cu illər Füzuli rayonunda yeganə rus həkimi Aristovun yanında köməkçi olarkən, ondan tibb elminin sirrlərini öyrənib və uzun müddət Qafanda və Meqri rayonunda həkim kimi işləmişdir.

Bu nəsildən seçilmiş və tanınmış insan olan Cəmil Nəcəfov igid adamlardan biri idi. O, II-Dünya Müharibəsinin iştirakçısı olub, mərdliklə vuruşub. Axır döyüşlərdə minaya düşüb və qarın nahiyəsindən belinə qədər para-para olan bağırsaqları, böyrəkləri zədələnmiş, həkim əməliyyatı ilə bir böyrəyi çıxarılıb və sağaldıqdan sonra öz kəndinə qayıdıb.

Cəmil uzun müddət kənddə qoyun ferma müdiri işləsədə, o, fiziki işlə də məşğul olurdu. Beləki, 1954-cü ildə Horadiz kolxozu 17 min manata bir boz rəngli rus atı almışdı. Cəmil bu atı xüsusi bir rejimlə xidmət edib bəsləyib. Füzulidə təşkil olunan rayonlar arası yarışlarda "Boz" atıyla Cəmil birinci yer tutub.



Fazil Nəcəfov

Cəmil Nəcəfov çox cəsarətli, qorxu bilməyən, qolu qüvvəli, düzə-düz, əyriyə-əyri münasibət bəslərdi.

Məhz Cəmilin sayəsində yay dövründə Ermənistana yaylağa gedən kolxoz qoyunla-rına heç bir xətər toxunulmazdı.

Ona sataşana elə sataşardı ki, ömrü boyu yaddan çıxarmazdılar.

Nümunə: - Günlərin birində qonşusu Məhərrəm Səfqulu oğlu Fərzəliyev: - Cəmil Nəcəfova xəbər verir ki, bəs Müstəcəb (şərti addır) mənə dinclik vermir və mənə deyir həyətindən yol ver Cəmilin

atını oğurlayım. Bunu eşidən Cəmil deyir ki, sabah axşam razılıq ver, o da gəlib mənim atımı oğurlasın. Səhərisi günü Cəmil bütün dostlara və ələlxüsus da Müstəcəbə çatdırır ki, axşam Bakıya 2 günlük iş dalınca gedirəm. Eyni zamanda Cəmil qardaşı Familə bərk-bərk tapşırır ki, bu gecə yatmazsan və nə vaxt Məhərrəmin çəpərindən səs gələn kimi sən aftafanı götürüb ayaq yoluna gedərsən. Gecə nə qədər səs gəlirsə də Famil ayaqyolunda olur. Səhər açılana qədər Müstəcəb cəhd edirsə də oğurluq baş tutmur və nəhayət kor-peşiman evinə qayıdır. Bunu görən arvadı, hardasan ay evi yıxılmış tövlədə bir dənə də mal, qoyun qalmayıb hamısını aparıblar. Müstəcəb hər şeyi anlayır və bu günə kimi o məsələnin altdan bir daş, üstdən bir daş qoyub susur. İki gündən sonra Cəmil böyük bazarlıqla Bakıdan qayıdır.

Bu məhəllədə Nəcəfovlar, Abbasovlar və Fərzəliyevlər yaşayırdılar.

ƏMİRQULULAR MƏHƏLLƏSİ

Əmirqulular məhəlləsi Horadiz – Füzuli şosse yolunun hər iki tərəfində, Güney məsciddən Əziz kişinin bərəsinə qədər olan yerdir.

Bu məhəllədə ancaq Əmirqulu nəslindən olanlar yaşadığı üçün belə adlanır. Əmirqulular nəslinin ağsaqqallarından: Əmirov Səttar (faytonçu), Cəfərov Surxay, Cəfərov Xanlar, Cəfərov Əhməd, Əmirov Yunus, Vəliyev Hüseyn və Əmirov Süleyman (dəllək) kişilərinin övladları yaşayırdılar.



Gəlin gətirmə - soldan Fazil, Sahib, Cəbrayıl Əmirovlar

Burada mən qeyd etməliyəm ki, Süleyman kişinin sənəti dəllək olsa da onun uşaqlarının hamısı musiqiyə meyilli idilər. Hətta onlar öz ansambllarını da yaratmışdılar. Kəndimizin və qonşu kəndlərin əksər toylarını da onlar idarə edərdilər.

Mən həmişə təəccüb edərdim və öz-özümə sual verərdim? Nə üçün ataları dura-dura kənd arası "Firən" ansamblı deyirdilər? Bəzi vaxtlar kənd arasında "Firən ansamblı" da deyirdilər.

Sonralar tarixi araşdırdıqda bir kitabda məlum oldu ki, bunların anası Firən xalanın atası Aşıq Hümbət XIX-əsrin sonunda və XX əsrin əvvəllərində bizim ərazidə tanınmış aşıqlardan olub. Deyilənə görə 1880-cı ildə "Aşura" mərasimləri dövründə, o dövrün kənd mollaları: Hacı Mirzə, Mirzə Hüsü və Mirzə Əziz dini mərasimdə oxutmaq üçün Aşıq Hümbətin sazını vurub sındıraraq, onu dini ayinləri oxumağa məcbur edərmişlər.



Şəkildə: soldan – nağarada- Fazil, tarda-Əfsər və oxuyur- Tehran Əmirov

Deməli, Süleyman kişinin uşaqlarına musiqi həvəsi onlara ana babalarından keçmişdir. Süleyman kişinin böyük oğlu Əfsər-tarda, Veysəl-kamançada, Cəbrayıl - qarmonda, Mikayıl və Məzahir- gitarada, Vidadi Veysəl oğlu - qoşa nağarada və bunların bacısı oğlu Fazil isə nağarada çalardılar. Bundan əlavə bu ailə uşaqları çox baməzə idilər.



Vəli Əmirov

Bu ailədə olan Seyidəli (həmişə subay)ilə baglı çoxlu lətifələr və baməzə əhvalatlar vardır.

Cəfərov Əhməd Xanlar oğlu uzun müddət kolxozda sürücü işləyərək hörmət sahibi olmuş və ilan zəhərindən faciəli ölmüşdür .Cəfərov Əvəz Surxay oğlu uzun illər Horadiz stansiyasında Neftbazada işləmiş, öz səmimiliyilə, ağır və təmkinli davranışı ilə həmişə seçilərdi.

Əmirov Vəli Səttar oğlu - əvvəlcə kolxozda, sonra isə Horadiz stansiyasında Yük bazasında işləyirdi. Olduqca səmimi və xoşxasiyyət bir insan kimi özünü göstərmişdi.

Mürşüd və Sabir Səttar oğlu Əmirov qardaşları İqtisad elmlər namizədi alimidirlər və Bakı şəhərində yaşayırlar.



Hüseyn və Mirzalı toyda

Əmirov Fərman Yunus oğlu uzun illər sürücü işləyərək, özünü əla sürücü kimi göstərmişdir. 2006-cı ildəMəşhəti ziyarə-tində olub.

Əmirov Müslüm Yunus oğlu da Hora-diz stansiyasında olan ticarət bazasında işləyib, həm də, bu məhəllədə şosse yolun üstündə ev tikib ailəsilə birgə yaşayırdı.

Əmirovlar Əfsər, Veysəl, Cəbrayıl, Məzahir qardaşları da şosse yolun alt hissəsində hərəsinin öz şəxsi evlərində ailələrilə birgə yaşayırdılar.

Bu məhəllədə Hüseyn Zülfüqar oğlu və həyat yoldaşı Miniş Səttar qızı ilə bütün

kəndin xeyir-şərində aşbazlıq edərdilər, həm də çox gözəl xörəklər bişirməkdə ad-san qazanmışdılar. Hüseynlə birlikdə bəy toylarında Mirzalı Fətəli oğlu Əliyev də sənəti traktorçu olsa da, arabir aşbazlıq edərdilər.

Bu nəsildən Qarabağ müharibəsinin iki şəhidi olub:

1. Əmirov Elman Salman oğlu

2. Əmirov Nizami Müslüm oğlu

Bütün Qarabağ şəhidlərimizə Allah rəhmət eləsin! Amin!..

ARALIQ YOLU MƏHƏLLƏSİ

Aralıq yolu(küçəsi) məhəlləsi – Kəndin mərkəzində olan Namazalı kəhrizindən başlayıb və Güney kəhrizə və Saqqızlı məhəlləsinə qədər cənuba uzanan yoldur(küçədir).

Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində *aralıx* sözü *"hərtərəfi bağ ilə əhatə olunmuş yer"* mənasını ifadə edir.



Aralıq yolundan (küçəsi) bir görünüş
Soldakı darvaza Əbilhəsən Allacovun, sağdakı darvaza isə Mösü Məhərrəmovundur.

Aralıq yolda, Namazalı kəhrizinin aşağı 50 metrliyində kənd hamamı (iki nömrəli, bir ümumi yerli) və ondan sonra keçmiş mazutla işləyən, kəndə elektrik işığı verən, gündüzlər isə taxıl

üyüdən dəyirman var idi. Bu dəyirmanı bura bitişik daş binada XIX əsrin sonlarında və XX əsrin əvvəllərində yaşamış, varlı-karlı Nəriman Məmmədov tikdirib. Bundan başqa keçmiş Sovet idarə binası və kənd klubu Nərimana məxsus olmuşdur.

Namazalı kəhrizindən axan su Aralıq yolu ilə çəpər dibiylə çəkilən arxla yol ətrafı həyətlər suvarardılar. Aralıq yolunun sol və sağ tərəfləri Güney kəhrizə kimi həyətyanı evlərdir. Bu yol baxdıqca göz oxşayırdı. Belə ki, yol ətrafında həyətyanı bağçalardakı ağacların budaqları baş-başa birləşmişdi.

Namazalı kəhrizi tərəfdən Aralıq yoluna daxil olduqda sol tərəfdə İmanov Bahadurun evidir. Bahadur kişi – kənddə təftiş komitəsinin sədri və briqadir kimi, səbrli, təmkinli fəaliyyətilə hörmət qazanıb. Ondan sonra İmanova Minişin evi və həyətyanı bağı vardı.



Bahadur İmanov

Sağ tərəfdə köhnə dəyirmanla divar-divara daş evdə Məmmədov Eyvaz İlyas oğlu ailəsilə birlikdə orda yaşayırdılar.

Onlardan aşağı sol tərəfdə Mösü Məhərrəmovun göy rəngli dəmirdən darvazası və iki mərtəbəli evi vardı. O, əməkdə göstərdiyi fəaliyyətinə görə Dövlət tərəfindən Sosiyalist Əməyi Qəhrəmanı adına layiq edilmiş, trakror briqadasının briqadiri, öz halal zəhmətilə, səmimi və dəqiq davranışı ilə kənd ağsaqqalı kimi tanınmışdır. Bunlardan başqa Mösü kişinin yaxşı bağban səliqəsi və sahmanı da vardı. Öz həyətini əsl cənnət bağı kimi gülzara çevirmişdi.

Horadiz kəndində xurma ağaclarının əkilməsində onun böyük rolu olmuşdur. Belə ki, Gəncədən gətirdiyi xurma tinglərini çoxaldaraq paylamışdı. Onun həyətində hər cür meyvədən vardı. O, həm də peyvənd etməyi çox sevərdi. Bir gilənar ağacında bir qanadında sarı gilas, o birində qırmızı gilas, digərində isə gilənar calamışdı. Həyətdə olan yapon gavalısının iyi adamı valeh edirdi.

Onunla üzbə-üz ikimərtəbəli daş evdə Allacov Əbilhəsən öz ailəsilə yaşayırdı. O, traktorçu kimi işləyərək ailəsini dolandırıb, qeyri-adi xasiyyəti ilə, düzgünlüyün tərəfdarı olan ağsaqqal idi.


Nümunə: - Köhnə kişilər deyirlər ki, otuzuncu illər qonşu kənddən olan Horadizin Sovet sədri Alış atın üstündə ikən kənd qadınların yanında olduqca nalayiq söyüş söyür. Bu haqsızlığa dözməyən Əbilhəsən (heç bir qorxu bilmədən) Alışın yaxasından yapışıb ayağının altına salıb onu kötəkləyir. Sonralar şikayət olsa da kənd camaatı Əbilhəsənin haqlı olduğunu bildirərək, Alışı kənddən qovurılar.



Mösü kişinin cənnət bağında – 1982-ci il

Şəkildə soldan: Qəhrəman Şirinov, Əmir Namazalıyev, Abbas Abbasov, Məhərrəm Məhərrəmov, Nərgiz Məhərrəmova oğlu Namiqlə, Ərşad Məhərrəmov, Anar Cəfərov, Seylon Şirinova, Bəhlul Şirinov qızı Ruqiyyə ilə, Məzahir Əmirov, Fazil Nəcəfov və Bayram Hüseynov.

Əbilhəsən kişinin darvazasından aşağıda sağda – Məmməd Hüseynovun həyəti və evi vardı. Lakin Məmməd özü 1960-cı ildən Bakıda yaşadığından kəndə az-az gələrdi, elə ona görə də ev və həyət baxılmaz vəziyyətdə qalmışdı.



Məmməd Hüseynov

Ondan aşağı şərq istiqamətində olan ev-lərdəQuluyev Ağamalının iki mərtəbəli evi və həyəti yerləşirdi. Ağamalı kəndtoy şənliklərində toybaşçılıq edərdi və o toy həmişə şən, həm də

münaqişəsizkeçərdi.Sonralar Kənd Məscidin yanında, köhnə Sovet idarəsinə bitişik binada çayxana işlədirdi.

Ağamalının həyətyanı evi və həyətilə yanaşı, Qozluçayın sol sahilinin yanında əmisi Calal Quluyevin evi və bağı yerləşirdi. C.Quluyev kəndimizdə müxtəlif illərdə kolxoz sədri, pambıq briqadiri işləyib. Sonralar qardaşı oğlu A.Quluyevlə birlikdə kolxozda dülgər kimi xeyirxah işlə məşğul olurdu.Bu məhəllədə Qozlu çay qırağı evlərdə Rüstəmov Əvəz Humay oğlu və Novruzov Məhərrəm Alı oğlu ailəsi ilə yaşayırdı.



Ağamalı Quluyev

Bunlardan aşağıda ailəsilə yaşayan Əliyev Mehdi – kolxozda pambıq və inşaat briqadiri işləyərək, yaxşı və xoş xasiyyətilə hörmət qazanıb. Çox danışmaqda da ona çatan olmayıb. Bakılı Mütəllim Məcidov adlı çox danışan
və kənddə inşaat mühəndisi işləyirdi. O, Mehdi kişiylə yarışmaq üçün onların evinə qonaq gəlir. Qonaqpərvər Mehdi kişinin evində yeməkdən sonra, razılıqla Mehdi kişi danışmağa başlayir. O, anası ilə Bakıya necə getmələrindən, onun üçün velosiped almasından danışır və bir də görürlər səhər açılıb, amma Mütəllim kişi ağzını açmağa macal tapmayıb. Mehdi kişi deyib ki, sabah arxasını danışaram.

Mütəllim kişi deyir ki, Mehdi qardaş sənki mənə səhərə qədər ağzımı açmağa imkan vermədin, daha mənim sənə sözüm yoxdur və sən qalib gəldin deyir və xudafizləşir.



Mehdi Əliyev

Onlardan aşağı Quluyev Muradxan – kənd məktəbində təsərrüfat müdiri işləyirdi. Çox həmsöhbət və dünya görmüş şəxs idi.

Əliyev Mirzalı – kolxozda traktorçu – mexanizator kimi sadə iş adamı idi. Bundan başqa Mirzalı Fətalı oğlu kənd xeyir-şər məclislərində Hüseyn Zülfüqar oğlu ilə birlikdə aşbazlıq da edərdilər.

Məhərrəmov Əhməd Məmməd oğlu – kolxozda baytar həkim kimi fəaliyyət göstərib, kənd sakinlərin ev heyvanlarının sağlamlığının keşiyində də durardı.

Məhərrəmov Turab Oruc öğlu – kənddə yük maşınında sürücü kimi gərəkli bir işlə xeyirə-şərə yarayan insan idi.

Quluyev Allahverən Tarış oğlu bu məhəllənin aşağılarında ailəsilə yaşayırdı.

Şükürov Aqil Abdulla öğlu – kolxozda traktorçu vəzifəsində ışləyərək ailəsini dolandırıb və sadə bir insan kimi yada düşərək xatırlanır.

Şükürov Aqilin qızı Zeynəb Əliyeva qabaqcıl pambıq briqadiri kimi, Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

Bu məhəllədə yaşayanlar müxtəlif nəsillərin nümayəndələridir: İmanovlar, Namazalılar, Cəfərovlar, Allaclılar, Hüseynovlar, Quluyevlər, Əliyevlər, Məhərrəmovlar, Şükürovlar var idi.

Aralıq yol məhəlləsinin şəhidləri:

1. ***Quluyev İlqar Muradxan oğlu;***
2. ***Quluyev Məzahir Allahverdi oğlu.***

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

ŞAHVERƏNLİLƏR MƏHƏLLƏSİ

Şahverənlilər məhəlləsı – Zaqun dərəsi ilə Hacı Novruz dərəsi arasında olan, Horadiz – Füzuli şosse yolunun şərqində və "Rus qəbri"-ndən başlayan yalın aşağı hissəsində yerləşir.

Bu məhəllənin baş hissəsində, Şahverənlər nəslinin böyük və üstü dəmirdən yaraşıqlı evləri olduğuna görə bu məhəlləni *"Şahverənlilər məhəlləsi"* adlandırılıb.

Şahverənlilərin XIX əsrin axırlarında Şahverən, Hacı Fəhrad, Məhərrəm və Bayram Hüseyn oğullarının birgə iştirakı ilə Qaradağlı kəndindən usta Fərhadı evi tikməyə dəvət olunur. Əvvəlcə dağın hündür yerində dağı yararaq ev üçün böyük meydançada, kəndin ən görkəmli yerində, evi tikmək üçün Şuşadan gətirilmiş, yonulmuş guşə daşları ilə inşa etmişlər. Bu daşın hər biri bir qızıl onluğa başa gəlmişdir.

Uzunluğu 20 metr, eni 14 metr olan kürsülü daşdan, yaraşıqlı və dam örtüyü dəmirdən evi tikib hazır edirlər. Evin içinə Gəncədən gətirilmiş gəclə suvaq çəkilir. İçərisindəki divarlarda mənzərə şəkilləri, gül və bülbül şəkilləri və cürbəcür naxışlarla İran nəqqaşları tərəfindən bəzədilmişdi. Halbuki, o vaxtları kənddə əksər evlər çiy kərpicdən, dam örtüyü isə qalın torpaqdan və ya sarı torpaqdan şirə çəkərdilər.

Hacı (Mirzə) Fəhrad Çar Rusiyası dövründə Cəbrayıl qəzasında dövlət məmuru işləmiş və varlı adamlardan olmuşdur. O, şəxsiyyətli və tanınmış, sözü keçən, öz doğma kəndinin təəssibin çəkən kişilərdən olubdur. O vaxtları Horadiz kəndinin torpaqlarının, dəmir yoldan cənub tərəflərdə yerləşən torpaq sahələrini başqa kəndlərə, yəni Qazaxlara və Əhmədallılara verilməsinə razı olmadığına görə, bəzi qara qüvvələr Hacı Fəhradı öz kabinetində iş vaxtı güllə ilə vuraraq qətlə yetirmişlər.

Bu evdə yaşamış Bayram Hüseyn oğlu şəxsi çəkişmə qurbanı kimi öldürüldükdən sonra böyük oğlu Hüseyn analığı Zərəfşanın və kiçik oğlu Əfsəri isə xalası Zərəfşan İsmayıl ağaya (Pirəhmədli kəndindən) ərə getmiş və öz himayəsində böyütmüşdür. Onu oğulluğa götürərək soy adını dəyişdirb Cavanşirov yazdırmışlar. Əfsər Cavanşirov - Azərbaycan İncəsənət Xadimi adına layiq görülmüş, Respublika Komsomolu mükafatı laureantı və Bəstəkarlar İttifaqının üzvü olmuşdur..

Bu binada yaşamış Allacov Allahverən Həsənqulu oğlu Horadiz kolxozunda müxtəlif vəzifələrdə calışmışdır. Onun kiçik oğlu Akif Allacov Dəmiryol sistemində şərəfli və uzun yol keçərək, Bakı şəhər dəmir yol vağzalının Baş mühəndisi vəzifəsində çalışırdı. 2011-ci il sentyabr ayında amansız ölüm onu aramızdan apardı.

Bu məhəllədə Şahverənlərdən aşağıda Hacı Həzı oğlu Cabbar kişinin evi vardı. Cabbar kişi kənd ağsaqqalı, kənddə dini mərasimlərdə yaxından iştirak edərək "Qurani-Kərim"- dən surələr oxuyaraq mollalıq edərdi.

Bundan başqa burada: Əliyevlər, Yusifov-Hacıyevlər, Əmirovlar, Vəliyevlər, Hüseynovlar, Əhmədovlar, Novruzövlar və başqa nəsillərin nümayəndələri yaşayırdılar.

Bu məhəllədə şosse yolunun yanında Məişət evi yerləşirdi və orda Eyvaz Xanlar olunun "Qarışıq mallar" mağazası, bərbərxana, çəkməçi, çayxana fəaliyyət göstərirdi. Bu məhəllənin tanınmış şəxsiyyətləri haqda sonrakı səhifələrdə öyrənəcəksiniz.

GÜNEY MƏSCİD ƏTRAFI EVLƏR

Güney Məscid altı evləri – Şosse yolunun boyunca, Saqqızlı məhəlləsi, Aralıq yol məhəlləsi və birdə Əmirqulular məhəllənin arasında qalan evlər təşkil edir.

Burada İbişovlar, İmanovlar, Kazımovlar, Məmmədovlar, Əliyevlər, Məmişovlar, Qurbanovlar və İsmayılovlar nəslinin nümayəndələri yaşayırdılar.

Bu məhlənin körkəmli və tanınmış adamları haqda məlumat sonrakı səhifələrdə veriləcək.

SAQQIZLI MƏHƏLLƏSİ

Saqqızlı məhəlləsi – Horadiz kəndinin Güney məscidin aşağı hissəsində, kəndin cənub qurtaracağında, Füzuli – Horadiz şosse yolunun sağ və sol tərəfində yerləşir. Bu məhəlləyə Hacı Novruz dərəsi, Hacı Rüstəm dərəsı və Güney kəhriz ətrafı evlər daxildir.

Horadiz kəndimizdə ilk məskun salan Yadigarlılar tayfası olmuşdur. Əvvəllər Qarağan təpədə məskən salıb yaşasalarda, soralar orada sıxlıq olduğu üçün köçüb burada ev tikib, yurd salıb yaşamağı məsləhət bilmişlər.

Məhəllənin *"Saqqızlı"* adlandırılması ilə bağlı müxtəlif fikirlər vardır. *"Saqqızlı"* sözünün elmi əsaslarla demək olar ki, qədim türk tayfalarından olan "sak"-lar və "oğuz"-lar bu məhəllədə yaşadıqlarına görə, bura iki sözün birləşməsindən əmələ gələn "sakoğuz" yaransa da sonralar bu "Saqqızlı" kimi işlənmişdir.

Yerli adamların dediyinə görə *"Saqqızlı"* yozumunun biri də, onunla bağlıdır ki, bu məhəllənin adamları dadlı, şirin dilləri ilə aldatmaqda, onları inandırıb öz tərəfinə çəkməkdə, müəyyən bir işi görməyə razı etməkdə - ümumiyyətlə onların "saqqızını oğurlamaqda" mahir imişlər. Məhz bu səbəbdən də bu məhəllə belə adlanır.

Əlbəttə, toponimin izahına başqa prizmadan da yanaşanlar var. Məhəllədə yol qırağı saqqız və badam ağacları vardı. Saqqız ağacını bıçaqla kəsdikdə, saqqıza oxşar şirə buraxırdı, bəlkə elə buna görə bu məhəlləyə *"Saqqızlı"* adı vermişlər.

Bu məhəllənin ağsaqqalları başqalarından xeyli səbəbdən fərqlənirlər. Çox baməzə, deyib-gülən və zarafatcıl adamlardır. Nümunə olaraq: - Atakişi Quluyevi, Səfqulu Hacıyevi, Abdulla Qurbanovu, Vəzir Quluyevi, Yavər İbişovu, Mikayıl Məmişovu, Hüseynqulu Yadigarovu (Sarabski), Allahverdi və Haqverdi Quluyevləri, Qəmbər və Ərşad Nağıyevləri, Yaqub Hacıyevi, Cəlil və Məhi Quluyevləri və başqaları, istədiklər insanları güldürər, lağa qoyarlar və ya elə hadisə danışarlar ki, səni təəccüb bürüyər, ümumiyyətlə şit zarafatlar edərdilər.

1975-ci ildə kolxoz sədri işləyən Hüseyn Talıbovun təşəbbüsü və başçılığı ilə elektrik cərəyanı ilə işləyən un dəyirmanı tikdirib ıstifadəyə verdilər. Bu dəyirman unu üç növ: 1-ci, 2-ci və kəpək (heyvan yemi) üyüdürdü. İlk burda işləyən Nağıyev Ərşad oldu.

Saqqızlı məhəlləsində doğulub, boya-başa çatmış tanınmış şəxsləri çoxdur və onlar bizim şərəf-şöhrətimizdir. Bu haqda kitabın son səhifələrində oxuyacaqsınız.

Bu məhəllədən Qarabağ şəhidləri:

1. Ağayev Azər Bayramalu oğlu;

2. Hacıyev Arif Bəhram oğlu;

3. İbişov Bəşir Əşrəf oğlu;

4. Quluyev Rafiq Hümbət oğlu;

5. Əmirov Bağı İslam oğlu.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!.

HACI NOVRUZ DƏRƏSİ

Hacı Novruz dərəsi – Saqqızlı məhəlləsinə aid olub, Güney məscidi ilə Hacı Rüstəm dərəsi arasında və şosse yolun şərq tərəfində yerləşən dərədir.

Hacı Novruz kişi deyilənlərə görə, cavan yaşlarında kasıbçılıq çəkib, varidatı olmamışdır. Yetgin vaxtında əmisi ona qarabağ cinsindən bir dayça bağışlayıb. Novruz buna çox sevinir və dayçasına

qulluq etməyə başlayır. O, balaca dayçasına o qədər alışır ki, onsuz ayrı qala bilmir, bütün məhəbbətini, səyini, əməyini və qulluğunu bu atına göstərərək onu böyüdür. Nəticədə onun əməyinin bəhrəsində elə gözəl, qaçışda tayı bərabəri olmayan və yaraşıqlı ata çevrilir ki, səs-sorağı bütün mahala yayılır. Eyni zamanda gözəl atın sədası Cəbrayıl quberniyasının pristavına da çatır. Pristav Novruzu Cəbrayıla çağırtdırıb onun atına baxış keçirir və bəyənir, həm də ona təklif edir ki, atı ona bağışlasın. Novruz razı olmur və qayıdır kəndə. Bir həftə keçdikdən sonra yenə Novruzu Cəbrayıla çağırtdıraraq belə təklif edirək deyir: - "Sən atı mənə verirsən, məndə sənə on qat qiymətin vetirəm. Yox əgər razı olmasan zorla alacağam və səni qazamata saldıracağam. Novruz kişi çarəsiz qalıb razılaşır. Pristav atın əvəzinə 10 baş sağmal inək, 2 cüt kəl, kənddə 10 hektar torpaq sahəsi və 100 manat qızıl pul bağışlayır. Beləliklə Novruz kişi varlanaraq, sayılıb seçilən şəxsiyyətlərdən biri olur. Qurban bayramı ərəfəsində Məkkə və Mədinə şəhərinə gedərək müsəlmanların ən vacib əməl-lərində olan "Həcc" ziyarətində olub ən yüksək Hacı adını qazanır.

Hacı Novruzun 3 oğlu: - Alı, Əli və Vəli olub. Onlardan yalnız Alının oğlu Məhərrəmin övladı olub: Alı, İslam, Novruz və Suliddin.

Hacı Novruz kişi kənd ağsaqqalı olub, kəndinin xeyir-şərində yaxından iştirak edib, "Həcc" ziyarətindən qayıtdıqdan sonra xeyriyyəçiliklə də məşğul olaraq, Güney məscidin tikilib başa çatmasında və kənd adamlarından mütəşəkkil ianə yığılmasında müstəsna xidməti olmuşdur.

Hacı Novruz dərəsində yaşayanları yad etdikdə ilk yada düşən II Dünya Müharibəsinin (1941-45) qanlı-qadalı illərini keçirən, Belorusiyanın bataqlıq meşələrində "İskra" partizan dəstəsinin komsomol komitəsinin katibi olan, faşist almanlara qarşı barışmaz və amansız olan, cəsarətlə və qəhrəmanlıqla vuruşan, vətənə qayıtdıqdan sonra, Məhəmməd Məmmədova sən əsirlikdə olmusan deyə damğa vurularaq, müəllimlikdən qovulan, böyük bir çətinliklə poçtalyon işləyən, dözülməz və haqsızlıq münasibətlərdən min-bir əzab çəkən Məhəmməd müəllimi yada salmamaq insafsızlıq olardı. Sonralar 1965-ci ildə Müharibə illərindən 20 il keçdikdən sonra əsl

həqiqət üzə çıxarıldı və ədalət qalib gəldi. Belə ki, Məhəmməd Məmmədovun partizan dostları uzun axtarışdan sonra, onu tapdılar və xüsusi təyyarə ilə Belorusiyalı partizan dostları ilə görüşə getdi və vaxtında ünvanına çatdırılmayan "Qırmızı ulduz"ordeni-ni alaraq qəhrəman kimi vətənə qayıtdı. "Qırmızı ulduz"ordenini vaxtında almaması səbəbi o olub ki, onun ünvanı Karyagin (Füzulinin keçmiş adı) rayonu əvəzinə, Karaçenski rayonu və Mamedov Mişa yazıldığına görə səhv düşərək sahibinə çatdırılmayıb. Sonra isə bütün qadağalar götürülərək, yenidən müəllimlik fəaliyyətin davam etdirib.

Bu məhəllədə yaşayanlardan: uzun müddət poçt müdiri işləyən gözəl insan – Məhəmmədəli (Məhiş) Vəliyevdir.

Kəndlilərinə çətin vəziyyətdə kömək əlini əsirgəməyən, işgüzar bir adam kimi tanınan və Füzuli şəhərində "Yağ–pendir" zavodunda baş mühasib işləyən Məhərrəm Cəfərovun da fəaliyyəti və kənd adamlarına çətin işlərində yardım etməsi danılmazdır.

Uzun müddət müəllimlik edən – Muxtar Mehdiyevi xoş əməlləri ilə həmişə həmyerliləri arasında hörmət sahibidir.

Bu dərədə: İbişovlar, Novruzovlar, Vəliyevlər, Ağayevlər, Əmirovlar, Cəfərovlar, Məhərrəmovlar, Zeynalovlar, Mehdiyevlər, Kazımovlar, Şükürovlar və Məmmədovlar nəslinin nümayəndələri yaşayırdılar.

HACI RÜSTƏM DƏRƏSİ


Hacı Rüstəm dərəsi – Saqqızlı məhəlləsinə aid olub, Hacı Novruz dərəsindən aşağıda (cənuba tərəf) yerləşən və şosse yolun şərq tərəfindəki dərədir. Bu dərədə yaşamış Hacı Rüstəm kişi, "Həccə" ziyarət edərək öz müsəlman borcunu verdikdən sonra, xeyriyyə işlərilə məşğul olub, həm də kənd aqsaqqalı kimi mənəvi və maddi köməyini əsirgəməyərək, həmyerliləri arasında hörmət, izzət qazanıb. Məhz onun vəfatından sonra kənd adamları bura Hacı Rüstəm dərəsi adı çağrılıb.

Hacı Rüstəm kişinin övladları: - Fərzalı, Fətalı və Əli olub. 1. Fərzalı kişinin 3 övladı olub: - Nəbi, Səfqulu və İbrahim.

- Nəbinin övladları: - Pakizə, Ərşad, Həsən, Mirzalı, Möhsün, İsa və Səmayə.

- Səfqulunun övladları: - Məhərrəm, Süleyman, Bəhrəm, Yaqub və Füruzə.

- İbrahimin övladı olmayıb.



Fətalı kişinin 3 övladı olub: - Gülgəz, Simuzər və Əbil.

- Simuzər – Mehdi Əliyevə ərə gedir və övladları: - Əkbər, Məleykə, Cabbar, Adilə və Faxrı olmuşdur.

- Əbilin övladları: - Yusif, Kərəm, Qaratel, Gülzar, Fətalı Rüstəm və Hacı.

- Əli kişinin 2 övladı olub: - Məryəm və Hüseyn.

- Məryəm - Cabbara ərə gedib və övladları: - Bəhrəm, Əyyub, Tofiq oğlu və Leyla qızı olub. - Hüseynin övladları: - Vaqif, Şakir, Zakir, Əli və Svetlana.

Hacı Rüstəm dərəsində onlarla yaşayış evləri vardı. Burada: Yadigarovlar, Hacıyevlər, Orucovlar, Nuruyevlər, Heydərovlar, İbişovlar, Rüstəmovlar, Məmmədovlar, Fərzəliyevlər və başqa nəsil nümayəndələri yaşayırdılar.

Bu məhəllədən bizim fəxrimiz olan: Nuruyev Əli – Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor; Abbas Abbasov – professor; Əsəd Yadigarov alim kimi görkəmli şəxsiyyətlər yetişmişdir.

Məhəllənin igid və qoçaq kişilərindən biri də Məmmədov Məmməd Nəcəf oğlu olmuşdur. Belə ki, Gölbağ dərəsində Səfqulu Hacıyevlə birlikdə kənd adamlarının naxırını otararkən, bir dəstə İranın atlı qaçaqları onun əlindən camaatın malqarasını almaq məqsədilə onlara hücum edib aparmaq istəyiblər. Cəsur Məmməd kişi Səfqulunu kənd camaatını köməyə çağırmağa göndərib və özü əlində olan tüfənglə onlarla tüfəng döyüşündə vuruşaraq onlara aman verməmiş. Qaçaqlardan biri işi belə gördükdə tüfəngini çıxarıb xeyli vuruşdan sonra Məmməd kişinin ağzını yaralıyıb, çoxlu qan itirməkdən qorxmayıb elə qanlı-qanlı vuruşmada qalib gələ bilmədiyini hiss

edən qaçaqlar, həm də kənd adamların köməyə gəlməsini görüb bu işdən əl çəkib uzaqlaşırlar. Beləliklə, qorxmaz Məmməd kişi kənd naxırına heç bir itgi vermədən sağ-salamat kəndə qaytarir, həm də "ağzı para Məmməd" kimi özünə ləqəb qazanır.

Bundan başqa bu məhəllədə: Atakişi, Səfqulu kimi kənd ağsaqqaları yaşayıb.

GÜNEY KƏHRİZ ƏTRAFI EVLƏR

Güney kəhriz ətrafı evlər - Saqqızlı məhəlləsinə aid olub - Aralıq yol sərhəddi, Şosse yolunun alt hissəsi, Babı novuna qədər və Qozlu çay sərhəddinə qədər olan ərazidir.



Tofiq Əbil oğlu

Bu məhəllə sonralar yaranmadır, beləki, 1950-ci illərdən sonra Hacı Novruz dərəsində və Hacı Rüstəm dərəsindən köçüb gələnlərdir.

Yeni həyətyanı evlər tikildiyi və yeni həyətyanı bağlar salındığından birdə Kolxoz bağının yaxınlığında olduğuna görə, həm də Güney kəhrizin ətrafında olduğu üçün həmişə abad və yaşıllığa bürünmüşdü.

Burada Quluyevlər, Məmişovlar, Yadigarovlar, Qurbanovlar, İbişovlar, Nağıyevlər, Məmmədovlar, Ağayevlər, Vəliyevlər, Orucovlar, Fərzəliyevlər, Hüseynovlar, Talıbovlar, Əliyevlər və Əmirovlar nəslin nümayəndələri yaşayırdılar.

TƏZƏ MƏHƏLLƏ

Təzə məhəllə - Horadiz kənd orta məktəbindən yuxarıda, Dəyirman boynundan Qaratikanlı təpə ilə, Dəli çay arasında qalan ərazidə yerləşir. Bu yerlərdə 1956-57-ci illər məktəb şagirdlərinin hər birinə 1 sot yer vermişdilər və biz, yəni yuxarı sinif şagirdləri burada qarğıdalı əkib becərirdik. Manqa başçımız Eyvaz İbişov idi. Burdan aldığımız bol qarğıdalı məhsulunu kolxoza təhvil verirdik və əvəzinə kolxozdan məktəbin təmirinə müəyyən miqdarda maliyyə köməyi edilirdi. Kolxoz həmin qarğıdalıdan silos çəkib quyulara tökürdü ki, qışda mal-qaranın yem ehtiyatı üçün istifadə edilirdi.

Bu məhəllə yeni olduğundan bura müxtəlif nəsillərdən olan ailələr köçərək özlərinə təzə yaraşıqlı evlər tikərək yaşayırdılar.



Sağdan ikinci Səfa Ələkbərov öz döyüşçü əsgərləri ilə - 1992-ci il əsgərlərin başı üstə görünən Təzə məhəllədir

Burada: Məmmədovlar, Hüseynovlar, Orucovlar, İsmayılovlar, Şirinovlar, İmanovlar, Ağayevlər, Soltanovlar nəslindən olan ailələr yaşayırdılar.

Bundan başqa Şirinov Bəhlul, Ələkbərov Səfa, Sultanov Nobil, Sultanov Ənvər və Həsənov Teyyub Mikayıl oğlu həyətyanı ev tikmək məqamında kəndin işğalı əfsus ki, onların arzularını həyata keçirməyə ımkan vermədi.

MƏKTƏBYANI MƏHƏLLƏ


Məktəbyanı məhəllə - Orta kənddən məktəbə və Qurdlu bulğa gedən yol ayrıcından məktəbə qədər və Orta kənddən Qurdlu bulağa gedən yol məkəbə qədər, həm də onların arasındakı ərazi adlanır.

Bu məhəllə 1950-ci ildən sonra yaranan məhəllədir. Burada ilk ev tikib yaşayan Sədi Həsənqulu oğlu Hacıyev olmuşdur. Sədi müəllim bizə kimya dərsi deyərdi və həmişə səliqə sahmanla geyinərdi və başına panama qoyardı. Ancaq o həyatdanmı, yoxsa təbiətdənmi narazı kimi görünərdi. Dərs vaxtı biz şagirdlərə deyərdi: "Harda Horadizli var, ordan qaçın". Hələ indiyə kimi Sədi müəllimin sözünün əsl mənasını bilmirdim, amma sonra mənə məlum oldu ki,

Əhmədallar kəndində müəllim işlərkən, məktəb direktorunu 1951-ci ildə dəyişmə məqamında Sədi müəllimin və həmkəndlimiz Qara Cəfər oğlu Cəfərovun namizədliyi də var imiş. Son məqamda Qara müəllimi direktor seçirlər və bu seçim Sədi müəllimin xoşuna gəlmir. Elə ona görə də bizlərə belə məsləhət verərdi.

Bu məhəllədə yaşayan Famil Rəhim oğlu Rüstəmov – uzun illər kolxozda sürücü işləmiş və özünü bacarıqlı, mehriban xasiyyətli bir insan kimi göstərərək, kəndlilər arasında hörmət sahibi olmuşdur. Bundan başqa Familin həyat yoldaşı Şamama Şəmil qızı ilə 11 uşağı boya-başa çatdırmışlar.

Bu məhəllədə: - Hacıyevlər, Rüstəmovlar, Məhərrəmovlar, Məmmədovlar nəsillərin nümayəndələri yaşayırdılar.



Əvdil Ələkbərov

MOLLA YERİ MƏHƏLLƏSİ

Molla yeri məhəlləsi – Dullar məhəlləsi ilə Dördçinar bağı arasında, Dəyirman boynu ilə Qozlu çay arasında olan ərazidə yerləşirdi. Bu yerlər əvvəllər kənd məscidində çalışan Mollalara əkin sahəsi kimi verildiyinə görə "Molla yeri" adı ilə adlanırdı. Molla yeri məhəlləsi 1970-ci illərdən sonra yaranan məhəllədir.

Bu məhəllədə yaşayanlardan Ələkbərov Ədil Əbil oğlu uzun illər müəllim işləmiş və onun böyük oğlu Çingiz Azərbaycanın Müdafiə Nazirliyində işləyir, hərbi rütbəsi polkovnik-leytenantdir. Ədil müəllimin kiçik qardaşı Ələkbərov Əvdil uzun illər kolxozda sürücü işləyib. Orucov Əmir Aslan oğlu kolxozda sürücü, Hacıyev Sovet Hacı oğlu kolxozçu və Bəylərov Bayram Müseyib oğlu isə elektrik işləyərək öz vəzifə borclarını yerinə yetirirdilər.

Bu məhəllədə: Ələkbərovlar, Hacıyevlər, Orucovlar, Quluyevlər, Bəylərovlar, Həsənovlar, Məmədovlar, İsmayılovlar, Abışovlar, İsmayılovlar və Soltanovlar nəsillərin nümayəndələri yaşayırdı.

Bu məhəllədən Qarabağ şəhidi:
Elçin Sovet oğlu Hacıyev.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!..

QURDLU BULAQ MƏHƏLLƏSİ

Qurdlu bulaq məhəlləsinə – bulaq ətrafı evlər daxildir. Bu məhəllə, orta kənddən məktəbə gedən yolayrıcından, Qurdlu bulağa gedən yolla, Dəyirman boynuna qədər, Molla yeri məhəlləsi və Dullar məhəlləsi arasında olan yaşayış evlərindən ibarətdir.

Qurdlu bulaq məhəlləsi haqda düşünəndə ilk növbədə Yaqub Məmiş oğlu Cəfərov yada düşür. Yaqub kişi kənd ağsaqqalı olub, çox gözəl xasiyyətli və işgüzar adam olubdu. Kənddə hamının xeyrinə-şərinə yarıyardı. Onun sözü hər yerdə, hər idarədə keçərdi və hər kəsə kömək göstərər, can-başla çalışar, eləcədə həll edərdi.

Bu məhəllədə yaşayan Xasay Məhərrəm oğlu Abışov – Horadiz kənd kolxozunda uzun müddət baş mühasib işləmişdir. Bacarıqlı və işgüzar işçi kimi həmişə özünü göstərmişdir. Onun oğlu Abış da vətənpərvər insan kimi, hərbçi peşəsini seçib. Qarabağ müharibəsi dövründə böyük mərdliklə vuruşaraq və prinsipial mövqe tutaraq Füzuli rayonun düşmənlər tərəfindən işğal olmasına imkan verməmişdi. Lakin bəzi qüvvələrin əmrilə onu bu işindən uzaqlaşdırıb, Müdafiə Nazirliyinin komendantı vəzifəsinə çəkdilər. Hal-hazırda cəbhə bölgəsində "N" hərbi hissədə batalyon komandiri kimi hərbi işini davam etdirir. Öz hərbi işinin öhdəsindən bacarıqla gəlir.

Bu məhəllədə tanınmış adamlardan biri də Həsənqulu Surxay oğlu Hacıyev olmuşdur. O, kənd orta məktəbində coğrafiya müəllimi kimi dərs deyərdi. O, bizim kəndin yaddaş kitabı idi. Hardan desən ordan dəqiq və dürüst cavabı verərdi. Onun əsrarəngiz hafizəsi var idi. Bir dəfə mən onu sınamaq üçün belə sual verdim: "Həsənqulu müəllim, de görüm Namaz babam Bakıdan gələndə mənə bir papaq almışdı, bu nə vaxt olub?" O, da cavab verdi: "Namaz baban sənə 1953-cü il mayın 12-də Bakıdan papaq almışdı və o günü çox güclü yağış yağırdı, həm də Mirzalı Fətalı oğlu ilə birlikdə gəldi." Artıq bu hadisədən 15 il keçmişdi və mən bu sözün təəccüblə doğru olduğunu təsdiq etdim.

Bu məhəllənin isə uzun illər kənddə dəllək işləyib və adamların xidmətində duran Məhərrəmov Əhməd Nüsrəddin oğlu işgüzarlığı və qətiyyətliliyi ilə hörmət sahibi olub.

Qəşəm Abdürrəhim oğlu İsmayılov – kənddə uzun müddət pambıq və üzüm briqadiri olub. Özünü həmişə bacarıqlı təsərrüfatçı kimi göstərmiş hörmətli adamlardan biri olmuşdur.

Hacı Məhəmməd Əsəd oğlu Abdullayev – uzun illər kənddə dəllək işləmiş, ahıl vaxtında isə dini mərasimlərdə iştirak edərək, "Quran" ayələrini məclislərdə oxuyaraq savab qazanırdı.

Bu məhəllədə yaşayan Hüseynov Hüseyn Alı oğlu traktorçu peşəsinə yiyələnərək sadə əməyilə ailəsini dolandırıb və kolxozda qabaqcıllar cərgəsində sayılıb-seçilən adam olub.

Qurdlu bulaq məhəlləsində: - Cəfərovlar, Abışovlar, Hacıyevlər, Məhərrəmovlar, İsmayılovlar, Məmmədovlar, Əyyub və Əbülfət Rəsul oğlu Allahverdiyevlər və Hüseynovlar nəslin nümayəndələri yaşayırdılar.

DULLAR MƏHƏLLƏSİ

Dullar məhəlləsi – Horadiz orta kənddən şimala tərəf olan məhəllədir. II-Dünya Müharibəsi (1941-45-ci illər) dövründə həlak olmuş iştirakçıların ailələri bu məhəllədə çoxluq təşkil etdiyinə görə "Dullar məhəlləsi" adlandırılmışdır. Dullar məhəlləsinə, Kənd Mədəniyyət sarayindan şimal-şərqə tərəf gedən kənd arası yolla, Əhmədov Bayramalı kişinin evindən Hüseynov Hüseynin evinə qədər olan yol qırağı evlər Qozlu çaya qədər daxildir.

Dullar məhləsinin adı çəkiləndə ilk növbədə Bayramalı kişini xatırlayırsan. Ona görə ki, o, kişi kəndimizin Molla Nəsrəddini sayılırdı. Həmişə gülərüz, zarafatcıl və baməzə Bayramalı kişi günlərin birində bir yük maşını qapıya qum gətirdir. Onu boşaltmaq məqamı gələndə Bayramalı kişinin 4 oğlu (Məmməd, Qulam, Cəmil və Nadir) arasında ciddi mübahisə başlayır. Biri deyir: - mən boşaldacağam, o biri deyir mən. Bayramalı kişi görür belə getsə vəziyyət gərgin olacaq, ona görə deyir: - Balalarım dalaşmayın, mən boşaldaram. Bayramalı kişi qumu yarıya qədər boşaldır və dincini almaq üçün belin dəstəyini çənəsinə dirəyərək oğlu Məmmədə

müraciət edərək deyir: - Bu Sovet hökuməti aya, ulduza süni peyk buraxır, ancaq bir maşın düzəldə bilmir ki, öz yükünü özü başaltsın?

Məmməd cavab verir: - Dədə elə maşın var də, elə bizim kənddə Əzizin, İsmayılın, Səfərin, Turabın maşınları yükünü özü boşaldır.Bayramalı kişi təəccüblə deyir: - Pah atonan, ömrüm boyu bir şey kəşf etmişdim və onu da Sovet hökuməti məndən qabaq tapıb, daha mənim bu hökumətə deyəsi sözüm yoxdur.

Bu məhəllədə yaşamış Cəfərov Tehran Əliş oğlu isə uzun müd- dət kolxozda baş zootexnik, Cəfərov Akif - Horadiz kolxozunda sədr və rayon səviyyəsində müxtəlif vəzifələrdə



Soladan: Taryel Cəfərov, Əhməd Məhərrəmov, Sərdar Qurbanov və Əli Bağırov.

çalışmışdır.İmanov Səttar Fətalı oğlu – əvəllər milisdə işləmiş, sonralar kənd Sovet sədri, kolxozda isə yem, taxıl briqadiri işləmişdir. Qurbanov Sərdar kişi – kolxozda uzun illər traktorçu işləyərək sadə əməyilə özünü işgüzar kimi göstərmiş və Füruzə Məhəmməd qızı ilə birgə yaşayışdan 11 övlad dünyaya gətirmişlər.

Bu məhəllədə: Novruzovlar, Cəfərovlar, Quluyevlər, Əhmədovlar, Şükürovlar, Sultanovlar, Bağırovlar, İmanovlar, Rüstəmovlar və Qurbanovlar nəslinin nümayəndələri yaşayırdılar.

Soltanov Ənvər – uzun illər sürücü işləyərək çox böyük hörmətə sahib olub. Bağırov Əli də sürücü işləyib halal zəhmətlə çörək qazanıb və mahir velosepetçi kimi divar üstündə sürərdi.

NƏCƏFLİLƏR MƏHƏLLƏSİ

Nəcəflilər məhəlləsi – Horadiz kəndinin yuxarı quzey hissəsində, Mədəniyyət evindən Məktəbə gedən yolun sol tərəfində, Fərəcanlı dərəsindən Bəyalı dərəsinə qədər, Dəli çay boyunca olan ərazidə yerləşir. Bu məhəllədə Nəcəflilər nəslindən əksəriyyəti yaşadığına görə belə adlandırılmışdır.

XIX - əsrdə və XX - əsrin əvvəllərində Nəcəflilər məhəlləsində, kənd məktəbin yanında və Dəli çay ətrafında böyük bazar olmuşdur.

Bu bazar Qarabağ xanlığı ilə İran dövləti arasında mərkəzi ticarət bazarına çevrilmişdir.

Nəcəflilər nəslindən olan Məşədi Abdulla dövrünün ən varlı və sayılıb seçilən səxslərdən olub.

Deyilənə görə 1928-ci ildə Mir Cəfər Bağırov Zəngilan-Qubadlı rayonlarına qatarla gedərkən Horadiz stansiyasında dayanır. Onu qarşılayanlar arasında Məşədi Abdulla da olur. M. C. Bağırova bu zonada Məşədi Abdullanın ixtiyar sahibi olması haqda məlumat verilmişdi. Ona görə Məşədi Abdullaya deyir; - "Sabah üçün 500 atlı gərəkdir. Onları hazırlaya bilərsənmi?"

Məşədi Abdulla deyir:- "Yoldaş Bağırov dediyiniz vaxt atlılar sizi gözləyəcək" deyərək cavab verir. Sabahısı günü M. C. Bağırov Bakıya qayıdanda Horadiz stansiyasında görür ki, 1000 atlı onu gözləyir. M.C.Bağırov heyrətini gizlədə bilmir və Məşədi Abdullaya öz təşəkkürünü bildirir. Məşədi Abdullanı özü ilə Bakıya aparır. O gündən Məşədi Abdullanı görən olmayıb və indiyə kimi onun haqqında dəqiq məlumatı bilən yoxdur.

Elə o vaxtdan Horadiz kəndinə "Min igidli Horadiz" deyirlər. Bu arxivdən götürülmüş tarixi faktdır.

Taxılçılığın inkişafı haqqında gedən müşavirədə M.C. Bağırov belə bir ifadə işlədir; "Min igidli Horadiz, 1000 tonlarla taxıl da istehsal edə bilər".

Nəcəflilər məhəlləsində doğulub, boya-başa çatmış Xanlar İsa oğlu Hüseynov – uzun müddət Horadiz kənd orta məktəbində kimya müəllimi işləmiş və onun müəllimlik təcrübəsi həmişə nümunə olduğuna görə dövlət tərəfindən "Əmək Şöhrəti" ordeni ilə təltif edilmişdir. Burada Temir kişi oğlu Nəcəflə yaşayırdı.

Nəcəflilər məhəlləsinin ən şimaı qurtaracaq hissəsində Bəyalı kişinin evi yerləşirdi. Bəyalı Mehdiyevin dörd övladı: İbrahim, Mehdi, Əziz və Əhməd Mehdiyevlər hamısı kəndimizin tanınmış və görkəmli xadimləridir. Bəyalı kişinin nəvəsi Tacəddin İbrahim öğlu Azərbaycanın Respublikasının sabiq Hərbi Komissarı və Müdafiə Naziri olub. Hərbi rütbəsi – generaldır.

Bu məhəllədən olan, uzun illər kənd adamlarının bərbər kimi qulluğunda duran Hacı Məhəmməd Əsəd oğlu Abdullayev həmişə xoş xatirələrlə yad edilir. Beləki, o, həmişə kəndlilərinin xeyir və şərində yaxından iştirak edir.

Nəcəflilər məhəlləsindən Qarabağ şəhidləri:

1. Məmmədov Elsevər Cahangir oğlu,
2. Məmmədov Heydər Şuriya oğlu,
3. Məmmədov Yusif Nəcəf oğlu,
4. İmanov Adil Tapdıq oğlu,
5. İmanov Yusif Tapdıq oğlu.
6. Məmmədov Məhərrəm Yusif oğlu

Allah bütün Qarabağ şəhidlərimizə rəhmət eləsin!..

ORTA KƏND MƏHƏLLƏSİ

Orta kənd məhəlləsi – cənubdan Qarağan təpə, qərbdən Dəli çay, şimal-qərbdən Nəcəflilər məhəlləsi, şimaldan Dullar məhəlləsi, şərqdən isə Qozlu çay arasındakı ərazidə yerləşir.

Bu məhəllədə kənd məscidi, kənd Sovetliyinin binası, kolxoz idarəsi, kənd kitabxanası, aptek, mağaza, məişət evi, poçta, mədəniyyət evi, klub, yay kinoteatrı, uşaq bağçası, kənd xəstəxanası, ambulatoriya, 1941-45-ci illərdə II Dünya müharibəsində həlak olan 196 kənd sakinlərin şərəfinə abidə kompleksi, Qarabağ müharibəsi şəhidi Qurban Namazalıyevin şərəfinə ucaldılmış abidə vardı.

Horadiz kəndində doğulmuş və 20 il kolxoz sədri işləmiş Suruş Fərhadovanın həmişə kənd adamları arasında hörməti vardır.

Bu məhəllədə Aqil Novruzov, Həsən Novruzov, Əbülfət Novruzov, Sabir Quluyev, Calal Ağayev, Xanım Həziyeva, Fidayəddin Məhərrəmov, Həsən Məmmədov, İlham Məmmədov, Bayram Novruzov, Abbas Həsənov Mürsəl oğlu, Ayıldız Məmmədova, İskəndər Kərimov, Cümşüd İbişov, Həsən Cəfərov, Tariyel Cəfərov, Əmir Cəfərov, Akif Cəfərov, Tehran Cəfərov, Kamal Nəcəfov, Sahib Sultanov, Rüstəm Sultanov, Vaqif Sultanov, Suliddin Qasımov, Suruş Fərhadova, Əli Fərhadov, Vəli İbrahimov, Murtuza Abdullayev, Faiq Xələfov, Adilə Novruzova, Həbib Sultanov və Əziz Əzizov öz ailələri ilə yaşayırdı və həyətyanı bağları vardı.

Kitab çapa gedən əsnada Məhəmməd Əhməd oğlu Məhərrəmov mənə sual verərək dedi ki, "Siz kənd haqqında yazırsiniz "Cilid Muxtərə nəyə görə bu ləqəbi vermişlər". Doğrusu kənddə xeyli oxşar adlar olduğuna görə onları dəqiq tanınması üçün ləqəb də verərdilər. Ancaq mən indiyə qədər bu mövzuya toxunmamışdım. Ona görə Muxtər kişinin qardaşı oğlu Əbülfət Əsəd oğlu Novruzovla (2010-cu il iyul ayında) görüşüb bu ləqəbin verilməsinin tarixçəsini öyrənməyi lazım bildim.

Əbülfət Əsəd oğlu (1935-2010): - *Əmim Muxtər 1886-cı ildə doğulub, olduqca baməzə, deyib-gülən və zarafatçıl kimi tanınıb. Qarabağ toylarında Seyid Şuşinski ilə birlikdə iştirak edib və zurna çalan olub. 1910-cu ildə Horadiz kənd bazarında ərzaq dükanı olan, varlı və dul olan Məşədi Muxtar, əmim Muxtərə deyib ki, mən Güləndamın (Suruş Fərhadovanın nənəsi) qızı Şəkərə elçi göndərsəm mənə verərlər? Əmim cavab verib ki, o qız cavandır, sənin isə yaşın 50-ni keçib ona görə qardaşları verməzlər. Məşədi onun sözünə baxmır elçi göndərir. Yox xəbərilə elçilər qayıdır. Muxtər kişi işi belə görəndə, ondan pul qoparmaq üçün ona deyir ki:- "Məşədi sən mənə 1000 manat ver, mən o qızı sənə gətirim". Məşədi razı olur.*

Muxtər kişi xəlvəti gedib qızın qardaşları Məhəmməd və Cabbara qonaqlıq verir. Yeyib içəndən sonra, onların bu işə yalandan razı olduğunu Məşədiyə çatdirmasını xahiş edir və razılıq alır..

Məşədi toy çaldırır və qızı gətirməyə gedirlər. Muxtər kişi özü bəzənib gəlin paltarı geyib faytona oturaraq, bəy evinə aparılır.

Toy sovulandan sonra Məşədi gəlin gərdəyin açanda görür ki, bu kişidir, ona görə huşunu itirib yıxılır və malı, pulu, hörmət-izzətini həmyerlilərinin arasında itirdiyinə görə, güclü stres keçirə-rək huşsuz vəziyyətdə qalır və üç gündən sonra dözməyib ölür.

Bax elə bu hadisəyə əsasən əmimə "Cilid" Muxtər deyirlər.

Bu xəbəri Seyid Şuşinski yaxın dostu Üzeyir Hacıbəyliyə danışır. Xəbərdən hali olan Ü.Hacıbəyli bu hadisədən yararlanıb "O olmasın, bu olsun" komediyasını yazır. Film başlanan kimi titrdə yazılırdı – "1910-cu ildə Qarabağ xanlığının ucqar bir kəndində bu hadisə baş verib". Həmin kənd bizim Horadiz kəndimizdir.

Bu tarixi faktdır.

Mənim atam – Əsəd Əmrah oğlu 1889-cu ildə Seyid Şuşinski ilə eyni ildə doğulub, həmyaşıd, həm də qonşu olduğuna görə bir yerdə böyüyüb və məktəbdə bir sinifdə oxuyublar. Atamın da yaxşı səsi vardı, Seyid Şuşinski ilə xeyli xatirələri var.

Atam deyirdi ki, Seyid Şuşinski ilə mən İmam yalında oynayıb, oxuyardıq. Seyid elə zil səslə oxuyanda, aralıdan keçən atlılar bizə tərəf dönüb, bizim yanımıza gələndə gördük ki, bu dəstə Qaçaq Süleymanın dəstəsidir. Seyid oxuyub qurtardıqdan sonra Qaçaq Süleyman ona dedi: **- "Seyid mən sənə bir qızıl onluq verirəm, sən bu səsini qoru, vaxt gələr sənin bu gözəl və məlahətli səsinə görə başına lələ-cəvahir yağdirarlar".**

Seyid Şuşinski öz xatirəsində yazırdı ki, mən İranın Tehran şəhərində konsertdə oxuyarkən kişilərlə bərabər, pərdə arxasında oturan qadınlar mənim başıma daş-qaş yağdıran zaman Qaçaq Süleymanın sözünü xatırladım.

Seyid Şuşinski burda doğulduğu üçün bu kəndlə əlaqəsini kəsməyib, ara-sıra kəndə həmişə baş çəkib yaxınları ilə görüşərdi. Kəndə gələndə atamla və onun ana qohumu olan Xanlar Cəfərqulu oğlu ilə dostluq edərdi, həm də onlarda qonaq qalardı. Cəfərqulu kişi tez rəhmətə getdiyindən anaları Minəbəyim onları saxlardı. Həmən bu Minəbəyim Seyid Şuşinskinin xalası olub. Ancaq Seyidin ata-anası tez rəhmətə getdiyindən onu ikinci xalası Aşıq Hürzad

(Qarabağ toylarının xanəndəsi) saxlayıb və Seyidin bir xanəndə kimi püxtələşməsində xalasının böyük rolu olub.

Həbib Ağalar oğlu Sultanov(1932-2012): - *Mənim anam Qüdrət Göyüş qızı – 1873-cü ildə Şuşa şəhərinin Çuxur məhəllədə doğulub. Abış babam faytonçu olub. Şuşaya tez-tez yolu düşərmiş və orda qonağı, dostu Göyüş kişinin evində qalarmış. Onun qızı Qüdrət xanım onun xoşuna gəldiyinə görə oğlu Ağalarla evləndirir. Onların birgə yaşayışından bacılarım: - Züleyxa (1899-Əbülfətin anası), Füruzə və qardaşlarım Aslan, Səməd, Həmid (1920) və mən (1932) doğulmuşam.*

Horadiz kənd xəstəxanasında baş həkim işləyən Talıb Ağakişiyevin həyat yoldaşı Tamara xanım Üzeyir Hacıbəyovun bacısı qızıdır. Onun əri Talıb həkim isə əslən Ağcabədidən, Üzeyir Hacıbəyovun yaxın qohumudur. Talıb həkim bizim evdə tez-tez qonaq olardı. Biz ailəlikcə onlara yaxın olmuşuq.

Anamın əmisi oğlu Ələkbər Əliyev, Azərbaycan Dövlət Universitetində dekan, tanınmış alim, (Bakıda Nizami və Lermantov küçəsinin kəsişməsində yaşayirdı) isə Üzeyir Hacıbəyovun xalasının kürəkənidir. Odur ki, Üzeyir bəy həm bizimlə, həm də Seyid Şuşinski ilə daima əlaqəsi vardı Ona görə Anam Qüdrətin qaynı "Cilid" Muxtərin bu kələyindən xəbərdar olubdu.

Bu məhəllənin tanınmış şəxsləri haqda sonrakı səhifələrdə məlumat ala biləcəksiniz.

Orta məhəllənin Qarabağ şəhidləri:

1. Məhərrəmov Roman Firəddin oğlu;

2. Fərhadov Ümid Əli oğlu.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!..

QARAĞAN TƏPƏ VƏ MƏHƏLLƏSİ

Qarağan təpə - Horadiz kəndində ilk yaşayış məskəni, kəndin mərkəzində, Qozlu çayın sağ tərəfində yerləşən, hündür təpəlikdir.

"Qarağan" sözü *"otlaq üçün az yararlı yer", "yovşanlı sahə" "qarağanlı təpə"* mənaları verir.

Respublikamızın ərazisində özündə *"qarağanlı"* etnonimini əks etdirən onlarla toponim qeydə alınmışdır. Bunlara nümunə olaraq

aşağıdakı coğrafi adları göstərmək olar: Qarağanlı dağı, Qarağanlı dərə (Cəbrayıl rayonu), Qarağanlı dağı (Masallı rayonu), Qarağanlı təpə (Lerik rayonu), Qarağanlı dərə (Zəngilan rayonu) və nəhayət bizim kənddə də qeydə alınan Qarağan təpədir.

Qarağan təpə Horadiz kəndində ilk yaşayış məskənidir. Belə ki, bizim kəndin camaatı təqribən 500 il qabaq İmam pirinin yanında yaşadıqları vaxt, təbii hadisələrdən sonra Yadigarlılar, Namazalılar, Toppuzlular və Təhmirazlılar Qarağan təpəyə köçmüşlər. Burada əvvəllər evləri təpə ətrafında tikmişlər və orta hündür təpə boş qoymuşlar ki, ev heyvanlarını oğurluqdan qorumaq üçün münasib bilmişlər.

Bir müddət birgə yaşadıqdan sonra tayfalar artımı olduğundan, Namazalılar şərq təpəliklərə, Yadigarlılar kəndin aşağı cənub-şərq hissəsinə - Saqqızlı məhəlləsinə, Təhmirazlılar orta kəndə köçürlər. Toppuzlular isə Qarağan təpədə qalırlar.

Qarağan təpədə bir neçə kənd obyektləri var idi və bunlardan da Poçt məntəqəsi, radio qovşağı, telefon məntəqəsi, Əmanət bankı və Məişət evi yerləşirdi. Bu məhəllədə Novruzovlar, Abdinovlar, Quluyevlər, Əzizovlar, Abdullayevlər, Hüseynovlar, Orucovlar, nəslinin nümayəndələri yaşayırdılar.

Qarağan təpə məhəlləsi haqda düşünəndə ilk dəfə Quluyev Qulu kişi yada düşür. Beləki, Qulu kişi çox qorxmaz, ürəkli və cəsur bir şəxs kimi kəndliləri arasında sayılıb-seçilənlərdən olub.

Ağsaqqallar danışırlar ki, günlərin bir günü, yəni XX-əsrin əvvəllərində Qorqan kəndindəki dəyirmandan Qulu kişi taxılı üyüdüb, öküz arabasında bir neçə kisə unla evə qayıdırmış, qəflətən

Qorqanlı Cümşüd bəy onun qabağını kəsir və tələb edir ki, öküzlərin xoşuma gəlir onları aç ver aparacağam.

Qulu kişi Cümşüd bəyə deyir ki, Bəy mənə toxunma, sonra ziyan çəkərsən". Cümşüd bəy ona fikir vermir və öz adamlarına öküzləri açdırıb dədə malı kimi aparır.

Qulu kişi əlacsız qalıb piyada qayıdır kəndə və qonşulardan iki öküz alıb gəlir öz arabasına qoşub unlarını gətirir evinə və bu qisası yerdə qoymamaq üçün plan qurur.

Üç gündən sonra öz əmisi oğlanları Fətalını və Seyidalını özü ilə götürüb, əli silahlı gedirlər Qorqana. Əmi oğlanlarının birini kəndin kənarında qoyur, ikincisini isə Cümşüd bəyə nəzarət etməyə və tapşırır ki, oyansa vurarsan. Özü isə Cümşüd bəyin həyətinə qoyun saxlanan ağıla girib qoyunun birini kəsir və əti səbətə qoyub, evin üstündən bu ətli səbətini sallayır həyətdəki itin yanına. İt ətin iyini hiss edən kimi qalxır səbətdəki əti yeməyə və Qulu kişi səbəti itlə bir yerdə qaldırıb yuxarıda bağlayır.

Sonra sakitcə düşür Cümşüd bəyin 100-ə qədər malını və qoyununu tövlədən çıxarıb əmisi oğlanları ilə aparıb İranda dəyər-dəyməzə sataraq qayıdırlar evə.

Səhər Cümşüd bəy oyanıb görür ki, el köçüb yurdu qalıb. Nə qədər axtarırlarsa mal-heyvandan həftə ərzində bir xəbər çıxmır. Cümşüd bəy fikirləşir bunu kim edər, axır ki, Qulu kişinin sözü "Bəy mənim öküzümü aparma, ziyan çəkərsən" yadına düşür və Horadizə getməyə qərar verir.



Qarağan təpənin şərq tərəfdən və Namazalı kəhrizindən görünüşü

Elə o günü gəlir Horadizli Məşədi Abdullanın evinə. Qonağa Məşədi Abdulla yemək təklif edir, Cümşüd bəyin boğazından su keçmir və başına gələn hadisəni Məşədi Abdullaya danışır.

Məçədi də kəndin şübhələndiyi adamlarını çağırtdırır, ancaq boynuna alan olmur.

Axir Qulu kişini gətirirlər o, da boynuna almır.

Məşədi Abdulla deyir: Qulu kişi, de sən öl mən aparmamışam. Qulu kişi deyir: - 100 heyvan nədir ki, ondan ötəri sənə sən öl vurum, heyvanları mən aparmışam deyə başına gələn əhvalatı Məşədiyə danışır və bunu eşidən Cümşüd bəy qalxır ayağa və Qulu kişiyə müraciət edərək deyir; "Qulu kişi səndə ki, bu qorxmazlıq və şücaət var, o malları bağışladım sənə, halal xoşun olsun" deyərək Məşədi Abdulla ilə görüşüb Qorqana qayıdır.

Qulu kişinin oğlanları Cəmil-Kubra Bəşir qızı və uşaqları, bir də Şəmil-Hafizə Calal qızı və uşaqları ilə birlikdə Qarağan təpədə yaşayırdılar.



Qarağan təpədə poçta

Qarağan təpə məhəlləsinin ilk sakinləri Toppuzlu nəslin davamçılarından Novruzovlar olub. Məhərrəm Allahverdi oğlu Novruzov öz halal zəhmətilə böyüdüb boya-başa çatdırdığı oğlanlarının adı: Allahverdi, Fəxrəddin və Ələddin hər yerdə atalarının yolunu davam etdirərək halal zəhmətlə çalışır və adları fəxrlə çəkilirlər.

Burda məhəllədə Quluyev Mirzalı, Fətalı, Seyidalı, Quliyev Ərşad, Aqil və Zakir Əşir oğlanları, Orucov Vəli və onun oğlu Orucla burda yaşayırdılar.

Bu məhəllədə Hüseynov Yolçu – kənddə ali təhsilli baytar həkimi, gözəl insan, dərin hafizəsi bir insan idi. Ailəsi Firəngül, oğulları – Novruz, Bəhrəm və Şəhriyarla yaşayırdılar.

Qarağan təpə sakinlərindən kənd ağsaqqalı Abdinov Camal kişinin oğlu – Abdinov Yavər Camal oğlu tanınmış gəmi kapitanıdır.

Bu məhəllədə Abdullayev Rəşid və Əli qardaşalrı yaşayırdılar.

Qarabağ müharibəsi şəhidi:
Abdullayev Saleh Əli oğludur.
Allah bütün şəhidlərimizə rəhmət eləsin!..

KAZIMLILAR MƏHƏLLƏSİ

Kazımlılar məhəlləsi – Horadiz kəndinin cənubi-qərb, aşağı tərəfində, Kərbəla Babaş dərəsilə - Fərəcanlı dərəsinin arasında, mədəni tövlədən aşağı, Dəli çayın sağ nahiyəsində məskunlaşmışlar.

Bu məhəllədə XIX əsrdə yaşamış kənd ağsaqqalı Kazım kişinin sayılıb seçilən ağsaqqal olduğuna görə bu məhəlləni onun adı ilə adlandırmışlar. Bu məhəllə həmişə abad və yam-yaşıl ağacları ilə fərqlənmişdir. Ona görə ki, burada əksər həyətyanı bağlarda hər ailənin öz bulağı olub. Məhz elə bu səbəbdən də onlardan heç biri başqa suya ehtiyacları olmamışdır.



Nazim Əsgər oğlu

Bundan başqa Kazımlılar məhəlləsinin adamları da həmişə kənd arasında hörmətlə qarşılanmışlar. Bu məhəlləni xatırlarkən, ilk növbədə 50 ildən çox müəllim işləmiş, kənd ağsaqqalı Hacı Calal Qasım oğlu Mehdiyevin, mən deyərdim ki, o

məhəllənin savadlanmasında və qohumların oxuyub həyata vəsiqə almasında, şəxsən onun böyük və danılmaz əməyi olmuşdur.

Hacı Calal ərəb əlifbasını yaxşı bildiyinə görə "Qurani- Kərim"-in azəri dilində tam təfsilatını yazaraq 500 səhifəlik çapla kitab buraxdırmışdır. Sözsüz ki, onun ilahiyyət elminə göstərdiyi əməyi böyük olmuşdur.

Əkbər Qasım Mehdiyev kolxozda çoban sənəti ilə ailəsini dolandırıb..

Fərzalı uşağı nəslindən olan Şirinov Fərzalı bu məhəllədə yaşamış və kənddə ən yaxşı qəzasız işləyən sürücü kimi tanınmışdır. Onun atası Fərzalı Şirin oğlunun 2-ci arvadı Bəyim bu məhəllədən olduğu üçün Fərzalı kişinin dəfnindən sonra ailəsi burada məskunlaşmışdır.


Bundan əlavə xeyirxah əməyi ilə tanınan feldşer həkimi vəzifəsində uzun müddət çalışan Əsgər Qasım oğlu Mehdiyevin öz peşəsinin vurğunu kimi, neçə-neçə xəstələrin sağalıb yenidən həyata qayıtmasında böyük əməyi olmuişdur.



Əvdil Mehdiyev

Əvdil Yusif oğlu Mehdiyev ailəsi ilə birlikdə bu məhəllədə yaşayırdı. O, səmimi bir insan kimi özünü layiqli bir dost kimi göstərmiş və özünə yaxınları arasında hörmət qazanmışdır.

Neçə illər orta məktəbdə kimya müəllimi işləmiş Həbib Əyyub oğlu Kazımov və 1979 - 93-cü illər Horadiz kənd Sovetinin sədri vəzifəsində çalışaraq, öz işində hörmət, izzət qazanıb. Kazımlılar məhəlləsində: Kazımovlar, Mehdiyevlər, Şirinovlar nəslinin nümayəndələri yaşayırdılar.



Eyvaz Mahmudov

AĞALILAR MƏHƏLLƏSİ


Ağalılar məhəlləsi – Kərbala Babaş dərəsi ilə Təpə kəhriz arasında və Abışdı bağı ilə Kazımlılar məhəlləsi arasında yeləşir. Bu məhəllənin "Ağalılar" adlanması burada Ağalılar nəslinin çoxluğu ilə əlaqədərdir.

Burada yaşamış el ağsaqqalı Ağayev Məhəmməd Hacı Qara oğlu olduqca cəsur və bədən cəhətcə sağlam bir insan olub. Deyilənə görə o, gündə çoxlu acı istiot yeyərmiş və bu onun üçün bir gündəlik norma imiş. Ona görə də Məhəmməd kişi heç bir vaxt qrip xəstəliyin nə olduğunu bilməzdi. İndi onun oğlu Vəli də acı istiot yeməklə atasının yolun gedir.

Bu məhəllədə el ağsaqqalı Mahmudov Eyvaz Ələkbər oğlu uzun illər Horadiz kolxozunda sürücü və avtomobil qaraj müdiri işləmişdir. Öz işi ilə həmişə kəndlilər arasında böyük hörmətə sahib olmuşdur. Özü də danışıb gülən və baməzə kişilərdən olmuşdur.

Onun qardaşı Əmirxan da öz halal zəhmətilə və sadəliyi ilə tanınmışdır.

Bundan başqa Ağayev Cümşüd Misir oğlu – lap cavan vaxtından traktorçu-mexanizator sənətilə öz işində həmişə nümunə göstərərək, pambıq yığımı zamanı pambıq yığan maşınla qabaqcıllar sırasında olmuşdur. El ağsaqqalı Cümşüd kişi ailəsilə birgə Sumqayıtda köçkün kimi məskunlaşıb və həmişə torpaq həsrəti çəkərək 2009-cu ildə vəfat edib canını bizə tapşırdı. Allah rəhmət eləsin.



Cümşüd Ağayev

Burada yaşamış Bəylərov Eldar Həmid oğlu da həmişə kolxozda traktorçu sənətində işləyərək halal zəhmətilə ailəsini dolandırıb. Bundan əlavə Eldar kişi ömrünün ahıl vaxtında yas mərasimlərdə dini ayinlərlə məşğul olurdu.

Həsənov Şükür Bəşir oğlu isə, Horadiz MTS-da baş mühəndis vəzifəsində çalışmışdır.

Bu məhəllədə boya-başa çatan və hüquqşünas peşəsinə yiyələnən Aydın Eyvaz oğlu Mahmudov Azərbaycan Respublikasının Ucar, Gəncə, Göyçay və Bakı şəhər Xətai rayonlarinda Prokuror vəzifələrində çalışmışdır və hal-hazırda Bakı şəhər Prokurorluğunda məsul vəzifədədir.

Bu məhəllədə Ağayevlər, Mahmudovlar, Həsənovlar, Bəylərovlar, Novruzovlar nəslinin nümayəndələri yaşayırdılar.

TƏPƏ KƏHRİZİ VƏ MƏHƏLLƏSİ

Təpə kəhrizi – kəndimizin cənub-qərb qutaracağında, Abışlı bağın başlanğıcında, Qarağan təpənin 200 metr aşağısında, Dəli çayın sol tərəfində olan kənd kəhrizlərimizdən biridir.

Bu kəhriz Qarağan təpənin yaxınlığında olduğu üçün bu kəhrizə *"Təpə kəhrizi"* adı vermişlər. Təpə kəhrizin o biri kəhrizlərə nisbətən bol suyu vardı və kənd bağları əsasən bu su ilə suvarılırdı. Bu kəhrizin çıxışında balaca gölməçə olduğundan, həm də ora qız-gəlinlər az-az gəldiyindən, yay aylarında orada uşaqlar və cavanlar çımərlik kimi istifadə edirdilər. Suyu çox soyuq olduğundan bu suda bir dəqiqə dayanmağı mərcləşərdik.

Təpə kəhrizinin ətrafında kənd sakinləri, həyətyanı evlər tikərək burada yeni – Təpə kəhriz məhəlləsi yaratdılar.

Təpə kəhriz məhəlləsinə – Qozlu çayla Dəli çay arasında və Qarağan təpə ilə kolxoz bağı arasında olan ərazi daxildir. Bura 1950-ci illərdən sonra kənd sakinləri köçüb həyətyanı evlər tikərək yaşayırdılar.



1957-ci il oktyabrın 27-də *"Leysan"* yağışdan sonra, Dəli çay daşqınları zamanı, ordakı yaşayış evlərini sel uçuraraq dağıtdı, 11 nəfər kənd sakini boğularaq həlak oldu. Təpə kəhrizi ətrafı evlər yerlə yeksan oldu. Sel kəhrizin quyularını zığ-palçıqla doldurub batırdı. Sonralar kənd kankanların əməyilə kəhrizin gözlərin açıb istifadəyə verdilər.

1957-ci il oktyabrın 27-si sel daşqınından sonra bəziləri öz köhnə yurdlarına qayıtdılar. Sonralar yenə də bu yerə qayıdaraq böyük bir məhəllə yaratdılar.

Bu məhəllədə Mehdiyev Yusif Səttar oğlu – Horadiz kolxozunda ferma müdiri işləmişdir. Mehdiyev Ağamalı və Qulam Qəmbər oğlu qardaşları traktorçu-mexanizator işləyərək hörmətə layiq şərəfli əməklə məşğul olmuşlar.

Təpə kəhriz məhəlləsində: Mehdiyevlər, Əhmədovlar, Allacovlar, İsmayılovlar, Hüseynovlar Rüstəmovlar və Quluyevlər nəslinin nümayəndələri yaşayırdılar.

DÖRDÇİNAR KƏNDİ

Dördçinar kəndi – Horadiz kəndindən 1 km şimalda, Dördçinar təpəliklərinin ətəklərində, Qozlu çayın sağ nahiyəsində yerləşən, həm də Hüngütlü kəndi ilə üzbə-üz kənddir.

Kənd adamlarının dediyinə görə 1743-cü ildə Nadir şahın hakimiyyəti dövründə İranın Ərdəbil əyalətindən gələn Xələf bəyin törəmələri bu kəndin ilk məskunlarıdır. Belə deyirlər ki, qabaqlar bu kənddə Xələf bəyin dörd oğlu var imiş. Ona görə də söz düşəndə deyərmişlər, "o obaya yaxın durmayın orda dörd çinar boyda qollu-budaqlı igidlər var". Elə ona görə də bu kəndə "Dördçinar" adı vermişlər.



Hacı Süleyman Xələfov

Dördçinar və Hüngütlü kəndləri əvvəldən Horadiz kənd Sovetliyinə birləşdirilmişdir. Bir kolxoz təsərrüfatında çalışırdılar. Bu kəndin yaşayış tərzi yaxşı idi və orda abad evlər tikilmişdi. Kənd camaatı əsasən taxılçılıqla, heyvandarlıqla, baramaçı-lıqla və üzümçülüklə məşğul olurdu.

Dördçinar və Hüngütlü kəndləri arasında babaların qoyub getdiyi şəxsi gözəl bağı vardı, lakin kolxozlaşma dövrü bu bağ kolxozun əmlakı hesabına verilmişdi. Deyilənə görə Dördçinar və Hüngütlü kəndlərinə XVIII əsrin sonlarında İraqdan bir neçə nəsil də gəlmişdir.

Bu kənddə dörd çinar ağacı da olub. Bəlkə də ona görə də bu kəndə "Dördçinar" adı vermişlər.

1918-20-ci illər bu kəndə qərbi Azərbaycanın Sisiyan rayonunun, Ağüdü kəndindən bir neçə nəsil də vardır. Bəzi mənbələrə istinad edərək məlum olur ki, bu kənddə məskunlaşanlar arasında Şuşa

şəhərindən Dördçinar məhəlləsindən gələnlər də var. Ona görə də bu kəndə "Dördçinar" adı verilmişdir. Bu kənddə 28 ev vardı.

Azərbaycanda coğrafi yerlərin bəzilərinə ağacına, suyuna və başqa cəhətlərinə aid ad verilmişdir. Dördçinar da bu silsilədəndir.

Dördçinar kəndin yetişdirdiyi şanlı oğulları Azərbaycan cəmiyyətində mühüm vəzifələrdə çalışıblar. Bu kənddən onlarla alim və ziyalı çıxmışdır. Bunlardan: Xələfov Məhəmməd, Xələfov Cəbrayıl, Xələfov Kərim və Rəhim qardaşları, Xələfov Fehruz, Xələfov İlqar, Xələfov Vahid, Xələfov Əşrəf və Xələfov Əsgəri də göstərmək olar.



Dördçinar kəndində qədimi ev tikintisinin qalığı

Kəndin girəcəyində Fin evində İbtidai məktəb, tibb məntəqəsində müəllimlərdən Qasımov Cəfər və Qasımova Ceyran dərs deyirdi.

Kitabxana fəaliyyət göstərirdi. Məhərrəmova Svetlana müdir və Kərimova Aygüni metodist şləyirdi.

Həm də burda tibb məntəqəsidə var idi və orda Qasımova Tənzilə tibb bacısı işləyirdi.

Birdə klubda vardi, bu klubun müdirəsi İsmayılova Məlahət işləyirdi.

Kəndin üstündə təpəlikdə Dördçinar və Hüngütlü kəndlərinin qəbistanlığı yerləşirdi. Ondan da yuxarıda Naraltı deyilən yer və Tək

gər ağacı var idi. Onunda altında 100-ə qədər malqara və qoyun isti yay günlərində dincələrdi.

Dördçinar kəndində Xələfovlar, Qasımovlar, Mahmudovlar, Vəliyevlər, Rüstəmovlar, Yusifovlar, Əliyevlər, Kərimovlar, Məmmədovlar və Cəfərovlar nəslin nümayəndələri yaşayırdılar. Bu kəndin tanınmış şəxsləri haqda sonrakı səhifələrdə oxuyacaqsınız.

Dördçinar kəndində 3 sentyabr 1993-cü ildə ermənilərin işğalından sonra 30-a qədər yaşayış evləri qaldı.

Dördçinar kəndinin Qarabağ şəhidi: -
Xələfov Kamil Əliabbas oğludur.
Allah bütün şəhidlərimizə rəhmət eləsin!..

HÜNGÜTLÜ KƏNDİ

Hüngütlü kəndi – Horadiz kədindən şimalda, Qozlu çayın sol qolunda, Dördçinar kəndi ilə üzbə-üz, təpəliklərin üstündə həm də ətəyində yerləşir. Kəndin dağətəyi maili düzənlikdə məskunlaşan kənd camaatı üzümçülüklə, taxılçılıqla, qoyunçuluqla, heyvandarlıqla və baramaçılıqla məşğul olurdular.

Uzun illər Horadiz kəndi ilə bir Sovetlikdə, bir kolxozda olduqları üçün, qaynayıb qarışmış və qohumlaşmışlar, biri-birinə yaxın, əziz, mehriban, ayrılmaz vahid obaya çevrilmişlər. Burada 26 ev vardı.

"Hüngütlü" toponimin türk-monqol mənşəli *"hun"*, *"onqut"* tayfasının adı ilə əlaqədar olduğu ehtimal edilir. Çox güman ki, yaşayış məntəqəsi monqol işğalı dövründə yaranıb, XIII əsrin mənbəələrində monqollar arasında *"onqut"* tayfasının adı da çəkilib.

Həmin dövrdə Azərbaycanda xeyli türk – monqol mənşəli tayfalar məskunlaşmışlar.

Etnotoponim *"Hunların kəndi"* və ya *"onqutların kəndi"* mənasındadır. Bu toponim bəzən *"küngüt"* sözü ilə izah edilir. *"Küngüt"* monqol mənalı sözdür, monqol işğalında iştirak edən türkdilli tayfaların birinin adı *künkit (künküt)* olmuşdur.

Azərbaycanda bu toponimlə bağlı İsmayıllı və Şəki rayonları ərazisində Küngüt dağı, Küngüt çayı, Aşağı küngüt kəndi, Küngüt

dərəsi, Küngüt yarğanı, Göyçay rayonunda Üngütlü kəndi, Cənubi Azərbaycanda, Muğanda Hüngüt mahalı deyilən əyalət var.

Hüngütlü kəndində: Kərimovlar, Rzayevlər, Heydərovlar, Məmişovlar və Xələfovlar nəslinin nümayəndələri yaşayırdılar.

HORADİZİN SU MƏNBƏƏLƏRİ

ARAZ ARXI (kanalı)

Araz arxı (kanalı) – öz mənbəyini Araz çayından, Cəbrayıl rayonunun Maralyan kəndindən götürüb Cocuq Mərcanlı, Horadiz, Arayatılı və Babı kəndlərinin torpaqlarını su ilə təmin edir.

Bu arx Bakı – Naxçıvan dəmir yolu ilə, Bakı – Zəngilan magistral avtomobil yolunun arasında şərqə tərəf uzanır. Horadiz kəndinin əkin sahələrini su ilə təmin etməklə yanaşı, Qozlu çay üzərində olan su dəyirmanını da işlədirdi. Yay vaxtları pambıq və üzüm sahələrində çalışan zəhmətkeşlər Araz arxında bu suda çimərək sərinləşirdilər. Həm də burada tor quraraq balıq tutardılar.

Azərbaycanın böyük ədibi Mirzə Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Əhməd bəy qızı Cavanşirova özünün "Xatirələrim" əsərində atası Əhməd bəy Cavanşirovun tərcümeyi-halında yazırdı: - "1862-ci ildə rus canişini Mixail Nikolayeviçin Tiflisə gəlməsi münasibətilə onun pişvazına çıxmaq üçün Qarabağın xan ailəsindən, o cümlədən nüfuzlu və mötəbər bəy ailələrindən Tiflisə nümayəndələr göndərmək lazım olur. Rus dilini bildiyi üçün atamı da bura dəvət edilir. Xanqızı Xurşud Banu Natavan belə özünü təqdim etmək üçün bu nümayəndə heyətinin içində canişinin pişvazına gedir. Atam danişırdı ki, Xanqızının yaxın qohumları mirvarı və qiymətli daş-qaşla bəzədilmiş bahalı libaslar geyinmişdilər. Onlardan biri, Cəfərqulu Xanın oğlu, zinətlərə qərq olmuş, hətta çarıqları belə cəvahiratlə işlənmişdir.

Yerli nümayəndələrin təqdimatında canişin nitq söyləyir və görüşünə gələnlərin hər birinə sual verir. Lakin atamdan başqa heç kim rus dilini bilmədiyindən ona cavab verə bilmir. Canişin elə həmin vaxt atama inzibati orqanlarda xidmət etməyi təklif edir və onu Qafqaz Təbiəti Mühafizə İdarəsinin rəisi təyin edilir.

Əhməd Bəy Cavanşirov, ünlü sərkərdə Məmməd Bəyin nəvəsidir və Qarabağ Xanı – Pənah Xan Cavanşir - Əhməd Bəyin üçüncü babasıdır. Əhməd Bəyin əmisi oğlu İsmayil Cavanşirov – Füzuli rayon Pirəhmədli kəndində məskunlaşmış və bizim Horadiz kəndindən Əfsər Cavanşirovun xalası Zərəfşan xanımla evlənsə də

övladı olmadığına görə Əfsəri uşaqlıqdan övladlığa götürüb, Bakıya köçərək onu oxudub, boya başa çatdıraraq, öz soy adlarını vermişlər.

1865-ci ildə atam – Əhməd Bəy Cavanşirov – Cəbrayıl uyezdinin Araz çay qırağı sahəsinə müvəkkil təyin olunur. Atam Araz çay qırağı sahələrə baxış zamanı Arazdan bu taya uzanıb gələn susuz çöllərə kanal çəkmək fikrinə gəlir.

Bu fikri həyata keçirməkdən ötrü Əhməd Bəy Şuşaya uyezd canişini Krinitskinin qəbuluna gedir. Krinitski kanal çəkməyə Əhməd Bəyə icazə verir.

Əhməd Bəy İrandan kankanlar çağırtdırır, su çəkmək üzrə təcrübəli ustaları başına toplayır, Arazın sahillərini dərindən tədqiq etmək üçün ekspedisiya təşkil edir. Bu dəstə onun şəxsi hesabına günlərlə Arazın sahillərini gəzib dolaşırlar. Nəhayət, daşqınlar başlayarkən suyun təzyiqi kanalın yatağını dağıtmasın deyə Maral-yuan kəndin yanında bir yer tapırlar. Bundan sonra Əhməd Bəy Horadiz, Maralyan, Cocuq Mərcanlı, Qazaxlar, Molla Məhərrəmli, Arayatlı və Babı kəndlərinin camaatını toplayıb bu su kəmərin əhəmiyyətini izah edir və təklif edir ki, bu işə kömək etməklə, bu iməcilikdə iştirak etsinlər. Kənd camaatı Əhməd Bəyin fikrini bəyənir, təklifi qəbul edir və müəyyən vaxt ərzində hər evdən bir işçi verməyi razılıq verirlər. Eyni zamanda Əhməd bət belə şərt irəli sürür ki, bu kanalın suyu axıb sahələri suvarmağa başlayandan sonra, iməcilikdə iştirak etmiş evlərdən beş il vergi almayacaqlar. Bu şərtlə işə başlanılır və hamı bir nəfər kimi can-başla bu çətin işin həyata keçməsinə çalışırlar.

Nəhayət 1867-ci ilin Novruz bayramı ərəfəsində Araz kanalını istifadəyə verirlər. Həmin ildən kanal keçən ərazinin camaatı hər cür dənli bitkilər əkirlər və nəticə çox əla idi. Suyun sayəsində quru çöllər cana gəlib göyərir. Əhməd Bəyin bu çalışqanlığı sayəsində Araz qırağı kəndlər varlanır, abadlaşır, gözəlləşir və böyüyür, eyni zamanda kənd adamları köçəri həyatdan əl çəkib oturaq həyat sürürlər.

BURĞA BULAĞI

Burğa bulağı – Horadiz kəndində qeydə alınan hidronimlərdən biridir. Bulaq yerin altından öz gücünə çıxan su mənbəyidir. Horadiz kəndindən 2 km şərqdə Burğa dərəsində yerləşir və Zaqun dərəsindən çıxan torpaq yol Burğa bulağına gedir. Burğa bulağın yanında bağ və toyuq ferması var.

Burğa bulağının çox sərin və şirin suyu var.

DƏLİ ÇAY

Dəli çay – öz mənbəyini kəndimizdən 6 km şimalda yerləşən Düldülə dağından, yağış sularından götürüb gələrək Horadiz kəndimizin quzey tərəfilə, Qozlu çayla paralel kəndin içindən keçərək öz səmtini Abışlı bağı ilə Təpə kəhrizin arasında itirərək kolxoz bağına yayılır.

"Dəli" sözü "şıltaq" mənasında işlədilir. Çünki, Dəli çay əksər vaxtları quru olur, amma leysan yağışlar tökəndə dəliliyi tutduğu üçün, el arasında "Dəli çay" adlandırılmışdır.

Belə dəliliklərdən biri də 1957-ci il oktyabrın 27-də axşam saat 21-də baş vermişdi. O günü leysan yağışından sonra güclü sel daşqını gələrək çay qırağı evləri basaraq uçurmuş, neçə-neçə evləri yer üzündən silib aparmış və bu evlərdə yaşayan 11 nəfər kənd sakinləri suda boğulmuş, hətta kolxozun mədəni tövləsində olan yüzlərlə sağılan cins inəkləri tövlə ilə birlikdə dağıdıb aparmışdı. Fin evində olan kolxoz süd emalı sexini, sexdə işləyən Müseyib Vəliyevlə birlikdə çay aşağı apararaq ağaclara vura-vura dağıtmışdı.

Həmin bu faciədə həlak olanları oktyabrin 28-də Horadiz qəbiristanlığında yan-yana qardaşlıq məzarı kimi dəfn etdilər.

Dəfn olunanlar aşağıdakılardır:

1. Allacova Mələk Həsənqulu qızı,
2. Nəcəfov Cəmil Şəmil oğlu (Mələyin oğlu),
3. Novruzova Leylan Muxtar qızı (Cəmilin arvadı),
4. Nəcəfov Şəmil Cəmil oğlu (Cəmilin 6 aylıq oğlu),
5. Novruzova Leylan Əhəd qızı,
6. Novruzov Əvdil Muxtar oğlu,
7. Əzizov Kamran Bəhram oğlu,

8. Abdullayeva Leyli,
9. Abdullayeva Xanım (Leylinin qızı),
10. Abdullayeva Simuzər (Xanımın qızı),
11. Vəliyev Müseyib (Vəliyev Bayrışın qardaşı).
Allah hamısına qəni-qəni rəhmət eləsin!

DÖRDÇİNAR KƏHRİZİ

Dördçinar kəhrizi – Dördçinar və Hüngütlü kəndlərindən 100 metr yuxarıda, Qozlu çayın sol tərəfində fəaliyyətdə olan bol sulu kəhrizdir. Kəhrizin suyu olduqca şəffaf, göz yaşı qədər duru və çox soyuqdur, hətta suyun içərisindəki qumları saymaq olardı. Onun suyunda bir dəqiqə barmaq saxlamaq olmurdu. Kənddə bu kəhrizə onun suyunun bolluğuna görə dəyirman işlədən kəhriz də deyirdilər.

Dəyirman boynundakı un dəyirmanına xüsusi arx çəkərək, onu su ilə təmin edib işlədirmişlər, həm də Dördçinar bağı bu kəhrizin suyu ilə suvarılırdı. Qabaqlar Dördçinar kəhrizi ilə bərabər Musabəyli kəndi ilə sərhəddə Baş kəhriz və Hüngütlü kəhrizi olub.

Kəhriz qrunt suların toplanıb yer üzünə çıxmaq üçün, Musabəyli kənd bağının altından, peşəkar kankanların vurduğu şaquli quyular və üfiqi lağımlar qazılaraq Dördçinar kəndinin baş tərəfindən yer üzərinə çıxarılaraq istifadə edilirdi.

Dördçinar kəhrizinin hesabına Dördçinar bağının yaşıllığı göz oxşayırdı.

GÖLBAĞ BULAĞI

Gölbağ bulağı – Horadiz kəndindən qərbdə, Gölbağ dərəsində, kənddən 1 km aralıda qeydə alınan hidronimlərdən biridir. Bu bulağın adı ulularımızın dediyinə görə bulağın aşağı hissəsində göl var imiş və bu göldəki yığılmış su ilə bağı suvarırmışlar. Ona görə də bu bura Gölbağ bulağı adlandırılmışdır.

Gölbağ bulağının yanında bağ və toyuq ferması var idi. Bu fermada Şurya kişi müdir işləyirdi. Burada yaşayış üçün ev də vardı və kənddən aralı olduğundan, necə deyərlər “dərə xəlvət, oğru bəy” kimi bəzi cavanlar bura yığışaraq qumar oynayardılar.

Kənd ağsaqqalı Bəhlul Soltanov (78 yaşlı) deyir ki; "Cavanlıqda biz axşamlar tez-tez Gölbağa yığışaraq kart oynayaraq vaxtımızı keçirərdik. Günlərin birində Şurya kişi bankir idi, xeyli pul yığılmışdı. İsmayıl Alı oğlu 29 xal olduğundan, yeznəsi Kamal Behbud oğlu ilə baxışandan sonra, istədilər Şurya kişiyə kələk gəlib pulları götürsünlər. Bunu başa düşən Şurya kişi, divardan asılmış ov tüfəngini dərhal götürüb, onlara tərəf tuşlayaraq: "Köpək uşağı ağzınıza torpaq alın" deyərək, üç tuzu atdı bunların üstünə və pulları yığışdırdı". O hadisədən sonra xeyli vaxt ora getmədik.

HƏSƏN GÖLÜ

Həsən gölü - Kazımlılar məhəlləsində olan kiçik süni göldür. Bu göl həmin məhəllədə olan çoxlu bulaqların suyu ilə təmin edilir. Bu gölün "Həsən gölü" adlanması burada yaşamış Həsən kişinin bu gölü ərsəyə gəlməsində müstəsna rolu olduğundan adı verilmişdir. Bu məhəllədə demək olar ki, hər qapıda öz-özünə yerdən çıxan bulaqlara rast gəlinir. Bulaqlardan gələn sularla bu göl dolduqdan sonra suyu açıb həyətyanı bağları suvarırdılar. Həsən kişi Qarağan təpədə yaşayan çolaq Hamayılın atası olub.

GÜNEY KƏHRİZİ

Güney kəhrizi – Kəndimizin aşağı hissəsində, Saqqızlı məhəlləsində, kolxoz bağının baş hissəsində, Qozlu çayın sol yaxınlığında qeydə alınan hidronimdir. Toponim *"güney"* və *"kəhriz"* sözlərindən ibarətdir. *"güney"* sözü hər hansı bir yüksəkliyin – dağın, təpənin, geniş işığı olması üçün yaxşı işıq düşən tərəfi, günəşli yeri, günəş işığı düşən tərəf mənasındadır. *Kəhriz* isə yeraltı su yolu, su kəməridir. Qrunt sularını toplayıb, yer səthinə çıxarmaq üçün yeraltı qurğulara – kəhriz deyilir.

Güney kəhriz öz mənbəyini Əziz kişinin bərəsindən götürərək, Əmirqulular məhəlləsindən və Saqqızlı məhəlləsində – qazılmış quyuların suyu ilə qarışaraq üzə çıxır.

Suyu büllur kimi şəffaf, soyuq və boldur.

Bu kəhrizin suyu ilə əsasən kolxoz bağı suvarılırdı.

Güney kəhrizin ərafında yaşayış evləri vardır.

XAN KƏHRİZİ

Xan kəhrizi – Horadiz kəndində suyu bol olan kəhrizlərdən biridir. Xan kəhrizi Rzalılar məhəlləsinin, Qozlu çay kənarında yer səthinə çıxır. Xan kəhrizin toponimi *"Xan"* və *"kəhriz"* sözlərindən ibarət olub, *"Xana məxsus olan kəhriz"* mənasındadır. Bundan başqa belə bir məna verir ki, *"Xan kəhrizi", "Baş kəhriz"*, yəni: Horadiz kəndində ən yuxarı hissəsində olduğu üçün bu kəhrizə belə ad vermişlər. Onun mənbəyi Hüngütlü sıra təpəliklərin altından götürərək, qrunt sularını yer səthinə çıxarmaq üçün yeraltı şaquli quyularla və üfiqi lağımlarla Qozlu çay boyunca, peşəkar kankanlardan Həsən, Şirin, Ağalar Şirinovlar, Qəmbər İsmayılov, Kərim Kərimov, Cabbar Hacıyevin tərəfindən 1955-ci ildə ən son kəhriz kimi inşa edilib.

Xan kəhrizin suyu soyuq, şəffaf və yüngüldür. Bu kəhrizin suyu ətraf həyətyanı sahələrin və Qozlu çayın üstündən dəmir boru ilə keçərək Dullar məhəlləsinindəki həyətyanı bağları da suvarırdı.

İBƏ BULAĞI


İbə bulağı – Horadiz kəndindən şimal-qərbdə, Teşnək əkin sahəsinin Cəbrayıl rayonu ilə həmsərhəd olan yerdə üzə çıxan bulaqdır. Aşağı Aybasanlı kəndində bu qəbilədən olan İbə (İbrahim) adlanan və xalq arasında əziz sayılan müqəddəs ziyarətgah da qeydə alınmışdır. Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi ərazisində İbə bulağı, ocaq və ziyarətgah yəqin ki, xalq arasında tanınmış İbrahim kişinin adı ilə bağlıdır.

İMAM BULAĞI

İmam bulağı – Horadiz kəndində qeydə alınan hidronimlərdən biridir. İmam bulağı İmam Pirinin yaxınlığında 100 metr şimal-qərbdə yerləşir. Bulaq yeraltı suların yer üstünə təbii çıxışıdır. İmam bulağı hidroniminin tərkibindəki "İmam" sözü şiə məzhəbinin başçısı qəbul edilmiş Həzrət Əli və onun övladlarına verilən ad mənasındadır.

İmam sözünün *"Camaata namaz qıldıran"* anlamı da var. Bəzi ərəb dövlətlərində dövlət başçısına Imam da deyirlər. İmam bulağın

suyu göz yaşı kimi dup-duru, soyuq və yüngüldür. Yerli adamlar bu suyu möcüzəli su adlandırırlar.



İmam Pirindəki hovuz üstündə Teyyub Mikayıl oğlu

İmam bulağını 1989-cu ildə Əhməd Seyid Səyyad oğlu tərəfindən bulağın üstünə mərmər çəkdirərək onu abadlaşdırıb. Bulağın yanındakı hovuzu isə usta Tapdıq Hüseyn oğlu İmanov inşa edib.

İmam bulağın suyu həqiqətən möcüzəli sudur, ona görə də kənd adamları və bura ziyarətə gələnlər bu sudan içərək alqış edir, həm də qablara doldurub evlərinə aparırlar. Bu suyu içən şəxs, hər cür xəstəlikdən və xətadan hifz olur.

Belə rəvayət edirlər ki, bir nəfər səyyah uzaq yoldan gəlir, ac, susuz taqətdən düşən vaxtı bu bulağa çatır və doyunca su içərək burada uzanıb yuxuya gedir. Ayılanda görür ki, qarşısında yemək var və o doyunca yedikdən sonra, bu yeməyi verənə şükür edib yoluna davam edir. Elə məhz ona görə də İmam Pirinə ziyarətə gələnlər, gətirdikləri xörəkdən bir hissəsini bu bulağın başına qoyurlar ki, yol adamların və ziyarətə gələnlərin ehtiyacı varsa onu yesinlər. Bu, bizim kənddə adət halına çevrilmişdi.

KAZIMLILAR BULAQLARI

Kazımlılar bulaqları - bu məhəllədə hərənin öz bulağı həyətyanı bağçasından öz-özünə çıxırdı. Bu məhəllənin relyefi və şəraiti bam-

başqa idi. Haranı qazırdinsa ordan mütləq su çıxmalıydı. Elə ona görə də burada yaşayanlar sudan korluq çəkməzdilər və həm də bağ-bağatların yaşıllığı göz oxşayırdı.

Bu məhəllədə çox geniş olmayan süni Həsən gölü var idi. Onun axan yerin tutardılar və göl bir günə dolduqdan sonra açıb suyu buraxardılar və həyətyanı bağlarını suvarardılar.

QOŞA KƏHRİZ

Qoşa kəhriz – XX- əsrin əvvəllərində, hətta 1950-ci illərə kimi Təpə kəhrizin və Muxtar kəhrizin suları, Qarağan təpənin qərb tərəfində yerin altındakı quyularda birləşib bir kəhriz kimi fəaliyyət göstərdiyindən belə adlandırırdılar.

Bu haqda Azərbaycanın xalq Yazıçısı Əli Vəliyevin "Budağın xatirələri" kitabında da "qoşa kəhriz"-i qeyd etimişdir.

1950-ci ildən bu kəhrizləri ayırdılar. Muxtar kəhrizin çıxışı Dəli çaya, Təpə kəhrizin çıxışı isə Abışlı bağın şərq hissəsində, Dəli çayın qəbiristanlığa ayrılan yolun yanında idi. Biz uşaqlıq illərində, gündüzlər kəhrizdə qız-gəlinlər olmayanda, yayın cırha-cırında ora gedib çimərək sərinləşərdik. Suyu o qədər soyuq olardı ki, biz həmişə uşaqlarla mübahisə edərdik, kim bir dəqiqə suyun içində qala bilər. Bu isə Təpə kəhrizin suyunda mümkün olmurdu.

QOZDİBİ KƏHRİZİ

Qozdibi kəhrizi – Təpə kəhrizlə Qozlu çay arasında, kolxoz bağının başlanğıcında və burada olan iri qoz ağaclarının yanında yer səthinə çıxdığına görə "Qozdibi kəhrizi" adı vermişlər. Bu kəhriz öz mənbəyini Qarağan təpənin aşağısından götürür.

Mənim şirin xatirələr kimi yaxşı yadımdadır, Novruz bayramı günündə, Aralıq yol Şahverənlilər, Güney məscid altı və Əmirqulular məhəlləsinin cavan oğlan və qızları, çillə çıxarmaq üçün İmanov Şükürün evinə yığışıb səhərə kimi çalıb-oxuyaraq şənlənərdik. Səhər o başdan, dan yeri sökülməmiş biz gedərdik Namazalı kəhrizinə. Eşitmişdik ki, Namazalı kəhrizin üstündəki olan söyüd ağacları, Novruz bayramı günü yəni: köhnə il təzə ilə təhvil verilən gecəsi dan yeri sökülməmiş başlarını suya əyib kəhrizdən su içirlər. Deyərdilər

kim onu görsəydi, bütün arzuları yerinə yetəcək. O qədər çalıb oynamışdıq ki, kəhrizin başında oturub söyüdün əyilib su içməyini izləyə-izləyə hamımız yuxuya getmişik. Bir də ayıldıq ki, gün çıxır. Pərişan halda hamımız heyifsilənərək getdik "Qozdibi kəhrizi"- nə və adətə görə üzüm tənəyinin altından üç dəfə o yana, bu yana keçərək, sonra kəhriz suyunun üstündən üç dəfə tullandıq və ağırlığımızı suya verdik ki, yüngülləşək. Daha sonra həmin hündür qoz ağaclarından ip asaraq yelləncək düzəldib yellənərdik və şənlənərdik. Yelləncəkdə yellənən qız və ya oğlanları nar ağacından düzəldilmiş çubuqla ayaqlarına vurardılar ki, "Nişanlının adını de", deyib gülüşərdik. Yelləncəkdə olan utanaraq yavaşca adını deyər, yada ki, göz mimikası ilə işarə verərdi.

QOZLU ÇAY VƏ KÖRPÜSÜ

Qozlu çay – Füzuli rayonunda uzunluğu 28 km, hövzəsinin sahəsi 100 kv.km olan çaydır və Arazın sol qoludur. 1520 metr dəniz səviyyəsindən hündürlükdə, Qarabağ silsilə yamaclarının Ərgünəş dağından başlayaraq, Qarakollu, Pirəhmədli, Musabəyli kəndlərindən keçərək, Dördçinar və Hüngütlü kəndlərinin arası ilə gəlib, Horadiz kəndimizi iki hissəyə bölür və bizim torpaq sahələrindən keçərək Araz çayına tökülür. Qozlu çay yağış suları ilə qidalanır və yay aylarında quruyur. Axarlığı müvəqqəti olan Qozlu çaydan suvarmada az istifadə olunurdu.



Qozlu çay toponimi adı qoz bitkisi ilə bağlıdır. Çayın sahillərində çoxlu qoz ağacları olduğu üçün və payız aylarında bu çaydan qoz axdığına görə hidronim ***"Qozlu çay"*** adlanır.

Tarixdən məlumdur ki, Qozlu çay sahilində Səfəvi – Osmanlı müharibələri zamanı çoxlu qanlı döyüşlər olmuşdu. Osmanlıların zəbt etdiyi Qarabağı geri qaytarmağa çalışan I-Sah Abbas (1587-1629), Hüseyn Xan Qacarı(Gəncə hakimləri Ziyadoğulları

nəslindən idi) qoşunlarını Qarabağa 1604-cü ildə göndərmişdi. Araz çayını keçdikən sonra Hüseyn Xan Qacarın qoşunları Dərə ağzında, Qozlu çay sahilində düşərgə salmışdı. Gəncə Bəylərbəylisi Davud Paşanın 7 min nəfərlik qoşunu isə Qonaqgörməz dərəsindən qəflətən çıxaraq, Hüseyn Xan Qacarın qoşununu, Qozlu çayətrafında məğlub edərək, Arazdan o taya çəkilməyə məcbur etmişdir.

Qozlu çayda su gələrkən Horadiz kəndində o tay, bu taya keçmək üçün, kəndin mərkəzində yeganə əsaslı körpü tikilmişdir ki, texnika və adamlar bu körpüdən istifadə edərdilər. Leysan yağışları zamanı, kəndimizdəki çay ətrafı evləri və həyətyanı bağları sel basaraq həmişə ziyanlıq vurardı. Sonralar çayın içini dərinləşdirərək kənd camaatını bu bəladan nisbətən qurtarmaq mümkün olmuşdu.

QURDLU BULAQ

Qurdlu bulaq – Horadiz kəndinin başında, Dəyirman boynunun ətəyində, yeraltı suyun təbii yolla çıxışıdır. Adının tərkibində *"qurd"* və *"bulaq"* sözlərindən, eləcədə *"lu"* şəkilçisindən ibarətdir. Ağsaqqallarımız deyərdi ki, qabaqlar bu bulağın yaxınlığında evlər olmazdı, ancaq bulağın yanında bostan əkilərdi. Neçə dəfə görüblər ki, bu bulaqdan canavarlar gəlib su içərdilər. Ona görə bu bulağa *"Qurdlu bulaq"* deyirlər. Təbii bulağın aşağı hissəsində süni göl vardı. Bu gölə su yığılıb dolandan sonra, o su ilə həyətyanı bağları suvarardılar. Bu göldə biz məktəb yaşlı uşaqlar yay vaxtı çimərdik. Qurdlu bulaq ətrafında yaşayış evləri vardır.

MƏRCAN BULAĞI

Mərcan bulağı – Horadiz kəndindən şimal-qərbə, Dəli çayın üstündə, kənddən 1,5 km yuxarıda yerləşir.

Qeydə alınan bu hidronim *"mərcan"* sözündən və *"bulaq"* hidronimik apelyativindən ibarətdir. Bulaq yeraltı suların qaynayaraq yer səthinə çıxışıdır.

Bulağın ***"mərcan"*** adlanması yerli məlumata görə, suyunun qaynayıb çıxardığı sahədə mərcan kolcuqların çox olması ilə əlaqədərdir. Suyu sərin və yüngüldür.

MUXTAR KƏHRİZİ

Muxtar kəhrizi – Nəcəflilər məhəlləsindən, şaquli quyularla və üfiqi lağımlarla qazılıb, çıxışı əvvəllər Qarağan təpə ilə Dəli çay arasında 1950-ci ilə kimi Təpə kəhrizlə birləşərək "Qoşa kəhriz" adlanırdı. Sonralar Muxtar kəhrizin çıxışını ayıraraq Dəli çaya tərəf yönəldiblər. Muxtar kəhrizi Nəcəflilər məhəlləsində yaşamış kənd ağsaqqalı Muxtar kankanın və kənd kankanların köməyilə başa gəldiyi üçün bu kəhrizə *"Muxtar kəhrizi"* adı vermişlər.

NAMAZALI KƏHRİZİ

Namazalı kəhrizi – kəndin ortasında, Əziz kişinin bərəsindən kəndin içərisinə gedən yolla, Aralıq yolun birləşdiyi yolayrıcındadır.



Namazalı kəhrizi

Bu kəhrizi XVIII-əsrin sonlarında Horadiz kəndində qədim Namazalılar tayfalardan olan, Kəndxuda Namazalı babamızın səxsi vəsaiti hesabına başa gəldiyi üçün "Namazalı kəhrizi" adlandırılıb. Namazalı kəhrizinin quyuların başlanğıcı Calal dərəsindən başlayaraq, Namazalıların, Kərbala İsmayılların, Fərzalı uşağının, Soltanovların və Eyvazovların həyətindən keçərək, Bəylərov

Abbasqulunun evinin arxasında yer səthinə çıxır. Kəhrizin ətrafı sal daşlarla hörülmüşdür və üç yerdən su ovuca oxşar yonulmuş daşlardan tökülürdü. Kəhrizdə su götürənləri, qab-qacaq yuyanları, paltarları təmiz suya çəkənləri qızmar gündən qorunmaq üçün – üstünü dəmir örtüklə bağlamışdılar.

Namazalı kəhrizinin buz kimi suyu vardı. Bu su labaratoriyadan keçərək ən saf su kimi təsdiqini tapmışdır. Yay vaxtı kəhrizin yanından ötən hər şəxs, buz kimi sudan içməmiş getməzdi. Səhər-axşam kəhrizin başı qız-gəlinlərlə dolu olardı. Səhəngdə su aparan qızlar, qab-qacaq yuyan gəlinlər bir-birilə xısın-xısın söhbət edərdilər. Bəzən də cavanlar öz sevgililərini görməyə kəhriz başına gələrdilər. Neçə-neçə qızların bu kəhrizdən qaçırılmasının şahidi olmuşam və onlar xoşbəxt ailə qurmuşlar.

Namazalı kəhrizi ilə əlaqədər bir hadisəni Fatma Rza qızı Mehdiyeva xatırlayaraq deyərdi: *"Günlərin birində, kəhriz başına qız-gəlinlərin toplaşan zamanı, bir neçə atlı yaxınlaşaraq qızlardan bir içim su istəyirlər. Başında papaq, çiynində tüfəng, belində kəmər olan igid, qızlardan yenə su istəyir. İsmətli, həyalı kənd qızları ondan çəkinərək, su vermirlər. Bunu hiss edən igid atdan düşür, qızlar qorxmasın deyə papağını başından götürür və saçı tökülür çiyninə. At belində olan igid gözəl xanım imiş. Sudan doyunca içdikdən sonra o, gözəl Qaçaq Nəbinin Həcəri olduğunu söyləmişdir".*

Horadiz kənd zəhmətkeşlərinə pambıq və üzüm sahələrində çalışanlara istifadə üçün, qabaqlar çəlləklərə doldurub öküz arabası ilə, sonralar, yəni 1955-ci illərdən sonra kolxozun 2 ədəd xüsusi su daşıyan avtomobillərində daşıyardılar.

Sürücülərdən: Əmir Aslan oğlu Orucov və Əvdil Əbil oğlu Ələkbərov həmişə kənd zəhmətkeşlərini içməli su ilə təmin edərdilər.

İsti yay günündə pambıq və üzüm sahələrində çalışan zəhmətkeşlər sərin sudan içdikcə, bu suyu gətirənlərin ölənlərinə rəhmət və yezidə lənət deyərdilər.

Horadiz kənd sakinləri neçə illərdir ki, köçkünlük dövrü, Namazalı kəhrizin suyu üçün qəribsəyirlər.

İnşallah! Allah o suyu yenə bizlərə qismət edər! Amin!..

RZALILAR KƏHRİZİ

Rzalılar kəhrizi – Horadız kəndinin yuxarı şimal hissəsində, Füzuli – Horadiz şosse yolundan 50 metr aşağıda Rzalılar məhəlləsində yerləşir. Bu kəhrizin inşa edilməsində birbaşa təşəbbüsü və kankan kimi iştirakı ilə başa çatdırıldığına görə Rza kişinin (İsmayılov Qəmbərin atası) şərəfinə *"Rzalılar kəhrizi"* adı verilmişlər.

Azərbaycanda müxtəlif tayfalara mənsub olan nəsil və tirə adları özündə əks etdirən coğrafi toponim obyektlərinə tez-tez rast gəlmək olur.

Bu kəhriz öz mənbəyini Hüngütlü dağ sılsıləsindən başlayaraq şaquli quyular və üfiqi lağımlar vasitəsilə keçərək yer üzünə bu məhəllədə çıxır.

Rzalılar kəhrizinin suyu soyuq və şəffafdır. Kəhrizdən aşağıda yerləşən Rzalılar və Namazalılar məhəlləsinin bağlarını habelə Zaqun dərəsinin bağlarının suvarılmasında istifadə edilirdi.

SIZQA BULAQ

Sızqa bulaq – Horadiz kəndinin aşağı hissəsində, Taxta körpünün yanında, Füzuli – Horadiz şosse yolunun qərb tərəfində qeydə alınan hidronimlərdən biridir. Bu bulağın suyu kölxoz bağına axır. Bulağın adı ilə bağlı *"sızqa"* sözü, yəni az-az axan, süzülərək axan bulaq olduğuna görə belə adlandırmışlar.

Suyu sərin və şəffafdır.

TEŞNƏK BULAĞI

Teşnək bulağı – Horadiz kəndinin şimal-qərbində olan dəmyə əkin sahəsində yerləşir. Həmin əkin sahəsinin başlanğıcında, Dəli çayın üst tərəfində "Teşnək bulağı" var.

Deyilənlərə görə, teşnək sözü qismən təhrifə uğramışdır; əslində söz *"teşnə"* şəkildə yazılmalıdır. Teşnə sözü *"susamış, susuz", "bir şeyi çox istəyən"* və sairə anlamında işlədilir. Bulaq yerin altından qaynayıb çıxan su mənbəyidir. Teşnək əkin sahəsində işləyənlər üçün bu bulağın böyük əhəmiyyəti vardır.

TƏPƏ KƏHRİZİ

Təpə kəhrizi – kəndimizin cənub-qərb qutaracağında, Abışlı bağın başlanğıcında, Qarağan təpənin 200 metr aşağısında, Dəli çayın sol tərəfində olan kənd kəhrizlərimizdən biridir.

Bu kəhriz Qarağan təpənin yaxınlığında olduğu üçün bu kəhrizə *"Təpə kəhrizi"* adı vermişlər. Təpə kəhrizin o biri kəhrizlərə nisbətən bol suyu vardı və kənd bağları əsasən bu su ilə suvarılırdı. Bu kəhrizin çıxışında balaca gölməçə olduğundan, həm də ora qız-gəlinlər az-az gəldiyindən, yay aylarında orada uşaqlar və cavanlar çımərlik kimi istifadə edirdilər. Suyu çox soyuq olduğundan bu suda bir dəqiqə dayanmağı mərcləşərdik.

YENİCƏ KƏHRİZİ (NICA)

Yenicə kəhrizi – yatağını Dəyirman boynundam başlayan, Qurdlu bulaq ilə kənd orta məktəbinin köhnə binası arasında qeydə alınan coğrafi adlardan biridir.

Yenicə kəhrizin hidronimin tərkibindəki *"yenicə"* sözü yeni qazılmış kəhriz mənasındadır, çünki yaşlı ağsaqqalların dediyinə görə, bu kəhriz o biri kəhrizlərə nisbətən yenidir və əvvəllər bu ad verilsə də sonralar yerli adamların dilində *"Yıuca kəhrizi"*adına çevrilmişdir. Məktəbyanı məhəllə və Qurdlu bulaq məhəlləsi həyətyanı bağları Yenicə kəhrizin suyu ilə suvarılır.

Yenicə kəhrizin suyu soyuq və şəffafdır.

SU ARTEZİAN QUYULARI

Su artezian quyuları – texniki yolla yer üzərinə süni çıxarılan qurğudur. Bizim kəndin ərazisində 5 ədəd su artezian quyusu daimə fəaliyyətdə idi. Biri kəndin cənub hissəsində Vəliyev Zülfüqarın "Bulaq" kababxanasının yanında, ikisi kolxoz bağında və dördüncü Dördçinar kəndin üzüm sahələrin şimalında, beşinci isə Hüngütlü kəndin üzüm sahələrin başında vardı. Bunlardan əkin sahələrinin suvarılmsında istifadə edilirdi.

HASANLI ARX

Hasanlı arx - öz mənbəyini Araz çayından götürərək, Cəbrayıl rayonunun, Karxulu kəndinin yanından başlayıb, Araz arxından şimala tərəf, Cocuq Mərcanlı kəndinin torpağından keçib, Horadiz və Əhmədalılar kəndlərinin üzüm sahələrini su ilə təmin edirdi.

Hasanlı arx – 1970-ci ildə istifadəyə verilmişdir.


ƏSƏD GÖLÜ

Əsəd gölü - Nəcəflilər məhəlləsində İmanov Tapdıqın evinin yanında yerləşirdi. Bu göl öz qaynağını gölün dibindən qaynayan sudan götürürdü. Bu gölün suyu ilə ətraf həyətyanı bağları sulayırdılar. Bundan başqa isti vaxtlarda bu göldə az yaşlı uşaqlar çimərək sərinləşirdilər.

ÜMUMİ İSTİFADƏDƏ OLAN BİNALAR, VƏ OBYEKTLƏR

II DÜNYA MÜHARİBƏSİNDƏ HƏLAK OLANLARA XATİRƏ ABİDƏSİ (1941-45-ci il)

9 may 1975-ci ildə II Dünya Müharibəsinin Qələbə bayramının 30 illiyinə həsr edilmiş izdihamlı mitinqi, Horadiz kənd Mədəniyyət evinin qarşısında, kənd camaatının iştirakı ilə başladı. Vətən Müharibəsində həlak olanların xatirəsinə abidə kompleksinin açılışına həsr edilmiş mitinqə Füzuli rayon Partiya Komitəsinin katibi – Qədim Əhmədov, "1 may" kolxozunun sədri, iki dəfə Sosialist Əməyi Qəhrəmanı – Şamama Həsənova, eləcə də rayonun digər rəhbər və vəzifəli şəxsləri iştirak etdilər.




1941-45-ci illərdə müharibə şəhidlərinə abidə

Bu toplanışda giriş sözünu Horadiz "Rusiya" kolxozunun sədri Hüseyn Talıbov söylədi. Sonra Şamama Həsənova danışdı. Yekun sözü ilə Qədim Əhmədov çıxış etdi. Mitinqi başa vurduqdan sonra Mədəniyyət evinin qarşısında təntənəli surətdə doğma kəndimizdən II Dünya Müharibəsində həlak olanların xatirəsinə və şərəfinə abidə kompleksinin açılışı oldu.

1941-45-ci illər Müharibə şəhidlərinin şərəfinə mitinq

1941-45-ci il Müharibəsi Qələbə bayramının
34-cü ildönümü münasibətilə toplanış




1941-45-ci il Şəhidlərin siyahısı önündə Kamal Rəhimov və Bayram Bəylərov

Bu abidədə 196 nəfərin adı qeyd olunmuşdu. Ümumiyyətlə, bizim Horadiz kəndimizdən 600 nəfər Vətən müharibəsində iştirak etmiş, onlardan 196 nəfəri qayıtmamışdır. Təəssüflər olsun ki, mən nə qədər çalışdımsa, həlak olanların siyahısını əldə edib bu kitabda çap etdirə bilmədim.

Allah Vətən yolunda həlak olanlara rəhmət eləsin!..Amin!



IIDünya Müharibəsi şəhidlərinə həsr edilmiş abidə
Şəkildə: ***öndə Teyyub və İmran Həsənovlar***



1941-45-ci il müharibəsi veteranları

ELEKTRİK ENERJİSİ İLƏ İŞLƏYƏN DƏYİRMAN

Elektrik dəyirmanı – Saqqızlı məhəlləsinin cənub hissəsində, Horadiz qəsəbəsindən Füzuliyə gedən şosse yolunun 12 km-də və yolun sağ tərəfində yerləşirdi. Horadiz kənd camaatının un tələbatını ödəyən "Su dəyirmanı" kənddən 6 km aralı olduğuna görə 1975-ci ildə Horadiz kolxozunun sədri Hüseyn Talıbovun təşəbbüsü ilə, elektrik enerjisi ilə işləyən un dəyirmanı tikilib istifadəyə verilib.

Əgər su dəyirmanı taxılı bircə növ qabıqlı üyüdürdüsə, indi "Elektrik dəyirmanı"nın üstünlüyü onda idi ki, buğdanı üyüdərkən birinci, ikinci və üçüncü növə ayırırdı,

O dəyirmanı ilk işlədən Nağıyev Ərşad olmuşdur.

ƏMANƏT BANKI

(Füzuli rayon Əmanət bankının filialı)

Əmanət bankı Füzuli rayon Əmanət bankınınj filialı – Kəndin mərkəzində, Qarağan təpənin şimal tərəfindəki fin evində yerləşirdi.

Əmanət bankının filialı sonralar təzə Sovet İdarəsində idi. Bu filial öz fəaliyyətini 1980-cı illərdə başlamışdı. Əmanət bankının kassasında Həqiqət Əmirova və Fəridə Sultanova işləyirdilər. Az müddət içərisində Horadiz kəndinin Əmanət kassasından istifadə edən müştərilərin sayının günü-gündən çoxalması müşahidə olunurdu. Ələlxüsus da 1990-cı illər pul əmanətlərin artımı xeyli çoxalmışdı. Belə ki, pulların kəskin surətdə infilyasiyaya uğraması müştəriləri bütün əllərində olan pullarını əmanət kassalarına qoymalarına vadar edirdi.

1993-cü ildən neçə illər keçməsinə baxmayaraq müştərilərin küllü miqdarda Əmanət bankına qoyduqları pullarını hələ də geri ala bilməmişlər.

GÜNEY MƏSCİDI

(Hacı Novruz məscidi)

Güney məscidi – Şahverənlər tirəsi ilə Hacı Novruz dərəsi arasında, Horadiz – Füzuli şosse yolunun üst kənarında yerləşir.

Kənd ağsaqqalı - Hacı Novruz(Alı oğlu Məhərrəmin babası) "Həccə" ziyarət edəndən sonra, xeyriyyəçiliklə məşğul olmuş,

adamların xeyir-şərində bacardığı köməyi əsirgəməzmiş.

Kənddə Molla Abdulla məscidi tikildikdən sonra Hacı Novruz və onun qonşuları ilə birgə namaz ibadətindən sonra Məşədi Abdulla bunlara tənəli olaraq müraciət edib deyir: "Hacı Novruz, siz uzaq yol gəlib bu məsciddə namaz qılırsınız, olmaz ki, elə güney məhəllədə birləşib bir məscid tikəsiniz və sizin də bu get-gəldən canınız qurtarsın". Bu söz Hacını bərk tutur və sabahısı günü 3 oğlalarına tapşırır ki, öküzləri arabalara qoşun gedək Düldülə dağından daş gətirək, bunu eşidən güney qonşular da, öz arabaları ilə daş gətirməyə gedirlər. Beləliklə, 64 araba daş gətirilir və məscidin tikintisinə başlanır. Üstünə uzun tir kənddə olmadığına görə gedib Cəbrayılın Maralyan kəndindən uzunluğu 6 metr ağaclar, 10 pəncərə, qapı və digər materiallar alıb gətirilir.



Molla Cəlil Mehdiyev

Bu məscidi tikmək üçün gedib Qaradağlı kəndindən tanınmış bənna usta Fərhadı bu tikintiyə dəvət edirlər.

Güney məscidi 1900-cü ildə şəxsən Hacı Novruzun və birdə güney kənd camaatından könüllü köməyilə və yığılan ianələrin hesabına inşa edilmişdir.

Güney məscidin uzunluğu 12 metr, eni isə 6 metrdir. Hər iki tərəfindən 4 pəncərə, arxada isə iki pəncərə var idi. Geniş qapısı şərq tərəfdə və içərisində böyük zal vardı.



Molla Süleyman İbişov

Sonralar Sovet dövründə, 1930-53 cü illərə qədər bu məscid kolxozun taxıl anbarı kimi istifadə edilirdi. Lakin 1953-ci ildən

Sovet hökumətin başçısı İ.V.Stalin vəfat etdikdən sonra N.S.Xruşşovun hakimiyyəti dövründə sərt qanunlar yumşaldı və bu məscid kənd möminlərin ixtiyarına verildi. Yaşlı kişilər tez-tez bura ibadətə gəlib, namazlarını bu məsciddə qılardılar.



Molla Xanlar İbişov

Bundan başqa burada "Aşura" mərasimləri keçirilirdi. Aşura yığışardılar və mollalar İmam Hüseynin başına gətirilən müsibətlərdən danışar, həm də "Qurani Kərimin" ayələrini və mərsiyə oxuyardılar.

O zaman baş molla – Oruc Abdinov, mollalardan – Hüseynqulu Allacov, Cəlil Mehdiyev, Həsən Məmmədov, Süleyman İbişov, Xanlar İbişov və Cabbar Hacıyev fəallıq göstərərdilər. Məsciddə dini ayinləri – Alı Şirinov, Bayramalı Ağayev və Əvdil Ələkbərov çox gözəl səslə oxuyardılar. Hər axşam Molla Oruc İmam Hüseynin başına gələn müsibətlərdən söylədikcə qadınlar "şaxsey-vaxsey" deyərək ağlardılar, kişilər isə sinə vurardılar. "Aşura günü" kənd camaatı və ətraf kəndlərdən də İmam Pirinin qarşısındakı geniş meydana gələrək bu mərasimdə iştirak etməyi hər kəs özünə borc bilərdi.

Kənd qadınları isə evlərindən bir böyük qazan bişmiş xörək gətirib ehsan verərdilər. Mərasim böyük izdihamla, "Qasım otağı"-nı əllərində gəzdirərdilər. Sonra bir atlı əlindəki şallaqla "Müslüm uşaqları"-nı vura-vura meydana gətirərdi. Sonra molla Oruc hündür təpəyə çıxıb, günorta vaxtı İmam Hüseynin və onun 72 nəfər silahdaşlarının qətl günü başlarına gələn hadisələri olduğu kimi geniş danışardı, adamlar ağlaşardı, cavanlar özlərini zəncirlə vurardılar, qadınlar və kişilər sinə vuraraq "Həsən-Hüseyn" deyərək "şaxsey-vaxsey" edərdilər. Bundan başqa analar öz uşaqlarından da, xüsusi dəlləyin ülgücü ilə başın alın hissəsindən çərtib, İmam Hüseynin yolunda qan çıxarmaqla qurban verərdilər. Mənim anam atamdan qorxaraq alnımdan yox, kürəyimdən ülgüclə üç dəfə kəsməklə qan çıxarardı. Bu izdihamlı mərasimi görmək və orda iştirak etmək, hər bir insana qəlb ağrısı ilə yanaşı, insanlara yaxınlıq, mehribançılıq və mənəvi ruh verirdi.

GÜNEY YATAQ YERİ

Güney yataq yeri – Horadiz kəndinin aşağısında, kolxoz bağının qurtaracağından şərqə tərəf, Ocaq dərəsinin altında yerləşən,

qoyunların saxlanan yeridir. Burada çobanların gecələməsi üçün yatacaq yerləri və qoyunlar üçün ağıllar vardı.

Güney yataqda kolxozun 2500 qoyunu saxlanılırdı və bu yatağın müdiri – Arif Ağamalı oğlu Namazalıyev idi.

ƏSƏD OCAĞI

Əsəd ocağı – Horadiz kəndində oroqrafik obyektlərdən biri sayılır. Məlumdur ki, ocaq sözü ***"müqəddəs tapınaq yeri"*** kimi mənalandırılır. Əsəd ocağı işğala qədər kənd adamların ziyarətgah yeri olmuşdur. Əsəd ocağı – Fərəcanlı dərəsi ilə Bayalı dərəsi arasında yaşayan Mirzalı oğlu Əsəd kişinin evinin arxasında olduğu üçün kəndlilər bu ocağa "Əsəd ocağı" adı vermişdilər. Əsəd kişi Seyid Şuşinski ilə bir oxumuş və dostluq etmişdi.

Əsəd kişi bu ocağı daşla hörüb və abadlaşdırıb. Bu ocaq müqəddəs yer hesab edilir.

HORADİZ KƏND QƏBİRİSTANLIĞI

Horadiz qəbiristanlığı – kəndin qərb tərəfində, Cəbrayıl rayonunun Nüzgar kəndinə gedən torpaq yolun cənubunda, Abışlı bağın üstündə yerləşən tarixi qəbiristanlıqdır. Qəbiristanlıq yurdun ən əvvəl yaddaşıdır, deyənlər yanılmamışlar. Kimlər gəldi, kimlər keçdi? Bu sualın ən düzgün cavabı qəbiristanlıqdadır.

Qəbiristanlıq Abışlı bağı tərəfdən başlayaraq 4 hissəyə bölünür;

1-ci hissə: - ***Bu aiddir İmam Pirindən sonra, Horadiz kəndinin ilk yaranma dövrünə, yəni, qəbirlərin yeri təqribi bilinir ki, burada qəbirlər var imiş.***

2-ci hissə: - ***Bu yəqin ki, mədəniyyətin və güzəranın nisbətən kənddə inkişaf dövrünə aiddir, yəni burada qəbirlərin baş daşlarının hündürlüyü 1,5 və 2 metr idi, eləcədə baş daşların üzərindəki kitabələr ərəb əlifbası ilə yazılardı. Orada daşla hörülmüş sərdabəli qəbirlər də vardı.***

Kənd ağsaqqalı 80 yaşlı Fərman Yadigarov deyirdi ki, mən və Molla Möhsün oğlu Həsən 1980-cı ildə bu qəbir baş daşlarında olan yazı kitabələrini oxuduqdan sonra bildik ki, 2-ci hissə daş kitabələrin üzərində olan yazılarda mərhumların ölüm tarixi 400-500 yaşı var.

Deməli, əgər 2-ci hissə qəbiristanlığın 400-500 yaş tarixinə malikdirsə, üstə gəl mərhumların yaşı və 1-ci hissə qəbiristanlıq, onda belə çıxır ki, Horadiz kəndimizin 700-800 yaşı var, birdə üstə gəl "İmam Piri"-nin yanındakı yaşayışını IX əsrdən hesablasaq, Horadiz kəndinin 1100 illik yaşı təsdiq olunur. Bəlkə də çox...

3-cü hissə: - ***Bu məzarlıqlar I və II – Dünya Müharibələrinin ağır dövrlərini əhatə edir. Belə ki, bu qəbirlər kəndin çətin günlərini, camaatımızın maddi cəhətcə ağır, kasıbçılıq dövrünü göstərir. Bu qəbirlərin baş daşı əvəzi ancaq tut ağaclarından ibarətdir.***

4-cü hissə: - ***Bu isə 1950-ci illərdən sonrakı dövrləri əhatə edir.***

Belə ki, qəbirlərin baş daşları adi daşlardan, sonralar yonulmuş daşdan və üzərinə mərhumun adı, soy adı, ölüm tarixi yazılırdı. Daha sonralar isə cilalanmış ağ daşlardan və baş daşlarda mərhumun şəkli, həm də adı, atasının adı, soy adı, doğum və ölüm tarixi yazılardı.



Mürşüd Əmirovun qəbri qarşısında Əhliman İsmayılov

1970-ci illərdən sonralar iri qara mərmərdən baş daşı və sinə daşı qoyulmağa başladılar. Bu mərmərdən olan baş daşına mərhumun şəkli həkk olunmaqla onun adı, atasının adı və soyadı, doğum və ölüm tarixi yazılırdı. Döş daşına da mərhumun özünə və sənətinə uyğun şerlər yazmağa başladılar.

Bunlar kənd adamlarının əmin-amanlıqla yaşadıqları, maddi cəhətcə nisbətən yaxşılaşma, varlanma dövrünü əks etdirirdi.



Qurban Namazalıyev
"Fəxri Xiyaban"da



Ceyhun Namazalıyev
"Şəhidlər Xiyabanı"

3 sentyabr 1993-cü il erməni işğalından sonra, köçkünlük dövründə vəfat edənlərimizi Azərbaycanın müxtəlif yerlərində pulla qəbir yeri alaraq dəfn edirdilər. Mərhumlarımız Bakının qəsəbələri olan, Biləcəridə, Sulu təpədə, Keşlədə, Binədə, Binəqədidə, Qalada, Rəsulzadə qəsəbəsində, Mərdəkanda, Hövsanda, Xırdalanda, Lökbatanda, Zabratda, Bakıxanovda, Suraxanıda, Böyük Şorda, Sabunçuda, Müşfiqabadda, Türkanda, Zığda, Sahil qəsəbəsində, Ələtdə bundan başqa Sumqayıtda, Saatlıda, Sabirabadda, Biləsuvarda, Ağsuda, Kürdəmirdə, Hacıqabulda, Şirvanda, İmişlidə, Beylaqanda,

Bərdədə, Füzulinin kəndləri Əhmədbəylidə, Bala və Böyük Bəhmənlidə, Babıda və nəhayət imkanı olanlar Horadiz qəsəbəsinin üstündə qəbiristanlıqda aparıb öz torpağımızda torpağa tapşırırlar. Qarabağ şəhidlərimiz əksəriyyəti Horadiz kəndimizdə, bəziləri Beyləqanda, İmişlidə, Şəhidlər Xiyabanında, Qurban Namazalıyev isə "Fəxri Xiyaban"da dəfn edilmişdir.



Suruş Fərhadova
"Horadiz qəsəbəsində"



Vahid Namazalıyev
"Biləcəri qəsəbəsində"

Əmin-amanlıq dövründə Horadiz kəndimizdə bir ildə 10 nəfər vəfat edəndə deyərdilər ki, bu il bizimki gətirmədi, ancaq indi 18 il qaçqınlıq müddətində 500 – dən çox ölənlərimiz vardır.

Bütün kənd əhlinin ən ümdə və böyük arzusu budur ki, doğma Horadiz kəndimizə tezliklə qayıdaq və əzizlərimizin qəbirlərini ziyarət edək ki, onların ruhu da rahat olsun.

Allah doğma torpağımızdan aralı vəfat edən bütün ölənlərimizin hamısına qəni-qəni rəhmət eləsin və qəbirləri nurla dolsun! Amin!..

KƏND HAMAMI

Kənd hamamı – Namazalı kəhrizi ilə kənd dəyirmanı arasında, Aralıq yolda tikilən iaşə obyektidir.



Kənd hamamı yandan görünüşü

Bu hamam 1956-cı ildə, Horadizdə kolxoz sədri Vəli Rzayev Gəncə Kənd Təsərrüfatı İnstitutunda qiyabi oxuyan zaman onunla görüşən həmyerlimiz o vaxt Gəncə şəhərində XDS-nin İcraiyyə Komitəsinin MİK-in sədri işləyən – Xələfov Allahverdi Hüseyn oğlunun təmənnasız köməyilə bu hamamın texniki təchizatını tam təmin etmiş və bənna – Xələfov Əziz İbad oğlunun əməyi ilə tikilmişdir. Hamam Namazalı kəhrizin suyu ilə təchiz edilirdi.

Hamamda gözləmə zalı, 4 xüsusi, 1 ümumi nömrəli, isti suyu daima vardı.

Həftənin 3-cü və 5-ci günləri qadınlar üçün, qalan günlər isə kişilər üçün nəzərdə tutulmuşdu. Hamamın ilk müdiri Bəylərov Hüseyn, işlədən İsmayılov Xanalı və kisəçi Vəliyev Bayrış olmuşdu.

MAZUTLA İŞLƏYƏN DƏYİRMANI

Kənd dəyirmanı – Namazalı kəhrizindən 50 metr aşağıda, Aralıq yolda, Kənd hamamından sonrakı binada yerləşirdi. XIX-əsrin əvvəlində tikilən, mazutla işləyən ilk dəyirman olsa da, bunun iki funksiyası var idi, gündüzlər un dəyirmanı kimi işləyərdi, axşamlar isə kənd evlərinə elektrik enerjisi verərdi.

Bu dəyirmanı inşa etdirən, kəndimizin ən varlı adamı, sahibkar Nəriman Məmmədov öz şəxsi hesabına dəyirman üçün aqreqatları və dəzgahları Rusiyadan alıb gətirmişdi, həm də inşa etdirmisdi.

Xatırladım ki, Nəriman kişinin adı Fransa Ensiklopediyasında varlı adam kimi çəkilir. Belə ki, Nəriman kişi özü Fransaya gedərək, oradan barama çəkən maşın gətirib və burda qurdurub. Qabaqlar kənd baramaçıları əziyyətlə öz yetişdirdikləri məhsulu aparıb rayon mərkəzində dəyər-dəyməzə verirdilərsə, indi isə rahatca öz kəndimizdə yüksək növlə Nəriman kişi alırdı, özü istehsal edirdi və pulunu nəğd, yerindəcə ödəyirdi. Bax elə bu səbəblərdən Nəriman kişinin Qarabağ ərazisində böyük nüfuzu var idi.

1950-ci illər yadımdadır, biz qonşuluqda yaşadığımıza görə, hər səhər dəyirmanı işə salanda xeyli adam yığışardı ki, onun böyük mühərrikini hərəkətə gətirsinlər. Mühərriki çöldə açıq havada olsa da, un üyüdən və elektrik enerjisi verən aqreqatları böyük otağın içində idi. Deməli çöldəki mühərrik öz gücünü 30 sm. enində uzun remenlə(qayışla) bu aqreqatlara ötürülürdü. Səhər-səhər işə salinan mühərrikin 2 metr hündürliyində böyük çarxı vardı. İşə salmaq üçün dörd adam yapışardı onun çarxından, qalan adamlar isə yapışardı uzun remendən, hamı bir işarə ilə, Ya Allah deyərək, zor gücünə bir təhər işə salardılar və gecə saat 24-də söndürülərdi.

Bu dəyirmanı 1950-ci illər Şəmil Novruzov və Yunus Əmirov işlədirdilər.

İMAM PİRİ

İmam Piri – Horadiz kəndindən 2 km cənubda qeydə alınan ziyarət obyektidir. Kolxoz bağının aşağı qurtaracağında, Qozlu çayın sağ tərəfində, hündür təpənin üstündə yerləşən ziyarətgahdır. Kənd

adamlarının inanc və ümid yeri, xətalardan, xəstəliklərdən, bəd nəzərdən uzaq olmaq üçün pirdir.



İmam Piri

İmam Piri bizim kənd adamlarının və ətraf Füzuli, Cəbrayıl, Zəngilan, Beyləqan rayonları, hətta uzaq yer adamlarıda bura inac yeri, şəfa tapmaq üçün və sairə... ziyarətə gələrdilə.

Ulularımızın, ata-babalarımızın məlumatına görə, çox-çox əvvəllər Horadiz kəndinin ilk sakinləri İmam Piri ətrafında məskən salmışlar. Həmin yerdə indi də qədim ev yerlərinin xarabalıqları qalmaqdadır. Onların dediyinə görə məlum olur ki, burada ilk məskən salanlar: Yadigarlılar, Namazalılar, Toppuzlular və Təhmirazlılar olmuşlar. Burada ilk yaşayanlar görmüşlər ki, dağın başındakı qəbirdən gecələr işıq gəlir və gedib baxmaq istəyəndə, işıq yox olurmuş. Bax elə buna görə də kənd adamları bu məzarı möcüzəli yer kimi qəbul ediblər və piranə yer adlandırılıb, ziyarətgah kimi qəbul olunub.

Bir neçə yüz illər bu məzarın ətrafına çəpər çəkilir, sonralar hasar çəkiblər ki, mal-heyvanlar ora girə bilməsinlər.

Yaşlı ağsaqqalların dediklərinə görə bu məzarda İmam Rzanın qız nəvəsi uyuyur. Elə ona görə də bura "İman Piri" adlanıb.

Kənd ağsaqqalı 80 yaşlı Yadigarlılar tayfasından olan Fərman kişi deyirdi ki; "Bizim tirədən olan bir qadın axşam vaxtı ay işığında həyətdə cəhrə ilə ip əyirərmiş. Elə bu zaman həyətə ağ atın üstündə nurani bir atlı gəlir. Kişi salam verdikdən sonra deyir ki, ***"Adamlarınıza xəbər ver buradan köçüb başqa yerə getsinlər, ona görə ki, İmam Pirinin ətrafını sizin heyvanlarınız, it və pişikləriniz murdarlayırlar. İki gün ötəndən sora yenə gələcəyəm. Əgər burdan tezliklə köçməsəniz sizi böyük bəlalar gözləyir".***

Qadın bu xəbəri tezliklə ərinə söyləyir, o da öz növbəsində qohum-qonşulara çatdırır. Amma heç kim bu xəbərə inanmır və onun sözünə əhəmiyyət vermir. Vədə vaxtı həmin nurani ağ atlı kişi gəlir, adamlar yenə oradan köçüb getməyə razılıq vermir. Ancaq Yadigarlılar, Namazalılar, Toppuzlular və Təhmirazlılar tayfaları, indiki Horadiz kəndinin mərkəzində olan "Qarağan təpə"-yə köçüb gəlirlər. İnanmayanlar öz evlərində qalırlar.

Heç üç gün keçməmiş elə tufan-boran qopur ki, evləri darmadağın edir, xırmandakı taxılları külək sovurub aparır. Bunu görən adamlar, tələm-tələsik yığışıb müxtəlif yerlərə köçürlər. Deyilənə görə bir hissəsi Beyləqan tərəfə, qalanları isə Dəvəçiyə köçürlər.

Qeyd: 1985-ci ildə avtobusla Qubaya istirahətə gedirdim və yanımda avtobusda bir yaşlı kişi də oturmuşdu. O, kişi ilə söhbət əsnasında mənim Horadiz kəndindən olduğumu bildikdə, çox sevindi və dedi ki, bizim də ulu nəslimiz vaxtı ilə Horadiz kəndindən gəlib. Harda yaşadığını soruşdum? Dedi ki, bizim nəsil hal-hazırda Dəvəçi rayonunun Baş Əmirxanlı kəndində yaşayır. Yəhya kişinin dediyinə görə, onun ulu babaları Dəvəçidən dəvə ilə qara nefti tuluqlara doldurub apararmışlar bizim kəndə və taxılla, digər ərzaqla dəyişərmişlər. Beləliklə, kənd camaatı ilə dostluq və qohumluq əlaqələri olduğundan, İmam Pirinin yanında faciə vaxtı köçüb Dəvəçi (Şabran) rayonuna Baş Əmirxanlı kəndinə gediblər.

Mən o vaxtı Yəhya kişinin sözlərinə bir o qədər də əhəmiyyət vermirdim. Lakin mən Horadiz kəndi haqqında məlumat toplayanda bu görüş yadıma düşdü və vacib bilib Baş Əmirxanlı kəndinə yola

düşdüm. Yəhya kişini görmək üçün həmin kəndə iyirmi il sonra, 2007-ci il sentyabrın 21-də gəldim, lakin görə bilmədim, çünki dünyasını dəyişmişdi. Onun oğlundan bu barədə soruşdum, əfsuslar olsun ki, onun məlumatı az idi. Bircə bunu dedi; "Hə, deyəsən elə bir şey olub, ancaq ətraflı heç bir söz deyə bilmərəm".

Hacı Qasım (İsmayılov Fərhad Şükür oğlunun əmisi) evli olsa da övladı olmamışdı. Həccə ziyarət etdikdən sonra, öz vəsaiti hesabına xeyriyəçilik edərək, İmam Rzanın nəvəsinin məzarını ağ mərmərlə hördürüb və qəbrin ətrafını daşla tikdirərək üstünü örtdürür. O biri günü gəlib görürlər ki, otağın damı yerdədir. Yenə cəhd edib damın üstün örtürlər və sabahı gün gəlib görürlər yenə də yerdədir. Ona görə də İmam Pirinin həmişə üstü açıq olardı. İmamzadə türbəsinin giriş qapısının üstündə yazılıb: **"Bina Hacı Qasım bin Kərbalayi İsmayıl və zövcəsi Məşədi Tövhənisə".** Ona görədə kəndimizdə yaşlı kişilər and içəndə deyərdilər; "Hacı Qasımın tikdirdiyi İmam haqqı". Usta Tapdıq Hüsən oğlu İmanov deyir ki, 1973-cü ildə özüm İmamdakı İmam Rzanın qız nəvəsinin qəbrinin üst daşın söküb yenidən abadlaşdırdım, sinə daşın, ətraf daşların maili düzüb sahmana saldım. O gecə yuxuda gördüm ki, mən Həccə ziyarətə getmişəm və orda İmam Rzanın və Həzrət Abbasın qəbirlərinin yanındayam. İki baş daşın arasından baxanda gördüm ki, minlərlə adamlar, Həccə ziyarətə gələn möminlər dəstə ilə gedirlər, mən qışqıraraq onları çağırdım və mənim səsimə dönüb hamısı mənə baxdılar. Ondan sonra mənə məlum oldu ki, mən Həcc ziyarətində qiyabi olmuşam və bu mənə böyük fəxrdir.

1980-cı illər Teyyub Əyyub oğlu Həsənovun təsis etdiyi **"İnam"** sonra **"İmamzadə"** xeyriyyə və abadlaşdırma cəmiyyətin hesabına alınmış tikinti materiallarla İmam Pirinə çıxan pilləkənləri mən tikmişəm. İmam bulağın yanındakı çərhovuzu tikdim və elə etdim ki, bulağın suyu birbaşa hovuza tökülürdü.

Sonralar Teyyub Əyyub oğlunun təşəbbüsü ilə, həm də yerli adamların xeyriyəçilik məqsədilə yığılan maddi yardımın hesabına İmam Pirinin qarşısında 18 kvm-lik giriş otağı, ziyarətə gələnlərin və gecə qalanların istirahəti üçün tikdim və hər iki otağın üstünü şiferlə örtdük. Sabahı gün gələndə gördük ki, məzar olan otağın üstü açılıb.

Mən də binanın başından bir neçə yerdən bəndlər vurdum, qaynaqla yapışdırıb üstünü yenidən möhkəm edib damı bağladıq.

1990-cı ildə yenə, Teyyub Əyyub oğlunun təşəbbüsü ilə, Kənd (Molla Abdulla) Məscidindən İmam Pirinə gedən torpaq yola çınqıl və qum tökərək, hamarlayıb abadlaşdırıldı. İmam Piri yüksək təpə başında olduğu üçün, ora dairəvi yol çəkərək minik maşınlarının çıxmasına şərait yaradıldı. Ondan sonra toy günləri evlənənlər, bəy və gəlin minik avtomobili ilə İmam Pirinin başına üç dövrə vurub ziyarət edirdilər. Bu kənd adamları arasında, xeyir-dua kimi bir adət halına çevrilmişdi.

Bundan başqa bütün qadağalara baxmayaraq, Sovet rejimi dövründə İmam Pirində hər il İmam Hüseynin qətl günü böyük izdihamla **"Aşura"** mərasimi keçirilirdi. Bu mərasimdə XX əsrin ortalarından işğala qədər aşağıdakı mollalar; Oruc Abdinov, Cəlil Mehdiyev, Hüseynqulu Allacov, Süleyman İbişov, Xanlar İbişov, Cabbar Hacıyev, Həsən Məmmədov, Eldar Bəylərov, Ədil İbişov, Məhəmməd Abdullayev, Fərman Yadigarov, Calal Mehdiyev, mütəşəkkil iştirak edərək, xüsusi canfəşanlıq göstərirdilər.

Burada xüsusi qara parça ilə örtülmüş ***"Qasım otağı", "Ələm ağacı"*** və bir atlı iki nəfər ***"Müslüm uşaqları"***-nı əlindəki şallaqla vura-vura meydana gətirməsi böyük bir tamaşaya çevrilmişdi. "Aşura" günü mollalar növbə ilə İmam Hüseynin, onun 72 nəfər silahdaşı və tərəfdaşlarının başına gətirilən olmazın müsibətlərdən danışardılar, kişilər özlərini zəncirlə döyür, qadinlar isə şax-sey, vax-sey deyərək sinə vurardılar. Bura gələnlər hamı özü ilə ehsan vermək üçün xörək evdə bişirib gətirərdilər və burdaca ocaq yandırıb xörəyi qızdırıb "Aşura" mərasim iştirakçılarına təklif edərdilər, süfrə açıq olardı, arzu edənlər oturub nahar edərdilər və **allah ehsanınızı qəbul etsin** deyərdilər. Bundan əlavə bura gələnlər, qaydaya görə qan çıxarmalıydı. Ona görə də uşaqların alnından ülgüclə üç dəfə azacıq çərtib, qan çıxarardılar.



İmam Pirində "Aşura" mərasimi zamanı

Mənim anam isə atamdan qorxaraq mənim alnımda yox, ancaq kürəyimdən qan çıxarardı. ***"Aşura"*** günü bizim rayondan başqa digər rayonlardan da adamlar axışıb gələrək bu mərasimdə iştirak edərdilər.

Həmin günü Sovet sədri, Kolxoz sədri və Partiya təşkilatı katibi, həm də Məktəb direktoru kənddə tapılmazdı.

İmam Pirinin ziyarət kimi qəbul edib gələnlər, öz nəzirlərini verməklə bərabər, ora sidqi ürəkdən gələn xəstələr şəfa tapardılar. Neçə-neçə insanların bura gəlib şəfa tapdığının şahidi olmuşam. Ağzı, gözü, sifəti əyilənlər, əsəb xəstəsi, ruhi xəstələr, dili tutulanlar, uşaq istəyənlər, işi dara düşənlər, uzun müddət xəstə yatanlar bura ziyarətə gələrək, gecələməklə sabahə şəfa tapmışlar.

Qeyd: Bizim orta məktəbə 1954-57-ci illər rus dilini öyrətmək məqsədilə Marqarita adlı müəllimə gəlmişdi. O, bizim dinimizə və etiqatımıza həmişə lağ edərdi və söyərdi.



– öndə Allahverdi Novruzov və Əli Bağırov

Günlərin bir günündə onun ağzı əyildi və Moskvadan belə müalicə üçün gəzdirdilər amma, əncam olmadı. Ona məsləhət verdilər ki, qayıtsın bizim kəndə, ümumi camaatdan üzr istəsin. Belə də etdi, özünü pak edərək İmam Pirinə ziyarət edib orada gecələdi. Səhər ayılanda ağzı və boynunun düzəldiyini görüb sevindi və allaha şükr etdi. Sonra yenə bizlərə dərslərini davam etdirdi. Belə sübutlar olduqca çoxdur.

1993-cü il 3 sentyabra, işğala kimi ***"İmam Piri"*** insanların etiqad və inam yeri olmuşdur. Bu müqəddəs ocağa inam gətirilən-lər, burdan ümidlə qayıdırdılar və arzularına çatırdılar.

İmam Pirinə - ***"İmamzadə"*** də deyirlər.

Ən müqəddəs arzumuz o ziyarətgaha bir də qayıdaq və arzu-istəyimizə nail olaq!.. İnşallah !!!.

KƏND XƏSTƏXANASI

Kənd xəstəxanası – Horadiz kəndinin mərkəzində, kənd məscidi ilə üzbə-üz, orta məktəbə gedən yolun sağ tərəfində yerləşirdi.

Xəstəxananın yarandığı tarix mənə məlum olana görə 1924-cü ildə kəndimizə Aristov soy adlı həkim gəlir və ona bir köməkçi kimi Abbasov Muradxan Əsəd oğlu götürülür.

Az müddət içərisində kənd adamları arasında böyük hörmət sahibi olan həkim Aristov çox xəstəliklərdən adamlarımızı xilas edir. 1928-ci ildə Aristov Rusiyaya qayıdır və öz yerinə Abbasov Muradxanı təyin etdirir. 1930-cu ildə kəndə yeni Sank-Peterburq Tibb İnstitutunu bitirmiş Aslan bəy adlı həkim gəlir. O, kənd xəstələrinə kinə(həb) atmağın qaydalarını elə öyrədir ki, hələ indi də kənd adamların dilində məsəl çəkirlər: - "Aslan bəy kinə atan kimi atarsan", deyərək Aslan həkimi yada salardılar və gülərdilər.

1934-cü ildə kəndə yeni baş həkim Yusifova Hamayıl (Cuvarlı kəndindən) təyin edilir. Abbasov Muradxanı isə Qafana işləməyə göndərilir.

Bu xəstəxanada müxtəlif vaxtlarda Baş həkim vəzifəsində işləyən: Talıb Ağakişiyev, Mütəllim Qaraşov, Hidayət Hüseynov, Asif Məmmədov və Veysəl Aslanov öz həkim borclarını vicdanla yerinə yetirmişlər. 1950-ci ildən ərazisi hasara alınmış və girəcəyində darvazası vardı. Darvazadan içəri girdikdə sağ tərəfdə kürsülü ambulatoriya binası yerləşirdi. Bir az irəlidə sağ tərəfdə diş kabineti vardı.

Xəstəxananın əsas binası 50 metr qabaqda idi, 25 yerlik palatalar və həkimlər üçün otaqları vardı. Sol tərəfdə isə təsərrüfat ambarı yerləşirdi. Doğum evi xəstəxananın əsas binasında yerləşirdi.

Ümumiyyətlə, bizim kənd həkimləri öz sənətini sevər, ən ağır xəstəni tez və təmənnasız müalicə edirdilər. Bundan əlavə sahə həkimləri, daima evlərə gedir, körpə uşaqların və xəstələrin sağlamlığının keşiyində dururdular.

Burada işləyən hər bir həkimdən və tibb bacısından iri həcmli iş təcrübəsi yazmaq olardı.



Xəstəxana işçilərindən bir qrup: soldan sağa(oturanlar) feldşer həkim – Hüseyn Cəfərov, baş həkim – İskəndər Heydərov, feldşer həkimlər – Əsgər Mehdiyev və Əliş Əzizov. Ayaqüstə duranlar (tibb bacılar): Şükufə Namazalıyeva, Tamara Cəfərova, Mədinə Nağıyeva, Mahirə Məmmədova, Nənəş Hüseynova, Zərifə Məmmədova və Əntiqə Məhərrəmova.

1950-60-cı illər xəstəxanada feldşer-həkim işləmiş Məhəmməd Mövsüm oğlu Məmmədov özünü yaxşı, mehriban və bacarıqlı feldşer-həkim kimi tanıtdırmışdı. M.Məmmədov öz həkim sənətini mükəmməl öyrənmək üçün 1960-66-cı illər Azərbaycan Tibb İnstitutunda oxumuş və oranı müvəffəqiyyətlə başa vurduqdan sonra təyinatını Horadiz kənd Xəstəxanasına alaraq həkim işləmişdir. 1969-cu ildə baş həkim təyin edilmiş, az sonra isə onun iş qabiliyyətinin nəzərə alaraq və həkimlik sənətinin mahir bilicisi kimi tanınaraq, Bakı şəhərinə Respublika Xəstəxanasınada işləmək üçün dəvət olunmuşdu.

1969-93-cü ildə öz həmyerlimiz İskəndər Səttar oğlu Heydərov baş həkim vəzifəsinə təyin edildi. O, xəstəxanaya rəhbərlik etdiyi zaman, kənd camaatının arasında böyük hörmət qazanmışdır. Hippokrat andına sadiq olan, öz həkimlik sənətinin sirrlərini dərindən bilən və sevən həkim idi. Baş həkim İskəndər Heydərov haqqında ehtiramla danışmaq yerinə düşərdi. O, qəbul etdiyi xəstələri diqqətlə

dinləyir, müayinə edib və müalicə təyin edərək, xəstələrin tez bir zamanda sağalmasına nail olurdu.

Ümumiyyətlə bizim Horadiz kənd xəstəxana həkimləri əllərindən gələn bütün bacarıqlarını sərf edərdilər ki, xəstə sağalsın.

1971-73-cü illər burada ali təhsilli həkim işləmiş Qulam Bayramalı oğlu Novruzov öz bacarığı və işgüzarlığı ilə tanınırdı. . .

Burada bundan başqa 1953-cü ildən, uzun müddət qüsursuz baş feldşer işləmiş, böyük hörmət sahibi Hüseyn Yaqub oğlu Cəfərova haqqında xoş sözlər demək olar. Hüseyn həkim üçün gecə-gündüz yox idi. O, hər vaxt "baş üstə" sözü işlədərək, heç bir xəstəni ümidsiz qoymazdı. Həmişə çağırışa tez gələr və xəstənin tam müalicə olmasına nail olardı. Dəri üzərində əməliyyatlarda əla bacarırdı. 1969-cu ildə SSRİ "Səhiyyə əlaçısı" adı verilmiş, 1976-cı ildə SSRİ Ali Sovetin qərarı ilə "Əməkdə fərqlənməyə görə" medalına layiq görülmüş, 1994 və 2000-ci illərdə Səhiyyə Nazirliyi tərəfindən "Ali feldşer " adı verilmişdir.

1956-cı ildən xəstəxanada feldşer-sahə həkimi işləyən Əsgər Qasım oğlu Mehdiyev haqqında da xoş sözlər danışmaq olar, belə deyirlər ki, Əsgər həkim dərmandan çox, dili, sözü-söhbətilə xəstəni sağaldardı. O, gözəl, mükəmməl biliyə malik idi ki, kənd adamları arasında, xüsusi hörmətə layiq, bacarıqlı tibb feldşeri idi.


Ali təhsilli uşaq həkimləri işləyən İskəndər Garay oğlu Kərimovun və onun həyat yoldaşı Elmira Əliş qızı Quluyeva da ali təhsilli uşaq həkimi kimi haqqında da kənd adamları çox xoş sözlər deyirlər. Uşaq həkimi olmaq və işləmək çətindir, çünki böyük xəstələr harası ağrıyırsa deyirlər, amma balacalar bacarmır. Ancaq həkim İskəndər Kərimov öz işinin öhdəsindən məharətlə gəlirdi. O, neçə-neçə uşağı ağır vəziyyətdən xilas edərək sağaldıb.

Burada sahə feldşeri kimi kənd adamlarının sağlamlığı keşiyində duran Əliş Şirin oğlu Əzizovun da haqqında xoş sözlər deyilirdi.

Amalya Cəfərova, Sona Heydarova və Mətanət Məhərrəmova feldşer-mamaça kimi öz işlərinin mahir bilərək, onlarla uşağı dünyaya gətirməklə onlara həyat vəsiqəsi vermişlər.

Bundan başqa xəstəxanada işləyən tibb bacılarından: - Məhbubə Məmmədova, Sürəyya Mehdiyeva, Mahirə Məmmədova, Sayad

Şirinova, Solmaz Şirinova, Nənəş Hüseynova, Şükufə Namazalıyeva, Ayna İsmayılova, Zeynəb Mehdiyeva, Kəmalə Qurbanova, Mahirə Mehdiyeva, Rəhilə Kazımova, Pəri İsmayılova: Aidə İsmayılova, Mədinə İbişova və xidmətçilərdən:- Miniş Əmirova, Ağgül İsmayılova öz vəzifələrində layiqincə çalışardılar. Aşbazlardan: Gülüstan Sultanova, Yaqut Hüseynova öz peşələrinin mahir ustası idilər.



Allahyar İbrahimov

Xəstəxanada diş kabineti də fəaliyyət göstərirdi. Ali təhsilli diş həkimi – Allahyar İbrahimov(Molla Məhərrəmli kəndindən) 1972-ci ildən 1993-cü ilə kimi burada öz işinin mahir ustası kimi göstərmiş, camaatımız arasında böyük hörmətə sahib olmuş və haqqında xoş sözlər deyilirdi.

Onun köməkçisi işləyən Əliş Vəli oğlu Mehdizadə diş texnikasını səylə ondan öyrənirdi.

Hal-hazırda Bakı şəhəri, Nizami rayonunda diş həkimi kimi fəaliyyətini və təhsilini təkmilləşdirir.

Bu xəstəxanada uzun illər təsərrüfat müdiri işləmiş Yaqub Məmiş oğlu Cəfərov haqqında geniş danışmaq yerinə düşərdi. Yaqub kişi çox qayğıkeş, işgüzar və işini bilən təsərrüfatçı idi. Xəstəxananı vaxtlı-vaxtında ərzaqla, dərmanlarla, xəstə xalatları, çarpayı materialları ilə təmin edərdi. Qış vaxtları otaqlar odun sarıdan korluq çəkməzdi. O, ağıllı, xoşxasiyyətli, insanpərvər bir ağsaqqal idi.

Yaqub kişi təsərrüfat müdiri işləsə də, onun kənd ağsaqqalı kimi Füzuli rayonunda çox hörmət-izzət sahib idi və onun sözü hər yerdə keçərdi. Onun üçün açılmayan qapı yox idi. Əgər kim çətinliyə düşsəydi, mütləq Yaqub kişiyə müraciət edirdi və o, da yorulmadan, heç bir təmənna ummadan çətin işləri sahmana salardı. Mən elə bir adam görməmişəm ki, ona bənzəyən olsun. Yaqub kişi çox kargüzar olub, kənd adamların xeyir-şərinə yarıyanlardan idi. Yaqub kişi təqaüdə çıxdıqdan sonra onun oğlu Tarıyel Cəfərov təsərrüfat müdiri işləyərək atasının yolun davam etdirirdi.

Xəstəxananın tərkibində "Uaz"- markalı təcili yardım maşınını vardı və onu Arif Əli oğlu İsmayılov idarə edirdi.

Horadiz kənd xəstəxanasının nəzdində Dördçinar kəndində açılmış tibb məntəqəsində tibb bacıları: - Tənzilə Nəcəfova və Mədinə Xələfova fəaliyyət göstərirdilər.

KƏND MƏDƏNİYYƏT EVİ

Kənd Mədəniyyət evi – kəndin mərkəzində, kənd Məscidindən şimal-qərbdə, Qozlu çayın şərqində Məşədi Abdullanın evinin yerində tikilən, kəndin ən böyük binalarından biridir.

1960-cı ildə Horadiz kolxoz sədri Suruş Fərhadovanın təşəbbüsü ilə və şəxsən başçılığı ilə kolxoz İdarə heyyətində kənddə yeni Mədəniyyət evinin inşa edilməsi haqqında qərar qəbul edilir. Eyni zamanda XX-əsrin əvvəllərində ən varlı və tanınmış adamlarından olan Məşədi Abdullanın torpağında yaşayan oğlu Təbriz Məmmədovu və qızı Günəş Məmmədovanı oradan başqa yerə, kolxoz hesabına köçürülməsi haqda qərar qəbul edilir. Qurdlu bulaq məhəllələsində, Dəyirman boynunun qərb tərəfində yer ayrılır və Təbrizin ailəsinin yaşaması üçün kolxoz hesabına ev tikiilir. 1963-cü ildə gözəl, yaraşıqlı və iki mərtəbəli, uzunluğu 35 metr, eni 25 metr ölçüdə geniş və işıqlı Mədəniyyət evi tikilib istifadəyə verilir. Bu binada 400 nəfərlik iclas və konsert zalı var idi. Şərq tərəfində olan hissəsinə kolxozun idarə heyyəti və kənd kitabxanası da fəaliyyət göstərirdi. Bu kitabxanada Yaqut Cabbarova müdir işləyirdi..

Bu Mədəniyyət evində dəfələrlə Respublikanın tanınmış incəsənət ustalarının iştirakıilə böyük konsertlər təşkil edilirdi. Tez-tez Füzuli Xalq teatrının artistlərinin iştirakı ilə teatr tamaşaları kənd zəhmətkeşləri qarşısında göstərilirdi. Bundan başqa burada kolxozun idarə heyyətin geniş iclasları, təntənəli bayram yığıncaqları və digər tədbirlər də keçirilirdi.

1975-ci il mayın 9-da Mədəniyyət evi qarşısında 1941-45-ci illər II- Dünya Müharibəsinin Qələbə bayramı günü bizim kəndimizdən həlak olanların şərəfinə inşa edilmiş abidə kompleksinin açılışı oldu.



Kənd Mədəniyyət evinin şimaldan görünüşü

1992-ci ildə Qarabağ Müharibəsi Şəhidi həmyerlimiz Qurban Namazalıyevin şərəfinə Mədəniyyət evinin qarşısında da abidə büstü qoyulmuşdur.

KƏND KOLXOZ İDARƏSİ

(keçmiş binası)

Keçmiş kolxoz idarəsi – Qozlu çay kənd körpüsündən 50 metr şimal-qərbə tərəf, Qarağan təpənin şimalında, Kənd klubu ilə yan-yana yerləşən binadır. Bu binanın sahibi Tanrıverdi kişi varlı-hallı olub və Sovet rejimi qolçomaq möhürü vuraraq, onu represiya qurbanı edib və evini müsadirə edərək kolxozun sərəncamına verilib.

Bu binada kolxozun idarə heyəti və kənd kitabxanası yerləşirdi. O kitabxanada Dilarə Rzayeva Balaca qızı işləyirdi. Dilarə xanım çox kitab sevən idi. Hansı məzmunda istəsən o dəqiqə kitab seçərdi. Biz məktəblilər əsasən ondan yayda, məktəb tətili zamanı kitablar alıb oxuyardıq.

Binanın şərqə tərəf otaqlarda isə barama qurdu becərilirdi.

1965-ci ildə yeni Mədəniyyət sarayı inşa edildikdən sonra, kolxoz idarə heyəti və kitabxana ora köçürüldü.

Keçmiş kolxoz binası isə kənd aptekinin sərəncamına verildi və bu aptekdə Adilə Əsəd qızı işləyirdi.

Həmin bu binada həm də barama qurdu yetişdirib hər il may ayının əvvələrində kolxozçulara 1 qutu norma paylayırdılar. Barama qurdlarını körpə ikən I-yuxuya kimi tər tut yarpaqları doğrayaraq, II-yuxuya kimi tər tut yarpaqları ilə, III-yuxuda tut yarpağı xırda budaqlarla, IV-yuxuda iri tut budaqlarla və nəhayət V-yuxuda tut budaqları şaxlı şəkildə yedizdirib bəslənərdi. Qurdlar saralıb yetişərdilər və onların üstünə çox qanadlı budaqlar, həm də türpənk bitkisi döşəyərək basdırıb və bir həftəyə qədər qurdlar barama sarıyardılar. Tənəkəçilər isə baramanı dərərdilər və aparıb onu dövlətə təhvil verərdilər.

Bu binanın qarşısında Böyük Sovetlər ölkəsinin başçısı İosif Vissarionoviç Stalinin büstü yerləşirdi. 1953-cü ildə İ.V.Stalinin ölümündən sonra hakimiyyətə gəlmiş Nikita Sergeyeviç Xruşşovun rejimi dövründə onun büstü o binanın qarşısından 1954-cü ildə götürüldü və həmin binanın zirzəmisində saxlanılırdı.

KƏND ORTA MƏKTƏBİ

1881-ci ildə Horadiz kəndində ilk savad məktəbi açılmışdır. Məktəbin açılmasında və fəaliyyət göstərməsində, maliyyə cəhətdən Cəbrayıl qəzasından gəlmiş Molla Məhəmmədin böyük əməyi olmuşdur. Çünki onun 2 qızı burda dərs alırdı. Məktəb indiki kənd məscidinin sol yan tərəfində olub və civirdən divarları hörülmüş, üstü isə qamışla döşənmiş çavıstanda yerləşirdi. Məktəbdə ilk dərslər dini dərs olub, həmin dərsi Molla Möhsün Xudaverdi oğlu Axundzadə deyib, qalan dərslər isə savad müəllimləri keçirmiş. Molla Möhsün dini qanunları mükəmməl bildiyinə görə həmişə kənd camaatı arasında böyük hörmətə sahib olub.

Bu məktəbdə oxumuş Seyid Şuşinskinin birbaşa maliyyə yardımı ilə 1904-cü ildə natamam “Rus-tatar” məktəbi açılıb.

Məktəbin tarixi haqqında Gürcüstan və Sank-Peterburq şəhər arxivlərində sənədlər var. Hal-hazırda Azərbaycan Tusi adına Pedaqoji Universitetin, pedoğoji elmlər doktoru Hüseyn Əhmədovun doktorluq işində bu məktəb haqqında geniş izah verilib.

1918-ci ildə Azərbaycan Demokratik Respublikasının ilk ilində 7- illik məktəb fəaliyyətə başlamışdır.



Köhnə məktəb binası

Köhnə məktəb binası 1926-cı il kəndin şimalında Dəli çayın sol sahilində, Qurdlu bulağın qərbində və Dəyirman boynundan cənub-qərbə tərəf geniş ərazidə, böyük sinif otaqları, iri və hündür, üst damı dəmirlə örtülmüş bina tikilmişdir.

1926-cı ildən – 1940-cı ilə kimi bu məktəbdə dərslər latın əlifbası ilə keçirilmişdir.

1926-cı ildə ilk 10-illik orta məktəb açılmış və fəaliyyət göstərmişdir.

Lakin II-Dünya Müharibəsinin başlanması, maddi vəziyyətin çətinləşməsilə və siniflərdə şagirdlərin sayının azalması ilə əlaqədər Horadiz orta məktəbi - 1940-cı ildə 7-illik məktəbə çevrilmişdir.



Məktəbdə Sosialist Əməyi Qəhrəmanı Hamayıl Əhmədova ilə şagirdlərin görüşü. Çıxış edir direktor Nobil Sultanov

Beləliklə, Horadiz kəndinin inkişaf mərhələsində olan iqtisadiyyatı və əmin-amanlıq dövründə, burada yaşayan kolxozçuların şəxsi həyatına müsbət təsir göstərməklə, get-gedə məktəbdə oxuyan şagirdlərin sayı ildən-ilə artaraq çoxalmışdır. 1950-51-ci tədris ilində Karyagin(indiki Füzuli) rayonun Maarif Şöbəsinin qərarı ilə 10-illik orta məktəbi açılmışdır.

Birinci 10-illik buraxılış 1954-55-ci il - 11 nəfər bitirmışdır;
İkinci - - - - * - - - - 1955-56-cı il – - - - 25 - - - - * - - - - ;
Üçüncü - - - - * - - - - 1956-57-ci il – - - 33 - - - - * - - - - ;

1950-ci ildən Horadiz kənd orta məktəbin direktorları:
1. Əbilov Ədil Qasım oğlu - - - - - - - - -1950-61 ci illər;
2. Əhmədov Temir Cəfər oğlu - - - - - - 1961-73 cı illər;
3. Abdullayev Murtuza Cabbaroğlu - - - 1973-78 ci illər; .
4. Soltanov Nobil Muxtar oğlu - - - - - - 1978-93 cü illər.



Müəllim kollektivi: soldan - Nəbi Şirinov, Bəhram İsmayılov, Malik Mehdizadə, Abbas Rzayev, Əsgər Namazalıyev, Nobil Sultanov- direktor, Səkinə İmanova, Tahir Mehdizadə, Vəsmə Məhərrəmova, Abbas Sultanov, Mübərra Məmmədova, İsmayıl Məhərrəmov, Əbülfəz İsmayılov, Rəfiqə Məhərrəmova, Tapdıq İsmayılov, Mirzalı Şirinov, Çimnaz Şirinova, Əli Novruzov, Asif İmanov, Fazil Yadigarov və İmran Kərimov.



Müəllim İsmayıl Məhərrəmov bir qrup şagirdlərlə



Ədil Ələkbərov şagirdlərlə təzə məktəbin qarşısında



Müəllimlərdən bir qrup: soldan – *Əsgər Namazalıyev, İmran Kərimov, Yusif İsmayılov, Qulu Cəfərov, Paşa Rüstəmov, Ədil Ələkbərov, Calal Mehdiyev və Mirzalı Fərzəliyev.*

Bu məktəbdə oxumuş, təhsil almış şagirdlərdən akademiklər, professorlar, alimlər, nazirlər, nazir müavini, prokuror, müxtəlif yüksək vəzifəli şəxslər çıxmışdır. O cümlədən: Hüseyn Namazalıyev- Avroasiya Beynəlxalq akademiyanın fəxri üzvü, Əli Nuriyev - Azərbaycanın Milli Akademiyasının müxbir üzvü, professorlardan: – Abbas Abbasov, Zakir Bağırov, Allahverən Cəbrayılov, Əli Cəfərov, Mahmud Eyvazov və çoxlarını nümunə göstərmək olar.

Bu məktəbdə uzun müddət qüsursuz işlədiyinə görə Əliş Temir oğlu Quluyevə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

Bundan əlavə Hüseynov Xanlar İsa oğlu kimya müəllimi işlərkən bütün Füzuli rayonu üzrə çox gözəl nailiyyətlərinə görə "Əmək Şöhrəti" ilə SSRİ Ali Sovetin Rəyasət Heyəti adından təltif edilmişdir.



Müsuqi müəlliməsi Cəvahir Şirinova bir qrup şagirdlərlə 1969-cu ildə istifadəyə verilmiş yeni məktəb binası qarşısında Şəkil 1985-ci ildə çəkilmişdir.

Qabaqcıl müəllimlərdən Murtuza Abdullayev, Calal Mehdiyev, Abbas Rzayev, Mirzalı Şirinov, Bəhram İsmayılov, Mirzalı Fərzəliyev, Yusan İsmayılov, Muxtar Mehdiyev, Əsgər Namazalıyevl, Paşa Rüstəmov, Ədil Ələkbərov, Fazil Yadigarov, Malik Yadigarov, Yusif İsmayılov, Qulu Cəfərov, İsmayıl Məhərrəmovu, müsuqi müəlliməsi – Cəvahir Şirinova və digər adı çəkilməyən müəllimlər çətin həm də, şərəfli vəzifələrinə görə təşəkkürə layiqdirlər.



Məllimlərdən: - Yusan İsmayılov və Nəzakət Talıbova öz şagirdlərilə. Şəkil 1987-ci ildə çəkilib.

1992-ci il Horadiz orta məktəbinə, bu məktəbdə oxumuş, Qarabağ Müharibəsi dövründə 1991-ci il noyabrın 20-də şəhid olmuş Qurban Namazalıyevin adı verilmiş və onun büstü məktəbin qarşısında qoyulmuşdur.

1992-93-cü il kənd məktəbinin tədris ilində bir orta məktəb və bir natamam məktəbi fəaliyyət göstərirdi. O cümlədən 1000 nəfərə qədər şagirdi, 82 nəfər müəllimi var idi. Bundan başqa Dördçinar kəndində Horadiz orta məktəbin nəzdində natamam məktəb fəaliyyət

göstərirdi. Müəllimlərdən Qasımov Cəfər və Qasımova Ceyran burda uşaqlara bilik öyrədirdilər.

Horadiz kənd orta məktəbinin 10-cu sinif şagirdlərinin ekskursiya Şəki şəhərinə gedərək "Xan sarayı" qarşısında şəkil çəkdirmişlər.



Şəkildə soldan oturanlar: - ***Allahverdiyev Əli, Heydərova Xuraman, Cəfərova Yavroşa, İbişova Mədinə, Quluyeva Svetlana, İsmayılova Aftab, Quluyev Əliş(müəllim), Cəfərova Tünzalə, Bəylərova Tamella, Əliyeva Ləman, Orucova Xalidə, Həziyeva Ayna, İbişova Nazilə,***
Ayaq üstə duranlar: - ***Mənsim Şirinov, Quluyev Habil, İmanov İslam, Səfiyev Müzəffər, Orucov Etibar, Sultanov Müzəffər, Xələfov Azər, Mehdiyev Mehdi, Ağayev Yusif, Allacova Şəhla, Əliyeva Sevil.***

1993-cü il 3 sentyabrdan kəndimiz işğal olunduğuna görə Horadiz kənd orta məktəbi öz fəaliyyətini məcburi dayandırmışdır.

Biz hamımız ümid edirik ki, yenə də tezliklə Horadiz kənd orta məktəbi öz əvvəlki fəaliyyətinə başlayacaqdır. İnşallah!...

QUZEY YATAQ YERİ

Quzey yataq yeri – İmam Pirindən 500 metr aşağıda, İmam dərəsi silsilə təpələrin ətəyində, Dik arxın qərb tərəfində yerləşən obyekdir.

Bu yataqda kolxoz qoyunlarının, demək olar ki, yarı hissəsinin gecələməsi üçün ağıllar və çobanlar üçün yerdən qazma yatacaq yeri var idi. Burada kolxozun 2500 qoyunu saxlanılırdı və ot tayaları var idi. Quzey yatağın müdiri – Həsənov Yusan Talıb oğlu idi.

KƏND MƏSCİDİ
(Hacı Molla Abdulla məscidi)



Kənd məscidi şərq tərəfdən görünüşü


Horadiz kəndində Hacı Molla Abdulla məscidi – kəndin tən mərkəzində kənd xəstəxanası ilə üz-üzə, keçmiş Sovet idarəsi ilə Mədəniyyət evi binaları arasında yerləşir.

1890-cı ildə bu məscidi öz dövrünün varlı və nüfuzlu şəxsiyyəti sayılan Hacı Molla Abdulla inşa etdirmişdir. Məscid şərq memarlığı üslubunda tikilən əsl sənət əsəridir. Məscidin binası məhşur memar Kərbalayi Səfixan Qarabağı tərəfindən tikilmişdir.

Məscidin giriş qapısının üstündəki kitabədə yazılıb; ***"Səbəb bina Hacı Molla Abdulla"***.

Məscidin qapı ətrafı haşiyədə ərəbcə kitabədə yazılıb; ***"Səbəb bina Hacı Molla Abdulla əhli-məscid iltimas dua darəd".***

Bundan başqa Axund otağının pəncərəsinin üstündə 4 ədəd dairə şəkilli daş kitabədə yazılıb: ***1."Memar bina Kərbalayi Səfixan Qarabağı", 2. "La İlahə İlləllah", 3. "Mühəmmədin Rəsulillah", 4."Əliyyən Vəliyullah".***



Məscidin cənub-şərq tərəfdən görünüşü

Biz bu yazıları uşaq vaxtı dəfələrlə görsək də, bilməzdik ki, burada nələr yazılmışdır. Hacı Molla Abdulla təmənnasız olaraq Horadiz müsəlmanları üçün tikdirib, indi o, bu fani dünyada yoxdur, ancaq onun bizlər üçün tikdirdiyi yadigarı olan məscidi durur. Allah ona rəhmət eləsin! Sovet sistemi bunları bizlərə unutdurmağa çalışırdı və məscidimizi kolxozun taxıl anbarına çevirmişdi, həm də qapıları daima bağlı idi.



Məscidin plan quruluşu kvadrat şəklindədir. İçi qeyri simmetrikdir ki, bu da qadınlar üçün nəzərdə tutulmuş ikinci mərtəbədəki pəncərələrin və onun alt tərəfindəki birinci mərtəbədəki köməkçi otağın böyük götürülməsi ilə əlaqədardır. Baş fasaddakı plyastırlar üzərində dördbucaqlı həndəsi füqurlar var.

Məscidin əsas girişi, baş fasadı ağ fonda yerləşdirilmiş oxvari çatma tağlı portal tərəfdədir. Məscidin interyeri elə işlənmişdir ki, yayın cırhacır istisində buraya daxil olan hər kəs sərinliyin şahidi olur. İbadət zalına 9 ədəd tağı tavanın mərkəzində qoyulmuş 4 ədəd səkkizbucaqlı sütun saxlayır. Onlar öz düzülüşü ilə ibadət zalını 3 hissəyə ayırır. Zaldakı oxvari tağbəndlər künbəzlərlə eyni konstruktiv mövqe daşıyır. Ümumiyyətlə Hacı Molla Abdulla məscidi yüksək intellekt və istedadın məhsuludur. Məscidin uzunluğu 18 metr, eni 14 metr və hündürlüyü 6 metrdir. 2 qapısı və 10 pəncərəsi vardır. İbadət zalı 144



Teyyub Həsənov



kvm-dir, qadınlar üçün ibadət zalı 2-ci mərtəbədə, qapısı yan tərəfdə minarənin yanındadır. Axund zalı 21 kvm, giriş qapısında 12 kvm ölçüdə foyesi vardır. Məscidin bəzi dizaynı 1907-ci ildə tamamlanıb.

1987-ci ildə kənd ağsaqqalları və dindarları adından Teyyub Əyyub oğlu Həsənov Qafqaz Müsəlmanlar İdarəsinin Şeyxülislamı - Allahşükür Paşazadəyə Horadiz kəndindəki Hacı Molla Abdulla məscidinin təmirə ehtiyacı olduğunu və məscidin taxıl anbarı kimi istifadə edildiyini, həm də məscidin açılmasına yaxından kömək göstərməsini xahiş edib. Məktuba müsbət cavab gəlir.

Eyni zamanda Teyyub Əyyub oğlu, kənd ağsaqqalları və ziyalılarla, həmçinin kənd fəalları ilə məsləhətləşəndən sonra, "İnam" cəmiyyəti yaratdı. O, "İnam" cəmiyyəti adından o dövrdə kolxoz sədri işləyən Əkrəm Mehdiyevə müraciət edir ki, kənd məscidindəki taxılı başqa bir yerə köçürülməsini, boşaldılmasını və məscidin kənd möminlərin ixtiyarına verilməsinə kömək etsin. .

Sonralar Horadiz qəsəbəsində eyni adlı "İnam" cəmiyyəti olduğuna görə, adını dəyişib: **"İmamzadə"** xeyriyyə və abadlaşdırma cəmiyyəti yaradıldı.



Məscidin bərpasında iştirak edənlər

Əkrəm Mehdiyev bu müraciətlə razılaşaraq, tezliklə məscidi boşaltdırıb, kənd camaatının sərəncamına qaytarır.

Sovet rejimi dövründə "Aşura" mərasimi Güney "Hacı Novruz məscidi"-ndə keçirilirdisə, indi isə ilk dəfə bu şərq üslubunda tikilən "Hacı Molla Abdulla məscidi"ndə keçirildi.

1988-ci ildə Teyyub Həsənovun təşəbbüsü və "İmamzadə" cəmiyyətin yardımı ilə məsciddən – İmam Pirinə qədər torpaq yola çınqıl-daş tökdürərək, bu torpaq yolu abadlaşdırdı. Məscidin dam örtüyünü ağ sinklənmiş dəmirlə təmir etdilər.

1992-ci ildə məscidin sol yanında Minarə tikilib istifadəyə verdilər və minarə səsgücləndirici ilə təmin edildi. Minarənin giriş qapısının üstündə, yerdən 5 metr hündürlükdə ərəb əlifbası ilə yazılıb: ***"Səbəb bina camaat və səyi Teyyub ibn Əyyub. Memarı Nəbi və Xəlildir".***

Hacı Molla Abdulla məscidinin bərpası, abadlaşdırılması və İmam Pirinə gedən yola yenidən çınqıl-daş töküb sahmana salınmasında iştirak edən bütün şəxslərə ***"Allah kömək olsun"*** deyirik! ***İnşallah*** öz doğma ***"Hacı Molla Abdulla məscidi"***nə ibadətə qayıdacağıq! ***Amin!!!***

KƏND KLUBU BİNASI

(Keçmiş və yeni binası)

Keçmiş kənd Sovet idarəsi – kəndin mərkəzində, Qarağan təpənin simalında, keçmiş Kolxoz idarəsinin qərbində, yan-yanaşı olan və biri-birinə oxşar binada yerləşirdi. Bu binaların eyni usta tərəfindən tikildiyi görünürdü. Binanın şərq tərəf hissəsində Sovet idarəsi yerləşirdi və qərb yarım hissəsində isə 200 nəfər tutan zalı, kino qurğusu, 20 metr uzunluğunda kino və teatr tamaşa zalı vardı.

Bundan əlavə o binanın 80 kvm ölçüdə eyvanında yay vaxtları konsert və teatr tamaşaları verilərdi. Bu binanın sahibi, kəndimizin ən varlı adamlarından olan Nəriman Məmmədov olmuşdur. Nəriman kişi var-dövlət sahibi olmuş və öz kəndinin iqtisadiyyatını qaldırmaq üçün Rusiyadan mazutla işləyən, gündüzlər taxıl üyüdən, axşamlar isə kənd evlərinə elektrik işığı verən dəyirman gətirib, Namazalı kəhrizin yaxınlığında quraşdıraraq istifadəyə vermişdir. Bundan

başqa Fransadan gətirdiyi barama qəbul edən və ondan ipək sapı alan aqreqat maşın alıb gətirib kənddə quraşdırmışdı.



Əfsər, Məzahir, Vidadi, Fazil və Cəbrayıl Əmirovlar klubda növbəti konsert zamanı



Fazil, Əfsər Əmirovlar və müğənni İlham Məmmədov məşq zamanı

Onun kəndimizdə neçə-neçə dükanları var imiş. Heyif ki, Nəriman kişi represiyanın qurbanı oldu.

Onun oğlu Zakir Məmmədov isə atası həbs olunduqdan sonra dünyaya gəlir. Dayıları onu Bakıya gətirir və ona gələcəkdə ləkə dəyməsin deyə onun soy adını dəyişdirib Zakir Bağırov qeyd etdirirlər.

Zakir Bağırov uzun müddət, 18 il fasiləsiz olaraq Azərbaycan SSR-in Mədəniyyət Naziri vəzifəsində çalışmışdır.

Keçmiş Sovet idarəsi buradan köçəndən sonra, köhnə binanı sökərək, onun yerində yeni müasir formada 300 yerlik kino-teatr zalı, oyun və əyləncə otağı tikilir. Onun qarşısında isə yay kino-teatrı tikilib istifadəyə verilir.

Bu klubun müdiri Ağayev Əbil Muxtar oğlu mütəmadi olaraq klubda özfəaliyyət dərnəyinin köməyilə kənd zəhmətkeşlərinin qarşısında konsertlər və tamaşalar təşkil edərdi.

Burada həmişə özfəaliyyət kollektivlərin məşqləri keçirilərdi. "Ailə" Əmirovlar ansamblın bədii rəhbəri Əfsər – tarda, Veysəl – kamanda, Cəbrayıl – qarmonda, Məzahir – gitarada, Fazil – nağarada və Vidadi – qoşa nağarada ifa edərdilər.

Müğənnilər: İlham Məmmədov və Tehran Əmirovun oxuduğu mahnıları alqışlarla dinləyərdilər. Xüsusilə İlham Məmmədovun "Qarabağ şikəstəsi"-ni gurultulu alqışla qarşılayardılar.

Bundan başqa bu klubda oyun zalı (şahmat, nərd, domino, bilyard, tennis) fəaliyyət göstərirdi.

QURBANIN ABİDƏSİ

"Qurbanın abidəsi"– Horadiz Mədəniyyət evinin binası qarşısında, Qarabağ Müharibəsi zamanı şəhid olmuş həmyerlimiz Qurban Hüseyn oğlu Namazalıyevin şərəfinə qoyulmuşdur. Qurban Namazalıyev 1947-ci il 17 noyabrda Horadiz kəndində anadan olmuşdur. Orta məktəbi öz doğma kəndində 1965-ci ildə bitirmişdir. 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun, inşaat-mühəndis fakultəsini bitirib və iş fəaliyyətini Bakı şəhəri 4 saylı Tikinti

Trestində usta, sahə rəisi, iş icraçısı, baş mühəndis vəzifəsilərində çalışıb. 1978-86-cı illər Nazirlər Sovetinin tikinti şöbəsində, 1986-91-ci illər Naftalan şəhər Sovetinin sədri vəzifələrində işləmişdir. Qurban Namazalıyev 1991-ci ilin avqust ayından Azərbaycan Melorasiya və Su Təsərrüfatı nazirinin birinci müavini vəzifəsinə təyin edilmişdir.

Qarabağ müharibə döyüşləri zamanı Ağdam şəhərinə dövlət tərəfindən nümayəndə kimi göndərilmişdir.

1991-ci il noyabrın 20-də Ağdamdan Qarakəndə Mİ-8 hərbi vertalyotla bir qrup Dövlət nümayəndələri ilə birlikdə uçarkən vertalyotu vurulmuş və şəhid olmuşlar.



Horadiz kənd kolxozuna və Horadiz kənd orta məktəbinə - Qurban Namazalıyevin adı verilmişdir. Onun xatirəsini əbədiləşdirmək üçün Mədəniyyət evinin qarşısında 1992-ci ildə abidə büstü ucaldılmışdir. 1993-cü ildə Horadiz kənd orta məktəbi qarşısında büstü qoyulmuşdur.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!...

MƏDƏNİ TÖVLƏ

Mədəni tövlə - Dəli çayla, Fərəcanlı və Kərbala Babaş dərəsi arasında, Fərəcanlı dərəsinə gedən yolla, Ağayev Cümşüd Misir oğlunun evinə qədər sahədə yerləşirdi.

1954-cü ildə kolxoz sədri işləyən Vəli Əli oğlu Rzayevin təşəbbüsü və köməyi ilə bu geniş sahədə, kolxozda olan 1000 baş sağmal inəklər üçün "Mədəni tövlə" tikilib istifadəyə verdilər. Mədəni tövlədə süd texniki surətdə və aqreqatlarla sağılırdı. Burada olan 1000 baş inəklərdən ildə 400-450 ton süd dövlətə təhvil verilirdi.

Tövlə ətrafında heyvanların qış ehtiyatı üçün 5 ədəd silos equyuları, kəpək ambarı, ot tayaları var idi.

1965-ci ilə qədər kolxozda bu tövlədə 100-dən çox at ilxısı saxlanılırdı. Həmin il kolxoz sədri Suruş Fərhadovanın sərəncamı ilə bütün kolxoz atları ət kombinatına təhvil verildi.

Bundan başqa burada süd emalı sexi var idi. Qabaqlar bu sexdə yağ və pendir çəkərdilər ki, onu da kolxozçulara əmək günü hesabına bölərdilər.

1957-ci ilin payızında Atam mənə dedi ki;- oğlum sabah kolxoz əmək haqqına yağ bölərək verəcəklər gedib alarsan.

Səhərisi gün 5 kq-lıq biton götürüb getdim Güney məhəllədə olan kolxozun anbarına, anbardar Həmid Ağalar oğlu Soltanov idi. Məni görcək dedi ki; - O nədir gətirmisən qabın balacadır, sizə 29 kq yağ düşür, get iri qab gətir. Mən qayıtdım evə 30 kq-lıq süd bitonu, qonşunun eşşək arabasını alıb gəldim anbara və gördüm ki, xeyli növbə var. Elə bu vaxtı Məhərrəm Alı oğlu Novruzov da gəldi yağ almağa. Həmid kişi bunu görcək Məhərrəm kişiyə dedi;- eşitmişəm sən yağ içənsən, sənə ərinmiş yağ versəm içərsən?

Məhərrəm kişi dedi; - "Bəli içərəm".

Həmid kişi dedi;- Ancaq, bir şərtim var.

Dedi;- O nə şərtdir?

Həmid kişi dedi;- Sənə 8 kq yağ düşür və mən sənə 4 kq ərinmiş yağ verəcəyəm, əgər içə bilsən 8 kq yağını da verərəm apararsan, yox hərgah içə bilməsən 8 kq payından məhrum olacaqsan.

Məhərrəm kişi razı oldu və Həmid kişi 4 kq yağı çəkənə qədər Məhərrəm kişi məni göndərdi ki, Göyçək xalan(Həmidin arvadı) təndirdə çörək bişirir, ondan 2 çörək alıb gətirərsən. Mən çörəyi alıb gətirənə kimi Məhərrəm kişi 4 kq yağı içdi və üstündən də 2 isti təndir çörəyini yedi.

Həmid kişi dedi;- Bu hələ hesab deyil, indi sənin yağını verib sənlə gedəcəyəm sizə, yoxlayacağam, əgər davam gətirə bilməsən 8 kq yağı səndən alacağam. Razılaşdılar və qoşa getdilər.

Bir müddət gözlədikdən sonra Həmid kişi gəlib çıxdı, növbə gözləyənlər onun gec gəlməyinə gileylənirdilər.

Həmid kişi dedi;- "Bu Məhərrəm necə adamdır, hələ evə gedən kimi Aynanın bir qazan dovğasını da içdi, bu lap möcüzədir!"

Ondan sonra yağımızı alıb evə yollandıq.

MƏİŞƏT EVLƏRİ

Məişət evləri – kəndimizdə iki məişət evi vardı.

I – Məişət evi - Əziz kişinin bərəsindən 50 metr aşağıda, şosse yolun üst tərəfində fəaliyyət göstərirdi. Burada ən böyük həcmli yer Eyvaz Xanlar oğlu İbişovun "Qarışıq mallar" dükanı var idi. Maqazində ərzaq və sənaye malları satılırdı. Onun iki satıcısı vardı: Nobat Aqil qızı Əliyeva və Amaliya Əhəd qızı Ağayeva işləyirdilər.

Eyvaz bu maqazində elə qanun-qaydanı yaratmışdı ki, həmişə səliqə-səhman hökm sürürdü, vitrinlərin düzülüşü, qiymətləri də hər malın üstündə göstərilirdi və ilk baxışdan şəhər maqazinlərinə oxşayırdı. Alıcılar buradan həmişə razılıq edirdilər, çünki burda yüksək xidmət göstərilirdi və pulun qalığı qəpiyinə qədər qaytarılırdı.

Eyvaz İbişov kənd sakinlərinə göstərdiyi yüksək mədəni xidmətə görə alıcıların təşəkkürünü və minnətdarlığını qazanmaqla bərabər, rəhbərlik tərəfindən də, dəfələrlə qiymətləndirilib.

Ona "SSRİ Ticarət əlaçısı" fəxri adı verilmişdir. X Beşilliyin "Əmək Zərbəçisi" və "Sosializm yarışı qalibi" döş nişanlarına layiq görülmüşdür. Fəxri fərmanlarla və diplomlarla mükafatlandırılmış, Moskvada və Bakı şəhərlərində, Azərbaycan ticarətçilərinin və qabaqcılların müşavirələrinin iştirakçısı olmuşdur.

Bundan başqa bu Məişət evində, bərbərxana da fəaliyyət göstərirdi. İşləyənlər: - Əhməd Nüsrəddin oğlu Məhərrəmov; Əli Nəcəf oğlu Qurbanov. Ayaqqabı təmir ustası – İbrahim Şurya oğlu Məmmədov işləyirdi. Məişət evinin yanında da "Çayxana" fəaliyyət göstərirdi çayçı – Bəhlul Eldar oğlu İsmayılov işləyirdi. Həmçinin burada qəssəbxana da fəaliyyətdəydi – qəssab Vəliyev Qürbət İsmayıl oğlu idi.

II – Məişət evi - Qarağan təpə ilə keçmiş kolxoz idarəsi (Tanrıverdinin evi) arasında tikilmiş bina idi. Bu məişət evində: Qadın və kişi dərzi ustaları, qadın və kişi bərbərləri, çəkməçi usta, şəkil çəkən, çayçı və xeyir-şər üçün kirayə fəaliyyət göstərirdi.

Bu məişət evinin müdiri: - Məmmədov İlham Həsən oğlu.

Aşağıdakı işləyənlər fəaliyyət göstərirdilər:

Kişi dərziləri: - - 1. İlham Həsən oğlu Məmmədov;
2. Hüseyn Mehralı oğlu Əliyev.

Qadin dərziləri: - 1. Çiçək Əli qızı Bağırova;
2. Sərfinaz İdris qızı Xələfova;
3 Roza Muradxan qızı Quluyeva;
4. Məxmər Əli qızı Bağırova.

Kişi bərbərləri: - - 1. Məhəmməd Əsəd oğlu Abdullayev;
2. Ayaz Şuriya oğlu Məmmədov.

Qadın bərbəri: - - -1. Aygün Abbas qızı Əliyeva.

Çəkməçilər: - - - - 1. Tahir Fərzalı oğlu Əliyev;
2. Qəfər Muxtar oğlu Əliyev.

Şəkil çəkən: - - - - 1. Teyyub Əyyub oğlu Həsənov.

Kirayəçi: - - - - - - 1. Nüşabə Akif qızı Cəfərova.

Çayçı - - - - - - - - 1. Aydın Həsən oğlu İsmayılov.

Məişət evinin işçiləri kənd sakinlərinə xidmət göstərirdilər.

OCAQ TİRƏSİ

Ocaq tirəsi – Hacı Rüstəm dərəsindən cənuba, Babı novundan şərqə tərəf olan təpəlikdə Ocaq piri kimi qeydə alınmışdır.

"ocaq" və *"pir"*, din və ev anlamında işlənir. *"tirə"* sözü – nəsil, qəbilə, soy, arx kənarına tökülən, bir qədər yüksək yer, yüksəklik və sairə mənalarda işlənir.

Ocaq tirəsi – müqəddəs tapınaq, yel xəstəliyi olanlar üçün ziyarət hesab edilir və yüksək təpənin başında yerləşir.

Yusif Səttar oğlu Mediyev öz şəxsi hesabına 1970-ci ildə bu ocağın ətrafında təmir işləri aparıb və abadlaşdırıb.

RADİO VƏ TELEFON QOVŞAĞI

Radio qovşağı – kəndin mərkəzində "Qarağan təpə"-də fin evində 1956-cı ildən fəaliyyət göstərirdi. Radio qovşağına – mütəxəssis Novruzov Məmməd Bayramalı oğlu rəhbərlik edirdi. O,gözəl insan və işini mükəmməl bilən bir şəxsiyyət idi. Kəndimizdə demək olar ki, hər evdə radio qurğusu var idi. Bütün günü Azərbaycan radiosunun verilişlərini dinləyirdik. Bundan əlavə "Danışır Məmməd" deyərək kənd əhlinə yeni məlumatları, kənd klubunda kino filmlərin elanını, kolxoz idarəsində iclasları, sədrin son tapşırıqlarını və mədəniyyət evində olan teatr və konsertlər haqqında xəbərləri çatdırır və futbol reportajlarını verilirdı.

Həmin ildə kəndimizdə telefon və komutator qurğuları gətirildi və demək olar ki, 50-dən çox evlərə, xəstəxanaya, Sovet və kolxoz idarəsinə, məktəbə və digər strateji obyektlərə telefon aparatları quraşdırıldı. Kənddə və rayonda və respublikanın telefonları ilə əlaqə üçün mütləq komutatorla mümkün olurdu. Komutator qurğusunda Əhmədova Məhbubə, Hüseynova Nənəş və sonralar Güllü Ağayeva işləyirdilər. Sonralar kənddə telefon avtomatlaşdırma sisteminə keçirildikdən sonra, 200-ə qədər evlərə telefon çəkildi və hər kəs öz evindən istənilən beynəlxalq şəhərlərə zəng vura bilərdi. Bunların hamısına Məmməd Novruzov rəhbərlik və nəzarət edirdi.

SUBAY MAL TÖVLƏSİ

Subay mal tövləsi – Araz arxı ilə, Qozlu çay kəsişməsinin qərb tərəfində yerləşən obyektdir. Əvvəllər bu yerdə traktor qarajı və Fin evi vardı. 1980-cı ildə traktor qarajı Dərə ağzına köçürüldü və sonra burada subay mallar üçün 3 ədəd tövlə tikib 300-ə qədər subay malı gətirərək burada yerləşdirdilər.

Bundan əlavə fin evində mala baxanlar üçün istirahət otağı və gözətçi – Həsənçə Hüseynovun otağı nəzərdə tutulmuşdu. Subay malların yemlənməsi üçün 5 ot tayası var idi.

SU DƏYİRMANI

Su dəyirmanı – Horadiz kəndindən 5 km cənubda, kəndin üzüm sahələrinin yanında, Qozlu çayın sağ kənarında, ərikli bağın şərqində, Bakı – Naxçıvan dəmir yolunun 500 metr şimalındadır.

Bu dəyirman 24 saat ərzində 1000 kq taxıl üyütməyə qadirdir və üyütdüyü taxılı ancaq bir növ un olurdu və ondan bişirilən çörək olduqca gözəl və iyi çox-çox uzaqdan adamı çəkirdi.

Qabaqlar dədə-babalarımızın dediyinə kənd sakinləri öz taxıllarını üyütmək üçün dən daşlarından, həvəkdəstədən, kirkiradan istifadə edərdilər. Sonralar su dəyirmanında taxıl üyütməyə başladılar.

II Dünya müharibəsi ərəfəsində bizim kənd dəyirmanı işləmədiyinə görə qonşu kəndlərə, əsasən Qorqan kəndinin dəyirmanına gedərdilər. O vaxtları aclıq olduğundan dəyirmana az miqdarda taxıl aparardılar, təqribən 1 pud (16 kq) ya 2 pud, bu isə gedib-gəlmək, üyütmək, üyütmə haqqı verməklə az miqdarda un gətirib evə çıxararmışlar, ya da ki, quldurlar əllərindən alarmış.

1943-53-cü illər kolxoz sədri işləyən Fərhad Şükür oğlu İsmayılov kənd zəhmətkeşlərinin bu ağır vəziyyətini görərək 1946-cl ildə and içir: "Mən Şükür oğlu Fərhad olmaram, əgər bu kənddə bir su dəyirmanı tikdirməsəm".

Andına əməl edərək, mütəxəssislərlə məsləhətləşir və belə qərara gəlirlər ki, Araz arxı altında, Qozlu çayın yanında su dəyirmanı qurulsun. Belə də edirlər. Araz arxından dəyirmana qədər tökmə torpaq tokürlər və onun üstünə betonla kiçik arx çəkib suyunu dəyirmana yönəldib işə salırlar. Dəyirmanla Qozlu çay arasında 10-a qədər Qovaq(Ərəl) ağacları əkilmişdi, Dəyirmanı ilk işlədən Mehdiyev Əliş Kərbala Məmi oğlu, sonralar isə Hüseynov Həsənçə olub. Bu dəyirmanı tikdirib başa çatdıranlara və onu işlədənlərə - Allah rəhmət eləsin! Yaxşı əməllər heç vaxt yaddan çıxmır!..

Qeyd: - 1956-cı ildə bu dəyirmana 20 kisə buğda apardım və axşam saat 20.00-dan səhər saat 10.00 qədər, səhərə kimi dayanmadan, gözlərimi qırpmadan tamam buğdanı tək başına üyütdüm və maşınla gətirdim evə. O vaxtı mənim 16 yaşım vardı və atam əlini kürəyimə vurub dedi: - "İndi mənim davamçım var!" Özümü o an dünyanın ən xoşbəxt insanı sandım.

YENİ SOVET İDARƏSİ

Təzə sovet idarəsi – Orta kənd məhəlləsində, kənd Məscidi ilə Mədəniyyət evi arasında, 1980-cı illərdə o zaman kənd Sovet sədri işləyən Həbib Kazımovun təşəbbüsü ilə tikilmişdir. Bina kürsülü olaraq bir mərtəbəli tikilmişdi. Binanın uzunluğu 25 metr, eni isə 20 metr olub, geniş və işıqlı otaqlardan ibarətdir.

Bu binada əmanət kassası fəaliyyət göstərirdi.

POÇT MƏNTƏQƏSİ

Poçt məntəqəsi – Kəndin mərkəzində, Qarağan təpə məhəlləsinin şimal tərəfində, fin evində yerləşirdi. 1955-59-cu illər yaradılan poçt məntəqəsinin müdiri Hilal Əliyev (Musabəyli kəndindən) və 1959-61-ci illər Sarxan Süleymanov oldu. 1961-ci ildən Məhəmmədəli (Məhiş) Bayrış oğlu Vəliyev rəhbərlik etməyə başladı. Kənddə poçtalyon işləyənlər: - Süleyman İbişov, Məhəmməd Məmmədov, Vəli İsmayılov, Hüseyn Hüseynov, Murad Sultanov, Ümüd Həsənov və Akif Qəmbər oğlu üzərilərinə düşən vəzifələrindən əla gəlirdilər. Uzun illər öz vəzifəsinin öhdəsindən bacarıqla istifadə edən Məhiş kişi bütün kənd əhlinin hörmətini layiqincə qazanmışdı. Belə ki, məktubları, banderolları, pul köçürmələri, pullu göndərişləri vaxtlı-vaxtında öz sahiblərinə çatdırılmasına yardımçı olurdular. Bundan başqa təqaüdlərin, maaşların öz vaxtında verilməsini təmin edirdilər.

UŞAQ BAĞÇALARI

Uşaq bağçası - əvvəllər köhnə Sovet idarsinin arxasındakı 30 metr uzunluğunda olan binada, Məscid tərəfdə yerləşirdı və həmin yerdə də kənd apteki var idi. Həmin bağçada Ərkinaz Xanlar qızı

Həsənova müdiri, Leylan Əhməd qızı Novruzova baxça müəlliməsi və Gülən Cəfərova işə aşbaz işləyirdi.

Kəndimiz də ildən-ilə böyüyürdü, əlbəttə, uşaqlar da artırdı və bu iki otaqlı evə sığmırdı. Bax elə bu səbəbdən də, kolxoz sədri Suruş Fərhadovanın şəxsi təşəbbüsü ilə kolxoz idarə heyəti yeni uşaq bağçası üçün, Horadiz orta məktəbinin köhnə binasının şımal tərəfində yer ayrıldı və 1980-ci ildə inşa edildi. Bina bir mərtəbəli, kürsülü, kubik daşdan hörülmüşdür və damı da şifer ilə örtülmüşdü.

Binanın uzunluğu 40, eni 30 metr idi. Uşaq bağçası olan 100 yerlik, geniş otaqları, oyuncaq zalı, böyük mətbəxi, uşaqların istirahəti üçün otaqlar və müvafiq ləvazimatlarla təchiz edilmişdi. Bağça müdiri: - İsmayılova Fazilə, tərbiyəçi müəllimələr:- İmanova Gülü, Kazımova Gülsarə, İsmayılova Səadət, Ibişova Mədinə və tibb bacısı:-Mehdizadə Mahirə, xidmətçilər:-Mahmudova Əntiqə, Heydərova Xuramanvə aşbaz: - Orucova Tahirə xidmət edirdilər.

YEL OCAĞI

Yel ocağı – Zaqun dərəsinin şərq hissəsində, ən hündür yerində olan ərazidə qeydə alınan oroqrafik obyektdir. Yerli adamlar bu yeri *"Yel ocağı"* kimi ziyarətgah, tapınacaq, ən inaclı, müqəddəs hesab edirlər. Ocaq Zaqun dərəsində yaşayan Kamal Behbud oğlu Rəhimovun lap evinin yaxınlığında olduğu üçün o, 1980-ci ildə ocağın ətrafını hördürərək abadlaşdırmışdır. ***Allah əvəzin versin!..***

ZÜLFÜQARIN "BULAQ" KABABXANASI

Zülfüqarın kababxanası – kolxoz bağının aşağısında, Horadiz stansiyasından Füzuli şəhərinə gedən şosse yolun 10 km-nin üst tərəfində, güney yatağa gedən yolun üstündə Zülfüqar Hüseyn oğlu Vəliyev "Bulaq" yeməkxanası açaraq kəndin və yoldan keçən adamların istirahəti üçün gözəl şərait düzəltdirmişdi. Burada 120 metr dərinlikdən çıxan artezian quyusundan buz kimi su gecə-gündüz fantan vururdu. Artezian suyunun çıxan axarına, şüşə butulkalar, qarpız



Zülfüqar Vəliyev

və digər ərzaqlar qoymaqla, həmişə sərin saxlayırdılar.Eyni zamanda "Bulaq" yeməkxanasının ətrafında 3 hektara qədər ərazidə bağban – İlyas Xanlar oğlu İbişov öz təmənnasız əməyilə həmin sahəyə ən gözəl meyvələr əkməklə füsünkar gözəllik yaratmışdı.

Yeməkxana 60 kv.m otaqdan ibarət idi. 20 kv.m otaq mətbəx və 40 kv.m otaqda stol, stullar ısə qonaqların istirahəti üçün hər cür şərait istirahət üçün yaradılmışdı.

Bu kababxana təbiətin gözəl bir guşəsində olduğuna görə yoldan ötənlər üçün, həm də kənd adamlarının əsl istirahət yerinə çevrilmişdir.



"Bulaq" kababxanasının yanında su artezan quyusu
Şəkildəkiər soldan: Vəli Vəliyev və Habil Quluyev

Hər növ bişmişlər sifariş edərək təbii yeməklərlə qidalanmaq və təbiət qoynunda istirahət, bundan gözəl həm də ləzzətli nə ola bilər.

"İZMİR" RESTORANI

"İzmir" restoranı – Horadiz kəndindən aşağıda, Şosse yolun altında, Taxta körpünün yanında, kolxoz bağının ərazisində tıkılən iaşə obyektidir.

Bazar iqtisadiyyatı dövründə sahibkarlıqla məşğul olan Habil

Ağamalı oğlu Quluyev bu restoranın təsisçisi və sahibidir. "İzmir" restoranın 120 kv.m sahəsində mətbəx otağı, yemək salonu, 25 stol, 100-ə qədər stullar və hər cür avadanlıqla təchiz edilmişdi.

Restoranın qarşısında 30 kv.m sahədə Habil özü cürbə-cür güllər əkərək buranı əsl gülüstanaçevirmişdi. Bundan əlavə o, kolxoz rəhbərliyindən icazə alaraq, su artezian quyusundan bura dəmir borular çəkdirərək restoranı su ilə təchiz etmiş və həyətdə süni fantan yaratmışdı.

Bütün gün ərzində bura gələn müştəriləri öz istədiyi yeməklə təmin edilirdi. Axşamlar isə müştəriləri daha çox olardı. Bəzən sifarişlə banket və toy edərdilər. Məsələn: - 1991-ci il iyun ayında Mehdi Allahverdi oğlu Quluyevin toy şənliyi burada olmuşdur. Qonaqları bura dəvət etməklə dostlar təbiətin füsunkar guşəsində yeyib, içib əsl istirahətin ləzzətini alardılar.



Habil Quluyev

İzmir restoranında aşbaz: - Bəylər Məmməd oğlu Məmmədov, xidmətçilər: - İmran Hüseyn oğlu Heydərov və Fatimə Əli qızı Qasımova müştərilərə qulluq edirdilər.

***

HORADİZİN YER ADLARI
(toponomiyası)

Hər bir yer adları tarixi bir sənəddir. Bizə keçmişdən xəbər verən mənbəədir. Biz kəndimizdə olan yer adlarını, toponimləri dərindən öyrənməliyik ki, bu adlarda keçmişimizin – dədələrimizin, nənələrimizin nəfəsini duyuruq, torpaqlarımızın, ulularımızın həm ruhu, həm də dili yaşayır.

Coğrafi adları təqdim edən toponimika elmidir. "Topos" yunanca relyef, yer, ərazi, sahə, "onoma" isə ad mənasını bildirir.

Elə coğrafi adlar var ki, onların yarandığı tarix, məlumdur, amma elə toponimlər də var ki, onların yaşını dəqiq müəyyən etmək mümkün deyildir. Əslində "pis" coğrafi ad yoxdur və onları müqəddəs ad qəbul edilməli, qətiyyən dəyişilməməlidir.

Yuxarıdakı fikirlərimi ümumiləşdirib belə deyə bilərəm ki, hər bir yaşayış məntəqəsi ərazisində olan bütün coğrafi adları toplayaraq, onların keçmişində möhkəm durmaq lazımdır. İnsan öz adını özü ilə ömrü boyu gəzdirdiyi kimi, əslində ana torpağa verilən coğrafi adları da özü ilə həmişə daşımalıdır.

Valideyinlərin adı kimi, doğulub boya-başa çatdığı yer də, ərazidə olan coğrafi adlar da, insan ürəyində fərəh doğurmalı, sevinc hissi, xoş əhval-ruhiyyə yaratmalıdır.

Hər bir toponimi insan yaratdığı üçün, "coğrafi adlar yerin yaddaşıdır" desək, heç də səhv etmərik. Müəyyən zaman müddətində verilmiş bu adlar illər, əsrlər boyu lazımi səviyyədə izah və tədqiq olmalıdır, çünki etnogenetik bilgilərin araşdırılmasında toponimikanın əvəzsiz xidməti danılmazdır.

İnsan tarixi yaratdığı kimi, tarix insanı həmişə yaşadacaqdır. İnsanları yaşadan, bilmədiklərini öyrənmək həvəsidir, insan üçün hara gedir getsin, vətən, yenə vətəndir. Vətən elə vətən olduğu üçün çox gözəldir.

Horadiz kəndimizin yer adları dünəni və bu günü ilə sabahı arasında körpü olduğu üçün, onları lazımınca gələcək nəsillərə çatdırmaq müqəddəs borc hesab edirəm. Toponimləri toplayarkən onların sirli mənalarını daha dolğun və düzgün açılması

üçün Horadiz kəndimizin toponimlərini işləyib hazırlayarkən bu meyarları, nüansları nəzərə almağa çalışmışam...

Doğma torpaqlarımızın itirilməsi bizim üçün çətin və dözülməz olaraq qalacaqdır. Lakin mən də bəziləri kimi heç də ümidsizliyə qapanıb qalmıram. Mən hesab edirəm ki, möhtərəm Prezidentimiz İlham Əliyevin danışıq və sülh yolu ilə torpaqlarımızı azad edəcəyinə inanıram. Ona görə də ümid edirəm ki, iqtisadiyyatımızın artması ilə yanaşı, Azərbaycan ordumuzun güclənməsinə görə, dünya siyasi arenasında artan inama və hörmətə görə bizim ümdə arzumuz həyata keçəcəkdir.

Həmyerlimiz Vəli Qürbət oğli Vəliyev öz şerində nələr yazır:

HƏSRƏTİNDƏYƏM

Yuxumda görürəm o yerləri mən,
Xəyalım dağları gəzir, dolaşır.
Yuxumdan diksinib, ayılıram mən
Bilmirəm özümdə, axı neyləyəm,
Horadiz kəndimin həsrətindəyəm!

***

Sızqa-sızqa axan bulağım vardı,
Barlı-bərəkətli torpağım vardı.
Sənin "Teşnək" adlı torpağın vardı
Kaş, torpağından öpəm, iyləyəm,
Horadiz kəndimin həsrətindəyəm!

***

Kəndimiz bizlərdən aralı qalıb,
Həsrətli qəlbimiz yaralı qalıb.
Səsli kəhrizlərin niyə lal qalıb
Kəndimin saralmış, solmuş gülüyəm,
Horadiz kəndimin həsrətindəyəm!

***



Kəndimizin bir küçəsinin görünüşü

İnanıram ki, doğma torpaqlarımızdan qovulan adamlarımız öz doğma torpaqlarına, elinə-obasına qayıdıb, o xarabalığa çevrilmiş kəndlərini, evlərini, həyətyanı bağlarını, yollarını, məscidlərini, məktəb və kitabxanalarını, idarə və mədəniyyət saraylarını, xəstə-xanalarını, bulaq və kəhrizlərini, abidələrini və ziyarət ocaqlarını yenidən abadlaşdırıb əvvəlki yaşayış ritminə qaytaracaq. Amin!..

Əziz oxucular, indi sizlərə Horadiz kəndimizdə olan yer adlarını əlifba sırası ilə təqdim edirəm:

ABDULKƏRİM DƏRƏSİ

Abdulkərim dərəsi – Hüngütlü kəndinin şimalında, Musabəyli kəndi ilə həmsərhəd ərazidə olan yerdir. Bu Hüngütlü kəndinin ağsaqqalı Abdulkərim kişinin adı ilə bağlıdır. Deyilənə görə çox ağıllı və kəndinin xeyir-şərində yaxından iştirak edən olub.

Abdulkərim kişi XX-əsrin əvvəllərində yaşamış və Musabəyli ilə

Hüngütlü kəndi arasındakı dəqiq sərhəddi təyin etdiyinə görə bu dərə "Abdulkərim dərəsi" adı ilə adlandırılmışdır.

ABDÜLRƏHİM DƏRƏSİ

Abdülrəhim dərəsi – Hüngütlü kəndi ərazisində olub, Həmin kəndin şərq tərəfində yerləşən dərədir.

Bu dərəyə Abdülrəhim adı verilməsilə əlaqədər belə rəvayət edirlər ki, Dördçinar kəndində yaşamış ən varlı şəxsi olan Hacı Şüleyman Xələfovun təsərrüfatında çalışan 3 nəfər iranlı nökər olub və bir müddət işlədikdən sonra nökərlərdən Abdülrəhimin Hacı Şüleymanın qızına gözü düşüb. O, nökər həmkarlarına öz istəyini danışıb. Belə qərara gəliblər ki, bunu Hacıya elçi kimi təqdim etsinlər, düşünürlər ki, Hacı razı olsa onlar burada məskən salarlar. Məsələni Hacıya açanda o, bunlara deyib ki, nəyiniz var bir öküz arabasına yığın və kəndi həmişəlik tərk edin. Hacının adamları Abdülrəhimi və onun nökər dostlarını bu dərədən yola salıblar. Ondan sonra bu dərəyə Abdülrəhimin getdiyi dərə adı ilə deyilib. O vaxtdan indiyə kimi bu yerə Abdülrəhim dərəsi adı kimi tanınıb.

ABIŞLI BAĞI

Abışlı bağı – Horadiz kənd qəbiristanlığı ilə Təpə kəhriz arasında və Dəli çayın sağ sahilində yerləşən enli yarpaqlı, calaq tut ağaclarıdır. Bu bağ Abışlıların (Sultanovların) barama qurdu yetişdirmək üçün xüsusi bağıdır. Bağda iri qara və şirin tutları vardı.

Sonralar bu bağın üst tərəfində Araz çayından yuxarı kəndlərə borularla su vurmaq üçün iri nasos qurğuları qurulmuşdu. Eyni zamanda iki mərtəbəli 12 mənzilli ümumi yaşayış binası da tikilmişdi. Bu binada Nəcəfov Fazil, İsmayılov Əliağa, İsmayılov Ramil, Rüstəmov Tofiq, Sultanov Qurban, Mehdiyev Qasım, Mehdiyev Nazim, Vəliyev Müseyib, Orucov Qurban, Xələfov İmran, Səfiyev Fərman və Yusifov Akif aılələri ilə birlikdə yaşayırdılar. Həmin binada Sultanov Ağalar Həmid oğlunun yeməkxanası da fəaliyyət göstərirdi.

AĞIL DƏRƏSİ

Ağıl dərəsi – Horadiz qəbiristanlığının şimalında, Abışlı bağının qərbindəki və Kərbəla Babaş dərəsinin cənubunda yerləşən dərədir.

Bəzi coğrafi adların tərkibində iştirak edən "ağıl" sözü, "gecələr qoyun saxlanan yer" mənasında adlandırılmışdır.

Oronim *ağıl* (qoyun, quzu yatağı) və *dərə* (çuxur) sözlərindən düzəlib, "qoyun-quzu yatağı olan dərə) anlamı bildirilir.

"Ağıl dərə" coğrafi adı Dördçinar kəndi yaxınlığında da vardır. Ağıl dərənin ətəyində Abışlı bağın üstündə kolxoz həmişə qabaqlar bostan əkdirərdi. Bu bostanda gözətçilər: - Mahmudov Ələkbər və İmanov Hümbət olardı.

Qabaqlar ağsaqqallar və yaşlılar biri-birilə mübahisədə deyərdilər: "Səni Ağıl dərəsinə göndərmək lazımdır". Yəni ki, axirətdə, o dünyada ağıllanarsan, daha doğrusu qəbirdə.

Deyilənə görə, həmən bu dərədə qabaqlar qoyun ağılları var imiş və ona görə də Ağıl dərəsi adı verilmişdir. İkinci mənası isə qəbirsanlığın yaxınlığında olduğuna " ora gedən ağıllanar" demişlər.

ALI ÖKÜZ DƏRƏSİ

Alı öküz dərəsi – Teşnək əkin sahəsinə aid olub, Horadiz kəndinin şimali-qərbində, Dəli çayın sağ tərəfində, kənddən 3 km aralı bir yerdir. Alı öküz dərəsində 80 hektar əkilən dəmyə torpağı var. Bu dərə cütçü Alı kişinin adı ilə bağlıdır.

Onun haqqında yerli ağsaqqallardan eşitmişəm ki, qabaqlar cütçü Alı kişi öz həmkəndliləri ilə səhər tezdən öküzləri qoşub həmən bu dərəyə gəlib torpağı xışla (kotanla) şumlayarmış. Günlərin bir günündə Alı kişi tezdən durub görür ki, öküzün biri yoxdur. Ora öküz, bura öküz, amma öküzdən bir xəbər çıxmır. Alı kişinin əkin yoldaşları məcbur olub, öz öküzlərilə onsuz Teşnəyə yer şumlamağa gedirlər. Teşnəyə çatanda görürlər ki, Alı kişinin öküzü buradadır. Demə öküz hər səhər bura gəldiyindən adətkarda olub və öküz açıq olduğundan adəti üzrə tək başına gəlibmiş. Alı kişinin həmkarları xəbər göndərirlər ki, Alı sənin öküzün burdadır. O, da tək qalan öküzü ilə gəlir bu dərəyə və işə başlayır. Elə o gündən də bu dərənin adı "Alı öküz dərəsi" adlandırılıb və indiyə qədər bu ad yaşayır.

ASLAN DƏRƏSİ

Aslan dərəsi – Horadiz kəndindən Füzuliyə gedən şosse yolun şərqində, Rzalılar məhəlləsindən yuxarıda iri bir dərədir. Kəndimizdə şəxsi adlardan düzəldilmiş mənfi və müsbət relyefi olan yer adları mühüm yer tutur.

Dərələr axar suların erroziya fəaliyyəti nəticəsində yaranan, xətti istiqamətində uzanan və təbii şəraitdə qeyri bərabər enən mənfi relyef formasıdır. Dərələr dib və yamac hissələrinə ayrılır.

"Aslan dərəsi"nin adının yaranması, onun ətrafında olan təpəliklərin "yatmış aslana" oxşaması ilə bağlıdır.

Son zamanlar Aslan dərəsinin ətəklərində Rzalılar məhəlləsinin yuxarı tərəfində fərdi evlər tikib yaşayırdılar.

BABI NOVU

Babı novu – Horadiz kəndindən cənub tərəfində, Saqqızlı məhəlləsindən aşağıda yerləşən taxta körpünün alt hissədir.

Toponimin tərkibində "Babı" sözü çox güman ki, keçmişdə köçəri həyat sürən Babı adlı ərəb tayfasının adını özündə əks etdirir.

Belə rəvayət var ki, İranda XIX-əsrin ortalarında "Bab" tayfasından olan Mirzə Əli Məhəmməd yaşayıb və onun tərəfindən ortaya atılan "babı" dini təriqəti ilə əlaqələndirilir.

Babı novunun ərazisindən 15 km cənub-şərqdə Babı kəndi mövcuddur və bu adların oxşarlığı, bunların arasında hər hansı bir əlaqənin olduğu şübhəsizdir. Babı novu sözünün tərkibində "nov" sözünün komponenti fars dilində "su oyuğu" mənasına uyğun gəlir. Lakin əsl mənada "nov" su keçən "qurğu" və "oyuq" mənasında işlədilir. Qabaqlar bura daşla hörülmüş və üstü taxta ilə örtüldüyündən, bu yerə "Taxta körpü" də deyirdilər.

Babı novunun şimal-şərq tərəfində geniş açıq sahənin qurtaracağındakı hündür təpəliklərdən gələn yağış suyu həmin yerdən keçərək, kənd bağına və Qozlu çaya tökülür.

BƏYALI DƏRƏSİ

Bəyalı dərəsi – kəndin qərb və yuxarı tərəfindən, Dəli çaydan qərbdə, çayın sağ hissəsində qeydə alınan obyektdir. Bəyalı dərəsi Teşnək dəmyə əkin sahəsinə aid olub, ərazisi 170 hektardır.

Bu ad bu dərənin mənfi relyefində XX əsrin ortalarında evi olan və burada yaşayan Bəyalı kişinin adı ilə bağlıdır.

Deyilənlərə görə, Bəyalı kişi diqqətcil olub, sayılıb seçilən kişilərdən biri kimi tanınıb. Özü də kəndin şimalında, lap qurtaracağında onun evi Bəyalı dərənin ən hündür tirəsində, yamacında idi.



Bəyalı dərəsinin görünüşü
Əvdil, Qardaşxan və Bəhrəm

Mehdi oğlu Bəyalı kişi üç qardaş olublar: Bəyalı, Bayramalı və Mehralı. Bayramalının üç övladı olub – Əli, Zəhra və Sürəyya. Əli cavan 9 yaşında vəfat edib. əvvəl anaları Cəvahir, sonra isə ataları Bayramalı vəfat etdiyi üçün Bəyalı kişi öz himayəsinə götürüb. Mehralının övladı olmayıb. Mehralı kişi öz dövrünün sözükeçən, qolu qüvvəli adamlarından biri kimi ətraf rayonlarda tanınıb. Məhz onun sayəsində Mehdi kişinin övladları kəndin ən yuxarısında məskunlaşıb.

Bundan əlavə deyə bilərəm ki, Bəyalı kişinin övladları oxuyub savadlı, vəzifə sahibi olublar. Bəyalı kişinin 4 oğlu: - İbrahim, Mehdi, Əziz, Əhməd və 2 qızı: - Zibeyda, Xanım olub; Əziz – tanınmış alim, Əhməd tanınmış sualtı gəmi kapitanı, İbrahim - tanınmış mühəndis və onun oğlu Tacəddin isə - Azərbaycanın Müdafiə Naziri vəzifəsində işləmiş və hərbi rütbəsi – general mayordur.

BURĞA BAĞI

Burğa bağı – Burğa dərəsindəki Burğa bulağından aşağıda qeydə alınan bağdır. Bu bağda cürbə-cür meyvələr vardı. Bağın yanında toyuq ferması da var idi və bu fermaya kolxoz tərəfindən müdir

əvvəllər Əliyev Kalbalı, sonra İsmayılov Yağnalı, daha sonra isə Namazalıyev Famil olmuşdur.

Burğa bağının yanında yaşayış üçün tikili bina və kolxoz heyvanları üçün ot tayaları var idi. Burğa toyuq-cücə saxlamaq üçün olduqca çox əlverişli yer idi.

BURĞA DƏRƏSİ

Burğa dərəsi – Horadiz kəndindən şərqdə, Aşağı Abdürrəhmanlı kəndinin torpağı ilə həmsərhəddə qeydə alınan toponimdir. Burda Horadiz kəndinin dəmyə əkin sahəsi olub, hər il taxıl əkilir və sahəsi 150 hektardır.

Kənd ağsaqqallarının dediyinə görə burada tez-tez burulğan küləklər olduğundan ulularımız bu yerə "Burğa" adı vermişlər.

Dəmyə yeri olsa da, taxıl zəmilərində həmişə bol taxıl məhsulları olurdu. Biz uşaq vaxlarında tez-tez Burğa dərəsinə şomun, dağqozu və dombalan(yer alması) yığmağa gedərdik.

ÇİNAR DƏRƏSİ

Çinar dərəsi – Hüngütlü kəndindən şimalda, üzümlük sahələrindən şərqdə, Seyrək dərədən yuxarıda qeydə alınan toponimdir.

Burada əvvəllər Hüngütlü kəhrizinin üstündə Çinar ağacı olduğundan bu dərəyə "Çinar dərəsi " adı verilmişdir.

ÇƏLTİK TƏHNƏSİ

(Darı təhnəsi)

Çəltik təhnəsi (Darı təhnəsidə deyirlər)– Horadiz kəndindən 4 km cənubda, Qozlu çayın sağ tərəfində, Bakı – Zəngilan magistral yolunun şimalında, "Lələ düzü" ilə Dəyirman boynu arasında olan sahədə yerləşir. Deyilənə görə çox-çox qabaqlar bu yerdə çəltik əkərmişlər və elə buradaca xırmanda döyülüb apararmışlar.

Ulularımız belə rəvayət edirlər ki, Füzuli rayonunun ərazisindəki Azıx mağarasında qədim adamlar burada çəltik əkərmişlər və bu "Çəltik təhnəsi"ndə hazırlayıb düyünü apararmışlar.

Çəltik təhnəsinin yanında qabaqlar əhəng bişirmək üçün dərin və geniş quyu qazıb, əhəng daşını üç gün, üç gecə yandıraraq əhəng alardılar.

DƏRƏ AĞZI

Dərə ağzı – Horadiz kəndindən 4 km cənubda, Qozlu çay boyunca təpəliklərin sağ və sol qurtaracağında, Bakı–Zəngilan–Füzuli yol ayrıclarının birləşdiyi hissəsinin ətrafı adlanır. Dərə ağzında Qozlu çayın sol tərəfində Horadiz kolxozunun maşın-traktor qarajı və taxıl anbarları vardı. Dərə ağzından bizim kolxozun üzüm sahələrinə gedən torpaq yollar ayrılır.



Şəkildə: - **Horadiz şəhərindən Dərə ağzına gedən yol. Sol nərəf isə horadiz kənd üzüm şahələri olmuş torpaqlarımızdır**

Dərə ağzı "Kardaş"dan 1,5 km cənubda yerləşir. Dərə ağzında sahələrə su vuran qurğuların şəbəkələri yerləşirdi. 1993-cü il sentyabrın 3-nə kimi kənd sakinləri gecələr Dərə ağzındakı üstü şiferlə örtülmüş xüsusi sığınacaqlarda gecələyirdi və gündüzlər kəndə öz evlərinə qayıdırdılar.

Kənd adamlarının halalca kolxoz əmlakı olan 800 ton taxılı və bütün traktorları, kombaynları, maşın-traktor ehtiyyat hissələri və neçə-neçə ot tayaları işğal altında qaldı.

“DƏLİ ÇAY” QOBUSU

“Dəli çay qobusu” – Horadiz kəndinin başından, Təpə kəhrizə qədər olan hissə adlanır(çay orada qurtarır) .

“Qobu” sözü “çökəklik”, “su axan dərə”, “qurumuş çay yatağı” və sairə mənalarda işlədilir. Oronimin tərkibindəki “su” şəkilçisi mənsubluğu bildirir. Ağsaqqallarımızın dediklərinə görə bu çay öz şıltaqlığını təqribən hər 50 ildən bir göstərir.

“Dəli çay” qobusunun içərisində elə iri qırmızı sal daşlar var ki, heç onu ən güclü kranla da, qaldırmaq mümkün deyil. Əgər bu daşları Dəli çay gətiribsə, onda onun daşqınının qarşısını heç bir qüvvə və heç bir texnika ala bilməzdi.

DƏYİRMAN BOYNU

Dəyirman boynu – Horadiz kəndində 2 ədəd Dəyirman boynu mövcuddur. Bunlardan hər ikisində vaxtı ilə su dəyirmanı olub.

I.“Dəyirman boynu” toponimi Horadiz kəndinin başında, Qurdlu bulaqdan 100 metr şimalda, Dördçinar kənd yolun üstündə burada köhnə dəyirman olduğu yerə deyirdilər.

Bu dəyirman Dördçinar kəhrizinin suyu, kənddən cənuba tərəf dağ dibi ilə çəkilmiş xüsusi arxla təchiz edilərmişdir.

İşğala qədər bu Dəyirman boynunda su hovuzu var idi və burada kolxoz qoyunlarını qırxandan sonra, xüsusi dərmanlanmış hovuza atıb su ilə çimizdirərdilər ki, qoyunlar xəstəlikdən azad olsun, sağalsın və xəstəlik yayılmasın.

Kənddə həmişə əqrəb çalan adamı piyada apararmışlar I-Dəyirman boynuna və onun ağrısı dərhal çəkilərmiş.

II- “Dəyirman boynu” kəndin cənubunda, İmam piri boyunca sıra təpəliklərin qurtaracağında, Bakı – Zəngilan magistral yolun sağ tərəfində, Qonaqgörməz təpəliyinin küncündə olan sahədə olmuşdur. Bu dəyirman “Dik arx” ilə Təpə kəhrizin, Muxtar kəhrizin və Qozdibi kəhrizlərin suyu ilə işləyərmiş.



I- ***Dəyirman boynunda qoyun qırxımı***

DİK ARX

Dik arx - Üç kəhrizin: Təpə, Muxtar və Qozdibi kəhrizlərin birləşmiş suları İmam piri sıra təpəliklərin ətəyi ilə, ta dərə ağzına qədər, Qozlu çayın sağ tərəfilə süni qazılmış arx idi. Bu arxla Dəyirman boynundakı dəyirmanı su ilə təmin edərmiş. Bu arxdan gedən su ilə kolxoz bağını, bağdan aşağıda olan bostan və tərəvəzi, həm də Dərə ağzına qədər olan taxıl zəmiləri suvarılardı.


DÖRDÇİNAR BAĞI

Dördçinar bağı – Dördçinar kəndi ilə Hüngütlü kəndləri arasında olan bağ massivi Horadiz kəndinə qədər sahəni əhatə edirdi. Bu bağda müxtəlif meyvələr var idi, onlardan: qızıl armud, Əliabbas armudu, Uca qoz, Şəlli qoz, Tək qoz, ağ tut, qara tut, şah tut, zoğal, qaragilə, əzgil, alça və sairə... Üzümlərdən: qızılbaldır, qaragilə, xort-xortu, qız boğan və sairə... Burada ağ və qara calaq tutlar əksəriyyət təşkil edirdi ki, onun da yarpaqlarından barama qurdu bəsləyirdilər. Dördçinar bağının sahəsi 100 hektara yaxındır.

DÖRDÇİNAR GÜNEYİ

Dördçinar güneyi – toponimi Dördçinar kəndindən qərbdə, dağın arxasında, Dəli çay tərəfdə böyük bir sahədir. Əvvəllər burada kənd adamları bostan, tərəvəz əkib becərərdilər və mərcan bulağın suyu ilə suvarılardı. Çox münbit torpağı vardı. Sonralar yəni, 1980-cı illərdən bu torpaqlarda kənd adamları burada evlər tikərək, həyətyanı bağlar salaraq "Təzə məhəllə" yaratdılar.

ƏZİZ KİŞİNİN BƏRƏSİ



Əziz İbişov

Əziz kişinin bərəsi – Horadiz kəndinin mərkəzində qeydə alınan obyektlərdən biridir. *"bərə"* sözü *"dayanacaq", "liman", "bir yerdən başqa yerə getmək"* mənasındadır, *"si"* şəkilçisi isə mənsubluğu bildirir.

Əziz kişinin bərəsi – Horadiz stansiyasından – Füzuliyə gedən şosse yolundan kəndin mərkəzinə ayrılan yol ayrıcında, avtobus dayanacağında yerləşir. Bu bərə Əziz kişinin həyətyanı bağının qarşısında və çəpərin yanında olduğu üçün Əziz kişinin adı ilə bağlıdır. Bu məkan daha çox məhşur olan yerdir, çünki bura kənd adamları yığışar, söhbətləşər, dərdlərini bölüşər və ən son xəbəri, məlumatları burada eşidib bilərdilər.

Əziz kişi 140 il yaşayıb (1818-1958) el ağsaqqalı olub, kəndimizin ən çoxyaşlı sakinidir. Əziz kişi öz çəpərinin kənarında oturacaq üçün düzülmüş ağ daşların üstündə həmişə oturardı və əlindən çubuq əskik olmazdı. El adətlərini və ənənələrimizi, qayda və qanunlarımızı pozanları çubuqla cəzalandırıb tərbiyə edərdi. Gəlib keçən uşaqlardan soruşardı? – Bala kimin oğlusan? Və başını sığallayıb buraxardı.

Qorxub yanına gəlməyənləri isə, başqa vaxtı görəndə əl barmağı ilə uşağın başına çırtma vurardı. Deyilənə görə, onun barmaq çırtmasının yeri ağrıyardı.

Yadımdadır, onun həyətyanı bağında çoxlu nar kolları var idi.

Əziz kişi nar yetişən vaxtı, öz xurcununa xeyli nar yığardı və gəlib yol keçənlərə nar paylayardı. Olduqca xoş xasiyyətli və əliaçıq kişi idi, hündür boy, canlı-cəsarətli, qolu qüvvəli, zorba bir kişiydi.

Əziz kişi özü danışardı ki, bir gün eşşək arabası ilə 2 çuval (toxunma çuvalın hər biri 100 kq-a bərabərdi) buğda aparırdım Qorqan kəndindəki su dəyirmanına üyütməyə. Dəyirmana çatmağa 200 metr qalmış gördüm ki, digər tərəfdən öküz arabası ilə dolu taxıl gətirirlər. Başa düşdüm ki, məndən qabağa düşsələr, bir gün artıq dəyirmanda məcburi qalacağam. Ona görə mən çuvalın birini dərhal arabadan qucağıma götürüb, kəsə yolla qaça-qaça aparıb dəyirmandakı tərəzinin üstünə qoyub növbə tutdum. Güclü olsada, amma sifətdən çox sakit və mülayim adama oxşayırdı.

Əziz kişinin oğlu Xanlar kişi çox mehriban və gözəl bir şəxs kimi dini məclislər də "Qurani – Kərim"-dən surələr oxuyardı və yas mərasimlərdə isə vəfat edənləri dini qaydada təmənnasız dəfn etdirərdi.

Əziz kişinin nəvələri İlyas və Eyvaz ondan geri qalmazdı. Eyvaz bizimlə bir sinifdə oxuyardı. Onunla əl verib görüşməyə heç kəs cürət etməzdi, çünki əli elə sıxırdı ki, barmaqlarımız xeyli müddət açılmazdı.

Horadiz kəndimizin ən qocaman adamı olan Əziz kişi 1958-ci ildə dünyasını dəyişdi. Ancaq onun yadigarı ağ daşlar yenə dururdu. Kənd adamlarının dilində, həm qəlbində, həm də xatirələrində, onu tanıyanlar arasında, hələ neçə illər *"Əziz kişinin bərəsi"* ünvanı yaşayacaq. Allah rəhmət eləsin!...

ƏRİKLİ BAĞ

Ərikli bağ – Horadiz kəndinin pambıq və üzüm sahələri ərazisində qeydə alınan obyektlərdəndir. Bu bağ Bakı – Naxçıvan dəmir yolundan 500 metr şimalda, Qozlu çayın sağ sahilində, Su dəyirmanın yanında XX əsrin ortalarında salınmış ərik ağaclarından ibarətdir. Bu bağda Ordubaddan gətirilən ərik ağacları, yerli qaysı ərik ağacları və cır ərik ağaclarından əkilmə bağdır. Sahəsi 4 hektar bərabər idi.

Ərik bağı üzüm sahələrinə yaxın olduğu üçün, tarlada işləyənlər günorta naharını ərik ağacların kölgəsində yeməklərini yeyir və dincəlirdilər.

Bundan başqa bayram günləri kənd cavanları bir yerə yığışaraq öz bayramlarını burada keçirməyə üstünlük verirdilər. Ərik ağaclarının kölgəsində kabab bişirib dostlar arasında təmiz havada yemək və dincəlmək ləzzət verərdi.

FƏRƏCANLI DƏRƏSİ

Fərəcanlı dərəsi – kənd Mədəniyyət evinin yanından qərbə tərəf gedən yolla, Dəli çayı keçib, Kolxoz tövləsinin yanı ilə, Abbas kişinin evindən yuxarıdakı geniş bir ərazidə iki təpəliyin arasında yerləşir. Qabaqlar burada kolxozun taxılı vəl ilə döyən xırmanı var idi. Sonralar kombaynlar çıxandan sonra burda taxıl anbarları, traktor və kombaynların qarajı fəaliyyət göstərirdi..Fərəcanlı dərəsi bu yerdə yaşamış Fərəc kişinin adı ilə bağlıdır. Fərəc kişi kəndimizdə Sovet sədri işləmiş və eyni zamanda Azərbaycan SSR-in Ali Sovetin deputatı - Fərəcov Cəlil Allahverdi oğlunun babasıdır. Fərəcanlı dərəsinin ətrafında yaşayış evləri var idi.

GÖLBAĞ DƏRƏSİ

Gölbağ dərəsi – İlxı dərəsi ilə Ağıl dərəsi arasında Gölbağın ətrafında qeydə alınan oroqrafik obyektdir. *"göl"* oronimi hidronimik apelyativindən, *"bağ"* isə oroqrafik obyekdir. *"dərə"* mənfi relyef forması bildirən, ifadə şəkilçidən ibarətdir. Toponim *"dərədə olan gölbağ"* anlamındadır.

Gölbağ dərəsi Cəbrayıl rayonunun Nüzgar kəndin sərhəddinə qədər olan dəmyə əkin sahəsidir. Sahəsi 120 hektardır və çox münbit torpağı var. Bu sahələr ancaq yağış suyu ilə məhsul verərdi.

GÖTÜRGƏ

Götürgə - Bakı-Zəngilan və Füzulı üç yolayrıçının cənub tərəfində, sərhəddi – Qozlu çay, Araz arxı, Dərəağzı kababxanası və şosse yolu arasında yerləşən əraziyə deyilir.

Götürgə sözü "götürgəl" sözündən əmələ gəlmədir və bunu

bizlərdən əvvəl yaşamış babalarımız hansı səbəbdən və hansı şəraitdən belə adlandırmışlar bizlərə məlum deyil.

Bu ərazidə 1980-ci illərə qədər iki qanadlı təyyarənin enməsi üçün aerodrom kimi istifadə edilirdi. Bizim kolxozun həm də, ətraf kəndlərin pambıq sahələrinə ziyanvericilərə qarşı dərman səpərdi, Həmçinin pambığı maşınla yığına başlamazdan əvvəl pambıq yarpaqlarını budağından tökmək üçün xüsusi tozlu dərman səpilərdi.

Təyyarə meydançasından şosse yoluna kimi üzüm əkilərdi.

Burada Qozlu çayla Araz arxı kəsişən yerin şərqində - ot tayaları və kənd zəhmətkeşlərin günorta istisində dincəlməsi üçün talvar, fin evi də var idi.

GƏRVİŞLİ BAĞ

Gərvişli bağ – Horadiz kənd kolxoz bağında, Qozlu çay ətrafı salınmış bağlardan ibarətdir. Bu oroqrafik obyekt həmin yerdə çoxlu əkilmiş Gərviş ağacları olduğuna görə belə adlanır.

Gərviş sözü fars dilində "Gər" – ağac, "viş" – barsız, yabanı, yəni "barsız ağac" mənasında işlədilir.

Gərviş ağacı – zeytun kimilər fəsiləsindəndir, meyvəsiz cinsinə aiddir, qışda yarpaqları tökülür. Onun adına bəzi rayonlarda "dişbudaq" da deyirlər. Bu ağaclar təbii bitməmişdir, o gətirmədir, özüdə qələmdən bitir və söyüd ağacı kimidir.

Gərviş ağacının spesifik iyi olduğundan, üzüm tənəkləri bu ağacda yaxşı inkişaf edir və bol məhsul verir. Ona görə üzümə ziyan verən cücülər yaxın gələ bilmir. Bundan başqa gərviş ağaclarının budaqları düz və hamar, həm də möhkəm olduğuna görə, ondan kənd təsərrüfatı alətləri üçün dəstək düzəldirlər. Dəstəyi düzəltmək üçün onun düz körpə budağın qabığını soyurlar, sonra qurutmaq üçün açıq odda yandırırlar. Bir müddət dəstək işləyəndən sonra o qədər hamar olur ki, elə bil texniki cilalamısan.

Horadiz kəndində bütün həyətyanı bağlarda bu gərviş ağaclara üzüm tənəkləri qaldırardılar. Yarpaqları yam-yaşıl, eyni zamanda sərinləşdirici ağacdır.

HİBRİD TUT BAĞLARI

Hibrid tut bağları – Bakı – Zəngilan magistral yolunun sağ və sol tərəfində, Dərə ağzından Cəbrayıl rayon sərhəddinə qədər ərazidədir.

Bu bağ 1970-ci ildə Horadiz kənd kolxoz sədri Hüseyn Talıbovun şəxsı təşəbbüsü və birbaşa iştirakı ilə salınıb və ipəkçiliyi inkişaf etdirmək məqsədilə iri yarpaqlı meyvəsiz tut ağaclarından (hibrid növündən) olan bağ indi də xatırlanır və sahəsi 10 hektardır.

Bundan başqa H.Talıbov kolxoz bağında tamamilə məhv olmaq üzrə olan sahədə də tut ağacı (hibrid növü) əkdirmişdir. Bax bu xeyirxah işinə görə hamı ona öz minnətdarlığını bildirirdi.

HÜNGÜTLÜ DƏRƏSİ

Hüngütlü dərəsi – Hüngütlü kəndinin şərqində, kəndin üstündəki təpəliklərin arxasında, Horadiz – Füzuli şosse yoluna qədər olan dəmyə əkin sahəsi adlanır.

Hüngütlü dərəsinin dəmyə taxıl əkin sahəsi – 150 hektardır.

XIRMAN DƏRƏSİ

Hüngütlü kəndindən şimal istiqamətində, Abdulkərim dərəsi ilə Çinar dərəsi arasındakı yerləşən dərə - xırman dərəsi adlanır.

Xırman dərəsinin yanındakı üzüm sahələrinin yerində əvvəllər, yəni 1980-cı ilə qədər taxıl əkin sahələri olub və ona görə burada yetişən taxıl zəmilərdəki buğdanı yığaraq bu xırmanda öküz və ya atlara vəl qoşaraq onu döyüb, sovurub təmiz məhsul alarmışlar.

Elə buna görə də bu dərəyə, "Xırman dərəsi" adı verilmişdir.

İLXI DƏRƏSİ VƏ ATLARI

İlxı dərəsi – Horadiz kəndindən şimal-qərbdə, Bayalı dərəsi ilə Gölbağ dərəsi arasında qeydə alınan obyekdir. İlxı dərəsində Horadiz kəndinin 45 hektar dəmyə əkin sahəsi vardır. Deyilənə görə burada əvvəllər atlar (ilxılar) saxlayarmışlar, ona görə də bu dərə "İlxı dərəsi" ad-landırılmışdır. İlxı dərəsi kənddən 1 km məsafədədir. Həmişə bizim kənddə ilxı atlar saxlanılardı və bu yerlərdə otarılardı. Kolxozun ilxı fermasının müdiri əvvəllər Xuduş Məhərrəmov, Şuriya Məmmədov, 1960-cı ildən isə Əmir Namaz-

alıyev olmuşdur. Hərif Ağayev at ilxıları otarardı və axşamlar isə kolxozun mədəni tövləsinin cənub ərazisində xüsusi atlar üçün düzəldilmiş ağılda saxlayardılar. Bundan əlavə kolxozun tövləsində xüsusi minik və cıdır üçün 20-yə qədər atlar bəslənilirdi. Bu tövlənin müdiri Cəmil Nəcəfov və sonralar Mirzalı Namazalıyev olmuşdu.

Yadımdadır cıdır yarışları zamanı 1954-cü ildə Füzuli və ətraf rayonlardan 12 yarış atları hazır vəziyyətdə cıdır xəttinin üzərində durmuşdular. Onlardan 3 at bizim Horadiz kəndimizin şərəfini qoruyurdu. Birinci "Boz at"-da Cəmil Nəcəfov, ikinci "Kəhər" atda Mikayıl Məmişov və üçüncü "Səmənd" atda isə Həsən Hüseynov yarışacaqdılar. Bunların içərisində xüsusi yarış atları da var idi. 1952-ci ildə 17 min manata Rusiyadan alınmış "Boz at"-la Cəmil Nəcəfov, 12 min manata alınmış "Kəhər" ata Mikayıl Məmişov və yerli Qarabağ cinsi olan "Səmənd" ata isə Həsən (Həsənçə) Hüseynov xüsusi xidmət göstərərdilər və mehdərlik edərdilər.



Cəmil Nəcəfov Boz atı ilə

İndiki Çaxır zavodunun yerində at yarışı keçirilirdi. "Start" siqnalı verildikdə bütün atlar qaçmağa başladılar. Cəmilin "Bozat"-ı iki ayağı üstə qalxdı və sonra Cəmil atın başını buraxdı. "Bozat" qırğı kimi irəli cumaraq o biri atları yarı yolda keçdi. Cıdırın o biri başında iri bir ağac və üstündə bayraq basdırmışdılar ki, atlar oradan geriqayıtmalı idi. "Bozat" dönməyib düz getdi. O biri atlar gedib geri qayıdandan sonra Cəmil "Bozat"-ın başını döndərə bildi və yenədə birinci

yeri "Bozat"-la Cəmil Nəcəfov, ikinci yeri "Kəhər" atla Mikayıl Məmişov və üçüncü yeri isə "Səmənd" atla Həsən Hüseynov tutdular. Sonra Cəmil Nəcəfov "Bozat"-ı çapa-çapa atın qarnı altından fırlanıb, yenə atın yəhərində ayaq üstə çapırdı, yenə atın belinə oturdu və at qaça-qaça əyilib yerdən papağını götürdü və demək olar ki, əsl sirkdəki janqlyor kimi atın boyun hissədən fırlanıb

atın üstünə qalxır, gah atın lap arxa hissəsində ayaq üstə duraraq tamaşaçılara əyləncə proqramları göstərirdi. Tamaşaçılar da onu çox sürəkli alqışlarla qarşıladılar. Hər üç prizi bizim kəndə qismət oldu.

Çox təəssüflər olsun ki, texnika inkişaf etdikdən sonra kənddə avtomobillər çoxaldı və atlara ehtiyac olmadığından 1965-ci ildə kolxoz sədri Suruş Fərhadovanın sərəncamı ilə 100-dən çox atları ət hazırlığına verilərək kolxozda atların kökü kəsildi.

İMAM DƏRƏSİ

İmam dərəsi – Horadiz kəndindən 2 km aşağıda, İmam Pirindən cənub-qərbdə qeydə alınmış oroqrafik obyektlərdən biridir. Bu dərənin "İmam dərəsi" adlanması, İmam Pirinin yaxınlığında olması ilə bağlıdır. Oronimin tərkibindəki *"dərə"* mənfi relyef forması bildirən coğrafi termindir, *"si"* şəkilçisi mənsubluq ifadə edir.

Horadiz kəndin dəmyə əkin sahəsidir. Bu dərədə kəndin 80 hektar əkin sahəsi vardı. Torpağı olduqca münbit və məhsuldardır.

İMAM BAĞI

İmam bağı – Horadiz kəndindən 2 km aşağıda yerləşən İmam Pirinin olduğu təpənin yaxınlığında salınmış bağa deyilir. Bu bağ İmam bulağının suyu ilə suvarılır. İmam bağında meyvələr və əsasən də üzümlüklərdən ibarətdir.



Bura ilə bağlı rəvayətlərdə danışırlar: - Kənd ağsaqqalı Əbilhəsən Allacov deyirdi ki, "İş yoldaşım Sərdar Qurbanovla, gecə vaxtı İmam bağından üzüm yığaraq, torbalarımıza doldurub evə qayıtmaq istədikdə, İmam Piri altındakı yolda "Ağ atlı" bir kişi qarşımıza çıxdı və hər ikimiz qorxub qaçdıq. Sonra yenə yola çıxanda heç kimi görmədik".

Deyilənə görə, İmam Pirinin yanında belə "Ağ atlı" kişini dəfələrlə görən olubdur. Bir də deyirlər ki, bu "Ağ atlı" kişi İmam Rzanın ruhudur və o hər zaman İmam Pirində uyuyan öz nəvəsinin keşiyini çəkir.

İMAM YALI

İmam yalı – Horadiz kəndindən 2 km cənubda və kolxoz bağının qərb tərəfində hündür təpənin yalında olan "İmam Piri"-nin olduğu yerə deyilir.

Horadiz kəndindən İmam Pirinə gedən torpaq yolu 1990-cı ildə daş və çınqıl döşəyərək abadlaşdırıb, hər cür hava şəraitində istifadə etmək üçün ziyarətə gedənlərin rahatlığını təmin edilib. Bu yol İmam Pirinin başına dairəvi yol çəkilib ki, bura ziyarətə gələnlər üç dəfə avtomobillə dövrə vuraraq pirin başına dolansınlar. Kəndimizdə yeni ailə quran cavan bəy-gəlinlər toy günü qız evindən gəlini gətirən avtomobil karvanı bu yolla gələrək üç dəfə İmam Pirinin başına dövrə vuraraq ziyarət edilir, sonra nəzirləri verib, Pirə daxil olub İmam Rzanın qız nəvəsinin qəbrini ziyarət edərdilər. Kəndimizdə belə adətli ziyarətlər bir ənənə halına çevrilmişdi.

Toponimin tərkibindəki *"yal"* sözü coğrafı termini müsbət relyef forması bildirir. Yal – *"dağın ən hündür hissəsinin yamacı"* anlamındadır. Bu yal ilə bağlı xatirələrini söyləyən Əsəd Əmrah oğlu deyirdi: "Mən və Seyid Şuşinski tez-tez kənd bağındakı İmam yalına gedib orda oynayır və mahnı oxuyardıq. Günlərin birində Seyid İmam yalında elə uca və gözəl avazla oxudu ki, bu səsi yaxınlıqdan keçərkən eşidən Qaçaq Süleyman öz atlı dəstələrilə gəlib onun oxumasına qulaq asıb feyziyab oldular. Xeyli fikrə gedəndən sonra Qaçaq Süleyman cibindən bir qızıl onluq çıxarıb Seyidə verib dedi;

"Çox gözəl səsin var, sən bu səsini qoru, vaxt gələr sənin başına pul yox, daş-qaş tökərlər".

Seyid Şuşinski bu sözləri qocalana qədər yaddan çıxarmırdı və xoş xatirələr kimi, həmişə yad edərdi.

IMAM SIRA TƏPƏLİKLƏRI

İmam sira təpəlikləri – İmam Pirindən başlayan, Qozlu çay boyunca uzanan adsız təpəliklərin "Qonaqgörməz"-ə qədər olan hissəyə deyilir. Imam sıra təpəliklərin ətəyində "Ouzey qoyun yatağı" və kənd kəhrizlərinin suyunu "Kolxoz bağı"-ndan aşağıda olan tərəvəz-bostana, həm də Dəyirman boynuna çatdıran "Dik arx" var idi.

KARDAŞ SIRA TƏPƏLIKLƏRİ

Kardaş sıra təpəlikləri – Kolxoz bağından aşağı başlayan adsız təpəliklər, "Kardaş"-da daxil olmaqla, Horadiz kədindən Horadiz şəhərinə gedən şosse yolun sol tərəfində olan və "Dərə ağzı"-na qədər yerləşən təpəliklərdir. Kardaş sıra təpəliklərin baş ətəyində Zülfiqarın "Bulaq" kababxanası, sonra Güney yatağı, Kərpic sexi, tikilməkdə olan yeni mal tövləsi, "Kardaş" , Maşın-Traktor qarajı olan və "Dərə ağzı"-na qədər uzanan təpəlikdir.

KARDAŞ

Kardaş – Horadiz kəndindən 3,5 km cənubda, Füzuli – Horadiz şosse yolunun şərqində və yolun 100 metr aralı təpənin üstündə qeydə alınan oroqrafik coğrafi obyektlərdən biri belə adlanır, Oronim *"kar"* və *"daş"* sözlərindən ibarət olub və həqiqətən də həmin daşa toxunanda səs-səda vermir, nəticədə cingiltisiz, alçaq, kar səs alınır. Elə bu səbəbdən də yerli sakinlər bu daşa *"Kardaş"* deyirlər.

Babalarımızdan belə rəvayət eşitmişik ki, bir kişinin üç oğlu və bir qızı olur, Günlərin bir günündə bu qızı oğurlayıb qaçırırlar. Atası, qardaşlarını bir yerə yığıb qəti tapşırıq verib deyir: "Gedin harda olursa olsun bacınızı tapıb gətirin, çünki bacınız sizin namus və qeyrətinizdir. Onu tapmadan geri qayıtmayın!"

Üç qardaş yaraqlanıb, səfərə azuqə götürüb və yola düşürlər.

Xeyli vaxt qonşu kəndləri gəzib dolaşırlar, ancaq bacıların gördüm deyən olmadı. Yenə yaxın əyalətləri gəzsələr də bacıların heç bir yerdə tapa bilmirlər və axırda azuqələri tükəndiyindən, həm də xərclik pulları qurtardığından, məcburiyyət qarşısında qalaraq evə dönürlər.

Kəndə yaxınlaşanda həmən bu təpənin üstündə qardaşlar dayanır və evə atalarının yanına əli boş qayıtdıqlarından qorxaraq üçü də diz üstə çöküb, Allaha əllərini qaldırıb yalvarırlar ki, bacımızın tapa bilmədik bizi bu xətadan qurtar, atamızın hüzuruna əli boş qayıda bilmərik, ona görə bizi quru daşa döndər. Elə də olur, Üç qardaşlar, üç daşa dönərək əfsanəyə çevrilmişlər.



Sağdakı təpəlik Kardaşdır. Horadizə gedən şosse yolu

Horadiz kənd ərazisində olan və üzüquylu yatmış üç adama bənzər bu "Kardaş" haqqında Füzuli şairi Oruc Səda belə bir gözəl şer də qoşmuşdur:

1.Bu daş üzüquyludur,
Yarı torpağa batıb.
Bu daş sirri özündə,
Bu daş, daş kimi yatıb.
***
2. Bu daş üzüquyludur,
Yerdən bərk-bərk yapışıb.
Elə bil milyon ildir,
Həsrətlilər tapışıb.
***
4.Bu daş deyir: Siz mənə
Kar deməyin, ayıbdır.
Mənə kardaş deyənə,
Qulağından mayıfdır.
***
5. Bu daş deyir: Sanmayın,
Nabələdik, naşıyıq.
Bir gözəl bacımızın,
Günahının daşıyıq.
***

3. Daşın lal harayından
Qulaq batar, dinləsə.
Daşın daş kimliyindən,
Sənə çatar dinləsən.

***

6. Bu daş deyir: Dik durub,
Sirli aham amanam.
Bizi heyrət dondurub,
Daşa dönmüş zamanam.

***

7. Bu daş, üzüquyludur,
Dərdini xuda bilər.
Daşı daş yuxusundadır,
Tanrı oyada bilər...

***

KOLXOZ BAĞI

Kolxoz bağı – Horadiz kəndinin cənubunda, Qozlu çayın hər iki tərəfində, güney və quzey təpəliklərin arasında, İmam Pirinə qədər olan sahədə yerləşən bağ massividir.

Yerli əhali tarixən digər kənd təsərrüfatı sahələri ilə yanaşı, bağçılıq və baramaçılıqla da məşğul olmuşdur. Burada bəslənən ipəkqurdu üçün tut bağları salmaq lazım gəlirdi. Salınan bağlar onun sahibi olan sakinlərinin adı ilə adlandırılırdı. Bu bağı 1930-cu illər sahiblərindən alınaraq kolxozun mülkiyyətinə verildiyi üçün "kolxoz bağı" adlanırdı. Cavan tut ağaclarına kəndimizdə bəzən çəkillik də deyirlər. Əkilən tut ağacların meyvəsi yabanı şirəli çəyirdəkdir ki, uzunluğu 3-4 sm, rəngi əsasən ağ, çəhrayı və qaradır. Yeyilir, qurudulur, spirt alınır; doşab (bəhməz), mürəbbə, irçal (cem), şirə və s. hazırlanır. Tut yarpaqları isə ipəkqurdunun yemidir.

Kəndimizin aşağı hissəsində ata-babalarımızın əkib becərdiyi 200 hektara yaxın bağ sahəsini Sovet rejimi dövründə "kolxoz bağı" adlandırmışlar. Kolxoz sözün tərkibində olan *"kol"*- kollektiv və *"xoz"*sözü isə *"xozyaystva"*- təsərrüfat deməkdir.

Bu salınmış gözəl bağ, ayrı-ayrı hissələrdən ibarətdir. Kənd sakinlərin şəxsi mülkiyyətidir bu yerlər. Hər kəs öz babasının əkib-becərdiyi bağı tanıyırdı. Təəssüf ki, Sovet imperiyası dövründə bu bağlar alınıb ümumi mülkiyyətə verildi.

Kolxoz bağında əsasən barama qurdu bəsləmək üçün calaq tut ağacları və üzümlükləri geniş yer tutur.

Çoxlu gərviş ağacları, çinar, qoz, dağdağan, iydə, əzgil, zoğal, nar ağacları da vardır. Əvvəllər dediyim kimi gərviş ağaclarında üzüm tənəkləri yaxşı inkişaf edir və bol üzüm verirdi., həm də bu ağaclarda üzüm heç vaxt xəstəlik tutmurdu. Bu üzüm bağlarında: alagöz, ət üzümü, kalbalı, qəndmərəndi, qızılbaldır, keçiməməsi, təbrizi, qoduxboğan, ağ üzüm, qara üzüm, qaragilə, xort-xortu və sairə adlı üzümlər var idi. Bundan başqa bağda böyrütikan və gəndalaş kolları isə əsasən Qozlu çay boyu bitirdi.

Qabaqlar, yəni 1960-cı illərə qədər kolxoz bağı kənd kəhrizlərin suyu ilə suvarılırdısa, sonralar "artezian" su qurğuları vasitəsilə suvarılırdı.

Bağın aşağı hissəsəndə bostan-tərəvəz əkilərdi. Hər il buradakı bostan-tərəvəzdən yığılan qarpız, yemiş, soğan, pomidor və xiyar zəhmətkeşlərin əmək haqqına bölünərdi.

Kəndimizin baramaçıları bu bağdakı tut ağacların yarpaqları hesabına hər il dövlətə 8 tona qədər barama təhvil verirdilər.

KƏRBƏLA BABAŞ DƏRƏSİ

Kərbala Babaş dərəsi – Kəndin aşağı qərb hissəsində, Ağıl dərəsilə Fərəcanlı dərəsi arasında yerləşir. Bu dərədə əsasən Kazımlılar və Ağalılar məhəlləsi məskunlaşmışlar.

Kərbala Babaş dərəsində bulaqların çox olması, Kazımlılar məhəlləsi həmişə ağacların yaşıllığı göz oxşayırdı. Bu dərədə onlarla yaşayış evləri var idi. Burada Kazımovlar, Mehdiyevlər, Ağayevlər, Bəylərovlar, Həsənovlar, Mahmudovlar nəslin nümayəndələri yaşayırdılar.

QARATİKANLI TƏPƏ

Qaratikanlı təpə - Dördçinar kəndindən Dəyirman boynuna qədər olan uzun təpəlikdir. Bu təpəlikdə qaratikan kolları çox olduğundan bu təpəyə belə ad vermişlər. Bu dərənin qərb tərəfində, Dəli çay boyunca qabaqlar bostan əkilərdi, ancaq 1980-cı ildən sonralar yeni həyətyanı evlər tikilərək kənd adamları bura köçüb yaşayırdılar.

Bura gündöyən olduğundan çox məhsuldar olardı və yemiş,

qarpızın dadı ləzzəti bam-başqa idi.

QONAQGÖRMƏZ

Qonaqgörməz – Horadiz kəndindən cənubda, 4 km aşağıda, Lələ düzünə gedən yolun sağında və Dərə ağzındakı sağ təpəliklərin arxasında olan geniş ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri də bu çökəkliyə deyilir. Bu yeri ona görə ***qonaqgörməz*** adlandırmışlar ki, Dərə ağzındakı Bakı – Füzuli - Zəngilan yolayrıcından baxanda görünmədiyi üçün, yerli adamlar belə adlandırmışlar. Bu coğrafi adla bağlı bir çox hadisələr də vardır ki, düşmənin Araz çayından keçən qoşununu qarşılamaq üçün qonaqgörməzdə pusqu qurulurdu (Qozlu çay və körpüsü yazısına bax).

QUŞQONMAZ

Quşqonmaz – kənddən 2 km. cənub tərəfə, Savzatı dağın ətəyində bitən sərt tikanlı bitkilər olan yerə deyilir.

Quşqonmaz tikanların sıx olduğundan buralarda quşların xoşlamadığı və az göründüyü yerlərdir, ona görə bu ərazini dədə-babalarımız belə adlandırmışlır. Kənd ağsaqqallarının dediyinə görə, bu tikanlıqla keçən hər kəsin şalvarının ətək hissəsi və ayaqqabıları tikanın təsirindən didik-didik olurmuş.

QUŞOTURAN

Quşoturan – Horadiz kəndi ilə Yuxarı Abdürrəhmanlı kəndi arasında, Horadiz – Füzuli şosse yolunun sağ tərəfində hündür təpəlikdir. Burada çoxlu quşların oturması ilə əlaqədar, bu hündür təpəlik belə adladırılır.

Türk mənşəli olan *"Quşçu"* tayfasının adını bəlkə də özündə əks etdirir. Quşoturandan aşağı cənuba tərəf Horadiz kəndimizin Şorca dəmyə torpağımız var.

LALƏLİ DƏRƏ



Laləli dərə - Horadiz – Füzuli şosse yolun sağ tərəfində, Aslan dərəsilə Quşoturan arasında, Horadiz kəndinin Şorca dəmyə əkin sahəsində buğda zəmisindəki dərədir. Laləli dərə Şorca dəmyə əkin sahəsinin bir hissəsidir.

Burada hər yaz ayları çoxlu lalələr bitir ki, əkin sahəsi qırmızı rəngə boyanır. Ona görə də bu dərəyə "Laləli dərə" adlandırmışlar.

LƏLƏ DÜZÜ

Lələ düzü – Horadiz kəndinin üzüm sahəsi olub, Dərə ağzından sağa tərəf, Bakı – Zəngilan maqistral yol ilə Bakı – Naxçıvan dəmiryolu arasında yerləşir, həm də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sərhəddinə qədər olan ərazidir.

Aşıq Lələ bayatı ustası olmuşdur. Haqq aşığı olan Lələnin doğum və ölüm tarixi dəqiq bilinmir. Azərbaycanı qarış-qarış gəzən Lələ harda olubsa, orada özündən bir iz qoyub. Füzuli, Cəbrayıl, Qax, Zərdab, Lerik, Astara rayonlarından, İranın Qaradağlı və Ərdəbilə qədərdir bu izlər.

Lələ düzü – lap qədimdən Horadiz əkin sahəsi olub və bu yer üstündə Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndinin adamları ilə bizim kənd adamları arasında, 1952-ci ildə böyük mübahisə düşmüşdür. Bu

mübahisə sonralar əlbəyaxa davaşı 4 saat davam edib. Bu döyüşdə Rzalılar məhəlləsindən olan Əvəz İsmayılov qoçaq, igid kimi neçə-neçə rəqibləri, əlindəki zəncirlə yerə sərmişdi. Nəticədə hər iki tərəfdən yaralanlar olmuşdur. Bizim kəndin qadınlarının ortalığa baş örtüyü atmaları ilə davanı yatırmaq mümkün olmuşdur. Bununla da Lələ düzü torpaq məsələsinə son qoyulmuşdur. Həmin Lələ düzü Horadiz ərazisi olaraq qalmışdır.

Lələ düzündə əvvəllər pambıq əkilərdi, lakin 1980-cı ildən sonralar üzüm sahələri əkilərək becərilirdi. 1993-cü il 3 sentyabra işğalından sonra erməni təcavüzü zamanı boş səhraya çevrildi.

Füzulili şair Oruc Səda öz şerində yazır.

LƏLƏ DÜZÜ

Bu yol asan yol deyil,
Çox da ki, düzdən keçər.
Bu düz Lələ düzüdür,
Ox deyil düzdən keçir

***

Yolçu burda yol azası,
Yollar kəsmə-kəsmədi.
Burda bir söz hallanmış,
Düz əyrini kəsmədi

***

Bu düz düzdə qalıbdır,
Düz ünvanı belədi.
Bu düz seçməz, ayırmaz,
Nabələdi, bələdi.

***

Bir gün biz də yol azdıq,
Bu düz çox iri düzdür.
Bizi də burda fələk,
Oxuna diri düzdü!..

***

MƏDİNƏ YALI

Mədinə yalı – Hüngütlü kəndindən şimal-şərqdə, Seyrək dərənin üstündə qeydə alınan toponimlərdən biridir.

Bu dərə, kənddə yaşamış Mədinə qarının adı ilə bağlıdır. Belə söyləyirlər ki, Mədinə qarı XIX - əsrin sonlarında yaşamışdır. Deyilənlərə görə, Mədinə qarının əri bu dərədə vəfat edəndən sonra, Seyrək dərənin üstündəki bu yala tez-tez çıxıb, ərini yad edərək xeyli vaxt fikrə dalarmış. Ona görə də kənd adamları bura ***"Mədinə yalı"*** adı vermişlər.

Toponimin tərkibindəki yal coğrafi termini müsbət relyef förması bildirir. Yal – ***"dağın ən hündür yamacı"*** anlamındadır.

NAMAZALILAR YALI

Namazalılar yalı – Horadiz-Füzuli şosse yolunun 13 km-nin şərq tərəfində, Qönçə dərəsi ilə Calal dərəsi arasında olan ən hündür təpənin zirvəsinə deyilir. Bu yalın aşağı ətəyində yaşamış Namazalılar nəslindən Süleyman, Qəhrəman və Nəriman qardaşları, Surxay və Rüstəm Süleyman oğulları, Muxtar, Cavad, Qubad və Kərbəla İbad qardaşları, Kərbəla Məhəmməd, Məşədi Hüseyn və Məşədi Həsən qardaşları, onların övladları yaşadığına görə bu Namazalı yalı adlanır. Bu yala çıxdıqda bütün kənd əl içi kimi görünür. Biz uşaq vaxtı bu yaldan dağqozu və dombalan (yer alması) yığardıq.



Namazalılar yalı

Namazalılar yalının şərq hissəsində sarı torpaq yatağı vardı və o sarı torpaqdan yaxşı təndir qurmaq üçün istifadə edərdilər, həm də evlərin torpaq damı üstünə şirə çəkərdilər.

"RUS QƏBRİ"

Rus qəbri – Horadiz kəndində Şahverənlər yalının zirvəsində, Zaqun dərəsi və Hacı Novruz dərəsinin arasında XX əsrin əvvəllərində, yəni 1924-cü ildə İran qaçaqları dəstələrinə qarşı vuruşan rus və ukrayna millətindən olan 4 nəfər əsgərin qəbridir. Şahverən qardaşları tərəfindən dini qaydaya uyğun basdırılıb. Ona görə də kənd adamları bu məzarı – "Rus qəbri" adlandırmışlar.

Rus qəbri Horadiz kəndində ən hündür yerlərdən biridir. Bura hər vaxt çıxdıqda kəndimizin əsrarəngiz gözəlliyi göz oxşayır.

SAVZATI DAĞI

Savzatı dağı – Horadiz kəndi kolxoz bağının qurtaracağından təxminən 500 metr cənub-şərqə tərəf, Füzuli – Horadiz qəsəbəsi şosse yolunun şərqində, Güney yataqdan 300 metr cənub tərəfdə yerləşən təpəliklərin arasında qeydə alınan toponimdir.


Kənd ağsaqqalları deyərdilər ki, savzatı küləyi əsəndə adamı kəsir və yaxud da savzatı soğanı kimi adamı yandırır. Burada *"savzatı"* sözü *"acı"* və *"iti"* anlamını verir. Doğrudanda Savzatı dağının başı şüşdür. Elə bu səbəbdən bu dağa "Şiş dağ" adı deyənlərdə var. Ətrafda olan yastı təpəliklər, kənd heyvanları üçün otlaq sahələridir.

SEYRƏK DƏRƏ

Seyrək dərə - Hüngütlü kəndindən şimalda, Uzun dərənin yanında coğrafi obyektdir. Bu təpəlikıərin arasında dərələr az olduğuna görə bu dərəyə *"seyrək"* adı vermişlər. Dərə - mənfi relyef forması bildirən coğrafi termindir. Buradada *"dərə"* termini relyefin əsasən dar və çökək formasını ifadə edir.

Seyrək dərə dəmyə əkin sahəsinə aiddir.

SÜLEYMANIN CALAXLIĞI



Şəkili rəssam Kərim Calal oğlu çəkmişdir

Süleymanın calaxlığı – Horadiz kəndinin mərkəzində, Qozlu çayın üstündəki körpünün ətrafındakı iri yarpaqlı qara tut ağaclarının olduğu yerə deyilir.

Bu calaxlığa Süleyman kişinin adı verilməsi ona görədir ki, bu bağ birinci onun evinin yanındadır və ikinci bu tut bağı ona kolxoz tərəfdən verilib, bu bağın yarpaqlarından barama ipəkqurdlarını bəsləmək üçün istifadə edirdi.

Bu yerdə taxtadan düzəldilmiş qəssəbxana köşkündə həmişə kənd sakinlərinin kəsdikləri heyvan əti satardılar. Bundan başqa burada Yaşarın (Qarışıq mallar) maqazini, Amilin kababxanası, Qozlu çayin sağ tərəfində Sadayın çayxanası fəaliyyət göstərirdi.

ŞORCA DƏRƏSI

Şorca dərəsi – Horadiz kəndinin dəmyə əkin sahəsi olub, Füzuli şəhərinə gedən şosse yolun cənub-şərq tərəfində, Aslan dərəsindən Quşoturana qədər 300 hektar dəmyə taxıl əkin sahəsidir.

Şorca sözünün tərkibində olan *"şor"*-sözü şorlu yer deməkdir, *"ca"* isə onun şəkilçisidir, yəni *"az şorlu"* anlamını verir.

Yastı təpəliklərdə yerləşən münbit torpağı olan Şorca dərəsi dəmyə əkin sahəsində əsasən taxıl əkilirdi.

TAXTA KÖRPÜ

Taxta körpü – Babı novunun üstündə, Sızqa bulaqdan 10 metr aşağıda, Füzuli – Horadiz şosse yolunda tikilən körpüdür. Bu korpü əvvəllər taxtadan olduğu üçün belə adlanır. Sonralar 1960-cı illərdə körpü dəmir-betondan tikilsə də adı elə *"Taxta körpü"* qalmışdır.

1955-ci ildə bu körpüdən yükü böyük çaxır çəlləklərdən olan yük avtomobili qəzaya uğrayaraq aşmışdı. Bütün çəlləklər sınmışdı və içindəki çaxırlar büs-bütün yerə tökülmüşdü. Tökülən çaxır böyük bir sahəni qırmızı rəngə boyamışdı. Yadımdadır bu hadisəni eşidən kimi ora maraq üçün gələndə gördük ki, bəzi kənd adamları dizlərini yerə qoyub çala dolu çaxırdan ağzı ilə doyunca içmişdilər və hədsiz dərəcədə sərxoş olmuşdular.

TEŞNƏK DƏRƏSİ

Teşnək – Horadiz kəndinin şimal-qərbində olan dəmyə əkin sahəsində yerləşir. Həmin əkin sahəsinin başlanğıcında, Dəli çayın üst tərəfində "Teşnək bulağı" var.

Deyilənlərə görə, teşnək sözü qismən təhrifə uğramışdır; əslində söz *"teşnə"* şəklində yazılmalıdır. Teşnə sözü *"susamış, susuz", "bir şeyi çox istəyən"* və sairə anlamında işlədilir. Bulaq yerin altından qaynayıb çıxan su mənbəyidir. Teşnək əkin sahəsində işləyənlər üçün bu bulağın böyük əhəmiyyəti vardır.

Teşnək dəmyə əkin sahəsinin ümumi sahəsi 335 hektardır.

O cümlədən: Alı öküz dərəsi - - - - - - - - - -80 hektar;
Tutu kələyi yeri - - - - - - - - - 40 hektar;
Bəyalı dərəs- - - - - - - - - - - 170 hektar;
İlxı dərəsi -- - - - - - - - - - - 45 hektar.

Teşnək haqqında xatirələtimi sizlərə çatdırıram: - 1958-ci ilin payızı idi, mən balaca tırtıllı KDP-35 markalı traktorda traktorçu işləyirdim. O dövrləri instituta sənəd qəbulu üçün 2 il iş stajı olmalıydı. Mən də traktorda

işləyərək əmək stajı yığırdım. Mənim traktorda ortağım Allahverən Yusif oğlu işləyirdi. Onun öz traktoru DT-54-ü təmirdə idi. Biz onunla Teşnək əkin sahəsində, Tutu kələyi yerində şumlanmış torpağa mala çəkirdik ki, iri kəsəklər əzilib xırdalansın və yerin səthi də düzəlsin. Razılaşmaya görə səhərdən günortaya qədər mən, axşama qədər isə Allahverən işləyirdi. Bir gün Allahverən mənə dedi ki, axşama qədər sən işlə və mən axşam gələrəm səhərə qədər işlərəm, çünki uşağım xəstədir onu uşaq həkiminə - Füzuliyə aparacağam. Mən də razılaşdım. O vaxtı mənim 18 yaşım vardı. Bəli, mən işə səhər saat 8-dən başladım və axşama kimi işləsəm də Allahverən gəlmədi. Mən işimi dayandırmadan Allahverəni gözləyərək saat 23.30-a qədər işlədim və birdən traktor dayandı. Mən düşüb traktoru yoxlayanda məlum oldu ki, yanacağı qurtarıb. O vaxtları yanacağı Ədil Süleyman oğlu yük maşını ilə gətirərdi və elə sahədə traktora yanacaq doldurardı. Əlim heç bir yerə çatmadığından, traktorda bu qaranlıqda oturmalı oldum. Hər tərəfi qaranlıq bürümüşdü. Mən qorxudan çölə çıxmayıb, bir müddət traktorun kabinəsində oturdum. Bir az oturduqdan sonra qurd-quşdan qorxub, çıxıb kəndə tərəf yola düşdüm. Ordan kəndə 3 km olardı. Piyada gedərkən qarşıma çıxan hər bir qaratikan kolundan, hər daşdan qorxub üşənirdim. Xeyli gedəndən sonra, birdən qarşımda dik-dik dayanmış adama bənzər kölgələr gördüm. Mən bərk qorxdum və nə edəcəyimi bilmədim. Bir təhər qorxa-qorxa cürət edib bu qaraltıya yaxınlaşıb kibriti yandırdım və qorxudan qılçalarım əsə-əsə oturdum, demə mən səhvən bizim kənd qəbiristanlığına gəlib çıxmışam. Halbuki, mən gündüzlər qəbiristanlığın yanından keçəndə, qorxudan o tərəfə baxa bilmirdim. Mən gecənin qaranlığında qəbiristanlıqda nə qədər halsız qalmışamsa bilmirəm və mənim vahiməli səsimi, yaxınlıqda yaşayan Əmirxan Ələkbər oğlu Mahmudov eşidib və əlində fənər mənim yanıma gəldi, üzümə baxıb təəccüblə dedi: - Ərşad deyilsən? Burda nə gəzirsən? Mənim isə dilim qorxudan tutulub və mən cavab verməyəndə o, mənim əlimdən tutub evimizə gətirdi.

Atam - anam yatmamışdı və məni yatağa qoydular. Əmirxan kişi atama təfsilatı ilə hamısın danışıb və valideyinlərim də elə zənn ediblər ki, mən "gecəgəzən", yəni "lunatik" olmuşam. Bu hadisəni bilən atam və anam çox pərişan olublar. Düşünüblər ki, sabah açılan kimi məni həkimə göstərsinlər.

Səhər yuxudan ayılmamış qulaqlarıma ağlaşma səsi gəldi, qəflətən ayıldım və gördüm ki, anam Sürəyya, Nənəqız nənəm, Səkinə və Şöhlət xalalarım, qonşular durublar başımın üstə və hamısının gözü yaşlı. Mən: -

"Soruşdum nə olub, siz niyə ağlayırsınız?".

Elə bu anda anam boynumu qucaqlayıb: - Allaha şükür dilin açıldı. Hamısı sevincək olub atamı da çağırdılar və hadisəni olduğu kimi hamısına danışdım və atam gedib Allahverəni danlamışdı. Bu hadisədən sonra Allahverəni öz DT-54 traktoruna keçirdilər.

TƏK AĞAC

Tək ağac – Horadiz kəndinin şimal-qərbində, Dəli çayın sağ tərəfində, məktəbdən 500 metr yuxarıda və Mərcan bulağından aşağıda bitən yeganə ağacdır və buna görə də kənd adamları bu ağaca "Tək ağac" adlandırmışlar. Yayın istisində kənd naxırı bu ağacın kölgəsində gündən qorunur və dincəlirdi.

TƏK GƏR

Tək gər – ağacı Dördçinar kəndindən şimal tərəfə, Qozlu çayın sağ sahilində, kənd qəbirsanlığı ilə Dördçinar kəhrizi arasında tək-tənha bitən Çinar ağacıdır. Bu ağacın gövdəsi 4 metrdir. İri qol-budaqların altında 100-dən çox inək və qoyunlar günorta qızmar günəşin istisindən qorunaraq dincələrdilər.

TUTU KƏLƏYİ YERİ

Tutu kələyi yeri – Horadiz kəndindən şimal-qərbdə, Dəli çaydan qərbə tərəf, Teşnək əkin sahəsinin tərkib hissəsidir. Kənddən 3 km məsafədə yerləşir. Bu yerin 40 hektar əkin sahəsi vardı.

Bu adın yaranması haqda belə danışırlar ki, kəndimizin yuxarı başında Hüseyn adında bir kişi yaşayırmış. Onun da vur-tut bircə Tutu adlı qızı və 20-yə qədər qoyunu var imiş. Bir gün Tutu öz qoyunlarını otara-otara evdən xeyli uzaqlaşır. Qız günorta vaxtı öz çantasında olan yeməyi yeyir, bir az uzanıb dincəlir, yuxu tutur və yatır. Ayılanda görür ki, qoyunlardan əsər-əlamət belə yoxdur. Nə qədər axtarırsa qoyunları tapmır. O qədər gəzir ki, taqətdən düşür və kələyi kəsilir, düşünür ki, bu təpəni də aşım, əgər tapmasam axşam düşür qayıdım evə. Var cücünü toplayub bu təpəni da aşır və görür ki, qoyunlar bu dərədə otlayır. Sevincək qoyunları qabağına qatıb evə qayıdır. Bax o vaxtdan da bu dərə ulularımız tərəfindən ***"Tutu kələyi***

yeri" adı ilə adlandırılmışdır.

ÜZÜM SAHƏLƏRI

Üzüm sahələri – Horadiz kəndindən 6 km cənubda, Bakı – Naxçıvan dəmir yolu ilə Bakı – Zəngilan maqistral yolun arasında,

Horadiz qəsəbəsindən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd sahələrinə qədər 650 hektar olan geniş bir ərazidir.

Əvvəllər, bu yerlərdə həmişə pambıq əkib becərərdilər. Lakin 1979-80-cı illərdən isə bu sahələrə üzüm tingləri basdırıb, becərməyə başladılar. Üzüm tənəkləri uzandıqca, hər 4 metrdən bir, beton dirəklər basdıraraq, aralarına da məftil tellər çəkərək, üzüm tənəklərini bu tellərin üstünə çıxardılar.

İldən-ilə məhsuldarlıq artdığından hər il dövlətə min tonlarla üzüm yığıb verdilər. Pambıqçılıq dövründən qat-qat çox gəlirlər əldə edərək, kənd əməkçilərinin ildən-ilə yaşayış tərzi yüksəlirdi.

Horadiz kəndinin bu 650 hektar üzüm sahəsi əvvəllər 6 briqadaya verilmişdirsə, 1988-ci ildən 22 icarəçi arasında bölüşdürüldü.



Qabaqda görünən ərəl ağaclarının yanı su dəyirmanıdır. Sol tərəfdə təpəlik üstə görünən isə Qəşəmin sarayıdır.

Bundan başqa Dördçinar kəndindən şimala Musabəyli kəndinin sərhəddinə qədər 65 hektar taxıl əkin sahəsini də üzüm tingləri əkərək üzümlüyə çevirdilər. Bu sahə də 2 icarəçi arasında bölündü.

1992-ci il Qurban Namazalıyev adına kolxoz üzüm bağlarından 12.000 ton üzüm təhvil verərək dövlət planını 150% ödəyib 12 milyon manat gəlir götürmüşdü. Məlun erməni işğalından sonra, həmin bərəkətli torpaqlar zəbt edildi. Horadiz qəsəbəsi geri alınandan sonra, həmin üzüm sahələrimiz məhv edildi.

Əhmədalılar və Horadiz qəsəbəsində yaşayan adamlar özlərinin həyətyanı çəpərlərini, hasarlarını və həyətyanı döşəmələri bu beton dirəklərdən tikdilər.

2010-cı ilin 10 sentyabrda, doğma Horadiz kəndimizə gedə bilməsəm də, kəndimizin keçmiş üzüm sahələrini foto aparatla şəklini çəkdim ki, görənlər bilsinlər, indi hal-hazırda bizim sahələrdə alaq otlarından başqa, bir üzüm tənəyi, bir beton dirəyi qalmayıb. Bu əsl xəyanətdir, əsl düşmənçilikdir!..

UZUN DƏRƏ

Uzun dərə - Hüngütlü kəndində, Nəriman kişinin evinin arxasinda yerləşir. Adından da məlumdur ki, bu dərə o biri dərələrdən nisbətən uzun olduğuna görə, kənd adamları həmişə bu dərəyə ***"Uzun dərə"*** adı vermişdilər.

YELLİ GƏDİK

Yelli gədik – Horadiz kəndindən Dəli çay boyunca yuxarıda torpaq yolun bir sahəsidir. Enişli-yoxuşlu yerdə avtomobillər gedərkən, yol yellənir və maşınları sılkələyir, həm də bu yerdə küləklər olduğuna görə də bu yerə *"Yelli gədik"* deyirlər. Teşnək əkin sahəmizin yuxarısında, Cəbrayıl rayon sərhəddinin yaxınlığında yerləşir. Yelli gədik topönimi *"yel"* və *"gədik"* (dağ beli, aşırım) sözlərindən əmələ gəlib. *"Gədik"* sözü *"dağ belində batıq", "dağ arası yol"* mənasındadır. Türk dilində *"dağ keçidi", "aşırım"* mənasında işlədilir.

YOVŞANLI DƏRƏ

Yovşanlı dərə - Horadiz qəbiristanlığının cənubunda İmam Piri tərəfə gedən yolun solunda və kolxoz bağının sağında olan bir sahədir.

Bu dərədə yovşan bitkilərinin həddən artıq çox olması ilə əlaqədar kənd adamları bu dərəyə *"Yovşanlı dərə"* adı vermişlər

GƏVİLLİ DƏRƏ

Gəvilli dərə - kənddən qərbə tərəf olan, Cəbrayıl rayonunun, Nüzgar kəndinə gedən yolun şimal tərəfində olan otlaq dərələrdən birinə deyilir. Burada doğrudanda çoxlu gəvil bitgiləri olan dərədən biridir. Gəvil bitkisi eynilə qarpız bitgisinə cox oxşayır, tağı qarpızın tağı kimi torpağın üzərinə yayılır, amma meyvəsi ondan kiçikdir. Yetişəndə onun qarpıza oxşar meyvəsi toyuq yumurtası boyda olur. Qarpızı öz-özünə çatlayıb açılır və içərisi qip-qırmızı olur, həm də qarpızın çiyirdəyi kimidir. Onun meyvəsini heyvanlar yeyirlər. Gəvilin tağından isə təndirdə çörək bişiriləndə odun kimi istifadə edilir.

HORADİZ XALÇALARI

“BUYNUZ” XALÇASI



Qarabağ qrupuna daxil olan XVIII əsrdə Horadiz kəndində əl ilə toxunan bu “Buynuz”xalçası hazırda Gəncə şəhərinin Şah Abbas məscidində saxlanılır.

"Buynuz" xalçası haqqında məlumatı – Məhəmməd Əhməd oğlu Məhərrəmovun təşəbbüsü ilə onun şəxsi kitabxanasındakı xalçaçı rəssam Lətif Kərimovun "Azərbaycan xalçaları" "Gənclik" nəşriyyatında 1983-cü ildə buraxılmış kitabın 170-dən, 174-cü səhifəsindən köçürmüşəm.

"Buynuz" adı almış xalçaları "Qarabağ" növünə aiddir. Bu xalçalar Qarabağın, Şuşa qəzasının Horadiz kəndində xalçaçıların məhsuludur. Bəzi yaşlı xalçaçılıq işlərilə məşğul olan ustaları Qarabağ xalçası "Buynuz"-u keçmişdə "Horadiz" adı altında da tanınıb.



Horadizdə adı məlum olmayan şəxs tərəfindən əl ilə toxunan 2-ci "Buynuz" tipli xalça Gəncə Şah Abbas məscidində

"Buynuz" xalçaları Qarabağın ən yaxşı xalça kateqoriyasına daxil edilir. Hər kvadrat metrdə 90.000-dən 150.000-ə qədər ilmələrin sıxlığı yerləşir.

Horadiz kəndində əksər evlərdə hana qurulardı və xalçaçılar gəbə, palaz, kilim, cecim, fərməş, çuval, xurcun, heybə və sairə də toxuyardılar.



Nənəqız Abbas qızı Namazalıyevanın 1950-ci ildə əl ilə toxuduğu xalça

Qədim zamanlardan məlumdur ki, Qrta Asiyada, Yaxın Şərqdə və Azərbaycanda buynuzlu heyvanlardan – öküz, qoç, keçi və başqalarını – müqəddəs heyvan hesab edirdilər. "Qoç"- sözündən əmələ gələn "qoçaq" və "qoçu" türk dilli xalqların və o cümlədən azərbaycanlılar buynuzlu qoçu kişilik, güclü, dalaşqan rəmzi kimi qəbul edilir. Türk xalqların xalçalarında, rəsmlərində, daş və ağac üzərində buynuzların həkk olunması tez-tez rast gəlinir. Müsəlmanların "Qurban bayramı" zamanı müqəddəs buynuzlu heyvanı kəsərək Allah yolunda qurban verirlər. Azərbaycanda bəzi rayonlarda hələ indi də həyət qapısı və darvazaların üstündə kişilik, mərdlik, qoçaqlıq rəmzi kimi buynuzlu heyvanın kəlləsi asılır.



Gülzar Rza qızı İsmayılovanın 1955-ci ildə əl ilə toxuduğu xalça

Horadiz kəndində toxunmuş xalçalar











MƏCBURİ KÖÇKÜNLÜK HƏYATI



.QARABAĞ DÜYÜNÜ

Qarabağın söz-söhbətini hələ bu hadisələrdən xeyli əvvəl hazırlıq görülmüşdür. Əvvələr reqionlarda milli qarşıdurma yaratmaqla əhalinin diqqətini başqa vacib məsələlərdən yayındırmağa çalışırdılar.

Heydər Əliyevin Moskvada yüksək vəzifədən 1987-ci il uzaqlaşdırılması ermənilərin əl-qolunu açdı. Qatı millətçi, Azərbaycan xalqının düşməni Zori Balayan saxtakarlıqla dolu olan "Ocaq" adlı kitabında yazdığı sayıqlamalarında Azərbaycan xalqına olmazın böhtanını atdı.

1987-ci ildə Sovet İttifaqı Kommunist partiyasının Baş katibi, SSRİ Ali Sovetin sədri – Mixail Sergeyeviç Qorbaçovun ən yaxın əlaltısı Aqambekyan Parisdə "Humanite" qəzetində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədə uyğun olması barədə iftiraçı bəyanatı verdi. Şovinist xəstəliyinə tutulmuş ermənilər,

xaricdəki havadarları və Rusiyadakı ağaları tərəfindən dəstək alır və müdafiə olunurdular, həm də bütün vasitələrlə azərbaycanlıların simasında vəhşi obrazı yaratmağa çalışırdılar.

Bütün bunlardan sonra, Ermənistanda dövlət səviyyəsində azərbaycanlıları dədə-baba torpağından qovmaq üçün silahlı dəstələr təşkil edirdilər.

1988-ci ilin yanvarında Qafan və Meqri rayonlarından ilk qaçqın axını Azərbaycana daxil oldu. Həmin il fevralın 8-də Xankəndində DQMV-nin Ermənistana verilməsi üçün imza toplandı. Fevralın 12-də Xankəndində mitinqlər başlandı. Əslində bu hadisələrin ssenarisi çoxdan hazırlanmışdı.

1988-ci il fevralın 21-də DQMV Xalq Deputatları Sovetinin sessiyası vilayəti Ermənistana vermək haqqında qeyri-qanunu qərar qəbul etdi. Yerevan və Xankəndində mitinqlər başlandı.

Bütün Qarabağın azərbaycanlı əhalisi ermənilərin özbaşınalığına qarşı ayağa qalxdı. Lakin Moskvanın tapşırığını "sədaqətlə" icra edən Azərbaycan rəhbərliyi bunun qarşısını aldı. Ermənilər isə əksinə, öz vəhşilıklərini daha da sürətlə davam etdirdilər.

1988-ci il fevralın 24-də Əsgəran rayonunda iki azərbaycanlının qətlini ört-basdır etmək üçün həmin il fevralın 28-də Azərbaycanda sabitliyi pozmaq və etnik düşmənçilik ehtirasını gücləndirmək məqsədilə xüsusi hazırlanmış təlimatçı, təxribatçı Eduard Qriqoryan adlı bir erməni Sumqayıt hadisələrində 5 ermənini şəxsən özü öldürmüşdü və 8 erməni qızını zorlamışdı. Sumqayıt şəhərinə Ermənistandan öyrədilmiş bir qrup dəstə gəlir. Başda E. Qriqoryan olmaqla onları ermənilərə qarşı amansız olmağa, onlarla haqq-hesab çəkməyə təhrik edir və eyni zamanda erməni millətini Sumqayıtdan çıxıb getməyə məcbur edirdilər.

Bax elə buna görə Sumqayıt şəhərin erməni sakinləri, yanvar və fevral aylarında banklardan maniəsiz əmanət pullarını tez bir zamanda onlara verilməsinə nail oldular.

1988-ci il fevralın 28-29-u günü Sumqayıt şəhərində çox böyük iğtişaşlar törətdildi. Həmən günü iğtişaşı yatırmaq üçün şəhərə hərbi qüvvələr yeridilmiş, lakin qızışmış kütlələr küçələrdə hərc-mərclik yaradaraq, maşınları, maqazinləri yandırır, dağıdır, xüsusən erməni

millətindən olan sakinlərin evlərinə hücum edərək onları qovub evdən çıxarır, bəzılərini öldürürdülər. Deyilənlərə görə Eçmiadzin kilsəsinin Yerevandakı hesabına aylıq üzvülük haqqı ödəməyən ermənilərdən 26 erməni ölümə məhkum edilmişdi.

Bütün bu hadisələr əvvəlcədən hazırlanmış ssenari əsasında təşkil edilmişdi. Bunu deməyə sübut var ki, səhərisi bu hadisələr videoya çəkilərək, bütün Avropa ölkələrində yayılmışdır və iddia etdilər ki, baxın azərbaycanlılar biz "yazıq ermənilər" ölkədən qovurlar, öldürürlər, işgəncə verirlər.

Sumqayıt faciəsini düşünərək törətdilər ona görə ki, Ermənistanda qalan azərbaycanlıları tamam ordan çıxarılmasına əllərində əsas səbəb kimi tutaraq öz mənfur niyyətlərini həyata keçirirdilər.

Bu hadisədən sonra həqiqətən də azərbaycanlıları kütləvi surətdə, axır nəfərə kimi, Ermənistandan Sumqayıt hadisələrini bəhanə gətirərək, qovulmalarına təkan verildi.

Bundan sonra ermənilərin azərbaycanlılara qarşı vəhşilikləri geniş vüsət aldı. Spitakda 1-dən 14 yaşa qədər 70 nəfər uşağı böyük borunun içinə yığaraq, hər iki tərəfdən ağzını qaynaq etməklə, diri-diri ölümə məhkum etdilər.

1988-ci il dekabrın 11-də Azərbaycandan Ermənistandakı zəlzələ zonasında zərər çəkənlərə kömək etməyə gedən "İl-76" təyyarəmizi qəsdən vurdular. Təyyarədə xeyli miqdarda ərzaq, tibbi dərmanlar, çadır, yataq avadanlığı ilə birlikdə 76 nəfər həlak oldu. Onlardan yalnız bir nəfər Şabran (Dəvəçi) rayon sakini sağ qaldı.

Bütün bu vəhşiliklərə baxmayaraq Sovet rəhbərliyi başda M.S. Qorbaçov olmaqla heç bir tədbir görmədilər. Əvəzində gizli qərarla azərbaycanlılardan quş tüfənglərini yığdılar, əksinə ermənilərə silahlandırırdılar.

Sov.İKP MK SSRİ Nazirlər Sovetinin 1988-95-ci illərdəki qərarına razılıq verdi. "Azərbaycan SSR-nin DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" qərar qəbul etdi. Əslində bu qərar Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün ilk addım idi.

Halbuki, DQMV-nin sosial-iqtisadi vəziyyəti Azərbaycanda, Ermənistanda və ümumiyyətlə, keçmiş Sovetlər birliyinin bütün digər reqionlarından yüksək idi.

1988-ci ilin iyununda Ermənistan SSR Ali Soveti DQMV xalq deputatları sovetinin Ermənistana birləşmək haqqında qərarına razılıq verdi. Azərbaycanın Dağlıq Qarabağ ərazisindən də azərbaycanlıların çıxarılmasına başlandı. Mərkəzin hər bir addımı Azərbaycan xalqına qarşı yönəlmişdi.

1989-cu ilin yanvarında SSRİ Ali Soveti Rəyasət Heyəti "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar verdi. Burada Mockvaya tabe olan Xüsusi İdarə Komitəsi (XİK) yaradıldı. Qatı ermənipərəst və imperiya maraqlarının icraçısı olan Arkadi Volski onun başçısı təyin edildi. XİK qayda-qanun yaratmaq əvəzinə, nəinki erməni silahlı dəstələrinin fəaliyyətinə mane olmadı, hətta azərbaycanlıların DQMV-i ərazisindən çıxarılmasına şərait yaratdı. DQMV əslində Azərbaycandan təcrid edildi və Azərbaycan tabeliyindən çıxarıldı.
1989-cu ilin iyununda Xankəndində yaşayan bütün azərbaycanlılar şəhərdən məcburi çıxarıldı.

Azərbaycan ictimayətinin təsiri altında SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də XİK-ni ləğv etdi. Vilayətin idarə olunması Azərbaycan SSR-in Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinə SSRİ Ali Sovetinin xüsusi komissiyası nəzarət edirdi. Mərkəz isə heç bir təsirli tədbir görmədi. Buna görə də Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" qərar qəbul etdi. DQMV-nin siyasi və iqtisadi idarəsi Ermənistana onun tabe edilməsi üçün saxta hüquqi baza yarandı.

MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏ

Ermənistanın yerli əhalisi olan azərbaycanlıların deportasiyasına və DQMV-də ermənilərin separatçılıq meyillərinə mərkəzin xeyir-dua verməsi Azərbaycan Xalq Hərakatının başlanmasına səbəb və bir daha təkan oldu. Belə bir şəraitdə Azərbaycanın süverenliyi və ərazi bütövlüyünün qorunmasını tələb edən çıxışlar başaladı.

1988-ci ilin fevralın 19-da Azərbaycanda ilk etiraz mitinqi Bakı şəhərində keçirildi.

1988-ci ilin mayın 18-də Azadlıq meydanında Azərbaycan xalqının iradəsini ifadə edən izdihamlı mitinq keçirildi, İttifaq hökuməti xalqın qəzəbini soyutmaq üşün Az.KP MK-nin I-katibi Kamran Bağırovu Əbdürrəhman Vəzirovla əvəz etdi. Ə.Vəzirov fəaliyyətini Moskvaya istiqamətləndirdi və bu isə onun siyasətini iflasa uğratdı.

1988-90-cı illər Dövlət başında olan Moskvanın təhkimçisi Ə.Vəzirov çox yumşaq və həlım danışırdı. Doğrudanda adam elə düşünürdü ki, bu dövlət başçısı və ya Azərbaycan KP-nin birinci katibi yox, adi bir siravi vətəndaşdır. Həmçinin özünü elə aparırdı ki, həqiqətən onun yüngül xasıyyətli olduğu hiss olunurdu.

O zaman Ermənistandan qovulan azərbaycanlıları Qarabağa və Ermənistanla həmsərhəd olan rayonlara yox, başqa yerə, ancaq mərkəzi komitənin qərarı ilə Bakıya və Sumqayıta köçürdülər.

Bir tərəfdən qaçqınların Ermənistandan köçürülməsi, digər tərəfdən "Topxana" meşəsinin Qarabağda qırılması, həm də Xankəndində ardıcıl mitinqlərin keçirilməsi rəhbər işçiləri çaşdırmışdı. Buna görə də sadə adamlara bu hakimiyyətə qarşı öz narazılıqlarını bildirmək üçün "Azadlıq" meydanına yığılaraq, Azərbaycan Respublikası rəhbərliyinə öz etirazlarını bildirirdilər.

1988-ci il iyunun 18-də SSRİ Ali Sovetinin iclasından sonra DQMV-ni siyasi yolla ələ keçirmək mümkün olmadığını görən Ermənistan dövləti Azərbaycana qarşı elan olunmamış müharibəyə başladı. Bu zaman Azərbaycan SSR-in rəhbərliyi yenə də müşahidəçi mövqe tutdu. Ermənilər isə daha da azğınlaşdı. Dağlıq Qarabağda ermənilər guya sənaye obyekti tikməyə başladılar. Əslində hər iki tərəfi qarışdırıb, etnik düşmənçiliyi dərinləşdirən bu hiylə etirazları çaşdırıb xalqı idarə edilməzliyə sövq etmək məqsədi güdürdü. Bu xəbər xalqı hərəkətə gətirdi.

1988-ci il noyabrın 15-16-da mitinqlər Bakıda başlandı. Xalq hərəkatının kortəbii mərhələsinin ən yüksək dövrü noyabrın 17-də keçirildi.

Sonralar ***17 noyabr Azərbaycan xalqının tarixinə Milli Dirçəliş günü kimi daxil oldu.***


Həmin gün mitinqdə 500 min nəfərdən çox iştirakçı var idi və fasiləsiz mitinqlər dekabrın 4-nə kimi davam etdi.

Mitinqlərdə Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı dalğalanırdı. Mitinq iştirakçılarının əsas tələbi Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq, Ermənistanın Azərbaycana qarşı təcavüzünü dayandırmaq, DQMV-də Xüsusi İdarə Komitəsini ləğv etmək idi. Əks təqdirdə SSRİ Ali Sovetin sesiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırmaq, iqtisadi sanksiyalar tətbiq etmək tələbi irəli sürülürdü.

1988-ci il dekabrın 4-də Hakimiyyət gecə ordunun köməyilə mitinqi dağıtdı, fövqəladə vəziyyət elan etdi. Azərbaycanda siyasi böhranın klassik forması yarandı.

1988-ci il 17 noyabrdan 4 dekabra qədər olan dövr Azərbaycan tarixinə **"Meydan hərəkatı"** kimi daxil oldu. Meydan hərəkatı xalqı, respublikanın ərazi bütövlüyü uğrunda birləşdirdi.

AZƏRBAYCAN XALQ CƏBHƏSİ



Artıq məlum oldu ki, Azərbaycanın rəsmi rəhbərliyi Respublikanın ərazi bütövlüyünü qorumaq iqtidarına malik deyildir. Belə bir şəraitdə bu vəzifəni yerinə yetirəcək kütləvi ictimai-siyasi təşkilatın yaradılması zəruri oldu.

1988-ci ildə AXC-nin "Müvəqqəti təşkilat mərkəzi" yaradıldı.

1989-cu il iyunun 16-da Bakıda yarımleqal şəraitdə AXC-nin təsis konfransə keçirildi. 15 nəfərdən ibarət idarə heyəti seçildi. Əbülfəz Əliyev (Elçibəy) AXC-nin sədri seçildi. AXC-nin Nizamnaməsi və Proqramı qəbul edildi. "Hüquqi dövlət və vətəndaş cəmiyyəti" AXC-nin son məqsədi elan edildi.

Bu dövrdə Azərbaycan Xalq Cəbhəsi yarandığından, dövlətdən və hakimiyyətdən kömək görməyən sadə azərbaycanlılar AXC-yə çox inam göstərib onların arxasınca getdilər.

AXC-nin rəhbəri Əbülfəz Elçibəy olmaqla, üzvüləri: İsa Qəmbərov, Etibar Məmmədov, Rəhim Qazıyev, Pənah Hüseynov, İskəndər Həmidov, Sabir Rüstəmxanlı, Zərdüşt və Araz Əlizadə qardaşları, Nemət Pənahov və başqaları, ilk vaxtları mitinqlərdə, mitinq iştirakçılarının çıxışları gurultulu alqışlarla qarşılanırdılar və eləcə də xalq onları dəstəkləyirdi.

1989-cu ilin payız aylarında Bakıda böyük mitinqlər keçirilirdi. Bu mitinqlərdə insanları Qarabağa yürüş etməyə sövq edir, SSRİ-nin tərkibindən çıxmağı irələ sürürdülər.

1989-cu il oktyabrın 17-də Bakı şəhərində ən iri və izdihamlı mitinq oldu. Bu mitinqdə qərara alındı ki, bir daha "Azadlıq" meydanından çıxmasınlar.

Beləliklə, o gündən meydanda çadırlar quruldu elə oradaca bəziləri gecələyirdilər. Bu şəraitdə adamlar könüllü surətdə mitinq iştirakçılarına ərzaq məhsulları və pul gətirirdilər.

Hər gün Sovetlər ölkəsinin rəhbərliyinin və şəxsən M.Qorbaçovun ünvanına, birtərəfli mövqeyinə, ermәniləri dəstəklədiyinə görə mitinqdə etirazlar səslənirdi. Minlərlə bakılılarla yanaşı, müxtəlif bölgələrdən insanlar axışıb bura gəlirdilər. Mitinqə iştirakçıları əllərində Azərbaycan Demokratik Respublikasının 1918-ci ildə qəbul etdiyi üçrəngli bayrağını dalğalandırırdılar.

Bu mitinqə Azərbaycanı dəstəkləyən onlarla müttəfiq respublikalardan nümayəndələr gəlirdilər. Xüsusən: Ukraynadan, Qazaxıstandan, Türkmənistandan, Başqırdıstandan, Özbəkistandan, Tatarıstandan, Qırğızıstandan, Moldaviyadan və Qaqauz xalqının nümayəndələri mitinqdə çıxış edərək mitinq iştirakçılarını dəstəklədiklərini və həmrəy olduqlarını söyləyirdilər.

Azərbaycanlıların azadlıq və müstəqillik uğrunda belə möhtəşəm mitinqlər keçirmələri, qonşu və əsasən də türkdilli dövlətlərdən gələn nümayəndələrin bizə qarşı belə dərin və mehriban hissiləri gördükdə tənha olmadığımızı və doğru yolda olduğumuzu göstərirdi.

AXC yarandığı ilk vaxtlardan geniş sosial bazaya malik idi. Azərbaycan SSR-nin rəsmi dairələri bunu nəzərə alıb Moskvaya və Ermənistana təsir göstərmək üçün mitinqlərin keçirilməsinə rəsmi olaraq icazə verdi.

1989-cu sentyabrın 5-də AXC rəsmi qeydə alındı. Həmin il sentyabrın 23-də AXC-nin fəal iştirakı ilə Azərbaycan SSR Ali Soveti növbədənkənar sesiyası "Azərbaycan SSR-in Süverenliyi haqqında konstitusiya qanunu" qəbul etdi. Bu qanun keçmiş SSRİ-də ilk dəfə Azərbaycanda demokratik meyilli qanun idi.

QANLI YANVAR

1989-cu ilin sonunda AXC-nin xalq arasında nüfuzu artdı. Bu da qarşıdan gələn seçkilərdə onun qələbəsini təmin edə bilərdi. Buna baxmayaraq AXC-nin özündə, daha doğrusu təşkilatçılar arasında böhran başlandı. Digər tərəfdən respublika hakimiyyətində dərin qorxu və böhran var idi.

1989-cu il dekabrın 31-də Naxçıvan MSSR-də Araz çayı boyunca SSRİ – İran, 1990-cı ilin yanvarında isə , SSRİ – Türkiyə, Biləsuvar və Cəlilabadda SSRİ – İran sərhədlərin qurğularını kütləvi surətdə dağıtdılar.

Ermənistan tərəfindən isə Azərbaycan torpaqlarına hücumlar davam edirdi. Belə bir şəraitdə AXC hücumların qarşısını almaq məqsədilə özünü müdafiə dəstələrini birləşdirdi və hücumların qarşısını almaq üçün Milli Müdafiə Şurası (MMŞ) yaradıldı.

1990 –cı il yanvarın 13-də Bakıda "Azadlıq" meydanında boyük mitinq gedərkən – mitinqçilərə xəbər çatdırdılar ki, Bayılda bir erməni millətindən olan şəxs iki azərbaycanlını qətlə yetirib. Bu bəd xəbər bütün mitinq iştirakçılarının dərin qəzəbinə səbəb oldu. Burada çıxış edənlər ermənilərə satılmış M.S.Qorbaçovu və onun arvadı Raisa Qorbaçovanın ünvanına lənətlər yağdırırdılar. Qarabağda gedən hadisələrə öz kəskin münasibətini bildirərək deyirdilər ki, Xankəndinə birbaşa bu mitinqdən yürüş etsinlər. AXC-nin sədri Əbülfəz Elçibəy mitinq iştirakçılara üzünü tutaraq deyirdi: "Biz azadlıq və müstəqilliyimizi öz arzu istəyimizlə, çalışqanlığımızla,

vətənə sevgimizlə, həm də yeri gələrsə öz qanımızın hesabına qazanmalıyıq".

Şəhərdə söz gəzirdi ki, Rusiyanın Stavropol şəhərində "xüsusi" dəstələr hazırlanır ki, Bakı şəhərində mitinqləri yatırsınlar və bizim azadlıq nümayişlərimizə son qoysunlar.

Ə.Elçibəy xalqa müraciət edərək dedi: - Biz heç bir yolla təxribata yol verə bilmərik, çünki Sovet qoşunları bunlardan istifadə edərək bizim üstümüzə güc tətbiq edərək, təzyiq göstərəcəklər. Şəhərdə söz gəzirdi ki, erməni evlərinə hücum edib, onları qovacaqlar. Buna yol vermək olmaz, bizim hər bir hərəkətimiz bizə qarşı ola bilər.

Mitinq qurtardıqdan sonra xəbər gəldi ki, erməni evlərinə hücum-qarət başlayıb. Bunu isə qeyri bir qüvvə təşkil edirdi, hansı kı mitinq iştirakçıları bunun əleyhinə idi.

13-16 yanvar günlərində erməni evlərində talanlar oldu. MMŞ-ı bu talanların qarşısını ala bildi. Halbuki, şəhərdə olan 10.000 nəfərlik daxili qoşun hissələri heç bir fəaliyyət göstərmirdi. Bu da onu göstərirdi ki, dövlət çalışırdı şəhərdə hərc-mərclik olsun və günahlari AXC-nin üstünə yıxsınlar. Qeyri bir qüvvə bu təxribata xalqı təhrik etməklə, ermənilərə və rus qoşunlarına Bakıya girməyə şans versinlər. Heç bir ehtiyac olmadan 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət heyəti "Dağlıq Qarabağ Muxtar Vilayəti və bəzi rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Elə o gündən söz gəzirdi ki, bu yaxın günlərdə Sovet qoşunları Bakıya girəcək və komendant saatı qoyulacaqdır.

Ona görə də Bakıya gələn yollara adi siravi Bakı sakinləri iri maşınlardan ibarət barrikada quraraq yolu kəsirdilər ki, Sovet qoşunları Bakıya girə bilməsinlər.

1990-cı il yanvarın 17-də Respublika rəhbərliyinin istefasını tələb edən ümumxalq mitinqi Azərbaycan KP MK-nın binası qarşısında keçirilirdi. Binanın qarşısında "dar ağacı"-da vardı. "Ə.Vəzirova ölüm, M.Qorbaçova ölüm" şüarları asılmışdı. Xalqın qəzəbi son həddə çatmışdı. Çünki bütün bu xalqın ağır vəziyyətinə, torpaqların işğal olunmasına, qaçqınların Ermənistandan və Qarabağdan köçürülməsinin qarşısını almaqdan ötəri hökumət heç bir tədbir

görmürdü və beləliklə də şəhərə rus qoşunların yeridilməsinin qarşısı alınmırdı.

1990-cı il yanvarın 19-da Naxçıvan MSSR-nın Ali Soveti Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət heyəti "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq etmək haqqında" fərman verdi. Bu fərman əhalidən gizlədildiyindən Azərbaycan xalqı bu fərmandan xəbərsiz idi.

Bakı sakinləri barrikada ətrafında tonqallar quraraq keşik çəkirdilər ki, şəhərə Sovet qoşunlarını girməyə qoymasınlar.

1990-cı il yanvarın 19-da axşam saat 20.00-da Sovet rejimin birbaşa göstərişilə Azərbaycan televiziyasının enerji blokunu partlatdılar və bununla azərbaycan xalqının radio və televiziya əlaqəsi hər tərəfdən kəsildi. Xaricdə və respublikada olan hadisələr ancaq "Azadlıq" radiosu ilə yayımlanırdı.

Gecə saat 24.00-da Yanvarın 20-nə keçən gecə Xüsusi təlim almış, saqqallı "rus işğalçı qoşunları" Bakıya hər tərəfdən - Biləcəri, Lökbatan, Binəqədi və Mərdəkan aeroport yolları tanklarla, zirehli hərbi maşınlarla, zəhərli olüm saçan avtomatlarla şəhərə daxil oldular. Güclü tanklarla və ağır zirehli maşınlarla barrikadaları yardılar.

Əli yalın camaata atəş açaraq dinc əhalini qırdılar. Bakıya hücuma şəxsən SSRİ Müdafiə Naziri Dimitri Yazov başçılıq edirdi. Bunları edən 72 il ərzində inandığımız "böyük rus qardaşımız" edirdi.

O müdhiş gecə heç vaxt yaddan çıxmaz. Tankların və zirehli maşınların atəşi, avtomatların şaqqıltısı, tankların və maşınların altında qalan adamların vahiməli səsləri qulaqlardan getməz. Nə qədər insanları qırdılar sayı hesabı yox idi. Heç kəsə güzəşt etmədilər, hətta qocalara, qadınlara, uşaqlara rəhmləri gəlmədi. Yaralıları "Təcili yardım maşınlarla" xəstəxanalara daşıyan maşınları da gülləboran edirdilər. Bundan başqa yaralıları daşıyan avtobusları və sürücüləri də güllə ilə vururdular. Bakı şəhər 2 saylı avtobus parkının 14-09 AQU avtobusunda sürücünü öldürmək üçün qabaq şüşəyə 90 güllə vurulmuşdu.

Ən ağır hadisələr, insan qırğını 20 yanvar meydanında olmuşdur. Burada insanların cəsədindən, onlardan axan qandan küçələr al-qızıl qana boyanmışdı, bu qədər insanları, dinc əhalini qırmaq olarmı? Əksər adamların kimliyi bilinmirdi, əlləri, qolları, başları ayrı-ayrı yerdə qalmışdı.

Heç bir vaxt mən inanmazdım ki, Sovet ordusu öz vətəndaşlarına belə qəddarlıqla əl qaldırar.

22 yanvarda "Azadlıq" meydanına hamı axışırdı. Hər tərəfdən meydana ölən şəhidlərimizin cənazələri gətirilirdi və buna görən insanlar Sovet ordusuna, Kommunist partiyasının rəhbərlərinə lənətlər yağdırırdı. Elə həmin meydanda minlərlə kommunistlər öz partiya biletlərini etiraz əlaməti olaraq meydandakı tonqala atıb yandırırdılar.

Həmin gün şayə gəzirdi ki, Ə.Vəzirov qorxaraq xalqını, dövlətini və vəzifəsini tərk edərək Moskvaya qaçmışdır. "Azadlıq" meydanında atalar demişkən, yerə iynə atsaydın yerə düşməzdi.

Bir tərəfdən çoxlu şəhidlərimizin cənazələrinin gətirilməsi, digər tərəfdən sahilə yan almış gəmilərin vahiməli, səs siqnalları altında insanlar bu ağır günü çox təşviş və ürək ağrısı ilə keçirirdilər. Saat 12.00-da şəhidlərin cənazələri insanların əllərində izdihamla yola düşdülər. Bütün yol boyu şəhər sakinləri başımıza süni surətdə gətirilən hadisə "Qanlı yanvar"-ı dərin hüznlə yollara qırmızı qərənfillər düzürdülər. Bütün xalq, bu Azərbaycana baş sağlığına gələn qonaqlar da, göz yaşlarını saxlaya bilməyib ağlayırdılar.

Deyilənə görə o günü 2 milyondan çox insan bu izdihamda iştirak edirdi. İnsanların ücü-bucağı bilinmirdi. Hamı "Dağüstü parka axışırdı.

Elə həmin gün Dağüstü parkda "Şəhidlər xiyabanı" yarandı. Qafqaz Müsəlmanların Şeyxülislamı Allahşükür Paşazadə səsgücləndirici vasitəsilə "Qurani-Kərim"-dən surələri oxuyur, şəhidləri qəbirlərə endirib torpağa tapşırırdılar.

Bura gələn anaların, bacıların, yaxın adamların, qohumların və digər adamların ağlaşması, ağı deyə-deyə göz yaşları axıtması, olduqca vahiməli səs küyləri biri-birinə qarışmışdı. Adama elə gəlirdi ki, dünyanın axırıdır. Hamı əllərini yuxarı qaldırıb Allaha yalvararaq

başımıza gələn bu bəlanı, bu müsibətləri gətirənlərin öz cəzasına çatmalarına diləyirdilər.

O ağır günü 132 nəfər şəhidlərimizin məzarıstanı salındı. Şəhidlərin hamısı dinc əhali olmaqla qadınlar, qocalar, məktəbli uşaqlar olsa da Sovet "Qızıl ordusu" heç kəsə güzəşt etmədilər...

Tarixdə görünməmiş bir zülüm, işgəncə ilə xalqımızı əzdilər, öldürdülər, qırdılar. Rəsmi məlumata görə bu qırğında 744 nəfər yaralandı, 400 nəfər həbs edildi, 800 nəfər insan itgin düşdü və 132 nəfər qətlə yetirildi.

O gecə, qanlı, qadalı gecə !!!

19 yanvar 1990-cı il. At ili. Saat 00.00- da başlanan qırğında yerdə qan, divarda qan, ağacda qan, daşda qan, beyində qan, əllərdə qan! Qan icində idi sanki xalqım! Şər xeyirə qalib gəlmişdi, o gecə!

"Vətən"- deyib ölənlərin, "Vətən" sözü dodaqlarında,

"Ana"- deyib ölənlərin, "Ana" sözü dillərində donmuşdu!

Öldülər şərə qarşı cihad edərək!

Düşmənin qat-qat güclü olduğunu bilsələrdə... Aman diləmədilər!

Şəhid oldular... O gecə bir gəlin qəsd etdi özünə - yarı İlqarı məzarda tək qoymasın deyə!

O gecə neçə ananın dilində laylalar həzin bayatılara, ağılara çevrildi...

O gecəni xatırlayanda məni dəhşət bürüyür...

Bu dəhşət qorxudan yox, insanın-insana qarşı qəddarlığının nümayişliyindən irəli gəlir.

Torpağa tökülən qanlar laxtalandığı kimi, o müdhiş gecəni andıqca, gözümdəki yaşlar sanki laxtalanır...

O gecənin zülmətində açılan güllələr işıq saçaraq, yüzlərlə insanın həyat işığını söndürdü...

Tökülən qanların parıltısından gecə öz rəngini itirmişdi...

Bu qanlı faciəni vaxt olacaq,
Necə var, əhli-qələmlər yazacaq.
Sözünü-söhbətini ağrı ilə,
Ürəyi dərdli-qəmlilər yazacaq!...

Şəhidlərim gülləyə... Gülələlr al qana... Qanlar müqəddəs torpağa... Torpaq pak göz yaşına qarışmışdı...

"Ana!" deyən fəryadlara, "Bala!" deyən laylalara, "Vətən!" deyən ağılara bürümüşdü şəhərim!!!

Qardaş qolların hanı?
Axtarmışam hər yanı...
Allah, bu baş kimindi?!
Bulaq tək axır qanı...

Bir gözünü açsana,
Ananam mənə baxsana.
Oğlum, sənsiz çəkdiyim,
Əzablara baxsana...

Görmürəm yarım hanı!?
Yox olan varım hanı?
Əlindən necə tutum,
Oğul, qolların hanı?!



Şəhidlər xiyabanı

Hər **ŞƏHİDİ** olan evin qarşısında, **QAN** rəngli qərəfillərlə bəzədilmiş mafələr qoyuldu...

QAN rəngli boxçalara bürünmüş xonçaları, **QAN** rəngli mafələr gözləyirdi...

QAN rəngli mafələr **QAN** rəngli karvana dönüb, **ŞƏHİDLƏR XİYABANINA** üz tutdu...

QAN rəngli karvanın sarvanı **XALQ** özü idi!

Getdi **ŞƏHİD** karvanı! Sinəsində yer verdi, Dağ üstü xiyabanı!

Biz sizə borcluyuq igid **SƏHİDLƏR,**
Siz ana torpağa qurban oldunuz!
Ömrün çiçəklənən gözəl çağında,
Hərəniz bir güclü dastan oldunuz!

Bu qanlı hadisə Azərbaycanın tarixinə **"Qanlı yanvar"** günü kimi daxil oldu. Bir daha Sovet rəhbərliyinə əvəzolunmaz dərs verildi və məlum oldu ki, Azərbaycan xalqının bu qırğınla əzmini qırmaq, onun müstəqillik yolundan döndərmək qeyri mümkündür.

Bu "Qanlı yanvar" hadisəsindən sonrakı mitinqlərdə SSRİ-nin tərkibindən çıxmaq şüarları və təkliflər səslənirdi.

Bu dövrdə Respublika rəhbərsiz qalmışdı və hələlik kimin rəbərlik edəcəyi bilinmirdi. Əsas namizədlər Ayaz Mütəllibov – Nazirlər Sovetinin sədri və Həsən Həsənov – Azərbaycan KP MK-nin katibi vəzifələrini icra edirdilər.

Az sonra Moskvadan - Ayaz Mütəllibovun Azərbaycan KP MK-nin birinci katibi vəzifəsini təsdiqləndi.

Azərbaycan Ali Sovetin növbədən kənar sesiyası çağrıldı. Bu sessiyada rus qoşunlarının Azərbaycana kimlər tərəfindən çağrılması müzakirə olundu. Burada əsasən M.Qorbaçovu, bəziləri Ə.Vəzirovu, qeyrisi E. Qafarovanı və A. Mütəllibovu, digərləri isə AXC-nin rəhbərliyini günahlandırırdılar. Elə həmin sesiyada Elmira Qafarova istefa verdi və onun yerinə Azərbaycan Ali Sovetinə sədr: - Yaqub Məmmədov seçildi.

Müzakirə nə qədər davam etdisə, bu başımıza gətirilən "Qanlı yanvar" faciəsinin əsl səbəbkarlar dəqiqləşmədi.

Bundan sonra SSRİ-nin tərkibindən çıxmaq və müstəqil dövlət yaratmaq çağırışları daha da gur səsləndi.

Ayaz Mütəllibov isə xalqa bir az səbr etməyi təklif edirdi. O, deyirdi: - Gəlin biz gözləmə mövqeyi tutaq və bizdən böyük qardaşlar (Ukrayna, Belorusiya, Qazaxıstan respublikalarını nəzərdə tuturdu) nə deyir, nə edir, sonra da biz bu işə baxarıq. A. Mütəllibov AXC ilə razılığa gələrək Məşvərət şurası (MŞ) yaratdı. Xalq Cəbhəsinin məcburi təzyiqindən sonra A.Mütəllibov Azərbaycan SSRİ-nin tərkibindən çıxmaq üçün referendium keçirilməsinə razılıq verdi.

Azərbaycan SSR Ali Sovetin sessiyası 1990 –cı il martın 19-da prezident vəzifəsi təsis etdi və bu vəzifəyə Ayaz Mütəllibovu seçdi.

1990-cı il setyabr ayında Azərbaycan Ali Sovetinə seçkilər keçirildi və 20-dən artıq ictimayi təşkilatı birləşdirən "Demokratik blok" 360 deputat mandatından cəmi 30-nu Demblok ala bildi.

1991-ci ilin fevralında Azərbaycan Ali Soveti sesiyasının qərarı ilə ölkə "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan xalq Cümhuriyyətinin 1918-ci ildə təsis etdiyi ay və səkkiz guşəli ulduzlu üç rəngli (göy, qırmızı və yaşıl) bayrağı, gerbi və himni eynilə təsdiq edildi.

1991-ci ilin yazında Azərbaycan SSRİ-nin tərkibindən çıxmaq haqqında referendium keçirildi. Xalq bütövlükdə SSRİ-nin tərkibindən çıxmağa səs verdisə də, seçki qutularından çıxan büllütenlər saxtalaşdırıldı və tərkibdə qalmağa yönəldildi.

1991-ci ilin avqustun 8-də Ermənistan SSR-dən sonuncu azərbaycanlı kəndi – Meqri rayonun Nüvədi kəndi rus əsgərlərinin köməyilə boşaldıldı. Beləliklə, Azərbaycanlı – türk müsəlman əhalisinin Ermənistandan çıxarılmasının dördüncü mərhələsi başa çatdı. Daha Ermənistan deyilən ərazidə azərbaycanlı qalmadı.

Ermənistandakı 185 azərbaycanlı kəndlərindən 230 min nəfər azərbaycanlı öz doğma dədə-baba torpaqlarından qovuldu.

Dünya ictimayyəti bütün bunlara daşürəkli münasibət göstərib biganə qaldı. Dünyanın nüfuzlu təşkilatları, dövlət başçıları və siyasi

xadimləri sonralar bütün bunları "informasiya blokadası" adlandırıb, Azərbaycanı özünü dünyada tanıda bilməməsi ilə izah etməyə çalışırdılar. Bu isə ermənilərı, xüsusən Dağlıq Qarabağ ermənilərini yeni seperatçılığa, yeni cinayətkarlığa şirnikdirirdı.

Ayaz Mütəllibov bütün bunlara Respublika rəhbəri kimi, çox yumşaq və mülayim münasibət bəsləyirdi. O, iqtisadçı olsa da, dövlət işində tam sərişləsiz idi, vəzifəbaz bir insan kimi tanınırdı. Onun Respublika rəhbərliyi dövründə elə bil dövləti başqa gizli bir qüvvə idarə edirdi. Bütün bölgələrdən həyəcan dolu xəbərlər gəlsə də o, çox sakit qəbul edirdi və xalqdan vacib məlumatları gizlədirdi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi Xalq hərəkatının əsas məqsədinə çevrildi. Xalqın tələbilə Ali Sovetin növbədən kənar sessiyası çağrıldı. Bu sessiyada 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında "Bəyəmnamə" qəbul edildi.

1991-ci il sentyabrın 3-də H. Əliyev Naxçıvan MR Ali Sovetin məclisinə sədri seçildi. Həmin il Azərbaycanda ilk prezident seçkiləri keçirildi və A.Mütəllibov – Azərbaycan Respublikasının ilk prezidenti seçildi.

1991-ci il oktyabrın 3-də prezident və müxalifət liderləri Milli Şura yaradılması barədə razılığa gəldilər.

1991-ci ilin oktyabrın 14-də Azərbaycan Kommunist Partiyasının XXXIII-cü fövqəladə qurultayında özünü buraxdığını elan etdi.

1991-ci il oktyabrın 18-də AR Ali Sovetinin sessiyası xalqın tələbilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında qərar qəbul etdi. Həmin gün rayon, şəhər icra başçısı, sonra dövlət katibi və dövlət müşaviri vəzifələri təsis edildi. Həmin sessiyada "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi və ölkədə prezident üsul idarəçiliyi yarandı.

İlk Dövlət katibi akademik Tofiq İsmayılov oldu.

1991-ci il 20 noyabrda Ağdamın yaxınlığındakı Qarakənddə münaqişə olduğunu bildikdə, ora bir qrup dövlət nümayəndələri göndərildi. Respublikanın üzdə olan seçmə oğulları: Tofiq İsmayılov – Dövlət katibi, Məhəmməd Əsədov – Daxili İşlər naziri, İsmət

Qayıbov – Respublika prokuroru, Qurban Namazalıyev – Su Təsərrüfatı və Melorasiya nazirinin birinci müavini, Alı Mustafayev – jurnalist, iki nəfər Rus ordusunun və bir nəfər Qazaxıstan ordusunun generalları və digər jurnalistlər, operatorlar və başqaları, cəmi 23 nəfərdən ibarət nümayəndələr Mİ-8 hərbi vertolyotu ilə, heç bir qoruyucu və hərbi vertolyotlar olmadan havaya qalxdılar. Qarakəndin üstündə uçarkən mənfur erməni silahlı qüvvələri tərəfindən xainçəsinə vuruldu.

Ancaq xeyli vaxt keçsə də bu məlumatı xalqa çatdırılmadı, yalnız bir gün keçəndən sonra, televiziya ilə o vaxtlar diktor işləyən Nadejda İsmayılova məlumat verdi ki, Qarakənd üzərində uçarkən Azərbaycanın Mİ-8 vertalyotu dumanlı havada dağa dəyərək qəzaya uğrayıb və 2 nəfər xəsarət alıb.

Yaxşı ki, bunu xalqdan çox gizlədə bilmədilər. 22-si noyabr günü bütün açıqlaması ilə xalqa məlum oldu ki, Tofiq İsmayılov, Məhəmməd Əsədov, İsmət Qayıbov, Qurban Namazalıyev, Alı Mustafayev və başqaları, cəmi 23 nəfər Azərbaycanın şanlı və görkəmli vətənpərvər oğulları şəhid oldublar.

Qarabağdakı azərbaycan kəndləri günü-gündən boşalırdı və A.Mütəllibov sakitcə öz möhtəşəm kabinetində oturub bu hadisələri ört-basdır etməyə çalışır, eləcədə xalqa xəbər vermədən əks tədbir görmürdü.

XOCALI SOYQIRIMI

Azərbaycan Respublikasının Dövlət müstəqilliyi elan olunduqdan sonra bütün dövlətlərə, birinci növbədə qonşu dövlətlərlə dostluq və mehriban münasibətləri yaratmağa çalışdı. Lakin Ermənistan Rusiyaya arxalanaraq Dağlıq Qarabağda vəziyyət daha da gərginləşirdi.

1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ Respublikası" elan edildi.

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətiin statusunu ləğv etdi.

1991-ci ilin sonunda Rusiya və Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qardaşlıq, təhlükəsizlik haqqında müqavilə"

imzalandı. Bundan sonra Rusiya - Ermənistanı və Dağlıq Qarabağın separatçı, həm də terrorçu ermənilərini daha da yaxşı silahlandırmağa başlandı.

1991-ci ilin oktyabrın 9-da Azərbaycan Respublikası Ali Soveti Milli özünümüdafiə qüvvələri haqqında qərar qəbul etdi. Özünümüdafiə dəstələri könüllülük əcacında təşkil edildi. Noyabrın 22-də sərhədyanı ərazi özünümüdafiə batalyonları yaradıldı. Belə bir şəraitdə 1992-ci il ildə erməni separatçıları Dağlıq Qarabağın azərbaycanlılar yaşayan Kərkicahan (yanvar), Malıbəyli və Quşçular (fevral) kəndlərini ələ keçirdilər. Xocalı və Şuşanı mühasirəyə almağa başladılar.

1992-ci il yanvarın 20-də Şuşanın müdafiəsi Rəhim Qazıyevə tapşırıldı. O, da Azərbaycan televiziyası ilə xalqa müraciət edərək dedi: - "Şuşa işğal olsa, mən şəxsən özüm başıma gülləni vuracam".

O vaxtları yenicə Müdafiə Naziri təyin edilmiş həmyerlimiz Tacəddin Mehdiyev müharibə zonalarında vəziyyət ilə daha yaxından öyrənmək məqsədilə Şuşa şəhərinə gəlmişdi. Bundan məqsədyönlü istifadə edən Rəhim Qazıyevin əmri və şəxsi göstərişi ilə, Şuşa Xalq Cəbhəsi fəalları ilə Müdafiə Naziri Tacəddin Mehdiyevi girov götürüb və onun qarşısında belə bir şərt qoydular ki, yanvarın 25-də mühasirədən çıxarmalısan, yada da öz canını qurban verməlisən. Müdafiə Naziri öz narazılığını bildirir ki, belə bir qısa vaxtda bu mümkün deyil. Bu planı hazırlamaq üçün birinci vaxt, ikinci güclü qüvvə və möhkəm arxa cəbhə lazımdır.

R.Qazıyevin birbaşa təzyiqi ilə və T.Mehdiyevi gözdən salmaq məqsədilə yanvarın 25-dən 26-na keçən gecə məcburi olaraq, hücum planını dörd tərəfdən Daşaltıya əməliyyat hazırlanır. Əməliyyat hazırlayanlar: başda MN-i - Tacəddin Mehdiyev, Şuşa şəhər hərbi birləşmələrin rəhbəri – Rəhim Qazıyev, MN-nin Mətbuat şöbəsinin sədri – Leyla Yunusova və Şuşa batalyonun komandirinin iştirakı ilə plan tərtib edilir.

Səhər saat 5-də hücum başlanır və erməni dəstələrinin sayıqlığı sayəsində hücumun qarşısı alınır, həm də böyük itgi verilir. Böyük itginin səbəbi də bu idi ki, ermənilərə qabaqcadan xəbərdarlıq siqnalı verilmişdi. Beləliklə, "Daşaltı əməliyyatı" uğursuzluqla başa çatdı.

Əməliyyat hazırlayanlardan 4 nəfərdən biri xəyanət edərək ermənilərə satılmışdı. Bu hadisənin üstü hələ də açılmayıb.

Bu uğursuzluqlar bir də ondan irəli gəlir ki, Respublika siyasi böhran içində idi. Hakimiyyər uğrunda açıq və gizli mübarizə aparanlar daha çox rəqiblərini rüsvay etmək üçün çalışır, onların tərəfini saxlayan silahlı dəstələr siyasiləşdirilir, tutduqları mövqeləri döyüşsüz təhvil verir, erməni tərəfi isə bundan məharətlə istifadə edirdi. Məhz buna görə torpaqlarımızı dönə-dönə itirirdik.

Xocalı faciəsi - əsl soyqırım olan bu hadisələrin baş tutmaması üçün heç bir əməli tədbir dövlət tərəfindən görülməmişdi. Xocalı şəhərində bir ay qabaq ağır vəziyyətdə olduğu xəbəri bütün Respublikaya yayıldığı vaxtda, rəhbərlik sakitcə oturub susurdu. Bir ay olardı Xocalı mühasirədəydi, heç bir vertalyot əlaqəsi də yox idi. Hələ Xocalı soyqırıma 15 gün qalmış Xocalı İcra başçısı – Elman Məmmədov Ayaz Mütəllibovun qəbuluna iki gün düşə bilməmişdi. Nəhayət üçüncü günü qəbula girə bilib. A.Mütəllibov onu soyuqqanlıqla qarşılayıb və heç bir hadisə olmamış kimi Elman Məmmədova hələ təskinlik də verib və deyib ki, sən get Xocalıya adamlarını başa sal, panikaya düşməsinlər, bu yaxın günlərdə çalışıb kömək göndərərik, tam arxayin ola bilərsiniz.

1992-ci il 24 fevralda Xocalı ətrafını mühasirəyə alan erməni birləşmələri ilə birlikdə Rusiyanın Xankəndindəki 366-cı motoatıcı alayının köməyi və bir-başa iştirakı ilə hücuma hazırlaşırdılar.

Mühasirədə qalan Xocalı şəhərin rəhbərliyi, o vaxt Şuşa şəhərin hərbi birləşmələrin rəhbəri Rəhim Qazıyevə məlumat verirlər ki, Şuşadan Xankəndinə raket atmaqla onların fikrini yayındırsın. Lakin Rəhim Qazıyev tərəfindən heç bir tədbir görülmədi.

1992-ci il fevralın 25 və 26-sı Xocalı şəhəri kənardan heç bir kömək almadan tək-tənha qalaraq, həyatda görünməmiş ən faciəli soyqırıma məruz qalır. Bu soyqırımda 613 nəfər Xocalı sakinləri ağır işgəncələrlə qətlə yetirilir, 1275 nəfər əsir alınır, 200 nəfər qoca, qadın və uşaq dağ yolu ilə qaçarkən şaxtada, qarda, meşədə, çöldə donaraq əllərini və ayaqlarını itirdilər.

Bu ağır vəziyyətdə Xocalının süqutu dövründə Azərbaycan televiziyası susurdu. Yalnız iki gündən sonra Xocalıda münaqişə

oması və bir neçə azərbaycanlıların öldürülməsi xəbəri xalqa çatdırıldı. Əsl həqiqət isə xalqdan gizlədildi. -əsrdə ən dəhşətli soyqırım Xocalıda törətdilər. Əlif Hacıyev, Tofiq Hüseynov, (ölümlərindən sonra hər ikisinə Milli Qəhrəman adı verildi) digər komandir və döyüşçülərin səyinə baxmayaraq, Xocalı erməni və rus separatçı qüvvələri tərəfindən tənəzzülə uğradı.

Ancaq mərd, igid və cəsarətli jurnalist – repartyor Çingiz Mustafayevin çəkdiyi vidio-görüntülər Xocalıda baş vermiş əsl soyqırım olduğunu xalqa ANS-kanalı ilə göstərildi. Xain və vəhşi erməni faşistlərinin azərbaycanlıların amansız surətdə və işgəncə ilə qətlə yetirilməsi tam sübuta yetirildi, həm də təsdiqləndi.



Çingiz Mustafayev

Bu hadisədən sonra Xocalı soyqırımın səbəbkarlarının üzə çıxması, AXC-nin tələbilə xalqa çatdırılması faktı irəli sürülür.

1992-ci il martın 6-da Xocalı soyqırımın əsl günahkarlarını təhlil etmək üçün Ali Sovetin növbədənkənar sesiyasında Ayaz Mütəllibovun qətiyyətsizliyi üzündən bu hadisələrin baş verməsi sübut olundu.

AXC-nin təzyiqi ilə bu sesiyada Ayaz Mütəllibov Azərbaycan Respublikasının prezidenti vəzifəsindən istefa verdi. Həmin sesiyada prezident seçgilərinə qədər dövləti idarə etmək üçün Ali Sovetin sədri – Yaqub Məmmədova tapşırıldı.

Rəhim Qazıyev Müdafiə Naziri təyyin edildi.

1992-ci il martın 15-də Avropa Təhlükəsizliyi və Əməkdaşlıq Təşkilatının Minski qrupu yaradıldı. Bu qrupun vəzifəsi, Ermənistan Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin dinc danışıqlar yolu ilə nizama salmaq və iki tərəfli sülhə nail olmalıydı.



Xocalı ourbanları

1992-ci il mayın 8-də hakimiyyət boşluğundan məharətlə istifadə edən ermənilər Şuşanı işğal etdilər. Təəssüflər olsun ki, Rəhim Qazıyev – Müdafiə Naziri kimi başına güllə vurmadı.

Şuşa şəhəri işğal olunan günü Prezident əvəzi Yaqub Məmmədov İran İslam Respublikasında rəsmi səfərdə idi. Eşidən kimi öz səfərini təxirə salıb bir-başa Ağdama gəldi, Gəncədə oldu, lakin Müdafiə Naziri – Rəhim Qazıyevi (hərbi sahədə təcrübəsiz və səriştəsiz olan) Respublikada tapa bilmədi. Sonrakı günü məlum oldu ki, Yaqub Məmmədovu İranda və Rəhim Qazıyevi bilərəkdən Zaqafqaziya Hərbi Dairəsinə çağrılması, respublikada yiyəsizlik olduğuna görə Şuşa şəhəri işğal edildi. R. Qazıyev Şuşa şəhəri işğal olunan günü Tibilisi şəhərində Rus Hərbi generalları ilə gələcək vəzifəsi barədə danışığa gedibmiş.

Şuşa şəhəri işğalından sonra Prezident əvəzi – Yaqub Məmmədova sual veriləndə ki, Şuşa niyə təhvil verildi? O, da cavab verdi: - **"Biz böyük oyunların peşkalarıyıq".** Bu söz bir daha təsdiq edirdi ki, bizim Respublikamız o vaxtı daxilən yox, ancaq xaricdən idarə olunurdu. Bunu rəhbərliyin hamısı əla bilirdi, lakin nədənsə açıb –ağardan yox idi. Məhz elə o gözə görünməz qüvvə də torpaqlarımızı biri-birinin ardınca ermənilərin xeyrinə təhvil verilirdi.

1992-ci il mayın 17-də Ermənistanla Dağlıq Qarabağ arasındakı yeganə körpü rolunu oynayan Lacın şəhəri zəbt edildi.

Məharətli və bacarıqlı jurnalist Çingiz Mustafayev Şuşada, Laçında çəkdiyi kadrlarda hərbi könüllü döyüşçülərinin və tank birləşmələrinin Lacını tərk edən əsgərlərə üz tutaraq, niyə siz öz mövqeyinizi döyüşsüz tərk edərək geri qayıdırsınız? Cavab verirlər ki, - **"Yuxarıdan göstəriş var"...**

Kimdi bu göstərişi verən? Hələ indiyə kimi bizlərə məlum deyil.

1992-ci il 14-ü mayda gizli qüvvələrin təkidi ilə Ali Sovetin fövqəladə sesiyası çağrıldı. Sesiyada yenidən Xocalı soyqırımını müzakirə etməyə başladılar. Bəzi deputatlar çıxış edərək Ayaz Mütəllibovun Xocalı soyqırımında neç bir günahı olmadığını, bəzi yaltaqsifətlər söylədilər və etiraf etdilər. Ona görə də bu məsələni səsə qoydular və əksər deputatlar A. Mütəllibovun günahsız olduğu və əsassız istefa verdiyinə səs verildi. Belə qərar çıxarıldı ki, A.

Mütəllibov öz vəzifəsinə qaytarılsın. Bu zaman həmin deputatlar yerlərindən qalxıb Ayaz Mütəllibovu təbrik etdilər. Hamıdan çox Hacı Əbdül canfəşanlıq edərək Allaha şükür edir, onu qucaqlayıb öpürdü.

Ayaz Mütəllibova söz verildi: - O, bundan sonra işinə daha yaxından, məsuliyyətli olmağını söylədi və bununla bərabər bəzılərini barmaqla da hədələdi.

Təəssüflər olsun ki, bu sevinclər uzun çəkmədi. Elə o günü xalqın güclü etirazı və tələbi ilə Ayaz Mütəllibov qorxaraq mayın 15-də Moskvaya qaçdı.

1992-ci il mayın 15-də imzalanmış Daşkənd müqaviləsinə əsasən, SSRİ-nin hərbi əmlakı bölüşdürüldü. Avrasiya olayı yaradıldı. Xəzər donanmasının qüvvə və vəsaitinin 25%-i Azərbaycana düşdü. Lakin Azərbaycana verilən hərbi obyektlər, texnika və cihazlar yararsız hala salınmışdı.



Füzuli cəbhəsi 1992-ci il

əli avtomatlı əsgər Səfa Ələkbərovdur

Azərbaycan Xalq Cəbhəsi xalqın ehtiramını və etibarını qazandıqdan sonra, qarşıdan gələn prezident seçgilərinə hazırlaşmağa başladılar. Xüsusən də İsa Qəmbər, Etibar Məmmədov, Pənah Hüseynov, Rəhim Qazıyev, Sabir Rüstəmxanlı, İskəndər

Həmidov, Araz və Zərdüşt Əlizadə qardaşları, Nemət Pənahov və başqaları olduqca həddən artıq canfəşanlıq göstərirdilər.

1992-ci il 7 iyun prezident seçgilərində mütləq qalib gələrək Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti seçildi.
İsa Qəmbər – Milli Məclisin sədri, Pənah Hüseynov – Nazirlər sovetin sədri, İskəndər Həmidov – Daxili İşlər Naziri, Sabir Rüstəmxanlı – Mətbuat Naziri, Nemət Pənahov – Dövlət müşaviri təyin edildilər.

1992-ci il 15 iyunda – vətənpərvər Çingiz Mustafayevin bu canfəşanlığını görmək istəməyən gizli qüvvələr onun ölümünə sərəncam verdilər və qətlə yetirdilər. Ancaq müdrik xalqımız Çingiz Mustafayevin bu qəhrəmanlığını nəzərə alaraq və onu əziz tutaraq "Fəxri Xiyabanda" vətənin igid və şəhid oğlu kimi dəfn olundu. Ölümündən sonra "Milli Qəhrəman" adı verildi. Hər il xalqımız onun ad gününü və şəhid olan gününü də dərin məhəbbətlə qeyd edirlər.

Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin!..

1992-ci il iyununda Respublikanın silahlı qüvvələrini vahid mərkəzdən idarə etmək məqsədilə vahid komendanlıq yaradılması haqqında fərman verildi və ordu quruculuğunda mühüm əhəmiyyətə malik oldu.

1992-ci ilin yayında Ağdərə əməliyyatı nəticəsində Goranboy bölgəsinin işğal olunmuş torpaqları azad edildi. Xocavənd istiqamətində aparılan hərbi əməliyyat uğurlu oldu. Bu uğurlar Moskvanı narahat etdi və Azərbaycanı MDB-yə cəlb etmək məqsədi güddü. Azərbaycan isə bu təklifi qəbul etmədi. Rusiya özü isə Ermənistana hərbi yardımı qüvvətləndirdi.

1992-ci ilin iyununda Azərbaycan Respublikası BMT-nin Təhsil, Elm, Mədəniyyət məsələləri üzrə təşkilata – YUNESKO-ya üzv qəbul edildi. Azərbaycan bir sıra digər beynəlxalq təşkilatlara da üzv seçildi. Lakin ikiqat xarici siyasətdə tarazlığı gözləmədi.

Nəhəng qonşularımız olan Rusiya və İran ilə münasibətlərə lazımi əhəmiyyət vermədi. Azərbaycan təcavüzə məcbur qaldığı halda, ABŞ Ermənistan dövlətini blokada saxladığına görə Azərbaycanı təqsirləndirildi.

Əbülfəz Elçibəy prezident kürsüsünə oturduqdan sonra, onun dövlət idarəçiliyinə təcrübəsiz oldyğu biruzə verdi. Onun prezidentliyi dövründə hər nazir özü üçün bir hökmüdar şəxs idi. Ə. Elçibəy onlara hökm vermək iqtidarında deyildi. Hər vəzifəli şəxsin öz müstəqil qanunları vardı, eləcədə müstəqil batalyonları hökm sürürdü.

Surət Hüseynovun qoşunları o vaxtı Xankəndinin 11 km-də idi. Az qalmışdı ki, Xankəndin üzərinə hücum edib öz tabeliyinə keçirsin. Lakin S. Hüseynovun o vaxtı Tərtər rayonun İcra başçısı Sərdar Həmidovla (İskəndər Həmidovun qardaşı) şəxsi çəkişməsi və dövlət səviyyəsində ona vəzifə verilməməsi üzündən, öz qoşunlarını geri Gəncəyə qaytardı. Eyni zamanda Əlikram Hümbətov Füzuli bölgəsindən öz qoşunlarını geri çəkib Lənkərana qaytarması əsl faciəyə səbəb oldu. Bu zaman ermənilərin qoşunları maniyəsiz bizim torpaqların işğalını gücləndirdi.

1992-cı il sentyabrın 15-də Az.TV-nin müxbiri Ə. Elçibəyə sual verdi: - Cənab Prezident rayonlarda tarlalarında yüksək pambıq məhsullar yığılmamışdır nə etməli? O, isə cavabında: - İndi bizdə demokratiyadır , kim istər yığsın, kim istəməz yığmasın və biz məcbur edə bilmərik. Bax elə bu cavabdan sonra Ə. Elçibəyə qarşı əməkçilərin də prezident kimi inamı itdi.

AXC və Müsavat hakimiyyəti dövründə, Azərbaycanda iqtisadi və siyasi böhran gücləndi.

1992-ci ilin oktyabrın 24-də ABŞ konqresi "Azadlığı müdafiə aktına" 907 saylı əlavəni qəbul etdi. Bununla da Azərbaycan Respublikasının dövləti səviyyəsində ABŞ-ın dövlət yardımından məhrum olmuşdur.

TORPAQLARIMIZIN İTİRİLMƏSİ

Sonu görünməyən bu Qarabağ müharibəsi hələ də davam etməkdədir. Müharibə təbii hadisə deyil ki, kimsə onun nə vaxt olacağını duya bilməsin. Müharibəyə hazırlıq çoxlu vaxt tələb edir və bir neçə müddətə həyata keçirilir.

Bədxah qonşularımız olan mənfur ermənilər bu müharibəyə neçə illərdir ki, hazırlaşmışlar...

Bunların hamısını bizlər ermənilərlə eyni idarədə, müəssisədə, zavodda, elmi institutlarda, məktəblərdə və digər yerlərdə işləyəndə görmüşük ki, hər bir erməni millətindən olan "vətəndaşlarımız" ayda 25 manat (rus rublu) Eçmiadzin kilsəsinin hesabına Yerevana göndərilir. Bunlardan xəbərdar olsaqda, nədənsə büruzə vermirdik. Bax bu pulları yığa-yığa öz hazırlıqlarını görmüşlər və indidə əməli barlarını görürlər.

Bu müharibədə doğma torpaqlarımızın hər qarışını azğın erməni işğalçılarından qoruyub şəhidlik zirvəsinə yüksələn neçə-neçə oğullarımız oldu. **Bu gün də var belə oğullar, sabah da olacaq onlar...**

Təəssüflər olsun ki, bu üzücü müharibədən istifadə edib, əyri yollarla varlanaraq pul yığanlarımız da var, bir tikə çörək üçün taleyinə acı göz yaşları axıdanlarımız da var, ailə, ev dağıdanlarımız da aramızda var. Bizlərsə bunları görə-görə, baxa-baxa, bilə-bilə göz yumurduq və sanki elə-belə də olmalıdır.

Hər şeyə, hər hadisəyə biganəlik bizim qanımıza hopub və elə bil gündəlik bizim həyat tərzimiz olub. Biz azərbaycanlılar biganə və laqeyd ola-ola doğma torpaqlarımızı itirdik.

Yadımdadır Əbülfəz Elçibəyə prezident olanda ona xəbər verdilər ki, Ağdamı iki gündən sonra erməni "daşnakları" işğal edəcəklər.

O, da cavab verir: " Eybi yoxdur qoy alsınlar, iki gündən sonra da biz geri qaytararıq".

Doğrusu belə bir cavabdan sonra həqiqi Ə. Elşibəyə qarşı necə bir prezident kimi, necə bir baş komendan kimi inamım söndü.

Belə böyük dövlət əhəmiyyətli xəbərə adi bir məsələ kimi baxmaq, heç prezidentə və siravi vətəndaşa da yaraşmaz.

Füzulinin yaddaşından silinməyən faciəli günlər getdikcə artaraq torpaqlarımız günü-gündən itirilirdi.

İndi hal-hazırda bizlər bu günlər doğrudan da ən çətin bir imtahan qarşısındayıq, çünki vətənimizin 20% torpağı belə bacarıqsız dövlət başçılarının, öz and içdikləri konstitusiyanın qanunlarını gobud surətdə pozduqlarına görə, bir milyon qaçqın və köçgünlərin öz doğma torpaqlarından didərgin düşdüyünə görə, qabaqcadan qarşısını almaq üçün lazımi tədbir görülmədiyindən, şəxsən dövlət

başçılarımızdan Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Yaqub Məmmədov və Əbülfəz Elçibəyin birbaşa günahları böyükdür.

Bu günlər ***"Hər şey cəbhə üçün, hər şey qələbə üçün"*** şüarı bizlər üçün Vətən çağrışı olmalıdır.

İtirilən torpaqlarımızı geri qaytarmaq üçün, gənc ordumuzda möhkəm nizam-intizam yaratmaqla, onları vətənpərvərlik və yüksək siyasi-mənəvi ruh aşılamaqla, vətənimizin iqtisadi gücünü möhkəmlətməklə, xalqımızın milli dəyərlərini, bir daha hər şeydən üstün olduğunu nəzərə almaqla – düşmən üzərində qəti qələbəyə can atmalıyıq.

İndi kiçiyin də, böyüyün də arzusu nəyin bahasına olursa olsun torpaqlarımızı geri qaytarmaq, yağı düşmənimizə öz əsl türk cavabımızı verməliyik.

Dərindən fikirləşəndə və təhlil edəndə görürsən ki, işğal olunan Qarabağ və ətraf rayonlar necə oldu belə asanlıqla doğma və əziz torpaqlarımıza biganə qaldıq, həm də onu asanlıqla, maniəsiz düşmənlərə təhvil verdik. Bunun səbəbi çoxdur: - ən birincisi vəzifə çəkişməsi, hərc-mərclik, xaos, anarxiya, rüşvətxorluq və bir tərəfdən də torpaqlarımızın günü-gündən əldən getməsi, o biri tərəfdən stol, vəzıfə davası gedirdi. Daxili çəkişmələr, rəhbərliyin bu hadisələri başlı-başına buraxması, ordumuzun qeyri peşəkar rəhbərliyi olması, güc nazirliklərin hərəsi özünü tam sərbəst və müstəqil fəaliyyəti, Bakıda və rayonlarda anarxiya, özübaşınalıq, tez-tez prezidentlərin dəyişməsi, həm də onların səriştəsiz və təcrübəsiz olmaları, dövlət əhəmiyyətli işlərə barmaq arası və laqeyid yanaşması, xalqımızı bu ağır vəziyyətə saldılar. Xalq o zamanlar doğrudan da çaş-baş qalmışdı, bilmirdi ki, kimə inansınlar, kimdən kömək, imdad, qayğı və nicat umsunlar.

SSRİ-də milli zəmində ilk qarşıdurma Azərbaycan SSR-in DQMV-i ərazisində baş verdi və qarşısı vaxtında alınmadığına görə də xalqımızın başına bu ağır bəlalar gətirildi.

Azərbaycan rəhbərliyi Respublikanın əhalisini SSRİ-də baş verən hadisələrdən kənarda qoymağa çalışırdı. Həmin dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən hadisələr bütün azərbaycanlıları siyasi mübarizəyə cəlb etdi.

HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTƏ GƏLMƏSİ



Naxçıvan Muxtar Respublikasının Ali Sovetin sədri Heydər Əliyev və Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin iştirakı ilə 1992-ci il mayın 27-də Sədərək – Dilucu ***"Ümid"*** körpüsünün açılışı oldu. Bu dövrlərdə Azərbaycanın dövlətində və hakimiyyətində böhran yaranmağa başladı. Xalq Cəbhəsinin siyasətindən narazı olanlar çoxalırdı. Belə bir şəraitdə ziyalılardan ibarət olan 91 nəfər 1992-ci ilin oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevədən böyük siyasətə qayıtmağa xahiş olunurdu.

1992-ci ilin noyabrın 21-də Naxşıvanda H. Əliyevin sədrliyi ilə ***"Yeni Azərbaycan Partiyası" (YAP)*** yaradıldı.

1993-cü ilin fevralında MDB-nin 128-ci motoatıcı alayı və muzdlu kazaklardan ibarət qoşunlar Ağdərə istiqamətində əks hücuma keçdilər və ermənilərdən azad edilmiş ərazilər yenidən işğal olundu.

1993-cü ilin martın sonunda Ermənistan – Rus qoşunları Kəlbəcər və Ağdərə istiqamətində keçən silahlı düşmən dəstələri aprelin 3-də Kəlbəcəri tutdu və iyunun 6-da Ağdərəyə doğru hücuma keçdi.

1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurası Kəlbəcərin işğalını pisləyən 822 saylı qətnamə qəbul etdi.

1993-cü iyunun 4-də Yevlax yun zavodunun direktoru, polkovnik Surət Hüseynov dövlət səviyyəsində ona vəzifə verilmədiyinə görə hiddətlənərək və öz haqqını tələb etmək üçün, həm də onun başçılığı altında 709 saylı hərbi hissə Müdafiə Nazirliyinə tabe olmayaraq, Gəncədə qiyam qaldırdı. Gəncəbasar ətrafında hakimiyyəti öz əlinə alan Surət Hüseynov Gəncə, Qazax, Tovuz, Şəmkir, Yevlax, Goranboy, Gədəbəy, Bərdə, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan,

Qubadlı və Laçın rayonlarında zor və silah gücünə rayon icra başçılarını özbaşına məcburi çıxarıb öz adamlarını qeyri-qanuni təyin etdi.

İqtidarın Gəncədə qiyamçılara qarşı uğursuz əməliyyatı Ə. Elçibəyi nüfuzdan saldı. Qiyamçılar S. Hüseynovun başçılığı altında Bakı üzərinə yeriməyə başladı və Ə. Elçibəyin istefasını tələb edərək qəti qərar irəli sürdü.

Ə. Elçibəy iqtidarı bu hadisələrdən qorxaraq, məcburiyyət qarşısında Heydər Əliyevi Bakıya dəvət etdi. Bu çətinlikləri görən H. Əliyev, həmdə 91 ziyalının xahişini nəzərə alaraq, Ə. Elçibəyin xüsusi təyyarəsilə və xalqın yeganə ümidi olan, həmdə tanınmış lider və mahir siyasətçi 1993-cü il iyunun 9-da Bakıya gəldi.

1993-cü il iyunun 10-da Azərbaycan Respublikasının Ali Sovetin növbədənkənar sesiyasında Gəncə hadisəsini tam aydınlaşdırmaq üçün H. Əliyev Gəncə qiyamçıların başçısı Surət Hüseynovla görüşmək və məsələni yerində ayırd etməkdən ötrü yola düşdü. O, Gəncədə yerli sakinlərlə və S.Hüseynovla görüşdü.

1993-cü il iyunun 12-də Bakıdan 15 km cənub istiqamətində Qaradağ rayonun "Mayak" və Duzlu ğöl ətrfında Surət Hüseynovun qöşun dəstələri toplaşaraq, qəti surətdə Əbülfəz Elçibəyin istefasını təkidlə tələb edirdi.

1993-cü il iyunun 15-də Bakıya qayıdan Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetin sesiyası qarşısında çıxış etdərək, hadisələrin olduqca gərgin və çətin olduğunu bildirdi, respublikamızın çıxılmaz vəziyyətini xatırlatdı, həm də hamını bu vəziyyətdən çıxmağı və bu işə kömək olmağa dəvət etdi.

Həmin Sesiyada Ali Sovetin sədri İsa Qəmbər istefa verdi. Heydər Əliyev yekdilliklə Azərbaycan Respublikasının Ali Sovetin sədri seçildi.

Həmin gün 15-i iyun "Milli qurtuluş günü" kimi qeyd edilir.

Azərbaycan vətəndaşları bu böyük hadisəni sevinclə qarşıladı və düşünürdülər ki, xalqın son ümidi, son xilaskarı hakimiyyətə gəldi.

1993-cü il iyunun 18-də Surət Hüseynovun ardıcıl təkidi nəticəsində Ə. Elçibəy tab gətirə bilməyərək, həm də qardaşlıq qırğınından qorxaraq Naxçıvana MR-nın, Ordubad rayonundakı

Kələki kəndinə - öz prezident postunu tərk edib, gizli şəraitdə heç kəsə xəbər vermədən doğma kəndinə gəldi.

1993-cü ilin 18-19-20-si iyununda Azərbaycan Respublikasının Ali Sovetin təcili sesiyası zamanı Ə. Elçibəyin gizli, heç bir kəsə xəbərdarlıq etmədən yoxa çıxması, bütöv respublikanı çıxılmaz vəziyyətdə qoymuşdu. AR-nın Ali Sovetin sədri Heydər Əliyevə də məlumat vermədən yoxa çıxmışdı. Hərtərəfli axtarışdan sonra, öz kəndinə getməsi məlum oldu. Ə. Elçibəylə əlaqə yaradıldı və ona nə qədər təkid etdilərsə geri dönmədi, nəhayət son məqamda o, prezident vəzifəsindən istefa verdiyini yazılı surətdə bəyan etdi.

Bundan sonra yeni prezident seçgilərinə qədər Azərbaycan respublikasını idarə etmək üçün səlahiyyəti Ali Sovetin sədri Heydər Əliyevə verildi və qərara alındı ki, oktyabrın 10-da 1993-cü il prezident seçgiləri keçirilsin.

1993-cü il avqust ayında Lənkəranda Əlikram Hümbətovun başçılığı ilə bir qrup şəxslər Azərbaycandan qeyri qanuni ayrılaraq, müstəqil "Talış Muğan Respublikası" elan edildi. Respublikada gərgin olan şəraiti bir daha ağırlaşdırdı. Bu hadisəni araşdırmaq üçün Lənkərana dövlət nümayəndəsi başda Müdafiə Naziri Rəhim Qazıyev (öz xahişi ilə) göndərildi. Nümayəndə heyəti bu hadisəni yerində öyrəndikdən sonra məlum oldu ki, Əlikram Hümbətov öz sözündə qətidir. Sonralar bir neçə dəfə dövlət tərəfindən Əlikram Hümbətova təkliflər, şərtlər, tövsiyyələr olsada o, bu yoldan əl çəkməyəcəyini bir daha bəyan etdi.

Müdrik rəhbərimiz Heydər Əliyevin göstərişi və sadə Lənkəran camaatının köməyilə, həm də bir-başa ordunun bu hadisəyə qoşulması ilə qiyam yatırıldı. Əlikram Hümbətov həbs edildi və dövlət xaini kimi ömürlük həbs cəzası verildi.

Separatçı ünsürlər respublikanın şimal-şərq bölgəsində "Ləzgistan Respublikası" yaratmaq xülyasına düşdülər. Dövlət rəhbərliyi başda H.Əliyev olmaqla, bu kortəbii qurumun başçıları "Sadvalçılar" cəmiyyətini zərərsizləşdirdilər.

Beləliklə Azərbaycan Respublikasının parçalanması təhlükəsi tam aradan qaldırıldı. Lakin bu qiyamçıların daxili çəkişmələrindən

məharətlə istifadə edən azğın ermənilər Azərbaycan torpaqlarına hücumlarını davam etdirərək: -

1993-cü il iyunun 17-də Ağdərəni;

1993-cü il iyunun 23-də Ağdamı işğal etdilər.

1993-cü iliyunun 29-da BMT-nin Təhlükəsizlik Şurası 853 saylı qətnamə qəbul etdi.

1993-cü il avqustun 20-də Prezident vəzifəsini icra edən Heydər Əliyev öz fərmanı ilə Surət Hüseynovu Baş Nazir təyin etdi.

1993-cü il avqustun 23-də Füzuli və Cəbrayıl rayonun işğal etdilər.

1993-cü il avqustun 30-da Zəngilanı işğal etdilər.

1993-cü il avqustun 31-də Qubadlını işğal etdilər.

1993-cü il sentyabrın 3-də Horadiz kəndimizi işğal etdilər.

GETMƏSƏM ÖLLƏM

Ürəyim hər an istər Horadizi,
Getsəm öldürərlər, getməsəm ölləm!
Arzumdu bir də görüm evimizi,
Getsəm öldürərlər, getməsəm ölləm!

***

Yağılar əlində qalıb inləyir,
Bizdən imdad umur, nicat diləyir.
Doğma Horadizim kömək istəyir,
Getsəm öldürərlər, getməsəm ölləm!

***

Bizə baş qaxıncı, olmaz unutmaq,
Ya əli qoynunda matəmə batmaq.
Ölümdən betərdir, qəflətdə yatmaq,
Getsəm öldürərlər, getməsəm ölləm!

***

Kompas kimi gözüm tuş obalara,
Maqnit olub çəkir məni yollara.
"İmamzadə" qalmış indi yadlara,
Getsəm öldürərlər, getməsəm ölləm!

***

İndi tənə vurur, camaat bizə,
Nə dost yaxın durur, nə yad bizə.
Mənasızdır belə yaşamaq bizə,
Getsəm öldürərlər, getməsəm olləm!

***

İllərdən bəridir düşmən sevinir,
Keçib caynağına gülşən, sevinir.
Biz ağlar qalmışıq, o şən, sevinir,
Getsəm öldürərlər, getməsəm olləm!

***

Ərşad sənə naməlumdu gələcək,
Ömür verən bəlkə, yarı biləcək.
Hamı bilir, canı olan öləcək,
Getsəm öldürərlər, getməsəm olləm!

***

1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurası Kəlbəcərin işğalını pisləyən 822 saylı qətnamə qəbul etdi.

1993-cü il iyunun 23-də Ağdamı işğal etdilər.1993-cü iliyunun 29-da BMT-nin Təhlükəsizlik Şurası 853 saylı qətnamə qəbul etdi.

1993-cü il oktyabrin 14-də Füzuli və Cəbrayıl rayonlarının işğalına görə BMT Təhlükəsizlik Şurası 874 saylı qətnamə qəbul edərək, Ermənistanın işğalını pislədi.

1993-cü il noyabrın 12-də BMT Təhlükəsizlik Şurası 884 saylı qətnamədə Azərbaycan Respublikasının zəbt edilmiş ərazilərini qeyri şərtsiz, Ermənistan qoşunların çıxarılmasına qərar verdi.

Beləliklə, Dağlıq Qarabağı və onun ətrafında olan Kəbəcəri, Laçını, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını və Zəngilanı tam işğal edərək, Azərbaycan Respublikasının 20% ərazisini Ermənistan və Rusiya qoşunları əllərində saxladılar.

1993-cü il oktyabrın 10-da Heydər Əlirza oğlu Əliyev alternativ əsasında Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezidentin and içmə mərasimində Heydər Əliyev söz verdi: "Mən prezident olduğum zaman, dövlət müstəqilliyini, ərazi bütövlüyünü, tam süverenliyini təmin edəcəyəm, əhalinin rifahını

yaxşılaşdıracağam və ordumuzu möhkəmləndirərək, işğal olmuş torpaqlarımızı azad olmasına çalışacağam".

Bu hadisəni xalq bayram kimi, böyük ruh yüksəkliyilə qarşılandı. Respublika əhalisi qəlbən rahatlandı, təlaş içində olan ürəklər sakitləşdi, daxilən Azərbaycanımızın parçalanmasını görən insanlar - indi xilaskarımız gəldi, deyərək asudə nəfəs aldilar.



Heydər Əliyevin andiçmə mərasimi

Bu hadisədən sonra bizlər də Qarabağ və ətraf rayonlar, işğal olmuş torpaqlar bir daha yağı düşmən tapdağından azad edəcəyimizə ümidimiz artdı.

1993-cü il noyabrın 2-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa mürciət edib vətənimizin müdafiəsinə çağırdı. Bu müraciətdən sonra Milli ordumuz Füzuli istiqamətində əməlıyyata başladı.

1994-cü il fevralında Füzuli rayonun Horadiz qəsəbəsi və 22 kəndini azad edildi.

1994-cü il fevralında Kəlbəcərdə Milli ordumuz "Murov dağ" əməliyyatı uğursuz olub, ağır itgi ilə nəticələndı.

A T Ə Ş K Ə S

Azərbaycan ordusunun Füzuli istiqamətində qələbəsindən narahat olan Rusiya Ermənistana hərbi yardımı gücləndirdi. Ermənilər təcavüzü genişləndirdilər. Belə bir şəraitdə atəşkəs haqqında Rusiyanın təklif etdiyi Bişkek protokolunu Afiyəddin Cəlilov özü 1994-cü il mayin 8-də imzaladı. Onu sonradan Ali Sovetin sədri Rəsul Quluyev Bakıda imzaladı. Beləliklə mayın 12-də "Atəşkəs" elan edildi.

Azərbaycan Respublikası öz ordusunu yenidən qurmaq üçün əlavə vaxt qazandı.

Azərbaycana qarşı bir sıra terrorçuluq əməliyyatları başlandı. Metroda yanğın və partlayış törədildi.



Əsrin müqaviləsini imzalayanlar

1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft şirkəti ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və Yunanıstan neft şirkətləri daxil olan konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Günəşli", "Çıraq" yatağının bir hissəsinin birgə işlənməsi haqqında 30-illik saziş imzalandı.

Bu sənəd ***"Əsrin müqaviləsi"*** adlandırıldı.

Əsrin sonunda 14 ölkənin 30 neft şirkəti ilə 57 milyard dollarlıq sərmayə qoyulması nəzərdə tutan 20 neft müqaviləsi imzalandı.

1994-cü il sentyabrın 29-da Ali Sovetin sədr müavini – Afiyəddin Cəlilovu və prezident yanında Xüsusi idarənin rəisi – Şəmsi Rəhimovu qətlə yetirdilər.

1994-cü il oktyabrin 4-də Gəncədə Surət Hüseynovun tərəfdarları İcra Hakimiyyətin binasını tutdular. Bakıda qiyamçıları Baş Nazir Surət Hüseynov müdafiə edirdi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev gecə yarısı televiziya və radio ilə, xalqa müraciət etdi və yüz minlərlə adamlar dövlətçiliyin müdafiəsinə qalxaraq Prezident sarayın qarşısında keçirilən mitinqə yığışdılar. Xalqın qəzəbindən qorxan qiyamçılar geri çəkildi.

1995-ci il martın 13-də Xüsusi Təyyinatlı Polis dəstəsi əməkdaşları Ağstafa və Qazax rayonlarında dövlət idarələrini ələ keçirdilər və Rövşən Cavadovla əlbir olduqlarını bildirdilər.

Bakıda isə Rövşən Cavadov Respublika prezidenti və Ali Soveti sədrinin istefasını tələb edirdi. Qiyamçılar 8-ci kilometr qəsəbəsində məskunlaşmışdılar. Heydər Əliyev əvvəlcə R.Cavadovun atasını onun yanına danışığa, sülhə göndərdi, ancaq Rövşən Cavadov atasının təkidinə baxmayaraq, yenə istefa tələb etdi. Heydər Əliyev Televiziya ilə Xüsusi Təyyinatlı Polis dəstə üzvülərinə müraciət edərək dedi; Hər kim silahı atıb təslim olsalar, mən onların bağışlanmasına söz verirəm.

Hökumət qüvvələri qiyamçıları zərərsizləşdirdi, Rövşən Cavadov ayağından güllələndi və xəstəxanaya çatanadək keçindi. Beləliklə, dövlət çevrilişinin qarşısı alındı.

Bir daha bundan sonra Azərbaycanda dinc quruculuq işi başladı – Azərbaycan Respublikasının xarici siyasətinin əsasını Dağlıq Qarabağ və onun ətraf 7 rayonunu azad edilməsi problemi sülh yolu ilə həll etmək, Azərbaycanın dövlət müstəqilliyini və süverenliyini möhkəmləndirmək, ölkəmizi dünya ölkələri arasında layiqli yer tutmasını təmin etmək, dostluq və əməkdaşlıq münasibətləri yaratmaqdan ibarət idi. 1995-ci il noyabrın 12-də ümumxalq referendiumu ilə Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanunu) qəbul edildi.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının parlamentinə ilk demokratik seçgilər keçirildi. Milli Məclisə müxtəlif partiyalarını təmsil edən 125 millət vəkilləri seçildi.

1996-cı ilin dekabrın 2-də Portuqaliyanın paytaxtı Lissabonda ATƏT-in zirvə toplantısında Azərbaycan diplomatiyası mühüm nailiyyət qazandı. Azərbaycan nümayəndə heyəti aşağıdakı prinsipləri Dağlıq Qarabağ problemlərinin həllini irəli sürdü.

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması;

2. Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində ən yüksək status vermək;

3. Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

ATƏT-in üzvü olan 54 ölkədən 53-ü Azərbaycan Prezidenti Heydər Əliyevin irəli sürdüyü bu prinsipləri bəyəndi. Təkcə Ermənistan bu prinsiplərin əleyhinə səs verdi, daha doğrusu Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımadı.

ATƏT-in Minski qrupu neçə illərdi ki, Azərbaycan Ermənistan və Dağlıq Qarabağ münaqişəsi həllində canfəşanlıq edib çalışsada ermənilərin qeyri konsturuktiv mövqe tutması sülh yolu ilə həllini ləngidir. Burada hər kəsin öz mənafeyi Rusiyanın, Amerikanın, Fransanın və Ermənistanın xeyrinə olmadığından bu hələlik həlli sonsuzluğa doğru gedir.

Torpaqlarımızın itirilməsinə görə bu illər ağrılı günlər yaşayırıq. Öz vətənimizdə yurd-yuvası olmayan qaçqına-köçgünə çevrilmişik. Kaş siyasət yükü ilə ağırlaşmış dünyamızda Qarabağ düyününün də sirrləri açılmış olsun.

Mən inanıram ki, Ulu öndərimiz Heydər Əliyevin yeritdiyi siyasəti xalqımız və şəxsən onun varisi, həm də davamçısı olan möhtərəm Prezidentimiz və Ali Baş Komandanımız İlham Əliyev layiqincə onun kursunu davam etdirəcək, işğal olunmuş torpaqlarımızı axır qarışına qədər sülh yolu ilə azad edəcək, əgər bu yolla mümkün olmasa, Azərbaycan Respublikasını səfərbərliyə alıb, müharibə elan edərək düşmən tapdağında olan, doğma dədə - baba torpaqlarımızı azğın və faşistsifət ermənilərdən azad edəcəyik. Bəlkə ondan sonra qanı axıdılan şəhidlərimizin və ulu torpaqlarda qalmış əzizlərimizinruhu şad olar!

İnşallah! O əzəz və sevimli qələbəmizi körəcəyik!..

Allah bizə yar olsun ki, şəhid qanı ilə suvarılmış və itirilən torpaqlarımıza hər hansı bir yolla, doğma Horadizimizə qayidib, ölənlərimizin ruhunu şad edək və İmamzadə ziyarətində olaq.

Amin!..

Bu yerdə vətənpərvər, gənc şair Nazim Abbas oğlu Abbasovun yazdığı "Aparın ay ellər o, kəndə məni" şeri hər kəsin ürəyindən, qəlbindən gələn səslərdir:

APARIN AY ELLƏR O, KƏNDƏ MƏNİ

Hər gecə yuxumda sayıqlayıram,
Hər ötən yolçudan soraqlayıram.
Düşmən zəfər çalıb, hey ağlayıram
Görməyin göz yaşı tökəndə məni,
Aparın ay ellər o, kəndə məni!

***

Doğma Horadizi, yada salmışam,
O, kəndçün Allaha çox yalvarmışam.
Üzünü görməyə həsrət qalmışam
O da, bağışlamaz görəndə məni,
Aparın ay ellər o, kəndə məni!

***

Elə bir şaxtaya, sızağa düşdüm,
Namərd tuzaq qurdu, tuzağa düşdüm.
O, kənddən nə qədər uzağa düşdüm
Qəriblik yandırır sinəmdə məni,
Aparın ay ellər o, kəndə məni,

***

Bir dəfə də gülmədi üzüm,
Nə qədər, nə qədər yol çəkər gözüm.
Qərib yaşamaqdan, yaxşıdır ölüm
Vəsiyyət edirəm, öləndə məni,
Aparın ay ellər o, kəndə məni!

*** ***Nazim Abbas – 2007***

QAN YADDAŞIMIZ

Unutmamalıyıq ki, 1988-1994-cü illər Azərbaycanın bu torpaqlarını erməni qoşunları və rus havadarları tərəfindən işğal edilmişdir;

Dağlıq Qarabağ(Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.

Şərur rayonunun Kərki və Cünnüt kəndləri(17 fevral 1990)- sahəsi 19 kv.km.

Laçın (17 may 1992-ci il) – sahəsi 1835 kv. km.

Kəlbəcər (3-4 aprel 1993-cü il) – sahəsi 1936 kv.km.

Ağdam (23 iyul 1993-cü il) – sahəsi 1094 kv.km.

Cəbrayıl (23 avqust 1993-cü il) – sahəsi 1059 kv.km

Füzuli (23 avqust 1993-cü il) – sahəsi 1386 kv.km.

Qubadlı (31 avqust 1993-cü il) – sahəsi 802 kv.km.

Zəngilan (30 oktyabr 1993-cü il) – sahəsi 707 kv.km

Bu torpaqların azad edilməsi bizim müqəddəs və ən ümdə borcumuzdur!

Əks təqdirdə şəhidlərimizin ruhu bizləri bağışlamaz.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

İLHAM HEYDƏR OĞLU ƏLİYEV







AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

Musiqisi ***Üzeyir Hacıbəyovun,***
sözləri ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

CƏNAB HEYDƏR ƏLİYEVLƏ


HƏMYERLİMİZ ÇİNGİZ ƏLƏKBƏROVUN GÖRÜŞÜ



Azərbaycan Respublikasının Prezidenti, Ulu öndərimiz Heydər Əliyevin Silahlı Qüvvələrinin, Hava Hücumundan Müdafiə qoşunlarının yeni texnikasına baxış zamanı. 2002-ci il.

Şəkildə soldan sağa: Müdafiə Naziri – Səfər Əbiyev, Prezident – Heydar Əliyev, "N" Hərbi hissənin qabaqcıl zabiti, polkovnik-letenant - Çingiz Ədil oğlu Ələkbərov və başqaları.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVLƏ HƏMYERLİMİZ YUSİF CƏFƏROVUN GÖRÜŞÜ



Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və həmyerlimiz Yusif Həsən oğlu Cəfərov (Buryatiya Respublikasındakı Azərbaycan diasporasının sədri, Sibir vilayətinin Azərbaycan diasporasının vitse prezidenti, Sibir vilayəti üzrə Azərbaycan diasporası nümayəndə heyətinin başçısı).

Şəkildə: Yusif Cəfərov Cənab İlham Əliyevə Buryatiya Respublikasının paytaxtı Ulan-Ude şəhərində öz maliyə hesabına yaratdığı "Heydar parki"nın şəklini göstərir.

Bakıda keçirilən Dünya Azərbaycanlılarının diasporasının konqresində görüş zamanı – 2008-ci il.

FÜZULİ RAYON MİLLİ QƏHRƏMANLARI.



FərzəlİyevPəhlivanƏhliman oğlu

27 sentyabr 1958-ci ildə Füzuli rayonunun Qobu Dilağarda kəndində anadan olub. Şuşa Kənd Təsərrüfatı Texnikumunu bitirib. İdmanla məşğul olan P.Fərzəliyev Şuşada keçirilən çempionatda Qarabağ çempionu adını qazanıb.

P.Fərzəliyev 1979-cu uldə orduya çağırılıb. 1986-cı ildə Orenburq Politexnik Universitetini bitirib.

BTR-n ekipaj komandiri olan Pəhlivanın taqımı Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında iştirak edib. Onun şücaəti nəticəsində Xələfşə kəndində bir erməni bölüyü və bir BTR məhv edilib. P.Fərzəliyev 1992-ci il aprelin 11-də həlak olub.

Evli idi. İki oğlu, bir qızı yadigar qalıb.

Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə baş leytenant Fərzəliyev Pəhlivan Əhliman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilmişdir.

Bakı şəhərindəki qəsəbələrdən biri qəhrəmanın adını daşıyır.



Ibrahimov Rasim Səxavət oğlu

18 aprel 1962-ci ildə Bakı şəhərində anadan olub. 1977-ci ildə C.Naxçıvanski adına Hərbi Məktəbə daxil olan R.İsmayılov 1979-cu ildək burada oxuyub. 1983-cü ildə Almaniyaya hərbi xidmətə göndərilib. 1988-ci ildə Bakıya qayıdan R.İsmayılov 1992-ci ildə o Füzuli rayonunun cəsur oğulları ilə birlikdə könüllü özünümüdafiə taboru yaradıb. Bu tabor Füzuli

rayonunun kəndlərini mərdliklə qoruyurdu. Onların taboru 1992-ci il 26 iyun Tuğ kəndi uğrunda döyüşə girir. Onlarla erməni quldurunu məhv edən döyüşçülər digər dəstənin gəlib çatmamasından mühasirəyə düşürlər. Cəsur komandir R.İbrahimov döyüşçü dostlarını mühasirədən xilas edərkən özü düşmənin mühasirəsinə düşür. Ermənilərə təslim olmayan R.İsmayılov "Azərbaycan zabiti heç vaxt düşmənə təslim olmayacaq!",-deyərək özünü qumbara ilə partladır.

Ailəli idi, iki övladı qalıb. Oğlu bu gün atasının yolunu davam etdirir.

Azərbaycan Respublikası prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə İbrahimov Rasim Səxavət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Çilov adasında abidəsi ucaldılıb, qəhrəmanımızın adına burada bağ salınıb.



Məmmədov Seymur Qəhrəman oğlu

8 sentyabr 1971-ci ildə Füzuli şəhərində anadan olub. 1978-88-ci illərdə Füzulidəki 2 saylı məktəbdə təhsil alıb. 1988-ci ildə Azərbaycan Politexnik İnstituna daxil olub. 1991-ci ildə hərbi xidmətə çağırılan S.Məmmədov hərbi xidmətini Almaniya və Ukraynada keçirib. Vətənə qayıtdıqdan sonra könüllü olaraq Füzulidəki özünümüdafiə taboruna yazılıb. S.Məmmədov bir neçə kəndin azad edilməsində, əsirlərin geri alınmasında qəhrəmanlıq göstərib. Qorxmaz qumbaraatan S.Məmmədov 1992-ci il 1 aprel tarixində Məlikcan kəndi uğrunda gedən döyüşlərdə hər birində 10 erməni yaraqlısı olan 15 post məhv ediir. O, subay idi.

Azərbaycan Respublikası prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Oxuduğu məktəb onun adını daşıyır.



Zülfüqarov Elxan Qaçay oğlu


29 iyun 1954-cü ildə Füzuli rayonunda anadan olub. 1969-cu ildə Bünyad Sərdarov adına 1 saylı məktəbin səkkizinci sinfini bitirib. Daha sonra Yevlax rayonunda orta təhsilini davam etdirən E.Zülfüqarov 1972- 1974-cü illərdə Ukraynada hərbi xidmət keçib. E.Zülfüqarov 1975-ci ildə təyinatla Novosibirsk şəhərinə göndərilir və orada milis işçisi olaraq fəaliyyətə başlayır.

Qarabağ hadisələri başlayanda E.Zülfüqarov vətənə qayıdır. 1992-ci ildə könüllü olaraq Azərbaycan ordusuna yazılan E.Zülfüqarov Laçın, Qubadlı, Zəngilan, Füzuli bölgələrində döyüşüb. 40-dan çox hərbi əməliyyatda iştirak edən Elxan xeyli erməni quldurunu məhv edib. Qısa müddətdə ona kapitan rütbəsi verilir və kəşfiyyat qrupunun komadir müavini vəzifəsinə təyin edilir. Erməni, rus dillərini səlis bilən E.Zülfüqarov 4 yanvar 1994-cü il yenidən kəşfiyyata yollandı onun əldə etdiyi məlumatlardan sonra 19 kənd azad edildi. Ermənilərin onlarla canlı qüvvəsi məhv edildikdən sonra saysız silah sursat ələ keçirildi. Döyüşçülərimiz hərbi texnikaları belə götürə bilmişdilər. 5 yanvar 1994-cü il Şükürbəyli kəndi uğrunda gedən döyüşlər zamanı E.Zülfüqarov qəhrəmancasına həlak oldu.

Ailəli idi, dörd övladı qalıb.

Azərbaycan Respublikası prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə Zülfüqarov Elxan Qaçay oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilib.



Rəfiyev Faiq Qəzənfər oğlu

22 fevral 1955-ci il Füzuli rayonunda anadan olub. 1972-ci ildə Qarakollu kənd məktəbini bitirib. 1973-75-ci illərdə Rusiyanın Arxangelsk vilayətində hərbi xidmətdə olub. 1990-cı il 20 Yanvar hadisəsindən sonra DİN-

ə müraciət edir və təcrübəsi nəzərə alınaraq Xocavənd rayonuna sahə müvəkkili göndərilir. F.Rəfiyev Axullu, Tuğ, Qaradağlı kəndlərində əsl qəhrəmanlıq göstərib. 1992-ci il yanvarın 10-da Koçbəy kəndinin erməni quldurlarından təmizlənməsi zamanı F.Rəfiyev həlak olub.
Ailəli idi, iki övladı qalıb.
Azərbaycan Respublikası prezidentinin 2 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Rəfiyev Faiq Qəzənfər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.
Doğulduğu Sarıcıq kəndində dəfn edilmişdir.
Lökbatan qəsəbəsindəki 166 saylı məktəb qəhrəmanımızın adını daşıyır.




Kərimov Bəşir Bəylər oğlu

2 fevral 1976-cı ildə Füzuli rayonunda anadan olub. 1991-ci ildə səkkizinci sinfi bitirərək texniki-peşə məktəbində təhsilini davam etdirib. 1993-cü ildən döyüşlərdə iştirak edən B.Kərimov 19 may 1994-cü ildə Azərbaycan ordusunda xidmətə çağırılır. 1995-ci il 13-17 mart hadisələri zamanı o, Azərbaycan dövlətçiliyi əleyhinə çıxmış silahlı dəstənin zərərsizləşdirilməsində iştirak edir və bu qarşıdurma zamanı B.Kərimov həlak olub.
Subay idi.
Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı fərmanı ilə Kərimov Bəşir Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.
Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİDLƏRİMİZ

(illər ardıcıllığı ilə)



1 . Namazalıyev Qurban Hüseyn oğlu
(1947 - 20.XI.1991)


Namazalıyev Qurban Hüseyn oğlu,
Qarakənddə vertalyotu vuruldu.
Dövlət xadimi kimi şəhid oldu,
Fəxri Xiyabanda əbədi yerin!



2. Məmədov Elsevər Cahangir oğlu
(1971 – 20.IV.1992)
Cahangir oğlu, Elsevər Məmmədov,
İgidtək vuruşdun, düşmədin girov.
Topundan atılan dəhşətli alov,
Məhv etdi düşməni, sən şəhid oldun!



3. Məmmədov Yusif Nəcəf oğlu
(1965 – 5.V.1992)
Məmmədov Yusif Nəcəf oğluydun,
Düşmənin gözünə, göz dağı vurdun.
Loxma tikəsinə, sən acı oldun,
Horadiz torpağın əbədi yerin!




4. Məmmədov Məhərrəm Yusif oğlu
(1948 – 17.V.1992)

Məmmədov Məhərrəm Yusif oğlunu,
Qarabağa getdin Laçın yolunu.
Atanı qocaltdın, qocaltdın onu,
Şəhidtək igidsən, bilinmir yerin!



5. Məmmədov Heydər Şurya oğlu
(1957 – 10.VII.1992)
Şurya oğlu Məmmədov Heydər ki, var,
Enişdə, yoxuşda əldən saldılar.
Səni qohumlarla ayırdı yollar,
Bilmədik öldün sən, ya əsir düşdün!



6. Əmirov Nizami Müslüm oğlu
(1974 – 15.VIII.1992)
Müslümün oğlu Əmirov Nizami,
Döyüş meydanında dayan nər kimi.
Anan dolanır sənsiz, Tərlan kimi,
Xalqıma üz vermiş, niyə bu qırğın!



7. Heydərov Muxtar Əbil oğlu
(1965 – 7.IX.1992)
Heydərov Muxtar Əbil oğlu, tankçı,
Daşnakı görəndə baxardı acı.
Düşməni məhv etmək, budur əlacı,
Sənintək şəhidi unutmaz elin!



8. Hacıyev Arif Bəhram oğlu
(1971 – 17.I.1993)

Hacıyev Arif Bəhrəm oğlu, əziz,
Vətən torpağını azad istədiz.
Onun uğrunda Arif, can verdiniz,
Şəhidlər Xiyabanı daim yerin!



9 . İmanov Yusif Tapdıq oğlu
(1965 – 10.IV.1993)

İmanov Yusif Tapdıq oğlu, iri,
Böyük tank batalyonu komandiri.
Məhv etdi səngərdə ermənilər,
Şəhid şərəfini qazanıb getdin!



10. Məmmədov İlqar Rəşid oğlu
(1972 – 10.IV.1993)

Rəşidin oğlusan, Məmmədov İlqar,
Tank batalyonunda sənin adın var.
Azğın düşmənlə mərdliklə vuruşar,
Şəhidsən, hər vaxt qalacaq adın sənin!




11. Əmirov Elman Salman oğlu
(1972 – 10.V.1993)

Əmirov Elman, Salmanın oğlusan,
Son döyüşün oldu sənin Buludxan.
Mükafatın versin səni yaradan,
Şəhid kimi unutmaz səni elin!



12. Quluyev İlqar Muradxan oğlu
(1963 – 2.VI.1993)

Quluyev İlqar Muradxan oğludu,
Silah anbarin, tankın, topun vurdu.
Topçu bölməsinə komandir oldu
Şəhidsən, Horadizdə sənin yerin!




13. Quluyev Məzahir Allahverdi oğlu
(1962 – 2.VI.1993)

Allahverdi oğli, Quluyev Məzahir,
Top atmaqda, ad qazandın sən mahir.
Daşnakı məhv etmək böyük hünərdir,
Bibioğlu İlqarla şəhid oldun!



14. İmanov Adil Tapdıq oğlu
(1970 – 3.VII.1993).

İmanov Adil Tapdıq oğlu, igiddi,
Beş tankı, üç hərbi maşını məhv etdi.
Milli Qəhrəmana təqdimat edildi,
Horadizdə əbədi qalacaq yerin!



15. Hacıyev Elçin Sovet oğlu
(1970 – 6.VIII.1993)

Sovetin oğlusan, Hacıyev Elçin,
Falçı doğru dedi, sən evlənmədin.
Müqəddəs torpaqda hünər göstərdin,
Vətən yolunda can əsirgəmədin!




16. Namazalıyev Ceyhun Ənvər oğlu
(1972 – 6.VIII.1993)

Ceyhun Ənvər oğlu, Namazalılardan,
Zərrə qədər qorxmadın sən yağıdan.
Sən vətən yolunda verdin şirin can,
Şəhidlər Xiyabanı, yer qismətin!



17. Xələfov Kamil Əliabbas oğlu
(1964 – 10.XII.1993)

Xələfov Kamil Əliabbas oğlu,
B.Bəhmənli kəndində şəhid oldu.
Ürəksə tab etmir, qəm kasam doldu,
Dördçinar kəhrizdən içmədin getdin!



18. İsmayılov Tofiq Vəli oğlu
(1973 – 26.XII.1993).

İsmayılov Tofiq Vəli oğluna,
Hər nə var, oda yazılıb alnına.
Ayaq basdınız düşmən minasına,
Şəhidlər Xiyabanı oldu yerin!




19. İsmayılov Adil Əsgər oğlu
(1969 – 10.I.1994)

İsmayılov Adil, oğlu Əsgərin,
Şahinidir Azərbaycan göylərin.
Dığaları qırıb, qürrələnirdin,
Şəhidlər Xiyabanı, oldu yerin!



20. Fərhadov Ümid Əli oğlu
(1971 – 10.I.1994).

Fərhadov Ümid Əli oğlu, mərddi,
İgid böyüyürdü, qorxu bilməzdi,
Bir cəsur oğlunu, elim itirdi,
Şəhid oğulları yad edir elin!



21. Hacıyev Murad Hüseyn oğlu
(1960 – 12.I.1994).

Hacıyev Murad Hüseyn oğlusan,
Təbiətən igid sən doğulmusan.
Vətənin keşiyində durmusan,
Şəhidlər Xiyabanında, öz yerin!




22. Quluyev Rafiq Hümbət oğlu
(1962 – 15.I.1994).

Quluyev Rafiq Hümbət oğlu, igid,
Ağır bir xəbəri çatdırdı qasid.
O, Qorqan uğrunda vuruşda, şəhid,
Göbəktala da əmanət yerin!



23. Ağayev Azər Bayramalı oğlu
(1974 – 20.I.1994).

Ağayev Azər Bayramalı oğlu,
Düşmənə qarşı getdin Laçın yolu.
Dığalar var idi yollarda dolu,
Sənin ölümünlə sarsıldı elin!




24. İbişov Bəşir Əşrəf oğlu
(1974 – 27.I.1994)

İbişov Bəşir Əşrəf oğlu, vardı,
Füzuli işğalı onu sarsıtdı.
Şəhid kimi əbədiyyətdə qaldı,
İmişli torpağı sənin məskənin!



25. Həsənov Əlövsət Əfsər oğlu
(1972 – 15.II.1994)

Həsənov Əlövsət Əfsər oğludu,
Yavərlə birlikdə kəşfiyatçı oldu.
Növbəti kəşfiyatda şəhid oldu,
Kürdəmir torpağı sənin qismətin!




26 .Əmirov Bağı İslam oğlu
(1972 – 9.III.1994)

Əmirov Bağı İslam oğlu, cavan,
Vətən uğrunda könüllü vuruşan.
Onunla şəhid oldu dörd nərcavan,
Saatlı torpağı əbədi yerin!



27. Məhərrəmov Roman Firəddin oğlu
(1973 – 18.IV.1994)

Məhərrəmov Roman Firəddin oğlu,
Torpaq uğrunda vuruşdun, eloğlu
Baş leytinant, bölmə rəisı oldu,
Seyidəhmədli döyüşündə itkin!



28 .Namazalıyev Səttar Yavər oğlu
(1970 – 5.V.1994)

Yavər oğlu Namazalıyev Səttar,
Murov dağı qışda sır-sır sızıldar.
Əzizlərin bilmir hardasan, onlar,
İtkin düşdün, yox yerini bilənin!



29. Zeynalov Güloğlan Abdulhüseyn oğlu
(1955 1.VII.1994)

Zeynalov Güloğlan, vətən oğludu,
Baş leytenant, bölmə rəisi odu.
Qizil qaya döyüşündə vuruşdu,
İtkin düşməyinə dözmədi elin!



30. Abdullayev Saleh Əli oğlu
(1974 – 10.IX.1994)

Abdullayev Saleh Əli oğlusan,
Azad vətən uğrunda vuruşmusan.
Atəş altından yaralı çıxmısan,
Şəhidlər Xiyabanı axır yerin!




31. Allacov Hüseyn Səməd oğlu
(1966 – 10.IX.1994)

Allacov Hüseyn, olduqca mərddi,
O, komandirtək hörmətə malikdi.
Saysız-hesabsız mina aşkar etdi.
Şəhidlər Xiyabanı oldu yerin!



32. Namazalıyev Bəxtiyar Əvəz oğlu
(1975 – 3.XI.1994)

Namazalıyev Bəxtiyar Əvəz oğli,
Hərbi təlim zamanı, maşın dolu.
Bilirik şəhidsən, ay vətən oğlu,
Dünyamız boşalıb, görünür yerin!



33. Mehdizadə Zaur Həmid oğlu
(1975 – 22.VII.1995)

Həmid oğlu, Zaur Mehdizadədir,
Ana gözlə məni, gecəm sənlədi.
Gözlə , ah eyləmə, qəmin mənlədi,
Qəm çəkib ağladı, Horadiz yerin!

Allah bütün şəhidlərimizə rəhmət eləsin! Amin!..

***


KƏNDİMİZDƏN GİROV DÜŞƏNLƏR
(3 sentyabr 1993-cü il)

1. Həsənova Məstan İbiş qızı(1910-1993) itkin,
2. Xələfov Cahangir Məmi oğlu(1938-1993) itkin,
3. İbişov Cümşüd Mehralı oğlu(1928-1993) itkin,
4. İsmayılova Firəngiz Şükür qızı(1942-1993) itkin,
5. Məmmədov Mehman Şurya oğlu(1946-1993) itkin,
6. Novruzova Nobat Əhəd qızı(1927-1993) itkin,
7. Soltanova Səltənət Əhməd qızı(1910-1993) itkin,
8. Ağayev Rəşid Misir oğlu(1934)- sonradan azad olub.

QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ

II-qrup

1. Ağayev Namiq Əli oğlu,
2. Əliyev Fikrət Mirzalı oğlu,
3. Əliyev Mahir Fərzalı oğlu,
4. Əhmədov Aydın Robert oğlu,
5. Əhmədov Elçin Eldar oğlu,
6. Hacıyev Alı Hüseyn oğlu,
7. Həsənov Razi Talıb oğlu,
8. Hüseynov Yusif Həsən oğlu,
9. Heydərov Tehran Əbil oğlu,
10. İbişov Elmir Müslüm oğlu,
11. İsmayılov Vahid Qəmbər oğlu,
12. İsmayilov Fazil Əyyub oğlu,
13. Kazımov Adil Həbib oğlu,
14. Quluyev Kamandar Əmir oğlu,
15. Mehdiyev Xaləddin Həsən oğlu,
16. Mehdiyev İlqar Qulu oğlu,
17. Məhərrəmov Dövran Firəddin oğlu,
18. Məhərrəmov Habil Hümbət oğlu,
19. Məmmədov Şahlar Əkbər oğlu,
20. Sultanov Yusif Baloğlan oğlu,
21. Sultanov Hikmət Məmməd oğlu,.
22. Vəliyev Rövşən Əli oğlu,
23. Vəliyev Süleyman Qürbət oğlu,
24. Yadigarov Namaz Əyyub oğlu.



Burada öz həmyerlimiz Vüqar Zakiroğlunun yazmış olduğu "Min İgidli kəndim" poemasından, şəhid İlqar Quliyevə həsr etdiyi bir parçanı verməklə şəhidlərimizin də ruhun şad etmiş olarıq!

TOPÇU İLQAR

Ucaboylu sarışın pəhlivandı bu oğlan,
Anadan doğulandan, doğulmuşdu bağrı qan.
Doğma qardaşımız tək xətrini istəyərdik,
Göy göz olduğu üçün adına "rus" deyərdik.
Zəhmətindən bəlliydi əllərinin qabarı,
İkicə oğlu idi onun dövləti, varı.
Əzəldən şişmişdi dəryaz vuran qolları,
Ulduza bənzəyirdi üzündəki xalları.
Uşaqlıqdan arxasız böyümüşdü həyatda,
Özgə bir yeri vardı toyda, düyündə, şadda.
Gülərüz, zarafatcıl, palıd gövdəli idi,
Onu görən gözəllər, dərdindən dəli idi.
Zindanlara atılsa, verməz yurdun namını,
Düşmənlərdə qoymazdı, elin intiqamını.
Əyəmməzdi qəddini, zamanın burulğanı,

Zülmə aman verməzdi, canından çıxsa qanı.!
Mənalı gözlərində gələcəyə inam var,
Ona sevinc dolu qol-qanad verən arzular
Haqsızlığa, zillətə dözə bilməyib daha,
Vətənin dar günündə, sarılmışdı silaha.
Hərbi Kommisarlığa müraciət etmişdi,
Torpağı qorumağa o, könüllü getmişdi.
Adı dillərdə gəzdi getdiyi ilk günlərdən,
Kəndə, evə dönərdi vaxtı olanda hərdən.
Çox keçmədi sorağı cəbhə boyu yayıldı,
Döyüşçülər yanında ehtiramla sayıldı.
Onun səngəri oldu Gorazıllı dağları,
İgid döyüşçü kimi, tanıdılar İlqarı.
O, döyüşçü postunda, ayıq-sayıq durar,
Doludağıdan topla, düşmənə qan uddurar.
Pərən-pərən düşərdi, hücum edən dığalar,
Zingildəyib deyərdi, başladı "topçu İlqar".
Başladı, nə başladı cavab dolu kimi,
Çaqqal bağrı yarardı əsl el oğlu kimi.
Məlumdur ki, bu qurğu bacarıq tələb edir,
Mərmilər bir zaman hədəfindən yan gedir.
Sərıştə toplamışdı, az bir müddət ərzində,
Əsil əsgər olmuşdu, əsgərlik illərində.
Topun lüləsi ilə nişan alıb atırdı,
Erməni texnikasını vururdu, partladırdı.
Cəbrayıl kənləri ona arxalanırdı,
Hücum edən dığalar, yerindəcə qalırdı.
Dəfələrlə mərc edib, yenə qalib olmuşdu,
Doludağıdan topla, düşmən topun vurmuşdu.
Ermənilər, əlindən əlindən lap cana doymuşdular,
İlqarın ölümünə hətta pul qoymuşdular.
Amma axır zamanda, gözə bikef dəyirdi,
Deyəsən belə getsə, xeyri yoxdur deyirdi.
Haqsızlıqdan, qayğısızlıqdan çox danışırdı,
Əsəbiləşib, hirsindən gözləri də yaşardı.

Göstərdiyi igidlik, faktla danılmaz idi.
Orduda özbaşınalıq ayaq açıb gedirdi,
Bilmək olmurdu, hərə öz bildiyini edirdi.
Bəzi qruplaşmalar, təxribat aparırdılar,
Döyüşkən əsgərləri, lap ruhdan salırdılar.
Bəzənsə döyüşlərdə, qurğular qurulurdu,
İrəliyə gedənlər, arxadan vurulurdu.
İlahi, meyid alveri qazanc, gəlir yeriydi,
Ölümün düşünürdü, kimlər hələ diriydi?..
Lakin o, son ayaqda, arxalandı hünərə,
Qorxu gülünc görünürdü, gözlərində bu nərə.
İlqarın mərd ürəyi, vətən eşqiylə yandı,
Şəhidlik zirvəsinə, özünü şərəf sandı.
Qorxmadı, çəkinmədi geriyə, igid kimi,
Əcəliylə oynadı, şirin bir yuxu kimi.
Kişi tək, alnı açıq görmək üçün övladın,
Yenilməz bayraq etdi, başları üstə adın.
Məzahir də onunla, eyni qərarda idi,
Acizlik hissiyatı, ondan kənarda idi.
Amansız döyüşlərdə, sınaqda olsalar da,
Onlar üçün ən ülvi dostluq vardı ortada.
O gün, o dəhşətli gün gözlərimin önündə,
Döyüşdə şəhid oldu, ikisi bir gündə!

***

Şəhid qardaşının itgisinə dözə bilməyən, onun həsrətini dönə-dönə, ürək ağrısı ilə qeyd edən İradə Muradxan qızının "Yoxdur" şerini sızlərə çatdırıram.

Y O X D U R

Günümü ağlayan yox,
Yaramı bağlayan yox.
Sinəmi dağlayan çox,
Əlac edənim, yoxdur!

***

Göz yaşım şəlalədi,
Səsim ahdı, nalədi.
Qardaşsız həyat nədi,
Dərdi bilənim, yoxdur!

***

Nədən belə olubdu,
Səni bizdən alıbdı.
İki övlad qalıbdı,
Qeydə qalanım, yoxdur!

***

Hanı onlara həyan,
Onları sən tək, sayan.
Hanı qəlbimi duyan,
Xəbər alanım, yoxdur!

***

İlqarın toy paltarı,
Göz yaşlı qalıb yarı.
Darıxır övladları,
Oda yananım, yoxdur!

***

Ürəkdə ağrı kəsmir,
Məzahir qeri dönmür.
Yazmışam, ürək dözmür,
Məlhəm qoyanım, yoxdur!

***

KƏNDİMİZİN SOSİALİST ƏMƏYİ QƏHRƏMANLARI

1. Əhmədova Hamayıl Behbud qızı



1926-cı ildə Horadiz kəndində anadan olmuş, orta məktəbi məlum II Dünya Müharibəsi zamanı yarımçıq qoyaraq, kənd təsərrüfatında işləməklə xalqına dayaq durmaq məqsədilə, pambıq becərərək dövlətə daha çox pambıq təhvil vermək uğrunda sosializm yarışına qoşulur. Hamayıl Əhmədova manqa başçısı işləyərək, pambıqçılıq sahəsində yüksək əmək göstəriciləri əldə etmişdir.

O, 1949-cu ildə öhdəsində olan 8 hektar pambıq sahəsinin hər hektarından 84,4 sentner pambıq məhsulu əldə etdiyinə görə 1950-ci ildə Hamayıl Əhmədovaya SSRİ Ali Sovetin Rəyasət Heyətinin qərarı ilə "Sosialist Əməyi Qəhrəmanı" adı verilmiş və "Qızıl ulduz", medalı və "Lenin ordeni"ilə təltif edilmişdir.

H.Əhmədova öz işini mükəmməl bilən təsərrüfatçı kimi tanınaraq V çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

O, 1943 – 1970-cü illər Horadiz kolxozunda kolxozçu və manqa başçısı kimi fəaliyyət göstərmişdir.1970 ci ildən Əmək veteranıdır. Hal-hazırda Prezident təqaüdçüsüdür.

2. Məhərrəmov Mösü Rüstəm oğlu



1912-ci ildə Horadiz kəndində anadan olmuşdur. Hələ 6 yaşında atasını itirən M.Məhərrəmov uşaqlıq vaxtından əməyə alışmışdır. 1928-cu ildən texnikaya həvəsi olduğundan traktorçu sənətinə yiyələnmişdir. 1933-cü ildə Göyçay Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş və 1936-cı ildə bitirərək doğma kəndinə qayıtmışdır.

1936-75-ci illərdə Horadiz MTS-da, "28 Aprel", "S.Vurğun", "Rusiya" və "Horadiz" kolxozlarında traktor briqadasının briqadiri vəzifəsində çalışmışdır.

1947-49-cu illər pambıqçılıq sahəsində hər hektardan 43,5 sentner pambıq əldə etdiyinə görə SSRİ Ali Sovetin Rəyasət heyətinin qərarı ilə Mösü Məhərrəmov "Sosialist Əməyi Qəhrəmanı" yüksək adı verilməklə "Qızıl ulduz" medalı və "Lenin ordeni" ilə təltif olunmuşdur.

1955-65-ci illər SSRİ Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin əmək qabaqcılı kimi 1-qızıl və 3-gümüş medalına layiq görülmüşdür.

1972-ci ildə SSRİ-nin "Kənd Təsərrüfatı Əlaçısı" adi verilmişdir.

Mösü Məhərrəmov dəfələrlə Moskvada, Daşkənddə və Bakıda keçirilən Kənd Təsərrüfatı qabaqcılların toplantılarında, iclaslarında iştirak etmişdir.

1975-80 ci illər Traktor parkının müdiri işləmişdir.

M.Məhərrəmov haqqında Azərbaycan Sovet Ensiklopediyasının VI cildinin, 538-cı səhifəsində xüsusi qeyd edilmişdir.

1981-ci ildə dünyasını dəyişib.

AZƏRBAYCAN SSR ALİ SOVETİNƏ SEÇİLMİŞ DEPUTATLAR



1. Fərəcov Cəlil Allahverdi oğlu

1900-ci ildə Horadiz kəndində doğulub. 1945-49cü illər Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir, 1939-49-ci illər Horadiz kənd sovetinin sədri olub. 1949-52-ci illər Horadiz kolxozda briqadir işləyib. 1952-57-ci illər Horadiz kəndində Qarağantəpədəqarışıq mallar maqazin-ində işləmişdir. 1961-ci ildə vəfat edib;



2. Əhmədova Hamayıl Behbud qızı

1926-cı ildə Horadiz kəndində doğulub.

1959-64-cü illər Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

(Onun haqqında əvvəlki səhifədə geniş məlumat verilmişdir);



3. Fərhadova Suruş Cabbar qızı

1929-cu ildə Horadiz kəndində doğulub.

1964-69-cu illər Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

1955-ci ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirib, təyinatla Horadiz kolxozunda aqronom vəzifəsində işləyib.

1961-69-cu illər kolxoz sədri vəzifəsində işgüzar və tələbkar başçı kimi çalışmışdır.

1969-80-cı illər Azərbaycan Dövlət

Nəzarət Komitəsinin üzvü seçilmiş və Bakı şəhərində işləmişdir.

1980-88-ci illər yenidən Horadiz kolxozuna sədr vəzifəsinə seçilmiş və özünü əsl bacarıqlı təsərrüfatçı kimi göstərmişdir;

1999-cu ildə vəfat edib.



4. Əliyeva Zeynəb Aqil qızı


1958-ci ildə Horadiz kəndində doğulub.

1985-89-cu illər Azərbaycan SSR Ali Sovetin\in deputatı seçilnişdir.

1965-75-ci illər Horadiz kənd orta məktəbində oxumuş və orta təhsilini bitirib.

1982-ci ildən Horadiz kolxozunda briqadir vəzifəsində işləmişdir. 1986-cı ildə Füzuli rayon PK-nin büro üzvü seçilmişdir.

1986-cı ildə Azərbaycan KP XXI Qurultayına və 1987-ci ildə Moskva şəhərində keçirilən SSRİ Kolxozçuların IV Qurultayına nümayəndə seçilir. 1986-92-ci illər Azərbaycan İnşaat və Mühəndislər İnstitutunu bitirmişdir. XII Beşilliyin "Əmək Zərbəçisi" döş nişanı ilə təltif edilmişdir;



5. Namazalıyev Qurban Hüseyn oğlu

1947-ci ildə Horadiz kəndində doğulub.

1989-91-cü illər Azərbaycan SSR Alı Sovetinin deputatı olmuşdur.

1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat-mühəndis fakültəsini bitirib, Azərbaycan Sənaye Tikinti Nazirliyinin 4 saylı Tikinti Trestində usta, iş icracısı, mühəndis işləmişdir. 1980-cı ildən Nazirlər Kabinetində Tikinti şöbəsində, 1987-ci ildən Naftalan şəhər İcraiyyə Komitəsinin sədri, 1991-ci il avqustdan Melorasiya və Su Təsərrüfatı Nazirin birinci müavini vəzifələrinə təyin edilmişdirr. 1991-ci il noyabrın 20-də Hərbi vertalyotda Dövlət nümayəndələri ilə birlikdə şəhid olmuşdur. Q. Namazalıyevi Qarabağ şəhidi kimi "Fəxri xiyabanda" dəfn

olunmuşdur. Adını əbədiləşdirmək üçün Horadiz kənd Mədəniyyət sarayının qarşısında və Horadiz kənd orta məktəb binası qarşısında onun büstü qoyulmuşdur. 1992-ci ildə Horadiz kolxozuna Qurban Namazalıyevin adı verilmişdir;



6. Xələfov Məhəmməd Süleyman oğlu

1923-cü ildə Dördçinar kəndində doğulub. 1985-89-cu və 1989-94-cü illər Azərbaycan SSR Ali Sovetinə iki dəfə deputat seçilmişdir. 1941-45-ci illər Dünya Müharibəsi veteranıdır. 1954-cü ildə namizədlik dissertasiyasını müdafiə edərək hüquq elmiləri üzrə elmlər namizədi adını alır. 1959-62-ci illər arasında Azərbaycan Elmlər Akademiyasında hüquq və fəlsəfə şöbəsinin rəhbəri olmuşdur. 1962-ci ildən 18 il ardıcıl olaraq Bakı Dövlət Universitetin hüquq fakültəsinin dekanı olmuşdur. Sonralar isə "Mülki hüquq", "Mülkü prosessual" və "Əmək – ailə" hüquqi kafedralarına rəhbərlik etmişdir.

1974-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək - hüquq elmləri doktoru elmi dərəcəsini almışdır.


Professor M.Xələfovun son fəaliyyəti müstəqil Azərbaycan Respublikasının Parlamentində "Hüquq komissiyası"na rəhbərlik etmişdir. Çoxlu təkliflərlə bərabər 7 monoqrafiyanın, 100-dən artıq məqalənin müəllifidir.

Görkəmli hüquqşünas, vətənpərvər ziyalı, sadə və təvözökar bir insan M. Xələfov ikinci "Fəxri xiyaban"da 1992-ci ildə dəfn edilmişdir.

***

HORADİZİN GÖRKƏMLİ ZİYALILARI

ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ



Nuruyev Əli Xudu oğlu

1939-cu ildə Horadiz kəndində anadan olmuş və həmin kənd orta məktəbini bitirmişdir. 1963-cü ildə Azərbaycan Dovlət Universitetinin, iqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirib, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutuna göndərilir və orda aspiranturada oxuyur.

1969-cu ildə dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsini alır və 1970-ci ildə gənc alimlərin elmi əsərlərin Respublika müsabiqəsində birinci yeri tutmuşdur.

1972-79-cu illər AMEA-nın Naxçıvan Elm Mərkəzində İqtisadiyyat şöbəsinin müdiri təyin edilir. 1977-ci ildə Ə.Nuriyevə "Böyük elmi işçi" elmi adı verilmiş, həm də SSRİ Elmlər Akademiyasının "Sosializmi yarışın qalibi" döş nişanı almuşdır.

1980-81-ci illər Ümumittifaq Kooperativ Ticarəti, İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Azərbaycan filialında elmi hissə üzrə direktor müavini vəzifəsində işləmişdir.

1991-ci ildə öz ixtisası üzrə dissertasiyasını müdafiə edərək "İqtisad elmləri doktoru" professor dərəcəsini almışdır.

1992-2002-ci illərdə AMEA-nın İqtisadiyyat İnstitutunda şöbə müdiri vəzifələrdə işləmişdir. 2001-ci ildə AMEA-nın Müxbir üzvü seçilmişdir. 2000-2009-ci illərdə AMEA-nın "Fəxri fərmanı" ilə təltif olunmuşdur. 2009-cu ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə Ə.Nuriyevə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

2002-ci ildən hal-hazıra kimi Azərbaycan Respublikası Prezdenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin müdiri vəzifəsində çalışır. Ə.Nuriyevin 200-dan çox elmi, elmi metodik əsəri, o cümlədən 15 kitabı və

kitabçası çap olunmuşdur. Onun rəhbərlik etdiyi şöbədə 2 elmlər doktoru hazırlanmışdır, o, özü 15 elmlər namizədi, 1 elmlər doktoru hazırlamışdır. Həmçinin 5 aspirant və dissertantın elmi rəhbəri, 2 doktorluq dissertasiyasının elmi məsləhətçisidir.

Hazırda Respublika Prezdenti yanında Dövlət İdarəçilik Akademiyasının professorudur. Pedaqoji işini davam etdirərkən, ona "Ustad" ali jurnalistika və "Qızıl qələm" mediya mükafatına layiq görülmüş, tanınmış vətənpərvər eloğlu;



Namazalıyev Hüseyn İbad oğlu


1925-ci ildə Horadiz kəndində anadan olub və həmin kənddə orta təhsilini bitirib. 1943-cü ildə könüllü olaraq cəbhəyə getmiş və Qafqaz, Krım və Ukraynada gedən ağır döyüşlərdə vuruşmuşdur. Üç dəfə yaralansa da yenidən sağalaraq ön cəbhəyə qayıdıb. Vətən Müharibəsində igidliyinə görə Birinci dərəcəli "Böyük Vətən Müharibəsi" ordeni ilə təltif edilib və bir neçə medallara layiq görülüb. 1944-cü ildə ağır döyüş zamanı yaralanmış və ordudan tərxis olunub. 1952-ci ildən Horadiz Maşın Traktor stansiyasında mühasibi vəzifəsində işləmişdir. 1951-56-cı illər Azərbaycan Dövlət Universitetinin, mühasibat uçotu fakültəsini bitirib. 1956-cı ildən MTS-də baş mühasib vəzifəsində işləyib.

1960-cı ildən Bakıya dəvət alan H.Namazalıyev "Azərkənd-texnika" birliyində baş mühasibi vəzifəsinə təyin edilir. 1971-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində baş müəllim kimi dəvət alır. 1972-ci ildə iqtisad elmləri üzrə dissertasiya müdafiə edərək, elmlər namizədi alimlik dərəcəsi alır. 1999-cu ildə ixtisası üzrə dissertasiya müdafiə edərək İqtisad elmləri doktoru, professor dərəcəsinə layiq görülür.

2000-ci ildə Avroasiya Beynəlxalq Akademiyanın Fəxri üzvü seçilir, görkəmli ziyalı.

2001-ci ildə vəfat edib.

Azərbacanın Xalq artisti, Əməkdar müəllimi Seyid Şuşinski



1870-80-cı illərdə Qarabağda və xüsusilə də Şuşada aclıq baş verir. Həmyerliləri bu acınacaqlı vəziyyətini nəzərə alan Xan qızı Xurşud Banu Natavan aclıq çəkən şəhər yoxsullarına yardım etmək məqsədilə şəhərin tacirlərini bir yerə yığıb ianə toplamağı təklif edir. Xan qızı özü 150 manat qızıl pul verir. Beləliklə 15 çuval buğda, 50 pud un, və 1617 manat pul toplanır. Bu isə yoxsulları tam qane etmir və qışda aclıq daha da şiddətlənir. Ona görə də Xan qızı bir neçə taciri ailəsi ilə birlikdə Şuşadan qəza kəndlərinə köçürməyə və orada əkinçiliklə məşğul olmağa, həm də Şuşa camaatını taxıl məhsulu ilə təmin etməyə məcbur edir.

1880-cı ildə Şuşadan köçənlərin biri də Seyid İbrahim bizim Horadiz kəndinə köçür və əttar dükanı açır. Az bir zamanda kənd kənd camaatının hörmət və izzətini qazanır. 4 il Seyid İbrahim torpaq alıb, buğda, arpa əkdirib, becərtdirib və taxılları arabalarla Şuşaya göndərir və Şuşa camatını aclıqdan qurtarır.

Şuşada aclıq illəri qurtarsada o, Şuşaya qayıtmır, beləki Horadiz kəndinin adamları, mühiti onun xoşuna gəlir, həm də Horadiz kəndi Qarabağla İran arasında bir ticarət mərkəzi bazarı olduğuna görə burada qalıb yaşamağı məsləhət bilir.

Seyid İbrahim Horadizin Qarağan təpə məhəlləsində ev tikdirir və qonşuluğunda yaşayan, Toppuzlu nəslindən olan Məhparə xanımla 1884-cü ildə evlənir. Məhparə xanım dövrünün çox gözəl qadını imiş, onun şərq gözəllərinə məxsus uca boylu, ala gözləri, çatma qaşları, incə beli istər-istəməz hamının diqqətini cəlb edirmiş.

Seyid İbrahim ilə Məhparə xanımın birgə yaşayışından üç oğlu dünyaya gəlir: Zülfüqar-1885-ci il, Seyid Miriş-1887-ci il və kiçiyi Mir Möhsün-1889-cu il.

Beləliklə Mir Möhsün ağa Seyid İbrahim oğlu Seyid Şuşinski 1889-cu il aprelin 12-də Şuşa qazasının Horadiz kəndində dünyaya göz açıb. İlk təhsilini Horadiz mədrəsəsində alan Seyid ərəb və fars dillərini dərindən öyrənib. Balaca dostlari Əsəd Mirzalı oğlu və Əsəd Əmrah oğli ilə birlikdə İmam yalina tez-tez cıxıb oxuyardılar. Hər üçünün gözəl səsi vardı. Ancaq Seyidin səsi daha ahəngdar, daha da gözəl və cazibədar idi.

Seyid İmam yalında elə oxuyardı ki, o zaman zalımların əlindən qaçaq düşmüş qaçaq Süleyman da onun səsini Əhmədallar kəndindən eşidib, öz dəstəsilə İmam yalına gələr və Seyidin gəzəl səsinin məftunu olardı. Bu görüşlərin birində qaçaq Süleyman Seyidə bir qızıl onluq verib deyir: - *"Seyid sən səsini qoru, indı mən sənə bir qızıl onluq verdim, ancaq vaxt gələcək sənin başına ləl-cəvahirat töküləcək"*. Seyid bu sözü ömrü boyu yada salardı.

Ata və anasının ölümündən sonar, yetim qalmış Seyidi xalası öz himayəsinə götürüb saxlayıb.

Seyid deyir: - Xalam Məşədi Hürzad dövrünün savadlı, açıq fikirli xanımı idi, çox incə səsi var idi. Xalam mənim səsimi eşidəndən sonar məni də özü ilə qadın toylarına aparardı. Mənə də ara bir oxumağa təklif edərdi və mənə musiqini qavramağı və onun ritmini tutmağı öyrədərdi. Xalam çox muğamlara bələd idi, ancaq o, "Orta mahuru" çox gözəl oxuyardı.

1904-cü ildə Horadiz kəndində yeni açılmış məktəbdə öz natamam təhsilini davam etdirir və toylardan qazandığı pullarla bu məktəbə birbaşa öz maliyyə yardımını həmişə ödəyirdi.

XIX əsrdə və XX əsrin əvvəllərində Şuşa şəhəri bütün Qafqazın koservatoriyası isə, Zaqafqaziyanın hər yerindən şairlər, dramaturqlar, məşhur artistlər gələr, teatr tamaşaları göstərər, el şənliklərində iştirak edərdilər. Bu zəngin mühiti nəzərə alan Seyidin əmisi Məşədi Seyid Əli qardaşı oğlunu Horadizdən 1907-ci ildə Şuşaya gətirir. Seyidin bir peşəkar xanəndə kimi tanınmasında, poeziyanın beşiyi olan Şuşanın böyük rolu olur.

Əmim Seyid Əli dövrünün tərəqqipərvər adamı idi, həm də musiqişünas kimi ad san çıxarmışdı. Mənim musiqi təhsilim ilə özü məşğul olurdu. Əmimin evi Cabbar Qaryağdı oğlunun evinin yanında

idi və onunla dostluq edərdi. Məni özü ilə Cabbarın yanında məclislərə aparardı. Cabbara mən qulaq asanda ürəyim yanırdı, onun kimi oxumağa həmişə can atardım. Saatlarla Cabbarın vallarına qulaq asar, həmişə və onun kimi oxumağa çalışardım. Etiraf edim ki, xanəndə kimi yetişməyimdə Cabbar Qaryağdı oğlunun böyük təsiri oldu.

O dövrün məşhur xanəndəsi İslam Abdullayev Seyidin Şuşada ilk çıxışını belə xatırlayır: - 1908-ci il Şuşanın yay klubunda böyük zalında konsert vardı. Qarabağın məşhur xanəndələri ilə birlikdə mən də dəvət olunmuşdum. Klubun ətrafına mindən çox adam toplaşmışdı. Seyid "Mahur" muğamını elə oxudu ki, hamı heyran qaldı. Sonra "Bayatı Şirazı" oxudu və sonra "Qatar"-a mənə bu möcüzə kimi göründü. Çün ki, bunu şox xanəndələr tək zil səs yox, həm də böyük ustalıq tələb olunurdu, 19 yaşlı gəncdə belə bir istedada heyran qalan Cabbar ayağa qalxıb öz şəxsi qavalını Seyidə bağışladı, və dedi: - Hə camaat indi mən ölsəmdə daha qəmim yoxdar, çünki məndən sonra Seyid var!

Bu hadisədən sonra gənc Seyid geniş şöhrətə sahib oldu. Amma musiqi elmini dərindən öyrənmək üçün əmisi Seyid Əli onu o dövrün ən görkəmli mütəfətkiri və musiqişünası Nəvabın kursuna yazdırır. 2 ildən artıq musiqi təhsili alır.

1911-ci ilin yayinda Şuşanın ən səfalı yeri olan Duzxananın həyətində böyük musiqi şənliyi keçirilir. Bu məclisdə ustad xanəndələrlə bərabər 22 yaşlıSeyiddə dəvət olunmuşdu. Gənc xanəndənin "Bayatı İsfahan" muğamatının tam dəsgahı ilə oxuması hamını heyran edir. Qaş qaralanda isə, şəhərin İrəvan qapısında isə 150 atlının müşayətilə Seyid İslam Abdullayevlə birgə "Qarabağ şikəstə"-sini ifa edirlər. Bu möhtəşəm mənzərə Şuşalıları riqqətə gətirir. Həmin hadisədən sonra bütün Qarabağda Seyidin şöhrəti daha da artır və onunla məclislərdə iştirak etməyi hər bir sənətkar özünə şərəf sayır.

1911-ci ildə Seyid Şuşada Məşədi Cəmil Əmirovla tanış olur. Məşədi Cəmil isə onu Gəncəyə dəvət edir. O zaman Gəncə şəhəri Yelzavapol quberniyasının mərkəzi olduğundan burada tez-tez musiqi məclisləri keçirilirdi. Gəncədə "Tehran" mehmanasında

yaşayan Seyidin çıxışları az vaxt ərzində özünü sevdirməyə vadar edir. Çox keçmədən o, Şəmkir, Tovuz, Qazax mahallarında, hətta Tiflis şəhərində böyük şöhrətə sahib olur.

XX əsrin əvvəllərində Zaqafqaziyanın mərkəzi olan Tiflisdə bir sıra mədəniyyət mərkəzləri fəaliyyət göstərirdi.

1911-ci ildə şəhərdə "Obşestvennaya" cəmiyyəti Seyid Şuşinskini səhnəyə dəvət edir. Onun çıxışı böyük alqışla qarşılanır. Beləliklə, Seyidin həyatının Tiflis dövrü başlanır. O zaman tamaşaçıları teatra cəlb etməyə görə fasilələrdə oxumaq üçün xanəndələr dəvət edilirdi.

Ən böyük mədəniyyət ocaqlarından biri olan "Narodnıy dom" klubunda Azərbaycan teatr truppası ayda 2 dəfə tamaşalar göstərilirdi. Seyiddə bu tamaşaların fasilələrində oxuyardı, onun çıxışları tamaşaya gələnlərin sayını artırırdı. Tiflis həyatında Seyid "Molla Nəsrəddin"-in jurnalının redaktoru Cəlil Məmmədquluzadə ilə tanış olur. Mirzə Cəlilin musiqi alətlərində çalmağa olan həvəsi məhşur Seyidlə dostluğuna müsbət təsir edir. Cəhalətə, avamlığa, nadanlığa qarşı olan nifrəti və mənəviyyatı dərk edən Seyid, Tiflisin kübar ailələrinin məclislərindən əldə etdiyi gəlirdən jurnalın nəşrinə sərf edirdi.

Azərbaycan teatr tarixinin parlaq simalarından biri olan Hacıağa Abbasov o günləri belə xatırlayır: - 1912-ci ildə Hüseyn Ərəblinski ilə bərabər Tiflisdə Mirzə Cəlil ilə görüşdük o, məni öz evinə dəvət etdi. O zaman "Molla Nəsrəddin" jurnalı Mirzə Cəlilin müdiriyyəti altında Tiflis şəhərində nəşr olunurdu. Söhbət əsnasında Mirzə Cəlil dedi: - Pulumuz az olduğuna görə jurnalın 2 çapı mətbəədə qalmışdı. Bu günlərdə Seyid Şuşinski jurnalların hər iki nüsxəsinin pullarını ödədikdən sonra, dübarə olaraq mənə 200 manat pul göndərmişdi. Mirzə Cəlil haqlı idi, Seyid öz şəxsi mənfəətini güdən sənətkarlardan olmamışdı.

Azərbaycan mədəmiyyətinin inkişafı naminə etdiyi əvəzsiz xidmətlər unudulmazdır.

1912-ci ildə Cəlil Məmmədquluzadənin təşəbbüsü və Seyidin şəxsi maddi yardımı ilə Tiflisin azərbaycanlılar yaşayan "Meydanbazar" hissəsində "Auditoriya" adlı yenı mədəniyyət klubu

açılır. Klubda konsertlərlə yanaşı, teatr tamaşaları göstərilirdi. Burada Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Sidqi Rühulla, Mustafa Mərdanov və başqaları toplaşaraq Azərbaycan dramaturgiyasının, xüsusilə Üzeyir Hacıbəyovun operalarını və musiqi komediyalarına quruluş verən aktyor Mustafa Mərdanov xatirələrində yazırdı: - Mən Seyidlə Tiflisdə tanış olmuşam. Seyid Şuşinski Tiflisdə şöhrət qazanmış əsl xalq xanəndəsidir. Seyid Tiflis səhnəsində İbnsalam, Əsgər, Sərvər rolunda özünə məxsus orjinallıqla ifa edirdi. Seyid çıxışlarında bizdən məvacib almırdı, əksinə tamaşa üçün lazım olan xərcləri ödəyirdi. O, kasıb tələbələrə də yardım ödəyirdi, incəsənət və ədəbiyyat xadimlərinə olan köməyi həqiqi bir messanat adlandırmaq olardı.

1912-ci ildə Tiflis Müsəlman xeyriyyə Cəmiyyəti məhşur aktyor-rejissor Hüseyn Ərəblinskini Tiflisə dəvət edir. H. Ərəblinski Seyidin səsinə və sənətkarlıq qabiliyyətinə böyük qiymət verir. H. Ərəblinski Tiflisdə hazırladığı teatr tamaşalarının fasilədə Seyidə oxumağını təşkil edirdi. Bir dəfə isə o, "Kazyonnıy" teatrın binasında Seyidin iştirakı ilə şərq konserti təşkil edir.

H.Ərəblinskinin təşəbbüsü ilə Seyid ilk dəfə olaraq səhnəyə bir qiyafədə çıxdı. Əynində frak, ağ ipək köynək, əllərindəağ əlcək, cibində ağ ipək dəsmal və qızıl medalyon, boynunda qara bantla səhnəyə çıxdı və bunu görcək hamını heyrət bürümüşdü. Şərq musiqisinin ifaçılıq ənənəsinə görə, adətən xanəndə tarın və kamançanın müşayətilə oxuyardılar, lakin Seyid burada yenilik etmişdi. Səhnəyə o zaman İtaliyada təhsilini yenicə bitirib Tiflis şəhərinə gələn, Tiflis şəhərində İran konsulu Məcid Əl Səltənətin qizinin fortepianinoda müşayətilə, ayaq üstə "Bayatı Şiraz" muğamını oxudu.

H.Ərəblinski ilə Seyidin bu iki böyük sənətkarların dostluğu 10 ilə yaxın davam edir. 1919-cu ildə H. Ərəblinski həyatına qəsd edir, yaxın dostunun qəfil ölümü Seyid üçün ağır itgi olur. Hər dəfə H. Ərəblinskini xatırlayanda Tiflisdə keçən günlərimiz gözümün önündə canlanır. Mən teatr sənətinin nə olduğunu yalnız onun oynunda dərk eləmişəm.

Seyid səhnəyə çıxanda nəinki tamaşaçılar, hətta Tiflisin ən məşhur aktyorları xüsusilə, rus rejissorları gəlib ona heyrətlə tamaşa edərdilər.

1913-14-cü illərdə S.Şuşinski "Ekstrafon" cəmiyyəti tərəfindən 2 dəfə Kiyev şəhərinə dəvət edilir. O, burada "Çahargah", "Nəbah", "Bayatı İsfahan", "Humayun", "Rast", "Mahur", "Zabul", "Kürd Şahnaz", "Mirzə Hüseyn seygahı", "Mani", "Osman" muğamlarını oxuyaraq qramafon valına yazdırmışdı.

Görkəmli musiqi tədqiqatçısı Firudun Şuşinski "Seyid Şuşinski" adlı kitabında yazır: - Mən ilk dəfə Seyidin səsini 13 yaşım olanda eşitmişəm. Seyid "Bayatı İsfahan" muğamına qulaq asmışam. Hamı Seyidin gözəl səsindən məftun olurdular və indi də o səsdəki gözəllik və əzəmət qulaqlarımdan getməmişdir. Seyidin adı çəkilərkən hər bir azərbaycanlı öz xalqının istedadının nə qədər böyük qüdrətə malik olduğunu anlayır.

Qurban Pirimovun xatirələri: - Əşi bilmirsiniz ona hörməti necə edirdilər, sən brilyantdan, daş-qaşdan danış. Onun başına o qədər daş-qaş tökürdülər ki, gəl görəsən. Yaxşı yadımdadır, hətta gözəl qadınlar barmaqlarında gözəl brilyant üzükləri çıxarıb Ağanın qavalına tökərdilər. Cabbar Qaryağdı oğlu deyərdi: - Seyid şərq musiqisinin incisidir.

Seyid Şuşinskiyə adi musiqiçi demək olmaz, o, öz millətini tərəqqisi, gələcəyi haqda düşünən, onun incəsənətini şöhrətləndirən mədəniyyət xadimidir. Şübhəsiz ki, Seyid başqalarını nisbətən varlı idi. O, Qafqaz Canişinin saray müğənnisi olmaqla yanaşı Tiflisdə bir sözlə millətinin maddi ehtiyacını ödəyirdi.

Seyid Şuşinskinin Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi böyük sənətkarlarla dostluğunu, onun görkəmli bir mədəniyyət xadimi kimi inkişaf edib tanınmasında müsbət təsiri olmuşdur.

Azərbaycan xanəndələri arasında ilk dəfə ictimai-siyasi məzmunda şer və qəzəl oxuyan Seyid olmuşdur. Xanəndə xalqı mübarizəyə çağıran, ona öz haqqını tələb etməyə təlqiq edən, ayıl ey millət, mən bir türkəm, mənzumların marşı kimi, mübariz ruhlu mahnılar ifa edərdi.

Seyid deyirdi: - Mən muğam oxuyanda sözləri əsasən Hafizdən, Füzulidən, Seyid Əzim Şirvanidən oxuyuram, amma Hüseyn Cavid şerlərinə daha çox. Onun şerlərinə, onun qabiliyyətinə ikinci bir şair şair tanımıram. Şeirlərindəki məntiq, məna daha çox, Cavidin şerləri də özü kimi, daha çox üsyankar, dövrünün narazı, xalqı mübarizəyə, ədalətə çağıran, onun şerləri ən çox üsyankar "Çahargah"-da, döyüş ruhlu "Mənsuriyyə" üstündə oxuyuram.

1916-cı ildə Seyid, Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər tamaşasında iştirakı ilə Bakıya gəlir. Bu barədə şəhərin izdihamlı yerlərində "Seyid Bakıya xoş gəlmişdir sözləri ilə afişalar vurulur.

Cəlil bəy Bağdabəyov yazır: - Seyid Şuşinski ilk dəfə oxumağını Tağıyevin teatrında eşitdim. O zaman teatrda qoçular xuliqanliq edib çox şuluqluq salırdılar. Seyid səhnəyə oxumağa hazırlaşarkən, tamaşaçılar onu tanımadığına görə səs-küy saldılar. Lakin Seyid "Qatar" muğamına başlayanda salonda görünməyən sakitlik oldu. O, nadir halda tapılan və tamaşaçıları bir anda özünə məftun edən, səsə və ahəngə malik olub. Bütün məclis əhlini özünə qulaq asmağa məcbur edərdi. Tənəffüsdə tamaşaçılar biri-birinə deyirdilər: - Halal olsun Qarabağ torpağına və Horadiz kəndinə belə səs yetişdirib. Cavan oğlan olasan, belə ustalıqla oxuyasan. Ə, kişidə böyük sənət var ee! Bundan sonra Seyidin Şöhrəti Bakıda daha da artır. Varlı ailələr tərəfindən toylara daha çox dəvətlər alsa da o, ictimayi yerlərdə, şərq konsertlərində, geniş xalq kütlələri qarşısında çıxış etməyi üstün tutardı. Seyid xalqın xeyriyyə işlərində yaxından iştirak edirdi, kasıb təbəqələrin və aclıq çəkən azərbaycanlı kəndlilərin mənafeyinə çoxlu konsertlər verərdi.

1924-26-cı illərdə Azərbaycan Dövlət Akademik Teatrında çalışan Seyid bir çox tamaşalarda baş rollarda çıxış etməklə, teatr sənətinin inkişafına da öz töhvəsini vermişdi.

1926-cı ilinsonunda Üzeyir bəy Hacıbəyovun təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasına dəvət olunur. O, Cabbar Qaryağdı oğlu və Keçəçi oğlu Məhəmmədlə birlikdə, yeni açılmış xanəndəlik sinfində muğamların tədrisi ilə məşğul olaraq, yeni nəslin xanəndələrəni yetişdirirdi.

S.Şuşinski klassik, şərq və Azərbaycan muğamlarına dərindən bələd idi. O, müstəqil və orjinal sənət yoluna malik bir sənətkardı. Seyid nadir istedada, geniş musiqi hafizəsinə və yüksək ifaçılıq mədəniyyətinə malik bir xanəndədir.

Əgər C.Qaryağdı oğlu klassik muğam musiqimizin düşünən beynidirsə, Seyid isə bu musiqinin çırpınan ürəyidir.


Fikrət Əmirov deyir: - Mən fəxrlə deyə bilərəm ki, "Şur ovşarı" muğamını yazılarkən Seyidin mənə böyük köməyi olmuşdur.

S.Şuşinski bir çox muğamlara yeni guşələr, xallar, hissələr, hətta əlavələr edərdi. "Rast" və "Kürd Şahnaz" muğamlarının dilkeş hissəsini ilk dəfə Seyid oxudu.

Seyid özü deyirdi: - Mənim sənət yoldaşım Məşədi Cəmil Əmirov, Şirin Axundov, Məşədi Zeynal, Qurban Pirimov, Bəhram Mansurov olmuşdur.

Bəhram Mansurovun dedikləri: - Günlərin bir günündə bizim evdə Fikrət Əmirovla musiqidən söhbət edirdik, bu dəmdə qapı döyüldü, qapını açanda gördüm ki, Seyid Şuşinski gəlib. Dedim Fikrət müəllim yaxşı oldu Ağa da gəlib, biz onu oxudarıq və səsini lentə yazarıq. Mənim bir mavrintim var onu çalırdım, Ağa da qulaq asırdı, birdən Ağa zildən bərdaş edərək oxudu. Fikrət mənə tərəf üz çevirib dedi: - A, kişi bu yaşda bunun səsi elə yerindədir. Dedim bəli yerindədir, bu səsi yazmaq olar? Dedi: - Hə, yazmaq vacibdir. Mən Fikrət müəllimdən xahiş etdım ki, səs yazma studiyasını 4 saat versəydiniz, bunun səsini yazardıq

!964-cü ildə Ağa ilə məni Kürdəxanıya dəvət etdiklərinə görə getdik. Burada onu sevənlər çox olduğundan bizi çox hörmətlə qarşıladılar. Məclisdə Ağadan xahiş etdilər ki, "Çahargah"-ı dəsgahı ilə oxusun. Ağanın da ən sevdiyi "Çahargah" idi. Ağa "Mənsuriyyə" pərdəsində bərdaş hissəsi 7 dəqiqə çəkdi, sonra bir saat 15 dəqiqə "Çahargah"-ı elə oxudu ki, qurtaranda da qoymadılar bizi çalmağa. Dedilər camaat bunun üstündən ayrı şey ləzzət eləməz,



bəsdir, qoy bu ”Çahargah” bizim qulaqlarımızda qalsın. Sonra xahiş etdilər ki, tez-tez gəlin və o gözəl səsinizlə bizi feyziyab edin.

Seyid deyir: - “Çahargah” çox ağır muğamdır, həm də oxuyan üçün də ciddi imtahandır. “Çahargah”-ı səsi yüksək diapazona malik olmayan xanəndə oxuya bilməz. “Çahargah”-ın bəzəyi və qaymağı mənsurədir. Böyük konsertlərdə və məclislərdə “Çahargah”-ı mayedən başlamaq, dinləyiciləri tez yorar, ona görə də məclisi ələ almaq üçün xanəndə mənsuriyyədən başlamalıdır. Məsuriyyəsiz “Çahargah” günəşsiz torpağa bənzər. Bilirsiniz bizim dövrümüz tamam bam-başqa idi, o vaxtı xanəndə olmaq üçün xüsusi məktəb olmazdı, qabiliyyəti, istedadı olanları qoyardılar məhşur oxuyanların yanına. Fərasəti olanlar bir-iki il onların yanında olar, görüb götürər, öyrənər, hə indi dövr zəmanə başqadır. Mənim sizə bir ağsaqqal kimi, təcrübəli bir xanəndə kimi tövsiyyəm budur: - Lüzumsuz şeylərə əbəs vaxt itirməyi bir yana qoyub, səsinizi necə işlətməyi öyrənin, bununla yanaşı bizim keçmiş oxuyanlarımızı, musiqi bilicilərimizin yaradıcılıq irsini öyrənmək çox rol oynaya bilər.

Seyid Şuşinski görkəmli sənətkar, həm də böyük pedoqoq idi. Azərbaycan xanəndələrindən böyük bir nəsli onun yetişdirməsidir. Ömrünün son illərinədək böyük xanəndə Asəf Zeynallı adına musiqi texnikumunda muğamın sirlərini gənc xanəndələrə öyrədirdi.

Seyid Şuşinskinin bu xidmətləri Dövlət tərəfindən qiymətləndirilərək ona “Azərbaycan Xalq artisti”, “Əməkdar müəllim” yüksək fəxri adları verilmiş, “Şərəf nişanı” ordenı və bir sıra medallarla təltif edilmişdir. Müxtəlif “Fəxri fərmal”-lara layiq görülmüşdür.

Həyatını bütövlükdə muğam sənətinə həsr edən böyük sənətkarın ömür yolu heç də hamar olmayıb, o, ömrünün son illərini öz tələbələrindən biri olan Nəriman Əliyevin Buzovna kəndində onun üçün tikdirdiyi kiçik evdə keçib.

Azərbaycan muğam ifaçılıq sənətinin ən parlaq incisi sayılan, qayğıkeş müəllim, təvəzökar insan Seyid Şuşinski çox sevdiyi payız fəslində 1965-ci il noyabrın 1-də əbədiyyətə qovuşdu.

Yaxın və orta şərqdə şöhrət tapmış Mir Möhsün Ağa İbrahim oğlu Seyid Şuşinski – Azərbaycan Xalq musiqi mədəniyyəti

tarixində fəxri yeri, unudulmaz və müstəsna xidməti olan, həm də gələcək nəsillərə bir örnək sayılan sənətkardır. O ömrünün 60 ilini xalqının müsuqi mədniyyətinə, onun tərəqqisinə bütün qüvvəsini, maddi və mənəvi yardımını əsirgəməmişdir.

Seyid Şuşinski Azərbaycan Milli musiqi mədniyyətinin nadir bir incisidir.



Abbasov Abbas Məhəmməd oğlu

1923-cü ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur.

1950-ci ildə Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirdiyindən Universitetdə saxlanılır.

Universitetin fizika-riyaziyyat kafedrasının pedoqoqu işləyib. Fizika-riyaziyyat elmləri namizədi almaq üçün müdafiə edərək, elmlər namizədi alimlik dərəcəsi almışdır.

1980-cı ildə doktorluq dərəcəsi müdafiə edərək, elmlər doktoru, professor adına layiq görülmüş tanınmış ziyalı.

1998-ci ildə vəfat edir.



Cəfərov Əli Səttar oğlu


1925-ci ildə Horadiz kəndində anadan olub. Orta məktəbi Bakı şəhərində bitirib və Azərbaycan Dövlət Universitetinə daxil olub.

Universiteti bitirdikdən sonra əmək fəaliyyətini Azərbaycan Pedoqoji İnstitutunda başlayan Əli müəllim həmin institutda dekan, kafedra müdiri vəzifələrində çalışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının, Mexanika institutun əməkdaşı, fizika-riyaziyyat elmləri namizədi, doktoruluq


dərəcəsini almış professor, tanınmış ziyalı.

2006-cı ildə vəfat edib.



Cəfərov Bəhrəm Surxay oğlu

1928-ci ildə Horadiz kəndində doğulmuş və həmin kənddə orta təhsilini bitirib. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş və ali təhsilini müvəffəqiyyətlə bitirmişdir. Təyinatla Azərnəşrdə Dövlət Nəşriyatında kiçik elmi işçidən, Siyasi Ədəbiyyat şöbəsində redaktor və şöbə müdiri vəzifələrinə qədər yüksləmişdir. 1980-93-cü illərdə Azərbaycan Dövlət Universitetində Nəşriyyatının direktoru vəzifəsində çalışmışdır, tanınmış nəşriyyatçı. 1994-cü ildə vəfat etmişdir;



Bağırov Zakir Nəriman oğlu

1929-cu ildə Horadiz kəndində anadan olub. 1937-ci ildə atası Məmmədov Nərimanı zəngin olduğu üçün Sovet rejimi tərə-findən güllələnib və ailəsi sürgün edilib. Dayılar isə balaca Zakiri özlərilə Bakı şəhərinə gətirib öz soy adlarını ona verib, tərbiyəsi və təhsili ilə məşğul olmuşlar.

1947-ci ildə Bakıda orta təhsilini başa vurub Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra partiya sisteminə işə qəbul edilir. Müxtəlif vəzifələrdə çalışdiqdan sonra 1957-ci ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində şöbə rəisin müavini vəzifəsinə dəvət alır.1969-cu ildən Azərbaycan Mədəniyyət Nazirinin müavini vəzifəsində işləmişdir.

1971-ci ildə Azərbaycan Mədəniyyət Naziri vəzifəsinə təyin edilir və bu işində 18 il qüsursuz işləmişdir.

Zakir Bağırov dissertasiya müdafiə edərək fəlsəfə elmlər nami-

zədi, elmlər doktoru elmi dərəcəsi adını almış professor, öz zəmanəsinin mütəfəkkiri və filosofu, Azərbaycan mədəniyyətinin inkişafında və tərəqqisində böyük rolu olmuş dövlət xadimi;


1989-cu ildə vəfat etmişdir.



Eyvazov Mahmud İsa oğlu

1929-cu ildə Horadiz kəndində doğulmuşdur. Orta məktəbi bitirib, Gəncə şəhət Kənd Təsərrüfatı İnstitutuna daxil olur və oranı müvəffəqiyyətlə bitirir. İnistitutda saxlanılır və pedoqoji fəaliyyətə baslayır.

O, kiçik elmi işçidən 1954-ci ildə ali təhsilli mütəxəsis kimi S. Ağamalı adına Kənd Təsərrüfatı İnstitutunun Siyasi-iqtisad kafedrasının dossenti vəzifəsinə keçmişdir. 1968-ci ildə namizədlik disertasiyasını müvəffəqiyətlə müdafiə edərək doktor dərəcəsi almışdır. O, 25 jurnal məqaləsinin və kənd təsərrüfatının müxtəlif problemlərinə aid 2 kitabın, həm də qiyabi təhsil alan tələbələrə kömək məqsədilə hazırlanmış xeyli metodik vəsaitin müəllifidir. Gəncə şəhərində Kənd Təsərrüfatı Akademiyasının , Siyasi iqtisad kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, ziyalı. 1998-ci ildə vəfat edib və ömrünü bizlərə basğışlayıb.



Cavanşirov Əfsər Bayram oğlu

1930-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1936-cı ildə atası Hüseynov Bayram vəfat etdikdən sonra xalası Zərəfşan onu qəyyumluğa götürüb əri – Cavanşirov İsmayıl ilə Bakı şəhərinə gətirib ona öz soy adını verirlər. 1947-ci ildə orta təhsilini başa vurub Azərbaycan Dövlət Konserva-toriyasına daxil olub.

1954-cü ildə Azərbaycan Dövlət Konservatoriyasını, bəstəkar fakültəsini bitirmişdir.

Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, Əməkdar İncəsənət xadimi, Azərbaycan Gənclər İttifaqının laureantı, "Bənövşə" uşaq xorunun bədii rəhbəri və drijoru olmuş görkəmli sənətçi, Respublikada keçirilən 4 mahnı festivalının təşkilatçısı olmuşdur. Ə.Cavanşirov yaradıcılıq illərində "Murad Muratino" uşaq operası, "Gənclik" kontatası, "Günəşli Azərbaycan" böyük xor orkestri üçün uvertyura, sonata və kopello üçün əsərlər və romanslar, habelə 500-dən artıq uşaq mahnıların müəllifidir. 2005-ci ildə vəfat edib.

Cəfərov Arif Səttar oğlu



1937-ci ildə Horadiz kəndində doğulmuşdur. 1955-ci ildə Bakı şəhərində orta məktəbi bitirib, Azərbaycan Pedaqoji İnstitutuna daxil olub oranı müfəvəqiyyətlə qurtardığından İnstitutda saxlanılır. Əmək fəaliyyətini kiçik elmi işçidən, Fizika-riyaziyyat kafedrasının müdiri vəzifəsinə kimi yüksəlmişdir. Bakı Dövlət Pedaqoji Universitetinin pedoqoqu, 1965-ci ildə fizika-riyaziyyat elmləri üzrə dissertasiyasını müdafiə edərək, elmləri namizədi alimlik dərəcəsi almışdır. 1996-cı ildə fizika-riyaziyyat elmləri üzrə doktorluq işini müdafiə edərək doktor, professor adını almışdır. Onun rəhbərliyi altında 6 namizədlik işi müdafiə edilib. Tanınmış professor; 2002-ci ildə vəfat edib.



Cəbrayılov Allahverən Cəbrayıl oğlu

1940-cı ildə Horadiz kəndində anadan olub. Orta məktəbi Beyləqan rayonu, Daşburun stansiyasında bitirdikdən sonra, Azərbaycan Politexnik İnstitutunun inşaat-mühəndis fakültəsini bitirib. A. Cəbrayılovu inistitutu fərqlən-mə diplomu ilə bitirdiyinə görə onu həmin institutda saxlanılır və pedoqoji fəaliyyətə başlayır.

Azərbaycan Dövlət İnşaat və Memarlıq Universitetin kafedra müdiri işləyib, fizika-riyaziyyat elmləri namizədi və doktorluq dissertasiyasını müdafiə edərək, elmlər doktoru adını almış professordur.

1970-ci ildə Amerika Riyaziyyat Cəmiyyətinin üzvü seçilib, 1973-cü ildə Bakı Dövlət Universitetin Mexanika-riyaziyyat fəkultəsində, funksional-analiz və funksional-nəzəriyyə kafedrasının professoru, 1975-ci ildən işə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Ali riyaziyyat" kafedrasına, 2006-cı ildən Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnistitunda riyazi analiz şöbəsinə rəhbərlik edir. 2 doktorluq, 15 namizədlik dissertasiyasının rəhbəri olmuşdur.

100-ə yaxın elmi məqaləsi xarici mətbuatda dərc olunmaqla, 40 elmi əsəri xarici dillərə tərcümə edilmiş və tanınmış ziyalı;



Xəlilov Hüseyn Ağamalı oğlu

1942-ci ildə Hüngütlü kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə daxil olub. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsini bitirir və faydalı qazıntı yataqlarının kəşfiyyatı ixtisasına yiyələnir. Həmin ildə təyinatla Qazaxıstan SSR-ndə Çöl-geoloji ekspedisiyasında baş texnik-geoloq vəzifəsində işə başlayır. 1967-ci ildə vətənə qayıdaraq Kiçik Qafqaz geoloji-kəşfiyyat ekspedisiyasında geoloq vəzifəsində çalışır. 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitunda yenicə təşkil olunmuş "Tətbiqi geomorfologiya labaratoriyasına işə dəvət olunur. O vaxtdan taleyini həmin İnstituta bağlayır. Əvvəlcə böyük mühəndis, kiçik elmi işçi və sonra baş elmi işçi vəzifələrində çalışır. 1980-cı ildə "Kiçik Qafqazın şimal-qərb hissəsinin morfostruktur

təhlili" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi alır. 1991-94-cü illər "Xəzər dənizin sahilləri və dibinin morfologiyası və dinamikası" sektorunun müdiri, 1994-2003-cü illər "Tətbiqi geomitrologiya" qrupunun rəhbəri işləyir. 2003-2007-ci illərdə aparıcı elmi işçi kimi fəaliyyət göstərir. 2004-cü ildə "Kiçik Qafqazın şərq hissəsi timsalında morfastruktor və paleogeomorfoloji təhlil və taleyin öyrənilməsinin axtarış əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək professor dərəcəsini alır. H.Xələfov 85-dən çox elmi əsərin, Azərbaycan Sovet və Milli Ensiklopediyası kitablarında silsilə məqalələri, qəzet və jurnallarda bir sıra elmi-publisistik yazıların müəllifidir. 1981-ci ildən Azərbaycan Dövlət Universitetinin Coğrafiya fəkultəsində tələbə çöl praktikası, diplom və maqistr dissertasiyası işlərinə rəhbərlik edir. Taninmış professor və bacarıqlı kəşfiyatçı geoloq;



Quluzadə Qulu Cabbar oğlu

1904-cü ildə Horadiz kəndində doğulmuş və 1920-ci ildə orta təhsili başa vurmuşdur.

1926-cı ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmiş və müəllimlik fəaliyyətinə başlamışdır. 1930-cu ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Ədəbiyyat İnstitutun aspirantura-sında təhsil almış və dissertasiya müdafiə edərək elmlər namizədi elmi dərəcə almışdır. Onun Azərbaycan şifahi xalq ədəbiyyatı sahəsində xeyli elmi araşdırmaları qalmışdır. Bundan başqa Q.Quluzadənin 40-dan çox nağılı "Azərbaycan nağılları" toplusuna daxil edilmişdir. Müxtəlif dövrlərdə Bakı şəhərinin orta ixtisas məktəblərində ədəbiyyat, tarix, pedaqogika, pisixologiya kimi ictimai elmlərin tədrisi ilə məşğul olmuş ziyalı; 1989-cu ildə vəfat edib.



Xələfov Kərim Süleyman oğlu


1908-ci ildə Dördçinar kəndində doğulmuşdur. Horadiz kəndində orta məktəbi bitirib. 1928-ci ildə ADPİ-na daxil olub. 1932-ci ildə Bakıda Azərbaycan Pedaqoji İnstitunu bitirdikdən sonra Gəncəyə gələrək müəllim kimi fəaliyyətə başlayır.

Az sonra rəhbərlik onun iş qabiliyyətini nəzərə alaraq onu Gəncə şəhər 20 saylı məktəbə direktor təyin edilir. 1961-ci ildə Kərim müəllim namizədlik dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alır. 1963-72-ci illər Gəncə Dövlət Pedaqoji Universitetin fizika-riyaziyyat kafedrasının müdiri vəzifəsinə seçilmiş ziyalı. 1977-ci ildə vəfat edib.



Xələfov Cəbrayıl Firidun oğlu


1912-ildə Dördçinar kəndində anadan olub və orta təhsilini bitirdikdən sonra, 1928-ciildə ADPİ-a daxil olur. 1934-cü ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirdikdən sonra təyinatı ilə Füzuli şəhərində Pedaqoji texnikumda müəllimlik fəaliyyətinə başlamışdır. 1939-61-ci illər Gəncə şəhər 20 saylı Dəmir Yol Məktəbində fizika və astronomiyadan dərs vermişdir. 1961-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmlər namizədi alimlik dərəcəsi almışdır. Bundan sonrakı fəaliyyətini Gəncə Dövlət Pedaqoji İnstitutunda davam etdirir. Burada o, uzun müddət Gəncə Dövlət Pedaqoji İnstitunda fizika-riyaziyyat kafedrasına rəhbərlik etmişdir. 1982-ci ildə rəhmət etmişdir;



Cəfərova Füruzə Səttar qızı

1927-ci ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra

Azərbaycan Dövlət Universitetinin, biologiya fakültəsini bitirdikdən sonra, təyinatını Elmlər Akademiyasına alır. F.Cəfərova Biologiya inistitunda elmi işçi kimi işə başlayıb. Orada dissertasiya işini müdafiə edib, biologiya elmləri namizədi alimlik dərəcəsi adını alıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti olmuşdur. 2004-cü ildə vəfat edib.



Xələfov Fehruz Hümbət oğlu

1927-ci ildə Dördçinar kəndində anadan doğulmuşdur. Horadiz kəndində orta təhsilini başa vurub. 1945-ci ildə ADU-nun, fizika-riyaziyyat fakültəsinə daxil olub. 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakultəsini bitirib. Təyinatla İmişli rayonunda bir müddət müəllim işləmişdir. 1953-cü ildən isə Mərdəkanda İnternat Məktəbində direktor vəzifəsində işləyib. 1955-ci ildən Azərbaycan Dövlət Universitetinə dəvət alır və fəlsəfə fənnindən dərs deyir. 1960-cı ildə dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsini alır. O, həmçinin Azərbaycan Xalq Təsərrüfatı İnstitunda baş müəllim işləyib. 1986-cı ildə vəfat edib. Allah rəhmət eləsin.



Mehdiyev Əziz Bəyalı oğlu

1927-ci ildə Horadfiz kəndində anadan olmuşdur. 1946-cı ildə orta təhsilini bitirib.

1948-ci ildə Gəncə şəhər Kənd Təsərrüfatı İnstitutunun Meşə təsərrüfatı fakültəsini başa vurduqdan sonra təyinatla, Azərbaycan Meşə Təsərrüfatı Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. 1960-cı ildə öz ixtisası üzrə dissertasiyasını müdafiə edərək Kənd təsərrüfatı elmlər namizədi, alimlik dərəcəsi almış alim; 1979-cu ildə vəfat edib;



Xələfov Əşrəf Teymur oğlu

1928-ci ildə Dördçinar kəndində anadan olub və Horadiz kəndində orta təhsilini bitirib. 1952-ci ildən Azərbaycan Dövlət Universitetini başa vurub, təyinatla Bakı şəhəri M.F.Axundov adına Respublika Kitabxanasında fəaliyyət göstərir. 1952-ci ildə baş biblioqraf, 1954-cü ildə Kitabxanaçılıq kabinetinin müdiri işləyib. 1959-cu ildə ADU-nin Kitabxanaçılıq fəkultəsində müəllim təyin edilib. 1965-ci ildən baş müəllim, 1967-ci ildə dissertasiyasını müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsini almışdır. 1968-78-ci illər Biblioqraf kafedrasının müdiri seçilmişdir. 1970-ci ildən həmin kafedranın aparıcı dosentidir. Ə.Xələfovun 30-a yaxın kitabın, 125-ə qədər elmi məqalənin müəllifidir. Respublika səviyyəsində tanınmış kitaxanaçı alim;



Cəfərov Bəhlul Surxay oğlu

1931-ci ildə Horadiz kəndində anadan olmuş və orta təhsilini həmin kənddə bitirib. 1953-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra, təyinatla Füzuli rayonuna göndərilmişdir. 1954-55-ci illər Horadiz kəndində coğrafiya müəllimi, 1956-cı ildən Azərbaycan Elmlər Akademiyasının Coğrafiya institunun Hidrologiya şöbəsində baş labarant, kiçik elmi işçi, aspirant və baş elmi işçi vəzifələrində çalışan B.Cəfərov 1963-cü ildə "Kiçik Qafqazın şimal-şərq çaylarının axımı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək coğrafiya elmiləri namizədi alimlik dərəcəsini almışdır. 1969-cu ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dosenti, 1989-98 illər Universitetin fiziki-coğrafiya kafedrasına rəhbərlik etmişdir. Elmi pedoğoji fəaliyyəti dövründə onun 4 monoqrafiyası və 100-dən çox məqaləsi və tədris vəsaiti proqramları nəşr olunmuşdur. Hal-hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya fəkultəsinin fiziki-coğrafiya kafedrasının dosenti vəzifəsində çalışır;



Novruzov Novruz Əhməd oğlu

1937-ci ildə Horadiz kəndində anadan olmuş və orta təhsilini Əhmədalılar kəndində bitirmişdir. 1955-ci ildə BDU-a daxil olub.

1959-cu ildə Bakı Dövlət Universitetinin, geologiya-coğrafiya fakültəsinin, "geoloji planlama və faydalı qazıntı yataqlarının axtarışı" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. 1959-61-ci illərdə İstehsalatda-Azərbaycan Geologiya İdarəsinin, geoloji-


axtarış dəstəsində işləmişdir. 1968-ci ildə öz ixtisası üzrə dissertasiyasını müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi, alimlik dərəcəsi almışdır. 1964-75-ci illər Qeyri-üzvü və Fizika-Kimya İnstitutunun, geokimya laboratoriyasında kiçik elmi işçi, 1976-88-ci illərdə isə böyük elmi işçi vəzifəsində işləmişdir. O, 80-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Elmi işlərlə yanaşı BDU-də pedaqoji fəaliyyətlə də məşğuldur. Azərbaycan Respublikasının Ekologiya və Təbii sərvətlər Nazirliyinin Elmi-Texniki şurasının Geologiya bölməsinin üzvüdür;



Yadigarov Əsəd Qurban oğlu

1937-ci ildə Horadiz kəndində anadan olmuş və 1957-cı ildə orta təhsilini bitirib.

1961-65-ci illər Gəncə şəhər Kənd Təsərrüfatı İnstitutunun, zoomühəndis fakültəsini başa vurub və təyinatla doğma Horadiz kəndinə qayıtmış, zoomühəndis vəzifəsində çalışmışdır. 1967-ci ildə təhsilini davam etdirmək üçün Azərbaycan Elmi Tədqiqat Heyvan-darlıq İnstitutunda, qaramal şöbəsinin kiçik elmi işçisi kimi fəaliyyətə başlamışdır. 1970-73-cü illərdə aspiranturada oxumuşdur. 1974-cü ildə Elmi Tədqiqat İnstitutunda kiçik elmi işçi kimi qəbul olunur. 1988-ci ildə Moskvada Ümumittifaq Elmi Tədqiqat İnstitutunda dissertasiya müdafiə edib, kənd təsərrüfatı elmlər namizədi, alimlik dərəcəsi adını almışdır. 1998-ci ildən Azərbaycan Elmi Tədqiqat İnstitutunda böyük elmi işçi kimi çalışır. Onun maldarlığa aid 42 əsəri, bir sıra elmi məqalənin, o cümlədən "Dağ şəraitində ətlik qaramalın yetişdirməsi texnologiyası" və "Azərbaycanın dağlıq şəraitində ətlik qaramalın yetişdirilməsi" adlı kitabcaların müəllifidir;



Cəfərov Elman Cəfər oğlu

1938-ci ildə Horadiz kəndində doğulmuş və həmin kənd orta məktəbini 1956-cı ildə bitirib. Azərbaycan Pedaqoji İnstitutuna daxil olaraq oranı müvəfəqiyyətlə başa vurub.

1963-cü ildə Cəbrayıl rayonunun Soltanlı kəndində müəllimlik fəaliyyətinə başlayır. 1968-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda aspiranturaya daxil olur. 1973-cü ildə elmi işini müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi alır. Ömrünün sonuna qədər Azərbaycan Dövlət Pedaqoji Universitetin baş müəllimi vəzifəsində çalışıb. 1993-cü ildə vaxtsız vəfat edib.



İsmayilov Bayram Surxay oğlu

1938-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1956-cı ildə orta təhsilini həmin kənd məktəbində bitirib

1959-63-cü illər Gəncə şəhər Kənd Təsərrüfatı İnstitutunu, mexanizasiya fakültəsini müvəffəqiyyətlə başa vurduqdan sonra, onu institutda saxlanılır və kiçik elmi işçi kimi fəaliyyətə başlayır. Sonralar Rusiya Federasiyasının, Leninqrad (indiki-Sankt-Peterburq) şəhərində aspiranturada oxuyur və 1981-ci ildə öz ixtisası üzrə disertasiyasını müdafiə edərək elmlər namizədi elmi dərəcəsini alır. Lakin 1982-ci ildə istedadlı mütəxəssisin ölümü düşünülmüş planlarını həyata keçirməyə aman vermədi!..



Əmirov Mürşüd Səttar oğlu

1939-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1957-ci ildə orta məkrəbi qızıl medalla bitirib.

1961-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu qırmızı diplomla bitirdikdən sonra o, institutda ticarətin-təşkili və texnikası kafedrasında müəllim kimi saxlanılır. 1967-ci ildə İnstitutda iqtisadiyyat elmləri üzrə dissertasiya işini müdafiə edərək elmlər namizədi alimlik dərəcəsini alır. 1968-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfat İnstitutunda əmtəəşünaslıq fəkultəsinin dosenti, kafedra müdirinin müavini və kafedra müdiri vəzifəsinə irəli çəkilmişdir. O, İnstitutun dərs hissə müdiri, imtahan komissiyasının üzvü kimi məsul vəzifələrə layiq görülmüşdür. Gözəl bir insan M. Əmirov, qisa bir zamanda gənc, bacarıqlı pedaqoqa çevrilir. Lakin 1975-ci ildə vaxtsız ölüm onun bütün potensialını üzə çıxarmağa aman vermədi!



Xələfov Vahid Fərrux oğlu

1945-ci ildə Dördçinar kəndində anadan olmuşdur. 1963-cü ildə orta məıktəbi bitirib və həmin il Gəncə şəhər Pedaqoji İnstituta daxil olur. 1967-ci ildə Gəncə şəhəri Pedaqoji İnstitunu fərqlənmə diplomu ilə bitirdiyinə görə, Elmi şuranın qərarı ilə Ədəbiyyat kafedrasında saxlanılır və müəllim kimi fəaliyyətə başlayır. 1981-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi alimlik dərəcəsini alır. 1993-98-ci illər Gəncə Dövlət Pedaqoji Universitetində Tarix və dil-ədəbiyyat fakültəsinin dekanı işləmişdir. Universitetdə azərbaycan dili kafedrasının dosenti işləyib. Azərbaycan ədəbiyyatının müxtəlif

problemləri ilə bağlı mətbuatda 60-a yaxın məqaləsi dərc olunmuşdur. 2008-ci ildə vəfat edib;



Ağayev Tariyel Allahverdi oğlu

1947-ci ildə Horadiz kəndində anadan doğulmiş və orta təhsilini başa vurduqdan sonra 1965-cü ildə Azərbaycan Neft və Kimya institutuna daxil olmuşdur. İnstitutu bitirdikdən sonra, təyinatla Sumqayit şəhərində "Üzvi sintez" istehsalat birliyində poliefir sexində usta və rəisi, Bakı şəhəri "Süni dəri" zavodunun direktoru, "Süni dəri və plyonka materialları" zavodunda direktor, Dövlət Yanacaq komitəsində şöbə rəisi, Dövlət Neft Şirkətinin Azərneft təchizat birliyinin şöbə rəisi və Baş Dövlət neft müfəttişi vəzifələrində işləmişdir.

Hal-hazırda Xəzər Dəniz Neft Şirkətinin Marketinq və iqtisadi əməliyyatlar idarəsində işləyir, kimya elmləri namizədi, və 4 ixtirası vardır;



Əmirov Sabir Səttar oğlu

1947-ci ildə Horadiz kəndində anadan olmuş və orta təhsilini 1965-ci ildə bitirib.

1971-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Əmək fəaliyyətini "Sentrsoyuz" elmi tədqiqat institutunda kiçik elmi işçi kimi işə başlamış və iqtisad elmləri üzrə dissertasiyasını müdafiə edərək elmlər namizədi alimlik dərəcəsini alıb.

1993-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetin müəllim və baş müəllimi vəzifələrdə çalışıb.

2004-cü ildən isə həmin Universitetdə Beynəlxalq iqtisadi

münasibətlər fəkultəsinin qiyabi şöbəsinin dekanıdır. İqtisad elmləri namizədi, tanınmış alim;



Şükürov Teyyub Aqil oğlu

1953-cü ildə Horadiz kəndində doğulub. 1969-ci ildə orta təhsilini başa vuraraq, Azərbaycan Dövlət Pedaqoji İnstituta daxil olub.

1973-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitunun, fizika-riyaziyyat fakültəsini bitirib və təyinatla Füzuli rayonu Qacar kənd məktəbində fizika-riyaziyyat müəllimi işləyib. 1978-79-cu illər həmin məktəbin direktor müavini vəzifəsinə təyin edilib. 1979-cu ildə Azərbaycan Dövlət İnşaat və Memarlıq İnstitutunda baş labarant vəzifəsinə təyin edilir. 1983-cü ildən həmin labaratoriyanın müdiri, assisent, baş müəllim kimi işləyib. 1991-ci ildə öz ixtisası üzrə dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi, alimlik dərəcəsini alır. Elmi işlə əlaqədər olaraq "Bərk cisimlər fizikası" bölməsi üzrə 60-dan çox elmi məqalələrin müəllifidir. Hal-hazırda ADİMU-də Fizika kafedrasının dossentidir;

Namazalıyev Əkbər Hüseyn oğlu

1955-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1962-72-ci illər orta məktəbdə oxumuş və təhsilini bitirib

1977-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, iqtisad fakültəsini müvəffəqiyyətlə bitirdikdən sonra, həmin İnstitutda pedaqoji fəaliyyətinə başlayır. 1990-cı ildə öz ixtisası üzrə, elmi işini müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. Hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetində baş müəllim kimi pedaqoji fəaliyyətini davam etdirir.



Quliyev Qadir Allahverdi oğlu

1956-cı ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta təhsilini bitirdikdən sonra Azərbaycan Xarici Dillər İnstituna daxil olur.

1978-83-cü illər Azərbaycan Dövlət Xarici dillər İnstitutunda alman dili fakültəsini başa vurduqdan sonra, oxuduğu institutda saxlanılaraq, müəllim kimi fəaliyyətə başlayır.. O, öz ixtisası üzrə dissertasiyasını müdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsini alır. Universitetdə magistraturada dekan müavini kimi çalışıb. Q.Quliyev 14 elmi məqalənin müəllifidir. 2006-cı ildən Almaniya Respublikasına köçərək öz fəaliyyətini davam edən alim;

Cəfərov Azər Bəhlul oğlu

1960-cı ildə Bakı şəhərində anadan olub. 1987-ci ildə orta təhsilini başa vurub və Azərbaycan Dövlət Universitetinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla Aqrokimya İnstitutunda əmək fəaliyyətinə kiçik elmi işçi kimi başlayir. Azərbaycan Milli Elmlər Akademiyasında, Torpaqşünaslıq və Aqrokimya İnstitutunda, Torpağın banitrovkası lobarotoriyasının müdiri vəzifəsində çalışır. Kənd təsərrüfatı elmləri namizədi alimlik adını almış alim;



Namazova Cəmilə Bayramalı qızı

1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1978-ci ildə orta təhsilini bitirib.

1983-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, uçot-iqtisad fakültəsini bitirdikdən sonra, həmin İnstitutda aspiranturaya daxil olub. 1987-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universi-tetində "Mühasibat uçotu və iqtisadi təhlil" ixtisası üzrə müdafiə edib, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1988-ci ildə

Az.XTİ-da əvvəlcə müəllim, baş müəllim və sonra dossent vəzifəsində işləmişdir. O, indiyə kimi 30-a yaxın dərslik, dərs vəsaiti, metodik göstəriş, elmi proqram və məqalələrin müəllifidir. 2006-cı ildə Azərbaycan Təhsil Nazirliyinin "Fəxri fərmanı"-na layiq görülmüşdür. C.Namazova "Gender və iqtisadiyyat" təşkilatının yaradıcılarından biridir. Hal-hazırda ADİU-də "İqtisadi təhlil və audit" kafedrasının müdiridir. Universitetdə YAP Qadınlar Şurasının sədr müavinidir;

Mehdiyev İsmayıl Hüseyn oğlu

1962-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1989-cu ildə orta təhsilini başa vurub, Azərbaycan Neft və Kimya Universitetinə daxil olub və həmin universiteti 1968-ci ildə bitirib. Azərbaycan Milli Elmlər Akademiyasının, Fizika İnstitutunda əmək fəaliyyətinə başlayıb. Fizika İnstitutunda termodinamika mövzusunda müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi, alimlik dərəcəsi alıb. 2010-cu ildə AMEA-nın Fizika İnstitunda elmi dərəcəsini doktorluq işi üzərində müdafiə edib, elmlər doktoru adini alib. 26.02.2013-cü ildə vəfat edib.



Cəfərov Haqverdi Məmiş oğlu

1962-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1978-ci ildə orta təhsilini başa vuraraq, ADU-nin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur.

1984-cü ildə Azərbaycan Dövlət Universitetinin, fizika-riyaziyyat fakültəsini bitirdikdən sonra, 1985-ci ildə Azərbaycan Elmlər Akademiyasının fizika-riyaziyyat institunda aspiranturaya daxil olur. Burada fizika-riyaziyyat elmləri üzrə namizədlik dissertasiyasını müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adını alır. Hal-hazırda Azərbaycan Kooperasiya Universitetinin dosentidir;



Mehdiyeva Gülsurə Yusif qızı

1965-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1982-ci ildə orta təhsilini başa vurub, Bakı Dövlət Universitetinnin fizika-riyaziyyat fakültəsinə daxil olub.

1990-cı illər Bakı Dövlət Universitetin fizika-riyaziyyat fakültəsini bitirib və təyinatla Azərbaycan Milli Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyinə, Aerokosmik Monitorinq Mərkəzində, mühəndis kimi işə başlayır. Həmin Mərkəzin bazasında yaradılan Ekologiya İnstitutunda fəaliyyətə başlayıb. 1990-2009-cu illər əvvəlcə mühəndis, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi, sektor müdiri, şöbə rəisi işləyib. Hazırda şöbə rəisi işləyən G.Mehdiyeva Ekologiya İnstitutunun və MAKA İxtisaslaşdırılmış Seminarın elmi katibidir. 2005-ci ildə "Xəzərin dalğalanma səviyyə tərəddüdünün sahil zonası vəziyyətinə təsirinin aerokosmik üsullarla tədqiqi" mövzusu üzrə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi alimlik dərəcəsini almışdır. G.Mehdiyevanın 25-dən çox elmi məqaləsi azərbaycan, ingilis və rus dilində mətbuatda dərc edilmişdir. Hazırda universitet tələbələri üçün dərslik hazırlamış istedadlı alim;



Quluyeva Güntəkin Cəmil qızı

1968-ci ildə Horadiz kəndində anadan olmuşdir. 1975-ci ildə kənd orta məktəbinə daxil olmuş və 1985-ci ildə bitirmişdir.

1993-cü ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib.

1993-96-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına İnstitutun əyani aspiranturasında təhsilini başa vuraraq, həmin ildə "Azərbaycanın qonşu

ölkələrlə əlaqələr və xanlıqlar dövrü tarixi" şöbəsində kiçik elmi işçi vəzifəsinə qəbul edlmişdir. 1998-ci ildə"XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının Türkiyə ilə münasibətləri" adlı namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi qazanmışdır. O, 30-dan çox elmi məqalənin və 2 elmi monoqrafiyaların müəllifidir. Hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan qonşu ölkələrlə əlaqələr və xanlıqlar dövrü tarixi" şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır;

Cəfərova Sədaqət Arif qızı

1976-cı ildə anadan Bakı şəhərində anadan olmuşdur.

1992-cü ildə orta təhsilini başa vurub, Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olur.

Universiteti fərqlənmə diplomu ilə bitirdiyinə görə onun əmək fəaliyyətini davam etdirmək üçün Universitetdə saxlanılır.

1998-ci ildə Azərbaycan Dövlət Universitetin Aspiranturasına daxil olur.

2002-ci ildə fizika-riyaziyyat elmləri üzrə müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alır.

Hal-hazırda S.Cəfərova Azərbaycan Dövlət İqtisad Universitetinin dosentidir. Gənc alim;



Mehdiyev Nəbi Bəhram oğlu

1978-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1995-ci ildə orta məktəb təhsilini bitirib Bakı Dövlət Universitetinə ərizə verir və ilahiyyət fakültəsinə daxil olur.

1995-2000-ci illər Bakı Dövlət Universitetin İlahiyyət fakültəsində ali təhsil almışdır. 2002-2007-ci illər Türkiyə Mərmərə Universitetinin Humanitar elmləri İnstitutunda, Din

fəlsəfəsi üzrə magistraturanı bitirmişdir. Həmin Universitetdə Din fəlsəfəsi ixtisası üzrə doktoranturada oxumuş və müasir din fəlsəfəsində "Tanrı inancılığının əqilliliyi işi üzrə dissertasiya müdafiə edərək din fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. Türkiyənin jurnallarında və mətbuatında bir sıra elmi məqalələri ilə çıxış etmişdir. İngilis dilindən din münasibətləri mövzusunda bir neçə kitab tərcümə etmişdir. İstanbulda fəaliyyət göstərən "Din fəlsəfəsi" elmi cəmiyyətinin təşkilatçılarından biridir. Tanınmış ilahiyyətçi alim;

HORADİZ KƏNDİNDƏN TANINMIŞ ŞƏXSİYYƏTLƏR VƏ İŞ ADAMLARI

(Respublika, xarici dövlətlər və rayon səviyyəsində)

(ƏLİFBA SIRASI İLƏ)

- A -



Abbasov Hüseyn Əli oğlu

1963-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1980-cı ildə orta təhsilini başa vuraraq, Gəncə şəhəri Kənd Təsərrüfatı İnstitutuna qəbul olunur.

Həmin İnstitutu bitirib, təyinarla 1988-93-cü illər Füzuli rayonu Magistral Su Kəməri istismarı idarəsində baş iqtisadçı və baş mühasib vəzifələrində çalışmışdır. 1993-cü ildən 2 saylı Biləsuvar çadır şəhərciyində icra nümayəndəliyinin müavini işləmişdir. 2003-cü ildən 3 saylı Qayıdış qəsəbəsinin icra nümayəndəsidir;



Abbasov Nazim Abbas oğlu

1981-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1987-ci ildə Horadiz kənd orta məktəbinə daxil olmuşdur. 1997-ci ildə Biləsuvar şəhəri, köçkünlər şəhərciyində 21 saylı orta məktəbi bitirmişdir. Hal hazırda Bakı şəhərində "Ekspress MMC" şirkətinin direktor müavinidir. Özü də şeirlər yazmağa çox həvəslidir. 2006-cı ildə çap edilmiş "Hey baxıram yollara" şerlər kitabının müəllifidir, gənc vətənpərvər şair;



Abdullayev Murtuza Cabbar oğlu

1922-ci ildə Horadiz kəndində anadan olmuş, 1939-cu ildə orta təhsilini bitirib.

1941-45-ci illər II Dünya Müharibəsinin iştirakçısı olub. Ordudan tərxis olduqdan sonra, Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuş və 1951-ci ildə alı təhsilini bitirib. Horadiz kənd orta məktəbində uzun müddət tarix, hərbi hazırlıq və bədən tərbiyəsı müəllimi vəzifələrində işləyib. 1973-78-ci illərdə həmin məktəbin direktoru vəzifəsində çalışmışdır. 1978-93-cü illər müəllimliyini davam etdirmiş ziyalı; 2007-ci ildə Balakən rayonunda vəfat edib;



Abdullayev İbədulla Cabbar oğlu

1929-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1946-cı ildə orta təhsilini başa vuraraq, Azərbaycan Politexnik İnstitutunun inşaatçı fakültəsinə daxil olub. Həmin İnstitutu müvəffəqiyyətlə bitirib və tə-yinatla Bakı Peşə Texniki məktəbinə göndə-rilib. İ.Abdullayev sadə usta vəzifəsindən Bakı Peşə Texniki Məktəblər üzrə Baş İdarə-nin müdirinə kimi yüksəlib. Azərbaycan Sə-naye Tikinti Nazirliyində şöbə müdiri vəzifəsində çalışmışdır. Onun əməyi partiya və dövlət tərəfindən yüksək qiymətləndirilərək "Qırmızı bayraq" ordeni və "Lenin" yubiley medalı ılə, həm də 5 dəfə "Sosializmi yarışın qalibi" döş nişanlarına layiq görülmüşdür. 2000-ci ildə vəfat etmişdir.

Abdullayev Əsəd Ələkbər oğlu

1892-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1918-ci ildə hərbi xidmətdə ikən onu hərbi məktəbə göndərilir. Məktəbi bitirib,

1925-ci ildə Zəngilan rayonunda hərbi sərhəd zastavasında xüsusi şöbədə işə dəvət edilmişdir. Burada işlədiyi müddətdə özünü nümunəvi hərbçi kimi göstərmişdir. Hərbi rütbəsi – kapitan olub. 1929-cu ildə kolxozlaşma dövründə ilk sədr vəzifəsinə təyin edilmiş və üç il bu vəzifədə çalışmışdır. 1932-ci ildə vəfat edib;



Abdinov Yavər Camal oğlu

1959-cu ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra, Dənizçilik məktəbinə daxil olub.

1987-ci ildə Q.Məmmədov adına Dənizçilik məktəbini bitirib, təyinatla Xəzər Dəniz Donanmasında, gəmidə motrosdan – gəmi kapitanın vəzifəsinə qədər yüksəlib. Xarici dövlət sularında üzmüş təcrübəli kapitandır. Hal-hazırda Xəzər Dənizçilik İdarəsinin "Əli Bayramov" adına gəminin kapitanıdır;

Abışov Abış Məhərrəm oğlu

1914-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1931-ci ildə Horadiz orta məktəbini 10-illik təhsilini bitirir.

1932-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olur. Ali təhsilini başa vurduqdan sonra təyinatını Zaqatala rayon Səhiyə şöbəsinə göndərilir. O, burada siravi həkimlikdən, 1938-ci il Səhiyə şöbəsinin müdiri vəzifəsinə kimi yüksəlir.

1941-45ci illərdə Böyük Vətən müharibəsinin ağır döyüşləri zamanı hərbi qospitalda hərbi həkim kimi yüzlərlə əsgərləri müalicə edib yenidən həyata qaytarmışdır.

O, mayor rütbəsilə tərxis olunaraq, Füzuli rayon Səhiyyə şöbəsində baş həkim vəzifəsində çalışıb.

1945-ci ildə vəfat edib.



Abışov Abış Xasay oğlu

1961-ci ildə Horadiz kəndində doğulub. 1978-ci ildə orta təhsilini başa vurub. 15 il Almaniyada Sovet qoşunları tərkibində hərbi hissələrdə qulluq edib. Qarabağ müharibəsi zamanı könüllü Azərbaycan Silahlı Qüvvələrinin sırasına daxil olur və leytenant rütbəsilə Vətən torpağının azadlığı uğrunda ön cəbhədə vuruşur. Bütün Qarabağ Müharibəsi döyüşlərində əvvəldən axıra qədər iştirak edərək mayor rütbəsinə qədər yüksəlir və mərdliklə vuruşur.

Qarabağ müharibəsində Füzuli rayonunda "N" hərbi batalyon komandiri, Müdafiə Nazirliyinin komendantı vəzifəsində işləmişdir. Qarabağın Ağdam bölgəsində "N" hərbi batalyon komandiri təyin edilmiş və 2010-cu ilə kimi həmin batalyonun komandiri olub. Hərbi rütbəsi - mayordur. Hal-hazirda ordudan ehtiyata buraxılıb;



Ağayev Allahverdi Muxtar oğlu

1920-ci ildə Horadiz kəndində doğulmuşdur. Orta təhsilini bitirib. 1939-cu ildə həqiqi hərbi xidmətə çağrılıb və 1941-ci ildə Böyük Dünya Müharibəsi başladığından birincilər sırasında Vətən uğrunda vuruşub. 1941-45 Vətən müharibəsinin qanlı-qadalı günlərindən, çətin lakin uğurlu dəqiqələrindən keçmiş, ancaq qələbənin lap çata-çat vaxtında minaya düşərək yaralanıb. Sağaldıqdan sonra II-qrup əlil kimi müharibədən, sinəsində neçə-neçə orden və medallarla tərxis olunub. Müharibədən qayıdandan sonra Füzuli şəhərində hərbi müəllim, Füzuli Partiya komitəsində şöbə müdiri, Füzuli Tikinti bankının idarə rəisi, Horadiz kolxozunda baş mühasib, Bakı-Naxçıvan dəmir yolunda Fəhlə Təchizatı Birliyində rəis

müavini, "Azərittifaq"da ticarət şöbə rəisı, Xırdalan rayonlararası bazanın direktoru vəzifələrində çalışmışdır; 1995-ci ildə Bakı şəhərində vəfat edib;

Ağayev Avtandil Allahverdi oğlu

1955-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1972-ci ildə Bakı şəhərində orta təhsilini başa vurub və Bakı şəhəri Ali Polis Akademiyasına daxil olur. 1976-cı ildə Ali Polis Akademiyanı bitirib, təyinatla Bakı şəhəri, Yasamal rayon Polis idarəsində sahə müvəkkilliyindən Polis İdarəsində rəis müavini, Binəqədi rayon PİDə bölmə rəisi, DİN-də Narko-bizneslə mübarizəsi üzrə şöbə rəisi vəzifələrində işləyib. Hazırda Yasamal rayon Polis İdarəsində vətəndaşların pasport qeydiyyatı idarəsində müfəttiş vəzifəsində işləyir, polis rütbəsi - polkovnikidir;



Ağayev Tərxan Cümşüd oğlu

1958-ci ildə Horadiz kəndində doğulub.

1965-75-ci illər orta təhsilini başa vurub.

1980-cı ildə Azərbaycan Politexnik İnstitutunun bitirib və təyinatla Horadiz kolxozunda mühəndis vəzifəsində işləyib.

1981-83-cü illər hərbi xidmətdə olub. 1983-86-cı illər Horadiz qəsəbəsindəki Texniki Ttraktor Birliyində mühəndis işləyib. 1986-93-cü illər Horadiz kolxozunda mühəndis işləyib və eyni zamanda kolxozda heyət üzvü və Kənd Sovetinin deputatı seçilib.

1993-cü ildən hal-hazıra kimi Abşeron rayon Suvarma Sistemi İdarəsinin müəsisəsində aparıcı mühəndis vəzifəsində çalışır;



Ağayev Bağman Cümşüd oğlu

1961-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1978-ci ildə orta təhsilini bitirib və Azərbaycan İnşaat və Mühəndislər İnstitutuna daxil olub. 1984-cü ildə həmin İnstitutun, inşaatçı-mühəndis fakültəsini bitirib. Təyinatla Rusiyanın Tümen vilayətində, Radujnı şəhərində, Su təchizatı idarəsində sadə usta peşəsindən baş direktor vəzifəsinə qədər yüksəlmişdir. 2006-cı ildə Moskva səhərində Prezident İdarəçilik Akademiyasını bitirib. Hazırda 2 dəfə Radujnı şəhər dumasının seçilmiş deputatı, xalqımızı Azərbaycan diasporasında təmsil edən eloğlu;



Ağayev Rasim Muradxan oğlu

1963-cü ildə Horadiz kəndində doğulub.

1970-80-cı illər orta təhsilini başa vurub.

1980-cı ildə Horadiz kolxozunda işə başlayıb.

1981-83-cü illər hərbi xidmətdə olmuş. 1985-90-cı illər Gəncə şəhərində Azərbay-can Kənd Təsərrüfatı inistitutunun, zootexnik fakültəsində təhsil almış və bitirmişdir.

1988-ci ildən Horadiz kolxoz komsomol komitəsinin katibi işləyib.

1991-93-ci ilə kimi kolxozda zootexnik işləyib.

1993-2004-cü ilə kimi iş adamı kimi sahibkarlıqla məşğul olmuşdur.

2004-cü ildən Horadiz kənd icra nümayəndəliyinin müavini vəzifəsində işləyib.

2010-cu ildən Füzuli rayonu üzrə Horadiz kənd icra nümayəndəliyinin sədri vəzifəsində çalışır;



Ağayev Yusif Cümşüd oğlu

1964-cü ildə Horadiz kəndində doğulub. 1981-ci ildə Azərbaycan İnşaat və Memarlıq İnstitutuna qəbul olunub. 1986-cı ildə Həmin İnstitutun, inşaatçı-mühəndis fakültəsini bitirib, Rusiya Federasiyasının Tümen vilayəti Radujni şəhərində Tikinti İdarəsində adi ustadan mühəndis vəzifəsinə kimi yüksəlmişdir. Bacarıqlı mütəxəssisdir;



Ağayev Natiq Cümşüd oğlu

1971-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1988-ci ildə orta təhsilini bitirdikdən sonra, böyük qardaşları işlədiyi Tümen vilayəti, Radujni şəhərinə işləməyə gedib.

Rusiya Federasiyasının Tümen vilayəti, Radujni səhərində iş adamı kimi fəaliyyət göstərib. Hazırda Tümen vilayətinin, Radujni şəhərində bizneslə məşğul olur;



Axundzadə Möhsün Xudaverdi oğlu

1840-cı ildə İran Azərbaycanının Ərdəbil şəhərində anadan olmuşdur. Nəcəf şəhərində Ali Ruhani məktəbi bitirib.

1881-ci ildə Horadiz kəndində gəlib və ilk savad məktəbi açılmasına təşəbbüs göstərib. Məktəbdə ilk dərslər dini dərs olub, həmin dərsiMolla Möhsün deyib. O, dini qanunları mükəmməl bildiyinə görə həmişə kənd camaatı arasında böyük hörmətə sahib olub. Sahibsiz və kimsəsiz vəfat edənləri dini qaydalarla dəfn edib, həm də təmənnasız köməyini əsirgəməyib. Bu haqda Azərbaycan Xalq yazıçısı Əli Vəliyev "Budağın xatirələri" kitabında yazır ki, Mən Horadiz kəndində yaşadığım vaxt vəba xəstəliyi yayıldığına

görə atam və anam vəfat etdikdə, Molla Möhsün öz hesabına onları qayda-qanunla dəfn etdirmişdi.

Molla Möhsün 1910-cu ildə bizim kənddə Tovuz Qəhrəman qızı (1905-ci ildə Qərbi Azərbaycanın Sisiyan rayonu, Ağüdü kəndindən gəlib) ilə evlənib. Övladları: Həsən, Ruqiyyə, Səriyyə və Məhəmməd, doğulub.

Molla Möhsün 1935-ci ildə bizim kənddə vəfat edib.


Allah ona rəhmət eləsin!



Allacov Dadaş Əbilhəsən oğlu

1938-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1958-ci ildə orta təhsilini bitirib. 1959-61-ci illərdə hərbi xidmətdə olub. 1961-ci ildən Bakı Şin zavodunda yığıcı sexində işləmişdir.

1962-66-cı illər Azərbaycan Teatr və İncəsənət İnstitutunun, aktyor fakültəsini bitirib, elə həmin ildən Azərbay-can Televiziya və Radio verilişləri şirkətində, Kənd təsərrüfatı verilişləri redaksiyasında uzun müddət repartyor, redaktor müavini və redaktor vəzifəsində çalışmış ziyalı;



Allacov Ramiz Əbilhəsən oğlu

1944-cü ildə Horadiz kəndində doğulub.

1962-ci ildə orta məktəbi bitirib, Azərbaycan Neft və Kimya institutuna daxil olub. 1968-ci ildə həmin institutunun, avtomatika fakültəsini bitirmişdir. 1968-2006-cı illər Bakı şəhəri, Soyuducular zavodunda növbə ustası, baş usta, texniki nəzarət şöbəsində mühəndis, soyuducu quraşdırma sexində rəis müavini, hazır məhsul buraxılış sexində nəzarətçi mühəndis və icraçı sex rəisi vəzifələrində çalışmışdır. Uzun illər eyni müəssisədə işlədiyinə görə "Əmək Veteranı" medalın alıb;



Allacov Akif Allahverən oğlu

1945-ci ildə Horadiz kəndində doğulub. 1963-ci ildə orta təhsilini bitirib.

1970-ci ildə Bakı Neft və Kimya İnstitutunu bitirib, təyinatla Sankt-Peterburq şəhərində, Dəmir yolları elektrofikasiya layihə elmi tədqiqat institutunda mühəndis işləyib.

1971-ci ildə öz xahişi ilə vətənə qayıdaraq, Bakı dəmir yol idarəsində sex ustasından mühəndis vəzifəsinə kimi yüksəlib.

1985-ci ildən Keşlə yükləmə və boşaltma məntəqə rəisi işləyib.

1990-cı ildən Konteyner daşınması və kommersiya işlər şöbəsinin müdiri təyin edilib.

1991-ci ildən Bakı yük stansiyasının baş mühəndisi işləyib.

1996-cı ildən 2011-i ilə (ömrünün sonuna kimi) Bakı Dəmiryol stansiyasının baş mühəndisi vəzifəsində çalışıb;



Allacov Adışirin Səməd oğlu

1955-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1972-ci ildə orta kənd məktəbini bitirib.1973-75-ci illər həqiqi hərbi xidmətdə olub.

1976-93-cü illər Horadiz qəsəbəsindəki Rayonlararası bazada ambardar vəzifəsində işləmişdir. Hal-hazırda iş adamı kimi Bakı şəhərində sahibkarlıq fəaliyyəti göstərir;



Allacov Vüqar Vəliş oğlu

1971-ci ildə Horadiz kəndində doğulub. 1988-ci ildə orta təhsilini başa vurub.

1992-ci ildə Rusiya Federasiyasının Kurqan şəhərində, Ali Hərbi Məktəbi bitirdikdən sonra, təyinatla Z.Tağıyev qəsəbəsində yerləşən "N" hərbi hissədə xidmətə başlayır. Sonralar Qusarda, Gədəbəydə, Qazaxda, Şəmkirdə və Göygöldə "N" hərbi hissələrdə siyasi rəhbər komandiri olmuşdur, Hazırda Qusarda "N" hərbi hissədə çalışır, hərbi rütbəsi – polkovnik-leytenant;



Allahverdiyev Vüqar Zakir oğlu

1969-cu ildə Horadiz kəndində doğulub. 1976-86-cı illər Horadiz kənd orta məktəbində orta təhsilini alıb. 1987-89-cu illər hərbi xidmətdə olub. 1990-94-cü illər Gəncə şəhərində Azərbaycan Texnologiya İnstitutunda oxuyub və bitirib.

Əmək fəaliyyətini Gəncə Şərab zavodunda texnoloq vəzifəsində başlayıb.


1998-ci ildə ailəlikcə Bakı şəhərinə köçüb.

O, uşaq yaşlarından şerə həvəsi olduğuna görə müxtəlif janrlarda ştrlər yazırdı. Onun şerləri məktəbdə, kənd mədəniyyət evində tədbirlərdə oxunar, yerli rayon qəzeti "Araz"-da dərc edilərdi.

Vüqarın dərin zəkası və möhkəm yaddaşı olduğundan tez-tez müxtəlif tədbirlərdə Şairlərimizin şerləri ilə tamaşaçılar qarşısında çıxış edərdi. Ona görə də Bakı şəhərində müxtəlif "Şadlıq saraylarında" toy şənliklərində aparıcılıq (Tamada) edirdi.

Onun öz dediyinə görə 150-dən çox şerləri və poemaları əlyazmaları vardır. Deyirdi ki, bu yaxınlarda öz şerlərini toplayıb kitab şəklində buraxdıracaqdı. Ancaq vaxtsız ölüm 2013-cü il iyulun 13-də bu arzusunu yerinə yetirə bilmədi;

- B -



Bəylərov Hüseyn Nəcəfqulu oğlu

1920-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. Təbiətcə çox ciddi və sözündə, hərəkətində nizamlı şəxs kimi hamı onu tanıyır. Müharibə illərində kəndimiz 3 kolxoza bölünmüşdü. Güneyə, Quzeyə və Dördçinara. 1943-46-cı illər Dördçinar kənd kolxoz sədri vəzifəsində işləyib. Sonralar Horadiz kolxoz sədrin müavini, 2 saylı pambıqçılıq briqadiri və kənd hamamın müdiri vəzifələrində çalışmışdır. 1969-cu ildə vəfat edib. Zəhmətsevər insan;



Bəylərov Şərif Abbasqulu oğlu

1955-ci ildə Horadiz kəndində doğulub.

1975-ci ildə Bakı Dəmiryol Texni-kumunu bitirib və əmək fəaliyyətini Bakı dəmiryol idarəsində başlayıb.

1980-87-ci illər Moskva şəhər Tipoqrafiya və poliqrafiya idarəsində texniki-avadanlıq təchizat şöbəsi rəisi, direktor müavini işləmişdir. 1987-88-ci illər Moskva şəhəri Saburov adına Birləşmiş Yaradıcılıq Birliyinin şöbə rəisi işləyib və 1990-cı ildən həmin idarənin rəisi vəzifəsində çalışıb. 1989-cu ildə Moskva Poliqrafiya İnstitunun, poliqrafiya mühəndisi fakültəsini bitirib. 1991-ci ildə Fransada Marketinq və Menencment kursunu bitirib. 1991-ci ildən Naxçıvan MV Moskvadakı Nazirlər Sovetinin Asosassiyasının direktoru işləyib. 1999-2007-ci illər ABŞ-ın Goerqiya Ştatında yaşamış və Dünya İçkilər birliyinin baş direktoru vəzifəsində çalışıb. 2007-ci ildən hal-hazıra kimi Bakı şəhərində MMC "DESDOOR"-nun və "Magistralniye Hidro-Sistemi" MMC Azərbaycan Respublikasındakı Nümayəndəliyinin direktorudur;

- C -



Cəbrayılov Sabir Cəbrayil oğlu

1951-ci ildə Beyləqan rayonu, Daşburun qəsəbəsində anadan olmuşdur. 1968-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olub. 1973-cü ildə həmin İnstitutu bitirib, təyinatla Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Tikinti materialları zavodunda müxtəlif vəzifələrdə çalişaraq, zavodun direktoru vəzifəsinə qədər yüksəlmişdir. Sovet İmperiyası süqut etdikdən sonra zavodu şərikli özəlləşdirmişdir. Hal-hazırda Moskva şəhərində bacarıqlı iş adamıdır.



Cəfərova Gülüstan Əmrah qızı

1910-cu ildə Horadiz kəndində anadan olub. Kəndimizin ən qocaman sakini olan Gülüstan nənənin özünün misilsiz hafizəsinə, bu kitabın bəzi faktları dəqiqliklə söylədiyinə görə, həm də kitabımın həyata vəsiqə almasında göstərdiyi təmənnasız köməyə görə öz adımdan ona dərin təşəkkürümü və minnətdarlıgımı çatdırmağı vacib hesab etdiyim vaxtda 2010-cu il martın 3-də ölüm imkan vermədi.




Cəfərov Qara Cəfər oğlu

1912-çi ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta məktəb təhsilini bitirdikdən sonra, Azərbaycan Pedoqoji İnstitutuna daxil olur.

Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirib. Bütün ömrünü müəllimlik fəaliyyətinə həsr etmiş, Horadiz kəndində müəllim və Füzuli rayon Əhmədalılar kənd orta məktəbində əvvəlcə müəllim,

sonra işə həmin məktəbin direktoru vəzifəsində işləyib. Bacarıqlı pedoqoq, tanınmış ziyalı; 1982-ci ildə vəfat edib;



Cəfərov Calal Hüsü oğlu

1925-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta təhsilini başa vurduqdan sonra, Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna sənədlərini vermiş və daxil olub.

Həmin İnstitutun, maliyyə-kredit fakültəsini bitirib, təyinatla Naxçıvan Muxtar Vilayətinin Maliyyə şöbəsinə göndərildi.

1958-77-ci illər Naxçıvan Muxtar Vilayətinin Maliyyə şöbə müdiri işləmişdir.

1977-ci ildə Naxçıvan şəhər İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışıb.

1980-cı ildən Naxçıvan Maliyyə Nazirliyində məsul vəzifədə işini davam etdirmişdir. O, rus, ərəb, fars, urdu, fransız və türk dillərini mükəmməl bilirdi. 2007-ci ildə vəfat edib;



Cəfərov Məhəmməd Xanlar oğlu

1926-cı ildə Horadiz kəndində anadan olmuşdur. 15 yaşında ikən Bakıya gəlir və burada 1941-50-ci illər Neft daşlarında fəhlə, usta köməkçisi və usta vəzifələrində işləmişdir. 1952-53-cü illər Horadiz kəndində kolxoz sədri vəzifəsinə irəli çəkilir.

1953-66-cü illər Horadiz kənd Sovetin sədri təyin edilir və vəzifəsinin öhdəsindən bacarıqla gəlir.

1966-cı ildən sonralar Horadiz kolxozunda təftiş komissiyasının sədri və kolxoz idarə heyətində hesabdar vəzifələrində işləmiş təcrübəli şəxs. 1994-cü ildə vəfat edib;



Cəfərov Hüseyn Yaqub oğlu

1932-ci ildə Horadiz kəndində doğulub.

1939-49-cu illər orta təhsilini bitirib.

1950-53-cü illər Bakı şəhəri 1 saylı Tibb Texnikumunu bitirib, öz doğma kənd xəstəxanasında feldşer həkim vəzifəsində işə başlayir.

1953-93-cü illər Horadiz kənd Xəstəxanasında qüsursuz həkim işləmiş və kənd sakinləri arasında əsl həqiqi həkim kimi böyük hörmət sahibi olmuşdur.

Fədakar əməyinə görə Dövlət tərəfindən 1969-cu ildə SSRİ "Səhiyyə əlaçısı" adını almışdır.

1976-cı ildə SSRİ Ali Sovetinin fərmanı ilə "Əməkdə fərqlənməyə görə" medalına, 1994-cü ildə və 2000-ci ildə Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən "Ali feldşer dərəcəsi"-nə layiq görülmüşdür, 1993-2008-ci illərdə Bakı şəhəri "Təcili yardım" stansiyasında ömrünün axır gününə kimi həkim işləyib;



Cəfərov Məmiş Haqverdi oğlu

1935-ci ildə Horadiz kəndində anadan doğulmuşdur.

1952-ci ildə orta məktəb təhsilini bitirib. 1953-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub.

Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, iqtisadiyyat fakültəsini bitirdikdən sonra, təyinatla "Azərittifaq"-a göndərilir. M.Cəfərov "Azərittifaq"-da müxtəlif vəzifələrdə çalışıb.

Uzun müddət "Azərittifaq"-ın ldarə heyyətin üzvü və Təşkilat şöbəsinin müdiri işləmişdir. Bacarıqlı ticarətçi;



Cəfərov Akif Cəlil oğlu

1937-ci ildə Horadiz kəndində doğulub. Böyük qardaşi Xəlilin faciəli ölümündən sonra, onun işlədiyi Horadiz Dəmiryol st-da mağaza satıcısı və müdiri işləyib. Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfari İnstitutunu bitirdikdən sonra, Füzuli rayon Partiya Komitəsində təlimatçı işləyib. Qarğabazar kəndində kolxoz sədri seçilib, Füzuli Yağ-Pendir zavodunda direktoru təyin edilib. Horadiz kənd kolxozunda sədr vəzifəsində 1978-80-cı və 1992-93-cü illər işləyib. 2002-ci ildə vəfat edib;



Cəfərov Məhərrəm Surxay oğlu

1945-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1962-ci ildə orta təhsilini bitirib,

1964-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub. Həmin İnstitutun, mühasibat uçotu fakültəsini bitirdikdən sonra, təyinatla Füzuli pambıq zavodunda təftiş mühasibi vəzifəsinə təyin edilir. 1972-92-ci illər Füzuli Yağ-Pendir zavodunda baş mühasib vəzifəsində çalışıb. 1992-93-cü illər Horadiz çörək zavodunda baş mühasib vəzifəsində işləyib. Həmişə hər kəsə kömək əlini əsirgəməyən şəxs;

14 dekabr 2015 il v'fat edib/




Cəfərov Təşkilat Məhəmməd oğlu

1950-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1967-ci ildə orta məktəbi bitirib, Azərbaycan Xalq Təsərrüfatə İnstitutuna daxil olmuşdur. 1971-ci ildə həmin İnstitutun, mühasibat-uçot fakultəsini bitirib, təyinatla Füzuli rayon Statiska idarəsinə götürülür. Statiska idarəsində siravi işçidən, rəis müavini vəzifəsinə qədər yüksəlir. 1993-cü ildə Bakı şəhərində "ODAKYC"- şirkətində təlimatçı vəzifələrdə calışmışdır. Hal-hazırda Bakı-Oğuz-Qəbələ su kəmərində təchizat şöbəsinin müdiri kimi fəaliyyət göstərir;



Cəfərov Tariyel Həsən oğlu

1950-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1957-64-cü illər Horadiz kənd orta məktəbinin VIII-sinfini bitirib. Tam orta təhsilini isə 190-saylı orta məktəbində alıb. 1971-73-cü illər hərbi xidmətdə olub. 1975-ci ildən Bakı şəhəri, Nizami rayonunda ticarət sistemində əmək fəaliyyətinə başlayan Tariyel Həsən oğlu həmin rayonun Meyvə-Tərəvəz Bazasının müdirinə qədər yüksəlmişdir. 1991-ci ildə Novosibirski Kooperativ İnstitutunun, iqtisadçı fakultəsini bitirib. 1999-cu ildə Bakı şəhəri, Niza-mi rayon Bələdiyyəsinə üzv seçilib. Hal-hazırda Nizami rayon Bələdiyyəsində "Yerli xidmət" daimi komissiyasının sədridir. Füzuli rayon köçkünlərinin yerləşdirilməsində və işlə təmin edilməsində yardımçı olmuş, "Füzuli" şadlıq sarayının təsisçisi və sahibidir;



Cəfərov Arif Qara oğlu

1953-cü ildə Horadiz kəndində doğulmuş və 1970-ci ildə orta təhsilini Əhmədallar kəndində bitirib. 1972-75-ci illər həqiqi hərbi xidmətdə olmuşdur. 1976-cı ildə ADU-nə daxil olur. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin, hüquq fakültəsini bitirdikdən sonra, təyinatla Bakı balıq dəniz limanında hüquqşünas vəzifəsində çalışıb.

1987-90-cı illər Suraxanı rayonunda 13 saylı Hüquq məsləhətxanasında vəkili işləmişdir. 1990-cı ildən Bakı şəhəri Suraxanı rayonu 9 saylı Hüquq məsləhətxananın vəkilidir. Bacarıqlı hüquqşünas. 2011-ci ildə vəfat edib;



Cəfərov Qulu Məhəmməd oğlu

1954-cü ildə Horadiz kəndində anadan olub. 1971-ci ildə kənd orta məktəbini bitirib. 1975-ci ildə Azərbaycan Pedoqoji İnstitunun, coğrafiya fakultəsini bitirib.

1975-92-cü illər Horadiz kənd orta məktəbində coğrafiya müəllimi vəzifəsində çalışıb.

1992-93-cü illər Füzuli rayon İcra Hakimiyyətinin, Horadiz kəndi üzrə nümayəndəsi işləyib.

1994-2002-illər Beyləqan rayonu, yuxarı Aran kənd orta məktəbində müəllim işləmişdir.

2002-ci ildən hal-hazıra kimi Bakı şəhəri, Binəqədi rayon, Biləcəri qəsəbəsindəki İ.Məmmədov adına 298 saylı tam orta məktəbində müəllim işləyir.

Eyni zamanda Binəqədi rayon III seçki dairəsi, 28 saylı seçki məntəqəsinin sədridir;



Cəfərov Əliş Tehran oğlu

1961-ci ildə Horadizdə anadan olub.

1967-77-ci illər Horadiz kənd orta məktəbində oxumuş və başa vurub.

1980-cu ildə Bakı Kooperativ Texnikumunun iqtisadçı fakültəsini bitirib.

1980-81-ci illər hərbi xidmətdə olub. 1982-ci ildən Horadiz Kimya Sənaye Birliyinə işə qəbul olunub və adi fəhləlikdən baş iqtisadçı vəzifəsinə kimi yüksəlib.

1994-cı ildən hal-hazıra kimi Füzuli İcra hakimiyyətin Horadiz kənd nümayəndəliyinin mühasibi vəzifəsində çalışır;



Cəfərov Yusif Həsən oğlu

1962-ci ildə Horadiz kəndində doğulub.

Rusiya Federasiyası, Buryatiya MR-nın Ulan-Ude şəhərində əmək fəaliyyətini ticarətlə başlayır. Sovetlər ölkəsinin süqutundan sonra, həmən şəhərdə sahibkarlıq fəaliyyətinə keçir. 2003-cü ildən Buryatiyada Azərbaycan diasporasının sədri seçilir. Sibir vilayəti üzrə Azərbaycan diasporasının vitse-prezidentidir. Sibir vilayəti üzrə Azərbaycan konqresinə nümayəndə heyətinin sədri seçilib. Buryatiya Respublikasının Ali Şurasının üzvüdür. Buryatiyanın paytaxtı, Ulan-Ude şəhərində öz maliyyə vəsaiti hesabına "Heydar parkı" yaradıb;



Cəfərova Bənövşə Məmiş qızı

1964-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1981-ci ildə orta təhsilini bitirib, Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. 1987-ci ildə Azərbaycan Dövlət Universitetini bitirib Azərbaycan Dövlət Nəşriyyatına təyinatla müxtəlif vəzifələrdə çalışıb. Hal-hazırda həmin Nəşriyyatın işlər idarəsinin müdiri vəzifəsində işləyir. Bacariqli nəşriyyatçı;

Cəfərov Ramil Arif oğlu


1965-ci ilıdə Bakı şəhərində anadan olub. 1982-ci ildə orta təhsilini bitirdikdən sonra, Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub. 1987-ci ildə İqtisad Universitetini bitirib, təyinatla Bakı şəhəri, Yasamal rayonu Vergilər İdarəsinə göndərilib. Əmək fəaliyyətini Yasamal rayonunda kiçik vergi müfəttişliyindən şöbə müdiri vəzifəsinə kimi yüksəlib. Hal-hazırda Bakı şəhəri Yasamal rayonu Vergilər İdarəsinin şöbə müdiri vəzifəsində çalışır;

Cəfərova Səadət Arif qızı

1972-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1989-cu ildə orta təhsilini başa vurub, sənədlərini Bakı Dövlət Universitetə vermiş və qəbul edilmişdir.

1995-ci ildə Bakı Dövlət Universitetini bitirdikdən sonra, təyinatla Azərbaycan Dövlət Nəşriyyatında işə başlayıb. Hazırda Azərbaycan Dövlət Nəşriyyatının referenti vəzifəsində çalışır, həm də Prezident İdarəçilik Akademiyasının əməkdaşıdır. İstedadlı və bacarıqlı nəşriyyatçı;

– E –



Eyvazov Qardaşxan İsa oğlu

1938-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1956- cı ildə Əhmədallar kənd orta təhsilini bitirib. Həmin ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olur və 1961-ci ildə bitirib, təyinatla Füzuli rayonuna göndərilir. Əmək fəaliyyətinə Füzuli rayon Komsomol komitəsində başlayır. Horadiz Maşın Traktor Stansiyasında texniki təmir şöbəsi müdiri və baş mühəndis vəzifələrində çalışmışdır. Son illərdə Füzuli rayon Kimya-Sənaye İdarəsinin müdiri işləmişdir. 2007-ci ildə vəfat etmişdir;

Eyvazov Əkrəm İlyas oğlu

1955-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1972-ci ildə Horadiz orta məktəbini bitirib. 1973-cü ildə Rusiya Federasiyasının, Saratov şəhərində Aıi Milis Akademiyasına daxil olub. 1977-ci ildə Milis Akademiyasını başa vurduqdan sonra təyinatla, Rusiyanın Tümen Vilayətinin, Radujnı şəhərinin, Milis İdarəsində işə başlayan Əkrəm Eyvazov kiçik sahə müvəkkilliyindən Milis İdarəsinin rəis müavini vəzifəsinə kimi yüksəlib. Milis sistemində qüsursuz işlədiyinə görə dəfələrlə orden və medallara, həm də rəhbərlik tərəfindən "Fəxri fərman"-lara layiq görülmüşdür. Hazırda milis polkovnik- leytenatıdır;



Eyvazov Şahbaz Nəriman oğlu

1957-ci ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra, Politexnik İnstituta daxil olur.

1979-cu ildə Azərbaycan Politexnik İnstitutunu bitirib və təyinatla Bakı Radio zavodunda əmək fəaliyyətinə başlayıb.

1990-cı ildən Rusiya Federasiyasının Murmanski şəhərində, Dəniz Kəşfiyyat İdarəsində aparıcı – mühəndisdir;



Eyvazov Elman Nəriman oğlu

1960-cı ildə Horadiz kəndində doğulub. 1977-ci ildə orta təhsilini başa vurduqdan sonra, Rusiya Fedarasiyasında, Saratov şəhəri Ali Milis Akademiyasına daxil olub.

1981-ci ildə Ali Milis Akademiyasını bitirib və təyinatla Tümen vilayətinin, Nijniy-Vartovski şəhərində Milis İdarəsində sahə müvəkkilliyindən - cinayət axtarışları şöbə-nin baş müstəntiqi vəzifəsinə qədər yüksəlib. Rusiya dövləti qarşısında əla xidmətə görə:- "Fədakar xidmətinə görə" I, II, və III dərəcəli medalları ilə, "Rusiyanın DİN- nin 200 illiyi" medalı, RF DİN-nin 90 illiyi medalı, "Ən yaxşı cinayət əməkdaşı" medalı, "Sibirdə Neft inkişafına görə" medalları ilə təltif edilmişdir. Yaxşı xidmətinə görə rəhbərlik tərəfindən dəfələrlə "Fəxri fərman" və təşəkkürlər almışdır. Hazırda Nijni-Vartovski şəhərinin Milis İdarəsində, cinayət axtarışları üzrə rəis müavini işləyir. Polis zabiti, hərbi rütbəsi: polkovnik-leytenatdır;



Eyvazov Salman Nəriman oğlu

1956-cı ildə Horadiz kəndində anadan olmuşdur. 1974-cü ildə Horadiz kənd orta məktəbində təhsilini başa vurub.

O, 1981-83-cü illər hərbi xidmətdə olub.

1983-84-cü illər Bakı şəhər Nəqliyyat Departamentinin, 2 saylı Avtobus parkında nəzarətçi vəzifəsində çalışıb.

1985-ci ilçdə Rusiya Fedarasiyasının, Tümen vilayəti, Nijniy-Vartovski şəhərində Neft Texnikumuna daxil olub.

Həmin Neft Texnikumunu bitirdikdən sonra təyinatla "Tümenneft" Şirkətində neft və qaz quyularını əsaslı və carı təmiri üzrə adi ustadan mühəndis vəzifəsinə kimi yüksəlmişdir. Hazırda işini davam etdirir;



Eyvazov Zahid Nəriman oğlu

1969-cu ildə Horadiz kəndində anadan olmuşdur.

1986-cı ildə Horadiz kənd orta məktəbində təhsilini başa vurub.

1987-89-cu illər hərbi xidmətdə olub. 1990-cı ildə Rusiya Federasiyası, Tümen vilayətinin Nijniy-Vartovski şəhərindəki Neft Texnikumuna daxil olub.

1993-cu ildə Neft Texnikumunu bitirib və təyinatla həmin şəhərində Neftqazçıxarma idarəsində işə başlayır.

1994-ci ildən nümunəvi işinə görə Z. Eyvazovu həmin şəhərdə milis şöbəsinə işləməyə dəvət olunur.

O, kiçik milis işçisindən sahə müvəkkilinə qədər yüksəlib. Hərbi rütbəsi – mayordur;



Eyvazov Vahid Nəriman oğlu

1971-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1988-ci ildə orta təhsilini bitirdikdən sonra, Rusiya Federasiyasının Tümen vilayətinin, Nijniy-Vartovski şəhərindəki Neft Texnikumuna daxil olub.

1994-ci ildə həmin texnikumu bitirdikdən sonra, təyinatla "Tümenneft" Şirkətinin quyu təmiri üzrə ustadan aparıcı mühəndis vəzifəsinə kimi yüksəlmişdir. Hazırda həmin vəzifədə çalışır;

– İ –



İbişov Eyvaz Xanlar oğlu

1935-ci ildə Horadiz kəndində doğulub. 1957-ci ildə orta təhsilini bitirib.

1959-cu ildə Bakı Ticarət Texnikumu bitirdikdən sonra, Horadiz kəndində "Qarışıq mallar" mağazasıda əmək fəaliyyətinə başlayıb. O, işlərkən alıcıların rəğbətini qazanmış və dövlət planlarını vaxtında artıqlaması ilə ödədiyinə görə, onun şərəfli əməyi həmişə dövlət və rəhbərlik qarşısında qiymətləndirilmişdir. Eyvaz İbişova SSRİ "Ticarət əlaçısı" fəxri adı verilib, X Beşilliyin "Əmək zərbəçisi" və "Sosializm yarışının qalibi" döş nişanlarına layiq görülmüşdür. Bundan başqa Ticarət Nazirliyi və rəhbərlik tərəfindən 22 "Fəxri fərman"-la, 5 "Diplom"-la mükafatlandırılıb. Moskvada "Azərbaycan günləri"nin və Bakı şəhərində "Qabaqcıl ticarətçilərin" müşavirəsinin iştirakçısı olmuşdur;



İbrahimov Vəli Cabbar oğlu

1943-cü ildə Horadiz kəndində doğuluir

1965-ci ildə Azərbaycan Xalq Təsər-rüfatı İnstitutunu bitirdikdən sonra, Füzuli rayonu İstehlak cəmiyyətində baş əmtəəşünas vəzifəsinə təyin edilib.

1968-ci ildə Füzuli rayon İstehlak Cəmiyyəti sədrinin müavini və ticarət şöbə müdiri işləyib. 1976-cı ildən Füzuli rayon XDS İK-də təşkilat şöbəsinin müdiri təyin edilir. 1977-ci ildə Füzuli rayon Fəhlə Kooperativlər İttifaqının sədri vəzifəsinə keçirilib. 1978-ci ildən rayon İstehlak Cəmiyyətinin sədri kimi fəaliyyət göstərib. 1983-cü ildən isə Rayonlararası Tədarük Bazasının direktoru vəzifəsinə irəli çəkilib.


1993-cü ildən 2010-cu ilə kimi Füzuli rayon İcra hakimiyyətin Horadiz kənd nümayəndəliyi işləmişdir; 2010-cu ildə təqaüdə çıxıb;



İbişov Şakir Ədil oğlu

1957-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1974-cü ildə orta təhsilini başa vurub. 1981-ci ildə ildə Bakı şəhəri Politexnikumun, inşaat fakultəsini bitirdikdən sonra, təyinatla Rusiya Federasiyası, Krasnodar ölkəsinin Soçi şəhərində tikinti təşkilatlarında əmək fəaliyyətinə başlayıb. Tikinti meydanında özünü əsl təşkilatçı və bacarıqlı işçi kimi göstərdiyinə görə, yuxarı təşkilatların nəzərində yayınmayıb, elə ona görə də Dəniz Sərhəd Qoşunları Mühafizə sisteminə işə dəvət edilib. Soçi şəhərinin mühafizə orqanında bir müddət yaxşı və fədakar əməyinə görə onu Arxangelsk şəhərindəki Ali Gəmiçilik Akademiyasına göndərilir. Akademiyanı bitirdikdən sonra kapitan rütbəsilə Soçi şəhərində Sərhəd qoşunlarının, Müha-fizə dəstəsində əmək fəaliyyətinə başlayır. Öz işini sevən, təşkilatçılığı ilə seçilən və fədakar əməyı sayəsində kapitandan – general mayor rütbəsinə kimi çətin, lakin şərəfli bir yol keçib.

Hal-hazırda general mayor rütbəsilə istefaya şıxaraq Soçi şəhərində kommersiya ilə məşğul olan el oğlu;



İmanov Səttar Fətalı oğlu

1901-ci ildə Horadiz kəndində anadan olub. Sovet hakimiyyətinin ilk yaranışı zamanı milis orqanlarında işləmişdir. Yeni Sovet kommunist rejiminin, qanunlarının və tədbirlərinin həyata keçməsi yolunda onun fəaliyyəti böyük olub. İran tərəfindən keçən qaçaqlara qarşı amansız döyüşləri onun qoçaqlığından xəbər verir. 1930-cu il qaçaqlar onun evini növbəti dəfə güllələborana tuturlar. Səttar tək başına onlara qarşı mərdliklə vuruşur və onları qaçmağa məcbur edir, ancaq həyat yoldaşı Pərzad xanım çiynindən yaralanır. Səttar kişi 1950-51-ci illər kolxozda müxtəlif vəzifələrdə calışıb. Həmişə özünü əsl insan, qorxmaz, mərd bir adam kimi göstərmişdir. 1998-ci ildə vəfat edib.



İmanov Bəşir İsmayıl oğlu

1914-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1931-ci ildə orta təhsilini bitirdikdən sonra, Füzuli şəhər Pedaqoji Məktəbi bitirib. Təyinatla Horadiz orta məktəbində müəllimlik fəaliyətinə başlayıb.

1943-cü ildə Bakıda Dəmiryol Texnikumunu bitirdikdən sonra təyinatla Hacılı stansiyasında usta vəzifəsində işləyib. Sonra təhsilini davam etdirmək üçün Tbilisi şəhərində Dəmiryol İnstitutuna daxil olur və qurtardıqdan sonra, Ələt-Naxçıvan dəmiryolu hissəsində rəis müavini təyin edilir.

1948-ci ildən Ələt qəsəbəsi NKVD-nin rəisi vəzifəsinə keçirilir. 1953-ci ildən Azərbaycan Dəmiryol İdarəsinə keçirilərək müxtəlif

vəzifələrdə çalışır. 1960-cı ildən Azərbaycan Dəmiryol Polis İdarəsində rəis müavini vəzifəsində ömrünün axırına kimi işləyib. Polis rütbəsi – mayordur. 1969-cu ildə vəfat edib.



İmanov Hüseyn Məhəmməd oğlu

1926-cı ildə Horadiz kəndində anadan olmuşdur. 1943-cü il orta təhsilini bitirib. 1943-48-ci illər Horadiz, Maralyan, Mahmudlu dəmiryol stansiyalarında yol dəyişdirici, növbətçi vəzifələrində çalışıb. 1948-51-ci illər hərbi xidmətdə olub. 1952-ci ildə Bakı dəmiryol məktəbini bitirib. 1952-54-cü illər Mincivan və Karçivan stansiyalarında növbətçi işləyib. 1955-60-cı illər Yaycı (Culfa), Mürsəlli, Xələfli, Karçivan(Meqri) stansiyalarında rəis işləyib. 1962-ci ildə Bakı Dəmiryol Texnikumunu bitirib. 1962-68-ci illərdə Mahmudlu stansiyasında rəis təyin edilib. 1968-88-ci illər İmişli stansiyasında müfəttiş və xəzinədar vəzifələrində çalışıb. 1989-cu ildən Keşlə dəmiryol stansiyasında yüklərin qəbulu vəzifəsindədir.

H.İmanov yaxşı işinə görə 1941-45-ci il Dünya Müharibəsi qələbəsinin 50, 55, 60 və 65-ci illik "Yubiley" medalı ilə təltif edilmişdir. SSRİ Dəmiryol Nazirinin "Əla nəqliyyatçı" və Sərhəd qoşunlarının "Əla keşikçi" döş nişanlarına layiq görülmüşdür. Müharibə və Əmək veteranıdır;

İmanov Fərhad Eyvaz oğlu

1934-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1952-ci ildə Əhmədallar kəndində orta məktəbini bitirib. 1953-54-cü illər hərbi xidmətdə olub. 1955-ci ildə Statiska texnikumunu bitirib kolxozda mühasib köməkçisi vəzifəsində işləyib.

1960-cı il Azərbaycan Xalq Təsərrüfatı İnstitunun, mühasibat-uçot fakültəsini bitirdikdən sonra, təyinatını doğma Horadiz kəndinə alaraq baş mühasib vəzifəsini davam etdirir.

1965-cı ildən 1978-ci ilədək Horadiz kolxozunda baş mühasib vəzifəsini qüsursuz işləmişdir.

1978-93-cü illərdə Füzuli rayon Nəzarət Komitəsinin üzvü seçilmişdir;



İmanov Heydar Eyvaz oğlu

1936-cı ildə Horadiz kəndində doğulub. 1954-cü ildə orta məktəb təhsilini bitirib, sənədlərini Kino-mexanik kursuna verir və bitirdikdən sonra Horadiz qəsəbəsində kino-mexanik və kino-klubun müdiri vəzifəsində işləyib.

Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu qiyabi bitirdikdən sonra onu Füzuli rayon Kino-Teatr və Kino Qurğuları İdarəsinin Həmkarlar Komitəsinə sədri vəzifəsinə irəli çəkilir.

Bacarıqlı işinə görə həmin idarənin müdiri vəzifəsinə təyin edilir. 2001-cü ilə kimi həmin vəzifədə fəal çalışmış və özünü əsl rəhbər kimi göstərmişdir;



İmanov Vaqif Əsgər oğlu

1952-ci ildə Horadiz kəndində anadan olub. Orta təhsilini Əhmədallar kəndində bitirib. 1972-ci ildə Azərbaycan Dəmiryolu sistemində milis orqanında xidmətə başlayıb. 1976-cı ildə Belorusiya SSR-nin Mogil-yov şəhərində, Dəmiryolu üzrə xüsusi milis məktəbini bitirib, 1976-80-cı illər Naxçıvan şəhərində milis xətti bölməsində SƏDM (Sovet əmlakının dağıdılmasına qarşı mübarizə) idarəsində müfəttiş işləyib. 1980-85-ci illərdə Azərbaycan Dövlət Dəmiryolunun, Keşlə stansiyasında, yük qəbuledici vəzifəsində işləyib. 1985-92-ci illər Horadiz stansiyasında yük xəzinədarı işləyib. 1986-92-ci illər Azərbaycan Politexnik

İnstitutun maşınqayırma fakültəsini bitirib. 1992-2010-cu ilə kimi Horadiz stansiyasının rəisi işləmişdir. "Fəxri dəmiryolçu" döş nişanı ilə təltif edilmişdir;



İmanov Hümbət Bahadur oğlu

1956-cı ildə Horadiz kəndində anadan olmuşdur. 1973-cü ildə orta təhsilini bitirdikdən sonra, Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub. 1979-cu ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirdikdən sonra, təyinatını Qazaxıstan SSR-in, Kustanay vilayəti, Kustanay şəhər Enerji idarəsinə alır və müxtəlif vəzifələrdə çalışır. Hal-hazırda Kustanay şəhər Enerji idarəsinin rəisidir. Bacarıqlı şəxs;



İmanov Eyvaz Şirin oğlu

1958-ci ildə Horadiz kəndində doğulub.

1980-cı ildə Moskva Dövlət Universitetinin əmtəəşünaslıq fakültəsini bitirdikdən sonra Rusiyada müxtəlif vəzifələrdə işləyib. Sovet İmperiyası süqutundan sonra sahibkarlıq fəaliyyətinə keçmişdir. Hal-hazırda Rusiya Federasiyasında, Kareliya Respublikasın paytaxtı Petrozavodsk şəhərində sahibkarlıqla məşğuldur. Bizim ordumuz üçün öz yardım əlini əsirgəməyən və orada yaşayan azərbaycanlılara köməklik edən iş adamı;



İmanov Damət Bahadur oğlu

1959-cu ildə Horadiz kəndində doğulub.

1976-cı ildə Bakı Politexnik texnikumunun qiyabi şöbəsinə qəbul olur və eyni zamanda Horadiz qəsəbəsində "RTS"-də çilingər kimi əmək fəaliyyətinə başlayır. 1979-cu ildən

Xəzər Dəniz Neft Donanması idarəsində, matros köməkçisi, II dərəcəli motros, I dərəcəli motros və bosman vəzifələrində işləyir. 1986-cı ildə Bakı şəhəri Q.Məmmədov adına dənizçilik məktəbinin gəmi sürücüsü fakültəsini bitirib, kapitanın III- köməkçisi vəzifəsinə təyin edilir. Az sonra kapitanın II- köməkçisi və baş köməkçisi vəzifəsinə keçir. 1988-ci ildə XDND idarəsində Kapitan diplomu alıb və gəmi kapitanı vəzifələrində çalışır. 1996-cı ildə yaxşı işinə görə XDND idarəsində şöbə rəisi vəzifəsinə təyin edilir. Həmin XDND rəisinin "Dənizdə təhlükəsiz üzmə" üzrə müavini vəzifəsinə keçirilir. 1999-cu il Mahaçqala şəhərində İdarəetmə və Biznes İnstitutunu bitirib, yenə kapitan vəzifəsinə qayıdır və XDND idarəsinin "Kür" gəmi kapitanı işini davam etdirir. Hal-hazırda Xəzər Dəniz Neft Donanması İdarəsininin rəisi vəzifəsində işləyir. Bacarıqlı və təcrübəli dənizçi;



İmanov Malik Fərhad oğlu

1963-cü ildə Horadiz kəndində anadan olmuşdur.

1970-80-cı illər Horadiz kənd orta məktəbində oxumuş və təhsilini bitirib.

1984-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra müxtəlif vəzifələrdə işləyib. 1993-2002-ci illər Rusiya Federasiyasının Kareliya Respublikasında sahibkarlıqla məşğul olub.

2002-ci ildən Moskva şəhərinə "Xoldinq" şirkətində işləmək üçün, işgüzar mütəxəsis kimi dəvət alır və fəaliyyətini 2009-cu ilə kimi davam etdirib. Hal-hazırda Bakıda iş adamı kimi çalışır;

İmanov İlyas Şirin oğlu

1967-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1980-84-cı illərdə Moskva Dövlət İqtisad İnstitutunda oxuyub. Rusiya Federasiyası bazar iqtisadiyyatına keçdikdən sonra sahibkarlıqla məşğul olub. RF-nın Kareliya Respublikasının, Kandarada şəhərində ağac emalı zavodunda işləyib. İstehsal etdiyi mallar dünya bazarında

nüfuzlu yer tutub. Onun obyektlərində yüzlərlə adam işləyib və yüksək əmək haqqı alıb. O, xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olur. Bir neçə uşaq bağçasını himayəsinə götürüb. İlyas İmanov yaşadığı yerdə Azərbaycan diasporası ilə yaxınlıq edir və Vətən torpağının azad olması yolunda hər cür köməyə hazır olan iş adamı;



İmanov Yusif Tapdıq oğlu

1967-ci ildə Horadiz kəndində doğulub.

1974-84-cü illər Horadiz kənd orta məktəbində oxuyaraq orta təhsilini bitirib.

1984-cü ildə Bakı Neft Texnikumunu bitirdikdən sonra hərbi xidmətə çağrılır. Xüsusi göndərişlə Ali Tank Komandirləri məktəbinə daxil olur. 1989-cu ildə o, hərbi döyüş sirlərini mükəmməl öyrəndikdən sonra Çita vilayətinə "N" saylı hərbi Tank bölməsinə göndərilir. Lakin vətənin işğalı onu doğma torpağına çağırır, düşmənə qarşı vuruşması üçün vətənə qayıdır. 1992-ci ildə Azərbaycana könüllü Y.İmanov "N" saylı hərbi hissədə Qərargah rəisi və sonra tank batalyonunun komandiri olur. Qarabağ Müharibəsi döyüşlərində mərdliklə vuruşaraq, Füzuli bölgəsində düşmənin 2 tankını, 3 topunu və 20-dən çox əsgərini məhv etdi. 1993-cü il 13 apreldə Qacar və Gövşadlı döyüşündə qəhrəmacasına şəhid oldu. Hərbi rütbəsi – kapitan, Qarabağ döyüşlərin qəhrəman şəhidi;



İmanov Səfa Fərhad oğlu

1969-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1976-86-cı illərdə Horadiz kənd orta məktəbi bitirib.

1986-90-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ali təhsil almışdır.

1990-cı ildə Xalq Təsərrüfatı İnistitutunu və indiki İqtisad Universitetində magistraturada təhsilini davam etmişdir.

2008-ci ildə Bakı Dövlət Universitetin hüquqşünaslıq fakültəsini bitirib. Bakı şəhərində sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Halhazırda Nizami rayonunda sahibkarlığını davam etdirir;



İmanov Adil Tapdıq oğlu

1970-ci ildə Horadiz kəndində doğulub.

1991-ci ildə Rusiya Federasiyasını Ulyanovski şəhərində Ali Hərbi məktəbini müvəffəqiyyətlə başa vurduqdan sonra, Sverdlovsk vilayəti "N" saylı hərbi hissəyə göndərilir. Lakin Azərbaycan torpaqlarının itirilməsi, Vətən harayı onu doğma torpaqlara qaytarır. A.İmanov əvvəlcə "N" saylı Hərbi hissədə Batalyon komandiri, sonra isə "N" saylı Hərbi-Tank Batalyon komandirin müavini vəzifəsi tapşırıldı. Qardaşı Yusifin qəhrəmancasına ölümündən sonra, qardaşının Tank Batalyona komandirlik ona tapşırıldı.

A.İmanovun Tank Batalyonu Məngələnata döyüşü zamanı, düşmənin 5 tankını, 3 BMP-sini 10 əsgərini məhv etmişdi. 1993-cü il 13 iyulda Xatınbulaq kəndi uğrunda gedən ağır döyüş zamanı qəhrəmancasına həlak oldu. Yusif qardaşının yolunu davam etdirərək cəsarətli və vətənpərvər hərbçi kimi vuruşdu və vətən yolunda şəhid oldu. Adil İmanov öz tankı ilə 16 ədəd erməni texnikasını vurduğuna, və hərbi əməliyyatları uğurla başa çatdırdığına görə, Müdafiə Nazirliyi ona "Milli Qəhrəman" adına layiq görülməsi haqqında sənədləri təsdiq üçün Prezident Aparatına göndərmişdi.

Adil İmanov ölümündən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif olunur. Hərbi rütbəsi – baş-leytenant;

İsmayılov Fərhad Şükür oğlu

1898- ci ildə Horadiz kəndinjdə anadan olmuşdur.

1943-1952-ci illər Horadiz kəndində kolxoz sədri vəzifəsində çalışmış və özünü əsl ağsaqqal kimi göstərmiş və kolxozçulara nümunəvi xıdmət göstərmişdir. Kolxoza rəhbərliyi dövründə həmişə

at belində gəzərdi və tapşırıqlarını at belində də verərdi. Müharibədən sonrakı illərdə korluq çəkən kənd camaatına su dəyirmanı tikintisinin təşəbbüskarı olub və dəyirmanın kolxoz pambıq sahəsində tikilməsinin birbaşa təşkilatçısı olmuş ağsaqqal;

1965-ci ildə vəfat edib.



İsmayılov Ağamalı İsmayıl oğlu

1910-cu ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta məktəb təhsilini bitirib, Azərbaycan Dövlət Universitetinə sənədlərini verir və qəbul olur.

1935-40-cı illər Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini başa vurduqdan sonra Bakının rayonlarının birində bank işinə başlayır. Sonra Oğuz rayonunda işləmək üçün dəvət alır.

1942-47-ciillər Oğuz rayon Mərkəzi Dövlət bankın müdiri işləyir.1947-ci ildə isə Şəki şəhər Dövlət bankına müdir təyin edilir. O, ömrünün axırına kimi, 1975- ci ilə qədər bu vəzifədə çalışır;



İsmayilov Vəli Məhər oğlu

1935-ci ildə Horadiz kəndində anadan olub. 1954-cü ildə orta məktəbi bitirib.

1958-60-cı illər Azərbaycan Xarici dillər İnstitutunda alman dili fakültəsində oxuyub, lakin ailə vəziyyəti ağır olduğuna görə ali təhsilini yarımçıq qoyub, doğma Horadiz kəndinə qayıdır. Horadiz kəndində kolxozda müxtəlif vəzifələrdə çalışmışdır.

Horadiz kölxoz sədrinin müavini, 1975-ci ildə Horadiz kənd Sovetinin sədri təyin edilir. 1990-93-cü illərdə üzümçülük briqadiri vəzifəsində işləmişdir. Gözəl insan və bacarıqlı təsərrüfatçı. 2006-cı ildə Bakı şəhərində vəfat edib;



İsmayılov Fazil Oruc oğlu

1959-cu ildə Horadiz qəsəbəsində anadan doğulmuşdur. 1976-cı ildə Horadiz qəsəbə orta məktəbini bitirib. 1977-79-cu illər hərbi xitmətdə olub. 1981-ci ildə Bakı Dəmiryolu nəqliyyatının milis şöbəsində işə cəlb edilir. 1983-85-ci illər Belorusiya SSR-nin Mogilyov şəhərində, İxtisaslaşdırılmış Milis Məktəbini bitirib, təyinatını Cəbrayıl rayon Milis idarəsində sahə müvəkkili vəzifəsində işə başlayır. 1988-93-cü illər Cəbrayıl rayon cəbhəsində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etmiş, 2 dəfə yaralanmışdır. 1993-cü ildən Füzuli rayon Polis Idarəsində sahə müvəkkili vəzifələrdə işləmişdir, Bakı şəhəri, Nərimanov rayon Polis İdarəsində əməliyyat şöbə müvəkkili işləyib. Hal-hazırda Binəqədi rayonu, Polis İdarəsində əməliyyat şöbəsində çalışır. Qarabağ Müharibəsi iştirakçısı, polis kapitanı;



İsmayılov Telman Xanalı oğlu

1960-cı ildə Horadiz kəndində doğulub.

1980-ci ildə hərbi xidməti başa vurduqdan sonra, Moskva şəhərində qalıb 8 saylı Filevskiy Avtobus-trollevbus parkında sürücü işləməyə başlayır. 1983-ci il Moskva Maşın-Qayırma İnstitutuna, avtonəqliyyat fakültəsinin qiyabi şöbəsinə daxil olur. Eyni zamanda o, parkda çilingər, sonra gecə mexaniki vəzifəsinə keçirilir. 1987-ci ildə ali təhsilini başa vurduqdan sonra həmin Avtobus parkında Dəstə rəisi, İstismar rəisi vəzifələrdə çalışıb. 2000-ci ildən hal-hazira kimi Avtobus-Trolleybus parkında direktorun müavini vəzifəsində çalışır. Telman İsmayılov işlədiyi müddətdə Moskva şəhəri "Əməkdar nəqliyyatçısı" adına layiq görülüb, 25 il qüsursuz əmək fəaliyyətinə görə "Əmək

veteranı" medalı verilib və dəfələrlə "Fəxri fərman"-lara mükafatlara layiq görülüb;



İsmayılov Ədalət Oruc oğlu

1963-cü ildə Horadiz qəsəbəsində anadan olub.1980-cı ildə Horadiz qəsəbə orta məktəbini bitirib. 1981-83-cü ildə Almaniyada hərbi xidmətdə olub. 1985-87-ci illər Belorusiyanın Mogilyov şəhərində, İxtisaslaşdırılmış Milis Məktəbini bitirib. 1987-2002-ci illər Beyləqan rayon Milis İdarəsində sahə müvəkkili, sonra baş əməliyyat müvəkkili vəzifəsində çalışıb. 1993-96-cı illər Bakı Polis Akademiyasında ali təhsilini başa vurur. 2002-06-cı illər Quba rayon PŞ-də narkotik qrupun baş əməliyyat müvəkkili vəzifələrdə çalışmışdır. 2006-2012-ci illər Abşeron rayon PŞ-də baş əməliyyat müvəkkili vəzifəsində işləyib. 2012-ci il fevral ayından həmin şöbədə İctimayi Təhlükəsizli bölməsinin rəisi vəzifəsində çalışır. Öz işində göstərdiyi xidmətə görə orden, medalla və fəxri fərmanlarla təltif edilib. Ailəlidir 3 övlad var. Polis rütbəsi - mayordur;



İsmayılov Adil Əsgər oğlu

1969-cu ildə Horadizdə anadan olub.

1990-cı ildə Rusiya Federasiyası, Saratov şəhərində Hərbi Aviasiya məktəbini başa vuraraq, Zaqafqaziya Hərbi Sərhəd qoşunları "N" saylı Hərbi hissədə xidmətə başlayir.

1992-ci ildə könüllü Azərbaycan Milli Orduda "N" saylı hərbi hissədə xidmətə qayıdan, kapitan Adil İsmayılov Hərbi Eskadrilanın komandiri təyin edilib. 120-yə qədər hava döyüşü yerinə yetirib. 1994-cü il yanvarın 10-da son hava döyüşündə şəhid olub əbədiyyətə qovuşdu. Şəhidlər Xiyabanında dəfn olunub. Adil İsmayılovun "Milli Qəhrəman" fəxri adı verilməsi haqda sənədləri Müdafiə Nazirliyinə verilib. 1994-cü

ildə Horadiz qəsəbəsi uğrunda hava döyüşlərində göstərdiyi şücaətə görə ölümündən sonra "Qırmızı bayraq" ordeni ilə təltif edilib. Bacarıqlı təyyarəçi, hərbi rütbəsi – mayor. Qarabağ şəhidi;



İsmayılov Mahmud İsmayıl oğlu

1969-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1976-86-cı illər kənd orta məktəbində oxuyub.

Mahmud uşaq yaşlarından musiqiyə çox maraq göstərirdi.

8 yaşında ikən, yaz vaxtı Qozlu çaydan sel gəlirdi. Çay qırağında uşaqlarla bərabər seli seyr edir və suyun necə ləpəli axdığına, tələtümlə hər əşyanı özü ilə gətirdiyinə tamaşa edirdilər. Birdən çay özü ilə bir gitara gətirdiyini gördülər. Hamıdan qabaq Mahmud özünü suya vurub gitaranı götürüb evlərinə qaçdı. Onu silib təmizlədi, quruladı və sahmana saldı. Sonra gitaranın ecazkar simlərinə toxunub onun necə səs çıxarmasını diqqətlə izləyirdi. Axşama qədər o, gitarada "Tormoz Hüseyn" havasını ifa etməyi bacardı. Atası İsmayıl kişi işdən qayıdanda oğlunun gitarada çalmağına görə sevincinin həddi hüdudu yox idi.

Ona görə qonşuları çağırıb onlara qonaqlıq verdi və arada Mahmuda qulaq asıb əhsən deyirdilər. O gündən Mahmud gitaraya bağlandı və onun hər bir səsinin gözəlliyini, şirinliyini duya-duya onu daha mükəmməl öyrənməyə başladı.

O, 1987-89-cu illər hərbi hissədə olarkən konsertlərdə gitarada solo ifa edirdi. Hərbidən qayıdandan sonra onun gitara çalmağı fitri istedad olduğunu bilənlər, onu el toylarına dəvət edirdilər.

1993-cü ildən köçkünlük həyatı sürən Mahmud Bakı şəhərində məskunlaşdı. Vətən, torpaq həsrəti onu sarsıdarkən o, gitaranı sinəsinə basıb qəmli-qəmli onu dilə gətirirdi. Bakı şəhərində saysız el toylarında dəvət almaqla yanaşı, Rusiyanın Moskva, Sankt-Peterburq, Perm, Tümen vilayətinə və başqa şəhərlərinə də dəvətlər alırdı. O, hal-hazırda özünün ən çox sevdiyi müğənni Vidadi Bərdəli ilə birlikdə Respublikamızın müxtəlif rayonlarında toy şənliklərini ən

yüksək tərzdə keçirərək, öz gitarasının ecazkar səsilə insanları valeh edir;



İsmayılov Əvdil Əsgər oğlu

1971-ci ildə Horadiz kəndində anadan olub, 9-illik məktəbi bitirdikdən sonra, Bakı Dəmiryol Texnikumuna daxil olub.

1988-91-ci illər Bakı Dəmiryol Texnikumunu bitirib. 1991-ci ildə könüllü Füzuli rayonda "N" saylı hərbi hissədə döyüşlərində vuruşmuşdur. 1992-94-ci illər Bakı şəhəri Hərbi Təyyarəçilik məktəbinin, hərbi təyyarəçi ixtisası üzrə məktəbi bitirib və "N" saylı hərbi hissədə xidmətini davam etdirib. 2004-cü ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə, 2008-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin" 90 illiyi yubiley medalına, 2008-ci ildə "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı ilə təltif edilib. Hazirda "N" saylı hərbi hissədə xitmətini davam etdirən – mayor;



İsmayılov Samil Malik oğlu

1978-ci ildə Horadiz kəndində doğulub. 1995-ci ildə orta məktəb təhsilini başa vurub.

1996-97-cı illər həqiqi hərbi xidmətdə olmuşdur. 1997-2002-ci illər Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbini, "Aviasiyanın döyüş fəaliyyətinin idarə olunması" və "Hərbi hava qüvvələrinin taktiki komandanlığı" ixtisası üzrə bitirib. 2002-03-cü il ərzində "Uçuş-Texniki Hazırlıq təlim mərkəzini müvəffəqiyyətlə bitirib. O, 1996-2008-ci illərdə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif olunmuşdur. "Azərbaycan Silahlı Qüvvələrinin" 90 illiyi medalına layiq görülmüşdür. Hərbi rütbəsi – baş leytenantdır;

- K -

Kazımova Amalya Əli qızı



25.07.1932 –ci ildə Rusiya Fedarasiyasının, Şimali Osetiya vilayətinin, Orjanikidze(indiki Vladikavkaz) şəhərində anadan olmuşdur. Valideynləri əslən Ağdamd və Şuşadandır. Atası 1041-45-ci illər Müharibədə həlak olduğuna görə Amalya anası İzzət və qardaşı Məhəmməd ilə birgə Əhməd dayısının himayəndəsində yaşamışlar. 1949-cu ildə Bakı şəhəri, 132 saylı orta məktəbi bitirib. Həmin ildə Ağdam şəhərində, 3 illik Mamalıq məktəbinə daxil olub. 1952-ci ildə mama-akuşerka ixtisası üzrə diplom alaraq Füzuli rayona təyinatla kəlir.

Füzulu rayon Baş həkimin qəbulunda Amalya olarkən, həmin vaxt Cəfərov Yaqub Məmiş oğlu da orda olub. Yaqub kişinin xahişilə təyinatlı Horadiz kəndinə verilir.

Əvvəllər Horadiz kəndində doğulan uşaqlar öz evlərində köhnə üsulla doğulurdusa, indi yeni Mama-akuşerka Amalya xanımın gəlişilə, körpə doğulanlar ancaq kənd Xəstəxanasında onun nəzarəti və əməyi sayəsində həkimi qayda-qanunu ilə doğulurdu.

Həmin xəstəxanada həkim-feldşer işləyən Cəfərov Hüseyn atası Yaqub kişinin arzusu ilə Amalya xanımla ailə həyatı qurur.

Amalya Kazımova 41-illik əmək fəaliyyəti dövründə öz işində qüsursuz çalışaraq, onlarla uşaqları sağ-salamat ailələrə verdiyinə görə, yerli əhalinin dərin rəğbətini qazanmışdr.

O, dəfələrlə yaxşı işinə görə kənd və rayon rəhbərliyi tərəfindən "Fəxri fərman"-lara, həm də təşəkkürlərə layiq görülmüşdür.

1988-ci ildə Azərbaycan Səhiyyə Nazirliyinin "Fəxri Diplomuna" və uzun müddət qüsursuz əməyinə görə "Əmək Veteranı" medalı ilə təltif edilmişdir.

2010-cu ildə Bakı şəhərində vəfat edib.



Kazımov Həbib Əyyub oğlu

1939-cu ildə Horadiz kəndində anadan olmuşdur. !957-ci ildə kənd orta məktəbini bitirib. 1958-ci ildə Azərbaycan Pedaqoji İnstitutuna qəbul olmuşdur.

1962-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun, kimya-biologiya fakültəsini bitirib və təyinatını Horadiz kənd orta məktəbinə alaraq, doğma kənd məktəbində 1979-cu ilə kimi kimya müəllimi işləyib.

1979-92-cü ilə illər Horadiz kənd Sovetinin sədri vəzifəsində işləyib. Özünü çalışqan, bacarıqlı təşkilatçı kimi göstərmiş;



Kazımov Məhərrəm Əyyub oğlu

1943-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1960-cı ildə orta məktəbi bitirib. Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olub.

1965-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib, təyinatla Bakı Mərkəzi Univermağına göndərilir və orada müxtəlif vəzifələrdə işləyib. 1970-ci ildən Bakı şəhəri Mərkəzi Univermağında təsərrüfat malları bazasının müdiri işləmiş bacarıqlı ticarətçi. 2006-cı il vaxtsız vəfat edib;

- Q -



Qasımov Rəfael Suliddin oğlu

1947-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1965-ci ildə orta məktəbi bitirib, Azərbaycan Politexnik İnstitutuna daxil olub. 1970-ci ildə Azərbaycan Politexnik İnstitutunun, inşaat-mühəndis fakültəsini bitirdikdən sonra, təyinatla Bakı şəhəri Layihə İnsti-

tutunda texnik vəzifəsinə təyin edilir. 1978-94-ci illər Sənaye Tikint Nazirliyində nəzarətçi-texnik və Dəmir Beton zavodunda şöbə müdiri işləmişdir. 1994-cü ildən hal-hazıra kimi Nəsimi rayon 15 saylı Mənzil Kommunal İstismar Şöbəsində rəis mavini vəzifəsində çalışır. Bacarıqlı inşaatçı mühəndis;



Qasımov Hüseyn Cavanşir oğlu

1950-ci ildə Dördçinar kəndində doğulub. 1967-ci ildə orta təhsili bitirib, Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olib. 1971-ci il həmin İnstirutu bitirib. Təyinatla Horadiz kolxozunda kiçik aqronom vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1983-93-cü illər Horadiz kolxozunda aqronom-entimoloq vəzifəsində çalışmışdır. Horadiz kənd Sovetinin deputatı seçilib, ictimai-siyasi işlərdə də yaxindan və fəal iştirak etmişdir. Hal-hazirda köçkünlük həyatı keçirən Hüseyn Qasımov Bakı şəhərində fermer təsərrüfatı yaradaraq, sahibkarlıq fəaliyyətilə məşğul olan iş adamı;



Quliyev Alış Teymur oğlu


1910-cu ildə Horadiz kəndində anadan olmuşdur.

1941-45-cu ildə Horadiz dəmiryolunda fəhlə kimi iş fəaliyyətinə başlayır.

Oradan Dəmiryolu Texnikumuna göndəriş alır. Texnikumu bitirdikdən sonra yenə öz işinə qayıdıb usta işləyir.

Bir müddətdən sonra Dəmiryolu İnstitutunu bitirdikdən sonra Alış Quliyev Mincivan Dəmiryolunun rəisi vəzifəsində çalışır.

O, Dəmiryolu sistemində işlədiyi müddətdə polkovnik leytenant rütbəsi alır. Ancaq qəfil ölüm 1946-cı ildə onun gələcək planlarını həyata keçirməyə imkan vermir;



Quliyev Əliş Temir oğlu

1923-ci ildə Horadiz kəndində anadan olmuşdur. Horadiz orta məktəbinin 9-cu sinfində oxuyarkən hərbi xidmətə çağrılır.

1941-45-ci illər II-Dünya Müharib-əsinin ağır döyüşlərində vuruşmuş, axır döyüşlərin birində yaralanmış və vətənə tərxis olunmuş müharibə veteranıdır.

Müharibədən qayıtdıqdan sonra, Azərbaycan Pedaqoji İnstitutunun, fizika-riyaziyyat fakultəsini bitirib, Horadiz kənd orta məktəbində uzun illər fizika-riyaziyyat müəllimi işləyərək, özünü əsl pedaqoq və ziyalı kimi göstərmişdir.

Müəllimlik fəayyətində göstərdiyi nailiyyətlərə görə Ə.Quliyevə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adı verilmiş ziyalı; 1989-cu ildə vəfat edib.



Quliyev Cəmil Əmir oğlu

1934-cü ildə Horadiz kəndində anadan döğulmuşdur. Kənd orta məktəbində təhsilini bitirib. 1959-cu ildə BDU-ya daxil olub. 1965-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib və təyinatla Horadiz kənd orta məktəbinə göndərilib. 1965-93-cü illər məktəbdə tarix fənnindən dərs deyərək şagirdlərə bu elmi mükəmməl öyrədirdi. Horadiz kəndimizin həyatından bəhs edən "Kəndimizin tarixi faciəsi" adlı kitabın müəllifidir. Dəyərli ziyalı; 2003-cü ildə vəfat edib;




Quliyev Sadıx Temir oğlu

1939-cu ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsilin bitirib. Azərbaycan Politexnik institutuna daxil olur.

1957-61-ci illər Azərbaycan Politexnik institutunun, mexanika fakültəsini müvəf-fəqiyyətlə bitirib və təyinatla Bakı şəhəri, Qara şəhər

Mexanika zavoduna alaraq, usta, sex rəisi və mühəndis vəzifəsinə qədər yük-səlmişdir. 1970-ci ildə Azərittifaqın Horadiz qəsəbəsində Rayonlararası Avtobazada mühəndis vəzifəsində çalışıb. 1981-ci ildə yol qəzasında vəfat edib.



Quluyev Lətif Mösü oğlu

1941- ci ildə Horadiz kəndində anadan doğulmuşdur.

1966-cı idən Bakı şəhər Neft və Mədən Maşınqayırma zavodunda işləmişdir. Bacarıqlı və işgüzar əməyinə görə Dövlət tərəfindən "Qırmızı Əmək Bayrağı" ordeninə, "Əməkdə Fərqlənməyə görə" medalına layiq görülmüşdür. Dəfələrlə rəhbərlik tərəfindən "Fəxri fərman", təşəkkür almışdır. İstehsalatda 25 ildən qüsursuz işlədiyinə görə L.Quluyev "Əmək veteranı" medalı ilə təltif edilib;



Quliyev Kərim Calal oğlu

1944-cü ildə Horadiz kəndində doğulub.

1967-71-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq məktəbində təhsil alıb. 1971-ci ildə Tiflis Rəssamlıq Akademiyasına daxil olur. III kursdan sonra, M.A.Əliyev adına Azərbaycan İncəsənət İnstitutuna köçürülür. 1978-ci ildə İncəsənət İnstitutunu bitirib sərbəst yaradıcılıq fəaliyyətinə başlayır. Kərim Calalın Polşada, Moskvada, Sankt-Peterburq şəhərlərində keçirilən beynəlxalq sərgilərdə onun işlədiyi rəsmlər nümayiş etdirilib. 1980-cı ildən Azərbaycan Rəssamlar İttifaqın üzvüdür. 2004-cü ildə Bakı şəhərində fərdi sərgisi müvəfəqiyətlə nümayiş etdirilmişdir. Tanınmış rəssam. 2008-ci ildə vəfat edib;



Quliyev Sahib Abbas oğlu

1953-cü ildə Horadiz kəndində doğulub. Orta məktəb təhsilini başa vurub və Bakıda Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub.

1974-cü ildə həmin İnstitutun maliyyə-kredit fakültəsini biriib və təyinatla Bakı şəhəri Nizami rayon maliyyə şöbəsində işə başlayır.

Bir müddətdən sonra Nizami rayon Partiya Komitəsində işə irəli çəklir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra, Nizami rayonu İcra Hakimiyyətində şöbə müdiri vəzifəsində çalışır.

1993-cü ildən isə Nizami rayon İcra başçısının müavini vəzifəsinə təyin edilir.

Füzuli rayon köçkünlərinin Bakı şəhərində yataqxanalarda, uşaq bağçasında və digər yerlərdə yerləşdirilməsində böyük əməyi olmuşdur.

2003-2011-cü illər Gəncə şəhər İcra hakimiyyətinin başçısının müavini vəzifəsində çalışıb.

2008-ci il iyulun 1-də Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin fərmanı ilə, onun əməyinə yüksək qiymət verərək "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2011-ci ildən Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsində çalışır.Vətənpərvər və bacarıqlı dövlət xadim




Quluyev Fikrət Tofiq oğlu

1976-ildə Horadiz kəndində anadan olub. 1993-cü ildə orta təhsilini bitirib. 1995-ci ildə Azərbaycan Tibb Universitetinə daxil olub. 2001-ci ildə Azərbaycan Tibb Universitetin, müalicə-profilaktika fakültəsini terapevt ixtisası üzrə bitirib. 2001-ci ildə həqiqi hərbi xidmətə çağrılıb. Həmin tarixdən 2004-ci iladək "N" saylı hərbi hissənin tibb məntəqəsinin həkimi,

2004-05-ci illər "N" saylı hərbi hissənin, motoatıcı taborun tibb məntəqəsi rəisi, 2005-ci ildən Heydər Əliyev adına hərbi liseyin tibb xidməti rəisi, vəzifəsinə təyin edilib və hal-hazıra kimi həmin vəzifədə çalışır.

2004-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi yubileyi" medalı ilə, 2008-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi yubileyi" medalı ilə təltif edilib.

Hərbi rütbəsi – tibb xidməti kapitanıdır;



Qurbanov Yusif Hüseyn oğlu

1938-ci ildə Horadiz kəndində doğulub.

1947-57-ci illər Horadiz kənd orta məktəbini bitirib. Gəncə şəhər KTİ-na daxil olub.

1962-ci ildə Gəncə şəhəri Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra, təyinatla Horadiz qəsəbəsində Maşın Traktor Stansiyasında mühasib və baş mühasib vəzifəsində işləmişdir.

1978-ci ildə öz kəndində Horadiz kolxozunda baş mühasib təyin edilir və 1993-cü ilə kimi həmin vəzifədə çalışıb. 1993-cü ildən məcburi köçkün kimi Bakı şəhərində məskunlaşmış və əmək təqaüdçüsüdür;



Qurbanov Qurban Nəcəf oğlu

1952-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta təhsilini bitirib.

1974-ci ildə Azərbaycan Pedaqoji İnstitutun, kimya fakültəsini bitirib və təyinatla Beyləqan rayonuun, 2-ci Şahsevən kənd orta məktəbinə kimya-biologiya müəllimi təyin edilib. 1976-cı ildə həmin məktəbdə "Təlim – tərbiyə işləri üzrə" direktor müavini işləyib. 1979-cu ildə həmin məktəbin direktoru vəzifəsinə seçilmişdir. 1981-ci ildə Füzuli rayonu, Aşağı Əbdülrəhmanlı kənd orta məktəbində kimya-biologiya müəllimi işləməyə başla-

mışdır. 1986-cı ildən isə oxuduğu orta məktəbdə kimya-biologiya müəllimi kimi fəaliyyət göstərmişdir. 1993-cü ildən məcburi köçkün kimi Bakı şəhərində məskunlaşmış və hal-hazıra qədər Yasamal rayonunda təşkil edilmiş Füzuli rayonu, 4 saylı orta məktəbində "Təlim-tərbiyə işləri üzrə" direktor müavini vəzifəsində çalışır;



Qurbanov Bəhram Qurban oğlu

1982-ci ildə Horadiz kəndində anadan doğulub. 1999-cu ildə orta məktəb təhsilini başa vurub. 2000-ci ildə Azərbaycan Tibb Universitetinin, travmatloji-cərrahiyyə fakültəsinə daxil olub. 2004-cü ildə hərbi fakültəyə keçirilib. 2006-cı ildə Tibb Univer-sitetini bitirib və leytenant rütbəsilə hərbi hissəyə göndərilib. 2006-08-ci illərdə "N" saylı Hərbi hissədə həkim vəzifəsində işləmişdir. 2008-ci ildən hal-hazıra kimi "N" saylı Hərbi hospitalının, cərrahiyyə şöbəsində, cərrah-travmatoloq kimi çalışır. Hərbi rütbəsi – baş leytenantdır;

– Ə –



Əliyev Kalbalı Mirzalı oğlu

1912-ci ildə Horadiz kəndində doğulub.

1942-ci ildə II-Dünya Müharibəsində Moskva şəhərində hərbə hazırlıq keçdikdən sonra, Belarusiyada "N" saylı hərbi hissədə pulemyotçu kimi faşistlərə qarşı qızğın döyüşlərdə mərdliklə vuruşur. Sovet qoşunları irəlilədikcə Ukrayna cəbhəsində qanlı döyüşlərdə şücaət göstərmişdir 1944-cü ilin sentyabr ayında düşmən mərmisi onun yaxınlığında partlayır və K.Əliyev sol qolundan yaralanaraq hospitala düşür. Sağalır və onu ordudan tərxis edirlər. O, komandanlıq tərəfindən "Qızıl ulduz" medalına, "1941-45-il Müharibə veteranı" təltif edilir. Böyük Vətən Müharibəsinin Qələbəsinin "30", "40", "50", "60", "70" illiyi şərəfinə medallarına və "Əmək veteranı" medal ilə təltif edilir.

Doğma kəndinə qayıtdıqdan sonra kolxozda işləyir. Onu toyuq fermasına müdir təyin edirlər və bu işində 20 il çalışır. Hal-hazırda məcburi köçkün kimi Bakı şəhərində məskunlaşıb. Kəndimizin ən yaşlı adamı kimi əzizləri və yaxınları onun 100-illiyini 2012-ci ildə təntənəli qeyd etməyə hazırlaşır;



Əliyev Məhəmməd Alı oğlu

1929-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1946-cı ildə orta təhsilini başa vurub sənədləri Rusiya Federasiyasının Rostov şəhərindəki Dəmiryol İnstituna verib və İnstituta daxil olub. 1952-ci ildə Rostov Dəmiryol İnstitutunun hərəkətin tənzimlənməsi fakültəsini bitirib və təyinatla Dəmiryol sahəsində çalışıb. 1955-ci ildən Horadiz Dəmir yol stansiyasının rəisi vəzifəsinə təyin edilir. Uzun müddət qüsursiz bu vəzifədə ömrünün axırınadək işləyib. 1992-ci ildə vəfat edib;



Əliyev Mobil Həsən oğlu

1936-cı ildə Horadiz kəndindi doğulub.

1960-cı ildən Horadiz kolxozunda sürücü kimi işə başlamış və az sonra, kolxoz sədri Suruş Fərhadova özünə sürücü götürmüşdür. 1966-cı ildə Füzuli Kolxoz Tikinti İdarəsinin rəisi Aydın Cəfərov özünə sürücü götürüb. 1968-ci ildən Aydin Cəfərovun təşəbbüsü ilə o vaxtı Füzuli rayon Partiya Komitəsinin katibi Qədim Əhmədovun sürücüsü vəzifə-sinə təyin edilmiş və 23 il 1993-cü ilə kimi Füzuli PK-nin katib işləmiş Ə.Əhmədzadə, C.Məmmədov, Ş.Abbasov və Nofəl Qasımovun ray-kom sürücüsü kimi qüsursuz işləmişdir. Mobil əmək fəaliyyətində işlərkən özünü əsl insani keyfiyyətlərilə bərabər, bacarıqlı sürücü, sözü bütöv, işinə cavabdehliklə yanaşan, sadiq bir insan kimi göstərəkək rəhbərlik tərəfindən "Fəxri fərman"-lar, "Təşəkkür"-lər

və "Əmək veteranı" medalına layiq görülmüşdür. 2001-ci il vəfat edib;



Əliyev Süleyman Alı oğlu

1938-ci ildə Horadiz kəndində doğulmuşdur. Orta məktəb təhsilini 1956-cı ildə bitirib.

Gəncə şəhəri Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olub.

Həmin İnstitutun, zootexnik fakultəsini bitirib, təyinatla əmək fəaliyyətini 1961-ci ildən başlayan S.Əliyev Füzuli rayonu "Qırmızı Oktyabr sovxozunda zootexnik vəzifəsində çalışıb.

1965-70-ci illər İstehsalat Birliyində baş zootexniki işləyib. 1970-75-ci illər Füzuli rayon Partiya Komitəsində təlimatçı vəzifəsində işləmişdir. 1975-80-cı illərdə "Ət hazırlığı" kombinatın müdiri, 1980-90-cı illərdə Füzuli rayon Partiya Komitəsində təlimatçı olmuşdur. 1990-93-cü illərdə rayon sosial-təminat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1993-cü ildən Füzuli rayon İH və Bakı şəhəri, Nizami ra-yonu İH-də məcburi köçkünlərlə iş üzrə Füzuli rayonun nümayəndəsi olmuşdur. 2001-ci ildə vəfat edib;



Əliyev Əliş Vəli oğlu

1968-ci ildə Horadiz kəndində doğulub. 1985-ci ildə orta təhsilini bitirib, Rusiya Federasiyasinin Saratov Ali Hərbi Təyyarəçilik məktəbinə daxil olub.

1989-cu ildə həmin Ali Hərbi Təyyarəçilik Məktəbini, taktiki komandanlıq ixtisası üzrə bitirib və Həştərxan şəhərində hərbi xidmətini davam etdirib. 1992-ci ildən öz arzusu ilə Azərbaycana göndərilib və "N" hərbi hissədə təyyarəçi-şturman, ekipaj komandiri, eskadriya ko-

mandirinin müavini vəzifəsində xidmət edib. 1992-94-cü illər Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib. 1999-2001-ci illər Türkiyədə Hərbi Aviasiya Akademiyasında təhsil alıb. 2001-09-cu illər Hərbi Hava Qüvvələrinin mərkəzi aparatında məsul vəzifələrdə çalışıb. Onun hərbi hissədə əla xidmətinə görə əməyinə dövlət tərəfindən "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalları ilə təltif edilib. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin" 10-illiyi və 90-illiyi yubiley medallarına layiq görülüb. Hazırda hərbi hissələrdən birinə rəhbərlik etməkdədir. Hərbi rütbəsi - polkovnik-leytenantdır;



Ələkbərov Çingiz Ədil oğlu

1969-cu ildə Horadiz kəndində anadan olub. 1986-cı ildə orta təhsilini bitirib. 1987-ci ildə Rusiya Federasiyasının Sank-Peterburq Alı Hərbi Komandirlər Məktəbinə daxil olub.

1991-ci ildə həmin ali məktəbi bitirib. 1991-ci ildən Moskva Hərbi Dairəsində, Taman Diviziyasında xidmətdə olmuşdur. 1992-ci ildən Füzuli hərbi bölgəsinə, doğma torpağının müdafiəsinə qalxaraq Qarabağ döyüşlərində iştirak etmişdir. 1995-96-cı illər Beyləqanda, 1996-97-ci illər Xanlarda və 1997-2006-cı illərdə Şəmkir bölgələrində "N" saylı hərbi hissənin "Hava hücumlarından müdafiə" alayının komandiri vəzifəsində çalışmışdır. Hal-hazırda Müdafiə Nazirliyinin Hərbi Hava hücumundan müdafiəsi şöbəsinin məsul əməkdaşıdır. Hərbi rütbəsi: polkovnik-leytenantdır;



Əliyev Mədət Abbas oğlu

1962-ci ildə Horadiz kəndində doğulub.

1979-cu ildə orta məktəbi bitirib, Bakıdakı Q.Məmmədov adına Dənizçilik məktəbinə daxil olub, həmin məktəbi 1982-ildə bitirib. İşə siravi matrosdan başlayan

Mədəd Əliyev gəmi kapitanı vəzifəsinə kimi məsul bir işə irəli çəkilir.

1983-89-ci illər qiyabi olaraq Novorossiysk Ali Dənizçilik Akademiyasını bitirir. Dənizçilikdə böyük təcrübəsi olduğundan bu çətin və məsuliyyətli işin öhdəsindən layiqincə gələrək xarici sularda maniəsiz və şərəflə üzmüşdü.

Hal-hazırda Azərbaycan Dənizçilik Akademiyasında naviqasiya üzrə kurs rəhbəri vəzifəsində çalışır;



Əliyev Qəhrəman Vəli oğlu

1971-ci ildə Horadiz kəndndə anadan olub. 1988-ci ildə orta təhsilini bitirib.

1989-91-ci illər həqiqi hərbi xidmət keçmişdir. 1892-94-ci llərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. O, Füzuli rayonu Qaradağlı kəndi uğrunda gedən döyüşdə yaralanmışdır. 1994-97-ci illər Rusiya Federasiyasında Saratov Ali Hərbi Təyyarəçilik Məktəbini bitirdikdən sonra Vətənə qayıdaraq "N" saylı hərbi hissədə baş təyyarəçi, eskadrilya komandirinin müavini vəzifəsində xidmət edib. "Qüsursuz xidmətə görə" 3-cü və 2-ci dərəcəli medallarına layiq görülmüşdür. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin" 10 illiyi və 90 illiyi yubiley medalları ilə təltif edilmişdir. Hərbi rütbəsi – kapitan;




Əmirov Calal Müseyib oğlu

1936-cı ildə Horadiz kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra, Azərbaycan Tibb İnstitutuna daxil olub

Azərbaycan Tibb İnstitutunu bitirdikdən sonra Almaniyaya göndərilir. 1970-75-ci illər Almaniya Hərbi hospitalında həkim və sonra rəis vəzifəsinə qədər yüksəlib. 1975-ci ildə Moskvada Hərbi Akademiyanı bitirib,

Zaqafqaziya Hərbi Dairəsində, Gürcüstan hərbi hospitalına rəis təyin olunur. 1980-cı ildə Moskva şəhər Hərbi hospitalına rəis göndərilir. Azərbaycan Respublikası müstəqillik qazanandan sonra Vətənə gəlir və Bakı Hərbi hospitala rəis müavini vəzifəsinə təyin edilir. Sonra Azərbaycan Respublikasının Hərbi Komissarlığında hərbi həkim vəzifəsinə irəli çəkilir. Hərbi rütbəsi – polkovnik, hərbi həkim; 2010-ci ildə vəfat edib;



Əmirov Məzahir Süleyman oğlu

1954-cü ildə Horadiz kəndində doğulub.

Məzahir uşaq yaşlarından böyük qardaşı Əfsərin tarla Füzuli xalq teatrında, özfəaliyyət konsertində və el şənliklərində ifasına böyük həvəslə və diqqətlə dinlərdi. Bundan başqa bu ailənin uşaqlarında musiqiyə aludəliyi ana babası Aşıq Hümbətdən gəlirdi. Həddi buluğa çatdıqdan sonra müsuqi aləti gitaraya olan həvəsi artdı. Füzuli musiqi məktəbini başa vurduqdan sonra gitarada ifaları daha da mükəmməlləşdi və səs-sorağı hər yana yayıldı. Ailə ansamblı ilə tez-tez el toylarında iştirak etməyə başladı. Günü-gündən bu musiqi alətinə artan fitri istedadı onu Füzuli və qonşu rayonların toy şənliklərinə dəvətlərdə artırdı. 1993-cü il köçkünlük həyatı Bakı şəhərində başladı. O, əsasən "Xəmsə" şadlıq sarayının solisti olsa da, Azərbaycanımızın əksər rayonlarında el şənliklərinin mahir ifaçısı kimi tanınırdı. O, İran İslam Respublikasına və Rusiya Federasiyasına Moskva şəhərinə tez-tez dəvətlər alırdı.

Azərbaycan Əməkdar artisti, mahir gitara ifaçısı Rəhman Məmmədov AZTV-də müsahibə zamanı demişdi: - "Mənim bu peşəyə həvəsim və bu səviyyəyə gəlməyimə müəllimim Məzahir Əmirova minnətdaram".

Ancaq vaxtsız ölüm onun 2008-ci ildə gələcək planlarını həyata keçirməyə imkan vermədi. Allah ona rəhmət eləsin!



Əmirov Pənah Əvəz oğlu

1957-ci ildə Horadiz kəndində doğulmuşdur. Orta məktəbi bitirib.

1974-79-cu illər Azərbaycan Xalq Təsərrüfatı İnstitutu bitirdikdən sonra, təyinatını Beynəlxalq Gənclik-Turizm mərkəzində məsul vəzifələrdə çalışıb. 1982-2003-cü illərdə Baki Dondurma Kombinatında Maliyyə-uçot işlərinə rəhbərlik edib. Hazırda Bakı şəhərində "Bank Standartın" vitse-prezidentidir;



Əmirov Oqtay Əvəz oğlu

1959-cu ildə Horadiz kəndində anadan olmuşdur. Horadiz kənd orta məktəbini bitirdikdən sonra, 1986-cı ildə sənədlərini D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olub.

1981-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Bakı şəhərində ticarət sistemində müxtəlif vəzifələrdə çalışmışdır. 1992-cü ildə Bakı şəhəri Nizami rayon Vergilər idarəsində işləyib. 1996-cı ildən iş adamı kimi Bakı şəhərində sahibkarlıq fəaliyyətindədir;



Əmirov Rəfael Vəli oğlu

1963-cü ildə Horadiz kəndində doğulub.

1987-ci ildə Leninqrad şəhərində (indiki Sankt-Peterburq) Ali Bank məktəbini bitirib. Təhsilini başa vurduqdan sonra, təyinatla Azərbaycan Əmanət Bankının mərkəzi aparatında aparıcı mühəndis, həmin bankın Kassa Hesablaşma Mərkəzinin baş mühəndisi, son-

ralar “Azərbalıq” Dövlət Konserninin Maliyyə və Təhlil şöbəsində aparıcı mütəxəssisi, Komputer və informatika şöbəsinin rəisi vəzifələrində işləmişdir;



Əmirov Nazim Vəli oğlu

1966-cı ildə Horadiz kəndində doğulub. 1983-cü ildə orta məktəbi bitirib. Bakı şəhər Kooperativ Texnikumun məzunu, 1987-cı ildə hərbi xidməti başa vurduqdan sonra Rusiya Federasiyasının Odessa şəhərində müxtəlif işlərdə çalışır. Sonralar vətənə dönür və Bakı şəhərində işləyir. 2002-ci ildə ailəsi ilə Rusiyanın Perm şəhərinə gedir. Bir müddət işlədikdən sonra, sahibkarlıq fəaliyyətinə başlayaraq iş adamı kimi tanınır. Hal-hazırda Perm şəhərində bizneslə məşğuldur;



Əmirov Ruslan Mütəllim oğlu

1984-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1991-ci ildə Horadiz qəsəbəsində yerləşən orta məktəbinin birinci sinifinə daxil olub.

1993-cü il erməni qəsbkarları tərəfindən Füzuli rayonu işğal edildiyindən, öz doğma torpaqlarından köçkün düşərək Bakı şəhəri Nizami rayonunda məskunlaşmış və orta təhsilini həmin rayonda 2001-ci ildə bitirib..

2002-cü ildə hərbi xidmətə çağrılıb. “N” hərbi hissədə özünü nümunəvi və şücaətli əskər kimi göstərdiyinə görə, onu NATO Sülhməramlı qoşunlarının tərkibində, keçmiş Yuqoslaviyanın, Kosova ölkəsində təhlükəsizliyi qoruyan Azərbaycan Respublikasının qoşun hissələrinin tərkibində 2003-04-cü ildə iştirak etmiş və NATO-nun “Sülh qoroyucusu” medalına və

diplomuna layiq edilib. 2008-ci ildə GəncəDövlət Universitetinin, bədən-tərbiyəsi fakultəsini bitirib. Hazırda Bakıda iaşə xidmətində menecer vəzifəsində işləyir;



Əhmədov Xanlar Calal oğlu

1937-ci ildə Horadiz kəndində anadan olub. 1957-66-cı ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun, tarix-filologiya, sonra isə İncəsənət İnstitutunun mədəni-maarif fakültələrində təhsilini başa vurmuşdur. 1966-72-ci illər Füzuli rayonun-da çıxan "Araz" qəzeti redaksiyasında şöbə müdiri, məsul katib və redaktor vəzifəsində işləmişdir. 1972-74- cü illərdə Zaqafqaziya Ali Partiya Məktəbində əyani təhsil almışdır. 1974-77-ci illər Füzuli rayon partiya Komitəsində təlimatçı, 1977-79-cu illər rayon Mədəniyyət şöbəsinin müdiri, 1979-86-cı illər Füzuli rayon Partiya Komitəsində təlimatçı, 1986-92-ci illər Füzuli rayon Mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1992-93-cü illər Füzuli Rayonlararası Kino-Video birliyinin direktoru işləyib. Jurnalist fəaliyyəti dövründə 2dəfə MK-nin "Fəxri fərman"ına, 1978-ci ildə Mədəniyyət şöbəsinə onun rəhbərliyi dövründə isə MK-nin "Keçici Qırmızı bayrağına" layiq görülmüşdür.

O, dəfələrlə Rusiyada, Ukraynada, Özbəkistanda, Gürcüstanda, Qərbi Azərbaycanda olmuşdur. Onun rəhbərlik etdiyi "Qarabağ ocağı" kollektivi 1989-cu ilin mayında Özbəkistanın Namanqam vilayətində keçirilən "Atri qullar vadisi"(Güllər ətri vadisi) adlı Ümumittifaq musiqi festivalında iştirak etmiş, 100 bədii kollektiv arasında birinci yerə çıxmış, ən yaxşı mükafata "Qran-Pri"yə layiq görülmüşdür. Az sonra, yenə may ayında Qarabağda keçirilən "Xarı bülbül" musiqi festivalında uğurla çıxış etmişdir.

1989-cu ilin noyabr ayında Danimarkada Azərbaycanın timsalında keçirilən SSRİ Mədəniyyət günlərində böyük bir yaradıcı qrupa rəhbərlik etmişdir.

X.Əhmədovun Mədəniyyət şöbəsində fəaliyyəti dövründə əlavə rayonda 6 musiqi məktəbinin açılmasına nail olmuşdur. Onun ciddi səyi nəticəsində uzun illər fəaliyyəti dayandırılmış Füzuli Dövlət Musiqili Dram teatrının fəaliyyəti bərpa edilmişdir.

O, hal-hazırda dövlət qulluqçusu təqaüdçüsüdür və Bakı şəhəri, Nizami rayonu Ağsaqqallar şurasının sədrı kimi fəaliyyətini uğurla davam etdirir;



Əhmədov Cəmil Bayramalı oğlu

1940-cı ildə Horadiz kəndində doğulub. 1961-ci ildə Azərbaycan Dövlət Universiteti, jurnalist fakultəsini bitirib və təyinatla Füzuli rayon "Araz" qəzetinin redaktor müavini işləmişdir. "Araz" qəzetinin fəaliyyət dövrü SSRİ Jurnalistlər İttifaqının üzvü kimi Bolqarıstanda və Yunanıstanda ezamiyyətdə olub. 1994-cü ildə Az.TV Dövlət Televiziya və Radio verilişləri komitəsində redaktor vəzifəsində çalışıb. Sonra "Məktublar və yerli radio verilişləri redaksiyası"-da şöbə müdiri vəzifəsində işləyib. Çoxlu sayda müəllifi və aparıcısı olduğu "Ömür yolu", "Dünya bir pəncərədir", "Məktəb həftəsi" və başqa adda verilişləri ilə efirə çıxıb. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Bacarıqlı jurnalist;



Əhmədov Səttar Heydər oğlu

1961-ci ildə Horadiz kəndində anadan olmuşdur. Horadiz kənd orta təhsilini başa vurduqdan sonra, Bakı Dənizçilik məktəbinə sənədlərini verib və qəbul olub.

1981-ci ildə Qafur Məmmədov adına Dənizçilik məktəbini bitirib gəmi sürücüsü ixtisasına yiyələnir.

1984-cü ildə gəmi kapitanın 3-cü köməkçisi vəzifəsində əzmlə çalışıb verilən tapşırıqları yerinə yetirir.

2002-ci ildə isə Gəmi kapitanı vəzifəsinə irəli çəkilir. Hal-hazırda "Qəhrəman Əsədov" adına gəminin kapitanıdır;



Əhmədov Oktay Mirzalı oğlu

1966-cı ildə Horadiz qəsəbəsində anadan doğulmuşdur. 1983-cü ildə orta təhsilini başa vurub, Azərbaycan Xalq Təsərrüfatı İnstituna sənədləri verib və qəbul olub. 1988-ci ildə həmin İnstitutu bitirib və təyinatla Bakı şəhəri Binəqədi rayonu "Azəriqaz" qapalı səhmdar cəmiyyətində əmək fəaliyyətinə başlayır.

Uzun illərdir ki, Azəriqaz qapalı səhmdar cəmiyyətində bu günə kimi məsul vəzifələrdə çalışır. O, 2002-2004-cü illərdə Bakı şəhəri, Binəqədi rayonu üzrə "Azəriqaz" idarəsinin müdiri, 2004-cü ildə isə Sabunçu rayon qaz idarəsinin müdiri işləmişdir. Hal-hazırda Bakı şəhəri "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətində nəqliyyat şöbəsinin rəisi vəzifəsində çalışır. Bacarıqlı mütəxəssis;



Əhmədov Rauf Həmzə oğlu

1969-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1986-cı ildə orta təhsilini bitirib. 1987-89-cu illər həqiqi hərbi xidmətdə olub. Qarabağ Müharibəsi dövründə könüllü olaraq Milli Batalyonların sırasında mərdliklə vuruş-muş və yaralanmışdur. Sağaldıqdan sonra "N" hərbi hissəyə qayıdaraq, düşmənə qarşı amansız vuruşda 2-ci dəfə yaralanaraq II-qrup əlil statusu almışdır. 2007-ci ildə Azərbaycan Milli Məclisinə millət vəkilinə namizədliyini irəli sürmüşdü. Hazırda Bakı şəhəri Əlillər Cəmiyyətinin sədrinin müavinidir. Qarabağ müharibə əlili;

– H –



Hacıyev Cabbar Həzi oğlu

1908-ci ildə Horadiz kəndində doğulub**.** 1941-45-ci illər Dünya Müharibəsinin ağır döyüşlərində iştirak etmiş, mərdliklə vuruşmuş "Qızıl ulduz" və bir sıra döyüş medallarına layiq görülmüşdür. Müharibədən tərxis olduqdan sonra kolxozda kankan işi ilə kəhrizlərimizi abadlaşdırıb.

Ahıl vaxtlarında isə kəndimizdə yas mərasimlərində "Qurani-Kərimi" təbliğiylə məşğul olan mömin bəndə; 1993-cü ildə vəfat edib;



Hacıyev Bəhrəm Cabbar oğlu

1934-cü ildə Horadiz kəndində doğulub.

1953-cü ildə orta məktəb təhsilini başa vurub, Bakı şəhərində ADU-ə daxil olur.

1959-cu ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsini bitirdikdən sonra, təyinatı Yevlax Rayonlararası Ticarət Bazasına verilib. Burada əvvəlcə kiçik əmtəəşünas, böyük əmtəəşünas və bir ildən sonra Yevlax Ticarət Bazasının direktor müavini vəzifəsinə irəli çəkilib. 1962-ci ildə Ticarət bazasının direktoru vəzifəsində çalışıb. 1963-cü ildə Yevlax Rayonlararası Neft Bazasının direktoru vəzifəsinə təyin edilib və bu vəzifədə 18 ilə kimi işləyib. 1998-ci il vəfat edib;



Heydərov İskəndər Heydər oğlu

1936-cı ildə Horadiz kəndində doğulub..

1959-cu ildə Azərbaycan Tibb İnstitutunu bitirdikdən sonra təyinatını Füzuli şəhərində Göz Xəstəlikləri Dispanserinə alıb.

1961-69-cu illər Əhmədallar kənd Xəstəxanasında baş həkim işləyib.

1962-ci ildə Moskva şəhərində və 1967-ci ildə Kuybişov şəhərində həkimləri təkmilləşdirmə kurslarında tibbi yenilikləri ilə biliyini artırmışdır.

1969-93-cü illər Horadiz kənd Xəstəxanasında baş həkim vəzifəsində işləyib.

1993-95-ci illər Biləsuvar rayon 4 saylı Çadır şəhərciyində baş həkim işləyib. İ.Heydərovun səmərəli və şərəfli işinə görə onun əməyi Dövlət tərəfindən "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. 1995-ci ildə vəfat edib;



Hüseynov Çərkəz Hüseyn oğlu

1937-ci ildə Horadiz kəndində doğulub.

1966-cı ildə Bakı Politexnik Texnikumun, İnşaat fakültəsini bitirib və təyinatla Mil-Muğan Hidro-qovşağı istismarı İdarəsinində işə başlayıb. 1966-68-ci illər 2-saylı Tikinti Quraşdırma İdarəsində nəzarətçi, usta və mühəndis işləyib. 1968-76-cı illər həmin idarədə iş icraçısı vəzifəsində çalışıb. 1976-93-cü illər Səy\ar Quraşdırma Dəstəsində iş icraçısı, sahə rəisi vəzifələrində ışləyib. Bundan başqa Çərkəz Hüseynov öz kəndi üçün dəmyə torpaqlarda çiləmə su qurğuları yaradıb. Dəli çay üzərində Mədəniyyət evinin yanında, həm də Məktəbin yanında körpü tikdirib, 1941-45-ci il abidəsinin tikilib başa çatmasında yardımçı olub. Öz hesabına xeyir-şər üçün quraşdırma çadır düzəltdirib, Güney kəhrizin quyularını təmizləndirib. Ümumiyyətlə kənd camaatı üçün ımkan dairəsində hər cür köməyini əsirgəməyib. 2008-ci ildə vəfat edib. **Allah ona yar olsun!**



Həsənov Yelmar Yaqub oğlu

1939-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1957-ci ildə orta təhsilini bitirib. Elə həmin il Azərbaycan Bədən Tərbiyəsi İnstitutuna daxil olub. 1961-ci ildə Bədən Tərbiyəsi İnstitutunu başa vurduqdan sonra

təyinatı, Türkmənistan SSR-nin Aşqabad şəhərinə verilir və orda əmək fəaliyyətini davam etdirir. Hal-hazırda Türkmənistan Respublikasının Voleybol yığma komandasının baş məşqçisi vəzifəsində işləyir. Türkmənistan Respublikasının Əməkdar idman məşqçisidir;



Həsənov Müslüm Mürsəl oğlu

1940-cı ildə Horadiz kəndində doğulub.

1957-61-ci ildə Gəncə şəhərində Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra təyinatı Mərdəkan və Xırdalan quşçuluq fabrikinə verilir və zootexnik vəzifəsində çalışır. 1975-ci ildən Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində, zootexnik və heyvandarlıq şöbəsində işləyir. Azərbaycan Dövlət Müstəqilliyindən sonra sahibkarlıqla məşğul olur. 1993-cü ildən "Güney MMC" kiçik müəssisənin direktorudur;



Hüseynov Xanlar İsa oğlu

1941-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1958-ci ildə orta təhsilini bitirib və Gəncə şəhər Pedaqoji İnstituta daxil olub. 1963-cü ildə Pedaqoji İnstitutunu bitirib, təyinatını Füzuli rayonunun Seyidəhmədli kənd orta məktəbinə alır. 1964-cü il hərbi xidmətə çağrılır. 1965-ci ildən B.Bəhmənli kəndində direktor müavini işləyib. 1968-79-cu illər isə Horadiz qəsəbə, fəhlə-gənclər məktəbində müəllim işləyib. 1979-cu ildən isə öz doğma kəndinə qayıdır. O, bu məktəblərdə kimya müəllimi kimi fəaliyyətdə olur. Onun əmək fəaliyyətindəki qazandığı nailiyyətlər dövlətimiz tərəfindən qiymətləndirilmişdir. 1972-ci ildə "Azərbaycan SSR Qabaqcıl Maarif Xadimi" döş nişanı, 1976-cı ildə "XI Beşilliyin zərbəçisi" döş nişanı, 1976-cı ildə "Azərbaycan SSR-nin Pedoqoji Cəmiyyətin üzvü, 1981-

ci ildə "Baş Müəllim" adına layiq görülüb, 1986-ci ildə "Əmək Şöhrəti" ordeni ilə təltif edilmişdir. SSRİ-nin "Maarif əlaçısı" və "Metodist müəllim adina layiq görülüb. 1990-cı ildə "Əmək veteranı" medalını alıb.. Maarif Nazirliyində dəfələrlə onun bacarıqlı iş təcrübəsi bəyənilərək qiymətləndirilmiş. O, Füzuli rayon məktəblilərinə nümunə olan bacarıqlı və təcrübəli müəllim kimi tanınmışdır. Hazırda Gəncə şəhərdə şərəfli əmək təqaüdçüsü kimi yaşayir;



Həsənov Vaqif İslam oğlu

1956-cı ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsilini bitirib, Bakı şəhəri İnşaat Texnikumuna daxil olur.

1979-cu ildə İnşaat Texnikumunu bitirib. Əmək fəaliyyətini Füzuli rayon 15 saylı Səyyar Mexanikləşdirilmiş Dəstəsində sahə ustası və sonra iş icracısı vəzifəsində çalışıb. 1980-cı ildə Horadiz qəsəbəsindəki 35 saylı SMD-də sahə rəisi işləyib. 1982-ci ildə Azərbnaycan Politexnik İnstitutunun, inşaat fakültəsini bitirib. 1986-cı ildə Füzuli Rayonlararası Kimya Sənaye birliyinin bazasında ambar müdiri işləyib. 1996-cı ildən Saatlı şəhərində Bakı Dizayn İstehsalat Birliyinin filialında Kadrlar şöbəsinin rəisi işləyib. Eyni zamanda Füzuli rayon 41 saylı seçki məntəqəsinin sədri vəzifəsini icra edib. 2006-cı ildə Azərbaycan Dövlət Neft Şirkəti, Azneft İstehsalat Birliyinin, Nəqliyyat Departamentinin, Avtodəstəsində mexanik vəzifəsində çalışıb. 2010-cu ildən hal-hazıra həmin dəstənin rəisi kimi fəaliyyətini davam etdirir;



Həsənov Teyyub Mikayıl oğlu


1956-cı ildə Horadiz kəndində anadan olmuşdur. 1973-cü ildə Horadiz kənd orta məktəbini bitirib. 1977-76-cı illərdə Urray-nada hərbi xidmətdə olib. 1977-ci ildə Bakı Dənizçilik məktəbini bitirdikdən sonra Xəzər dəniz gəmiçilik idarəsində çalışıb.

1978-82-ci illərdə Alma-Ata şəhərində işləyib. Alma-Ata şəhərində zabitlik kursunda oxuyub və conra isə sürücülük məktəbini bitirib. 1982-93-cü illərdə doğma torpağa qayıdıb və cürücü işləyib. Füzuıi rayonun iqtisadiyyatında böyül payı olan Horadiz kəndinin uğurlarında, həm də İmam Piriyə gedən yolun daş və çınqıl tökülərək abadlaşdırılmasında, İmam ətrafında pilləkanların və su hovuzunun başa çatdırılmasında onun payı az olmamışdır.

Kəndimizin abadlaşdırılmasında və mənəvi dəyərlərimizin bərpasında böyük rol oynayan "İmamzadə" cəmiyyətinin fəal üzvülərindən biri olmuşdur.

1993-cü ildən digər həmyerlilərimiz kimi oba köçkünlük həyatı "yaşayır".

-X-




Xələfov Rəhim Süleyman oğlu

1918-ci ildə Dördçinar kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra, Azərbaycan Tibb İnstitutuna qəbul olunur.

1946-cı ildə Azərbaycan Tibb İnstitutunun əczaçılıq fakültəsini bitirib, təyinatla Bakı şəhərində mərkəzi apteklərin birində işləməli olur. 1951-ci ildə Gəncə şəhərinə gəlir və orda aptekdə satıçı və sonra müdir vəzifəsində çalışır.

1956-cı ildə yaxşı işinə həm də, xüsusi bacarığına görə R.Xələfovu Reqional Baş Apteklər idarəsinin rəisi vəzifəsinə təyin edilir. Bu vəzifədə qüsursuz ömrünün axirina kimi, 1976-cı ilə qədər çalışır. Bacarıqlı əczaçı;



Xələfov Allahverdi Hüseyn oğlu

1919-ci ildə Dördçinar kəndində anadan olmuşdur. 1941-ci ildə Ryazan Artelleriya məktəbini bitirib, kiçik leytenant rütbəsi alaraq, Volkovski frontunun "N" hərbi hissəsinə göndərilir. 1942-ci ildə bacarığına və şücaətinə görə ona leytenant rütbəsi verilir, həm də batareya komandir təyin edilir. Leninqrad uğrunda gedən

şiddətli döyüşlərdə, 12-ci zərbə diviziyasının qvardiya baş leytenantı A.Xələfovun minamyot batareyası düşmən üzərinə od ələyərək Leninqradın və Çudov stansiyasının və bir sıra yaşayış məntəqələrin düşməndən azad edilməsində xüsusi igidlik göstərmişdir. Ona görə o, "Qızıl ulduz" ordeni ilə təltif edilib. 1944-cü ildə Novqorod şəhərinin azad edilməsi uğrunda ağır gedən döyüşlərin birində ağır yaralanır. Uzun müddət müalicədən sonra II-qrup əlil kimi hərbdən tərxis olur. Müharibədən qayidib Gəncə şəhərində 1946-52-ci illər İnzibati orqanlarda işə cəlb edildi. 1952-58-ci illər Gəncə Pedaqoji İnstitutunda ali təhsil almışdır. 1952-69-cu illərdə Mənzil İstismar idarəsinin rəisi işləyib. 1969-87-ci illər Kommunal Müəsisəsiləri Trestinin direktor vəzifəsində ömrünün sonuna kimi çalışıb. Müharibə və əmək veteranı Allahverdi Xələfovun fəaliyyəti dövründə Dövlət tərəfindən "Qızıl Ulduz" ordeni və bir neçə döyüş medallar ilə bərabər əməyi "Qırmizi Əmək Bayrağı" ordeni, "Əmək veteranı" və Gəncə şəhərinin nümunəvi sakini kimi qiymətləndirilib. 1956-cı ildə Horadiz kəndimizdə hamam tikilməsi üçün lazımi avadanlıqla təmin edilməsində şəxsən özü yardımçı olub. Allah ruhunu şad eləsin;



Xələfov Ağamalı Əhməd oğlu

1933-cü ildə Horadız kəndində anadan olmuşdur.

1960-cı ildə Rusiya Federasiyasının, Moskva şəhərində Plexanov adına Dövlət İqtisad İnstitutunu bitirdikdən sonra təyinatla Qazaxıstan Respublikasına alır. A.Xələfov Alma-Ata şəhərində müxtəlif vəzifələrdə işləyir. Şəhər Partiya Komitəsində, Qazaxıstan Dövlət Tikinti İdarəsində, Maliyyə Nazirliyində yüksək vəzifədə işləmişdir.Tanınmış dövlət xadimi.1999-cu ildə vəfat edib.

Xələfov Əsgər Mehdi oğlu

1938-ci ildə Dördçinar kəndində anadan doğulmuşdur. 1956-cı ildə Horadiz orta məktəbində təhsilini başa vurub, Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfati İnstitutuna daxil olub.

1961-ci ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı və İnstitutunu bitirib və təyinatını Azərbaycan SSP-in Meşə Təsərrüfatı Nazirliyinə alır və müxtəlif məsul vəzifələrdə çalışır. 1988-ci ildə vəfat edib.



Xələfov Rəşid Əhməd oğlu

1941-ci ilin may ayının 8-də Qazaxıstanın Taldı-Kurqan vilayətində anadan olmuşdur. Sonralar "Həyata yaraşıq ver" şerlər kitabındakı;

Yadıma nə düşür toz, torpaq, səhra,
Uşağam, bilmirik gedirik hara...


beytinin müəllifi öz ailəsilə birlikdə uşaqlığını sürgünlükdə keçirən balaca Rəşid sonra anasının ağlagəlməz şücaəti, iztirabları hesabına 1947-ci ildə vətənə Horadiz kəndinə qayıdır. Horadiz kənd orta məktəbini bitirdikdən sonra, 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun daxil olur.

1962-ci ildə müəyyən çətinliklərə görə Bakı şəhərini tərk edir və doğma Qazaxıstan Respublikasına üz tutur.

Həmin il Alma-Ata şəhərində Politexnik İnstitutuna daxil olur və 1967-ci ildə həmin İnstitutu "qırmızı" diplomla bitirir. Həmin il Horadiz kəndinə qayıdır və ailə həyatı qurduqdan sonra yenidən Alma-Ata şəhərinə qayıdır.

1977-ci ildə Bakıya köçür və Süni dəri və plyonkalar zavodunda ucnf köməkçisindən şöbə rəisi vəzifəsinə kimi yülsəlir.

Həmişə ən yüksək zirvələrə can atan və çox vaxt həmin zirvələrə yüksəlməyi bacaran, haqsızlığa qarşı haqq və ədalətlə mübarizə aparan, öz istedadı ilə çoxlarına örnək olan, tükənməz həyat eşqi ilə yaşayan Rəşid öz ad günündə 1998-ci il qəflətən dünyasını dəyişir.



Xələfov Bayramalı(Corc) Əhməd oğlu

1948-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1961 ci ildə orta təhsilini bitirib . Hələ uşaq illərindən rəssamlığa olan həvəsi, onu Qazaxıstan Rəssamlıq İnstitutuna tələbəsi edir. 1967-ci ildə həmin institutu bitirib, və əmək fəaliyyətinə başlayıb.

Onun Bakıda, Türkiyədə, Almaniyada, Belçikada, Amerikada və Müstəqil Dövlətlər Birliyinin ölkələrində foto sərgiləri keçirilib. Beynəlxalq və Dövlət rəssamlıq müsabiqəsinin lauerantıdır. Onun Alma-ata şəhərindəki Foto salonunun qarşısında yazılıb: -"Miss Planeta Foto Salon Corc Xalafova". Əsərləri beynəlxalq sərgilərdə göstərilmişdir.

Onun kimi yüz minlərlə azərbaycanlıya "İkinci vətən" olan Qazaxıstan Respublikasına borclu qalmayan Bayramalı Xələfov qardaş Qazaxıstan mədəniyyətinin zənginləşməsində, onun özünəməxsus gözəlliklərinin öz əsərlərində yaşatmaq üçün əlindən gələn hər bir şeyi əsirgəməmişdir.

Horadizdə yaşamasada öz həmyerlilərinin yanında olan, köçgünlük həyatının iztiablarını gələcək nəsillərə çatdırmaq üçün fotokaverasına həkk etdirməyi özünə borc bilən, hər gün tarixi yaşamağa cəhd edən, amalı xalqına xidmət etmək olan Bayramalı bu gündə gənclik həvəsilə yaşayıb yaradır.

O, Qazaxıstan Respublikasında Jurnalistlər İttifaqının, həm də Avropa Foto Rəssamları Cəmiyyətinin üzvüdür.



Xələfov İlqar Rəhim oğlu

1957-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

1974-cü ildə orta təhsilini bitirib. Həmin il sənədlərini Türkmənistan Dövlət Universitetinin hüquq fakültəsinə vermiş əla qiymətlə Universitetə daxil olmuşdur.

1979-cü ildə Türkmənistan Dövlət Universitetinin hüquq fakültəsini "Qırmızı diplom"la bitirir. 1979-84-cü illərdə Türkmənistan Prokurorluq orqanlarında işləyib.

1984-cü ildən Bakıya gələrək əmək fəaliyyətinə Azərbaycan Ali Məhkəməsində başlayır. 1990-cı ildə Bakı şəhəri Nizami rayonuna hakim təyin edilir.

2002-ci ildən Azərbaycan Apellyasiya Məhkəməsinin hakimi təyin olunur və hal-hazıra kimi həmin vəzifədə haqq-ədaləti qoruyur. Tanınmş istedadlı hüquqşünas;

– M –



Mahmudov Aydın Eyvaz oğlu

1951-ci ildə Horadiz kəndində doğulub. 1968-ci ildə orta məktəb təhsilini bitirib.

1968-73-cü illər Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində oxuyub, müvəffəqiyyətlə başa vurduqdan sonra təyinatla Zaqatala rayon Prokurorluğuna müstəntiq göndərilir. 1974-88-ci illər Şamaxıda, Naxçıvan MR-da və Ağsu rayonlarında Prokuror orqanlarında fəaliyyət göstərmişdir.

1988-ci ildə Ucar rayon Prokuroru, 1993-cü ildə Gəncə şəhər Prokuroru, 1994-cü ildə Göyçay rayon Prokuroru, 1998-ci ildə Bakı şəhəri Xətai rayon Prokuroru vəzifələrində işləmişdir.

Hal-hazırda Bakı şəhər Prokurorluğunda məsul vəzifədə çalışır. Bacarıqlı hüquqşünas;



Mehdiyev Nuruş İmanqulu oğlu

1914-ci ildə Horadiz kəndində doğulub.

1941-45-ci illər Böyük Vətən Müharibəsinin ilk günlərindən 778-cı atıcı polkda almanlara qarşı qanlı vuruşmalarda iştirak etmişdir. 1942-ci ilin yayında döyüş yoldaşları ilə birlikdə əsir düşür. Onları əvvəl Almaniya-

ya sonra isə Fransaya aparırlar. Əsirlikdən qaçaraq ilk Sovet partizan qrupuna qoşulur. Sovet partizan dəstəsi 6 Fransa şəhərlərinin azad olmasında yaxından iştirak edib. Fransada qəhrəmanlıq göstərmiş igid partizan, 1 may 1945-ci ildə general Şarl de-Qoll tərəfindən "Qızıl xaç", "Döyüş bayrağı" və "Həmrəylik"ordenlərinə layiq görülmüşdür. Fransanın fəxri vətəndaşlığını almış igid. 2009-cu il 95 yaşında vəfat edib;



Mehdiyev İbrahim Bəyalı oğlu

1916-cı ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsili bitirib.

1938-ci ildə Bakı Dəmiryol Texnikumun bitirib, sonra Şəmkir rayonu, Zəyəm və Dəllər dəmiryol stansiyasının rəisi vəzifəsində çalışmışdır.

1945-50-ci illər Azərbaycan Sənaye İnstitutunda ali təhsil alıb, mühəndis diplomu ilə Füzuli, Ağdam, Şəmkir və Qazax rayonlarında daş karxanalarında müdir işləmişdir.

1970-ci ildən Azərbaycan Kurortlar İdarəsinin təchizat şöbəsinin müdiri 1976-cı il vəfat edənə qədər işləmişdir;



Mehdiyev Əhməd Bəyalı oğlu

1932-ci ildə Horadiz kəndində doğulub.

1950-ci ildə Rusiya Federasiyası, Leninqrad (Sank-Peterburq) şəhərində Hərbi məktəbə daxil olur. Məktəbi bitirdikdən sonra təhsilini həmin şəhərdə Hərbi Akademiyada davam etdirir. Akademiyanı müvəffəqiyyətlə bitirib əmək fəaliyyətinə Sualtı gəmidə başlayır.

1960-cı illər SSRİ-nin Sualtı gəminin kapitanı kimi Kubaya səfəri zamanı ağır təhlükə ilə üzləşir. Ə.Mehdiyevin gəmisi, onun təklifi ilə təhlükədən xilas olur.

O zaman Baş Hərbi komandanlıq tərəfindən podpolkovnik hərbi rütbəsi verilib. Onun sinəsini Dövlət tərəfindən verilən orden və medallar bəzəyir. Sonralar o, fəaliyyətini Krım yarımadasının Sevastopol şəhərində davam edir;



Mehdiyev Tacəddin İbrahim oğlu

1945-ci ildə Şəmkir rayonunda anadan olub. 1962-ci ildə orta məktəbi bitirib.

1967-ci ildə Bakı Ali hərbi məktəbini müvəffəqiyyətlə bitirmişdir.

1983-cü ildə M.F.Frunze adına Hərbi Akademiyanın Komandanlıq fakültəsini əla qiymətlə bititib, 11 il Sibir Hərbi dairəsində və 5 il Almaniya Demokratik Respublikasında vzvod komandirindən başlamış, hərbi hissə komandirinə qədər xidmət yolu keçmişdir.

1991-ci ildə axırıncı azərbaycanlıdır ki, SSRİ Müdafiə Nazirinin əmri ilə general rütbəsi verilib. Həmin ildə Müstəqil Azərbay-can Respublikasında ilk general rütbəsi məhz T.Mehdiyevə verilib.

1991-ci ilin noyabr ayında Tacəddin Mehdiyevi Azərbaycan Respublikasının Müdafiə Naziri təyin edilir. Bu zaman Azərbaycanda ictimai-siyasi vəziyyətin çətinliyi, "stol" uğrunda mübarizə getdiyi vaxtda istefa verməyə məcbur oldu.

Hal-hazırda Hərbçilərin sosial müdafiə cəmiyyətinin sədridir. Hərbi rütbəsi- general mayor vətənpərvər və təcrübəli hərbçi;



Mehdiyev Şəmil Salman oğlu

1929-cu ildə Horadiz kəndində doğulub.

Hələ gənc yaşlarından Horadiz kolxozunda özünü əsl zəhmətkeş kimi göstərmişdir. Onun əməksevərliyinə görə 8 hektar pambıq sahəsinə manqa başçısı təyin edilmişdir. Az vaxt içərisində yüksək nəticələr göstərərək, hər

hektardan 66 sentner pambıq təhvil verdiyinə görə, Ş.Mehdiyevə SSRİ Ali Sovetin fərmanı ilə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. Eləcədə mükafat olaraq "K-55" markalı motosklet verilib. Əməkdə fərqləndiyinə görə "Qırmızı Ulduz" ordeninə layiq görülmüşdür. 2 dəfə Ümimittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgi-sinin iştirakçısı olmuşdur. Yüksək əmək göstəricilərinə görə XTNS-nin 1 qızıl və 3 gümüş medalına layiq görülmüşdür. 1965-ci ildə növbədən kənar "Moskviç-412" minik avtomobili verilmişdir. 1969-cu ildə "Leninin 100-illiyi" medalı verilmişdir. 1973-93-cü illər Horadiz kolxozunda xəzinədar vəzifəsində qüsursuz işləmişdir. 1985-ci ildə "Əmək Veteranı" medalını alıb. 2010-cu il vəfat edib;



Mehdiyev Əsgər Qasım oğlu

1936-cı ildə Horadiz kəndində doğulub.

1956-cı ildə Bakı şəhəri 2 saylı Tibb Texnikumun müalicə-profilaktika fakültəsini bitirib, elə həmin ildə təyinatla Horadiz kənd xəstəxanasına feldşer təyin olunub.

1956-93-cü illərə kimi öz sənətinin öhdəsindən bacarıqla gəlib.

1994-cü ildə Biləsuvar rayonu ərazi-sində salınmış çadır şəhərciyinin həkim məntəqəsinin müdiri vəzifəsində işləmişdir.

2003-cü ildən hal-hazıra kimi Füzuli rayonun Qayıdış 3 saylı şəhərciyində, həkim vəzifəsində işləyir;



Mehdiyev Muxtar Əvəz oğlu

1938-ci ildə Horadiz kəndində anadan olmuşdir. 1958-ci ildə Horadiz kənd orta məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna qəbul olub.

1962-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutunu bitirib elə həmin il hərbi xidmətə göndarilir və əsgəri xidmətini zabit

kimi başa vurur. Hərbidə qayıdan kimi Beyləqan rayonu, Dünyamallar kənd orta məktəbinə göndərilir. Bir il öz ixtisası üzrə müəllim işlədikdən sonra həmin məktəbdə dərs hissə müdiri vəzifəsinə keçirilir. 1965-ci ildən Horadiz kənd orta məktəbinə göndərilir və M.Mehdiyev idman müəllimi vəzifəsində 1993-ci ilə kimi öz fəaliyyətini davam etdirmişdir;



Mehdiyev Əkrəm Cəlil oğlu

1943-cü ildə Horadiz kəndində doğulub.

1950-60-cı illərdə Horadiz kənd orta məktəbini oxumuş, sonra Kənd Təsərrüfatı İnstitutuna daxil olmuşdur.

1969-cu ildə Gəncə şəhəri Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirib və öz doğma kəndinə qayıdaraq, 1970-88-ci illər Horadiz kolxozunda aqronom və baş aqronom vəzifələrində işləmişdir.

1988-92-ci illər Horadiz kənd kolxoz sədri seçilmişdir. Onun sədrliyi dövründə SSRİ-nin dağılması ilə əlaqədər yeni təsərrüfatlara münasibətlər zamanı, ilk öncə torpaqlar icarəyə verildi. Bu çox çətin proses zamanı Əkrəm Mehdiyev bu prosesi olduqca səbrlə həyata keçirməyi bacardı.

Bütün sahələrdə bol-bol məhsullar əldə edildi. Onun əməyinə yüksək qiymət verilərək, XTNS-nin bürünc medalı ilə təltif edilmişdir. Təcrübəli kənd təsərrüfatı mütəxəssisi;



Mehdiyev Vəli Əliş oğlu

1944-cü ildə Horadiz kəndində doğulub.

1961-ci ildə orta məktəbi bitirib. 1963-cü ildən 1970-ci ilədək Horadiz kənd kolxozunda müxtəlif işlərdə çalışıb.

1975-76-cı illər Horadiz kənd Sovetin katibi vəzifəsində işləyib. 1979-83-cü illər Əmək fəaliyyətini Horadiz qəsəbəsində

"Azərittifaq"ın Avtobazasında baş iqrisadçı vəzifəsində çalışıb.

1983-87-cü illər Türkmənistanın Çardjou vilayətinin, Lebap şəhərində işləyib.

1990-cı ildən Horadiz kəndində üzümçülük sahəsinin 30 hektarın icarəyə götürmüş və yüksək nəticələr göstərib, ildə 500 ton üzüm məhsulu əldə etmişdir.

Horadiz kəndi haqqında yazılmış "Yaddaş" və "Gün gələcək" kitablarının müəllifidir. Vətənpərvər yazar;



Mehdiyeva Qənirə Hətəm qızı

1951-ci ildə Horadiz kəndində doğulub. 1968-ci ildə kənd orta məktəbi bitirib.1969-72-ci illər Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda oxuyub və bitirib. 1973-cü ildə Horadiz kolxozunda mühasib işləyib.

1975-ci ildə Horadiz kənn Sovetinə katib vəzifəsinə təyin edilib. Horadiz kəndi işğal olunanandan sonra isə kənd Soveti Beyləqan rayonuna köçürülüb və həmin vəzifədə 1994-cü ilə kimi çalışıb.



Mehdizadə Mehdi Əsgər oğlu

1956-cı ildə Horadiz kəndində doğulub. 1973-cü ildə orta təhsilini başa vurub, Azərbaycan Tibb İnstitutuna daxil olur.

1980-cı ildə həmin İnstitutun, müalicə-profilaktika fakültəsini bitirib, işə Horadiz kənd Xəstəxanasında başlayıb. 1985-ci ildən Bərdə rayonundakı "Pambıqçı" sanatoriyasında həkim, 1994-cü ildən Bərdə şəhər poliklinikasının həkimi və 1996-cı ildən isə halhazıra kimi baş həkim işləyir. 1999-cu ildən Bərdə rayon üzrə seçki məntəqəsinin sədridir. Öz əməyinə görə "Azərbaycan Səhiyyə

əlaçısı" adına və 4 dəfə rəhbərlik tərəfindən "Fəxri fərman"-a layiq görülmüşdür;



Mehdizadə Əliş Vəli oğlu

1973-cü ildə Horadiz kəndində doğulub və həmin kənddə orta təhsilini başa vurub.

Kənd xəstəxanasında işləyən diş həkimi Allahyar İbrahimovun yanında 1989-93-cü illər köməkçi işləyərək, diş texnikasının sirlərini mükəmməl öyrənmişdir.

Məcburi köçkünlük dövrü Bakı şəhəri, Nizami rayonunda diş kabineti açmış RVM MMC-nin təsisçisi və direktorudur.

Ə.Mehdizadə öz işi ilə bərabər Bakı şəhəri I-saylı uşaq evinə təmənnasız olaraq diş həkimi kimi yardım göstərir. Bundan başqa o, həkim dostları Renat, Mobil və Aqil həkimlərlə birlikdə vaxtaşırı xeyriyyəçilik məqsədilə uşaq evlərində olmuşdur.

Hal hazırda Rusiyanın Tver şəhərinin, Tibb Akademiyasında öz ixtisası üzrə ali təhsilini davam etdirir.



Mehdiyev Qurban Həmid oğlu

1977-ci ildə Horadiz kəndində anadan olub. 1984-93-cü illər orta məktəbi bitirib.

1993-96-cü illər Naxçıvanski adına Hərbi təmayüllü litseyə daxil olmuş və müvəffəqiyyətlə bitirib.

1996-2000-ci illərdə Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsil alaraq leytenant rütbəsilə Müdafiə Nazirliyinin "N" hərbi hissəsinə xidmətə göndərilib.

2000-ci ildən hal-hazıra kimi Naxçıvan Muxtar Respublikasının "N" Hərbi hissəsində xidməti vəzifəsini yerinə yetirir. Hərbi rütbəsi – kapitandır;

Məmmədov Abdulla Nəcəf oğlu

1840-ci ildə Horadiz kəndində anadan olmuşdur.

Məşədi Abdulla Horadiz kəndinin XIX-əsrin sonlarında və XX əsrin əvvəllərində ən varlı adamlardan olan, Horadiz və ətraf kəndlər arasında hörmətlə sayılıb-seçilən şəxsiyyətlərdən olub. Məşədi Abdullanın iki övladı olub: Təbriz və Günəş.

1928-ci ildə Mir Cəfər Bağırovun xahişilə Horadiz kəndindən 1000 igid atlı yığıb onun pişvazına çıxıb. M.C.Bağırov öz təşəkkürünü bildirib. Məşədi Abdullanın bu ərazidə çox böyük nüfuzu olduğundan, M.C.Bağırov özü ilə aparıb və sonralar müəmmalı şəkildə itkin düşmüş eloğlu;



Məmmədov Həsən Möhsün oğlu

1914-cü ildə Horadiz kəndində doğulub.

1941-45-ci illər Böyük Dünya Müharibəsinin iştirakçısı olmuşdur və almanlara qarşı çətin döyüşlərin birində ağır yaralanmışdır. Vuruş dayandıqdan sonra, 2 gün açıq çöldə qalmış ölüləri yığan tibbi sanitarlar onun sağ olduğunu müəyyən edib, Hərbi hospitala göndərilir. Sağaldıqdan sonra Müharibənin II-qrup əlili kimi hərbdən tərxis edilir. O, uzun müddət 25-il Horadiz kənd Sovetinin katibi vəzifəsində işləmişdir. Sonralar Horadiz kəndində dini məclislərdə və hüzur mərasimlərində dini ayinləri təbliğ edən mömin kimi ömrünün axırına 2002-ci ilə qədər bu mötəbər işini davam etdirib;



Məmmədov Məhəmməd Nəcəf oğlu

1920-ci ildə Horadiz kəndində doğulub.

Böyük II Dünya Müharibəsi zamanı ilk döyüşlərdə mərdliklə vuruşmuşdur. Lakin Krım uğrunda gedən döyüşlərdə qrup şəklində əsir düşüb. O, bir neçə əsgər yoldaşları ilə əsirlikdən qaçaraq Belorusiya bataqlıq meşələrində partizan dəstələri yaradaraq qəhrəmanlıq göstərmiş, Belarusiya

meşələrində "İskra" Partizan dəstə gənclər qrup rəhbəri, "Mişa" ləqəbi ilə ad çıxarmış igid partizan, "Qırmızı ulduz", "II-dərəcəli Vətən müharibəsi" ordenləri və digər medallarla təltif edilmiş müharibə və əmək veteranı, 50 ildən çox Pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Onun haqqında oçerklər, hekayələr mətbuatda dərc edilmiş və 1965-ci ildə "Əbədi qardaşlıq" adlı sənədli film çəkilmişdir. İgid partizan. Az.Sovet Ensiklopediyasının, VI cild, səhifə-502 onun adı qeyd edilmişdir; 2003-ci il 83 yaşında vəfat edib;



Məmmədov Məhəmməd Möhsün oğlu

1920-ci ildə Horadiz kəndində anadan doğulub. 1941-45-ci il Dünya Müharibəsi-nin əvvəlindən axıra kimi Tibb Batalyonunda işləyib və neçə-neçə yaralıları odun alovun içə-risindən çıxarıb həkim məntəqəsinə çatdıraraq ölümün əlindən xilas edib. Müharibədən gələndən sonra orta təhsilini başa vurub. 1950-ci ildə Bakı 1 saylı Tibb Texnikumunu bitirib, Horadiz kənd xəstəxanasında feldşer-həkim işləyib.

1966-cı ildə Azərbaycan Tibb İnstitutunu bitirib yenidən doğma kəndində həkim vəzifəsinə qayıdır.

O, 1967-ci ildə Bakı şəhərinə dəvət alır və Respublika Xəstə-xanasında işləyir.


1975-ci ildən Bakı şəhəri, Nərimanov rayonu, 17 saylı şəhər poliklinikasında həkim vəzifəsinə təyin edilib. 2001-ci ildə vəfat edib. Bacarıqlı həkim;



Məmmədova Zemfira Hüsü qızı

1929-cı ildə Horadiz kəndində anadan ol-muşdur. Hələ cavan yaşında Horadiz kolxo-zunda pambıqçılıqda fərqlənmişdir. 1949-cu ildə qabaqcıl manqa başçısı kimi yüksək əmək nəticələrinə görə "Lenin ordeni", 1951-cü ildə III-dərəcə "Şöhrət ordeni" və

1954-cü ildə isə II- dərəcə "Şöh-rət ordeni" ilə təltif edilmişdir. Çoxuşaqlı ana kimi "Analıq Şərəfi" ordeni almışdır. Uzun illər kolxozda qüsursuz işinə görə "Əmək Veteranı" medalı ilə təltif edilib;



Məmmədov Vilyam Həsən oğlu

1953-cü ildə Horadiz kəndində doğulub. Orta təhsilini başa vurduqdan sonra Bakı Politexnik Texnikumuna daxil olub.

1971-ci ildə Bakı Politexnikumunun yanğından mühafizə fakültəsini müvəffəqiyyətlə bitirdikdən sonra, təyinatla Sumqayıt şəhər Kimya zavodunda, Yanğından Mühafizə şöbəsində leytenant rütbəsilə işə başlayıb. Az müddət işlədiyi dövrdə özünü nümunəvi işçi kimi göstərərək, bütün kollektivin rəğbətini qazanıb.

1988-ci ildə kimya zavodunun birində təhlükəli yanğın baş verir. Zavodda yanğının baş verməsi, orada partlayışa səbəb ola bilərdi. Bu isə neçə-neçə insanın həyatına son qoya bilərdi. əgər hadisə baş versəydi, onun acı nəticəsindən şəhər əhalisi neçə illər xilas ola bilməzdi. Onun qəhrəmanlığı və cəsarəti sayəsində şəhər əhalisi bu fəlakətdən xilas oldu.

Bu hadisədən sonra o, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə "Yanğının söndürülməsində göstərdiyi igidliyə görə" medalı ilə təltif olunub. Ümumiyyətlə, işlədiyi 25 il ərzində o, 6 medala, "Fəxri fərman"-lara və "Təşəkkür"-lərə layiq görülmüşdür.

1991-1993-cü illər Füzuli və Ağdamın qızğın döyüşlərinin gərgin iştirakçısı olub. 1994-cü ildən ordudan mayor rütbəsilə tərxis olunan Vilyam Məmmədov Sumqayıt şəhərinin, 8 saylı orta məktəbində hərbi müəllim vəzifəsində çalışırdı.

1999-cu il 19 may tarixində həmin məktəbin XI-b sinfində hərbi hazırlıq otağında imtahan sınağı zamanı şagirdinin özü ilə gətirdiyi hərbi "qumbara"-nın partlayışından şagirdləri qoruyarkən V.Məmmədov və 5 şagird faciəli surətdə həlak oldular.

Vətən yolunda odun alovun içindən sağ salamat çıxan Vilyam, əmin-amanlıq dövründə həlak oldu. Allah rəhmət eləsin!



Məmmədov Mətləb Abbas oğlu

1958-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1975-ci ildə Horadiz kənd orta təhsilini bitirib və sənədlərini Politexnik İnstituta daxil olmaq üçün sənədlərini verib.

1980-cı ildə Azərbaycan Politexnik İnstitutun, inşaat fakültəsini bitirib.

Əmək fəaliyyətinə Füzuli Kolxoz Tikinti Trestində usta, iş icraçı vəzifələrində çalışıb. 1982-93-cü illər Horadiz kolxozunda İnşaat briqadiri vəzifəsində işləyərək doğma kəndinin abadlaşdırılmasında iştirak edib.

1993-cü ildən, yəni məcburi köçkünlük şəraitində Bakı şəhərinin, Nizami rayonunda çörək sexi açaraq, Nizami rayonunu qismən də olsa çörəklə təmin edən sexin sahibkarıdır;



Məmmədzadə İbrahim Həsən oğlu

1958-ci ildə Horadiz kəndində anadan doğulmuşdur

1965-75-ci illər Horadiz orta məktəbində oxumuş və təhsilini başa vurub.

1977-ci ildə həqiqi hərbi xidmətdə çağrılır və 1979-cu ildə hərbi xidməti bitirib.

1980-ci il Xarkov şəhər Hərbi Yanğından Mühafizə məktəbini bitirib, Füzuli rayon Yanğından mühafizə idarəsində leytenant kimi işə başlayıb. Yaxşı işinə görə onu Füzuli Polis İdarəsinə keçirilir.

1991-93-ci illər Füzulinin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmiş və göstərdiyi şücaətlərə görə polis kapitanı rütbəsinə kimi yüksəlmişdir.

İ.Məmmədzadənin qardaşı Vilyamın adına vurulan yalan damğa onun ürəyinə dağ çəkir və faciəli surətdə 1999-cu ildə ölüb;



Məmmədov Müqabil Sərdar oğlu

1966-cı ildə Horadiz kəndində doğulub.

1982-97-ci illər Ukraynanın Donetski şəhərində ticarətlə işə başlayıb. O, sonralar iş adamı kimi fəaliyyətini davam etdirir və Ukrayna vətəndaşlığını qəbul edir.

1997-2005-ci illər iş adamı kimi fəaliyyətini Portuqaliya Respublikasında davam etdirir və oranın vətəndaş hüququnu alır.

2005-ci ildən hal-hazıra kimi yenə Ukrayna Respublikasına qayıdır və Donetski şəhərində Ticarət təchizatı fəaliyyətini davam etdirir. Eyni zamanda Donetski şəhərində Azərbaycan diasporasında fəal iştirak edir;



Məmişov İsmayıl Mikayıl oğlu

1948-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1965-ci ildə Horadiz kənd orta məktəbi bitirib, hərbi xidmətə çağrılır.

1966-68-ci illərdə Moskva şəhərində hərbi xidmətdə olub. Xidmətdən sonra Moskva şəhərində qalıb və orda sürücü işləyib.

1974-80-cı illər Moskva şəhərində Ümumittifaq Mühəndislər İnstitutunu bitirib, həmin şəhərdə 24 saylı Avtokombinatda mərkəzi istehsalat rəisi işləmişdir.

1985-ci ildən Moskva şəhər Tikinti Avtobazasında direktor vəzifəsində çalışmışdır. 1992-ci ildən iş adamı kimi benzin-doldurma məntəqəsinin müdiridir;



Məhərrəmov Fidayəddin Nüsrəddin oğlu

1938-ci ildə Horadiz kəndində doğulub. 1956-cı ildə orta təhsilini bitirib və Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxıı olub. 1959-cu ildə Texnikumun, mexanik fəkultə-sini bitirdikdən sonra, təyinatla Horadiz qəsəbəsindəki Maşın Traktor stansiyasında çilingər, mexanik vəzifələrində işləyib. İşləyərək işindən ayrılmadan qiyabi Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu daxil olur və İnstitutu bitirdikdən sonra Füzuli rayon Texniki bazasında mühəndis, direktor, Füzuli rayon Partiya Komitəsində təlimatçı, "Kommunizm" üzümçülük sovxozun direktoru, Füzuli rayon Baş Dövlət texniki nəzarət müfəttişliyinin rəisi, "Azərittifaq"-ın Horadiz Rayonlararası, Avtobazasının direktoru təyin edilir və hal-hazıra kimi öz səlahiyyətini davam etdirir. 1986-cı ildə F.Məhərrəmovun qabaqcıl iş təcrübəsi "Azərittifaq"-ın bütün nəqliyyat müəsisələrində yayılıb. "Azərittifaq"-ın İdarə Heyəti tərəfindən "Fəxri fərman"-ını alıb;



Məhərrəmov Qardaşxan Oruc oğlu

1941-ci il iyulun 1-də Horadiz kəndində kolxozçu ailəsində anadan olmuşdur.

1949-59-cu illər Horadiz kənd orta məktəbində oxuyaraq orta təhsilini bitirib.

1959-64-cü illər Azərbaycan Dövlət Universitetinin, İqtisad fakultəsinin, maliyyə-kredit şöbəsini bitirərək iqtisasçı peşəsinə yiyələnib.

1964-66-cı illər Şabran rayonu Dövlət bankında kredit-müfəttişi vəzifəsində işləyib.

1966-69-cu illər Cəbrayıl rayon Dövlət bankında böyük kredit-müfəttişi vəzifəsində çalışıb.

1969-72-ci illər Azərbaycan Respublika Bankının, Nəzarətçi-müfəttiş şöbəsində təftişçi, sonra isə bötük müfəttiş-təftişçi vəzifəsində irəli çəkiliib.

1972-ci il 26.06 tarixdən Azərittifaqın Baş Tədarük idarəsində, Plan-maliyyə şöbəsində Rəis müavini vəzifəsinə keçirilib.

1975-85-ci illər SSRİ Tikinti Bankının, Azərbaycan Respublika Kontorasında, Nəzarət Təftiş İdarəsində, böyük təftişçi, sonra isə həmin İdarənin Rəis müavini vəzifəsinə irəli çəkilib.

1985-96-cı illər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Baş Nəzarət-təftiş İdarəsində, böyük nəzarətçi-müfəttiş, 1989-cu ildən 1-ci dərəcəli nəzarətçi müfətiş, 1993-cü ildən ilə Baş nəzarətçi-müfəttiş vəzifələrində çalışıb.

1996-cı il 20 maydan öz xahişi ilə tutduğu vəzifədən azad edilib.

O, işlədiyi müddətlərdə xüsusilə maliyyə- bank sistemində uğurlar qazanaraq dəfələrlə rəhbərlik tərəfindən təşəkkürlər və mükafatlar almışdır.



Məhərrəmov Məhərrəm Mösü oğlu

1946-cı ildə Horadiz kəndində doğulub.

1964-cü ildə orta məktəb təhsilini bitirib, Azərbaycan Politexnik İnstituna daxil olub.

1969-ci ildə həmin İnstitutun inşaat-mühəndisi fakültəsini bitirib, təyinatla Azərbaycan Dövlət Layihə İnstitutunda mühəndis konstruktor kimi işə başlayır.

1973-cü ildə Respublika Sənaye Tikinti Nazirliyinin 4 saylı Tirestində texniki şöbədə böyk mühəndis, Əmək və əmək haqqı şöbəsinin və plan şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1982-86-cı illər Monqolustanda iş ilə əlaqədar ezamiyyətdə olmuşdur.

1986-cı ildə öz əvvəlki işinə qayıdır.

1993-cü ildən Sənaye Tikinti Nazirliyində plan-iqtisadiyyat idarəsinin rəis müavini, şöbə müdiri vəzifələrində işləmişdir.

1998-ci ildən hal-hazıra kimi "Azərsu" Səhmdar Cəmiyyətində

iqtisadiyyat və maliyyə idarəsinin rəis müavini işləyir. Əmək veteranı;



Məhərrəmov Məhəmməd Əhməd oğlu

1957-ci ildə Horadiz kəndində anadan olub. 1963-73-cü illər orta məktəb təhsilini müvəfəqiyyətlə bitirib,

1976-82-cı ildə Azərbaycan Tibb İnstitutunun müalicə-pafilaktika fakültəsini başa vurduqdan sonra təyinatla Qazaxıstan Respublikasına göndərilir. 1983-cü ildə Alma-Ata Tibb İnstitutunda bir illik İnternatura kursunu bitirdikdən sonra Çimkənt vilayət xəstəxanasında həkim vəzifəsində çalışıb.

1987-ci ildə Moskva şəhərində Həkimləri Təkmilləşdirmə institutunda təhsilini davam etdirib.

1988-ci ilə kimi Çimkənt şəhər xəstəxanasında şöbə müdiri vəzifəsində çalışıb.

1988-ci ildə Azərbaycana qayıdır və Füzuli rayon Mərkəzi xəstəxanasında çalışıb. 1988-89-cu illərdə Ukraynanın Xarkov şəhərində, 1990-cı ildə isə Zaporojets şəhərində Həkimləri Təkmilləşmə İnstitutunda davam etdirmişdir.

1992-93-cü illər könüllü olaraq hərbi həkim kimi işləyib.

1994-1997-ci ilədək Hərbi Hava Qüvvələri "N" Hərbi Tibb müəsisəsində şöbə rəisi, 1997-2003-cü ilədək həmin müəsisəsinin rəisi vəzifəsində çalışıb.

2005-ci və 2013-cü illərdə Türkiyə Respublikasının Ankara şəhərində "Gülhanə" Əskəri Hərbi Tibb Akademiyasında təhsilini davam etdirib.

2003-cü ildən hal-hazira kimi MN-in "N" Hərbi Tibb müəssisəsinin rəisidir.

Silahlı qüvvələrin baş mütəxəssisidir.

Hərbi rütbəsi – "tibb xidməti polkovnik leytenantıdır";



Məhərrəmov Vaqif Əhməd oğlu

1952-ci ildə Horadiz kəndində anadan olub. 1959-cu ildə kənd orta məktəbin 1-ci sinfinə daxil olub və 1969-cu ildə həmin məktəbi bitirib.

1969-71-ci illər tikintidə fəhlə işləyib. 1971-73-cü illər hərbi xidmtdə olub.

1973-cü ildə Bakı Bədən Tərbiyyəs Texnikumuna daxil olub.Texnikumda oxuduğu 1974-cü ildə Respublika Ali və orta təhsillilər arasında yüngül atletika üzrə keçirilən birinciliyində 1-ci yeri tutub**.**

Elə həmin il yüngül atletika üzrə "Spartak" cəmiyyətinin yığma komandasına daxil olub və 1-ci dərəcəli idman ustası adını alıb. "Neft-qaz" mükafatı uğrunda Respublika estafet yarışında 1-ci yeri tutub.

1975-ci ildə SSRI-kuboku "İzvestiya" qəzetinin mükafatı uğrunda keçirilən yüngül atletika üzrə Beynəlxalq yarışında hakimlik edib. Bu yarışlarda yaxşı hakimliyinə görə SSRİ Yüngül Atletika Federasiyasının 1-ci dərəcəli diplomuna layiq görülüb.

Onun iş fəliyyətilə əlaqədar yüngül atletika məşqlərini dəfələrlə Respublika televiziyasında göstərilib.

1975-ci ildə Bədən Tərbiyyəsi Texnikumunu bitirib.

1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyyəsi İnstitutuna daxil olub və 1981-ci ildə həmin institutu bitirib.


Hal-hazırda xırda bizneslə fəaliyyət göstətərir**.**



Məhərrəmov Əhəd Mösü oğlu

1952-ci ildə Horadiz kəndimdə anadan olmuşdur. 1969-ci ildə orta təhsilini bitirib. 1977-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra təyinatla "Azərittifaq"-ın Horadiz Rayonlararası Ticarət bazasına göndərilir. Həmin bazada hüquqşünas, iqtisadçı, direktor müavini, direktor və əmtəəşünas

vəzifələrində işləmişdir. 1993-ci ildən Füzuli rayon İcra başçısının müavini vəzifəsində işləmişdir. Hal-hazırda "Azərsu" Səhmdar Cəmiyyətində aparıcı mühəndis vəzifəsində işləyir;



Məhərrəmov Mətləb Əhməd oğlu

1962-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. 1979-cu ildə orta məktəbi bitirib və Kooperativ texnikuma daxil olub.

1983-cü ildə Qazaxıstan Respublikasının, Çimkent şəhər Kooperativ Texnikumunu bitirib, Çimkent şəhərində əmək fəaliyyətinə ticarətlə başlayıb. O, uzun müddət vilayətdə Dövlət Ticarət təşkilatlarında işləmişdir. Hal-hazırda Qazaxıstanın Çimkənd şəhərində Azərbaycan diasporasının təşkilatçısı və sədridir;



Məhərrəmova Səadət Fidayəddin qızı

1971-ci ildə Horadiz kəndində anadan olub. 1988-ci ildə orta məktəb təhsilini başa vurub. 1996-ci ildə Bakı Dövlət Univer-sitetin, fizika fakültəsini bitirib və təyinatla Bakı şəhəri, Nəsimi rayon 292 saylı məktəbdə fizika müəlliməsi kimi fəaliyyətə başlayıb. 2002-ci ildən Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecində fizika müəlliməsi işləyib. Hal-hazırda Bakı Dövlət Universitetində Astro-fizika labarotoriyasının müdiri işləyir.

S. Məhərrəmova öz işlərindən başqa ictimai işlərlə də yaxından iştirak edir. Yeni Azərbaycan Partiyasının üzvü və "20 Yanvar-1" ərazi ilk partiya təşkilatının sədridir. 16 saylı Yasamal 2-ci seçki dairəsində, 11 saylı seçki məntəqəsində seçki komissiyasını

üzvüdür. Bunlarla yanaşı o, bir sıra qəzet və jurnallarda elmi və kütıəvi məqalələrlə də mətbuatda tez-tez çıxış edir. O cümlədən: -

1.“**Təhsil” jurnalı** - 2010cu il 5-ci sayında **“Azərbaycan qadınına böyük nüfuz qazandıran lider”** – məqaləsilə,

2. “**Yeni Carçı” jurnalı** – 2011-ci 9-cu sayında **“Heydər Əliyev idealogiyası ən ali məktəbdir”** – məqaləsilə,

3. “**Orta Təhsil” jurnalı** – 2011-ci il 18 sayında **“Tarixə işıq saçan ömür – Heydər Əliyev bu ad tarixə qızıl hərıflərlə həkk olundu”** – məqaləsilə,

4. “**Yeni Carçı” jurnalı** – 2011-ci il 11-ci sayında **“Müstə-qilliyimiz əbədidir”** – məqaləsil;

.



Məhərrəmov Eldar İsmayıl oğlu

1982-ci ildə Horadiz kəndində doğulub.

2003-cü ildə Azərbaycan Texniki Universitetin, Dəmiryol nəqliyyatı üzrə daşınmaların və idarəetmənin təşkili ixtisası üzrə bakalavr pilləsini bitirib. 2005-ci ildə Az.TU-nin həmin fakültənin magistratura pilləsini bitirib.

2005-06-cı illər həqiqi hərbi xidmətdə olub. 2006-08-ci illər Bakı şərnişin daşınma stansiyasında qatar tərtibatçısının köməkçisi vəzifəsində işləyib.

2008-10-cu illər həmin stansiyada yerli idarəetmə postunun növbətçisi vəzifələrində çalışıb.

2010-cu ildən etibarən Azərbaycan Dəmiryolu Qapalı Səhmdar Cəmiyyəti, Bakı Sərnişin stansiyasında, manevr distpeçeri vəzifəsində çalışır;

Məhərrəmov İkram Əhəd oğlu



1983-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1990-cı ildə həmin kənd orta məktəbinin birinci sinfinə daxil olmuş və 2000-ci ildə Bakı şəhər, Nizami rayonunda orta təhsilini başa vurmuşdur.

2001-02-ci illər NATO-nun Sülhsevər qoşunları tərkibində, keçmiş Yuqoslaviya-nın, Kosova ölkəsində Azərbaycan Respublikasının bayrağı altında hərbi xidmət borcunu müvəffəqiyyətlə yerinə yetirmişdi. O, əla xidmətə görə NATO-nun komandanlığı tərəfindən "Sülh qoruyucusu" medalı ilə təltif ediimiş və "Fəxri diplomuna" layiq görülmüşdür.

2003-cü ildən əmək fəaliyyətini Azəriqaz Qapalı Səhmidar Cəmiyyətinin, Binəqədi, Sabunçu rayonlarının Qaz idarəsində nəzarətçi vəzifəsində işə başlayıb, sonra usta və sahə rəisi vəzifəsinə qədər yükəlmişdir.

2006-ci il Azərbaycan İqtisad Universitetini bitirib.

Elə həmin ildən "Azəriqaz" Qapalı Səhmidar Cəmiyyətinin Binəqədi rayon Qaz idarəsində sahə rəisi vəzifəsində işləyib.

2013-cü il yanvar ayından Ağcabədi rayon Qaz idarəsinin rəisi vəzifəsinə təyin edilib.

Minəbəyimli Məşədi Hürzad

1870-ci ildə Horadiz kəndində anadan olmuşdur. Məşədi Hürzad Minəbəyimli nəslindəndir. Hürzad hələ uşaq yaşlarından musiqiyə olan həvəsi dayısı aşıq Hümbətdən öyrənməyə çalışıb.

Seyid Şuşinskinin qardaşı oğlu Seyid İbişin dediklərindən: Aşıq Hümbət XIX-əsrin ortalarından el toy şənliklərində və məclislərdə xalq mahnıları və muğamlar ifa edərdi. Dayısının himayəsində Hürzad sazda çalmağı, mahnı və muğamları dərindən öyrənərək, tam aşıq kimi sənətin sirlərini biləndən sonra, Horadiz kəndində və

tədricən ətraf kəndlərdə qadın toy məclislərini idarə edərdi. İldən-ilə aşıq sənətini, mahnı və muğamlarımızı mükəmməl öyrənib.

Seyid Şuşinskinin anası - Məhparə 1898-ci ildə , bir az sonra atası - Seyid İbrahim 1900-cü ildə vəfat edir. Aşıq Hürzad yetim qalan Seyid Şuşinskinin xalası olduğu üçün Seyid Şuşinskini öz himayəsinə götürür. S.Şuşinskinin gözəl səsi və oxumağa həvəsi olduğuna görə xalası onu toy məclislərinə apararaq, ona xalq mahnıları və muğamları ifa etməyə öyrədir.

Qarabulaqda(indiki Füzuli şəhəri) 1905-ci ildə tanınmış bəylərdən birinin toy məclisinə dəvət alan aşıq Hürzad Seyidi də özü ilə aparır. Məclisin gur yerində S.Şuşinskiyə söz verilir. O, bir neçə xalq mahnıları və axırda da Rast muğamını ifa edir. Məclis gurultulu alqışlarla qarşılanır.

Əsasən bu toylarda S.Şuşinskinin əks-sədası gedib Şuşayada çatır və 1907-ci ildə əmisi Məşədi Seyid Əli onu bizim kənddən Şuşaya aparıb öz himayəsində saxlayır. Seyid Əli, qardaşı oğlu Seyidi klassik şərq muğamları dərindən öyrənmək üçün, o zaman Şuşada məhşur olan musiqişünas Nəvvabın sinfinə qoyur, bu isə onun həyatyında böyük rol oynayır.

XIX-əsrin sonu və XX-əsrin əvvəllərində məhşurlaşan aşıq Hürzad Şuşa qəzasında və habelə İranın yaxın əyalətlərə də qadın toy məclislərinə dəvət edilərdi. Beləliklə aşıq Məşədi Hürzad müğənni kimi tanınanaraq, qadın toylarının aparıcısı, gözəl səsə malik olan və məharətlə el mahnılarının, həm də mahir muğam ifaçısı kimi tanınmış xanəndə olmuşdur.

Beləliklə S.Şuşinski ilk müğənni kimi püxtələşməsində Məşədi Hüzzadın böyük əməyi olub.

Məşədi aşıq Hürzad 1935-ci ildə vəfat edib;



Mustafayev Müzəffər Əjdər oğlu

1957-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1973-ci ildə Horadiz kənd orta məktəbini bitirib. 1977-ci ildə Vano Sturua adına gəmi təmiri zavodunda sadə fəhlə-likdən sahə rəisi vəzifəsinə qədər yüksəlib. 1980-cı ildə Sumqayıt Avto-nəqliyyat İstismarı Birliyində - mexanik, xətt nəzarəti qrup rəhbəri vəzifələrində işləmişdir. 1981-ci ildə Odessa şəhərində Dəniz Mühəndisləri İnstitutunun, Bakı şəhər filialının mühəndis-mexanik fakültəsini bitirib. 1987-ci ildə Sumqayıt Avtomator-servis müəssisəsində baş mühəndis işləyib. 1998-ci ildən həmin müəsisənin direktoru vəzifəsində çalışıb. 2006-cı ildən hal-hazıra kimi Azərbaycan Nəqliyyat Nazirliyində müfəttiş vəzifəsində işləyir;



Mustafayev Vüsal Müzəffər oğlu

1983-cü ildə Sumqayıt şəhərində doğulub. Orta məktəbi başa vurduqdan sonra, 2000-ci ildə Sumqayıt Texniki və Təbiət Elmləri Liseyini bitirib. 2004-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetin, ümumi iqtisadiyyat fakültəsini (mühasibat uçotu və audit ixtisası üzrə) bitirib.

2004-05-ci illərdə Dövlət Sərhəd Hərbi xidmətində olub. 2005-06-cı illər Bakı Elektronik MMC-də kredit mütəxəsisi işləyib. 2006-07-ci illər həmin şirkətin kredit şöbəsində bölmə rəhbəri, 2007-08-ci illər filial müdirinin müavini, 2008-09-cu illər Sumqayıt şəhər filialın müdiri, 2009-10-cu illər Atatürk filialının müdiri işləyib.


2010-cu ildən hal-hazıra kimi Mərkəzi filialın müdiri işləyir.

– N –



Namazalıyev Namaz Fərzalı oğlu

1892-ci ildə Horadiz kəndində doğulub. Namaz kişi çar Nikolayı söyüb ona görə onu Şuşa türməsinə salıblar. Sovet hakimiyyəti gələndən sonra, məhbusların işlərinə baxanda Çar Nikolayı söydüyünə görə tutulduğunu bilib, "bizim adamdır" deyə buraxılıb. Çox söyüşkən olub, amma haqlı olduğundan heç kəs ona cavab qaytarmayıb. Həmişə ümüdsüzə əl tutub. Füzuli rayon Arazboyu Suvarma sistemləri idarəsində sahə inspektoru vəzifəsində çalışıb, əməkdə yüksək fəaliyyətinə görə "Lenin ordeni" ilə təltif edilmişdir. Kənd sakinləri arasında böyük hörmətə sahib kənd ağsaqqalı. 1956-cı ildə vəfat edib.



Namazalıyev Bayramalı Fərzalı oğlu

1894-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1912-ci ildə 7-ci sinifini bitirib.

1915-20-ci illər hərbi xidmətdə olub. 1923-cü ildə Qaryagin (indiki Füzuli) rayon Şahsevən kəndində milis sahə müvəkkili işləmişdir.

1930-34-cü illər Şahsevən kənd kolxoz sədri, 1934-39-cu illər Qazaxlar kənd kolxoz sədri və 1939-46-cı illər Horadiz kəndində kolxoz sədri vəzifələrində çalışıb.

1946-54-cı illər Horadiz qəsəbə Sovetinin katibi vəzifəsində işləyib. 1955-60-cı illər Horadiz Hərbi zastavasında mağazada müdir işləyib və 17 övlad tərbiyə edib böyütmüş ata.

1981-ci ildə vəfat edib;



Namazalıyev Fərzalı Namaz oğlu

1914-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1931-ci ildə orta məktəb təhsilini əla bitirdiyinə görə, Füzuli şəhər Pedoqoji məktəbinə göndərilir və oranı bitirib.

1932-43-ci illər Horadiz kənd orta məktəbində tarix müəllimi işləyir.

1943-46 illər SSRİ qoşunları İranda olan dövrlərdə Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşı vəzifəsində çalışıb.

1946-1952-ci illər Bakı Dövlət Universitetin, tarix fakultəsində qiyabi təhsilini bitirib.

1946-51-cı illərdə Samux rayonunda Dövlət Təhlükəsizli Komitəsinin sədri vəzifəsində işləmişdir.

1951-60 –cı illər Jdanov(indiki Beyləqan) və İmişli rayonları üzrə Arazqırağı sərhəddində DTK-nın sədri işləyib.

1960-66-cı illərdə Birləşmiş 5 rayon ərazisində (Beyləqan, İmişli, Ağcabədi, Saatlı və Sabirabad rayonlarında) DTK-nin sədri vəzifəsində qüsursuz işləmişdir.


1966-74-cü illər Azərbaycan DTK-nə dəvət alır və Bakı şəhərində şöbə rəisi vəzifəsində çalışıb.

1974-cü ildən DTK-dan təqaüdə çıxır və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Kadrlar şöbəsinin rəisi vəzifələrinə dəvət olunur. 1990-cı ilə kimi həmin vəzifədə çalışmışdır.

Təhlükəsizlik komitəsində qüsursuz əmək fəaliyyətinə görə Dövlət tərəfindən "Qızıl Ulduz" ordeninə və 14 müxtəlif medallarla təltif edilmişdir.

Dövlət təhlükəsizliyi komitəsinin zabiti – mayor..

1994-cü ildə vəfat edib;



Namazalıyev Qulam Bayramalı oğlu

1930-cu ildə Horadiz kəndihdə doğulub. 1948-ci ildə Əhmədallar kənd orta təhsilini bitirib və 1949-cu ildə Azərbaycan Dövlət Universitetinə daxil olub.


1954-cü ildə bitirib, Füzuli rayon Ticarət bazasında müxtəlif vəzifələrdə işləyib.

1956-cı ildə Zaqafqaziya Ali Partiya məktəbini bitirib, Füzuli rayon Partiya Komitəsində təlimatçı vəzifəsində işləyib.

1957-65-ci illər Füzuli rayon Partiya Komitəsində şöbə müdiri vəzifəsində çalışıb.

1965-77-ci illər Füzuli rayon İstehlak cəmiyyətin sədri işləyib.

1977-93-cü illər "Azərittifaq"-ın Horadiz Rayonlararası ticarət bazasında baş əmtəəşünas vəzifəsində 1993-ci ilə kimi çalışıb. 1997-ci ildə vəfat edib;



Namazalıyev Əvəz Vəli oğlu

1932-ci ildə Horadiz kəndində anadan olmuşdir. Orta təhsilini bitirib. 1955-ci ildə ali təhsil almaq üçün sənədləri APİ-yə verib.

1961-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu coğrafiya-biologiya fakültəsini bitirib.


1961-64-cü illər təyinatla Kəlbəcər rayonun Başdıbel kəndində müəllim işləyib.

1964-74-cü illər Füzuli rayonunun Bala Bəhmənli kəndində fəaliyyətini davam etdirib.

1974-93-cü illər Horadiz qəsəbəsində müəllim işləyib.

1994-2005-ci illər İmişli rayonu 2-saylı Fin qəsəbəsində Füzuli rayonu 36 saylı orta məktəbində direktor müavini vəzifəsində çalışmışdır.

2009-cu ildə vəfat edib;



Namazalıyev Bəylər Bayramalı oğlu


1934-ci ildə Horadiz kəndində anadan doğulmuşdur.

1951-ci ildə Əhmədallar kənd orta məktəbi bitirib, sənədlərini Azərbaycan Tibb İnstitutuna verib və daxil olub.

1957-ci ildə Azərbaycan Tibb İnstitutunun, əczaçılıq fakültəsini bitirib və təyinatla Beyləqan şəhərində aptekar, bir ildən sonra müdir işləyib.

1965-ci ildən isə Beyləqan, Ağcabədi və İmişli rayonları üzrə Birləşmiş Apteklər İdarəsinin müdiri vəzifəsində çalışıb.


1999-cu ildə amansız ölüm onun bütün arzularını həyata keçirməyə imkan vermədi.



Namazalıyev Həsən Namaz oğlu

1936-cı ildə Horadiz kəndində doğulub. 1955-ci ildə orta təhsilini əla bitirərək, Bakı şəhəhərinə gəlir və Azərbaycan Tibb İnstitutuna daxil olub.

1961-ci ildə Azərbaycan Tibb İnstitutunun, müalicə-prafilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirib, təyinatla Ukrayna SSR-in Jitomir vilayəti "N" saylı Hərbi hospitalında hərbi həkim kimi işə başlayır. 1962-65-cu illər Kuba Respublikasında hərbi həkim kimi dövlət tərəfindən ezamiyyətə göndərilib. 1965-69-cu illər Ukrayna SSR-in Jitomir vilayətində Hərbi qospitalın baş həkimi vəzifəsində çalışıb. 1969-72-ci illər Rusiyanın Krasnoyarski ölkəsinin, Ujur şəhərində "N" hərbi hissədə həkim işləyib. 1972-80-cı illər Kalinin vilayətinin, Baloqoye şəhərində "N" hərbi qospitalın baş həkimi vəzifəsində işləyib. 1980-cı ildən hal-hazıra kimi Tver vilayəti Ozernoy "N" hərbi şəhərciyində hərbi həkim vəzifəsində işləyir. Hərbi rütbəsi – podpolkovnikdir;



Namazalıyev Qafar Bayramalı oğlu

1938-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1956-cı ildə Əhmədallar kənd orta məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinə qəbul edilib.

1962-ci ildə həmin Universitetin, filologiya fakültəsini bitirdikdən sonra, təyinatla "Ədəbiyyat və İncəsənət" qəzetində əmək fəaliyyərinə başlayır.

Eyni zamanda Müslüm Maqomayev adına filarmoniyada və rayonlarda konsert səfərlərində müğənni kimi iştirak edib və sola konsertləridədə olub**.**

Bunlardan başqa, Q.Namazalıyev bəstəkar kimi 60-dan çox mahnılar və təsniflər bəstələmişdir.

1980-cı ildən "Ədəbiyyat və İncəsənət" qəzetində redaktor müavini işləmişdir.

Tanınmış jurnalist və musiqişünas;

1998-ci ildə amansız ölüm onun arzularını həyata keçirməyə imkan vermədi;



Namazalıyev Zəfər Fərzalı oğlu

1950-ci ildə Samux şəhərində doğulub.

1957-66-cı illər Beyləqan şəhər orta məktəbində oxuyub, lakin ailəlikcə Bakı şəhərinə köçdüyündən 36 saylı məktəbdə orta təhsilini bitirib.

1972-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsini bitirib. İş fəaliyyətini Bakı-Naxçıvan Dəmiryolu Fəhlə Təchizatı Birliyində əmtəəşünas vəzifəsində başlayıb.

1970-ci ildən həmin birliyin Bakı-Naxçıvan Dəmiryolu Fəhlə Təchizatı Birliyinin Ərzaq Bazasına müdir təyin edilir.

1995-ci ildən Bakı şəhəri ticarət sektorunda çalışır;



Namazalıyeva Elmira Hüseyn qızı

1954-cü ildə Horadiz kəndində anadan olmuşdur.

1971-ci ildə Bakı şəhərində orta təhsilini başa vurub, Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub.

1976-cı ildə Azərbaycan Xalq Təsərrüfatının, plan-uçot fakültəsini bitirib.

1976-cı ildə təyinatla Bakı şəhəri Dövlət Maliyyə və Uçot Texnikumunda müəllimlik fəaliyyətinə başlayıb. Hal-hazırda Maliyyə və Uçot Texnikumunda baş müəllim vəzifəsində çalışır. Tanınmış pedoqoq;



Namazalıyev Tofiq Vəli oğlu

1956-cı ildə Horadiz kəndində anadan olmuşdur.

1973-cü ildə Horadiz kənd orta məktəbində təhsilini müvəffəqiyyətlə başa vurub.

1973-75-ci illər həqiqi hərbi xidmətində olaraq vətəndaşlıq borcunu yerinə yetirib.

1980-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, mühasibat uçotu fakültəsini bitirdikdən sonra, göndərişlə Rusiyanın Maqadan şəhərində öz ixtisası üzrə işləyib. 1984-cü ildə Bakı Dəmiryolu İdarəsinin, Fəhlə Təchizatı Birliyində işə əmək fəaliyyətinə başlayıb.

1990-cı ildə həmin Birliyin iqtisadiyyat şöbəsinin müdiri olub.

1991-ci ildən baş mühasibi vəzifəsində çalışıb.

2010-cu ildə Dəmir yol Qapalı Səhmdar Cəmiyyətin rəhbərliyi tərəfindən "Fəxri dəmiryolçu" adına layiq görülüb;



Namazalıyev Rasim Fərzalı oğlu

1956-cıildə Beyləqan şəhərində anadan doğulmuşdur.

1963-cü ildə Beyləqan şəhər orta məktəbində 4-cü sinfi bitirib və sonra Bakı şəhərində 200 saylı məktəbində orta təhsilini başa vurub.

1973-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olub.

1978-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu başa vurduqdan sonra, Bakı şəhəri Nərimanov rayon Partiya Komitəsində müxtəlif vəzifələrdə çalışmışdır. Hal-hazırda Aqro-bizneslə məşğul olan şirkətdə işləyir;



Namazalıyev Əfsər Hüseyn oğlu

1957-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1974-cü ildə Bakı şəhərlndə orta təhsilini bitirib və elə həmin ildə Azərbaycan Bədən Tərbiyəsi İnstitutuna daxil olub**.**

1979-cu ildə həmin İnstitutu bitirdikdən sonra, təyinatla Bakı şəhəri, Mərkəzi Ordu İdman Klubuna göndərilir.

1980-cı ildən MOİK-in tərkibində gərgin məşqlərdə çalışaraq Respublikamızda, SSRI-də və Beynəlxalq yarışlarda müvəffəqiyyətlə iştirak edərək böyük qələbələr qazanıb.

O, Yunan-Roma güləşi üzrə dəfələrlə Azərbaycan çempionu, SSRİ Xalqlarının Spartakiadasında birinci mükafatçısı, Yaşlılar arasında ikiqat Dünya çempionu olmuşdur.

Əfsər Namazalıyev dəfələrlə Azərbaycan bayrağını yüksəklərə qaldırılmasına və himnimizin çalınmasına nail olub.

Hazırda Ordu İdman Klubun baş məşqçisidir;



Namazalıyev Natiq Yavər oğlu

1963-cü ildə Horadiz qəsəbəsində anadan olub. 1980-cı ildə Horadiz qəsəbə orta məktəbi bitirib.

1981-83-cü illər həqiqi hərbi xidmətdə olub. 1983-85-ci illər Bakı Baş Tikinti İdarəsinin, İxtisaslaşdırılmış Mexaniki İdarədə çilingər vəzifəsində işləyib.

1990-cı ildə Belorusiya Respublikası, Minsk şəhəri Politexnik İnstitutunu bitirib. Əmək fəaliyyətini Bakı Baş Tikinti İdarəsində davam etdirərək usta və sahə rəisi vəzifələrində işləyib.

1995-ci ildən hal-hazıra kimi Bakı şəhəri, Nizamı rayonunda, 8-ci km qəsəbəsindəki, Maşın Ticarət Mərkəzində ehtiyat hissələri maqazinin müdiri işləyir. Natiq Namazalıyev onun təsisçisi və sahibidir;



Namazalıyev İlqar Həsən oğlu

1966-cı ildə Horadiz kəndində hərbi həkim ailəsində anadan olub.

1973-cü ildə Rusiya Federasiyasında, Tver vilayəti, Beloqoye şəhərindəki orta məktəbin 1-ci sinfinə daxil olmuş və 1983-cü ildə həmin vilayətin Ozernoy hərbi şəhərciyində tam orta məktəbi bitirib.

1984-86-cı illər hərbi xidmətdə olub. Hərbi xidməti bitirdikdən sonra könüllü olaraq öz şəhərciyində hərbidə qalıb xidmət edib. O, hərbi xidmətini əla göstəricilərlə 25 il qüsursuz başa vuraraq 2009-cu ildə təqaüdə çıxıb. Hərbdə xidmət zamanı dəfələrlə

Komandanlıq tərəfindən fəxri fərmanlra, təşəkkürlərə və mükafatlara layiq görülüb. Hal-hazırda Moskva-Sanq-Peterburq dəmiryolu yük qatarlarında nəzarətşi işləyir;



Namazalıyev Mətləb Əvəz oğlu


1968-ci ildə Horadiz kəndində doğulub. 1985-ci ildə orta təhsilini başa vurub, ali Hərbi məktəbə daxil olub.

1990-cı ildə "Qırmızı bayraqlı" Orenburq Ali Hərbi Zenit-Raket komandirlik məktəbini bitirib, 1990-92-ci illərdə Türkistan Hərbi Dairəsində, adi qurğu rəisindən Batalyon komandirliyinə kimi yüksəlib.

1992-94-cü illər Əlahiddə Zenit–Raket diviziyasının qərargah rəisi, diviziya rəisinin I müavini və komandiri vəzifələrində çalışmışdır.

1994-98-ci illər Hava Hücumundan müdafiə qoşunları birləşməsinin qərargah rəisi olmuşdur.

1998-ci ildən öz istəyilə vətənə qulluğa qayıtmış, Azərbaycan Müdafiə Nazirliyinin, Beyləqan rayonunun "N" saylı hərbi hissəsində və batalyon komandiri vəzifələrində çalişan hərbçi-mayor;



Namazalıyev Vahid Xanlar oğlu

1967-ci ildə Horadiz qəsəbəsində anadan olub. Orta məktəbi 1984-cü ildə bitirib .

1985-ci ildə Böyük Sovetlər ölkəsində hərbdə xüsusi xidmət keçdikdən sonra SSRİ-i hərbi qoşunların tərkibində Əfqanıstana "Taliban" qoşunları ilə vuruşa göndərilib.

1986-cı ildə "Taliban" dəstələri ilə səxsi şücaət göstərdiyinə görə SSRİ Ali Sovetin Rəyasət heyətin fərmanı ilə "Şöhrət ordeni" ilə təltif edilmişdir.

İgidliyinə görə 3 dəfə döyüş medalları ilə təltif olunub. Əfqanıstanda 2 il 6 ay qulluq edib, qüsursuz xıdmətə görə SSRİ Ali Sovetin "Fəxri fərmanı"-nı alıb. Hərbi rütbəsi – leytenantdır.

1998-ci ildə vaxtsız ölüm onu aramızdan ayırıb.



Namazov Bayramalı Murad oğlu

1937-ci ildə Horadiz kəndində doğulub.

1956-59-cu illər Bakı Dənizçilik Məktəbinin, mexanika fakültəsini bitirmişdir. 1972-76-cı illərdə Rusiyanın Odessa şəhərində Ali Dəniz Mühəndislər İnstitutunu, Gəmi energetik qurğularının istismarı üzrə mühəndis fakültəsini bitirdikdən sonra, 1976-85-ci illərdə Azərbaycan Dövlət Xəzər Gəmiçiliyi Donanmasında gəmi mexaniki, sonra həmin idarədə Dəniz Təsərrüfatı Xidmətinin rəisi vəzifəsində çalışıb. 1986-91-ci illərdə Bolqarıstan Xalq Respublikasında, SSRİ Dəniz Nəqliyyatı Nazirliyinin nümayəndəsi olaraq, SSRİ üçün inşa olunan gəmilərin qəbuluna rəhbərlik edib. 1985-ci ildə O, elm və texnika sahəsində nailiyyətlərinə görə SSRİ Dövlət Mükafatı Laureantı almışdır. Hal-hazırda Azərbaycan Dövlət Dənizçilik Akademiyasında "Dənizçilərin hazırlanması ilə Sertifikatlandırılması" mərkəzinin dekanıdır. Təcrübəli və istedadlı dənizçi;



Nağıyev Natiq Ərşad oğlu

1974-cü ildə Horadiz kəndində anadan olub. 1991-ci ildə Horadiz kənd orta məktəbində təhsilini bitirib.

1992-96-cı illər Qarabağ müharibəsində ağır döyüşlərdə iştirak edib. Müharibə veteranıdır. 1997-ci ildə Bakı şəhəri Balıq Sənaye Texnikumunu bitirdikdən sonra, Xəzər Dəniz Neft Donanması idarəsində əmək fəaliyyətinə başlayıb.


2002-ci ildən hal-hazıra kimi "Lyutiqa" gəmisinin kapitanıdır;



Novruzov Ədil Heydər oğlu

1911-ci ildə Horadiz kəndində anadan doğulmuşdur. Orta təhsili bitirdikdən sonra, Gürcüstan SSR-in, Tiflis şəhərində Dəmiryol İnstitutuna qəbul olub.

1934-cü ildə həmin İnstitutu bitirdikdən sonra, təyinatla Qazaxıstan SSR-in Alma-Ata şəhərində əmək fəaliyyətinə başlayır. Bir müddət Dəmiryol İdarəsində işlədikdən sonra, istedadlı mütəxəssis olduğu üçün Azərbaycana dəvət alır. Onu Azərbaycan Dəmiryolu Mincivan stansiyasına rəis təyin edilir. Yaxşı işinə görə, rəhbərlik tərəfindən dəfələrlə təşəkkür və "Fəxri-fərman"-lar almışdır. Dəmiryolçu rütbəsi – polkovnik; 1967-ci ildə vəfat edib;



Novruzov Əbülfət Əsəd oğlu

1935- ci ildə Horadiz kəndində doğulub. 1954-cü ildə orta məktəb təhsili başa vurduqdan sonra, Bakı şəhəri I - saylı Tibb Texnikumuna daxil olub.

1957-ci ildə Bakı şəhəri Tibb Texnikumunu bitirib Horadiz kənd xəstəxanasında feldşer işləmişdir.

1961-66-cı illər Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, əmtəəşünaslıq fakültəsini bitirdikdən sonra təyinatla Bakı Mərkəzi Univermağında əmtəəşünas vəzifəsi ilə işə başlayır.

1968-ci ildə Bakı şəhəri Mərkəzi Univermağın Təchizat bazasının müdiri vəzifəsinə təyin edilir. 1996-cı ildən təqaüddə çıxır. 2011- ci ildə vəfat edib;



Novruzov Qulam Bayramalı oğlu

1936-cı ildə Horadiz kəndində doğulub. 1956-cı ildə orta təhsilini başa burub.

1965-ci ildə Azərbaycan Tibb İnstitutunun, müalicə-prafilaktika fakültəsini bitirib. Təyinatla Lerik rayonu Veri kəndinə göndərilmiş və orada baş həkim işləmişdir. 1971-ci ildə Horadiz kənd xəstəxanasında həkim işləyib və 1973-cü ildə isə həmin xəstəxanadbaş həkim təyin edilib.

1973-cü il avqust ayında Bakıya gəlib və Təcili yardım stansiyasında həkim vəzifəsində işləmişdir. 1976-cı ildə Mərdəkan qəsəbəsində Əlillər evində həkim və həmin il baş həkim təyin edilib. 1976-1985-ci illərdə Azərbaycan Səhiyyə Nazirliyinin Sanatoriyasında Baş həkim işləmişdir.

Yüksək intellektə və mədəniyyətə malik olan ziyalı.

1985-ci ildə vəfat edib.



Novruzov Suliddin Məhərrəm oğlu

1940-cı ildə Horeadiz kəndində anadan olmuşdur. Orta təhsilini 1960-cı il bitirib.

1961-63-cü illər Bakı şəhəri Elektrotökmə zavodunda işləyib. 1963-65-ci illər Sovet Ticarət texnikumu bitirib. 1965-67-ci illər Sverdlovsk şəhərində Ural Politexnikumun tikinti fakültəsini bitirib. 1967-ci ildən yenidən Elektrotökmə zavodunda sex rəisi işləyib. 1969-75-ci illər Moskvada S.Orcanikidze adına İdarəetmə İnstitutunu bitirmişdir. 1976-80-cı illər Bakı şəhəri 15, 46, 51 və 64 saylı Mənzil İstismar Sahəsinin rəisi və Sahil rayon Mənzil İstismar İdarəsinin rəisi işləmişdir. 1980-90-cı illər Kənd Tikinti Nazirliyinin 2 saylı Mexanikləşdirilmiş Tikinti İdarəsinin rəisi və həmin Nazirliyin 18, 21 saylı Mexanikləşdirilmiş Səyyar Tikinti İdarəsinin rəisi vəzifələrində çalışmışdır. 1990-cı ildən

Müstəqil Tikinti Kooperativi yaradıb və onun təsisçisi, həm də sədri olub. 1999-cu ildən hal-hazıra kimi sahibkarlıqla məşğul olur;



Novruzov Rza Məmməd oğlu

1959-cu ildə Horadiz kəndində anadan olmuşdur. 1976-cı ildə Horadiz kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin, fizika fakültəsini bitirib və təyinatla Füzuli Hidrometerologiya Mərkəzində mühəndis, böyük mühəndis, rəis müavini və hərbiləşdirilmiş dəstənin Komandiri vəzifələrində işləmişdir. Azərbaycan Dövlət Dəniz Akademiyasını bitirmişdir. Hazırda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Xəzər Dəniz Neft Donanması Rabitə və elektroradionaviqasiya xidmətinin rəisi vəzifəsində çalışır;



Novruzov Fəxrəddin Məhərrəm oğlu

1960-cı ildə Horadiz kəndində anadan olmuşdur.

1967-ci ildə Horadiz kənd orta məktəbinin 1-ci sinfinə daxil olur və oxuyub.

1977-ci ildə orta təhsilini bitirib. Elə həmin il Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olaraq əmtəəşünaslıq fəkultəsində oxuyur.

1982-ci ildə həmin İnstitutun əmtəəşünaslıq fakultəsini bitirdikdən sonra, təyinatla Bakı şəhəri Mərkəzi Univermağına alır.

O, Mərkəzi Univermaqda işə başlayaraq adi satıcılıqdan, sənaye malları sektorunun müdiri vəzifəsinə kimi yüksəlir.

Bazar iqtisadiyyatı zamanı o, sahibkarlığa üstünlük verərək halhazıra kimi biznes fəaliyyətilə məşğul olan sahibkardır.

Novruzzadə Natiq Nadir oğlu

1984-cü ildə Horadiz kəndində anadan olmuşdur. 2002-ci ildə Bakı şəhərində orta təhsilini bitirib. 2002-04-cü illər hərbi xidmətdə olub.




Natiq Novruzov növbəti qələbə vaxtı Azərbaycan bayrağılə

2004-cü ildən idmanın Dzu-do üzrə Beynəlxalq yarışlarda iştirak edir.

2006-cı ildə Fransada keçirilən Dzu-do üzrə Avropa Cempionatında üçüncü yeri tutur və bürünc medala sahib olur.

2007-ci il Braziliyada keçirilən Dünya Çempionatında bürünc medalı alır və Dünya Olimpiadasında iştirak etmək üçün "lisenziya" qazanmış idmançı;

– S –




Sultanov Savalan Bəşir oğlu

1922-ci ildə Horadiz kəndində anadan olmuşdur. Həddi buluğa çatdıqda 19 yaşında ikən onun özündən böyük qardaşları Salman, Fərman və Zaman ilə birgə II-Dünya Müharibəsinə yola saldılar. Onlar əvvəl Gürcüstanda 45 gün hərbi hazırlıq keçdikdən sonra Krım uğrunda döyüşlərə cəlb edildilər. Qardaşlardan ayrı düşən Savalan Kerç, Ukrayna, Moldova və Polşa uğrunda gedən

qızğın döyüşlərdə mərdliklə vuruşmuş və Dövlət tərəfindən "Qızıl ulduz" ordeninə və bir neçə döyüş medallarına laliq görülüb. Döyüşlərin birində ağır yaralanmış və sağaldıqdan sonra hərbdən tərxis olunub. Qayitdıqdan sonra kolxozda müxtəlif işlərdə çalışıb. Məcburi köçkünlər üçün tikilmiş "Zobcuq" adlanan şəhərcikdə yaşayırdı.

II-Dünya Müharibə veteranıdır, 2014-cü ildə vəfat erib;



Sultanov Ənvər Oruc oğlu

1932-ci ildə Horadiz kəndində anadan olmişdur.1939-cu il Horadiz 7 illik məktəbin 1-ci sinfinə şagird qəbul olmuşdur. Məktəb illəri II-Dünya Müharibəsinin qızğın vaxtina düşdüyündən, müəllimlərin çatişmamazliği və eləcədə dolanışıq vəziyyətin ağır olduğuna görə Ənvər 7-ci sinifdən çıxıb ailəyə kömək üçün kolxozda yük maşınlarda şöferllərə köməkçi işləyə-işləyə avtomobilin bütün sirlərini öyrənək, sonra yaşı çatanda isə Ağdam şəhərində sürücülük kurcsunu bitirmişdir. Uzun müddət sürücülük peşəsilə özünə işlədiyi kolxozda və rəhbərlik qarşısında böyük hörmətə sahib olub. Bundan başqa o, musiqini çox gözəl sevirdi və toy şənliklərində muğam və mahnılar oxuyaraq eşidənləri şirin və məxməri səsilə feyziyab edərdi. 1996-cı ildə vəfat edib;



Sultanov Nobil Muxtar oğlu

1941-ci ildə Horadiz kəndində doğulub. . 1958-ci ildə orta təhsilini başa vurub, Gəncə şəhərində Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olub.

1963-ci ildə Pedaqoji İnstitutu müvəf-fəqiyyətlə bitirdikdən sonra təyinatla Füzuli rayon Böyük Bəhmənli kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlayır. 1965-ci ildən öz doğma Horadiz kəndində orta məktəbində

müəllimlik fəaliyyətini davam etdirir. 1978-93-cü illər Horadiz kənd "Qurban Namazalıyev" adına orta məktəbin direktoru vəzifəsinə təyin edilmişdir. 1993- cü ildən İmişli rayo-nunda 11 saylı orta məktəbin direktorudur. Tanınmış pedaqoq;



Sultanov Əvdil Muxtar oğlu

1946-cı ildə Horadiz kəndində doğulub.

1968-ci ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsini bitirib, əmək fəaliyyətini öz ixtisası üzrə Füzuli rayon "Qırmızı Oktyabr" sov-xozunda başlayır. 1981-ci ildə Füzuli rayon Partiya Komitəsində təlimatçı, 1982-83-cü illər Partiya Komitəsində Kənd Təsərrüfatı üzrə katib, 1984-91-ci illər Füzuli rayon XDS-nin İcraiyyə Komitəsinin sədri vəzifələrində işləyib. 1987-ci ildə Bakı Ali Partiya məktəbini bitirir. 1992-ci ildə Prezdent Aparatı yanında Ali Nəzarət Müfəttişliyində, zona üzrə böyük inspektor, 1993-95ci illərdə "Parabank" və "Ərgünəş" kommersiya bankında şöbə müdiri və müavini, 1995-99-cu illərdə Respublika Auditorlar Palatasında auditor vəzifələrdə işləmişdir. 1999-cu ildən hal-hazıra kimi "Mühasibat-Maliyyə" Auditorlar MMC-nin baş direktoru vəzifəsində çalışır. 1984-cü ildə SSRİ Ali Sovetinin fərmanilə işində göstərdiyi nailiyyətlərə görə "Şərəf nişanı" ordeni ilə təltif edilmiş təcrübəli mütəxəssis;

– Ş –



Şirinov Bəhlul Ağalar oğlu

1936-cı ildə Horadiz kəndində doğulub. 1959-cü ildən Horadiz kəndində sürücü işləmiş və eyni zamanda pambıq yığımı dövründə pambıq yığan maşında işləyərək yüksək nəticələr əldə etmişdir.

1956-cı ildə ailəvi 40 ton pambığı əl ilə yığıb dövlətə təhvil verdiklərinə görə, Dövlət

tərəfindən "Qaz-21"markalı Volqa minik avtomobili ilə mükafatlandırılıb.

1970-93-ci illərdə kolxozda anbardar vəzifəsində işləmişdir. Məcburi köçkünlük dövrü Bakı şəhərində 1993-cü ildən 2000-ci ilə kimi Bakı Nəqliyyat Departamentində 97-ci marşrutda sürücü işləyib. Əmək veteranıdır;\



Şirinov Bəhram Ağalar oğlu

1938-ci ildə Horadiz kəndində anadan olmuşdur. Orta təhsilini başa vurub.

1957-60-cı illər hərbi xidmətdə olub. Hərbdə sürücülük vəsiqəsi alıb.

1961-67-ci illər Füzuli rayon Kolxoz Tikinti İdarəsində işləyib.

1968-ci ildən 2008-ci ilə kimi 40 il Bakı şəhəri Nəqliyyat Departamentində işləmiş qabaqcıl sürücüdür.

Dövlət tərəfindən qazandığı nailiyyətlərə görə "Əmək Şöhrəti" və "Qırmızı Əmək bayrağı" ordenləri ilə təltif edilib, "Əmək zərbəçisi" və "Sosializm yarışın qalibi" döş nişanları sinəsini bəzəyir. Dəfələrlə "Fəxri fərmanlar" və pul mükafatları alıb. 25 ildən artıq bir idarədə işlədiyinə görə "Əmək veteranı" medalına layiq görülüb. 2009-cu ildə vəfat edib;



Şirinov Qəhrəman Ağalar oğlu

1950-ci ildə Horadiz kəndində doğulub.

1957-67-ci illər Horadiz kənd orta məktəbini bitirib. 1970-72-ci illərdə Almaniya-da Sovet qoşunları tərkibində xidmət edib.

1974-cü ildən Bakı şəhərində Nəqliyyat Departamentinin 2 saylı Avtobus parkına sürücü kimi daxil olub. Az müddət işlədik-dən sonra o, təmizkarlığı və çalışqanlığı ilə özünü nümunəvi sürücü kimi göstərməklə yanaşı, həmişə yaxşı işinə görə qabaqcıllar sırasında seçilmişdir.

1976 və 1977-ci illər Azərbaycan Avtomobil Nazirliyinin "Şərəf lövhəsi"-ni onun şəkli vurulmuşdur. 2 dəfə "Sosializm yarışının qalibi" döş nişanına layiq görülmüşdür.

1977-ci ildə Bakı şəhərində 17 gənc komsomol briqadası arasında keçirilən yarışda I-yerə layiq görülmüş və Dövlət tərəfindən Bolqarıstana göndəriş-putyovka alıb.

1978-93 illər Füzuli Avtobazasında taksi sürücüsü işləyib;




Şirinov Rəfael Gəncalı oğlu

1955-ci ildə Horadiz kəndində anadan doğulub.

1972-ci ildə orta təhsilini bitirib. 1982-ci ildə Ali Hərbi Məktəbə daxil olur.

1986-cı ildə Rusiyanın Saratov şəhərində Ali Hərbi Aviasiya məktəbini bitirib, Zaqafqaziya Hərbi Sərhəd qoşunları "N" saylı Hərbi hissədə xidmətə başlayıb. 1992-ci ildə könüllü olaraq Azərbaycan Milli Ordusunun "N" saylı Hərbi hissəsinə qayıdıb və Hərbi Eskadrilyada xidmətə başlayıb. 100-ə qədər hava döyüşü yerinə yetirən Azərbaycan göylərinin şahini, Dağlıq Qarabağ Müharibəsinin qızğın döyüşlərində mərdlik və cəsarətlə vuruşan, Vətən qarşısında xüsusi xidmətləri olan təyyarəçi, hərbi rütbəsi – mayor, vətənpərvər döyüşçü.

1994-cü ildən istefaya çıxan və hal-hazırda sahibkarlıqla məşğul olan iş adamı;



Şirinov Bağban Səfər oğlu

1968-ci ildə Horadiz kəndində anadan olub. 1985-ci ildə orta məktəb təhsilini bitirib.

1985-ci ildə həqiqi hərbi xidmətə çağrılıb. 1985-89-cu illərdə Sovet qoşunları sırasında Əfqanıstanda olarkən, onun xidmət-lərinə görə bir neçə medallarla təltif edilmişdir.

1989-cu ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur.

1989-cu ilin noyabr ayından 1990-cı ilin 20 yanvarına kimi ADU-nin tələbə döyüşçülərinin Laçın rayonu Aşağı Cicimli kəndindəki dəstənin komandiri olub. 1992-93-cü illərdə Milli ordunun tərki-bində ağır döyüşlərdə igidlik göstərdiyinə görə, bir neçə mükafatlarla bərabər leytenant rütbəsi alaraq rota komandiri təyin edilir. 1993-cü ildə Müharibə əlilləri cəmiyyəti yaradır və sədri olur. 1994-cü ildə BDU-ni bitirir və təyinatla DİN-nin Tərtər rayon Polus Şöbəsində baş əməliyyatçı işləyib.

1998-2001-ci illər AMEA-nın hüquq fakültəsi üzrə aspiranturanı bitirib. O, "Cinayət prosesi iştirakçılarının konstitusion hüquqlarının müdafiəsi" elmi iş üzrə müdafiə hazırlaşır.


Hal-hazırda Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü və Hüquq məsləhətxanasının vəkili, "Məşəl" cəmiyyətinə sədrlik edir;



Şirinzadə Cavid Bəhlul oğlu

1972-ci ildə Horadiz kəndində doğulub.

Azərbaycan Futorologiya İnstitutunun hüquq fakültəsini bitirib. 1997-ci ildə Əlillərin sosial müdafiə cəmiyyətində işləyib. 1999-cu ildən 133 saylı poçt şöbəsində əməliyyatçı, şöbədə rəis müavini işləyib. 2004-cü ildə Rabitə Kollecini öz ixtisası üzrə bitirib. 2005-ci ildən 3 saylı Poçt filialı aparatında aparıcı mühəndis işləyib. 2009-cu ildən hal-hazıra kimi 3 saylı Poçt filialın aparatında baş mütəxəssis işləyir;




Şükürov Şükür Hümbət oğlu

1937-ci ildə Horadiz kəndində anadan olmuşdur.

1954-cü ildə orta təhsilini başa vurub, Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub. 1960-cı ildə həmin İnstitutun əmtəəşünas fakültəsini bitirib, təyinatını Bakı şəhəri "Azərbakaleya" idarəsinə alaraq əmtəə-

şünas vəzifəsinə təyin edilir. 1965-ci ildən baş əmtəəşünas vəzifəsinə keçirilir. Bacarıqlı şəxs. 1996-cı ildə vəfat edib;

– T –



Talıbov Hüseyn Salman oğlu

1931-ci ildə Horadiz kəndində doğulub.

1938-ci ildə Horadiz kəndində 1-ci sinfə daxil olub və orta məktəbi Əhmədallar kənd orta məktəbində bitirib.

1949-50-ci illər Horadiz kənd Sovetin katibi vəzifəsində işləyib.

1950-56-cı illər Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə rota komandiri, hərbi rütbəsi – kapitan kimi tərxis olunur. 1957-59-cu illərdə Horadiz stansiyasında "MTS"-də mühasib işləyib.

1960-69-cu illərdə Horadiz Rayonlararası bazada baş mühasib işləyib.

1969-78-ci illər Horadiz kolxozunda kolxoz sədri vəzifəsində çalışıb.

1978-87-ci illər Pambıq zavodunda baş mühasib işləmişdir. Əmək fəaliyyəti "Qırmızı bayraq" ordenilə və 4 dəfə Ümimittifaq Xalq Nailiyyətləri sərgisinin gümüş medalına, həm də "Lenin yubiley" medalına layigörülmüşdür.

1987-ci ildə vəfat edib. Təcrübəli təsərrüfatçı;




Talıbov Vüqar Hüseyn oğlu

1967-ci ildə Horadiz kəndində anadan olmuşdur. 1974-84-cü illər Horadiz kənd orta məktəbini oxuyub. 1988-ci ildə Bakı şəhəri Sovet Ticarət Texnikumunun əmtəəşünaslıq fakültəsini bitirib. 1988-93-cü illər Azəritti-faqın Horadiz rayonlararası ticarət bazasında ekspert vəzifəsində işləyib.

1990-cı ildən Bakı şəhərində Mühəndis Tikinti Trestində əmtəəşünas və ambardar vəzifələrində çalışıb. 1997-ci ildən Özəl Yanacaq doldurma məntəqəsində nəzarətçi işləyib.

2002-ci ildən "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin, İstehsalat Birliyinin Binəqədi rayonunda və Suraxanı rayonunda sahə rəisi vəzifəsində işləyib. Hal-hazırda Nizami rayonunda Qaz idarəsinin usta vəzifəsində çalışır;

– R –



Rzayev Vəli Əli oğlu

1925-ci ildə Horadiz kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xitmətə çağrılır.

1947-52-ci illər Horadiz kənd kolxozunda hesablayıcı, 1952-53-cü illər Horadiz kənd Sovetinin sədri, 1953-61-ci illər Horadiz kəndində kolxoz sədri işləmişdir.

1961-64-ci illər Füzuli rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir. 1964-cü ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunu qiyabi bitirmişdir.

1964-69-cu illər Füzuli rayon Kənd təsərrüfatı İstehsalat idarəsinin sədri, 1969-73-cü illər Rayonlararası Bazasının direktoru kimi çalışmışdır.

1973-77-ci illər Rayonlararası Yun Tədarükü bazasının direktoru, 1977-88-ci illərdə Füzuli rayon Baş "Yağ-Pendir zavodunun direktoru vəzifələrində çalışmışdır.

1958, 1966, 1975, 1978 və 1983-cü illərdə Füzuli rayon Xalq Deputatları Sovetinin deputatı seçilib. Bacarıqlı kənd təsərrüfatı mütəxəssisi. 1994-cü ildə vəfat edib;



Rzayev Abbas Abı oğlu

1925-ci ildə Horadiz kəndində doğulub. 1942-ci ildə orta təhsilini bitirib.

1943-cü ildə Böyük Vətən Müharibəsinə könüllü gedir və Ukrayna cəbhəsində, Novo-Çerkask uğrunda vuruşur. 1944-cü ildə ağır döyüşlərin birində yaralanır. Hərbi hospital həkimlərin köməyilə həyata qaytarılır və hərbidən vətənə tərxis edilir. 1945-ci ildə Füzuli şəhər Pedaqoji məktəbi bitirərək, Horadiz kəndində müəllim işləyib. 1948-53-cü illər Azərbaycan Dövlət Pedaqoji İnstitutunun, kimya-biologiya fakültəsini bitirib, həmin orta məktəbdə kimya müəllimi kimi fəaliyyətə başlayıb. 1969-cu ildən Horadiz kənd orta gecə məktəbinin direktoru vəzifəsinə təyin edilib. 1993-cü ildən Bakıda köçkünlərin 20 saylı orta məktəbində dərs hissə müdiri, 2003-cü ildən isə həmin məktəbin direktor kimi məsul vəzifədə çalışır. Onun sinəsini döyüş medalları bəzəyir. İstedadlı pedoqoq. 2008-ci ildə vəfat edib;



Rzayev Məhəmməd Abbas oğlu

1958-ci ildə Horadiz kəndində anadan doğulub.1980-cı ildə Azərbaycan İnşaat-Mühəndisləri İnstitutunun, inşaatçı-mühəndis fakültəsini bitirib, ali təhsil alaraq inşaatçı ixtisasına yiyələnir. Təyinatını Rusiyanın Perm şəhərinə alır. Perm şəhərinin tikinti idarəsində 2 il işlədikdən sonra Bakıya qayıdan M.Rzayev əmək fəaliyyətini davam etdirir. 1984-cü il atasının xahişi ilə öz rayonuna gəlir. Burada əvvəl tikintidə, sonra qaz idarəsində işləyir. 1991-ci ildən o, Füzuli də tikinti kooperativi yaradır. 1993-cü ildən isə məcburi köçkün kimi Bakı şəhərinə köçür və sahibkarlıq fəaliyyətini davam etdirir;



Rzayev Hafiz Abbas oğlu

1961-ci ildə Horadiz kəndində anadan doğulmuşdur.


1968-78-ci illər orta təhsilini Horadiz kənd orta məktəbində almışdır.

1983-cü ildə Azərbaycan Dövlət İnşaat-Mühəndisləri İnstitutunun, inşaatçı-mühəndis fakültəsini bitirib. Əmək fəaliyyətini Nizami rayon tikinti meydançalarında başlayıb. Dövlət Müstəqilliyi dövründə, bazar iqtisadiyyatı zamanı sahibkarlığa üstünlük verir.

O, Bakının Nizami rayonunda olan Kərpic zavodunu özəlləşdirir və ətrafına xeyli işsiz məcburi köçkün toplayaraq iş adamı kimi fəaliyyətə başlayır.

Hal-hazırda Bakı şəhərində sahibkarlığını davam etdirir;

– Y –



Yadigarov Fərman Qurban oğlu

1926-cı ildə Horadiz kəndində doğulub. 1943-49-cu illərdə Bakıda Əzizbəyov adına neft və qaz çıxarma idarəsində qazma ustası vəzifəsində çalışıb. 1949-87-ci illərdə doğma Horadiz kənd kolxozunda traktorçu, traktor briqadsının müavini və briqadiri işləmişdir. İşlədiyi dövrdə yüksək əmək nəticələrinə görə "Sosializm yarışının qalibi" döş nişanına layiq görülmüşdür. 1961-ci ildə Moskvada Ümumittifaq XTNS-nin iştirakçısı olmuşdur. O, bir neçə çağırış Kənd Sovetinin və Rayon XDS-nin deputatı seçilmişdir. Uzun illər Horadiz kənd Partiya təşkilatı katibi işləmişdir. Ahıl vaxtında məclislərdə və yas mərasimlərdə dini ayinlərin təbliği ilə məşğul olmuşdur. 2006-cı ildə vəfat edib;



Yadigarov Fazil Kərim oğlu

1952-ci ildə Horadiz kəndində anadan olmuşdir. Orta təhsilini başa vurub, Gəncə şəhər Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olub.

1969-73-cü illər Gəncə şəhər Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuş və bitirdikdən sonra təyinatla Horadiz kənd orta məktəbində dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlayır.

1980-cı ildən məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışıb.

1993-cü ildən Horadiz kəndimizin işğalından sonra Sumqayıt şəhərində yerləşən Füzuli rayon 9 saylı orta məktəbində müəllim fəaliyyətini davam etdirib.

1996-cı ildən hal-hazıra kimi həmin məktəbin direktoru vəzifəsində çalışır;



Yadigarov Səfər Əyyub oğlu

1955-ci ildə Horadiz kəndində anadan olmuşdur.


1973-cü ildə Horadiz kənd orta təhsilini başa vurduqdan sonra, Peşə Texniki məktəbə daxil olur.

1971-ci ildə Bakı şəhəri 18 saylı Texniki Peşə məktəbini bitirib, xarrat sənətinə yiyələnib. Elə həmin il təyinatla Bakı şəhəri Tikinti Quraşdırma idarəsində əmək fəaliyyətinə başlayıb.

1974-cı ildən Bakı Elektrik Maşınqayırma İdarəsində işləyib.

1990-cı ildən özəl sexlərdə öz fəaliyyətini davam etdirib. 2000-ci ildən Bakı şəhəri, Mehdiabad qəsəbəsində özəl sexdə hal-hazıra kimi çalışır;

– V –



Vəliyev Məhəmmədəli Bayrış oğlu

1933-cü ildə Horadiz kəndində anadan olmuşdur. 1949-cu ildə Horadiz 7 illik məktəbi bitirib.

1950-53-cü il Bakı Rabitə Texnikumunu bitirdikdən sonra, 1954-cı ildə Horadiz kəndində poçt şöbəsinə işə qəbul olunur. 1961-90-cı illərə kimi Horadiz kəndində Poçt müdiri vəzifəsində çalışmışdır.

Əmək fəaliyyətində əla işinə görə M.Vəliyevə IX və X Beşilliklərin "Əmək zərbəçisi", 1975 və 1978-ci illərin "Sosializm yarışının qalibi" döş nişanlarına layiq görülmüşdür. 1992-ci il vəfat edib;



Vəliyev Vəli Məhəmmədəli oğlu

1963-cü ildə Horadiz kəndində doğulub.

1970-80-cı illər Horadiz kənd orta məktəbində təhsilini almışdır.

1981-83-cü illər həqiqi hərbi xidmətdə öz əsgəri borcunu yerinə yetirib.

1983-89-cu illərdə Rusiya Federasiyasının, Rostov Vilayəti, Valqa-Donsk şəhərində tikinti idarəsində işləyib.

1990-cı ildə Bakıya qayıdıb Tikinti-təmir kooperativi açıb və iş adamı kimi fəaliyyətə başlayır. Qarabağın ağır döyüşlərində, özünü müdafiə dəstələrinə maddi və mənəvi dəstəkləyir.

1992-ci ilin mart ayında könüllü olaraq o, özü könüllü müdafiə dəstələrində Füzulinin döyüş bölgələrində vuruşur.

1994-cü ildə Bakıda "Füzuli–5" kooperativi açır. Onun təsisçisi və sahibidir və hal-hazırda sahibkarlıq fəaliyyətini davam etdirir.

QƏHRƏMAN ANALAR

HORADİZ KƏNDİMİZDƏ ON VƏ DAHA ÇOX UŞAQ DOĞMUŞ "QƏHRƏMAN ANA" ADINA LAYİQ GÖRÜLMÜŞ ANALAR

1. Namazalıyeva Tavad Muxtar qızı (1908-1953) - 11 uşaq: Namazalıyev Bayramalı Fərzalı oğlu (1896-1981) – həyat yoldaşı ilə 1928-ci ildə ailə həyatı qurmuş və 11 övladları olub. 1952-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə Tavad Namazalıyevaya "Qəhrəman ana" adı verilməklə bərabər, "Analıq" ordeni ilə təltif edilmişdir. 1953-cü ildə 11 uşaq dünyaya gətirmiş Tavad Namazalıyeva faciəli surətdə həlak olmuşdur.



Bayramalı ailəsi: soldan sağa – Gülçöhrə, Xanlar, Bayramalı əmi, Qəmbər, Güleyşə, Tavad nənə, Bəylər, Ənvər, Qulam, Şükufə, Qafar və Yavər (şəkil 1950-ci ildə çəkilib

Tavad nənədən övladları:- Qulam-1930, Güleyşə-1932, Bəylər-1934, Xanlar-1936, Qafar-1938, Yavər-1940, Gülçöhrə-1942, Şükufə-1945, Ənvər-1947, Qəmbər-1949, Mədinə-1951




Namazalıyeva Züleyxa Cavad qızı (1922-2010)


1954-cü ildə Bayramalı əmi körpə uşaqları olduğunu nəzərə alaraq Züleyxa Cavad qızı ilə evlənir. Birgə evlilik həyatından daha 6 uşaqları doğulub.

Züleyxa nənədən övladları: Rafiq-1955, Tofiq-1959, Məlahət-1961, Sadiq-1963, əkizlər: Almas-1966 və Gülnaz-1966;

2. Yadigarova Məryəm Oruc qızı (1932-2001) - 14 uşaq:



Məmmədov Qəmbər Murtuza oğlu (1932-2003) – həyat yoldaşı ilə 1951-ci ildə ailə həyatı qurmuş və birgə yaşayışdan 14 uşaq həyata gətirmişlər və Murtuza bir yaşında ikən vəfat edib. Beləliklə, 13 övlad böyüdüb başa çatdırmışlar. 1970-ci ildə SSRİ Ali Sovetinin Rəyasət



Heyətinin fərmanı ilə Yadigarova Məryəmə "Qəhrəman ana" fəxri adı verilməklə, "Analıq" ordeni ilə təltif edilmişdir.

Övladları: - Ənvər-1952, Gülzar-1954, Vaqif-1956, Südabə-1957, Aida-1959, Şahnaz-1960, Gülzar-1962, Heydar-1964, Məhəmməd-1966, **Murtuza-(1966-1967)**, Xuraman-1968, Xatirə-1970, Sona-1973, Azər-1974;

***

3. **İsmayılova Dilşad Ədil qızı (1939) – 13 uşaq**
İsmayılov İsa Musa oğlu(1937) – həyat yoldaşı ilə 1958-ci ildə nigah bağlamişlar və birgə yaşayışdan 13 uşaq böyüdüb başa çatdırmışlar. 1970-ci il tarixdə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə İsmayılova Dilşada "Qəhrəman ana" fəxri adı verilməklə bərabər "Analıq" ordeni ilə təltif edilir.






Övladları:-Almas-1959, Gülnar-1960, Qabil-1961, Oruc-1962, Habil-1963, Nadir-1964, Yunus-1965, Qızxanım-1966, Ayna- 1967, Musa-1968, Ruhiyyə-1969, Nisə-1970, Nəzakət-1971;

***

4. **Məmişova Kubra Əli qızı(1932-2004) – 12 uşaq:**
Heydərov Əbil Muxtar oğlu(1931-2006) – həyat yoldaşı ilə 1956-cı ildə evlənmişlər 12 ovlad dünyaya gətirərək, böyüdüb başa çatdırmışlar. 1970-ci ildə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə Məmişova Kubra xanıma "Qəhrəman ana" fəxri adı verilməklə bərabər "Analıq" ordeni ilə layiq görülmüşdür.





Övladları: - Sarvan-1957, Dövran-1959, Tehran-1960, Gülnarə-1961, Bəhmən-1962, Muxtar-1963, Yeganə-1965, Namiq-1966, Dürdanə-1967, Xavər-1969, Mənzər-1970, Mehman-1972 ;

***

5. Qurbanova Füruzə Məhəmməd qızı (1925) – 11 uşaq:
Qurbanov Sərdar Qurban oğlu(1918-1992) – həyat yoldaşı



ilə 1940-cı ildə evlənərək birgə həyatdan 11 uşaq dünyaya gətiriblər. 1966-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanına əsasən Qurbanova Füruzəyə "Qəhrəman ana" fəxri adı ilə bərabər "Analıq" ordeni ilə də təltif edilir.



Övladları: - Cavanşir-1941, Gülüstan-1948, Cahangir-1950, Abbas-1952, Nobat-1954, Gülnisə-1956, Südabə-1958, Şəfiqə-1960, İradə-1962, Qızbəs-1964, İsmayıl-1966;

***

6.Abdullayeva Xanım Bəyalı qızı(1932-1999) – 11 uşaq:
Abdullayev Hacı Məhəmməd Əsəd oğlu(1925) – həyat



yoldaşı ilə 1950-ci ildə evlənmiş və birgə yaşayışdan 11 övlad dünyaya gətirib boya başa çatdırmışlar. Ona görə 1965-ci ildə SSRİ Alı Sovetinin, Rəyasət Heyətin fərmanına əsasən Abdullayeva Xanım Bəyalı qızına "Qəhrəman ana" fəxri adı ilə bərabər "Analıq" ordeni də təltif edilmişdir.



Övladları: - Tamara-1951, Əsəd-**1953-1958**, Tofiq- 1954, Tahir-1956, Zakir- 1958, Əfruz-1959, Xuraman-1960, Raci-**1962-2010**, Qətibə-1963, Zəminə-1964, Rəna-1965;


***

7. Rüstəmova Xoşqədəm Qəmbər qızı (1929-1997) – 11 uşaq:

Rüstəmov Əvəz Humay oğlu (1919-2000) – həyat yoldaşı ilə



1950-ci ildə birgə ailə həyatı nəticəsində 11 uşaq böyüdüb başa çatdırırlar. 1975-ci ildə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə Rüstəmova Xoşqədəmə "Qəhrəman ana" fəxri adı verilməklə birlikdə "Analıq" ordeni ilə təltif edilib.



Övladları: -Şəfiqə-1945, Paşa-1952, Şəfa-1954, Qənirə-1955, Qəhrəman-1957, Qətibə-1960, Rüstəm(Yaşar)-1962, Nəsibə-1965, Südabə-1967, Salman-1969, Nüşabə-1974;

****

8. Quluyeva Narın Atakişi qızı (1936) – 11 uşaq:

Quluyev Hümbət Oruc oğlu (1933-2006) – həyat yoldaşı ilə 1954-cü ildə evlənir, birgə ailə həyatı dövründə 11 uşaq həyata gətirilir və böyüdüb başa çatdırırlar. Buna görə də 1974-cü ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə Quluyeva Narına "Qəhrəman ana" fəxri adı ilə birlikdə "Analıq" ordeni ilə təltif edilib.

Övladları: - Həsrət-1956, Nailə-1958, Elmira-1960, Rafiq-1962, Nüsrət-1964, Rasim-1966, Nazilə-1968, Qərib-1970, Esmira-1972, Arzu-1974, Vaqif-1976;


***

Novruzova Şamama Şəmil qızı (1937) – 11 uşaq:

Rüstəmov Famil Rəhim oğlu (1932 – 1990) – həyat yoldaşı ilə 1954-cü ildə birgə ailə həyatı qurmuş və 11 övlad sahibi olmuşlar.



1976-cı ildə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə Şamamaya "Qəhrəman ana" fəxri adi ilə "Analıq" ordeni verilib.



Övladları: - Rahilə-1956, Ramiz-1957, Rəhim-1959, Kamilə-1962, Zərəfşan-1964, Sabir-1966, Nəzifə-1968, Nahidə-1970, Səbinə-1973, Gültəkin-1975, Firdovsi-1977;

***

10. Hüseynova Nərgiz Həsən qızı(1941) – 11 uşaq:

Kərimov Fehruz Ağa oğlu(1926-2006) – həyat



yoldaşı ilə birgə yaşayış dövründə 11 övlad böyüdüb başa çatdırmışlar. SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə Hüseynova Nərgizə "Qəhrəman ana" fəxri adı verilmiş və "Analıq" ordeni ilə təltif edilmişdir.



Övladları: - İbrahim-1957, Mirvari-1959, Pənah-1962, Şəhla- 1964, Nailə-1966, Reyhan-1968, Rəsmiyyə-1971, Rasim-1974, Kifayət-1977, Məstan-1980, Ağa-1983;

***

11.Şirinova Gülü Mehdiqulu qızı (1910-1985) – 10uşaq:
Şirinov Alı Fərzalı oğlu (1908-1976) – həyat yoldaşı ilə



Şirinov Alının ailəsi: soldan sağa – Zəhra, Simuzər, Gülü nənə, Sayad, Alı kişi, Gülnar Səfər qızı, İntizar, İsmayıl və Həqiqət.

1928-ci ildə ailə həyatı quraraq həyata 10 uşaq gətirib və böyüdərək həyata vəsiqə verirlər. 1953-cü ildə Şirinova Gülüyə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı verilməklə "Analıq" ordeni ilə təltif olunur.

Övladları: - Mələk-1930, Zəhra-1933, Məryəm-1935, Sayad-1937, Cəmilə-1939, İsmayıl-1942, Mikayıl-1944, İntizar-1947, Simuzər-1949, Həqiqət-1952;

***

12. Sultanova Nobat Qasım qızı (1904-1983) – 10 uşaq:
Sultanov Məmiş Mirzalı oğlu (1896-1942) – həyat yoldaşı ilə 1921-ci ildə birlikdə ailə həyatı qurulur və birgə yaşayış dövründə onlar 10 uşaq həyata gətiriblər. Buna görə 1943-cü ildə Sultanova Nobat SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı və "Analıq" ordeni ilə təltif olunur.

Övladları: - İslam-1922, Həcər-1924, Şəkər-1926, Mirzalı-1928, Tamara-1930, Qənirə-1932, Rüstəm-1933, Sahib-1935, Məhbubə-1939, Vaqif -1942;

***

13. Namazalıyeva Münəvvər Salman qızı (1915-78)-10 uşaq:




Namazalıyev Ağamalı Fərzalı oğlu(1908-1962) – həyat yoldaşı ilə 1926-cı ildə evlənərək birgə ailə həyatı qururlar. Evlilik dövründə 10 uşaq həyata gətirib böyüdərək boya başa çatdırırlar. 1952-ci ildə Namazalıyeva Münəvvərə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı və "Analıq" ordeni ilə təltif olunur.

Övladları: - Mirzalı-1930, Gülənbər-1932, Xəlil-1933, Zəhra-1934, Famil-1936, Arif-1939, Əmir-1942, Rəfiqə-1944, Şəfiqə-1946, Süsənbər-1950;

***

14. Cəbrayılova Fatimə İsmayıl qızı(1918-1983) – 10 uşaq:






Cəbrayılov Cəbrayıl Qasım oğlu(1908-1980) – həyat yoldaşı ilə 1937-ci ildə evlənmiş və birgə yaşayışdan 10 uşaq böyüdüb başa çatdırıb, oxutmuş həm də həyata vəsiqə vermişlər. 1962-ci ildə SSRİ Ali Sovetin fərmanı ilə Cəbrayılova Fatimə-yə "Qəhrəman ana" fəxri adı verilməklə "Analıq" ordeni ilə təltif edilib.

Övladları: - Çiçək-1938, Allahverən -1940, Aydın – 1942, Məleykə - 1944, Qasım – 1949, Sabir – 1951, Solmaz – 1953, Elmira – 1956, Şəfiqə - 1959, Cavanşir – 1961;

***

15. Abışova Sona Abış qızı (1922 – 2003) – 10 uşaq:

Namazalıyev Mehralı Əbdüləli oğlu (1912–1973) – həyat yoldaşı ilə 1942-ci ildə ailə həyatı quraraq, həyata 10 uşaq bəxş edirlər. Buna görə Abışova Sonaya 1970-ci ildə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı verilmiş və "Analıq" ordeni ilə təltif olunmuşdur.




Övladları: - Möhsün-1944, Mənsim-1947, Qönçə-1951, Aydın-1955, Pakizə-1957, Hüseyn-1959, Kərəm-1961, Rüxsarə-1966, Rəhim-1968, Bağman-1969 ;

***

16. Heydərova Sitarə Həmid qızı(1928) – 10 uşaq:

Heydərov Abbas Muxtar oğlu(1924-2000) – həyat yoldaşı ilə 1954-cü ildə ailə həyatı quraraq həyata 10 uşaq gətirib və böyüdərək həyata vəsiqə verirlər. Ona görə Heydərova Sitarəyə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı verilməklə "Analıq" ordeni ilə təltif olunur.





Övladları: - Şöhlət-1953, Nəbi-1955, Minarə-1958, Əsli-1960, Bağman-1961, Salman-1963, Nofəl-1965, Təzəgül-1966, Yavər-1968, Natiq-1969;

***

17. Əliyeva Pakizə Mahmud qızı(1936) – 10 uşaq: Mahmudov Şirxan Savalan oğlu(1933) – həyat




yoldaşı ilə 1956-cı ildə evlənmiş və birgə həyatdan 10 övlad dünyaya gətirmişlər. Buna görə Pakizə Əliyevaya SSRİ Ali Sovetin Rəyasət Heyəti tərəfindən ona "Qəhrəman ana" fəxri adı verilməklə, "Analıq" ordeni təltif edilmişdir.



Övladları – Malik -1957, Püstə, Badam, Simuzər, İsmayıl, Rəcəb, Səmayə, Raci, Sima, Gülzar;

***

18. Əliyeva Nobat Həzi qızı (1938 – 2003) – 10 uşaq: Əliyev Fərzalı Səfəralı oğlu(1936–1983) – həyat yoldaşı



ilə 1956-cı ildə birlikdə ailə həyatı qurulur və birgə yaşayış dövründə onlar 10 uşaq həyata gətirirlər. Buna görə 1979-cu ildə Əliyeva Nobata SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı verilməklə "Analıq" ordeni ilə təltif olunur.




Övladları: -Təbərik-1957, Tahir-1959, Əlövsət-1963, Gülzar-1966, Fatma-1968, Qəmbər-1970, Gövhər-1972, Mahir-1975, Bahar-1977, İlham-1978;

***

19. Əmirova Qızbəs Qasım qızı (1937) – 10 uşaq:
Əmirov Salman Yunus oğlu (1937-1990) – həyat yoldaşı ilə 1958-ci ildən birlikdə ailə həyatı qurulur və birgə yaşayış dövründə onlar 10 uşaq həyata gətirirlər. Buna görə 1973-cü ildə Əmirova Qızbəsə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı və "Analıq" ordeni verilir.





Övladları: - Mübariz-1959, Ətayə-1962, Rasim-1964, Minayə-1965, Rahib-1966, Bəsdi-1968, Günayə-1969, Səmayə-1970, Gövhər-1971, Elman-1972;

***

20. Məhərrəmova Gülsüm Əşir qızı (1939-2007) – 10 uşaq:
Məhərrəmov Turab Oruc oğlu (1938) – həyat yoldaşı ilə 1957-ci ildə evlənir, birgə ailə həyatı dövründə 10 uşaq həyata gətirib və böyüdüb başa çatdırırlar. Buna görə də 1977-ci ildə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə Məhərrəmova Gülsümə "Qəhrəman ana" fəxri adı və "Analıq" ordeni ilə təltif olunur.




Övladları: - Qərib-1958, Arif-1961, Mənzər-1963, Çingiz-1965, Maqsud-1967, Mansur-1969, Mahir-1971, Təyyar – 1973, Kəmalə-1975, Eldəniz-1976 ;

***

21. Məmmədova Şəfiqə Əliş qızı (1935) – 10 uşaq:
Məmmədov Cahangir İldırım oğlu (1932– 2000) – həyat





yoldaşı ilə 1958-ci ildə birlikdə ailə həyatı qurulur və birgə yaşayış dövründə onlar 10 uşaq həyata gətirirlər. Məmmədova Şəfiqəyə 1980-cı ildə SSRİ Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə "Qəhrəman ana" fəxri adı və "Analıq" ordeni ilə təltif olunur.

Övladları: - Cəmilə-1959, Şakir- 1960, Rima-1961, Xuraman-1964, Lətifə-1965, Sevinc-1969, Elsevər-1971, Nailə-1972, Ərşad-1975, Kəmalə-1979-cu il;

***

22. Hüseynova Suqra Həsən qızı (- - - -) – 11 uşaq:
Zeynalov Abdulhüseyn Salman oğlu: - həyat yoldaşı ilə ailə həyatı quraraq və birgə yaşayışdan 11 uşaq dünyaya gətirirlər. Buna göra SSRİ Ali Sovetin Rəyasət Heyətinin qərarına görə Hüseynova Suqraya "Qəhrəman ana" fəxri adı və "Analıq" ordeni verilir.

Övladları: - Salman, Güloğlan, Bağdagül, Telman, Mənsurə, Qönçə, Filman, Etibar, Sadəgül, Gülaçar, Arzu;

***

23. Ağayev Nübar Şəmil qızı(1942) – 10 uşaq:

Ağayev Hərif Məhəmməd oğlu(1940-2002) – həyat yoldaşı ilə birgə yaşayış dövründə 10 övlad böyüdüb başa çatdırmışlar. 10 uşaq dünyaya gətirdiyinə görə SSRİ Ali Sovetinin Rəyasət Heyyətinin qərarı ilə Ağayeva Nübara "Qəhrəman ana" fəxri ad verilməklə bərabər, "Qəhrəman ana" ördeni ilə təltif edilmişdir.

Övladları: - Elyas, Məhəmməd, Nizami, Xələf, Füzuli, Anar, Sevil, Qaratel, Faxrı, Sevinc.

***


24. Mehdiyeva Səfurə İmran qızı(1925-1989) – 10 uşaq:

Mehdiyev Yühənnə Nəcəfqulu oğlu(1920-1994) –həyat yoldaşı ilə birgə yaşayışdan həyata 10 övlad böyüdüb başa çatdıraraq, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Səfurə Mehdiyevaya "Qəhrəman ana" fəxri adı ilə bərabər "Analıq" ordeni də təltif edilmişdir

Övladları: Bağban, Qulu, Zabil, Əbülfəz, Elşad, Seygah, Gülpəri, Solmaz, Xuraman və Əziz.

KƏNDİMİZDƏN "HƏCC", "KƏRBƏLA" və "MƏŞHƏD" ZİYARƏTİNƏ GEDƏN MÖMİNLƏR
HACILAR

1. Hacı Calal Qasım oğlu Mehdiyev (1925):



1999-cu ildə "Həcc" ziyarətində olmuşdur və müsəlmanların yüksək, Hacı adını qazanmışdır. 50 il Horadiz kənd orta məktəbində fizika-riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişdir. "Qurani Kərim"-in təfsilin iki cilddə yazaraq 500 səhifəlik kitab nəşr etdirmişdir. Məclislərdə və yas mərasimlərində dini ayinləri təbliğ edən el ağsaqqalı

2. Hacıxanım Adilə Əsəd qızı Novruzova (1942-2010):

2000-ci ildə "Həcc" ziyarətində olmuşdur və Hacı adını qazanmışdır. Horadiz kəndində uzun illər kənd aptekində əczaçı həkim işləyərək kənd sakinlərinə xidmət etmişdir. Qadın yas mərasimlərində dini təbliğ edən möminə;

3. Hacı Məhəmməd Əsəd oğlu Abdullayev (1925):



2001-ci ildə Hər bir müsəlmanın ən əziz arzusu olan "Həcc" ziyarətində olmusdur və Hacı adını daşıyır. 2010-cu ildə atası Əsədin adıyla "Həcc"-də ziyarətdə olub. 1941-45-ci illər Vətən Müharibəsi zamanı, Şimali Qafqazdan – Ukray-nanın, Vinnitsa vilayətinə qədər qanlı döyüşlərdə mərdliklə vuruşub. 1943-cü ildə ağır döyüşlərdə yaralanmış və vətənə müharibə əlili kimi qayıdıb. Horadiz kəndində 50 ildən çox həmyerlilərinə bərbər xidməti göstərmişdir. Ahıl vaxtlarında dini məclislərdə və yas mərasimlərində dini qayda-qanunları təbliğ edən mömin, el ağsaqqalı;

4. Hacı Rafiq Fərhad oğlu İmanov (1959):



2005-ci ildə "Həcc" ziyarətində olmuş və Hacı adını qazanmışdır. 1976-83-cü illər Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1984-93-cü illər Horadiz kolxozunda hüquqşünas və kadrlar şöbəsinin müdiri işləyib. 1994-97-ci illər Təkmilləşdirmə İnstitutunun hüquq fakültəsini bitirib. Hal-hazırda Bakı şəhəri Nizami rayon Maarif şöbəsində baş iqtisadçı vəzifəsində çalışır. Horadiz qəsəbəsində tikilən "Seyid Əşrəf" məscidi Azər Zülfüqar oğlunun birbaşa maliyə yardımı ilə və icraçı kimi Rafiq İmanovun rəhbərliyi sayəsində tamamlanmışdır. Allah kömək olsun;


5. Hacı Qabil Süleyman oğlu Səfiyev (1962):



2005-ci ildə müsəlmanın vacib borcunu yerinə yetirərək "Həcc" ziyarətində olmuş və müqəddəs Hacı adını qazanmış şəxs;

1983-cü ildə Azərbaycan İnşaat və Mühəndislər İnstitutunu bitirib. Əmək fəaliyyətinə Füzuli rayon Tikinti İdarəsində başlamışdırr. 1993-cü ildən Moskva şəhərində fəaliyyətini davam etdirir;

6. Hacı Elbrus Əli oğlu Bəylərov (1973):



2005-ci ildə yüksək müsəlman qaydalarına əməl etmiş və müqəddəs arzusu olan "Həcc" ziyarətində olmuş və Hacı adını daşıyır.

1992-95-ci illər Qarabağ cəbhələrində topçular batareyasında mərdliklə xidmət etmişdir. Hərbi rütbəsi serjant olub. Qarabağ müharibəsi veteranıdır.

1996-cı ildə Bakı Dəmiryol Texnikumunu bitirib. Hazırda Bakı şəhərində çalışır;

7. Hacı İlham Həsən oğlu Məmmədov (1948):



2006-ci ildə yüksək müsəlman borcunu yerinə yetirərək "Həcc" ziyarətində olmuş və müsəlmanlara məxsus müqəddəs Hacı adına layiq görülmüşdür.

Horadiz kəndində Məişət evinin müdiri işləmiş, həmdə kənd sakinlərinə dərzi xidmətıı göstərib. Hal-hazırda Bakı şəhərində dərzi işləməklə bərabər, Horadiz kəndinin yas mərasimlərində yaxından iştirak edir, "Quran" surələrini oxuyur və ayinləri təbliğilə məşğul olan mömin bəndə;

8. Hacı Rəhman Qəşəm oğlu İsmayılov (1969):



2006-ci ildə müsəlmanların ən yüksək borcu olan "Həcc" ziyarətində olmuş ümrə adını daşıyıb (Ümrə "Qurban bayramı"-ndan qeyri vaxt gedənlərdir). 2009-cu ildə Həcc ziyarətinə Qurban bayramı ərəfəsində gedib və Hacı adını daşıyır.


Rusiyanın Perm şəhərində sahibkarlıqla məşğul olub, xeyriyyəçi əməllərlə insanlara yardımçılıq edib. 2005-ci ildən vətənə qayıdan Hacı Rəhman sahibkarlıq fəaliyyətinə üstünlük vermişdir. Hal-hazırda Bakı şəhərinin, Nizami rayonunda "Real" supermarketinə sahibkarlıq edərək fəaliyyətini davam etdirir.

9. Hacı Namiq Fərhad oğlu İmanov (1964):



2006-cı il dekabrda müsəlman borcunu yerinə yetirərək "Həcc" ziyarətində olmuş və Hacı adına layiq görülmüşdür. 2-ci dəfə atası Fərhadın niyyəti ilə Həcc ziyarətinə getmişdir. 1991-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. Əmək fəaliyyətə Füzuli rayonunda başlamışdır. Hazırda "AB-TİM" hazır beton istehsal edən zavodun direktorudur;

10. Hacı İzzət Oruc oğlu Soltanov (1938):



2006-cı ildə hər bir müsəlmanların ən böyük arzusu olan "Həcc" ziyarətində olmuş və müqəddəs Hacı adını almışdır;


11. Hacıxanım Bənövşə Zülfüqar qızı Soltanova (1955-2008):

2006-cı ildə müsəlman borcunu verərək müqəddəs "Həcc" ziyarətində olmuş və Hacı adını qazanmışdır;

12.Hacıxanım Rəsmiyyə Qəşəm qızı Qarayeva (1950):

2006-cı ildə "Həcc" ziyarətində olmuş, öz müsəlman borcunu yerinə yetirərək və ən ali Hacı adını almış möminə;

13. Hacı Səttar İskəndər oğlu Heydərov (1963):




2006-cı ildə müsəlmanın vacib borclarından olan "Həcc" ziyarətində olmuş və müqəddəs Hacı adını qazanmışdır.

1990-cı ildə Azərbaycan İnşaat-Mühəndislər İnstitutunun, inşaat fakultəsini bitirib.

1990-93-cü illər Milkanal Su Tikinti Trestində mühəndis və baş mühəndis, 1994-95-ci illər Bakıda Səbail rayonunda Sosial Təminat İdarəsində baş mühəndis, 1995-97-ci illərdə Nərimanov rayon Sosial Təminat İdarəsində baş mühəndis vəzifəsində işləyib. 1997-ci ildən indiyə kimi Bakı Baş Elektrik Şəbəkə ATSC-də mühəndis vəzifəsində çalışır;

14. Hacı Məhəmmədəli Cəfər oğlu Əhmədov (1946):



2007-ci ildə müsəlmanların ən böyük arzusu və niyyəti olan "Həcc" ziyarətini edərək müqəddəs Hacı adını qazanıb. 2008-ci ildə "Kərbəla" və "Məşhəd" ziyarətində olmuşdur. Bakı şəhərində 7 saylı İxtisaslaşdırılmış Mexanikləşdirilmiş İdarəsində elektrik işləmişdir.

Dini məclislərdə və yas mərasimlərində "Quran" ayələri oxuyan, həm də dini qaydaları təbliğ edən mömin bəndə;

15. Hacı Nizami Aydın oğlu İbişov (1983):



2007-ci ildə hər bir müsəlmanın vacib borclar;ndan biri olan "Həcc" ziyarətinə gedərək, müqəddəs Hacı adını daşıyır.

Nizami İbişov 2004-cü ildə Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. Hazırda ticarət sahəsində çalışır;

16. Hacı Heydər Muxtar oğlu Heydərov (1925):




2007-ci ildə bütün müsəlmanların ən uca və böyük arzusu olan "Həcc" ziyarətində olaraq, müqəddəs Hacı adını daşıyan şəxs.

Hələ uşaq yaşından Heydər qəlbində "Kəbə" ziyarətini niyyət edib və Allah da onun arzusunu lap ahıl vaxtında qismət elədi.

H.Heydərov hələ gənc yaşından atası və qardaşı II Dünya Müharibəsinə getmişlər. Anası Gülzarın vaxtsız vəfat etdiyindən, kiçik qardaşları Abbas, Əbil və bacışı onun himayəsində qalıb. Kolxozda işləyib çox çətinliklə onları dolandırıb. Bir müddət kənddə kankan işləyib. 1993-cü ildən Bakı şəhəri Azərbaycan Xüsusi Mühafizə Xidməti idarəsində bağban işləyir.

Hazırda 85 yaşında "Qurani-Kərimi" mükəmməl oxuyub ona əməl edən və onu dini məclislərdə yayan Hacı Heydər deyir: - "O müqəddəs Məkkə və Mədinədə ziyarətdə olarkən Allaha yalvarıb əhd etmişəm ki, doğma el-obama qayıdım, yenə də o müqəddəs torpağı ziyarət edim". Hər şeyə qadir olan Allah niyyətimi hasil edər! İnşallah!!! 2015-ci ildə vəfat edib;

17. Hacı Fazil Əziz oğlu Xələfov (1950):



2007-ci ildə hər bir müsəlmanın böyük borcu olan "Həcc" ziyarətində olmuş. 1968-72-ci illər Gəncə şəhər Azərbaycan Pedaqoji İnstitutun, kimya-biologiya fakültəsini biti-rib, təyinatla Horadiz qəsəbəsi 1-saylı orta məktəbə kimya-biologiya müəllimi kimi 1972-93-cü ilə qədər fəaliyyət göstərmişdir. 1993-cü ildən hazırda Bakı şəhəri 1-saylı orta məktəbində müəllim işini davam etdirir;

18. Hacı Vəli Cəfər oğlu Cəfərov(1956):



2008-ci il noyabr-dekabr ayları "Qurban bayramı, dövründə, müsəlmanların ən böyük arzusu və niyyəti olan "Həcc" ziyarətinə gedərək, müqəddəs Hacı adına daşıyır.

1973-cü ildən Bakı şəhəri Xüsusi quraşdırma idarəsində, 1996-ci ildən Xarici tikinti şirkətinin, Bakı Hava limanı tikintisində sahə rəisi, 2003-cü ildən Hava limanı tikintisinin rəisi, 2004-cü ildən Türk-Alman birgə müəssəsində tikinti rəisi, Yüksək qərb texnalogiyası üzrə bir neçə qaynaq müsabiqəsinin qalibi və laureatı, 1993-cü ildə "Prezident mükafatı laureatı"-na layiq görülmüşdür. Bina və qurğuların tikintisi, istismarı mühəndisi;

19. Hacıxanım Gülnar Səfər qızı Şirinova (1956):



2008-ci il noyabr-dekabr ayında müsəlmanların ən ümdə "Həcc" ziyarətini edərək Hacı adına sahib olmuşdur. 2002-06-cı illərdə 3 dəfə Məşhədi şəhərindəki ziyarətgahında olmuş və "Məşhədi" adını alıb.

Gülnar xanım 1974-cü ildə Bakı Sovet Kooperativ Texnikumunu bitirib. 1974-cü ildən kənddə öz evlərində "Qarışıq mallar mağazası" açaraq xırda sahibkarlıqla məşğul olub. Məcburi köçkünlük dövrü 1993-cü ildən Bakı şəhəri ayaqqabı fabrikində işləyib. 2005-ci ildən hal-hazıra kimi Azərbaycan Respublika Klinikası xəstəxanasının allergiya şöbəsində çalışır;

20. Hacı Fəxrəddin Həsən oğlu Cəfərov (1964):



2008-ci il noyabr-dekabr ayları müddətində "Həcc" ziyarətinə gedərək müsəlmanın ən ali Hacı adını qazanmışdır. 1985-ci ildə Nizami rayonunda Meyvə-tərəvəz idarəsində işə başlayır. 1990-cı ildən "Füzuli" firmasını yaradanlardan olmuşdur. 1993-cü ildə Nizami rayonunda "Pərviz-F" firması yaradaraq sahibkarlıqla məşğul olur. Horadiz kəndin-dən olan köçkünlərin yataqxanada, uşaq bağçasında və boş evlərdə yerləşməsində böyük əməyi olmuşdur;

\

21. Hacıxanım Şöhlət Abbas qızı Məmmədova (1953):



Hələ uşaq vaxtlarından ilahiyyətə böyük maraq olduğundan həmişə dini ayinləri yerinə yetirərək müsəlmanların bütün şərtlərinə əməl edib və 2008-ci il aprel ayında Məşhəd şəhərində İmam Rzanın ziyarətində olub və "Məşhədi" şəhadətnaməsini alaraq Məşhədi adını layiq görülmüşdür. 2008-ci ilin noyabr və dekabr ayları, Qurban bayramı dövründə "Həcc" ziyarətində olmuş və müsəlmanların ən yüksək Hacı adını qazanmış mömünə;

K Ə R B Ə L A Y İ L Ə R

1. Kərbəlayixanım Gülzar Calal qızı Əhmədova (1948):



2008-ci ildə İraqın Kərbəla şəhərinin ziyarətkahlarında olub və "Kərbəla" adını qazanan müsəlmanlardandır. Elə həmin il G.Əhmədova İranın "Məşhəd" şəhərini ziyarət edərək Məşhədi şəhədatnaməsini alıb.

O, Bakı şəhəri Xətai rayonundaki 7 saylı Poliklinikasında tibb bacısı vəzifəsində işləmişdir;

2.Kərbəlayixanım Səbinə Məhəmmədəli qızı Əhmədova (1978):



2008-ci ildə müsəlmanların İraqın Kərbəla şəhərinin ziyarətgahında olub "Kərbəla" adını qazanıb. Eyni zamanda İranın Məşhəd şəhərindəki ziyarətgahında olub və "Məşhəd" şəhadətnaməsini almışdır.

O, Azərbaycan İncəsənət Universitetinin, kütləvi teatr rejissorluq fakultəsini bitirib və halhazırda "Bülbül" adına müsuqi məktəbində müəllimə vəzifəsində işıəyir;

3. Kərbəlayi Yasin Vəzir oğlu Quluyev (1979):



2009-cu ilin oktyabr ayinda İraqın Kərbəla şəhərində ziyarətdə olub və Kərbəlayi adını qazanmışdır.

Bundan sonra İranın Məşhəd şəhərinin ziyarətgahında olub və "Məşhədi" şəhadətnaməsini almışdır.

2000-02 ci ilə kimi Murovdag cəbhəsində "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətini baş çavuş kimi başa vurub.

2002-ci ildən Bakı şəhərində məskunlaşıb və kiçik bizneslə məşğuldur;

4. Kərbəlayixanım Cəvahir Rüstəm qızı Şirinova (1956):



2010-cu il may ayında İraqın Kərbəla ziyarətgahında olub və Kərbəla adını daşıyır həm də, "Kərbala" şəhadətnaməsini almışdır. 2006, 2007 və 2010-cu illər İranın Məşhədi şəhərinə ziyarətə getmiş, həm də "Məşhədi" şəhadətnaməsini almışdır.

1974-cü ildə Asəf Zeynallı adına Musiqi Məktəbini bitirib. 1978-ci ildə təyinatla Horadiz kənd orta məktəbində müsuqi müəllimi 1993-cü ilə kimi işləmişdir.

Çəvahir xanımın çox gözəl klassik səsi olduğuna görə onu 2 dəfə Azərbaycan Konservatoriyasında musiqi təhsilini davam etdirməsini təkid edilib, lakin o, ailəni və məktəbi üstün tutaraq təkzib edib.

Hazırda ilahiyyətdən dərs deyir və qadınların yas mərasimlərində "Qurani-Kərimi" təbliğ edir.

O, "Qurani Kərim"-dən "Təcvid" və "Əl qiraət" elmini xanımlara öyrədir. Ən böyük arzusu "Həcc" ziyarətində olmaqdır;

5. Kərbəlayixanım Xatirə Əhliman qızı Məmmədova(1974):



2010-cu ildə İraqın Kərbəla şəhərində olmuş İmam Hüseynin və Əbülfəzl Abbasın qəbrlərini ziyarət edərək, "Kərbəla" şəhadətnaməsini alaraq Kərbəla adını qazanıb.

Bundan başqa o, Nəcəf şəhərində İmam Əlinin və Suriyada xanım Zeynabın qəbirlərini də ziyarət edib. Elə həmin il İranın Məşhəd şəhərindəki İmam Rzanın qəbrini ziyarət edib və "Məşhədi" şəhadətnaməsini alıb;

6. Kərbəlayi Fərhad Arif oğlu Hacıyev(1981):- ildə ailəsi:
7. Kərbəlayixanım Vəfa Rəhim qızı Hacıyeva (1988) və oğlu:
8. Hacıyev Əbəlfəz Fərhad oğlu(2006) ilə birlikdə 2011-ci il müsəlmanların vacib ziyarət-gahlarından olan İran İslam Respublikasının Məhşəd şəhərindəki İmam Rzanın qəbrini ziyarət edərək, "Məhşəti" şəhadətnaməsi almışlar.



Sonra İraq Respublikasının Kərbəla şəhərində İmam Hüseynin və Əbülfəzl Abbasın qəbrlərini ziyarət etmişlər və Nəcəf şəhərində isə İmam Əlinin qəbrlərini ziyarət edərək "Kərbəla" adını daşıyırlar.

Hal-hazırda Fərhad Hacıyev Bakı şəhərinin, Yasamal rayonunda bərbər sənətilə işləyib, öz xidmətini can-başla adamlara göstərir;

9. Kərbəlayi Vüsal Qəhrəman oğlu Şirinzadə (1990):



2007-ci ildə müsəlman kimi öz arzusu ilə İran İslam Respublikasının Məşhədi şəhərində olmuşdur. Bütün müsəlman qaydalarının tələbini yerinə yetirərək "Məşhədi" şəhadətnaməsini alımış və Məşədi adını qazanmışdır. Vüsal hələ uşaq yaşlarından ilahiyyətə marağı artmış və ibadət etməyi özünə borc bilmişdir..

2012-ci il öz arzusu ilə İraq Respublikasının Kərbəla şəhərində İmam Hüseynin, Əbülfəzl Abbasın və Nəcəf şəhərində isə İmam Əlinin qəbrlərini ziyarət edərək "Kərbəla" adını daşıyır.

M Ə Ş H Ə D İ L Ə R

1. Məşədi Əyyub Oruc oğlu Namazov (1929-1996):



1993-cü ildə Müstəqillik dövründə ilk İranın Məşhəd şəhərində İmam Rzanın qəbrini ziyarət edən həmkəndlimiz olmuş və "Məşhədi" şəhadətnaməsi alaraq Məşhədi adını qazanmışdır. Əyyub Namazov uzun müddət kolxozda pambıq briqadiri işləyib. 1962-64-cü illər Horadiz Pambıq zavodunda pambıq qəbul edici işləyib. Yenidən kolxoza qayıdıb üzüm briqadiri vəzifəsində calışmışdır;

\

2. Məşədi Fərman Yunis oğlu Əmirov (1936):



2006-cı ildə İran İslam Respublikasında olan Məşhədi şəhərinin ziyarətgahında olaraq, "Məşhədi" şəhadətnaməsini alaraq, Məşədi adını qazanmışdır. Fərman Əmirov həmişə öz sadəliyi və səmimiliyi ilə fərqlənmiş bir ağsaqqaldır. O, uzun müddət Horadiz kəndində yük maşını sürücüsü kimi çalışıb. Öz sadə peşəsini sevərək həmyerliləri arasında böyük hörmət sahibi olub;

3. Məşədixanım Suqra Əsəd qızı Əmirova(1940):



2006-cı ildə müsəlmanların vacib əməllərindən biri, İran İslam Respublikasının Məşhədi şəhərindəki ziyarətgahda olmaqla, "Məşhədi" şəhadətnaməsini alıb və Məşədi adını qazanmışdır. Bununla yanaşı Suqra xanım yaxşı ana və sədaqətli həyat yoldaşıdır;

4. Məşədi Fərzalı Əsəd oğlu Novruzov (1938):



2006-cı ildə İran İslam Respublikasının Məşhədi şəhərindəki müsəlmanların ən vacib ziyarətgahında İmam Rzanın qəbrini ziyarət etmiş, "Məşhədi" şəhadətnaməsini layiq görülmüşdür və Məşədi adını qazanıb. Məcburi köçkünlük həyatı sürən Fərzalı Əsəd oğlu 1993-cü ildən köçkün kimi Bakının Sabunçu rayonunda məskunlaşmışdır;

5. Məsədi İbrahim Feyruz oğlu Kərimov (1957):



2006-cı ildə İran İslam Respublikasının Məşhədi şəhərindəki müsəlmanların ən vacib ziyarətgahında İmam Rzanın qəbrini ziyarət etmiş, "Məşhədi" şəhadətnaməsini layiq görülmüşdür və Məşədi adını qazanıb.

1981-ci ildə Gəncə İnşaat Texnikumun, inşaat fakultəsini bitirib. Elə həmin il öz iş fəaliyyətini Horadiz pambıq zavodunda başlayıb 1982-83-cü illər isə Səyyar Mexanikləşdiririlmiş Dəstədə usta vəzifəsində işləyib. 1984-93-cü illər Kənd Su Tikinti idarəsində sahə rəisi işləyib. Hazırda Bakı şəhərində Mebel sexində çalışır;

7. Məşədi Məhəmməd Cabbar oğlu Fərhadov (1937):




2008-ci ildə İran İslam Respublikasındakı Məşhədi şəhərində "İmam Rza"-nın qəbrini ziyarət edərək, "Məşhədi" şəhadətnaməsini almış və Məşədi adını daşıyır.

1961-ci ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib sonra təyinatını Azərbaycan SSR-də "Kənd Təsərrüfatı Texnikası" birliyinə alır və müxtəlif vəzifələrdə çalışır. 1965-ci ildən həmin birlikdə şöbə müdiri

işləyir. 1985-ci ildən Azərbaycan Üzümçülük və Şərabçılıq Komitəsində çalışıb. Hal-hazırda Bakı şəhərində "Aqrolizinq" səhmdar cəmiyyətində işini davam etdirir;

8. Məşədi Rəşid Saleh oğlu Abdullayev (1936-2011):



2010-cu il iyunun 13-dən 21-dək İran İslam Respublikasının Məşhədi şəhərindəki İmam Rzanın ziyarətgahında olmuş, "Məşədi" şəhadətnaməsini almış və hər bir müsəlmanın arzusu olan Məşədi adını qazanmışdır.

1960-cı il Bakı şəhəri 1 saylı Texniki Peşə məktəbi bitirib, təyinatla Sumqayıtda, Sintetik Kauçuk zavodunda operator vəzifəsində işləyib. 1962-68-ci illər Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. 1964-96-cı illər "Azərelektroişıq" zavodunda usta, sex rəisi, sahə rəisi və mühəndis vəzifəsinə qədər yüksəlmişdir. O, əməkdə göstərdiyi nailiyyətlərə görə "Əmək qabaqcılı" döş nişanına, "Əmək veteranı" medalına və "Öz sənətinin mahir ustası" diplomuna layiq görülmüşdür;

9. Məşədi Vasif Məhəmmədəli oğlu Əhmədov (1980):



2010-cu ildə İran İslam Respublikasında olan Məşhədi şəhərində olmuş, İmam Rza qəbrini və başqa ziyarətgahları ziyarət etmiş, "Məşhədi" şəhadətnaməsini almışdır.

Vasif Əhmədov hal-hazırda "The-V Azerbaycan" Treninq Mərkəzi şirkətində çalışır;

10. Məşədi Məzahir İbrahim oğlu Əliyev (1981):



2011-ci ildə İran İslam Respublikasında olan Məşhədi şəhərinə gedərək, İmam Rzanın qəbrini və başqa ziyarətgahlarda olub. Bütün ziyarətgahın qanun və qaydalarına rəayət edərək, "Məşhədi" diplomunu alaraq Məşədi adını daşıyır.

Məşədi Məzahir hal-hazırda Rusiya Federasiyasının, Tümen vilayətinin, Meqion şəhərində kiçik bizneslə məşğuldur;

Allah bütün müsəlmanların "Həcc", "Kərbəla" və "Məşhəd" ziyarətinə gedənlərin niyyətini və arzusunu qəbul etsin, həm də qalan müsəlman möminlərə də qismət olsun! Amin!!

****

\

KƏNDİMİZDƏ FƏXR EDİLƏN Ə N Ə N Ə

Gözəl ənənə: ***1973-cü ildə Horadiz kənd orta məktəbinin X – sinif məzunlarının 30 il keçdikdən sonra, 2003-cü ildə birgə Bakı şəhərində,"Planet"şadlıq sarayında görüş keçirərək bir-birilə hal-əhval tutmuş, uzun sürən ayrılıqdan sonra yenidən bir araya gəlib öz dosluq ənənələrinə sadiq qaldıqlarını bir daha sübut edərək, görüş keçirmişlər..***



Şəkildə soldan ayaq üstə duranlar: - ***Həsənova Südabə, Zeynalova Bağdagül, Məhərrəmov Məhərrəm Xudaverdi oğlu, Ağayeva Elmira, Məmmədova Rahilə, Mustafayev Müzəffər, Ağayeva Svetlana, Həsənov Yaqub, Cəfərova İntizar, Xələfova Gülçöhrə, Bəylərova Həcər və Şirinova Əzət.***

Oturanlar:- ***Namazalıyev Tofiq, Məhərrəmov Məhəmməd, Mehdiyev Muxtər(müəllim), Sultanov Nobil(direktor) və Cəfərov Vəli.***

Çox qabaqlardan bunların biri-birinə qarşı mehribanlığını mən şəxsən özüm duyub hiss etmişdim. Doğrudanda bu danılmaz bir faktdır və alqışa layiqdir. Əhsən bunları doğan və böyüdən

valideynlərə ki, belə gözəl, mehriban, qayğıkeş, sözü bütöv, heç bir ayrıseçkilik etməyən, dostlara təmənnasız yardım əlini uzatmaqdan çəkinməyən, xalqını, elini-obasını, torpağını sevən övladlar böyüdüb tərbiyə etmişlər.

Bu dostları mən hər vaxt, hər məclisdə, hər tədbirdə və hər istirahətdə bir yerdə görmüşəm. Onların simasında mən insanlıq, qardaşlıq, dostluq, biri-birinə etibarlıq, inamlılıq görmüşəm.

Onlar biri-biriylə ayrılmaz tellərlə bağlıdır, belə ki, neçə dəfələrlə şənliklərdə, yas mərasimlərində və qeyri tədbirlərdə biri birinin çətin və çıxılmaz vəziyyətdə olduğunu bildikdə onlar yığışar, tədbir görərək öz dostlarını dar ayaqda dayaq durub onu bu vəziyyətdən qurtararlar. Ona görə də bu dostlara yaşamaq, ömür sürmək, mehribançılıqla dolanmaq asandır və gözəldir. Mənə belə gəlir ki, bu onlar üçün də dostlar əhatəsində olmaq, onların maddi, mənəvi köməyini dadmaq, duymaq asan və şirindir. Bu mehriban və ayrılmaz dostların biri-birinə yaxından təmənnasız kömək etdiklərinin məndə şahidiyəm, eləcə də həmyerlilərimiz özləri dəfələrlə bunların şahidi olmuşlar.



Şəkildə soldan ayaqüstə duranlar: - ***Vaqif Həsənov, Müzəffər Mustafayev, Məhəmməd Məhərrəmov, Ağalar Sultanov, Vəli Cəfərov, Tofiq Namazalıyev, Teyyub Həsənov,*** **oturanlar: -** ***Yaqub Həsənov, Ənvər Mehdiyev, Soltan İsmayılov və Mütəllim Əmirov***

Kənd camaatımız arasında bu dostluq ənənəsinə qoşulmaq, davam etdirmək, yaymaq, təbliğ etmək, genişləndirmək və yaşatmaq lazımdır. Hazırda bu dostluğa sadiq qalanlar və əməl edənlər: - Məhərrəmov Məhəmməd Əhməd oğlu, Namazalıyev Tofiq Vəli oğlu, Cəfərov Vəli Cəfər oğlu, Yadigarov Səfər Əyyub oğlu, Mustafayev Müzəffər Əjdər oğlu, Həsənov Teyyub Mikayıl oğlu, Həsənov Vaqif İslam oğlu, Əmirov Mütəllim İbiş oğlu və Sultanov Ağalar Həmid oğludur – bax bunlar bizim fəxrimiz, birgə mükəmməl və sarsılmaz dostluğun təməl daşını qoyan ilk qaranquşlarımızdır!

Ulularımız demişlər:

1. Əsl dost o şəxsdir ki, dostunun istəyini öz arzusundan üstün tutsun, onun şad gününə sevinsin, qəminə şərik olsun!

2. Kim özünə özü qədər inana biləcək bir dost tapa bilərsə, o, özünü dünyanın bütün xəzinələrinin sahibi hesab edə bilər!

Məhəmməd Məhərrəmov*: öz dostları adından belə bir təşəbbüs irəli sürüb deyir: "Kənd adamları hüzr düşdükdə mərasimlərin keçirilməsidə çox çətinliklərlə qarşılaşırlar. Ona görə biz istərdik ki, Bakı şəhərində Horadiz kəndinin camaatına mərasimlərin keçirilməsi və ora gediş gəlişi asanlaşdırmaq üçün torpaqlarımız azad olana qədər bir yerdə hamının köməkliyi ilə "xeyir-şər" yeri tikilməsinə çalışaq. Respulikanın və Bakı şəhərinin müxtəlif rayonlarında, məcburi köçkün kimi məskunlaşmış kənd sakinləri,"xeyr-şər"mərasimlərini orada keçirə bilsinlər.*

Horadizi yenidən görmək arzusunda olanlar bizim səsimizə səs versinlər ki, bu arzumuzu həyata keçirək. Amin! "

HORADİZDƏ İŞĞAL ALTINDA QALMIŞ YAŞAYIŞ EVLƏRİ (*3 sentyabr 1993-cü ildən)*

QOZLU ÇAYDAN ŞƏRQƏ TƏRƏF OLAN EVLƏR

RZALILAR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Heydərov Abbas Muxtar oğlu,
2. Mustafayev Əjdər Novruz oğlu,
3. İsmayilov Yusif Mürsəl oğlu,
4. İsmayılov Əsgər Qurban oğlu,
5. Qurbanov Bahadur Qurban oğlu,
6. Quluyev Nadir Qurban oğlu,
7. Abışov Yunis Məhəmməd oğlu,
8. Kərimov Bəhram Kərim oğlu,
9. Abışov Tofiq Məhəmməd oğlu,
10. İsmayılov Əmir Musa oğlu,
11. İsmayılov Mahmud İsmayıl oğlu,
12. İsmayılov İsa Musa oğlu,
13. İsmayılov Qabil İsa oğlu,
14. İsmayılov Bəhram Qulu oğlu,
15. İsmayılov Eldar Qulu oğlu,
16. İsmayılov Elman Qulu oğlu,
17. İsmayılov Amil Əyyub oğlu,
18. İsmayılov Əliş Qəmbər oğlu,
19. İsmayılov Vəli Qəmbər oğlu,
20. İsmayılov Əsgər Ədil oğlu,
21. İsmayılov Musa Oruc oğli,
22. İsmayılov Famil Musa oğlu,
23. İsmayılov Malik Ağamalı oğlu,
24. İsmayılov Ağamalı Ağa oğlu,

25. İsmayılov Əyyub Şükür oğlu,
26. İsmayılov Rəşid Həşim oğlu,
27. İsmayılov Gülağa Rəşid oğlu,
28. İsmayılov Qənimət Rəşid oğlu,
29. İsmayılov Şəfahət Rəşid oğlu,
30. Abbasov Muxtar Həsən oğlu,
31. Rzayev Abı Abbas oğlu,
32. Rzayev Abbas Abı oğlu,
33. Rzayev Hümbət Abı oğlu,
34. İsmayilov Qəmbər Rza oğlu,
35. İsmayılov Məhəmməd Qəmbər oğlu,
36. İsmayılov Vahid Qəmbər oğlu,
37. Əliyev Kalbalı Mirzalı oğlu,
38. Əliyev Surxay Mirzalı oğlu,
39. Əliyev Ibrahim Kalbalı oğlu,
40. Əliyev Akif Surxay oğlu,
41. Sultanov Əbil Süleyman oğlu,
42. İsmayılov Temir Əvəz oğlu,
43. İsmayılov Bayram Temir oğlu,
44. Bəylərov Şərif Səxavət oğlu,
45. Əliyev Əkbər.
46. Quluyev Seymur Telman oğlu,

CALAL DƏRƏSI MƏHƏLLƏSİ

ev sahibləri:

1. Namazalıyev Əsgər Vəli oğlu,
2. Namazalıyev Qafqaz Mirzalı oğlu,
3. Həsənov Yusan Talıb oğlu,
4. İbrahimov Hilal Əbülfət oğlu,
5. İsmayılov Heydər Səttar oğlu,
6. Namazov Əyyub Oruc oğlu,
7. Yadigarov Namaz Əyyub oğlu,
8. Yadigarov Qəmbər Əyyub oğlu,
9. Həsənov Şamxal Yaqub oğlu,
10. Behbudov Cahangir Həsənqulu oğlu,

11. İbrahimova Solmaz Cabbar qızı
12. Behbudova Sərvinaz,
13. Sultanov Abış Məmməd oğlu,
14. Bayramov İskəndər Xudaverdi oğlu,
15. Əhmədov Həmzə Cəfər oğlu,
16. Əhmədov Eldar Calal oğlu,
17. Yadigarov İskəndər Qurban oğlu.

NAMAZALILAR MƏHƏLLƏSİ
ev sahibləri:

1. Namazalıyev Kərəm Mehralı oğlu,
2. Namazalıyev Hüseyn Mehralı oğlu,
3. Məhərrəmov Rüstəm Mösü oğlu,
4. Mehdiyev Bəhlul Cəlil oğlu,
5. Mehdiyev Həmid Cəlil oğlu,
6. Sultanov Məmməd Abış oğlu,
7. Qasimov Cəfər Qasım oğlu,
8. Namazalıyev Hüseyn İbad oğlu,
9. Namazalıyev Əvəz Vəli oğlu,
10. Kərimov Fazil Kərim oğlu,
11. Namazalıyev Famil Ağamalı oğlu,
12. Namazalıyev Mirzalı Ağamalı oğlu,
13. Mehdiyev Əkrəm Cəlil oğlu,
14. Cəfərov Bəhruz Cəfər oğlu,
15. Sultanov Savalan Bəşir oğlu,
16. Şirinov Əhliman(Əşrəf) Bəşir oğlu,
17. Əliyev Fərzalı Səfəralı oğlu,
19. Əliyev Zərbalı Səfəralı oğlu,
20. Əliyev Tahir Fərzalı oğlu,
21. Namazalıyeva Məhliqa Səfəralı qızı,
22. Namazalıyev Rafiq Bayramalı oğlu,
23 Yusifov Lətif Rəvan oğlu,
24. Hüseynov Hüseyn Nəriman oğlu,
25. Əzizov Əliş Şirin oğlu,

26. Əzizov Əyyub Şirin oğlu,
27. Hüseynov Hüseyn Bayram oğlu,
28. Hüseynov Bayram Hüseyn oğlu,
29. Namazəliyeva Pəri Mirzalı qızı,
30. Namazalıyev Əli İskəndər oğlu,
31. Namazalıyev Həsən Namaz oğlu,
32. Namazalıyev Arif Ağamalı oğlu,
33. Həsənov Teyyub Əyyub oğlu,
34. Həsənov Talıb İmran oğlu,
35. İmanova Sovet Səttar qızı,
36. Sultanov Xeybər Əli oğlu,
37. Sultanov Bəhlul Oruc oğlu,
38. Sultanov Cəmil Oruc oğlu

(Namazalılar tirəsi):

39. Namazalıyev Əmir Ağamalı oğlu.

(Qönçə dərəsi üzrə):

40. Həsənov Şahmar Yaqub oğlu,
41. İsmayılov Hümbət Məhər oğlu,
42. İsmayilov Əli Oruc oğlu,
43. Həsənov Mürsəl,
44 İmanov Fətalı Səttar oğlu,
45. Namazalıyev Möhsün Mehralı oğlu,
46. Namazalıyev Mənsim Mehralı oğlu,
47. Namazalıyev Aydın Mehralı oğlu,
48. Namazalıyev Şəmil İskəndər oğlu,
49. İsmayılov Zakir Fərhad oğlu,
50. İsmayılov Anar Yusan oğlu,
51. İsmayılov Əli Əsəd oğlu,
52. Şirinov Mürsəl Temir oğlu,
53. Fərzəliyev Fazil Mirzalı oğlu,
54. Mahmudov Hüseyn Savlan oğlu.
55. İsmayılov Şəmil Musa oğlu

KƏRBALA İSMAYILLILAR MƏHƏLLƏSİ

ev sahibləri:

1. İsmayılov Əli Əsəd oğlu,
2. İsmayilov Yusan Əsəd oğlu,
3. İsmayılov Rəşid Oruc oğlu,
4. İsmayılov Tapdıq Oruc oğlu,
5. İsmayılov Ramiz Calal oğlu,
6. İsmayilov Heydər Səttar oğlu,
7. İsmayılov Surxay Mirzalı oğlu,
8. İsmayılov Lətif Fərhad oğlu,
9. İsmayılov Şükür Fərhad oğlu,
10. İsmayılov Mosan Qurban oğlu,
11. İsmayılov Məmməd Abbas oğlu,
12. İsmayılov Vəli Məhər oğlu,
13. İsmayılov Həsən Vəli oğlu,
14. İsmayılov Aydın Həsən oğlu.

FƏRZALI UŞAĞI MƏHƏLLƏSİ

ev sahibləri:

1. Şirinov Ağalar Fərzalı oğlu,
2. Şirinov Bəhlul Ağalar oğlu,
3. Şirinov Qəhrəman Ağalar oğlu,
4. Şirinova Solmaz Ağalar qızı,
5. Şirinov Fazil Fətalı oğlu,
6. Şirinov Səfər Mənsim oğlu,
7. Şirinov İsmayıl Alı oğlu,
8. Şirinov Mikayıl Alı oğlu,
9. Şirinov Pənah Həsən oğlu,
10. Şirinov Ağamalı Həsən oğlu,
11. Şirinov Eynullah Ağamalı oğlu,
12. Şirinov Mirzalı Həsən oğlu,
13. Şirinov Zəhra Alı qızı.

ZAQUN DƏRƏSİ MƏHƏLLƏSİ

ev sahibləri:

1. İbişov Eyvaz Xanlar oğlu,
2. İbişov Elyas Xanlar oğlu,
3. Mehdiyev Şəmil Salman oğlu,
4. Mehdiyev Bəhmən Cəlil oğlu,
5. Mehdiyev Vəli Əliş oğlu,
6. Mehdiyev Ənvər Yaqub oğlu,
7. Mehdiyev Füzuli Cəmil oğlu,
8. Mehdiyev Xəlil Oruc oğlu,
9. Allacov Səməd Hüseynqulu oğlu,
10. Allacova Şəkər Qəmbər qızı,
11. Mehdiyev Eldar Nəriş oğlu,
12. Mehdiyev Nuruş İsmayıl oğlu,
13. Cəfərov Qulu Cəfər oğlu,
14. Səfiyev Zahid Məhəmməd oğlu,
15. Rəhimov Cəmil Hümbət oğlu,
16. Rəhimov Xanış Hümbət oğlu,
17. Rəhimov Kamal Behbud oğlu,
18. Mikayılov Mikayıl Həsən oğlu,
19. Əliyev Əhməd Fərrux oğlu,
20. Həziyeva Mahirə Hüseyin(Hüsən)qızı,
21. İsmayiılov Yağnalı Bayram oğlu,
22. İsmayılov Xanalı Bayram oğlu,
23. Həsənov Əfsər Yavər oğlu,
24. Cəfərov Səfəralı Cəfər oğlu,
25. Səfiyev Səməd Süleyman oğlu,
26. İsmayılov Alı Əli oğlu,
27. Əliyev Məhərrəm Kamran oğlu,
28. İsmayılov İbiş Abdürrəhim oğlu,
29. Əliyev Barat Kamran oğlu,
30. İsmayılov Bayram Xanalı oğlu,
31. Mehdiyev Cəmil Salman oğlu,
32. Mediyev Əli Nəriş oğlu,

33. Əliyev Rəşid Əli oğlu,
34. İsmayılov Nəbi Yağnalı oğlu,
35. Zeynalov Telman Abdulhüseyn oğlu,
36. Sultanov Ağalar Həmid oğlu,
37. Əliyev Abdulla,
38. Əliyev Arif Əli oğlu.
39. İsmayılova Bahar Murtuza qızı

GÜNEY KƏND MƏHƏLLƏSİ

ev sahibləri:

1. Əliyev Möhübbət Həsən oğlu,
2. Əliyev Əhəd Həsən oğlu,
3. Əliyev Əfət Həsən oğlu,
4. İbişov Əkbər İbrahim oğlu,
5. İbişov İbrahim Əsgər oğlu,
6. Səfiyev Süleyman Süleyman oğlu,
7. Eyvazov Eyvaz Şahbaz oğlu,
8. Eyvazov Fərman Şahbaz oğlu,
9. Eyvazov Nəriman Şahbaz oğlu,
10. Bəylərova Sitarə Qəhrəman qızı,
11. Bəylərov Nəcəf Abbasqulu oğlu,
12. Bəylərov Əli Hüseyn oğlu,
13. Rzayev Vəli Əli oğlu,
14. Rzayev Heydər Əli oğlu,
15. Abdinov Əsgər Oruc oğlu,
16. Abdinov Ramiz Oruc oğlu,
17. Şükürov Mehralı Behbudalı oğlu,
18. Şükürov Yusif Behbudalı oğlu,
19. Sultanov Həmid Ağalar oğlu,
20. Sultanov Muxtar Məmməd oğlu,
21. Sultanov Mobil Muxtar oğlu,
22. Sultanov Ədil Muxtar oğlu,
23. Sultanov Əvdil Muxtar oğlu,
24. Sultanov Temir Adışirin oğlu,

25. Sultanov Əfsər Qəmbər oğlu,
26. Hacıyev Məhərrəm Səfqulu oğlu,
27. Abbasov Abbas Muradxan oğlu,
28. Nəcəfov Cəmil Əsəd oğlu,
29. Nəcəfov Famil Əsəd oğlu,
30. Vəliyev Əhməd Abış oğlu,
31. Vəliyev Vəli Məmi oğlu,
32. Vəliyev Garay Məmi oğlu,
33. Səfiyev Vahid Məhəmməd oğlu,
34. Bəylərov Qərib Abbasqulu oğlu,
35. Əhmədov Robert Mirzalı oğlu,
36. Cəfərov Məhəmməd Xanlar oğlu,
37. Həsənöv Teyyub Mikayıl oğlu,
38. Həsənov Məmməd Nəcəfqulu oğlu,
39. Cəfərov Əhməd Seyid Həsən oğlu.

ŞAHVERƏNLƏR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Allacov Akif Allahverən oğlu,
2. Hüseynov Vaqif Hüseyn oğlu,
3. Yusifov Tofiq Cabbar oğlu,
4. Əliyev Vəli Əliş oğlu,
5. Əhmədov Əhməd Mürsəl oğlu,
6. Hüseynov Həsənçə Hüseyn oğlu,
7. Hüseynov Hüsən İsmayıl oğlu,
8. Vəliyev Əli Məmi oğlu,
9. Əmirov Müslüm Yunis oğlu,
10. Əmirov Tehran Fehruz oğlu,
11. Əmirov Mübariz Salman oğlu,
12. Novruzov Nobat Əhəd qızı,
13. Qurbanov Cavanşir Sərdar oğlu,
14. İbişov Əhəd Əbil oğlu.

ƏMİRQULULAR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Əmirov Fərman Yunis oğlu,
2. Əmirov Məzahir Süleyman oğlu,
3. Əmirov Cəbrayıl Süleyman oğlu,
4. Əmirov Veysəl Süleyman oğlu,
5. Əmirov Əfsər Süleyman oğlu,
6. Əmirov Vəli Səttar oğlu,
7. Əmirov Səttar Vəli oğlu,
8. Əmirov Əli Vəli oğlu,
9. Əmirov Əvəz Surxay oğlu,
10. Əmirov Soltan Surxay oğlu,
11. Əmirov Pənah Əvəz oğlu,
12. Cəfərov Əhməd Xanlar oğlu,
13. Əmirov Fehruz Yunis oğlu,
14. Əmirov Salman Yunis oğlu,
15. Vəliyev Hüseyn Zülfüqar oğlu,

ARALIQ YOLU MƏHƏLLƏSİ

ev sahibləri:

1. Bəylərov Qərib Abbasqulu oğlu,
2. İmanov Bahadur Hümbət oğlu,
3. Məmmədov Eyvaz İlyas oğlu,
4. İmanova Miniş Hümbət qızı,
5. Məhərrəmov Əhəd Mösü oğlu,
6. Allacov Sabir Əbilhəsən oğlu,
7. Hüseynov Məmməd Hüseyn oğlu,
8. Quluyev Əbil Ağamalı oğlu,
9. Quluyev Adil Ağamalı oğlu,
10. QuluyevAbbas Calal oğlu,
11. Novruzov Məhərrəm Alı oğlu,
12. Rüstəmov Əvəz Humay oğlu,

13. Rüstəmov Şəfa Əvəz oğlu,
14. Rüstəmov Şalman Əvəz oğlu.
15. İmanov Şükür Cabbar oğlu,
16. Əliyev Cabbar Mehdi oğlu,
17. Quluyeva Zəhra Mirzalı qızı,
16. İmanov Rafiq Fərhad oğlu,
17. Məhərrəmov Əhməd Məmməd oğlu,
18. Məhərrəmov Turab Oruc oğlu,
19. Məhərrəmov Qardaşxan Oruc oğlu,
20. İbişov Tofiq Əbil oğlu,
21. Quluyev Allahverən Tarış oğlu,
22. Əliyev Mirzalı Fətalı oğlu,
23. İmanov Şirin Eyvaz oğlu,
24. Şükürov Aqil Abdulla oğlu,
25. Mehdiyev Həsən Səttar oğlu,
28. İbişov Əşrəf Əşir oğlu;

GÜNEY MƏSCİD ALTI
ev sahibləri:

1. İbişov Ədil Süleyman oğlu,
2. İmanov Fərhad Eyvaz oğlu,
3. İmanov Heydar Eyvaz oğlu,
4. İmanov Rafiq Fərhad oğlu,
5. İmanov Şirin Eyvaz oğlu,
6. Kazımov Səttar Qasım oğlu,
7. İsmayılov Salman Nəcəf oğlu,
8. Məmmədov Ənvər Alı oğlu,
9. Əliyev Sarxan Məmmədqulu oğlu,
10. Məmişov Alış Hümbət oğlu,
11. Qurbanov Nəcəf Bəhram oğlu,
12. Qurbanov Qurban Nəcəf oğlu;

SAQQIZLI MƏHƏLLƏSI

HACI NOVRUZ DƏRƏSI

ev sahibləri:

1. İbişov Əbilhəsən Abdulla oğlu,
2. Vəliyev Məhiş Bayram oğlu,
3. Novruzov Alı Məhərrəm oğlu,
4. Ağayev Səməd Muxtar oğlu,
5. Əmirov Bəhmən Yunis oğlu,
6. Məhərrəmov Oruc Zaman oğlu,
7. Məhərrəmov Zaman Oruc oğlu,
8. Cəfərov Məhərrəm Surxay oğlu,
9. Zeynalov Abdulhüseyn,
10. Cəfərov Arif Xanlar oğlu,
11. Cəfərov Qulu Məhəmməd oğlu,
12. Zeynalov Salman Abdulhüseyn oğlu,
13. Əmirov Rasim Salman oğlu,
14. Mehdiyev Vəli Nəriş oğlu,
15. Mehdiyev Rafiq Əvəz oğlu,
16. Mehdiyev Muxtar Əvəz oğlu,
17. Mehdiyev Hüseyn Səttar oğlu,
18. Şükürov Əli Abdulla oğlu,
19. Novruzov İslam Məhərrəm oğlu,
20. Kazımov Məmmədqulu Qasım oğlu,
21. Məmmədov Mamed Nəcəf oğlu,
22. Kazımov Cəmil Məmmədqulu oğlu,
23. Mehdiyev Heydər Nəriş oğlu.

HACI RÜSTƏM DƏRƏSİ

ev sahibləri:

24. Quluyev Hümbət Oruc oğlu,
25. Orucov Nəriman Oruc oğlu,
26. Hüseynov Rəhman Hüseyn oğlu,
27. Hüseynov İmran Hüseyn oğlu,

28. Heydərov İskəndər Səttar oğlu,
29. Yadigarov Əliş Oruc oğlu,
30. Yadigarov Hüseynqulu İmran oğlu,
31. İbişov Səttar Muxtar oğlu,
32. Orucov Həsrət Hümbət oğlu,
33. Nuruyev Şükür Xudu oğlu,
34. Fərzəliyev Süleyman Səfqulu oğlu,
35. Rüstəmov Əbil Fətalı oğlu,
36. Məmmədov Bəylər Məmməd oğlu,
37. Məmişov Hümbət Mikayıl oğlu,
38. Quluyev Haqverdi Mehdiqulu oğlu,
39. Quluyev Əmir Qulu oğlu,
40. İbişov Nadir Əbil oğlu,
41. Quluyev Mətləb Həbib oğlu,
42. Məhərrəmov Mirzalı Qulu oğlu,
43. Orucov Rafiq Hümbət oğlu,
44. Orucov Əhməd Nəriman oğlu,
45. Əliyev Yaqub Yusif oğlu,
46. Məhərrəmov Mösü Kərim oğlu,
47. Nağıyev Ərşad Murtuza oğlu,
48. Hacıyev Yaqub Səfqulu oğlu,
49. Quluyev Cəlil Atakişi oğlu,
50. Quluyev Məhi Atakişi oğlu,
51. Quluyev Xəlil Cəlilı oğlu,
52. Abbasov Əli Hüseyn oğlu,
53. Ağayev İntiqam Əhəd oğlu,
54. İsmayılov Nəcəf Salman oğlu,
55. Mehdiyev Aydın Bəhlul oğlu,
56. Allacov Qabil Səməd oğlu,
57. İbişov Soltan Muxtar oğlu,
58. İbişov İbiş Muxtar oğlu,
59. Talıbov İbrahim İsmayıl oğlu,
60. Qurbanov Qurban Əsgər oğlu,
61. Yadigarov Soltan Hüseynqulu oğlu,
62. Rəhimov Rəhim Famil oğlu,

63. Cəfərov Şakir Səfəralı oğlu,
64. Əmirov Vaqif İslam oğlu,
65. Quluyev Qəhrəman Şəmil oğlu.

GÜNEY KƏHRİZ ƏTRAFI

ev sahibləri:

66. Quluyev Allahverdi Mehdiqulu oğlu,
67. Məmişov Mikayıl Hümbət oğlu,
68. Yadigarov Temir Qurban oğlu,
69. İbişova Şövkət Şıx Həsən qızı,
70. Qurbanov Abdulla Süleyman oğlu,
71. Qurbanov Yusif Hüseyn oğlu,
72. Yadigarov Fərman Qurban oğlu,
73. İbişov Tofiq Əbil oğlu,
74. Nağıyev Qəmbər Murtuza oğlu,
75. Ağayev Əbil Muxtar oğlu,
76. Yadigarov Həsən Vəli oğlu,
77. Məmmədov Hümbət Məmməd oğlu,
78. Ağayev Bayramalı Cəfərqulu oğlu,
79. Vəliyev Əhliman Bəhrəm oğlu,
80. Nağıyev Zülfüqar Namazalı oğlu,
81. Nağıyeva Nöyrəstə Cabbar qızı,
82. Orucov Əyyub Oruc oğlu,
83. Quluyev Vəzir Qulu oğlu,
84. Fərzəliyev Mirzalı Nəbi oğlu,
85. Ağayev Yunis Muxtar oğlu,
86. İbişov Yavər Abdulla oğlu,
87. İbişov Qəfər Muxtar oğlu,
88. Hüseynov Çərkəz Hüseyn oğlu,
89. Hüseynov Fərman Həsən oğlu,
90. Talıbov İsmayıl Salman oğlu,
91. Talıbov Hüseyn Salman oğlu,
92. Abdinov Allahyar Ədil oğlu,
93. İbişov Bayram İbiş oğlu,
94. Fatimə Hüsü qızı,

95. Məmişov Mikayıl İsmayıl oğlu,
96. Ağayev Əhəd Muxtar oğlu,
97. Qurbanov Əsgər Qurban oğlu,
98. Əliyev Şəmil Nəsib oğlu,
99. Əmirov İslam Murtuza oğlu,
100. Əmirov Cəmil Murtuza oğlu,
101. Fərzəliyev Cəlil Ədil oğlu,
102. Fərzəliyev Həsən Nəbi oğlu,
103. Fərzəliyev Möhsün Nəbi oğlu,
104. İbişov Müslüm Əbil oğlu,
105. Quluyev Cəmil Əmir oğlu,
106. Quluyev Şəmil Əmir oğlu,
107. Quluyev Əliş Temir oğlu,
108. Quluyev Sadıx Temir oğlu,
119. Quluyev İsmayıl Temir oğlu,
120. Yadigarov Ədəhim Fərman oğlu.

***

QOZLU ÇAYDAN QƏRBƏ TƏRƏF OLAN EVLƏR

TƏPƏ KƏHRİZ MƏHƏLLƏSİ

ev sahibləri:

1. Mehdiyev Qulam Qəmbər oğlu,
2. Mehdiyev Şakir Ağamalı oğlu,
3. Mehdiyev Səttar Yusif oğlu,
4. Əhmədova Hamayil Behbud qızı,
5. Mehdiyev Ənvər Yaqub oğlu,
6. İsmayilov Müseyib Müseyib oğlu,
7. Hüseynov Həsən Əhməd oğlu,
8. Hüseynov Qərib Həsən oğlu,
9. Quluyev Xanlar Qəmbər oğlu,
10. Quluyev Bəylər Xanlar oğlu,
11. Quluyev Ərşad Əşir oğlu,

12. Quluyev Aqil Əşir oğlu,
13. Allacov Vəliş Hüseynqulu oğlu,
14. Rüstəmov Paşa Əvəz oğlu.

AĞALILAR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Mahmudov Əmirxan Ələkbər oğlu,
2. Mahmudov Eyvaz Ələkbər oğlu,
3. Mahmudova Göyçək Ələkbər qızı,
4. Ağayev Əli Məhəmməd oğlu,
5. Ağayev Vəli Məhəmməd oğlu,
6. Ağayev Hərif Məhəmməd oğlu,
7. Həsənov Şükür Bəşir oğlu,
8. Həsənov Afəs Bəşir oğlu,
9. Ağayev Muradxan Şirin oğlu,
10. Ağayev Elxan Muradxan oğlu,
11. Ağayev Cümşüd Misir oğlu,
12. Ağayev Bəhram Misir oğlu,
13. Ağayev Tərxan Cümşüd oğlu,
14. Ağayev Asif Cümşüd oğlu,
15. Ağayeva Təzəgül Şirin qızı,
16. Novruzov Hüseyn Muxtar oğlu,
17. Ağayev Şirin Muradxan oğlu,
18. Mahmudov Mahmud Əmirxan oğlu,

KAZIMLILAR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Mehdiyev Calal Qasım oğlu,
2. Mehdiyev Əsgər Qasım oğlu,
3. Kazımov Həbib Əyyub oğlu,
4. Kazımov Məhərrəm Əyyub oğlu,
5. Şirinov Nəbi Fərzalı oğlu,
6. Mehdiyev Əvdil Yusif oğlu,
7. Mehdiyev Əkbər Qasım oğlu,
8. Mehdiyev Malik Əkbər oğlu,

9. Mehdiyev Tahir Əkbər oğlu;

ABIŞDI BAĞININ YANI
ev sahibləri:

1. Nəcəfov Fazil Famil oğlu,
2. İsmayılov Əliağa Rəşid oğlu,
3. İsmayılov Ramil Əyyub oğlu,
4. Rüstəmov Tofiq Rəhim oğlu,
5. Sultanov Qurban İsa oğlu,
6. Mehdiyev Qasım Calal oğli,
7. Mehdiyev Nazim Əsgər oğlu,
8. Vəliyev Müseyib Bayrış oğlu,
9. Orucov Qurban Vəli oğlu,
10. Xələfov İmran Əliabbas oğlu,
11. Cəfərov Əli Məhəmməd oğlu,
12. Yusifov Akif Rəvan oğlu.

QARAĞAN TƏPƏ MƏHƏLLƏSİ
ev sahibləri:

1. Rəhimova Gülarə Hümbət qızı,,
2. Quluyev Mirzalı Seyidalı oğlu,
3. Quluyev Fətalı Mirzalı oğlu,
4. Quluyev Seyidalı Mirzalı oğlu,
5. Quluyev Cəmil Qulu oğlu,
6. Quluyev Şəmil Qulu oğlu,
7. Nəcəfova Firəngül Cəmil qızı,,
8. Hüseynova Nənəş Bəhram qızı,
9. Abdullayev Əli Saleh oğlu,
10. Quluyev Famil Cəmil oğlu,
11. Novruzov Fərman Əhəd oğlu,
12. Abdinov Camal Yavər oğlu,
13. Orucov Vəli Vəli oğlu,
14. Orucov Oruc Vəli oğlu,
15. Novruzov Məhərrəm Allahverdi oğlu,
16. Novruzov Allahverdi Məhərrəm oğlu,

17. Novruzov Həsən Muxtar oğlu.

FƏRƏCANLI DƏRƏ MƏHƏLLƏSİ

ev sahibləri:

1. Məmmədov Mətləb Abbas oğlu,
2. Babayev İsmayıl Mikayıl oğlu,
3. Məhərrəmov Xuduş Nüsrəddin oğlu,
4. Novruzov Əli Mirzalı oğlu,
5. Məhərrəmov Loğman Firəddin oğlu,
6. Novruzov Mirzalı Əsəd oğlu,
7. Novruzov Fərzalı Əsəd oğlu,
8. Əmirov Namiq Fərman oğlu,
9. Məmmədov Aydın Surya oğlu,
10. Məmmədov Əli Əhməd oğlu,
11. İmanov Tapdıq Hüsən oğlu,
12. İmanov Asif Tapdıq oğlu
13. Rüstəmov Kərim Rəsul oğlu,
14. Məmmədov Yadigar Bayram oğlu,
15. Ağayev Rəşid Misir oğlu,
16. Sultanov Malik Muxtar oğlu,
17. Məmmədov Həsən Allahverən oğlu,
18. Məhərrəmov Fazil Hümbət oğlu,
19. Məmmədov Yusif Allahverən oğlu.

ORTA KƏND MƏHƏLLƏSİ

ev sahibləri:

1. Novruzov Əbülfət Əsəd oğlu,
2. Novruzov Aqil Muxtar oğlu,
3. Ağayev Calal Cəlil oğlu,
4. Quluyev Sabir Abbas oğlu,
5. Həziyeva Xanım Hüsən qızı,
6. Nəcəfov Kamal Əsəd oğlu,
7. Sultanov Rüstəm Məmiş oğlu,
8. Sultanov Sahib Məmiş oğlu,
9. Sultanov Vaqif Məmiş oğlu,

10. İbrahimov Əli Cabbar oğlu,
11. İbrahimov Vəli Cabbar oğlu,
12. Fərhadova Suruş Cabbar qızı,
13. Sultanov Həbib Ağalar oğlu,
14. Abdullayev Murtuza Cabbar oğlu,
15. Qasımov Suliddin Abdulkərim oğlu,
16. Əzizov Əziz Bəhram oğlu,
17. Əzizova Günəş Həsənqulu qızı,
18. Xələfov Faiq Əhməd oğlu,
19. Novruzova Adilə Əsəd qızı,
20. Cəfərov Həsən Cəfər oğlu,
21. Cəfərov Tariyel Həsən oğlu,
22. Cəfərov Əmir Həsən oğlu,
23. Novruzov Bayram Şəmil oğlu,
24. İbişov Cümşüd Mehralı oğlu,
25. Həsənov Abbac Mürsəl oğlu,
26. Məmmədov Həsən Möhsün oğlu,
27. Məmmədov İlham Həsən oğlu,
28. Məhərrəmov Fidayəddin Nüsrəddin oğlu,
29. Məhərrəmov Firəddin Nüsrəddin oğlu,
30. Məmmədov Ayıldız Ağalar qızı,
31. Kərimov İskəndər Garay oğlu.

NƏCƏFLİLƏR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Məmmədov Cavanşir Calal oğlu,
2. Məmmədov Oqtay Təbriz oğlu,
3. Məmmədov Vidadi Təbriz oğlu,
4. Məmmədov Cahangir İldırım oğlu,
5. Məmmədov Sərdar Ağalar oğlu,
6. Məmmədov Fərman Şurya oğlu,
7. Məmmədov Telman İdris oğlu,
8. Məmmədov İmran Talıb oğlu,
9. Məmmədov Əhməd Kamran oğlu,
10. Hüseynov Xanlar İsa oğlu,

11. Məmmədov Ramazan İldırım oğlu,
12. Hüseynov Hüseyn İsa oğlu,
13. Məmmədov Heydər Şurya oğlu,
14. Məmmədov Məhərrəm Yusif oğlu,
15. Məmmədov Tarıverdi Yusif oğlu,
16. Məmmədov Allahverən Yusif oğlu,
17. Mamedov Nəcəf Temir oğlu,
18. Məmmədov Temir Rza oğlu,
19. Məhərrəmov Vaqif Əhməd oğlu,
20. Məhərrəmov Əvəz Məhərrəm oğlu
21. Məhərrəmov Cavad Talıb oğlu
22. Mehdiyeva Sürəyya Bayramalı qızı,
23. Abdullayev Zakir Məhəmməd oğlu,
24. Cəfərov Calal Hüsü oğlu,

DULLAR MƏHƏLLƏSİ

ev sahibləri:

1. Cəfərov Akif Cəlil oğlu,
2. Cəfərov Əliş Tehran oğlu,
3. Novruzov Nadir Bayramalı oğlu,
4. Quluyev Allahverdi Mösü oğlu,
5. Cəfərov Məhəmməd Həmid oğlu,
6. Şükürov Abbasqulu Xudu oğlu,
7. Novruzov Məmməd Bayramalı oğlu,
8. Sultanov İzzət Oruc oğlu,
9. Sultanov Ənvər Oruc oğlu,
10. Bağırov Əli Məhəmməd oğlu,
11. Hüseynova Fatma,
12. İmanov Səttar Fətalı oğlu,
13. İmanov Vəli Səttar oğlu,
14. Mehdiyev Qulu Nəriş oğlu,
15. Məhərrəmov Cabbar Səttar oğlu,
16. Rüstəmov Rüstəm Aslan oğlu,
17. Rüstəmov Musa Aslan oğlu,
18. Sultanov Mehralı Səfəralı oğlu,

19. Sultanov İsa Qurban oğlu,
20. Qurbanov Sərdər Abbas oğlu,
21. Qurbanov Cahangir Sərdar oğlu;

QURDLU BULAQ MƏHƏLLƏSİ

ev sahibləri:

1. Cəfərov Hüseyn Yaqub oğlu,
2. Cəfərov Tariyel Yaqub oğlu,
3. Abışov Abış Xasay oğlu,
4. İsmayilov Qəşəm Abdürrəhim oğlu,
5. Məhərrəmov Əhməd Nüsrəddin oğlu,
6. Məhərrəmov İsmayıl Əhməd oğlu.
7. Mamedov Abbas İslam oğlu,
8. Hacıyev Həsənqulu Surxay oğlu,
9. Abışov Rauf Xasay oğlu,
10. Abdullayev Məhəmməd Əsəd oğlu,
11. Məhərrəmov İdris Nüsrəddin oğlu,
12. Məmmədov Təbriz Abdulla oğlu,
13. Quluyev Əbülfət Rəsul oğlu,
14. Hüseynov Hüseyn Alı oğlu,
15. Hacıyeva Bılış (Hacı arvadı),
16. Hacıyev Musa Hacı oğlu,
17. Hacıyev Məmməd Hacı oğlu,
18. Hacıyev Amil Məmməd oğlu,
19. Hacıyev Füzuli Musa oğlu
20. Allahverdiyev Əbülfət Rəsul oğlu;
21. Məhərrəmov Səttar Xalyəddin oğlu,
22. Məhərrəmov Teyyub Xalyəddin oğlu,

MƏKTƏBYANI MƏHƏLLƏ

ev sahişləri:

1. Rüstəmov Famil Rəhim oğlu,
2. Rüstəmov Tofiq Rəhim oğlu,
3. Məhərrəmov Hümbət Nüsrəddin oğlu,
4. Məmmədov Calal Talıb oğlu,

5. Hacıyev Lətif Əbil oğlu,
6. Hacıyev Sədi Surxay oğlu.
7. Məmmədov Salman Şurya oğlu
8. Məhərrəmov Calal Talıb oğlu
9. Məmmədova Xanım Hilal qızı

MOLLA YERİ MƏHƏLLƏSİ

ev sahibləri:

1. Hacıyev Sovet Hacı oğlu,
2. Ələkbərov Ədil Əbil oğlu,
3. Ələkbərov Əvdil Əbil oğlu,
4. Orucov Əmir Aslan oğlu,
5. Quluyev Sahib Mösü oğlu,
6. Bəylərov Bayram Müseyib oğlu,
7. Həsənov Zöhrab Mikayıl oğlu,
8. Mamedov Azad Fərman oğlu,
9. Mamedov Tiflis Təbriz oğlu,
10. İsmayılov Nəbi Yağnalı oğlu,
11. Abışov Rafiq Tofiq oğlu,
12. Sultanov Baloğlan Səfəralı oğlu,
13. Sultanov Asif Baloğlan oğlu.

TƏZƏ MƏHƏLLƏ

(Məktəbdən yuxarı Dəli çay boyu)

ev sahibləri:

1. Məmmədov Şakir Cahangir oğlu,
2. Məmmədov İdris Sərdar oğlu,
3. Hüseynov Vaqif Əliş oğlu,
4. İsmayılov Əli Əsgər oğlu,
5. Orucov Eldar Əmir oğlu,
6. Şirinov Gəncalı Həsən oğlu,
7. İmanov Vidadi Səttar oğlu,
8. İsmayılov Məhərrəm Əsgər oğlu,
9. Ağayev Vidadi Bayramalı oğlu,

10. Sultanov Müzəffər Temir oğlu,
11. Sultanov Səfər Baloğlan oğlu,
12. Sultanov Nobil Muxtar oğlu,
13. Ələkbərov Səfa Ədil oğlu,
14. Həsənov Teyyub Mikayıl oğlu,
15. Sultanov Ənvər Oruc oğlu,
16. Şirinov Bəhlul Ağalar oğlu.

DÖRDÇİNAR KƏNDİ

ev sahibləri:

1. Mahmudov İsmayıl Şirxan oğlu,
2. Mahmudov Şirxan Savalan oğlu,
3. Xələfov Kamran Əliabbas oğlu,
4. Xələfov Sabir Adışirin oğlu,
5. Xələfova Əfruz Qəmbər qızı,
6. Xələfov Qabil Allahverdi oğlu,
7. Xələfov Məhəmməd Adışirin oğlu,
8. Xələfov Kamal Əkbər oğlu,
9. Əliyeva Abuhəyat Səlim qızı,
10. Əliyeva Gülsüm Səlim qızı,
11. Xələfov Əliabbas Hadı oğlu,
12. Xələfov Fazil Əziz oğlu,
13. Xələfov Cahangir Məmi oğlu,
14. Xələfov Füzuli Cahangir oğlu,
15. Cəfərov Qulu Səttar oğlu,
16. Rüstəmova Səriyyə Miri qızı,
17. Rüstəmov Bəylər Məmi oğlu,
18. Vəliyev Soltan Fətalı oğlu,
19. Vəliyev İbrahim Fətalı oğlu,
20. Mahmudov Şirvan Savalan oğlu,
21. Yusifov Akif Rəvan oğlu,
22. Məmmədov Kərəm Yusif oğlu,
23. Əliyev Çərkəz Mahmud oğlu,
24. Qasımov Cavanşir Fətullah oğlu,
25. Qasımov Hüseyn Cavanşir oğlu,
26. Qasımov Cəfər Cavanşir oğlu,

27. Mahmudov Üzeyir Şirvan oğlu,
28. Kərimov Fərman Surxay oğlu.
29. Yusifov Lətif Rəvan oğlu,

HÜNGÜTLÜ KƏNDİ
ev sahibləri:

1. Kərimov Fehruz Ağa oğlu,
2. Rzayev Qardaşxan Zeynal oğlu,
3. Kərimov İbrahim Fehruz oğlu,
4. Kərimova Güllər Əli qızı,
5. Kərimov Səxavət Əsgər oğlu,
6. Kərimov Ağalar Əli oğlu,
7. Kərimov İmran Əşrəf oğlu,
8. Kərimov Temir Ağa oğlu,
9. Kərimov Əşrəf Nəriman oğlu,
10. Kərimov Qəhrəman Əşrəf oğlu,
11. Kərimov Eldar Qardaşxan oğlu,
12. Rzayev Həsən İsmayıl oğlu,
13. Heydərov Heydər Muxtar oğlu,
14. Heydərov Rafiq Heydər oğlu,
15. Məmişov İlyas Qəmbər oğlu,
16. Məmişov Zahid Qəmbər oğlu,
17. Vəliyev Mikayıl İsmayıl oğlu,
18. Vəliyev Qürbət İsmayıl oğlu,
19. Heydərov Sarvan Əbil oğlu,
20. Heydərov Tehran Əbil oğlu,
21. Məmişov Akif Qəmbər oğlu,
22. Heydərov Dövran Əbil oğlu,
23. Xələfov Mətləb Adışirin oğlu,
24. Kərimov Əsgər Cümşüd oğlu,
25. Heydərov Əbil Muxtar oğlu,
26. Kərimov Məzahir Əsgər oğlu.

***

HORADİZDƏ ÜMUMİ İSTİFADƏDƏ OLAN BİNALAR VƏ TORPAQLAR

1. İmam Piri (İmamzadə) və tikintiləri,
2. İmam bulağı və hovuz tikintisi,
3. Kənd Məscidi (Molla Abdulla məscidi),
4. Güney Məscidi (Hacı Novruz məscidi),
5. Mədəniyyət evi(kolxozun idarə heyəti),
6. Kənd Xəstəxanası və ambulatoriyası,
7. Köhnə məktəb binası,
8. Təzə məktəb binası,
9. Uşaq bağçası (köhnə məktəbin yanında)
10. Keçmiş Sovet idarəsi (Nərimanın evi),
11. Yeni Sovet idarəsi binası,
12. Keçmiş kolxoz idarəsi (Tanriverdinin evi),
13. Keçmiş Dəyirman binası (Aralıq yolda),
14. Su Dəyirmanı (Üzüm sahəsində),
15. Kənd Dəyirmanı (Saqqızlı məhəlləsində),
16. Poçt məntəqəsi (Qarağan təpədə),
17. Radio qovşağı (Fin evdə Qarağan təpədə),
18. Kənd Məişət evi (Qarağan təpədə),
19. Güney Məişət evi (Əziz kişinin bərəsində),
20. Kənd hamamı (Araliq yolda),
21. Mədəni tövlə binaları, ot tayaları, silos quyuları,
22. Avtomobil qarajı, anbarlar (Güney məhəllədə),
23. Traktor qarajı, anbarlar (Fərəcanlı dərəsi),
24. Gölbağda yaşayış evi, toyuq ferması,
25. Burğada yaşayış evi və toyuq ferması,
26. İki mərtəbəli ümumi yaşayış binası(Abışdı bağı),
27. Yeni mədənı tövlələr (kolxoz bağından aşağıda).
28. Traktor qarajı və anbarlar (Dərə ağzında),
29. Güney yataq yeri, tikintilər və ot tayaları,
30. Quzey yataq yeri, tikintilər və ot tayaları,
31. Horadiz üzüm sahəsi 650 hektar,
32. Dördçinar üzüm sahəsi – 65 hektar,

33. Üzüm sahəsində - 6 ədəd saray,
34. Dəmyə taxıl əkin sahələri – 1225 hektar,
35. Horadiz kolxoz bağı – 200 hektar,
36. Dördçinar kolxoz bağı – 100 hektar,
37. Fin evi(Dördçinarda ibtidai məktəb),
38. Tibb məntəqəsi binası (Dördçinarda),
39. Kitabxana binası (Dördçinarda),
40. Klub binası (Dördçinarda),
41. İbtidai məktəb binası (Dördçinarda),
42. Ərikli bağ (Üzüm sahəsində) – 20 hektar,
43. Hibrit tut bağı – 10 hektar,
44. Ağayev Əlinin - maqazini (orta kənd),
45. İbişov Eyvazın - maqazini (Əziz kişinin bərəsi),
46. ŞirinovaGülnarın–maqazini(Fərzalı uşağı)
47. İbişov Əşrəfin - maqazini (Güney Məscid yanı),
48. Nəcəfin - çörək köşkü (Əziz kişinin bərəsi),
49. İmanov Sovetin – çörək köşkü (Namazalılarda),
50. Vəliyev Qürbətin - qəssəbxanası (Əzizin bərəsi),
51. Sultanov Ağaların - yeməkxanası (Abışdı bağı),
52. Məhərrəmov Yaşarın - maqazini (Qozlu çay),
53. İsmayılov Amilin - Kababxanası (Qozlu şay),
54. Hacıyev Sadayın - Çayxanası (Qozlu çay),
55. Məhərrəmov Vaqifin-Təsərrüfat maqazini (Poçt),
56. İsmayılov Aydının - Çayxanası (2-Məişətdə),
57. Quluyev Ağamalının - Çayxanası (Məscidin),
58. İsmayılov Eldarın - Ərzaq maqazini (Rzalılar),
59. İsmayılov Bəhlulun - Çayxanası (1-Məişətdə),
60. Vəliyev Zülfüqarın–"Bulaq" kababxanası ,
61. Nəcəfov Fazilin - Kababxanası (Dərə ağzı),
62. Quluyev Habilin – İzmir restoranı (Taxta körpü),
63. Abdullayev Racinin yeməkxanası(Rzalılarda)

***

ÖVLADLARA NƏSİHƏT

Ey övlad, sənə məndən nəsihət,
Yazılan sözlərə yetir bir diqqət.
Onda bilərsən kimdir atalar,
Sözümdə hikmətli, mənalar var!



Bu dünya bir tarladır, bir ovlaqdır, Insan isə bir əkinçi, bir ovucdur. Onun əkdiyi, onun ovun ovu – onun əməlidir, əməl isə yaxşı yolun, kamil nəsihətin meyvəsidir. Kim istəmir ki, bir gün gen dünya onun üçün elə bir məngənəyə çevrilsin ki, zindan onun yanında bir behişt olsun, dünyadan əli boş, üzü qara, əməldən uzaq getsin, böyüklərə hörmət etsin, sözlərinə qulaq assın,həyatına diqqət versin və oxuduğuna əməl etsin. Məndə atalar dəryasının bir damcısı kimi ürəyimdə olan nəsihəti övlad sənə yadigar verirəm. Mübarək əllərinlə onları götürüb oxuyanda, yazanda, mənimdə ruhumu şad edəcəksən.

1. Nəbadə, əmanətə xəyanət, yaxşılığa yamanlıq, xeyirə şər etmə. Ədaləti unutma, hörməti itirmə, haqqı inkar etmə, yadiyin qaba tüpürmə. Başı dik, yersiz gülən, uzun danışan, çəpiyə oynayan, paxıl və zəhlə tökən olma. İşdə səbirli, sözündə sadıq, gözü tox, pisləri pis yoldan döndərən, dilini xeyirə öyrədən, başqasına ziyan vurmayan, dost qohum yolunda zərərinə razı olan, sirri saxlayan ol. Oğruya rəhm etmə, qatili bağışlama, şoranda toxum əkmə, nadanla yoldaş, həyasızla qonşu olma. Zəifləri incitmə, cana doyub sənəziyan verərlər,

Yalan danışma, amma bil, sülh doöurdan yalan, fitnətörədən doğrudan yaxşıdır. Görmək ,etmək, demək lazım olmayanda üç şeyi bağlı saxla: gözü, əli, dili.

2. Tamah xatirinə özgə malına göz dikib, zalımlığa yol vermə. Bil: qazanc dövlət artırar, tamah töhmət. Bİr şeyi düşmənə qoy get, onu dostdan istəmə. Ehtiyac əsirliyə, həya örtüyə, mərdlik – şöhrətə bərabərdir

3. Savadsız, sənətsiz, səxavətsiz insan gövdəsi olub, kölgəsi olmayan ağaca bənzəyir.

4. Nanəciblə oturub – durma. Deyiblər: hər quş öz tayı ilə uçar. Nanəcib öz yükünü tutmayınca sənin halına qalmayacaq.

5. Hər adama etibar etmə, sınamamış ona inanma,qəm və sevincini o adama de ki, qəminlə kədərlənsin, sevincinlə şadlansın. Çox danışma, bil əvvəl "nə deyim" haqqında fikirləş ki, sonra "niyə dedim" peşmançılığını çəkməyəsən!

Məhərrəmov Əhməd Bəyalı oğlu
Horadiz kəndi: 2 dekabr 1983-cü il.

SON SÖZ

Əziz oxucular dədə-baba yurdu bizlərə müqəddəs əmanətdir! Mənim yazdığım "Horadiz, səni unutmadım" kitabım, hər birimizin yaşadığımız obadan, məhəllədən, evdən, ocaqdan və torpaqdan başlayır. Hər adamın heç nəyi olmaya bilər, lakin taleyin bizlərə bəxş etdiyi ən sevimli kəndimiz olan Horadiz var.

Hər kəsin güvəndiyi, halına yandığı, darıxanda gedəcəyi, daşına, torpağına üz sürtüb bəxtəvərliyini və ya bədbəxtliyini danışa, bölüşə biləcəyi bir ana qucağı, ata yurdu, torpağı olmalıdır.

Rəsmi qeydiyyatda olmayan toponimlər beləcə səssiz-səmirsiz aradan silinir və unudulur. Odur ki, onu son nümunələrinə qədər 5 il ərzində tanınmış, seçilmiş, görkəmli və iş adamlarımızı, yer-yurdlarını, çaylarını, kəhrizlərini, bulaqlarını və onlar haqqındakı məlumatları topladım və indi Horadiz torpağı, həm də adamları ilə birlikdə kitabın yaddaşına daima həkk oldu.

Ana torpaq həsrəti bütün dərdlərdən ağırdır, çətindir. Çünki ana torpaq olmadan insanın xoşbəxt yaşaması mümkün deyil.

Mənə elə gəlir ki, körpə oğlan uşağı doğulanda onun qulaqlarına ilk söz onun "Allah-əkbər" və adı ıtə bərabər deməliyik:-

"Sənin borcun doğma torpağı qorumaqdır"!..

Hər kimin ürəyində namus, qeyrət, millət, vətənpərvərlik hissi varsa, torpaqları qorumalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa, gözümüz qabağında ürək parçalayan işğal altında qalan torpaqlar yolunda vermək hər kəsin müqəddəs borcudur..

Əziz və qədirbilən həmyerlilərim, mənim bu "Horadiz, səni unutmadım" kitabı yazmaqda əsas iki məqsədim olub:

1-ci hər sakinə yurdumuzda olan yer adlarını, daşını, torpağını, suyunu, bağını, İmamzadə və məscidləri haqda məlumatları sizlərə çatdırmaqdır.

2-ci məqsədimdə odur ki, Horadiz kəndimizin üzünü görməyən körpə balalarımıza onun ərazisini, tarlalarını, çölünü, dərə və təpəliklərini, kəndimizin harda yerləşdiyini, camaatımızın məşğuliyyətini, onun məhəllələrini, o məhəllələrdə kimlər yaşadığını, eləcə də

kəndimizin görkəmli və tanınmış şəxsləri haqqında məlumatları verməkdir.

Məlumdur ki, hər kəsə doğulanda ad verildiyi kimi, hər yazılan kitaba da ad verilir. Mən də əvvəlcə "Horadiz kəndinin toponomiyası", sonra isə "Yaddan çıxmaz Horadiz" adlandırdım. Lakin kitab çapa gedən məqamda bacım qızı Kəmalə Mütəllim qızı mənə belə bir təklif irəli sürərək dedi: - Ərşad dayı siz bu yazdığın kitaba "Horadiz, səni unutmadım" ad versəniz daha uyğun, daha yaraşan, həm də daha mənalı olar. Onun xahişi ilə razılaşaraq məmniyyətlə yerinə yetirdim.

Mən belə hesab edirəm ki, yazdığım "Horadiz, səni unutmadım" kitabını oxuduqca sizlər mənim fikrimlə, düşüncəmlə şərik olan hər kəsə öz dərin minnətdarlığımı və xoş arzularımı bildirirəm.

Hörmətli oxucular! Ola bilsin ki, bəzi hallarda mən hardasa düzgün və dəqiq məlumat verə bilməmişəmsə, məni bağışlayın, ona görə ki, uzun illərdir öz doğma kəndimizdən ayrı düşmüşük, təbii ki, bir yeri görmədən yazmaq olduqca çətindir.

Bunları yalnız bizim kəndimizdən az miqdarda qalmış ağbirçək və ağsaqqalların ağzından çıxan bilgiləri toplayıb, eləcə də götür-qoy edərək, ipə-sapa düzərək nəhayət ki, bir toplu şəkildə tərtib edib sizlərin müzakirənizə verirəm.

Bir daha sizin nəzərinə çatdırmaq istəyirəm ki, Horadizin və torpaqlari ilə birlikdə olan xəritəsini almaq üçün neçə-neçə qapılar döymüşəm amma xəritəni əldə edə bilmədim. Füzuli İcra başçısı – Nəbi Muxtarovun, Füzuli Torpaq şöbəsini müdiri - Tapdıq Quluyevin və Azərbaycan Torpaq və Xəritə çəkmə komitəsinin sədri – Füzuli Cəfərovun qəbulunda oldum, lakin mümkün olmadı. Ancaq təsadüfən bu hadisəni qardaşım oğlu İkramala dostuna danışdım və bunu eşidən Kamil Rəhman oğlu İsayev – mən əmi taparam. Kitabın iç üzündəki xəritəni o, əldə etmiş və ona görə də çox sağ ol deyərək, dərin minnətdarlığımı Kamilə bildirirəm.

Horadiz kəndi haqqında yazarkən, bizim çoxlu-çoxlu həmyerlilərimizlə görüşüb məlumatlar toplamışam və mənə yardımçı olanları sizin nəzərinə çatdırıram. Horadiz kəndinin ən yaşlı sakinlərindən tutmuş yeni nəslin numayəndələrinə kimi:

- Gülüstan nənə Əmrah qızı Cəfərovaya,
- Kalbalı Mirzalı oğlu Əliyevə,
- Tamara Cümşüd qızı Kərimovaya,
- Məmməd Hüseyn oğlu Hüseynova,
- Bəhrəm Səfqulu oğlu Hacıyevə,
- Eyvaz Xanlar oğlu İbişova,
- Heydar Eyvaz oğlu İmanova,
- Xanlar Calal oğlu Əhmədova,
- Hacı İlham Həsən oğlu Məmmədova,
- Muxtar Əvəz oğlu Mehdiyevə,
- Cəmil Bayramalı oğlu Əhmədova,
- Həbib Əyyub oğlu Kazımova,
- Mətanət Hüseyn qızı Talıbovaya(Məhərrəmova),
- Məhəmməd Əhməd oğlu Məhərrəmova,
- Vəli Əliş oğlu Mehdiyevə,
- Əkrəm Cəlil oğlu Mehdiyevə,
- Teyyub Əyyub oğlu Həsənova,
- Əli Eyvaz oğlu Mahmudova,
- Hüseyn Cavanşir oğlu Qasımova,
- Sarvan Əbil oğlu Heydarova,
- Elman Qulu oğlu İsmayılova

və başqalarına öz dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Əzizlərim siz mənə istiqamət, həvəs, qol-qanad verdiniz, bir də bilin ki, sizsiz mən bu kitabı yazıb ərsəyə çatdıra bilməzdim.

Allah sizlərə yar olsun!

İnşallah öz doğma və əziz torpağımız -

Horadizə sizinlə bir yerdə görüşmək ümüdi ilə!

Amin!!!

*** ***Müəllifdən.***

Kitabın işıq görməsinə maddi və mənəvi köməklik göstərmiş Horadiz kəndinin vətənpərvər oğulları: -

1. Məhəmməd Əhməd oğlu Məhərrəmova,
2. Tofiq Vəli oğlu Namazalıyevə,
3. Vəli Cəfər oğlu Cəfərova,
4. Səfər Əyyub oğlu Yadigarova,
5. Müzəffər Əjdər oğlu Mustafayeva,
6. Vaqif İslam oğlu Həsənova

öz şəxsi təşəbbüslərinə görə onların hər birinə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Allah onlara yar olsun!... Müəllif.



T.Namazalıyev



M.Məhərrəmov



V.Cəfərov



M.Mustafayev



S.Yadigarov



V.Həsənov

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR

1.N. Tapdıqoğlu: -*"Füzuli rayonu və onun toponomiyası"; Bakı – 2006;*

2. **V. Mehdiyev: -** *"Yaddaş", Bakı – 2006;*

3. **V. Mehdiyev: -** *"Gün gələcək", Bakı – 2008;*

4. **Ə. Vəliyev: -** *"Budağın xatirələri", Bakı – 1970;*

5. **F. Şuşinski: -** *"Seyid Şuşinski", Bakı – 1991;*

6. **Ə. Namazalı: -** *"Namazalılar", Bakı – 2005;*

7. **Ə. Namazalı: -** *"Torpaq həsrəti", Bakı – 2007;*

8. **K. Vəliyev: -** *"Elin yaddaşı, dilin yaddaşı", Bakı – 1989;*

9. E. Baxış: - *"Ölüsü ilə ərəbcə, dirisi ilə-rusca", Bakı -1993;*

10. **S. Allahverdiyev, Ə. Haqverdiyev,M. Behbudov:-** *"Azərbaycan tarixi", Bakı – 2007;*

11. **Azərbaycan Sovet Ensiklopediyası,** *10ciliddə, Bakı-1980.*

12. **Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına dilçilik İnstitutu,** - *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, Bakı – 2007;*

13. L.Q. Kərimov – *"Azərbaycan xalçaları", Bakı - Gənclik - 1983 il. – III – hissə;*

14. A.S.Məhəmmədtəqi - *"İmam Rizanın həyatı", Tehran-2001.*

Nəşriyyat direktoru: *Mustafa Şəfiyev*
Korrektor : *Məhəmməd Məhərrəmov*
Kompüterdə dizayner: *Sevinc Namazova*
Kompüter tərtibatçı: *Rəna Qələndərova*
Foto şəkilləri: *Teyyub Həsənovundur*

"Müəllim" nəşriyyatında çap edilmişdir.

Çapa imzalanmış 01.08.2013. Sifariş 144.
Kağız formatı 60X90. 1/16.27,25 ç. v
Sayı 500.